**ADİL BABAYEV**

**ƏSƏRLƏRİ**

ON YEDDİ CİLDDƏ

XV CİLD

# MÖHTƏŞƏM 18 İL

**BAKI – 2023**

Redaktor: akad. NİZAMİ CƏFƏROV

**BABAYEV Adil Məhəmməd oğlu**.**Əsərləri.17 cilddə.**
**XV cild.** “MSV NƏŞR” nəşriyyatı, 2023

Bu cilddə müəllifin Naxçıvan Muxtar Respublikasının 1995–2013-cü illərdəki ümumi inkişafından və yeri gəldikcə 1991–1993-cü illər arasında Heydər Əliyevin Naxçıvana rəhbərlik dövründən bəhs edən “Möhtəşəm 18 il” adlı kitabı yer almışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

*Adil Babayev, 2023*
*“MSV NƏŞR” nəşriyyatı, 2023*

**ADİL BABAYEV**

# MÖHTƏŞƏM 18 İL

**BAKI – 2020**

**Redaktoru:** Tağı Əhmədov

**Rəyçi:** Firudin Rzayev

**Adil Məhəmməd oğlu Babayev “Möhtəşəm 18 il”**
**Bakı, “Şirvannəşr”, 2020, 372 s.**

Kitab 5 min il yaşı olan, ilk insan məskənlərindən biri, çoxlu qədim tarixi abidələrlə məşhur Naxçıvan diyarının tarixi, sovet dönəmindəki vəziyyəti, müstəqilliyimizin ilk carçısı olmasından bəhs edir. 1995-ci ildən sonra quruculuq işlərinin bütün sahələrində geniş vüsət almasının 18 ilindən, yəni 2014-cü ilə qədərki inkişafından bəhs edir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$A\frac{83.3Az(2)}{054}$ ©A. Babayev, 2020

# ÖN SÖZ ƏVƏZİ
*(Xoşbəxtlik haqqında düşüncələr)*

Çoxdan məni düşündürən bir mövzu haqqında yazmaq istərkən xoşbəxtlik kimi mücərrəd bir anlayış haqqında danışmağa məni nə məcbur etdi?

Mövzu mənim üçün nə qədər müqəddəs, mürəkkəb və çətindirsə, bu suala cavab vermək də bir o qədər çətindir! Amma onu bilirəm ki, möhtərəm oxucu kitabı oxuyanda bu suala cavab tapacaq. (yəni niyə məhz xoşbəxtlik məfhumunun açılışından başladım!)

İnsan təfəkküründəki anlayışlar sistemində mücərrəd xoşbəxtlik məfhumunun da çoxlu açıqlaması vardır. Yəni bu elə bir anlayışdır ki, hər kəs öz elmi səviyyəsi, həyat mövqeyi və s. prizmalardan yanaşaraq xoşbəxtlik sözünü mənalandırır və məhz özünün haqlı olduğunu düşünür! Rəsmi izahlı lüğətdə bu söz (farsca *xoş* + *bəxt*) yəni bəxti yaxşı olan, “bəxtli, taleli, rifah içində yaşayan” kimi mənalandırılır. Bəziləri belə hesab edir ki, istədiyin adamla ailə qurmaq xoşbəxtlikdir; bəziləri var-dövlət içində yaşamağı xoşbəxtlik hesab edir. Bəziləri öz adını xalqının tarixinə yazmağı xoşbəxtlik hesab edir. Bu izahatların hər birində həqiqət vardır. Amma mən moskvalı bir filosofdan eşitdiyim şərhə daha çox inanıram.

O deyirdi: *“İnsan o vaxt xoşbəxt olur ki, öz potensialını reallaşdıra bilsin! Bu, həqiqətən belədir. Bir qədər bu sözləri incələyək”.*

Bəzən elə olur ki, insanda potensial olmur, amma onu reallaşdırmaq üçün şərait olur. Şərait insana daxili potensial vermir. Belə adam nə özünü xoşbəxt edir nə də xalqını. Məsələn, 1988–1993-cü illərdə Azərbaycana rəhbərlik edən adamların fəaliyyət şəraiti çox geniş idi. Amma daxili potensial olmadığı üçün nə özləri xoşbəxt oldu, nə də xalqlarını xoşbəxt edə bildilər. Bu illərdə ümummilli liderimizin daxili potensialı təlatümə gəlsə də, həmin potensialı reallaşdırmağa şərait yox idi. Əgər belə bir güclü potensialın reallaşması üçün şərait yaranmasaydı, nə baş verərdi? Dəhşət!

Plexanov demişkən, *“istedad özünü təsdiq etmək üçün şərait tapmasa, payız çiçəyi kimi qışın qarına tuş gələr və bəhrə vermədən ağacdan düşər!”*

1993-cü ildə Ümummilli liderimizin Azərbaycanda hakimiyyətə gəlməsi potensialını o dərəcədə reallaşdırdı ki, dünya xalqları – onların ağıllı nümayəndələri təsdiq etdi ki, H.Əliyev müasir dünyanın birinci siyasətçisidir!!!

Belə də oldu; o, həm özünün Sovet dönəmində (çərçivəyə alındığı üçün) reallaşdıra bilmədiyi daxili potensialını reallaşdırıb xoşbəxt oldu, həm də öz xalqını, onun dövlətçiliyini məhv olmaqdan qurtarıb xoşbəxt etdi. Mən mübaliğə etmədən və H.Əliyevə şərik qoşmadan deyə bilərəm ki, eyni sözləri

Azərbaycan miqyasında cənab İ.Əliyev və Naxçıvan miqyasında cənab Vasif Talıbov haqqında da söyləmək olar. Cənab İlham Əliyev haqqında Azərbaycan prezidenti kimi çox deyilib, çox da yazılmışdır (bir neçə kitabın redaktoru və rəyçisi mən olmuşam). Amma xoşbəxt rəhbər dediyim cənab Vasif Talıbov haqqında da mütləq yazılmalıdır!!!

Qətiyyətlə demək olar ki, sovet dönəmində 1991–1993-cü illər istisna olunarsa doğma yurdumuzun Naxçıvanın rəhbərliyinə V.Talıbov kimi xoşbəxt rəhbər gəlməmişdi. Məgər əvvəlki rəhbərlərin Naxçıvanda sözü keçərli deyildi? (Yəni onlar üçün fəaliyyət meydanı yaranmamışdı?) Bəs nə üçün Naxçıvan ucqar bir əyalət olaraq qalmaqda idi?

Çünki Partiya funksionerləri olan əvvəlki rəhbərlərin potensialı yox idi. Mən bu sözləri qətiyyətlə deyirəm!! Əgər keçmiş obkom katibləri Naxçıvanı abadlaşdırsaydılar, ölkədə nümunəvi qayda-qanun qoysaydılar, vəzifələrdəki ierarxiya real olsaydı, rüşvətxorluq aradan qaldırılsaydı yuxarıdan onları cəzalandırardılar? Əsla yox!

Bəs illət nədə idi? Yurdsevərlik, rəhbərlik istedadı, daxili zənginlik, cəsarət, zəhmətkeşlik və s. kimi keyfiyyətlərin bir adamda birləşməməsi!!!

Mən bir naxçıvanlı kimi inanıram ki, cənab Vasif Talıbov yox, başqa birisi Naxçıvanın rəhbərliyinə gəlsə, doğma yurdu dünyanın həsəd apara biləcəyi bugünkü səviyyəyə qaldıra bilməzdi. İndi isə

qətiyyətlə demək olar ki, cənab Vasif Talıbov həm özü xoşbəxtdir, həm də doğma yurdu!!!

Bunu Azərbaycan prezidenti möhtərəm İlham Əliyev cənabları da Naxçıvana son səfərində təsdiq edərək dedi: *"Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır!"*

Bax belə bir yurdsevər insan haqqında yazmamaq (daha doğrusu, həqiqəti qələmə almamaq olmaz). Doğrudan da, Naxçıvana gedəndə yeni bir aləmə düşmüş kimi özünü hiss edirsən; Bir Avropalı bu şəhərə, bu diyara gəlsə düşünər:

-*Yəni bu beş min il yaşı olan şəhərdir? – Axı bütün binalar təzədir!*

-*Yəni bu Şərq şəhəridir? Bəli Avropanın ən mədəni şəhəri ilə rəqabətə girə bilən Şərq şəhəri!!*

-*Yəni bu bizim düşüncəmizə görə intizamsız, səliqəsiz kimi təsəvvür etdiyimiz Şərq şəhəridir? Bəli, cənab Avropalı! Hansı şəhərini – Parisi, Londonu, Berlini gətir müqayisə edək – inanıram ki, mən qalib gələcəyəm!*

Kaş həmin Avropalını gətirib Naxçıvanda onunla mübahisə edə idim.

Onda ona:

-*Beş min ildən artıq yaşı olan, ən qədim insan məskəni Naxçıvanın qədim tarixindən ötəri şəkildə.*

-*"Naxçıvan diyarı kommunist bolşevik bayrağı altında" mövzusundan qısaca.*

-*Naxçıvanın 5 müstəqil ili haqqında bir qədər.*

-*“Naxçıvanın möhtəşəm 18 ili” mövzusunda ürək dolusu, müfəssəl şəkildə danışardım.*

Möhtərəm oxucu, avropalı əvəzinə bu möhtəşəm 18 il haqqında sənə danışmaq istəyirəm. Əvvəlcədən deyim ki, haqqında danışacağım möhtəşəm 18 ilin baş memarı, habelə icraçısını daha yaxşı tanıtmaq üçün kitab boyu onun özünə söz verəcəyəm.

Arzuma çatmaq üçün Allah qüvvət versin!!!

Yuxarıda dediyim kimi:

-*İlk insan məskəni 5000 illik Naxçıvan,*

-*Sovet dönəmində Naxçıvan.*

- *Xalqın düşmənləri “xalq düşmənləri”ni məhv edir*

- *Naxçıvan 1969-1993-cü illərdə*

- Heydər Əliyev Naxçıvanda və müstəqilliyin ilk 5 ilində Naxçıvan adlı hissələr giriş xarakteri daşıyır. Çünki mən Naxçıvanın qədim tarixi haqqında araşdırma aparmağı qarşıma məqsəd qoymamışam (əvvələn buna lüzum yoxdur – bu haqda çox deyilmiş və yazılmışdır. Bundan əlavə, mən bu sahənin konkret mütəxəsisi deyiləm).

“Sovetləşmə ərəfəsində və sovet dönəmində Naxçıvan” haqqında mütləq danışmağı ona görə zəruri hesab edirik ki, bu dövr bizim xalqımıza qarşı çevrilmiş anti-Azərbaycan siyasətinin mahiyyəti haqqında qısaca məlumat verək.

Məqsədimiz isə möhtəşəm 18 il müddətində Naxçıvanın ekstensiv və intensiv inkişafı, mənəvi-mədəni yüksəlişi haqqında və bu yüksəlişi praktik şəkildə təmin edən yurdsevər insan haqqında, onun

titanik fəaliyyəti haqqında müfəssəl məlumat verək. Yaxşı deyiblər Kim hardan (hansı istiqamətdə) gəlirsə, o istiqamətdə də gedəcək. Yəni möhtəşəm illəri təkamül tarixindən təcrid etmək olmaz. Bu, bir də ona görə lazımdır ki, oxucuya əyani şəkildə çatdıraq: 5000 ilin hər 100 ilindəki yüksəliş ilə cəmi 18 ildəki yüksəlişi müqayisə et. Əvvəlki illəri deyə bilmərəm, amma son 18 illik möhtəşəm yüksəliş illərini Talıbov dövrü kimi gələcək tarixə yazmaq olar.

# I HİSSƏ

## İLK İNSAN MƏSKƏNİ NAXÇIVAN BÜTÖV AZƏRBAYCANIN TƏRKİB HİSSƏSİDİR

Naxçıvan torpağının, bütövlükdə Azərbaycanın XX əsrdə dünya sivilizasiyasına bəxş etdiyi ən böyük şəxsiyyət olan ümummilli liderimiz Heydər Əliyev bütün xalqına vətəni, milləti, dili sevməyi öyrətdiyi və bu yolda həmişə nümunə göstərdiyi kimi, tariximizi, ulu keçmişimizi öyrənməyi də tövsiyə etmiş və belə bir mesaj vermişdi: *“Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir, 5000 il tarixi olan Azərbaycan torpağıdır”.*

Sovet və İran tarixşünaslığında və qərəzli erməni mənbələrində Azərbaycanın qədim tarixi kimi, Naxçıvanın da qədim tarixinin təhrif edildiyi bir zamanda ulu öndər tarixçilərə sanki tapşırıq verirdi: “Öyrənin, Naxçıvanın 5000 il yaşı vardır”. Bu mesajı əldə rəhbər tutan Naxçıvan rəhbəri çoxlu çalışmalardan sonra:

-Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqındakı Sərəncam verərək;

-Nuh peyğəmbər: “Dünya tufanı və Naxçıvan” mövzusunıda Beynəlxalq simpozium keçirilməsini təşkil edərək,

-Gəmiqaya abidələrinin tədqiq edilməsi haqqında sərəncam verərək,

-Naxçıvan tarix-memarlıq muzeyi yaradılmasına Sərəncam verərək və bir çox elmi-sosial-siyasi fəaliyyətilə və 2009-cu ildə Naxçıvan şəhərində keçirilən "Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan" ünvanlı beynəlxalq simpoziumda geniş məruzə edərək öz üzərinə böyük bir missiyanı götürdü. Bu, iki cəhətdən əhəmiyyətli idi:

1) Ulu öndərin mesajını qəbul edib onu daha da irəlilətmək,

2) Naxçıvanın yaşının 3500 deyil, 5000 il olduğunu dünyanın bir çox aparıcı mütəxəssislərinə təsdiq etdirmək, özü də Naxçıvanda!

Bu probleme qısa bir ekskurs.

Türk xalqlarının 3 yerdə iki çay arasında yaşayaraq ulu mədəniyyət yaratdıqları indi artıq məlum həqiqətdir.

1. Orxon Yenisey çayları arasında yaranmış "Göy türk imperatorluğu" (m.o. I əsr) orada yaranmış "Ergenekon dastanı", "Köç dastanı", sonralar "Bilgə Kağan dastanı" və s. əsərlər heç kəsdə şübhə doğurmamış və türk xalqlarına aid edilmişdir (9, 42; 38, 61; 34, 2; 4, 139; 51, 100-101).

2. Dəclə və Fərat çayları arasında Mesopotimiya adlanan (ərəbcə maverənnəhr) Sumer-Akkad mədəniyyəti haqqında müxtəlif mübahisələr. Nəhayət türk xalqlarının xeyrinə həll olundu (58, 59, 67, 48, 45, 49, 50) və s.

Deməli Şumerlər türklərin ulu babasıdır və Uyğur türkləri də Şumerdən törəmədir. Azərbaycan şumerlə bağlıdır.

3. Üçüncü iki çay arası mədəniyyət isə Kür və Araz çayları arasında m.ö. 3-cü minillikdə yaranmış mədəniyyət (erkən tunc dövrünə aid). Bilavasitə bizim ulu babalarımızın yaratdığı mədəniyyətdir ki, bu öz geniş tədqiqatını tələb edir (yəqin ki, möhtərəm Vasif müəllim bu haqda da öncüllərdən biri olacaq) (45).

Bu problemə toxunmağımızın bir neçə səbəbi var:

*a) Azərbaycan və ümumtürk xalqlarının tarixi bilərəkdən saxtalaşdırıldı,*

*b) Orxon Yenisey abidələri 1936-cı ildən 1965-ci ilə qədər qadağan olunmuş siyahıda idi,*

*c) Sovet tarixşünaslığında hər vasitə ilə türk xalqlarının tarixinin qədim olmasını söyləmək təqib edilir (Pantürkist damğası ilə),*

*ç) İranda fars şovinizmi Azərbaycan xalqının türk yox, farsdilli qövm olub XI-XII əsrlərdə türkləşdiyini söyləyirdi (Bu ideya bu gün də davam etməkdədir).*

Bəzi hallarda siyasi yanaşma mövqeləri üst-üstə düşdüyü üçün Sovet və İran tarixşünasları eyni konsepsiyadan çıxış edirdilər. Bu problemin Azərbaycan xalqının maraqlarının əksinə olaraq saxtalaşdırılmasına bir də o faktor yardım edirdi ki, uzun müddət Azərbaycan sovet tarixşünaslığının başında qeyri-türklər dayanırdı. Belə bir ideya təsdiqlənirdi ki, İran Azərbaycanı ərazisində m.ö. IV əsrdən başlayaraq bizim eranın XI-XII əsrlərinə qədər İrandilli Atropaten xalqı və Atropaten dili mövcud olmuşdur. Bu dil ərəb mənbələrində "Azəri" adlanmışdı. Bu vaxta qədər orada mənsubiyyəti məlum olmayan (? A.B.), müəyyənləşdirilə bilməyən əhali yaşamışdır. Ehtimal ki, bu əhali Hurridilli və ya Elam dilli olmuşdur. Şimali Azərbaycan ərazisində isə əsasən, Qafqazdilli xalqlar yaşamışdır. Habelə erkən orta əsrlərdəki albanlar da Qafqazdilli olmuşdur. Ərəb mənbələrində bu dil "Arrandili" adlanır. Nəhayət XI-XII əsrlərdə səlcuqların Ön Asiyanı və Zaqafqaziyanı işğal etməsindən sonra Atropatendə və Albaniyada – Cənubda İrandilli əhali, Şimalda Albaniya Qafqazdilli əhali assimiliyasiyaya uğrayaraq həm şimalda, həm də Cənubda türkdilli olmuşlar. Atropatenlilərin İrandilli olmasını İ.M.Dyakonov, İ.Q.Əliyev, E.A.Qrantovski, S.Ə.Kəsvəri, T.Arani, D.Rzazadə və başqaları,

Albaniyanın isə Qafqazdilli olmasını A.Q.Şanidze, İ.M.Dyakonov, K.V.Trever, E.İ.Krupnov, İ.Q.Əliyev, Q.A.Melikişvili və s. iddia edirdilər.

Azərbaycan xalqının Cənubda irandillilikdən Şimalda Qafqazdillilikdən cəmi 100-200 il əvrzində (XI-XII əsrlər) dərhal türkdilli olduğunu iddia edən adamlardan soruşmaq lazımdır ki, məgər dil əyin paltarıdır ki, dərhal soyunub başqasını geyəsən? Heç olmazsa, dil faktorunu nəzərə alın! Bu problem ətrafında mübahisəyə qoşulmaq, çoxsaylı mənbələrə münasibət bildirmək üçün lüzum görmürük. Bircə məsələni göstərmək lazımdır ki, nə Atropaten, nə Alban əhalisi eynidilli (İran və Qafqaz) olmamışdır. Aşağıdakı mənzərə Atropaten və Albaniyanın kimlərdən ibarət olduğunu əyani şəkildə sübut edir.

## 1. Albaniyanın etnik tərkibi

| **A. Türkdilli tayfalar** | **B. Qafqazdilli tayfalar** |
|---|---|
| Albanlar | Udinlər |
| Qarqarlar Saklar | Libinlər |
| Kəngərlər | Silvlər |
| Peceneklər | Ciqbilər |
| Collar (Çullar) | Qatlar |
| Kataklar | Erlər |
| Kergillər | Ləklər |
| Komanlar | **Cəmi:** 7 tayfa |
| İjmaxlar | **C. İrandilli tayfalar** |

| | |
|---|---|
| Sarvanlar | Gellər |
| Aranlar | Maskutlar |
| Tərtərlər | Parnilər |
| Savdilər | Parsinlər |
| Hunlar | Mehranlar |
| Macarlar | **Cəmi:** 5 tayfa |
| Xurslar | **Ç. Etnik mənsubiyyəti məlum olmayan tayfalar** |
| Bolqarlar | Kaspilər |
| Dondarlar | Quqarlar |
| Qərbi türk Kaqantları | **Cəmi:** 2 tayfa |
| Xəzərlər | **D. Ermənilər** |
| **Cəmi:** 22 tayfa | **Cəmi:** 1 tayfa |

Deməli Albaniyada yaşayan 36 tayfadan 22-si türkdilli, 7-si Qafqazdilli, 5-i irandilli, 2-si naməlum, 1-i ermənidilli olduğu halda, hansı fərziyyəyə və ya mənəvi məcburiyyətə görə Albaniyanı Qafqazdilli hesab edirdilər.

## 2. Atropatenanın etnik tərkibi

| A. Türkdilli tayfalar | B. Qafqazdilli tayfalar |
|---|---|
| Albanlar | Mateinlər |
| Qarqarlar | Utilər |
| Aranlar | **Cəmi:** 2 tayfa |
| Siraklar | **C. İrandilli tayfalar** |

| | |
|---|---|
| Qaspilər | Kaduslar |
| Hunlar | Gellər |
| Sadaklar | Anariaklar |
| Karxılar | Mərdilər |
| Dondarlar | Hirkanlar |
| Xurslar | Kürdlər |
| Kəngərlər | Enianlar |
| Collar | **Cəmi:** 7 tayfa |
| Pecənəklər | |
| Bolqarlar | |
| Xəzərlər | |
| Qazaxlar | |
| **Cəmi:** 16 tayfa | |

Deməli, Atropaten cəmi 25 tayfadan ibarətdir. Onlardan 16-sı türkdilli, 7-si irandilli, 2-si Qafqazdilli idi (42).

İndi bu iki regionun – Albaniya ilə Atropotenanın etnik tərkibini müqayisə edək.

Albaniyada 36 tayfadan 22-si

Atropotenada 25 tayfadan 16-sı türkdillidir.

Atropatenada yaşayan 16 türkdilli tayfadan 11-i Albaniyada yaşayır.

İrandilli Gellər həm Atropatenada, həm də Albaniyada yaşayır.

Bəs hansı ehtimala görə Azərbaycan xalqının XI-XII əsrlərdə türkləşdiyini söyləmək olar?

Dediklərimizi bu problemin araşdırılmasına 30 il sərf etmiş tarix elmləri doktoru Q.Qeybullayev dil

faktlarına və toponimik adların mənşə mənsubiyyətinə əsaslanaraq qətiyyətlə dediyi sözlərlə yekunlaşdırmaq istəyirik: *"Mən tam məsuliyyəti ilə deyirəm ki, minillik dövlət quruluşuna malik türk albanları – Azərbaycan xalqının birbaşa əcdadlarından biri olan bu etnosu yadelli saymaq və deməli, Albaniyanın eranın birinci minlilliyinə aid Qəbələ, Beyləqan, Şamaxı, Naxçıvan, Bərdə, Gəncə, Bakı, Şəmkir, Qazax, Şabran, Xunan, Tovuz və b. şəhərlərində əhalinin mənşəcə Dağıstandilli, yaxud Şimal-Şərqi Qafqazdilli (yəni çeçen-ingquşdilli) hesab etmək Azərbaycan xalqının tarixi mənliyini təhqir etməkdir və xalqımızın tarixinə, mədəni irsinə qarşı ən böyük xəyanətdir! Bu xəyanətin miqyasını çoxları hələ dərk etmir, bilmirlər ki, bu xəyanət indi çox baha başa gəlmişdir – Qarabağ itirilmiş və onun uğrunda minlərlə cavanın al qanı axmışdır"* (19, 58).

Göründüyü kimi, Azərbaycan xalqının etnik mənşəyini, tarixini bilərəkdən təhrif edənlər, hansı səviyyədə, hansı ölkədə olmasından asılı olmayaraq elmi cəhətdən tərksilah olunurlar. Ulu öndərin arzusu da bu idi. Azərbaycan xalqının üzvi tərkib hissəsi olan Naxçıvan əhalisi, doğma vətənimizin ayrılmaz parçası Naxçıvan, onun tarixinin öyrənilməsi sahəsində nəhəng addımlar atılmışdır. Bu işin ideya rəhbəri ulu öndərimiz Heydər Əliyev Naxçıvanda AMEA bölməsinin yaradılması münasibətilə keçirilən məclisdə demişdi: *"Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması*

*haqqında Sərəncam imzalamışam... Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var".*

Bu sözləri özünün doğma işi, fəaliyyət proqramı kimi qəbul edən Muxtar Respublika rəhbəri qısa bir müddətdə Naxçıvan tarixinə aid bir sıra tədbirlər həyata keçirdi. Ilk öncə Nuh Peyğəmbərin qəbrüstü abidəsinin düzənlənməsinə nail oldu. Naxçıvanın və bütün Azərbaycan tarixşünasları qarşısında Nuh peyğəmbər və Naxçıvan problemləri üzərində elmi araşdırmalar aparmağı tapşırdı. Bu haqda irəlidə bəhs edəcəyik.

Hətta Azərbaycan müstəqillik qazandırqdan sonra nəşr olunan bir sıra tədqiqat materiallarında da "Naxçıvan" sözünün mənşəyi barədə ziddiyyətli fikirlər irəli sürülmüşdür (27, 406). Məlumdur ki, bir xalqın tarixi onun dilində və toponimlərində əks olunur. Bu əsasda da tariximizi yaratmaq olardı.

Sovet dövründə kommunist bolşevik ideologiyası türk-müsəlman xalqlarının qədimliyi haqqında danışmağı belə qadağan etmişdi. Təsadüfi deyil ki,

1951-ci ildən "Kitabi-Dədə Qorqud"un tədqiqi, tədrisi qadağan olunmuş, Orxon-Yenisey abidələri 1936-cı ildən 1965-ci ilə qədər yasaq edilmiş, qədim mənbələrimizin və erkən tariximizin araşdırılmasına yol verilmirdi. Xalqı öz tarixindən, mədəniyyətindən, dilindən məhrum etməklə kommunist ideologiyasının quluna çevirirdilər. İmperiyanın siyasəti belə idi!!

Məlumdur ki, Naxçıvan toponiminin mənşəyi haqqında müxtəlif mənbələr müxtəlif cür izahatlar vermişlər. Belə ki,

1. Yeni e.ə. I əsrdə yaşamış İosif Flavi və Yunan coğrafiyaşünası Klavdi Ptolomey Naxçıvanı Naksuana şəklində təqdim etmişlər. Orta əsr ərəb fars mənbələrində (Biləzuri "Kitab futuhi-l-buldan", "Ölkələrin fəthi". Əl istəxri (X əsr), "Kitab əl məsalik-əl-məmalik", "məmləkətlərin yolları kitabı", İbn Hovgəl (X əsr), "Kitab əl-məsalik va-l-məmalik", "Yollar və məmləkətlər kitabı", Əl Müqəddəsi (946–1000) "Əhsən ət-təqasim fi-mərifət əl-əqalim", "İqlimlərin öyrənilməsi üçün ən yaxşı bölgü"; Əl-idrisi (1100–1165) "Nuzhət əl muştaq fi-htarik əl-əfaq" "Ölkələri yozulmuşun əyləncəsi", Yagut Həməvi (1179–1229) "Mücəm əl buldən" "Ölkələrin lüğəti" əsərində və başqa mənbələrdə Naxçıvan toponimi Nəşavə kimi təqdim edilir.

2. Əbdurrəşid əl Bakuvi (XIV-XV əsrlər) "Kitab təlxis əl-əsər və əcaib əl-məlik əl-kahhar" – "əsərlər"

haqqında kitabın xülasəsi və “Qadir hökmdarın möcüzələri” əsərində Nakçuvan kimi vermişdir.

3. Əl-Qəlqəşəndi (1355–1418) “Sübh əl-əşafi sinaət əl inşə” əsərində Nəşuva kimi işlətmiş (15, 214–215; 17, 62).

4. Məhəmməd İbn Hindusah ibn Səncər ibn Abdullah əl-Girani ən-Naxçıvanı (təqr. 1293 - Naxçıvan - 1376) özünün məşhur “Dəstur əl katib fi təyin əl-məratib” adlı iki cildlik əsərində yazır:

*Cün beyad Arəm diyare yar əhvale-vətən,*
*Dideye xun əfşan şəvəd bər zəb ətlal o damən*
*Nəxsevan nəqşe-cahan bud və əz hökm-qəza*
*Sode an nəqşe-cəhan mənzele morğe-zəğan.*

(63, 469)

*Yadıma düşdükcə sevgili vətən,*
*Gözümdən qanlı yaş car olur hərdəm.*
*Naxçıvan nəqşe, Cahan idi qəza hökmündən,*
*O gözəl nəqs-cahan qurda-quşa oldu məkan.*[*]

(7, 59)

Bundan əlavə, (tərcümə bizimdir) Həmdullah Qəzvini, Katib Çələbi, Övliya Çələbi və b. Naxçıvan toponimini Nəqşe-Cahan kimi şərh etmişlər. Bu, əslində şəhərin gözəl olması ilə bağlı olub (Nəqşeye-

[*] Tərcümə bizimdir.

Cəhan) dünyanın bəzəyi deyə vəsf edilmişdir. Bu məsələ ilə bağlı bir sıra alimlər, o cümlədən:

C.Cəfərov ak+üç+ev+on//Akcıban – Aq oğuzların, asların adı ilə;

A.A.Axundov Nahhuntevan (Nahhunte allahının adı) ilə;

K.Allahyarov Nəxcir (ov)+van yer – dağ keçisi olan yer kimi və s. şəkillərdə izah etmişlər.

XIII əsrin görkəmli alimi, Xarəzmşahlar sülaləsinin son hökmdarı Cəlaləddin Mankiburnının katibi Şihabəddin Məhəmməd ən-Nəsəvi "Sirat as-sultan Cəlaləddin Mankburnı (Sultan Cəlaləddin Mankburnının həyat yolu (tərcümeyi-halı) əsərində 16 dəfə Naxçıvan şəhərinin adını indiki şəkildə çəkir 21).

Naxçıvan toponiminin izahı haqqında A.Bağırovun, S.Babayevin və başqalarının çox qiymətli araşdırmaları vardır.

Bir sıra alimlər ya qərəzli mövqedən, ya dayazlıq-diletantlıq mövqeyindən yanaşaraq Naxçıvan və bir sıra başqa toponimik adlarımızı, o cümlədən ümumi tariximizi təhrif edərək onları Azərbaycan-türk dilinə olmasın, hansı dilə (daha çox erməni və başqa) dillərə aid olur-olsun deyə təhriflər və yanlışlıqlarla dolu hökmlər vermişlər. Biz bu problem üzərində geniş dayanmağı məqsədə uyğun hesab etmirik. Doğrudur, bu məsələ haqqında əvvəllər də ötəri şəkildə danışılmışdı. Amma Naxçıvan MR Ali Məclisinin sədri V.Talıbov problemi çox qəti şəkildə qoyur: "Naxçıvan o yerdir ki, burada Nuh peyğəmbərin,

yaxın qohumlarının və tərəfdarlarının məzarları mövcuddur. Araşdırmalar göstərir ki, "ümumdünya tufanı" və Nuhla əlaqədar rəvayətlər daha çox Naxçıvanla bağlı olmuşdur. Qədim yunan alimi Klavdi Ptolomey bizim eranın ikinci əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, on altıncı əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi nəinki Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir. Eradan əvvəl birinci əsrdə yaşamış yəhudi alimi İosif Flavi Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir. Rus tədqiqatçısı Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləmiş, hətta onun dəqiq yerni də göstərmişdir. Azərbaycan rəssamı Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində mühafizə və nümayiş etdirilir.

Qeyd olunanlar bir daha göstərir ki, Nuh peyğəmbər Naxçıvanda yaşamış, burada vəfat etmiş, onun məzarı bütöv bir panteon olmuş, minlərlə insanın ziyarətgahına çevrilmişdir.

Dünya xəritəsinə nəzər salsaq, heç bir yerdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında olduğu qədər Nuh peyğəmbərlə bağlı yer adlarına rast gəlmək mümkün deyil. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda olan və eradan

əvvəl 4-cü minilliyə aid edilən Gəmiqaya təsvirləri, Nəbi yurdu, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhdaban, Nuhgədik və Peyğəmbərayağı, Haça dağ kimi yer adlarının, yaşayış məskənlərinin mövcudluğu Nuh peyğəmbərin bu torpaqda yaşamasının daha bir əyani sübutudur" (11, 407). Bu haqda irəlidə geniş bəhs edəcəyik.

Yunan alimi Klavdi Ptolomey Nuh tufanı, Nuh peyğəmbər və Naxçıvan şəhəri haqqında inandırıcı şəkildə mülahizə söyləsə də sonralar bu fikir sanki şübhə altına alınmışdır. Fikrimizcə, bu ona görə belə olmuşdur ki, Naxçıvan türk yurdu olmuş, sonra müsəlmanlaşmışdır. Əgər Naxçıvan Xristian xalqlarının biri ilə bağlı olsaydı, Xristian alimləri bu məsələni dərhal qabardardılar. Naxçıvanın 2000, 3000, 3500 yaşı olması haqqında bir sıra mənbələr arxeoloji, qazıntılara, qədim alətlərə toponimik oykonimik adların elmi izahından çıxan nəticələrə əsaslanaraq dəyərli fikirlər söyləmişlər (11; 20; 22; 26; 25; 20; 1; 28; 29; 30; 31). Bu mənbələrin siyahısını daha da artırmaq olar.

XIX əsrin axırlarında Naxçıvan duz mədənində nəzarətçi işləyən Beyer duz şaxtasında qədim daş baltalar aşkar etmişdir. O, həmin baltalardan ikisini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını isə Peterburq və Tiflis muzeylərinə göndərmişdir. Aydın olmuşdur ki, duz çıxarılması üçün istifadə olunan bu daş baltalar azı beş min il bundan əvvəl düzəldilmişdir. Bu, bir tərəfdən Naxçıvanda duzçıxarma

mədəniyyətinin 5 min ildən artıq bir dövrü əhatə etdiyini göstərirsə, digər tərəfdən Naxçıvan şəhərinin yaşı məsələsini yenidən elmi fikrin predmetinə çevirir (27, 407–408).

Naxçıvan yaxınlığındakı Duzdağın və ona bitişik ərazilərin Naxçıvan şəhər mədəniyyətinin formalaşmasında mühüm rolu olmuşdur. Həmin ərazidən aşkar olunmuş arxeoloji nümunələrə əsaslanaraq demək mümkündür ki, yerli əhali Eneolit dövründə buradan geniş istifadə etmişdir. Təbii ki, çıxarılmış duz ancaq yerli tələbatı ödəməmiş, digər yerlərə də aparılmış, bu yolla ticarət inkişaf etmişdir. İkinci tərəfdən, bu ərazi insanların məskunlaşması üçün də əlverişli yer olmuşdur. Arazboyu və Duzdağ ətrafı düzənliklərdəki torpaqlar, sututarlar əhalinin tədricən oturaq həyata keçməsi ilə nəticələnmiş, əkinçilik, zəngin təbii imkanlardan istifadə etməklə isə sənətkarlıq formalaşmış, dulusçuluq, sonrakı dövrlərdə metal istehsalı və xalq sənətkarlığının digər sahələri inkişaf etmişdir. Bütün bunlar isə erkən şəhər mədəniyyətinin yaranmasına öz təsirini göstərmişdir (27, 407–409).

İrəlidə görəcəyimiz kimi, V.Talıbov Nuh peyğəmbərlə bağlı “Dünya tufan”ından da bəhs etmiş və maraqlı faktlara əsaslanmışdır. “Nuh tufan”ından danışan V.Talıbov “Qurani Kərim”in ayələrinə əsaslanmışdır. Doğrudan da, Nuh peyğəmbər və “Dünya tufanı” haqqında ən mötəbər məlumat Allahın öz kəlamı olan “Qurani-Kərim”in 37-ci surəsi olan

“Əs-səffat” (cərgə-cərgə duranlar) surəsinin 75-76, 78-79-80-81-ci ayələrində Ayələrdə deyilir:

75. Həqiqətən Nuh (öz tayfasının məhv edilməsi barədə) bizə dua etmiş, onun duası necə də gözəl qəbul olunmuşdu.

76. Biz (Nuh qövmünü suda doğuq) onu və ailəsini böyük fəlakətdən qurtardıq.

77. Məhz onun nəslini (qiyamətə qədər yer üzündə) baqi etdik.

78. Sonradan gələnlər içərisində onun üçün (yaxşı ad, gözəl xatirə) qoyduq.

79. (onu belə yad edirlər) “Bütün aləmlər (bəşər əhli) içərisində Nuha salam olsun!”

80. Həqiqətən, Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq!

81. Şübhəsiz ki, o bizim mömin bəndələrimizdən idi!

82. Sonra başqalarını (Nuha iman gətirməyənləri) suda qərq etdik (19, 447).

Nuhun Peyğəmbərliyi isə "Qurani-Kərim"in 7-ci surəsi olan "Əl-əraf" surəsinin 59-cu ayəsində bəyan edilir:

59. Biz Nuhu öz tayfasına (Peyğəmbər) göndərdik. O dedi: "Ey camaatım! Allaha ibadət edin. Sizin ondan başqa bir tanrınız yoxdur. Mən (müsibəti) böyük günün (qiyamət gününün) Sizə üz verəcək əzabından qorxuram" (23, 131).

Eyni fikir Qurani-Kərimin 11-ci surəsi olan "Hud" surəsinin 25-ci ayəsində verilir:

Ayə 25. Həqiqətən, Biz Nuhu öz tayfasına peyğəmbər göndərdik. Nuh dedi: "Mən sizi (Allahın əzabı ilə) açıq-aşkar qorxudan bir peyğəmbərəm" (23, 189).

Ayələrdəki fikirlər Allahın öz kəlamıdır və o nə irəli, nə də geri tarix tanımır. Amma m.ö. III minillikdə mesopotomiyada mövcud olmuş sumerlər və onlarla bağlı əfsanələrdə də "Dünya tufanı" (Nuh tufanı) haqqında məlumatlar vardır. V.Talıbov bu məsələyə də toxunmuşdur: "Tarixi mənbələrdə dünya tufanının ən azı 7 min 500 il bundan əvvəl baş verdiyi qeyd olunur. Deməli, Naxçıvan bu dövrdən etibarən yaşayış məskəni kimi seçilmiş, əlverişli təbii-coğrafi şərait burada əkinçiliyin, maldarlığın, sənətkarlığın müxtəlif sahələrinin inkişafına səbəb olmuş, ticarət

əlaqələri yaranmışdır. Göstərilən şərtlər erkən şəhər mədəniyyətinin formalaşmasında əsas amillərdən hesab edildiyindən Naxçıvan şəhərinin 5 min il və daha çox bundan əvvəl yarandığını söyləmək mümkündür.

Deməli, Naxçıvan şəhər mədəniyyəti mesopotomiya, Babil, Xett və digər bu kimi antik mədəniyyət mərkəzləri ilə sıx əlaqələr şəraitində inkişaf etmiş, özünəməxsus formalaşma mərhələsi keçmişdir.

Qeyd olunanların yekunu kimi əminliklə göstərmək mümkündür ki, dünyada yerin və göyün qovuşduğu, Allahın bərəkətli torpaq kimi nişan verdiyi yer Naxçıvandır. Belə olmasaydı, dünya tarixinə Nuh möhürü Naxçıvanda vurulmazdı (23, 409).

Vasif Talıbovun irəli sürdüyü elmi ideyaya yardım edəcək problemlərdən biri də Nuh Peyğəmbərin oğlanları və nəvələri məsələsidir. Məsələyə aydınlıq gətirərək bəzi məqamları da diqqətə çatdırmağı lazım bilirik.

Nuh Peyğəmbərin 3 oğlu olduğunu (oğlanları Ham, Sam, Yafəs) hamı təsdiq edir. Amma nəvələri haqqında mübahisələr vardır. Yəfəsin oğulları haqqında ona görə qısaca bəhs etmək lazımdır ki, burada Türksoyun meydana gəlməsi məsələsi aydınlaşır. Ümumi tarixə və dilçilik tarixinə "Yafəs" (Yasəf) nəzəriyyəsi kimi daxil olan bu konsepsiya ətrafında müxtəlif mübahisələr olmuşdur. Dilçilikdə Yasəf nəzəriyyəsi akad. N.Y.Marrın adı ilə bağlıdır.

Bu nəzəriyyə haqqında çox deyilmişdir (46, 47, 18; 48; 49).

N.Y.Marr görkəmli alim idi. Onun on cildlik əsəri vardır. O, öz konsepsiyasını müasir dilçilikdə yeni təlim, dünya dilçiliyində isə inqilab hesab edirdi. Əslində isə heç Yafəslə əlaqəsi olmayan bəzi məsələlərin onun adı ilə bağlanması da düzgün deyil. Bu nəzəriyyənin mahiyyətini düzgün qiymətləndirmək üçün Yafəs haqqında bəzi şeylər demək lazımdır. Yafəs haqqında məlumatı N.Y.Marr özü uydurmamışdır. Yafəsin kimliyi haqqında məlumatı biz həmdullah Müstovfi Qəzvininin (1281–1349–50) "Tarixi-Kuzidə", XV əsrdə yaşamış Xandəmirin "Xülasətül-əxbar", yenə XV əsrdə (1433–1488) yaşamış Miraxundun 7 cilddən ibarət olan "Rövzəttüsəfa", A.Bakıxanovun (1794–1847) "Gülüstani-İrəm" adlı əsərlərindən alırıq.

H.Qəzvini və Xandəmirin məlumatına görə Yafəsin 8, Miraxundun məlumatına görə 11, A.A.Bakıxanovun məlumatına görə 9 övladı olmuşdur. Əlbəttə, qızlar yox oğlanları nəzərdə tutulurdu. A.Bakıxanovun yazdığına görə, Yafəsin hər bir oğlu bir xalqın yaranması üçün əsas olmuşdur. Yafəsin oğlanlarının kimlər olduğunu bilmək, kimin Yafəs xalqlarına aid olduğunu müəyyənləşdirməyə kömək edər.

Yafəsin birinci oğlu Türkdür. A.Bakıxanov yazır: *"Türk Yafəsin böyük oğlu və vəliəhdi olub, ədalətli və*

*rəiyyətpərvər bir padşah idi. Bütün Yafəs nəslinin qəbilələri bunun adı ilə türk adlanırlar. Atasının vəfatından sonra özü üçün Türküstanda isti və soyuq bulaqlı bir çox otlaqlar seçmişdir. Bura Suluq deyilir"* (5, 31).

Elə həmin səhifədə də A.Bakıxanov Yafəsin İranın və bütün Şam nəslinin hökmdarı Kəyumərsin müasiri və türklərin ilk hökmdarı olduğunu göstərir.

Yafəsin oğlanları aşağıdakılardır:

1) Türk
2) Xəzər
3) Rus
4) Qərrə-Bolqar
5) Komari-komok, Bolqar
6) Səqlab-slavyan
7) Çin
8) Boric-firəng
9) Məsək-monqol, Yəcuclar.

Əlimizdə olan başqa mənbələrdə Yafəsin əfsanəvi Nuh peyğəmbərin oğlu olduğu göstərilir. Akademik I.Meşşaninov "Yafəs" sözünün Incildən götürüldüyünü və Nuhun oğlu olduğunu qeyd edir və bir ağac sxemi ilə Yafəs nəslinin inkişafını göstərir (47, 809).

O, 1929-cu il oktyabrın 28-də Bakıda Azərbaycan Elmi-Tədqiqat İnstitutunda marksistlərin elmi-tədqiqat assosiasiyasının iclasında etdiyi məruzədə

Yafəs nəzəriyyəsini müdafiə edirdi. O, bu nəzəriyyəni linqvistikada marksist metodologiyasının əsası hesab edirdi. Bu mülahizələrin ilkin rüşeymləri alimin hələ 1925-ci il noyabrın 21-də Azərbaycan tədqiq-tətəbbö cəmiyyətində "Yafəs nəzəriyyəsinin əsas müddəala-rının qısa oçerki" adlı məruzəsində irəli sürülmüşdür (5, 197-198).

Görkəmli türk alimi Yaşar Kalafat Yafəsin oğlanlarından bəhs edərkən Yafəsin 7 oğlunu qeyd edir.

1) Türk
2) Xəzər
3) Səqlab
4) Rus
5) Ming
6) Çin
7) Kimeri

Göründüyü kimi, bütün mənbələrdə Yafəsin birinci oğlu Türk göstərilir. Yaşar Kalafat Əbulqazi Bahadır xana və Bahəddin Ögələ əsaslanaraq Yafəsin oğlu Türkü bugünkü türkün ulu babası hesab edir. O yazır: *"Böyləcə diye biliriz ki, Hz. Türk Atanın təbliğ dili türk dili idi və ya onun bir duyuri dili vardı ki, bu dil böyük ölçüdə içindən çıxdığı xalqın və ya təbliğin yapılacağı ilk xalqın dili idi. Bu xalq ismini təbliqçisindən olan türklərdi"* (59, 35).

Sonda Yaşar Kalafat belə bir elmi nəticəyə gəldiyini bildirir: *"Biz incələməmizdə ayrıntılı (fərqli*

*– A.B.) Tufan Sunumunu (təqdimatını – A.B.) yapmadıq. Naxçıvanın 5000 illik türk yurdu olduğunu yer adları, əfsanələr, arxeoloji verilərdən hərəkətlə incələyən bilgi və bəlgələr vardır. Bizim çalışmamız, türkizm içərikli və özgün formantında böyük ölçüdə yararlandığımız Sadi Bayramın cizgisində olmuşdur. Naxçıvan 5000 illik tarixin bir dönəmində türk kültür coğrafiyasının mərkəzində olmuşdur"* (59, 38).

Qeyd etmək yerinə düşərdi ki, 1935-ci ildə N.Y.Marrın ölməsi və repressiyanın başlanması ilə əlaqədar olaraq bu nəzəriyyə problemi qadağan oldu. Hətta 1935-ci ildə Ural-Altay nəzəriyyəsi yasaqlandı.

Naxçıvanın qədimliyini sübut etmək üçün arxeoloji, maddi-mənəvi abidələrdən istifadə etmək V.Talıbovu çoxdan düşündürürdü. Amma bu fikri 2000-ci ildə gerçəkləşdirə bildi. Ona görə də 2001-ci il aprelin 26-da "Gəmiqaya" abidələrinin tədqiq edilməsi haqqında sərəncam verdi. Qeyd etmək lazımdır ki, bu fikrin də ideya rəhbəri ümummilli lider Heydər Əliyev idi. O, respublika rəhbərliyinə – Azərbaycan KP MK birinci katibi seçiləndən sonra 1971-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyası Gəmiqayada bəzi tədqiqat işləri apardı. Amma 80-ci illərin axırlarında bütövlükdə Naxçıvanda olduğu kimi, Gəmiqayada da tədqiqat işlərinin aparılmasına Respublika rəhbərliyi əhəmiyyət vermədi. Bundan istifadə edən ermənilər bu qədim abidənin adını dəyişərək erməniləşdirdilər.

Ona görə də bu sərəncamın verilməsi ilə Gəmiqaya problemində bir dönüş yarandı.

Bu, möhtəşəm 18 ilin hansı təməl üzərində qurulduğunu dərk etmək üçün böyük vasitə ola bilər (Naxçıvan haqqında yığcam və ardıcıl məlumatı "Naxçıvan ensiklopediyası". Naxçıvan 2005, səh.61–70-də almaq olar).

654-cü ildən müsəlmanlaşan Naxçıvan XII əsrin 30-cu illərindən 70-ci illərə qədər (40 il) Azərbaycan Atabəylərinin paytaxtı oldu. Eldənizlərin vaxtında Naxçıvan paytaxt şəhəri kimi çox tərəqqi etdi. Şəhərin əhalisi 150-200 min nəfərə qədər artdı. Şəhərdə və ətrafda çoxlu sənətkarlar, dulusçular, bənnalar, həkkaklar, xalçaçılar, zərgərlər və s. ən əsası isə Naxçıvan Memarlıq məktəbi yarandı. Bundan sonrakı dövrlərdə Naxçıvan Hülakilərin Çobanilərin, Cəlalilərin təsiri altında oldu. 1221-ci ildə şəhər monqollar tərəfindən dağıdıldı, ondan dörd il sonra Xarəzm şah Məhəmmədin oğlu Cəlaləddin Mangiburnı şəhəri işğal etdi (ətraflı məlumat üçün bax 20, səh.154–156). XIII əsrin ortalarında Qazanxan şəhərin bərpası üçün hər şey etdi. 90 faizi dağıdılmış şəhər, demək olar ki, yenidən tikildi…

XIV əsrin axırlarında (1387-ci ildə) Teymuriləngin qoşunları şəhəri yenidən dağıtdı. Məşhur 14 illik Əlincəqalası müqaviməti naxçıvanlıların qəhrəmanlıq tarixini əbədiləşdirdi.

XV əsrin əvvəllərindən (1412-ci il) başlayaraq Azərbaycan türk mənşəli Qaraqoyunluların, XVI əsrin əvvəllərindən (1501) isə Səfəvi dövlətinin tərkibində oldu. XVI-XVII əsrlərdə dini təriqət zəminində səfəvi

türk dövləti ilə Osmanlı türk dövləti arasında 100 il ərzində səkkiz dəfə şiddətli vuruşma oldu. Naxçıvan gah bu, gah da digər türk dövlətinin tərkibinə keçirdi.

XIX əsrin əvvəllərində 1826-cı ildə Naxçıvan Rus-İran müharibələri zamanı əsas döyüş meydanı oldu. 1828-ci ildə bağlanan Türkmənçay "Sülh Müqaviləsi"nə görə Naxçıvan Rusiyanın tərkibinə daxil oldu. Buraya İrandan və Türkiyədən çoxlu erməni göçürüldü. Çar rusiyası dini təəssüb zəminində burada ermənilərin çoxalmasına, Azərbaycan türklərinin azalmasına çalışırdı. Bunun səbəbi hər iki tərəfin xalq kütlələrinin savadsızlığı idi. Azərbaycanın görkəmli oğulları A.A.Bakıxanov və M.F.Axundovun səyi nəticəsində Tiflisdə sonralar Bakıda, Gəncədə, Naxçıvanda və s. şəhərlərdə qəza məktəbləri açıldı. Bu məktəblər dünyəvi məktəb idi. Sonralar bir sıra mədəni-maarif müəssələri yaradıldı. Bunlar arasında 1886-cı ildə fəaliyyətə başlayan dram teatrı xüsusi əhəmiyyət kəsb edirdi.

1890-cı ildə Tiflisdə dünyada ən mənfur və fitnəkar təşkilat olan "Daşnakstyun" Partiyası yaradılması ilə Türkiyənin, Azərbaycanın o cümlədən Naxçıvanın həyatında narahat illər başlandı. Daşnak ermənilər xristian dini təəssübündən bacarıqla istifadə edərək özləri Rusiyanın oyuncağına çevrildiyi kimi, Rusiyanın da hər cür dəstəyini ala bilirdilər.

Naxçıvanın geosiyasi mövqeyi elədir ki, onu həmişə başı bəlalı etmişdir. 1905-ci ildən başlayaraq bu günə qədər ermənilər öz din qardaşları ilə

birləşərək xalqımıza, xüsusilə Naxçıvana divan tutmuşlar. 1917–1918-ci illərdə bu qırğın qətliam səviyyəsinə qalxmışdır. Bu illər ərzində ermənilər Rusiyada baş vermiş 1917-ci il fevral inqilabından və Oktyabr çevrilişindən istifadə edərək sərsəm "Böyük Ermənistan" ideyalarını bolşevik bayrağı altında gerçəkləşdirməyə ciddi səy göstərdilər. 1918-ci ilin martından erməni daşnak S.Şaumyanın başçılıq etdiyi Bakı Kommunası "əks inqilabi ünsürlərlə mübarizə" şüarı altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən soyqırımı planını həyata keçirməyə başladı. Nəticədə 1918-ci il martın 31-dən aprelin 2-dək təkcə Bakı şəhərində 12 min nəfərdən çox azərbaycanlı ermənilər tərəfindən soyqırımına məruz qaldı. 100 mindən çox əhalisi olan Naxçıvanın 73720 nəfərini amansızcasına məhv etdilər. Onlar qadın, uşaq, ahıl, körpə bilmədən hamını güllə ilə, nizə ilə öldürürdülər. 1917–1918-ci illərdə ermənilər Zəngəzurda 115, Qarabağda 157, Qubada 122, İrəvan quberniyasında 211, Gəncə ətrafında 272, Ağsu, Kürdəmir və Lənkəranda 130 yaşayış məntəqəsinin əhalisini vəhşicəsinə qırmış, kəndləri talan edərək yandırmışlar. Təkcə 1918-ci ildə Şamaxı şəhərində 7 min, Quba şəhərində 2 min, Zəngəzurda 3 mindən çox, İrəvan Quberniyasında 135 min insan qətlə yetirilmişdir (28, 274).

Elə inqilabın ilk ilində bizə nəinki təpik və qapaz vurdular, Orconikidze, Mikoyan, Stalin üçlüyünün təkidi ilə 1920-ci il dekabrın 1-dən 1921-ci il martın

16-dək Naxçıvan və Dağlıq Qarabağ ermənilərə verildi.

O vaxtlar Atatürkün işə qarışması, Behbud bəy Şahtaxtinskinin və Nəriman Nərimanovun səyi nəticəsində əzəli torpaqlarımız daşnakların əlindən xilas oldu. Qars müqaviləsi (1921-ci il 13 oktyabr) bu iddiaları bir az səngitdi. Düşmən gizli fəaliyyətə keçdi.

Kommunist bileti cildi içərisində daşnak biletini gəzdirən A.Mikoyan SSRİ Dövlət aparatında yüksək mövqe tutduğu üçün bu məsələyə 5-6 dəfə qayıtmış, lakin məqsədinə çata bilməmişdi. 69 yaşında olanda Mikoyan sovet rəhbərliyinin çox yüksək kabinetinə soxula bilmişdi. Bu dəfə o, Naxçıvan və Qarabağı Azərbaycandan qoparmaq təklifi ilə 1964-cü ildə Xruşşova müraciət edəndə öz daşnak arzusuna çatacağına inanırdı. Lakin bu yaltaq və şərəfsiz funksionerin dəfələrlə edilmiş yersiz təklifinə Xruşşov rədd cavabı verdi. Avantüra bu gün də davam edir.

Bu problem indi daha aktualdır. Ermənilər öz havadarlarının yardımı ilə həmişə qondarma "Genosid" haqqında dünyaya car çəkirlər. Öz vəhşilikləri haqqında isə heç nə demirlər. Halbuk ki, iki il ərzində ermənilər Naxçıvan dairəsində 110 kənddə 7.695 evi yandırmış, 57.250 dinc sakini qətlə yetirmiş, 15 məscidi yandırmışdılar.

O vaxtlar türk dünyasının böyük oğlu Kazım Qarabəkir Paşanın ordusu özünü yetirməsəydi, bu diyarın aqibəti necə olardı?

Türkiyənin Azərbaycan xalqının köməyinə gəlməsi nəticəsi olaraq AXC hökuməti Bakıya gəldi, Naxçıvandan erməni quldur dəstələri qovuldu. Bu, Amerika, Ingiltərə və başqalarının xoşuna gəlmədi. Onların təkidi ilə 1918-ci il oktyabrın 30-da Egey dənizi Lomos adasındakı Mudros limanında İngiltərə ilə Türkiyə arasında barışıq sazişi imzalandı. Bu saziş Türkiyənin 1914–18-ci illəri əhatə edən Birinci Dünya Müharibəsində məğlub olmasını rəsmiləşdirdi. Sazişi Böyük Britaniya tərəfindən admiral Koltron, Türkiyə tərəfindən Rauf Hikmət və Sədulla bəy "Aqamemnon" Kreyserində imzaladılar. Bu sazişə görə Azərbaycan bütövlükdə Ingiltərənin ixtiyarına keçirdi. Azərbaycanın nefti, dəmir yolları tamamilə ingilislərin iradəsinə tabe olurdu. Tələb olunurdu ki, Ingiltərənin Bakını işğal etməsinə (ermənilən xeyirinə) Türkiyə etiraz edə bilməz. Əslində bu saziş ermənilərin gizli diktəsi xarakterində idi. Çünki bu barışığın 24-cü maddəsinə görə *"Türkiyənin altı erməni vilayətindən hər hansı birində qarışıqlıq, ixtişaş baş verərsə müttəfiqlər oranı tutmaq hüququna malikdir"* (28, 52).

Azərbaycan bu işə biganə qala bilməzdi. Osmanlı dövlətinin Xarici Işlər Naziri Rauf bəyə öz etirazını bildirdi. Azərbaycanın Osmanlı dövlətindəki diplomatik nümayəndəsi Azərbaycanın nümayəndəsi olmadan onun məsələsinin qoyulmasına və belə ağır qərar qəbul edilməsinə öz etirazını bildirdi. Bu saziş imzalandıqdan 4 gün sonra (Noyabrın 4-də)

Ə.B.Topçubaşov Rəşad Hikmətbəyə etiraz notası ünvanladı. Notada göstərilirdi ki, müstəqil Azərbaycanın bir dövlət kimi tanındığı təqdirdə onun iştirakı olmadan belə bir qərarın qəbul edilməsi Beynəlxalq hüquq normalarının pozulmasıdır.

Bütün çətinliklərə baxmayaraq, 1918-ci ilin noyabrında Naxçıvanda Araz-Türk Cümhuriyyəti quruldu. Cümhuriyyət hökumətinin başçısı Əmirbəy Əsgərzadə rəhbərlik edirdi. Cümhuriyyət hökuməti Azərbaycan Xalq Demokratik Cümhuriyyəti – Bakı ilə əlaqə saxlayır onlarla birlikdə olmağı xahiş edirdi. Hətta Araz-Türk Cümhuriyyəti tərkibində Hüseyn Cavid də olmaqla Bakıya geniş tərkibli bir nümayəndə heyəti də göndərmişdi. AXC özünün ağır vəziyyətdə olmasına baxmayaraq Naxçıvana kömək etdi. Bundan az sonra ermənilərin yenidən başlanan hücumları 1919-cu ilin martında Naxçıvan Araz-Türk-Cümhuriyyətinin süqutuna səbəb oldu.

Beləliklə, Naxçıvan siyasi hadisələrin burulğanında çırpınmaqda idi. Yaxşı ki, onun mərd və müdrik oğulları onun xilası yolunda ciddi-cəhdlə vuruşurdular. 1920-ci ilin aprelin 28-də Rus-Sovet qoşunları Bakını işğal etdi – Azərbaycan sovetləşdi. Düz üç aydan sonra – iyulun 28-də Naxçıvanda Sovet hakimiyyəti elan edildi. Bu vaxt Zəngəzur ermənistana güzəşt edildi. Beləliklə, Naxçıvanla Azərbaycan bir-birindən ayrı düşdü. 1920-ci il noyabrın 29-da Ermənistanda da Sovet hakimiyyəti elan oldu. İndi Ermənistan Azərbaycanla bir hökumət

daxilində, özü də böyük havadarlarının (Stalinin, Orconikidzenin, Mikoyanın, Kirovun) köməkliyi ilə Naxçıvana qarşı yenidən ərazi iddiası irəli sürdülər. Amma türk qardaşlarımızın, B.Şahtaxtlı kimi cəsur oğullarımızın habelə Azərbaycan hökumətinin köməyilə ermənilər arzusuna çata bilmədilər.

# NAXÇIVAN SOVET DÖNƏMİNDƏ

Naxçıvanın sovet dövrü tarixini hamıdan dürüst şəkildə Naxçıvan MK Ali Məclisinin sədri cənab Vasif Talıbov vermişdir. O Naxçıvan MK 75 illik yubileyində etdiyi məruzədə bu 75 illik tarixi dörd mərhələyə bölür:

1. 1924-1969

2. 1969-1987

3. 1987-1993

4. 1993-cü ildən sonrakı dövr.

Bu bölgüyə heç kəs etiraz etməz.

Amma 1920–24-cü ilə qədər yəni Muxtar Respublika statusu alana qədər bəzi hadisələr haqqında danışmaq lazım gəlir ki, bu haqda cənab Vasif Talıbov da bəhs etmişdir.

1920-ci il noyabrın 29-da Ermənistanda Sovet hakimiyyəti qurulduqdan cəmi 3-cə gün sonra Bakı Soveti öz təntənəli iclasına toplaşdı. İclasa Ə.Qarayev sədrlik edir.

Stalinin Zaqafqaziyadakı agenti, Stalinin göstərişi və iclasda iştirak edən, arvadı erməni olan Orconikidzenin təkidli tələbi ilə N.Nərimanov Ermənistanın xeyirinə bəzi fikirlər söyləmişdi (43,

44). Bu iclasda deyilənlər Naxçıvanda böyük etirazla qarşılandı. Naxçıvan əhalisi bircə gün belə Ermənistanın ağalığını qəbul etmək haqqında düşünmədi. 1921-ci ilin yanvar ayında keçirilən referendumda Naxçıvan əhalisinin hamısı öz iradəsini belə ifadə etdi: Azərbaycanın idarəsi altında Muxtar Respublika statusu.

Məlumdur ki, hələ Azərbaycanda və Naxçıvanda Sovet hakimiyyəti qurulmazdan əvvəl Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Kamal (Atatürk) Moskvaya RSFSR XKS sədri V.Leninə məktub yazaraq Türkiyə ilə Rusiya arasında "Dostluq və qardaşlıq haqqında" müqavilə imzalamağı təklif etmişdi. Düz on aydan sonra bəzi diplomatik hazırlıqlar görüldükdən sonra 1921-ci il fevralın 26-da Moskvada Türkiyə ilə Rusiya arasında danışıqlar başlandı. Danışıqlar martın 21-dək davam etdi. Nəhayət tərəflər razılığa gəlib, 16 maddə 2 əlavədən ibarət anlaşmanı imzaladılar. Anlaşmanın üçüncü maddəsi Azərbaycanın Naxçıvan bölgəsi haqqında idi. Burada deyilirdi: razılığa gələn tərəflər Naxçıvan vilayətinin hazırkı müqavilənin I(c) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın Protektoratlığı altında muxtar ərazi yaradılmasına razıdır, bu şərtlə ki, Azərbaycan bu protektoratlığı üçüncü dövlətə güzəştə getməməlidir (28, 47; Nax.MSSR MDA F. 314. siy. 5, 16, v.30). Bu dövrdə Naxçıvan torpağının yetirdiyi istedadlı və qeyrətli siyasi xadimlərdən biri Behbud ağa Əliağa oğlu Şahtaxtinskinin ardıcıl və

səmərəli fəaliyyəti xüsusi qeyd edilməlidir. Moskva müqaviləsinin hazırlanmasında Mustafa Kamal Paşanın ideyaları ilə üst-üstə düşən Behbud ağa Şahtaxtinskinin təklifi də nəzərə alınaraq Naxçıvana Azərbaycanın tərkibində Muxtariyyət statusu müəyyən edildi. Türkiyə Cənubi Qafqazın digər respublikaları (Gürcüstan, Ermənistan və Azərbaycanla) dostluq münasibətləri yaratmaq təşəbbüsü ilə çıxış etdi. Buna görə də 1921-ci il sentyabr-oktyabr aylarında Türkiyənin Qars şəhərində müzakirəyə toplandılar.

Bu müqavilənamə 20 maddədən 5 əlavədən ibarətdir. Müqaviləni Türkiyə tərəfindən:

1. Kazım Qarabəkir

2. Vəli bəy

3. Muxtar bəy

4. Məmduh bəy

Azərbaycan tərəfdən
Behbud bəy Şahtaxtinski

Gürcüstan tərəfdən
Calva Eliava
Aleksandr Svanidze

Rusiya tərəfdən
Yacgues Hanatezku

Ermənistan tərəfdən
Mrovyan
Roqos Markinizyan
İmzaladı.

Müqavilənin V maddəsi Naxçıvan haqqında idi. Həmin maddə belə səslənirdi:

Maddə 5 – Türkiyə hökuməti ilə Ermənistan və Azərbaycan Şuralar Hökumətləri işbu müqavilənamənin üs nömrəli melfufunda təşrih edilən hüdudlar daxilində olmaq üzrə Naxçıvan məntəqəsinin Azərbaycan himayəsində muxtar bir ərazi təşkil etməsi xüsusunda muttehidül-fikirdirlər (55, 573).

Bu iki müqavilədən sonra Naxçıvanda bir sakitlik başladı.

1923-cü il fevralın 7-də Naxçıvan Muxtar ölkəsi Sovetlərinin IV qurultayı keçirildi. Qurultay iştirakçıları yekdilliklə Moskvaya teleqram qəbul etdilər. Orada deyilirdi:

"Moskva Kreml, Leninə"

Əziz İliç, Naxçıvan Muxtar ölkəsi sovetlərinin IV qurultayı sizə, Ümumdünya inqilabının rəhbərinə öz salamını göndərir və sizin tezliklə ittifaq həyatı quruculuğunun sükanı arxasına qayıtmanızı gözləyir.

Qurultay ölkə zəhmətkeşləri adından sizin müdrikliyiniz və təcrübənizin göstərdiyi yerdə dərhal inqilabi nailiyyətlərin müdafiəsinə qalxmağa hazır olduğunu bildirir (Nax. MSSR MDA. F.40, siy.4, iş 39 v.3).

Naxçıvan zəhmətkeşləri Naxçıvan ölkəsinin Azərbaycan Sovet Sosialist Respublikasının tərkibinə daxil olmaq üçün Azərbaycan MIK-ə müraciət etmişdi. Həmin müraciət Azərbaycan MİK üçüncü sessiyasında müzakirə edilərək bəyənilmişdir.

Bundan sonra Azərbaycan MİK qərarı ilə Naxçıvan ölkəsi Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında qərar qəbul etmişdi. Sənəd belə idi:

**Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qərarı**

8 fevral 1924-cü il.

NAXÇIVAN ÖLKƏSİNİN NAXÇIVAN SOVET SOSİALİST RESPUBLİKASINA ÇEVRİLMƏSİ

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Sovetləri Rəyasət Heyəti qərara alır:

1. Naxçıvan ölkəsi Azərbaycan SSR protektioratlığı altında Naxçıvan Sovet Sosialist Respublikasına çevrilsin.

2. Naxçıvan MSSR haqqında qanun layihəsinin işlənib hazırlanması üçün Vəlibəyov, Bağırov, T.Şahbazi və A.Axundov yoldaşlardan ibarət komissiya yaradılsın. Onlara tapşırılsın ki, mövcud qərarın dərc edildiyi gündən sonra bir həftə ərazidə layihənin işlənib hazırlanmasını qurtarsın və baxılmaq üçün Azərbaycan MİK Rəyasət Heyətinə təqdim etsinlər.

**Azərbaycan MİK sədrinin müavini B.QASIMOV,**
**Azərbaycan MİK-in katibi T.ŞAHBAZİ**

Azərbaycan SSR OİSQMDA f.379, siy.3, sax. səh. 80–85

1924-cü il avqustun 25-də Azərbaycan K(b)P Mərkəzi Komitəsi katibliyinin qərarı ilə Naxçıvan

Respublikasında Ali Məhkəmə yaratmaq haqqında qərar qəbul etdi:



*Пролетарии всех стран, соединяйтесь!*

**ПРОТОКОЛ № 17.**

**Секретариата Центрального Комитета Азербайджанской Коммунистической Партии (б-ов).**

„25" августа 192[illegible]

т. т. члены Секретариата: Караев, Р. Ахундов, Мирзоян.
ЦК АКСМ. Рахманов Гусейн.
КК АКП: Горобченко.
Члены ЦК АКП: Кулиев М., Буниат-Заде, Конушкин..
Зав. отделами: Машкевич /орг/, Шахбазов /Агит/, [illegible]
/жен/, Хесин /фин/, Гольцев /информ/ и Иновемцев [illegible]

атель тов. ............ при секретаре тов. ............

**ПОРЯДОК ДНЯ:**

| СЛУШАЛИ | ПОСТАНОВИЛ |
|---|---|
| 5. Об организации Высшего суда в Нахреспублике. /т. Горобченко./ | 5. Считать необходимым организовать в Нахреспублике отдел Высшего суда АССР. |

Bu illərdə Naxçıvanda Sovet təbliğatının əsas komponentlərindən olan şadlıq əhval-ruhiyyəsi aşılamaq, süni şənliklər təşkil etmək, uca səslə şüarlar demək, kommunist-bolşevik partiyası rəhbərlərinə mədhlərlə dolu çıxışlar düzənləmək artıq bir adətə çevrilmişdi. Amma bütün ölkədə (Naxçıvan nəzərdə tutulur) dağıntılar, səfalət, aclıq hökm sürməkdə idi ki, bunun səbəbi *"Xan-bəy hakimiyyəti deyil bolşevik idarəçiliyi idi"* (43, 105).

Bu vaxt SSRİ rəhbərləri başda SSRİ XKS sədri A.İ.Rıkov olmaqla Zaqafqaziya Respublikalarına

səfər etdi. Martın 1-də başlanan bu səfərlər martın 10-da Naxçıvana çatdı. Naxçıvanda çoxlu insan toplaşmışdı. Hətta kəndlərdən Çadralı qadınları Naxçıvan XKS binasının önünə toplamışdılar. Moskvalı qonaqları Naxçıvan XKS sədri Həmid Sultanov qarşıladı. Həmid Sultanovun təntənəli qarşılama nitqindən sonra A.İ.Rıkov çıxış etdi. O göstərdi ki, heç yerdə belə səfalət görmədim. Beş dəqiqənin ərzində 100 ərizə aldım. A.İ.Rıkovun tapşırığına əsasən Bakıdan Naxçıvana geniş səlahiyyətlərlə bir komissiya gəlir. Komissiyanın tərkibinə daxil idi:

1) M.C.Bağırov Azərbaycan FK sədri (sədr)

2) AK(b)P Mərkəzi Komitəsinin katibi Ə.H.Qarayev

3) Zaqafqaziya Fövqəladə Komissiyası sədrinin müavini Kvantaliani (?)

4) AK(b)P Məkrəzi Komitəsi Təftiş Komissiyasının məsul katibi Qorobçenko

5) Azərbaycan fəhlə-kəndli müfəttişliyi xalq komissarının müavini Dovlatyan

Komissiyanın tərkibi çox şey deyirdi; əgər komissiya həqiqətən Naxçıvan MK-dakı vəziyyəti

öyrənib ona kömək etmək üçün hazırlanmışdırsa, nə üçün onun sədri Xalq Daxili İşlər Komissarı, Azərbaycan Fövqəladə Komissiyasının sədri… M.C.Bağırov və başqa yoxlama, təftiş və s. təşkilatların nümayəndələri olurdu.

Komissiyanın sədri Naxçıvanda işə başlarkən Tibilisiyə Zaqafqaziya ölkə komitəsinin birinci katibi Orconikidzeyə 2 teleqram göndərib burada köklü kadr dəyişikliyi etmək və adi insanlara qarşı repressiya tədbirləri görmək üçün icazə istəyirdi. Əslində Orconikidze M.C.Bağırovun Stalinə arxalandığını yaxşı bilirdi. Ona görə də M.C.Bağırova böyük səlahiyyətlər verərək yazdı: *"Razıyam. Tam qətiyyətlə hərəkət etmək lazımdır. Orconikidze"* 5 aprel 1925 (43, 129–130).

Buna görə də komissiya Naxçıvanda özünü çox sərbəst apardı.

"Naxçıvan ölkəsində aparılan təhqiqat haqqında xüsusi komissiyanın məruzəsi" 174 vərəqdən altı fəsildən 40 yarımfəsildən, nəticə və təkliflərdən və əlavədən ibarətdir.

Əvvəlki hissədə Sovet aparatının quruluşundan, buradakı iqtisadi vəziyyətdən, maliyyə məsələlərindən, koperasiya problemindən, sənayedən, yerli təsərrüfatdan və s. bəhs edilir. Əlavə hissəsində komissiyanın 1-13-cü protokolları verilir ki, burada artıq repressiya özünü göstərir. Belə ki, 1925-ci il aprelin 4-də xüsusi komissiya "Cinayət işlərinə" baxdı. Komissiya şəhərdə hər hansı bir idarədə deyil,

dəmir yolunun Naxçıvan Stansiyasındakı xüsusi vaqonda işləyirdi.

Komissiya bir gündə 50 nəfərin işinə baxdı. Onların 35 həbs edildi (sonrakı taleləri müəyyən deyil). Iclas gecə yarıya qədər davam etdi.

Ən çox zərər çəkən Naxçıvanda və bütün türk dünyasında məşhur olan Kəngərlilər nəsli oldu. Siyahıdakı nömrələri ilə veririk:

12. Mazahir Kəngərli həbs edilsin.

16. Əbdüləzimbəy Kəngərli işdən çıxarılsın və ona iş verilməsin.

17. Müzəffər ağa Kəngərli həbs edilsin və sürgün edilsin.

18. Bəylər ağa Kəngərli həbs edilsin və Naxvandan çıxarılsın.

19. Məmmədağa Kəngərli həbs edilsin və Naxçıvandan çıxarılsın.

20. Qasım ağa Kəngərli həbs edilsin və sürgün edilsin.

21. Həmid ağa Kəngərli həbs edilsin və sürgün edilsin.

22. Fərəc ağa Kəngərli həbs edilsin və sürgün edilsin.

23. İbahim ağa Paşa Kəngərli həbs edilsin, sürgün edilsin.

24. Sultan ağa Kəngərli həbs edilsin və sürgün edilsin.

Soruşan ola bilməzdi ki, həbs edilənlər hansı müddətə azadlıqdan məhrum olur və onları hara aparırlar?

Amma dərhal göstərilir ki, həbslər gecə saat 22-də keçirilsin, səhər saat 6-da qurtarsın.

Komissiyanın aprelin 6-da keçirilən iclasında əməliyyat kəşfiyyat inspektoru Yermolayevin məlumatı əsasında.

1. Bağırov Hacı Mehdi Imaməli oğlu

2. Məmmədəliyev Kərbəlayi Qasım Hacı Əli oğlu

3. Əliyev İsmayıl Kərbəlayı Əli oğlu

4. Əliyev Pəliş Kərbəlayı Əli oğlu (İsmayılın qardaşı) güllələnsin.

Komissiya 5 apreldə 14 nəfərə güllələnmə kəsdi. Bax Naxçıvana Sovet hakimiyyətinin ilk hədiyyəsi –

köməyi bu oldu. Bundan sonra xalqın əsil düşmənləri ləyaqətli adamların 90 faizini Xalq düşməni deyə məhv etmişdir. Bundan sonra başqa bölgələrdə olduğu kimi Naxçıvanda da qaçaq hərəkatı başlandı. Adamlar evlərində otura bilmədilər. Biz bu haqda da kiçik araşdırma aparmışıq – onu burada verməyi lazım bilirik.

## Xalqın düşmənləri “Xalq düşmənləri”ni məhv edir

Cəlladlıqda, qəddarlıqda, amansızlıqda bəşəriyyət tarixində bəlkə də misli-bərabəri olmayan sovet bolşevizmi o qədər məharətlə pərdələnmişdi, öz əməllərinin üstünü o qədər ustalıqla suvayıb rəngləmişdi ki, həmin pərdənin, həmin rəngin altında nələr olduğunu adi gözlə görmək, adi idrakla dərk etmək mümkün deyildir. Hələ indinin özündə də elə adamlar vardır ki (onları qınamıram), keçmişi yadına salıb dərindən bir ah çəkir, “Heyf o günlər, kolbasanı, yağı, əti filan qiymətə alırdıq, istədiyimiz vaxt gedib sanatoriyada dincəlirdik, ucuz biletlə Moskvaya gedirdik” deyirlər. Onlar sovet rejiminin “insanlıq” dövrünü yadlarına salır, onu indiki müvəqqəti keçid dövrünün çətinlikləri ilə müqayisə edərək belə ötəri fikrə gəlirlər. Belə adamlar unudurlar ki, 1920-ci ilin 28 aprelindən başlamış 1991-ci ilin 18 oktyabrına qədər sovet-bolşevik rejimi bizim xalqımızı əzib yox etmək yolu tutmuşdu. Deyilənləri Respublika Milli Təhlükəsizlik naziri general-leytenant Namiq Abbasovun sözləri ilə möhkəmlətmək istərdik: “Aprel çevrilişindən sonra aparılan yeni bolşevik siyasəti təhlükəsizlik orqanlarının da işində həlledici rol oynadı. İmperiya siyasəti həyata keçirən və Azərbaycanda bolşevizmin möhkəmlənməsi istiqamətində işini quran Azərbaycan Fövqəladə Komissyası, bir qədər sonra Azərbaycan Dövlət Siyasi İdarəsi və Xalq Daxili İşlər Komissarlığı...minlərlə

adamın məhvinə səbəb oldu. Repressiya və deportasiyalar başlandı... Çox ciddi elmi araşdırmalar gözləyən arxiv materiallarından görünür ki, 1920-ci ilin mayından 1921-ci ilin əvvəllərinə qədər 40 mindən çox adam Azərbaycan Fövqəladə Komissiyası tərəfindən məhv edilmiş, 1934-38-ci illərdə 27854 nəfər Xalq Daxili İşlər Komissarlığı tərəfindən birinci kateqoriya ilə məhkum olunmuş, yəni güllələnmişdir. Ümumiyyətlə, 20–50-ci illərdə məhv olunanların sayı 400 mini keçmiş, yarım milyondan çox adam isə sürgünlərə göndərilmişdir. Məzmununda həmişə, hər şəraitdə fəlakət ifadə edən "repressiya", "deportasiya", "soyqırımı" sözləri, dilimizdə olduğu kimi, taleyimizdə də yaddan gəlmiş bir bəla kimi ciddi rol oynamışdır. Deportasiya, repressiaya və soyqırımının təşkilatçıları və icraçıları da əsasən yadlar olmuşlar. ("Sərhnd" qəzeti, 17.04.99, say 07)

Bununla mən sovet hakimiyyəti illərində elmi və mədəni həyatda qazandığımız uğurlara kölgə salmaq istəmirəm. Bu dövrdə bir sıra uğurlarımız olmuşdur və olmalı idi də. Amma...

Respublika prezidenti Heydər Əliyevin sözləri ilə desək "Ölkəmizin XX əsrdəki tarixini doğru, düzgün əks etdirmək, yazmaq üçün mütləq tədqiqatlar, tarixi araşdırmalar aparılmalıdır və obyektiv, ədalətli əsərlər yaradılmalıdır". Amma nədənsə alimlərimiz bu işə girişməkdən çəkinir. Bu sahədə tədqiqat işləri lazım olduğundan az aparılır. İndi əli qələm tutan səriştəli alimlər yeni yetişən nəslə göstərməlidilər ki,

*“müsəlman respublikalarına mərkəzdən münasibət başqa respublikalara nisbətən çox fərqli idi”* (H.Əliyev). Biz xalqımızın gənc nümayəndələrinə və keçmişdən ötrü ah çəkənlərə göstərməliyik ki, sovet rejimi xalqımıza qarşı müxtəlif vaxtlarda azalıb-artmaqla həmişə həmlələr etmiş, onun qaymağını yığmışdır.

1920–1929-cu illərdə “sovet hakimiyyətini istəmir”,

1929–1935-ci illərdə “kollektivləşmənin, kolxozun düşmənidir”,

1935–1938-ci illərdə “antisovet, əksinqilabçı, millətçidir”

1940–1945-ci illərdə “sovet ordusunun qələbəsinə inanmır” 1945–1950-ci illərdə “pambıqçılığı istəmir” (o cümlədən Ermənistandan deportasiya) və sairə kimi damğalar altında yüzminlərlə azərbaycanlını məhv etmişlər. Sonra 1987–1991-ci illərdə “yazıq erməniləri incitdiyi üçün açıqca xalqımıza qarşı sovet genosid siyasəti yeridildi. Tariximizə nəzər salaq.

1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda qırmızı terrordan 48 min adam öldürülmüşdür ki, bunun da çox hissəsi ziyalıların payına düşürdü: (Ş.Nəzərli “Cümhuriyyət generalları” - Bakı 1995, s.197).

Azərbaycanda sovet hakimiyyəti qurulan kimi, sovet hökuməti inqilabi doktorinasını insanların şüuruna yeritmək üçün ali və orta məktəblər açdı, savadsızlığı ləğvetmə kursları yaratdı. Bunu hamıya Lenin beynəlmiləlçiliyi, Lenin siyasəti kimi çatdırmaq

istədi. Nail də oldu. Amma sovet hökuməti "Torpaq kəndlinin, hakimiyyət fəhlənin olacaq" kimi nidalarla xalqı özünə tərəf çəkmişdi. Az keçmədi ki, bolşevik hökuməti bu vədini unudub torpağı kəndliyə yox, kolxoza verməyə başladı. Buna görə də Azərbaycanın hər yerində hamı şok vəziyyətinə düşdü. "Axı dünən torpaq sənindir deyən hökumət niyə bu gün onu məndən alıb kolxoza versin?" sualına cavab tapmayan kəndlilər çaşqın halda özlərini ora-bura vururdular. Buna görə də 1920-–25-ci illər arasında Azərbaycanda 60-a yaxın üsyan olmuşdu. M.Ə.Rəsulzadə bu üsyanları xalqın "əməli müqaviməti" adlandıraraq yazırdı: "Bu əməli müqavimət hadisələri ilə bərabər məmləkətdə siyasi konspirasiya, yəni gizli çalışma aktları da güclü şəkildə davam etdi" (sitat C.H.Qasımovun "Repressiyadan deportasiyaya doğru" kitabından B., 1998, s.35 götürülmüşdür).

Azərbaycanın elə bir bölgəsi yox idi ki, orada bu və ya digər dərəcədə sovet rejiminin qəddarlığına qarşı narazılıq hərəkatı olmasın. Buna görə də Moskvanın göstərişilə 1921-ci il 29 mayda Azərbaycan XKS-nin qərarı ilə Azərbaycan Fövqəladə Komissiyasının sədri başda olmaqla bolşeviklərin vətənimizin azadlığı və müstəqilliyi uğrunda hərəkata qoşulanlara və ya bu işə rəğbəti olanlara qarşı amansız bir zərbə aləti "Fövqəladə üçlük" yaradıldı. Xalqın bir qədər "baş bilən" adamlarına qolçomaq, quldur, bandit, qaçaq damğası vuraraq məhv etdilər. Bu fovqəladə üçlüklər hər yerdə yaradılırdı. Mərkəzi fövqəladə üçlüyə icazə

verilirdi ki, onlar bütün qaçaq, quldur, qolçomaq, kulak, bandit və s. “elementləri” dərhal güllələsinlər. Qəza fövqəladə üçlüklərinə isə səlahiyyət verilmişdi ki, işə baxıb onu Qəza Ali İnqilab Tribunalına və ya Azərbaycan Fövqəladə Komissiyasına göndərsinlər. Qəza fövqəladə üçlükləri isə vəzifə hədlərini - səlahiyyətlərini aşaraq özləri adamları güllələyir, qoca qadınları, mollaları, seyidləri – bir sözlə, günahsız adamları məhv edirdilər. Mən sizi təkcə 1930-cu ildə Naxçıvanın Keçili, Ərəfsə, Ərəzin, Xanaqa, Nəhəcir və başqa kəndlərində həmin fövqəladə üçlüyün törətdiyi ağır cinayətlərlə tanış etmək istəyirəm. Yeri gəlmişkən deyim ki, mən yalnız dilçi alimlərin işləri ilə maraqlanırdım. Milli Təhlükəsizlik Nazirliyimizin (bəli mən çəkinmədən nazirliyimiz deyirəm, çünki o artıq KQB deyil) işçilərinin xeyirxah münasibətlərini görüb maraq dairəmi daha da genişləndirdim. Bütün həmkarlarıma müraciət edərək deyirəm ki, qorxmayın. Siz də bu işə girişin, bolşevizmin erməni əməkdaşlığının xalqımıza qarşı apardığı, həyata keçirdiyi genosidi yazmaq, tədqiq etmək bir-iki adamm işi deyil. Siz də başlayın, burada nazirdən tutmuş qapıçıya qədər hamı milli məslək, əqidə sahibidir.

Yuxarıda adlarını çəkdiyim kəndlərdə kütləvi surətdə adamlara qarşı repressiya işində A.Avanesyan, Seyranov və başqa ermənilər çox fəal işləmişlər. Deyək ki, mərkəzdə Qriqoryan, Markaryan, Avanesyan, Ohanesyan, Badalyan, Xaçaturyan və

onlarla “yanların” olması o qədər də təəccüb doğurmazdı. Bəs rayonlara onlar necə gedib çıxmışdılar? Bu sualın cavabı çox sadədir. Görünür, ermənilərin lap böyüyü Moskvadan bu işə nəzarət edirmiş. Deməli, əgər hər bir erməni-daşnaq serjantı 200 Azərbaycan türkünü məhv etmək imkanı qazanmışdısa, bunun günahı kimdə idi. Necə olurdu ki, Ermənistan KQB-sində bircə nəfər azərbaycanlı olmadığı halda, Azəraycan KQB-sində bu qədər erməni “çalışırdı”.

Təkcə Arto Avanesyan yuxarıda adlarını çəkdiyim kəndlərdə 200-dən artıq adamı fövqəladə üçlüyün girdabına atmışdır. Qeyd edək ki, məhbusu dindirmə protokolunda müstəntiqin adı, familiyası və atasının adı göstərilməlidir. Daşnak isə öz familiyasını heç yerdə yazmır. İttiham sənədlərində təkcə Arto sözü ilə kifayətlənir.

Yuxarıda adlarını çəkdiyimiz kəndlərdəki kəndli hərəkatı cinayət hesab edilərək 270 №-li cinayət işi açmışdır. Cinayət işinin preambulunda deyilir (bu hər bir müttəhimə şamil edilir): *“Naxçıvan kəndlərində, Naxçıvanda sovet hakimiyyətini devirmək üçün üsyanda fəal iştirak etmiş və silahlı üsyan etmiş, bandit hərəkatı yaratmışlar. Kəndlilər arasında antisovet təbliğatı aparmışlar”.* Bu cinayət işi 4 cilddən ibarət olub. MTN-in arxivində 30831№ ilə saxlanılır. Cinayət işinin birinci cildində 278 vərəq, ikinci cildində yenə 278 vərəq (bir neçə arayış əlavə edilmiş). Hər ikisi tutulanların anketidir. Üçüncü

cilddə ittiham protokollarıdır - səhifələnməmişdir. Dördüncü cild isə fövqəladə üçlüyün protokolları, bəraət sənədləri və arayışlardan ibarətdir.

Fövqəladə üçlüyün ən yüksək cəzaya - güllələnməyə məhkum etdiyi adamların çoxu haqqında yaxınlarının dəqiq məlumatı yoxdur. Çünki, çox vaxt güllələnmiş hər bir adam haqqında sonralar ərizə vermiş oğluna və ya başqa yaxınlarına məlumat verirdilər ki, *"Sizin filankəs cəzasını çəkərkən ürək iflicindən ölmüşdür"*. Bu 270 №-li cinayət işi üzrə ittiham olunmuş adamların hamısı haqqında məlumat verməklə gözü yolda qalan həmvətənlərimizə səbr və ölənlərinə Allahdan rəhmət diləyirəm.

Əvvəlcə cinayət işi qaldırmaq üçün Arto Avanesyanın protokolları üzrə siyahını, sonra isə fövqəladə üçlüyün qərarlarını olduğu kimi veririk.

Cinayətə cəlb olunanların siyahısı:

1. Əliyev Kərim Rəhim oğlu 01.10.30 Naxç. DSİ-nin xüsusi üçlüyü tərəfindən 7 il həbs cəzasına məhkum edilir. Banditlərə kömək edib (Az.CM 54 maddəsilə)

2. Məmmədov Kərbəlayi Qurban Məhərrəm oğlu Nax. MSSR fövqəladə üçlüyün tərəfindən (Az.SSR CM 17-72 və 79-cu maddələri ilə 19.09.30-cu il tarixdə 10 il həbs cəzasına məhkum edilib.

3. Həsənov Hüseyn Məhərrəm oğlu - 40 yaşında Şahbuz, Keçili kəndi, 1 evi, 5 camışı olub, ailəsi - 6 nəfər. (CM 17-7, 2,79)

4. Abbasov Mustafa Məmməd oğlu - 25 yaş, Keçili kəndi

5. Məmməd Əli Cəfər oğlu - 35 yaş, 12.04.30 - Keçili k., evli

6. Məmmədov Əli Məmmədhüseyn oğlu - 42 yaş, Keçili k., evli

7. Şahsuvar Kərim oğlu - 35 yaş, Keçili k., 12.11.30, evli

8. Eyvaz Kərim oğlu - 25 yaş, 12.09.30, evli

9. Ələkbər Ləmi oğlu - 29 yaş, 12.09.30, evli

10. Müslüm Gülmalı oğlu - 25 yaş, 12.09.30, evli

11. Zeynalov Əli Musa oğlu - 25 yaş, 12.09.30, evli

12. Məmmədhüseyn Mazan oğlu - 13.09.30. məlumat yoxdur

13. Paşan Hüseynəli oğlu - 45 yaş, 17.09.30. məlumat yoxdur

14. Allahverən Xəlil İbrahim oğlu - 26 yaşında, Biçənək kəndi, evli

15. Bayramov Bayram Əli oğlu - 22 yaş, subay

16. Mustafayev Məmmədhüseyn Nəsir oğlu - 24 yaşında, Biçənək kəndi IX.30.

17. Sədri İsmayıl oğlu - 45 yaş, 13.09.30, Keçili kəndi, məlumat yoxdur

18. Novruz Əli Məmmədkərim oğlu - Kərki kəndi, 13.09.30.

19. Qurbanov Əli Qurban oğlu - 40 yaş, Biçənək kəndi, evli, 12.08.30.

20. Babayev Yunus Məmiş oğlu - 50 yaş, Keçili kəndi, 13.09.30. evli

21. Məmmədəliyev İmanqulu - 60 yaş, 13.09.30, evli

22. Əsgərov Zülfüqar Hüseyn oğlu - 55 yaş, 13.09.30, evli

23. Molla Həşim Əliməmməd Abdulla oğlu - 65 yas, 24.09.30.

24. Məmmədhəsənov Şahsəməd Abdulla oğju - 24.09.30.

25. Karbəlayi Nəcəfqulu - 25.09.30.

26. Kərbəlayi İbrahim Cəbrail oğlu İsmaylov - 45 yaş, 22.09.30, evli

27. Bilal Xalıqverdi oğlu - 23 yaş, 24.09.30, evli

28. Kənkərlinski Barat - 27 yaş, 25.09.30, evli

29. Haşım İbrahim oglu - 45 yaş, 25.09.30, evli

30. Mustafayev Lətif Salman oğlu - 27 yaş, Ləkətaq., 22.09.30, evli

31. İmaməliyev Kərbalayi Qubat Bəyraməli oğlu - 55 yaş, 22.09.30, evli

32. Məmmədov Əhyan İmamqulu oğlu - 21 yaş, 26.09.30, subay

33. Abdullayev Xəlil Əli oğlu - 23 yaş, 26.09.30, evli

34. Xəlilov Ağakişi Ağababa oğlu - 30 yaş, 26.09.30, evli

35. Yusifov Baxşəli Ələkbər oğlu - Xanağa kəndi, 25 yaş, azsavadlı, kooperativdə işləyib manqa müdiri, qulluqçu, 1 evi, 1 atı, 1 inəyi, 5 qoyunu olub, hərbi mükəlləfiyyətlidir, 25.09.30-da tutulub, Az.BSİ Nax. şöbəsində 30 sentyabrda dindiriüb. CM-nin 72-ci maddəsi, PR. 41368, Arx. №30881.1 cild, vərəqə səh.38

36. Musayev Kərbalayi Cabbar Xəlil oğlu - 32 yaş, 26.09.30, evli

37. Hüseynov Həsən Səyyad oğlu - 35 yaş, 20.09.30, evli

38. Hüseynov Kərbalayi Höseyn Həsən oğlu - 27.09.30, 35 yaş, Xanağa kəndi

39. Məmməd Ağaməmməd oğlu - 25 yaş, 27.09.30, Xanağa kəndi, evli

40. Dilavər Həsən - 30 yaş, Xanağa kəndi, 27.09.30, evli

41. Hüseynov Adıgözəl Murad oğlu - 27 yaş, 27.09.30, evli

42. Kənkərlinski Qaraxan Sultan oğlu - 35 yaş, Solt. kəndi, 27.09.30.

43. Məmmədəliyev Tahir Qənbər oğlu - 62 yaş, 26.09.30, evli

44. Quliyev Həsənqulu Kərbalayi Zellabdin oğlu - Solt. kəndi, 35 yaş, 26.09.30. evli

45. İbiş Məmmədəli oğlu - 50 yaş, Əbrəqunus r., Noraşen kəndi, 27.09.30.

46. Əliyev Kərim Rəhim oğlu - 50 yaş, Əbr., Noraşen, 26.09.30. evli

47. Kərb. Ələkbər İrza oğlu - 80 yaş, Əbr., Noraşen, 27.09.30.

48. Hacıyev Xəlil Hacıağa oğlu - 23 yaş, 23.09.30. evli

49. Həsənəliyev Şahqulu Səməd oğlu - 20 yaş, Keçili, 26.09.30.

50. İmanəli Tarverdi oğlu - 47 yaş, Qarabağlar kəndi, 25.09.30.

51. Əliyev Ağaəli Əh oğlu - 40 yaş, 01.09.30.

52. Sadıqov Rəhim Ələkbər oğlu - 40 yaş, 01.09.30.

53. İrzayev Toqəli oğlu - 28 yaş, 01.09.30.

54. Cəfərxan Baba oğlu - 80 yaş, Qaraquştilov kəndi, 31.10.30.

55. Məmmədov Gülməmməd Vəli oğlu - 02.10.30, Şərur r., evli

56. Ramazanov Teymur Akim oğlu - 50 yaş, 02.10.30. evli

57. Allahverdiyev Hacı Baba oğlu - 65 yaş, 02.10.30. evli (səh. 63, Əbrəqunis r., Xanağa kənd sakini Yusifov Baxış, keçmiş milisioner, partiyaçı, bandit hərəkatı rəhbəri, 01.10.30. 25.09.30-cu ildə baş əməliyyat müvəkkili Bakulçik başqaları ilə birlikdə Yusifov Baxşəli Ələkbər oğlunu ittiham etmək haqqında qərar qəbul edir. Bunların hamısını Arto Avanesyan həbs edib, dindirib. Həmin Arto 22.09.30-da)

58. Məmmədov Əli Cəfər oğlu

59. Məmmədov Əli Hüseyn oğlu

60. Şahsuvar Kərim oğlu

61. Eyvaz Kərim oğlu

62. Müslüm Gülməmməd oğlu 23.09.1930-da

63. Əli Qurban Qurbanov

64. Babayev Yunis Məmiş oğlu

65. Ələkbərov Zülfüqar Dünyamalı oğlu

66. Mehdiyev Kərəm Əli Məmməd oğlu

67. Məmmədəhyev İmamqulu Dünyamalı oğlu 26.09.1930-da

68. Molla Haşım Əliməmməd oğlu

69. Aslan Məmməd oğlu

70. Şahvəli Əbdül Həsən oğlu

71. Kərbalayi Rəhim Qafar oğlu

72. Kərbalayi Nəcəfqulu Abbasqulu oğlu

73. Balakişi Ağa oğlu

74. Kərbalayi İbrahim Cəbrail oğlu

75. Bilal Xalıqverdi oğlu

76. Kənkərlinski Xanca oğlu

77. Qaraş Kənkərlinski

78. Haşım İbrahim oğlu

79. Lətif Salman oğlu

80. Kərbalayi Nabat Bayram oğlu

81. Əlixan İmamqulu oğlu

82. Xəlil Əli oğlu

83. Ağakişi Məhərrəm oğlu

84. İmanqulu Bayram oğlu

85. Qurban Məhərrəm oğlu

30.09.1930-cu qərarı. Baxşəli Ələkbər oğlu Yusifov, Xanağa kəndi, 35 yaşında, kənd kooperativ işçisi, bitərəf, az savadh, evli.

Mart hadisələri zamam Xanağa üsyançılarına rəhbərlik etmiş, Ərəzin qrupuna da rəhbər olmuşdur. Öz qrupu ilə Ərəzin döyüşündə fəal iştirak ctmişdir. Öz qrupu ilə Əbrəqunusda olaııda (dağ tərəflərində) Xanağa kəndində kənd soveti binasının qapısını sındırıb sənədləri və kağızları götürüb cırmış və atmışdır. Demişdir ki, daha yeni hakimiyyət olacaq.

Bu hərəkat məğlub olandan sonra, o, üzə çıxmış, amma yenə banditlərlə əlaqə saxlayır. Kəndliləri banditləri müdafiə etməyə çağırmışdır. Beləliklə, kəndliləri öz tərəfinə çəkərək onları banditizmə yoluxdurmuşdur. Ona görə də, həmin kəndə silahlı mühafızə olmadan rayon şöbəsinin işçilərinin getməsi mümkün deyil. Yuxarıdakı faktlar şahid ifadələri ilə təsdiq edilir.

Bu, Arto Avanesyanın bir nəfər haqqındakı qərarı idi. Həmin gün (30.09.1930) Arto aşağıdakı adamlar üçün də oxşar ittihamlar irəlı sürmüşdür:

1. Kərbalayi Cəbrail Xəlil oğlu Musayev, 32 yaş

2. Səyyad Həsən oğlu Hüseynov - ortabab

3. Kərbalayi Həsən oğlu Hüseynov - 38 yaş, bitərəf

4. Məmmədağa Məmmədoğlu Hüseyn - azsavadlı
5. Dilavər Həsən oğlu Niftəliyev - 30 yaş, kasıb, bitərəf

6. Əsəd Ramazan oğlu Yusifov - 65 yaş

7. Adıgözəl Hüseynov Kırna - 27 yaş, ortabab, azsavadlı

8. Qaraxan Sultan Kənkərlinski - 35 yaş, savadsız, bitərəf

9. Talıb Qənbər Məmmədəliyev - 42 yaş, savadsız, bitərəf

10. Kərbalayi Qulı, Kərbalayi Zeynalabdin oğlu Quliyev - 30 yaş, savadlı, bitərəf

11. İbiş Məmmədqulu oğlu Məmmədov - 50 yaş, savadsız

12. Kərim Rəhim oğlu Əliyev - 50 yaş, Noraşen kəndi, savadsız

13. Kərbalayi Ələkbər Rza oğlu - 80 yaş, Noraşen kəndi, savadsız, bitərəf

14. Xəlil Qoca oğhı - 26 yaş, savadsız, bitərəf

15. Şahququ Səməd oğlu Həsənəliyev - 22 yaş, Keçili k., çoban, evli

16. İmaməli Tarverdi oğju - 47 yaş, Qarabağlar k., bitərəf
02.10.1930

İttiham qərarları 270 №-li iş üçün:

1. Ağaməli Əli oğlu Əliyev - 40 yaş, Şərur rayonu, evli, bitərəf

2. Keçəli Əhməd oğlu Rzayev - 28 yaş, Yayçı kəndi, savadsız, bitərəf

3. Rəhim Ələkbər oğдu Sadıxov - 40 yaş, Keçəzur kəndi, savadsız, evli

4. Cəfərxan Baba oğlu - 50 yaş, Qaraquş kəndi, savadsız, bitərəf

Arto Avanesyan

Bu adları çəkilənlərin işinin istintaqı dayandırılmış və xüsusi fövqəladə üçlüyün (Naxç. ASS.) sərəncamına göndərilsin (səh. 275) Arx.30891. I cild.

III cild. Arx. 30891 270 №-li iş üzrə - Fövqəladə üçlüyün 22.09.30 tarixli iclasının protokulu. Keçili kəndi üzrə:

1. Məmmədov Əli Cəfər oğlu

2. Məmmədəli Məmmədhüseyn oğlu

3. Salman İsmayıl oğlu

4. Şahsuvar Kərim oğlu

5. Eyvaz Kərim oğlu

6. Ələkbər Məlik oğlu

7. Müslüm Gülmalı oğlu - Güllələmək, əmlakını müsadirə etmək, əmlakın müsadirəsi Şahbuz R. həvalə edilsin. Protokol №3, 22.09.30 - Şahbuz k., Sədr: İbrahim Tağıyev AzQPU Nax. şöbəsinin rəisi Yaqubov, Naxç. sərh. hərbi id. rəisi Nikişev

1. Məmmədhüseyn Mazan oğlu

2. Paşan Hüseynəli oğlu - güllələnmiş, əmlakı müsadirə edilmiş.

Protokol №4 - 22.09.30. Şahbuz kəndi

1. Xəlil İbrahim oğlu

2. Bayram Əli oğlu

3. Məmmədhəsən Nəsir oğlu - güllələnmiş, əmlakı müsadirə edilmişdir. Protokol №5 - 23.09.30. Şahbuz kəndi - yenə Tağıyev, Yaqubov, Nikişev

1. Sədri İsmayıl oğlu

2. Novruzəli Məmmədqulu oğlu - güllələnmiş, əmlakı müsadirə edilmiş.

Protokol 6 - 23.09.30.

1. Əliqurban Qurbanov

2. Babayev Novruz Məmiş oğlu

3. Məmmədəliyev İmanqulu Dünyamalı oğlu

4. Əsgərov Zülfüqar Dünyamalı oğlu - güllələnsin

5. Mehdiyev Kərəməli Məmmədoğlu - 80 yaşında, həbs edilsin

Protokol №7 - 22.09.30.

Bir bənddən ibarət qərar qəbul edilir ki, Əbrəqunusa əlavə üzvlər göndərilsin. Bənd 7. Banditizmə qarşı mübarizəni gücləndirmək üçün 60 nəfərdən ibarət zərbə qrupu 6 aya göndərilsin.

Protokol №8 - 20.09.30.

Yenə Tağıyev, Yaqubov, Nikişev. İştirak etmişlər - Musabəyov və Rəsulzadə

1. Molla Haşım Əli Məmməd oğlu - 45 yaş, güllələnsin

2. Şahvələd Əbdül Həsən oğlu - güllələnsin

3. Aslan Məmməd oğlu - 28 yaş, güllələnsin

4. Kərbalayi Rəhim - 36 yaş, güllələnsin

5. Kərbalayi Nəcəfqulu - 32 yaş, güllələnsin

6. Balakişi Ağa oğlu - 28 yaş, güllələnsin

Protokol №9 - 29.09.30.

Üçlük, daha heç kəs.

1. Xanməmmədov Mazi Şıxməmməd oğlu - güllələnsin

2. Məmmədov Mütəllim Fətulla oğlu - 28 yaş, güllələnsin
3. Həmzəyev Qafar Kərbalayi Əli oğlu - güllələnsin

4. Yaqubov Kərbalayi Muxtar Səfərəli oğlu - Nəhəcir kəndi, güllələnsin

5. Ramazanov Həsənxan Həsənqulu oğlu - 40 yaş, Nəhəcir kəndi, güllələnsin

6. Xoşməmmədov Teymur Pirməmməd oğlu - 50 yaş, Nəhəcir kəndi, güllələnsin

10. Talıb Qənbər oğlu Məmmədəliyev - 42 yaş, Solt. kəndi, 6 il

11. Kərbəlayi Qulu Kərbəlayi Zeynalabdin oğlu Quliyev - 35 yaş, Solt kəndi, 7 il.

12. İbiş Məmmədəli oğlu Məmmədov - 50 yaş, Noraşen kəndi, güllələnsin

13. Kərbəlayi Ələkbər Salahov - buraxılsın

14. Xəlil Qoca oğlu - 26 yaş, Ərəfsəli kəndi, çoban, 7 il

15. Şahqulu Səməd oğlu Həsənəliyev - Keçili kəndi, çoban; 5 il

16. İmaməli Tanrerdi oğlu - 47 yaş, Qarabağlar kəndi, güllələnsin

Protokol №12. 02.10.30.

Həmin üçlük iştirak edir. Nax.MSR XKS sədri Vəlibəyov - Naxçıvan şəhəri.

Eşidildi: Banditizmə qarşı gələcək mübarizə tədbirləri haqqında.

Qərar: Keçili kəndində banditizmin mövcudluğunu Dərələyiz və Zəngəzur zonalarından banditləri Nax. ölkəsinə keçə biləcəklərini nəzərə alaraq həmin rayonlarda silahlı dəstələri saxlamağı zəruri hesab

edirik. Şahbuz rayonunda zərbəçilərdən və milislərdən ibarət - 50 nəfər. Əbrəqunus rayonunda 1 atlı, vızvod - Nax. siyasi şöbəsinin 41 qrupu saxlanılsın. Həmin qruplara həvalə edilsin ki, banditizm halları müşahidə edilsə dərhal ləğv edilsin.

2. Baş siyasi idarə rəisi Sumbatov yoldaşın 8-ci polkunun divizionunun 05.09.30. Naxçıvandan Erevan - Tiflisə göndərilməsi haqqında teleqrafı. Qərar: Yoldaş Sumbatovun teleqramına əsasən 8-ci polkun divizionu 5.09.30. Naxçıvandan Erevan - Tiflisə göndərilsin.

Başa düşmək olmur, oktyabrın 2-də neçə qərar qəbul etmək olar ki, sentyabrın 5-də həmin divizion göndərilsin. Bəlkə savadları qıcqırıbmış.

Protokol №13 03.10.30.

Həmin üçlük. İştirak edir: Naxç. XKS sodri Vəlibəyov. Mart hadisələri zamanı Həbibbəyin qaçaqlar dəstəsinə qoşulanları:

1. Ağamalı Əli oğlu Şərur - 40 yaş, Yayçı kəndi, bitərof, güllələnsin

2. Sadıqov Rəhim Ələkbər oğlu - 40 yaş, Keçəzurlu kəndi, bitərəf, evli, güllələnsin

3. Qoçəli Əhməd oğlu Rzayev - 28 yaş, Yayçılı-Şərur, bitərəf, subay, güllələnsin

4. Cəfərxan Baba oğlu - 50 yaş, bitərəf, evli, kulak, güllələnsin

5. Gülməmməd Vəli oğlu, Teymur Akim oğlu, Allahverdi - azad edilsinlər

Protokol № 14

Fövqəladə üçlük 04.10.30-cu il tarixli iclas protokolu. Nax. ş. Tağıyev, Nikişev, Yaqubov

1. Mustafa Məmməd oğlu Abbasov - 35 yaş, Keçili kəndi, savadsız, bitərəf, 5 il.

2. Qoçali Məmməd oğlu Əliyev - 20 yaş, Keçili kondi, bitərəf, savadsız, 8 il.

3. Ağamməd Fətulla oğlu Nəcəfəliyev - Keçili kəndi, bitərəf, evli, azad edilsin.

4. Əliməmməd Hacı Kərim oğlu - 55 yaş, Keçili kəndi, bitərəf, evli, 5 il.

5. Gülməmməd Nurməmməd oğlu - 35 yaş, Keçili kəndi, bitərəf, kasıb, azad edilsin.

6. Kəblə Qurban Məhərrəm oğlu Məmmədov - 45 yaş, Keçili kəndi, bitərəf, evli, 10 il.

7. Sultan Süleyman oğlu - 30 yaş, Keçili kəndi, bitərəf, savadsız, azad edilsin.

8. Məmməd Novruzəli oğlu - 30 yaş, Keçili kəndi, bitərəf, savadsız, azad edilsin.

9. Vəliqulu Ağa oğlu Ağayev - 33 yaş, Keçili kəndi, bitərəf, 6 il.

10. Hüseyn Məhərrəm oğlu Həsənov - 40 yaş, Keçili kəndi, bitərəf, evli KL., 6 il

11. Bunyat Şirəli oğlu Məmmədov - 25 yaş, Keçili kəndi, bitərəf, evli, azad edilsin

12. Kərbəlayi Fatma Məşədi Mehdiqulu q - 50 yaş, Keçili kəndi, bitərəf, evli - Mart hadisələrində iştirak edib. Əri Keçili banditlərinin rəhbəridir - savadsız, kasıb, 5 il icbari iş.

13. Züleyxa Xudakərim qızı - 50 yaş, Keçili kəndi, bitərəf, savadsız, evli, kulak. Mart hadisələrində iki oğlu iştirak edib. Əri banda başçısı kimi güllələnib. Qaçaqlara patron; paylayıb. Onun göstərişilə yoldaş Qənbərovun qızıl dişini - tüfəngin qundağı ilə sındırıblar. Bütün Keçili kişilərini Hakimiyyətə qarşı çıxarıb - 5 il icbari.

14. Kərbəlayi Şahvəli Məmməd oğlu Mehdiyev - 35 yaş, Ərəfsə kəndi, bitərəf, güllələnsin

15. Yusif Abbasqulu oğlu və Murad Quliyev - Arab kəndi, kasıb, azad edilsin

16. Qəmbər Cəfərqulu oğlu - 35 yaş, Ərəfsə kəndi, bitərəf, evli, iş təkm. İstintaq üçün Naxçıvan BSİ-nə göndərilsin

17. Quliyev Məmi Mikayıl oğlu - 29 yaş, Kükü kəndi, savadsız, güllələnsin

18. Quliyev Yusifəli Mikayıl oğlu - Kükü kəndi, komsomol, qardaşı ilə birlikdə həbs edilib, azad edilsin. Nax. Vilayət Komsomol Komitəsinə bildirilsin ki, o komsomola layiq deyil

19. Mikayıl Kərbəlayi Hüseyn oğlu - 80 yaş, Keçili kəndi, ailəsi ilə birlikdə Şərurdan sürgün edilsin.

20. Əliməmməd Pirverdi Pirəli oğlu - 45 yaş, Keçili kəndi, bitərəf, 8 il

21. Piriyev Xanış Əli oğlu - 35 yaş, Nurs kəndi, bitərəf, ortabab, azad edilsin

22. Hacıyev Qəhrəman Həmzə oğlu - 29 yaş, Naxç. evli, qull., azad edilsin

23. Əliquliyev Kərim Yusifəli oğlu - 40 yaş, Keçili kəndi, kasıb, azad edilsin

24. Teymur Nəcəf oğlu Həsənquliyev - 37 yaş, Xanağa kən- di, bitərəf, evli, 5 il

I. Onları aşkar etmək məqsədilə Keçili əməliyyatı zamanı həbs edilmiş 14 keçili ailəsi haqqında. Bu ailələri Şərur rayonundan sürgün etmək. Qeyri-sərhəd zonasında yerləşdirilsin.

II. Həbs edilib güllələnməyə məhkum edilənləri axtarış zamanı götürülən 447 manat 45 qəpik pul BSİ Naxç. şöbəsinə verilsin. Protokol №15

Fövqəladə üçlüyün 12.X.30-cu il tarixli iclası.

Tağıyev, Nikişev, Yaqubov. Bu iclasda kütləvi surətdə yığıb apardıqları adamları mühakimə ediblər.

1. Ağayev Zeynalabdin oğlu İmanov - Ərəzin kəndi, 41 yaş, evli, kulak, 8 il

2. Əliqulu Hacı Cabbar oğlu - Ərəzin kəndi, 40 yaş, bitərəf, evli, kulak, güllələnsin

3. Hümbətəli Ələmqulu oğlu Həsənov - Ərəzin kəndi, bitərəf, evli, kulak, 6 il.

4. Yusif Nəcəf oğlu İmanov - Ərəzin kəndi, evli, bitərəf, k/s üzvü, azad edilsin.

5. Qasun Kərbəlayi Əli oğlu Qasımov - 23 yaş, Ərəzin kəndi, bitərəf, evli, kasıb, azad edilsin

6. Heydər Əli oğlu - Cəlladdin kəndi, 23 yaş, bitərəf, subay, kasıb, azad edilsin

7. Mürşid Mirzə Məmməd oğlu - Gülüs kəndi, 50 yaş, bitərəf, evli, ortabab, güllələnsin

8. Eyniş Əlixan oğlu Məhərrəmov - Gülüs kəndi, 25 yaş, bitərəf, evli, güllələnsin

9. Əliməmməd Məşədi Mustafa oğlu - Gülüstan kəndi, 43 yaş, bitərəf, evli, 3 il

10. Canəli Mansur oğlu - Külüs kəndi, 40 yaş, bitərəf, savadsız, kasıb, azad edilsin

11. Əliabbas Cabrayıl oğlu - Külüs kəndi, bitərəf, 50 yaş, evli, savadsız, azad edilsin

12. Qəmbər Həzrətqulu oğlu - Ərəfsə kəndi, 35 yaş, bitərəf, savadsız, evli, 3 il

13. Pirməmməd Nurməmməd oğlu Atakişiyev - Gülüs kəndi, 50 yaş, evli, azad edilsin

14. Xancan Abbas oğlu Kənkərlinski - Ərəfsə kəndi, 31 yaş, subay - Səlim bəylə əlaqəsi olmuş,

dvoryandır, sürgün edilsin və Naxçıvan kənd təsərrüfatı texnikumundan çıxarılsın.

15. Novruz Kərbəlayi Həsən oğlu Məhərrəmov - Gülüs kəndi, 45 yaş, evli, güllələnsin

16. Əkbər İbrahim oğlu - Ərəfsə kəndi, 30 yaş, bitərəf, savadsız, evli, azad edilsin
17. Rəhim Dünyamalı oğlu - Ləkətağ kəndi, 50 yaş, bitərəf, savadsız, evli, 5 il

18. Novruz Qasıməli oğlu Bədəlxanov - Keçili kəndi, 36 yaş, kasıb, azad edilsin

19. Ziyad Şirin oğlu Əsədov - Keçili kəndi, 30 yaş, savadsız, evli, azad edilsin

20. Əli Mehdi oğlu - 45 yaş, bitərəf, savadsız, ortabab, azad edilsin

Cinayət işinin 4-cü cildinin üstündə qeyd vardır ki, həmin iş üzrə 139 nəfər müxtəlif illərdə həbs edilmişdir. 2 nəfər bəraət alıb I.1964 və 1968.

Bu, cinayət işi üzrə cəzalandırılanların tale yazısı idi.

O dövrün sosial-siyasi vəziyyətinin mənzərəsini Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbov çox qısa və dolğun şəkildə belə təsvir etmişdir.

1924-1969-cu illərdə Naxçıvan Muxtar Respublikasının siyasi və iqtisadi mühiti olduqca ağır, təzadlı və gərgin olmuşdur. 1918-ci ildə Zəngəzurun Ermənistana verilməsi nəticəsində regiona erməni quldur dəstələrinin hücumu artmış, ərazini Ermənistana ilhaq etmək üçün göstərilən hərbi-siyasi cəhdlər daha intensiv xarakter almağa başlamışdı. Türkiyənin bu dövrdə tutduğu birmənalı mövqeyi, Kazım Qarabəkir Paşanın komandanlığı altında türk diviziyasının Naxçıvana daxil olması burada yaranmış ağır vəziyyəti aradan qaldırdı. O dövrdə təşəkkül tapan Araz-Türk Respublikası Naxçıvan ərazisinin erməni hücumlarından qorunmasında mühüm rol oynadı. Ermənilərin həm daşnak hökuməti dövründə, həm də Sovet lıakimiyyəti qurulduqdan sonra Naxçıvanı Azərbaycandan ayıraraq özünə birləşdirmək üçün göstərdiyi səylər Naxçıvan əhalisinin birmənalı, qəti mövqeyi nəticəsində uğursuzluğa düçar oldu. Naxçıvan əhalisinin 90 faizdən çoxu 1921-ci ilin əvvəlində Azərbaycan, Eımənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan mahalının muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi (29, 76).

3 may 1949-cü ildə Azərbaycan SSR Nazirlər Sovetinin 474№-li qərarı ilə Naxçıvan Muxtar Sovet Sosialist Res publikasının 25 illik yubileyinin keçirilməsi haqqında tədbirlər planı təsdiq edilir. Tədbirlər planı 12 maddədən ibarətdir. Burada

Naxçıvanın sosial inkişafının bəzi problemlərinin həll edilməsi üçün müvafiq nazirliklərə göstərişlər verilir.

1969-cu ilə qədər bütün Azərbaycanda olduğu kimi Naxçıvanda da "Sov.İKP MK-nın qərarlarını yerinə yetirmək uğrunda sosializm yarışı təkrar-təkrar yaşanırdı. Ölkədə baş verən ən böyük dəyişiklik isə 1953-cü ildə Stalinin vəfatından və M.C.Bağırovun vəzifədən getməsindən sonra insanlar arasında sabaha inam yarandı, insanlar azad nəfəs olmağa başladı.

Dəyişməz qalan isə ermənilərin bizə qarşı ərazi iddiası idi. Moskvada Sovet rəhbərliyinin ən ali zirvəsinə (SSRİ Ali Soveti Rəyasət heyətinin sədri) yüksələn kommunist maskalı daşnak A.İ.Mikoyan ölənə qədər bircə gün də olsa bu alçaq əməlindən əl çəkmədi. Belə ki, 1942-ci ildə müharibənin qızğın çağında Sovet qoşunlarının İrana keçdiyini görən Türkiyə Sovet-türk sərhəddinə 29 diviziya yığmışdı. Bu, Mikoyana və başqa "Yanlara" fürsət verdi ki, Azərbaycan haqqında məsələ qaldırsınlar. Əgər bu arzuları baş tutarsa ermənilər Xəzər dənizinə qədər yerləşib yaşaya bilər, Zaqafqaziya türklərdən təmizlənər.

Məşhur jurnalist Musa Bağırov "Generalın yolu" (Həzi Aslanov haqqında kitab yazmaq istəyir, bunun üçün o, bir sıra adamlarla görüşməli olur. Onlardan biri lə Sovet İttifaqı marşalı Georgi Konstantinoviç Jukov olur. M.Bağırov 1972-ci ildə onunla görüşəndə artıq marşal istefaya buraxılmışdı (o da N.S.Xruşovla düz gəlmirdi). Bu görüşdə Jukov deyir: *"1942-ci ildə*

*Stalinin yanında olarkən, təsadüfən ali rəhbərliyin Azərbaycanın köçürülməsinə dair məsləhətləşmənin iştirakçısı oldum. Beriya Stalindən soruşdu ki, bu kimin təklifidir? Stalin əlindəki 5-6 vərəqlik sənədi göstərib dedi ki, Anastasın"* (21, 229).

Jukov sözünə davam edərək deyir ki, hamı – hətta mən də Azərbaycanın köçürülməsinə tərəfdar oldum. Təkcə Beriya etiraz edərək dedi ki, yoldaş Stalin Azərbaycanın qələbəmizə köməyi əvəzsizdir. Azərbaycan xalqı sədaqətli xalqdır. Müharibədə qəhrəmancasına vuruşur. Əslində Beriya 1918-19-cu illərdə Azərbaycan Xalq Cümhuriyyəti (Musavat hökuməti) dövründə həmin hökumətin təhlükəsizlik orqanında Abşeron üzrə nəzarətçi işləmişdi (aylıq maaşı 800 manat idi). Bundan sonra o Azərbaycan FK-da işləmişdi. Xalqımızı o vaxtdan tanıyırdı. Sonradan Stalin Beriyanı və M.C.Bağırovu dinləyərək Mikoyanların təklifini rədd etmişdi. Burada bəzən M.C.Bağırovun xüsusi rolu olduğunu deyənlər var. Amma bu tamamilə belə deyil. Çünki,

a) Stalin Beriyaya daha çox inanırdı,

b) Bu təklifdən dənizdən-dənizə ideyası asanca hiss olunurdu,

c) Bu təklif Zaqafqaziyada müvazinəti pozardı,

ç) Bakı neftini kim çıxaracaq idi? və s.

Buna görə sayca 3 dəfə ermənilərdən çox olan Azərbaycan Sovet Sosialsit Respublikasının əhalisini köçürmək mümkün olmadı.

A.İ.Mikoyan 1948-ci ilin birinci rübündə SSRİ Ali Soveti Rəyasət heyəti qarşısında, 1960-cı ildə isə Sov.İKP MK qarşısında DQMV və Naxçıvan haqqında məsələ qaldırdı. Hələ 1948-ci ildə SSRİ Ali Soveti Rəyasət heyətinin sədri N.M.Svernik A.Mikoyanın təklifinə razılıq vermiş, imza da atmışdı.

Daha başqa bir misal.

1960-cı ildə Ermənistanda sovet hakimiyyəti qurulmasının 40 illiyi bayram edilirdi. Bundan istitfadə edən ABŞ-da yerləşən daşnaksutyun tipli "Ramqavar" partiyası Boston şəhərində erməni dilində çıxan "Bayrak" qəzeti vasitəsi ilə Naxçıvanın və DQMV-ın Ermənistana hədiyyə edilməsini Azərbaycan rəhbərliyindən xahiş edirdi. Bu işin təşkilatçısı isə Moskvada A.Mikoyan idi. Bu məsələyə həmin ilin noyabrında Sov.İKP MK Rəyasət heyətində baxıldı. O vaxt Azərbaycan KP MK-nın ideoloji işlər üzrə katibi Mikoyandan qat-qat savadlı olan Nazim Hacıyev idi. Buna görə də Azərbaycanın maraqlarını müdafiə etmək üçün Moskvaya o dəvət edilmişdi. Nazim Hacıyev elmi və tarixi faktlara əsaslanaraq erməni məkrini sübutlarla rədd etdi. Bundan əsəbləşən siyasi büro üzvü daşnak maskalı kommunist A.İ.Mikoyan çıxış edərək Nazimi millətçi adlandıraraq, onu Azərbaycan KP MK katibi

vəzifəsinə belə layiq olmayan bir ünsür kimi "Tənqid edir". Onun bu fitnəkar çıxışına N.Hacıyev qətiyyətlə cavab verir.

Nazimin bu ardıcıl məntiqi, savadlı dəlillərə əsaslanan çıxışı siyasi büronun üzvlərini heyran edir, mübahisəyə yekun vuran N.S.Xruşov deyir: "Yaxşı N.Hacıyev öz xalqının, öz ölkəsinin mənafeyini müdafiə edir. Bu, millətçilik deyil, vətənpərvərlikdir. Anastas İvanoviç, bəs sən kimi müdafiə edirsən? Erməni burjua təşkilatı "Ramgavar" nə vaxtdan komunistlərin maraqlarını müdafiə edir? Bu məsələyə son qoymaq lazımdır. Bu hadisədən böyük zərbə alan N.Hacıyev yüngülcə xəstələnib Kreml xəstəxanasında müalicə alarkən xəstəxananın daşnak professoru Abramyan Mikoyanın göstərişi ilə onu elə iynə ilə "müalicə" edir ki, Azərbaycan xalqının cəsarətli və vətənpərvər oğlu Nazim Hacıyev 2 ay belə yaşaya bilmədi (21, 272–273).

Mikoyan fikrindən dönmür, arzusundan əl çəkmirdi. Məharətlə maskalanmış savadsız daşnak 1964-cü ildə yaltaqlığın və maskalanmağın bütün məqam və vasitələrindən istifadə edərək SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçildi. Daha bundan böyük fürsət ola bilməzdi. İndi o, öz istəklərini xahiş şəklində deyil, təklif şəklində SSRİ rəhbərliyi qarşısında qoya bilərdi. Ona bu cəsarəti verən amillərdən biri də Krım məsələsi idi. O, bilirdi ki, 1941-ci ildə Krımın Muxtariyyəti ləğv edilmiş, əhalisi 3 günün içərisində köçürülmüş sonra Krım Ukraynaya

birləşdirilmişdir. Bunu nə üçün Naxçıvan MSSR və DQMV haqqında etməyək? Bundan əlavə, Mikoyan yaxşı bilirdi ki, hələ I Pyotrun dövründən başlayaraq Rusiya öz xristian dostu-din qardaşı Ermənistanın arxasında olmuşdur. Niyə bundan istifadə etməyək? Axı indi mən SSRİ-nin ikinci adamıyam! Buna görə də öz arzusunu təklif şəklində SSRİ-nin rəhbəri Nikita Serqeyeviçi Xruşova bildirdi ki, Nikita Sergeyeviç, DQMV Ermənistandan uzağa düşüb. Naxçıvan Ermənistanla həmsərhəddir. Onları Ermənistana birləşdirmək yaxşı olardı. Bu fikrin tarixini yaxşı bilən, Milli genosid olaraq Krım tatarlarının, çeçenlərinin, inquşların Qazaxıstanın və Orta Asiyanın səhralarına (səhra şəhərlərinə) köçürülməsini müsəlman və türk xalqlarına qarşı yönəldilən siyasət olduğunu N.Xruşov yaxşı bilirdi. Yeri gəlmişkən göstərmək lazımdır k, Stalin və Nikoyanın bütöv bir xalqa qarşı yönəldilən qeyri insani hərəkətlərini pisləyib, həmin xalqları öz dədə-baba yerlərinə qaytaran da N.Xruşov oldu.

Nəhayət Xruşşov Mikoyanın bu təklifini də rədd edərək dedi: *"Mən DQMV ermənilərinin bir sutka ərzində Ermənistana köçürülməsi üçün 12 min hərbi yük maşını ayırmağa hazıram"*. Bu Mikoyanın axırıncı hücumu idi.

Bütün bunları deməkdə məqsədim odur ki, xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin nəyə qadir olduğunu bir daha xatırladım. 1969-cu il iyul ayında istər siyasi savad, istər

beynəlxalq proseslərdən başçıxarma, istər nəzəri erudisiya, istər güclü məntiq cəhətdən A.Mikoyandan qat-qat yüksəkdə duran Heydər Əliyev Azərbaycanın rəhbəri oldu. Bununla Mikoyan öz məkrli fəaliyyətini gizli formaya saldı. 1965-ci ildə istefaya gedəndən sonra düz 13 il (o, 1978-də ölmüşdür) səsini çıxara bilmədi. Arzusu ürəyində qaldı (əbədi olaraq).

H.Əliyev isə hakimiyyətə gəldikdən sonra Azərbaycanda böyük, sosial-siyasi, mənəvi-əxlaqi, habelə iqtisadi-təsərrüfat sferalarında böyük canlanma oldu. Azərbaycan bütün SSRİ miqyasında diqqət mərkəzində durdu. Bir çox ittifaq tədbirləri, elmi konfranslarda, yubileylər məhz Azərbaycanda keçirilirdi. Belə tədbirlərdən biri də 1975-ci ildə keçirildi. Moskva nümayəndə heyətinin tərkibində Mariyetta Şagınyan da gəlmişdi. 1990-cı ildə "Театральная жизнь" jurnalının müxbiri A.Karaulova verdiyi müsahibədə H.Əliyev bu hadisə haqqında deyəcək: Bizim səmimi münasibətimiz var idi. Mən ona təklif etdim ki, Respublikanın qonağı kimi bizdə qalsın. O, Kirovabadda, DQMV-də və ermənilər yaşayan digər rayonlarda oldu… Sonra onunla Bakıda görüşdük. Bazar günü onu bağ evinə qonaq apardım. Mənə belə bir şey danışdı. Bakıya səfəri ərəfəsində Yerevanda olarkən bəzi mədəniyyət xadimləri ona yanaşıb demişlər ki, Qarabağın Ermənistana verilməsi barəsində məktub hazırlayırlar. M.Şaginyan həmin məktubu imzalamaqdan boyun qaçırmış və həmkarlarına məsləhət görmüşdür ki, bir

daha belə işlərlə məşğul olmasınlar. Amma Azərbaycanda olarkən o, ermənilərin vəziyyəti ilə maraqlanmışdı və mənə belə dedi: *"Sizdə ermənilər yağ içində böyrək kimi yaşayırlar"* (51).

Doğrudanmı bu Marietta Şaginyanın qəti mövqeyi idi? Inanmaq çətindir. Bunun əsil səbəbi ermənilərin Heydər Əliyev işığından yarasa kimi qorxmaları idi. Buna görə də daşnaklar Naxçıvan və Qarabağ məsələsini sonraya (13 il) saxladılar. Amma sakit olmadılar. 1978-ci ildə Mikoyan, 1982-ci ildə M.Şaginyan öldü:

1982-ci ildə H.Əliyev SSRİ və Sov.İKP rəhbərliyinə irəli çəkildi. Ermənilər daxildən boğulurdu. Yaşayış yerindən asılı olmayaraq hər yerdə ermənilər (hətta müzürr-vətənsiz azərbaycanlılar da) Heydər Əliyevin əleyhinə fitnəkarlığa başladılar.

Ermənipərəst M.Qorbaçov onları dəstəklədi, düşmən öz arzusuna çatdı. 1987-ci ilin oktyabrında H.Əliyev "Öz ərizəsi ilə" Moskvadakı rəhbər vəzifəsindən getdi. Aqanbekyan Parisdən bütün ermənilərə "Qalxın!" işarəsi verdi. 1988-ci ilin martında Irəvanın Teatr meydanındakı mitinqlərdən birində Ermənistan KP MK-nın keçmiş birinci katibi, dəfələrlə H.Əliyevlə duz-çörək kəsmiş olan Karen Seropoviç Dəmirçiyan dedi: *"Yadınızda saxlayın ki, bizim iki böyük düşmənimiz vardır. Onlardan biri Atatürk, o biri isə Heydər Əliyevdir. Atatürk həyatda yoxdur. Heydər Əliyev isə yaşayır. Çalışıb onu bir*

*dəfəlik aradan götürmək lazımdır. Yoxsa qazanacağımız qələbələr müvəqqəti olacaqdır”* (3).

Bu fikir bütün daşnakların qanına-canına hopmuşdu. Məşhur avantürist daşnak Zori Balayan da eyni fikirlə yaşayırdı. O, 1995-ci ildə mart ayının 23-də özünün 60 illik yubileyində demişdir: *“Əgər Heydər Əliyev 2005-ci ilə qədər (yəni 10 il – A.B.) hakimiyyətdə qalsa “Böyük Ermənistan”, “Qarabağ” və daha bir çox başqa arzularımız gözümüzdə qalacaq”* (4).

Adam istər-istəməz düşünür: Bizim bəzi dönüklərimiz ki, *“Heydər Əliyev Azərbaycan üçün rus müdaxiləsindən də, erməni təcavüzündən də təhlükəlidir”* deyərək ona sui-qəsd hazırlayarkən K.Dəmirçiyanın, Zori Balayanın arzusunu yerinə yetirmək istəyirdilərmi?...

Bundan əlavə, erməni başbilənləri inanırmış ki, H.Əliyev 2005-ci ilə qədər yaşasa Qarabağ məsələsi birdəfəlik həll olunacaq. Amma unudurdular ki, ona da Heydər Əliyev deyərlər. Bünövrəsinin özülünü qoyduğu müstəqillik, azadlıq, toxunulmazlıq qalasının bürclərini ucaltmaq üçün öz yerində İlham Əliyevi qoyacaq. Buyurun, xarici havadarlarınıza arxalanmaq-dan bircə gün imtina edin. Görün kim arzusuna çatır?

Yuxarıda Moskvadakı havadarlarının köməyilə ermənilərə 114 min kv. kilometr ərazimizdən 28 min, eləcə də (1928-ci ilədək Naxçıvan ərazisi 5998 olduğu halda indi 5500 kvadrat km.dir) Naxçıvan ərazisindən 488 kvadrat kilometr alınıb Ermənistana verilməsi

faktını əsaslı surətdə Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun «Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə “Azərbaycanın Dövlət müstəqilliyi əbədi və dönməzdir” adlı məruzəsində görə bilərik. Cənab Vasif Talıbov demişdir:

Azərbaycan Xalq Cümhuriyyətinin yubileyini qeyd etdiyimiz bir dövrdə belə bir faktı da diqqətinizə çatdırmağı vacib sayırıq ki, cümhuriyyət dövründə 114 min kvadrat kilometr torpaq sahəsi olan Azərbaycan indii 86,6 min kvadrat kilometr əraziyə malikdir. 1929-cu ilədək Naxçıvanın ərazisi 5988 kvadrat kilometr idisə indi 5500 kvadrat kilometrdir.

Göründüyü kimi, qısa zaman kəsiyində xeyli torpaq itkilərinə yol verilmişdir. Bu, uzun müddət Azərbaycana və Naxçıvana qarşı aparılan ərazi iddiasının acı nəticəsidir. 1929-cu il fevralın 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Moskva və Qars beynəlxalq müqavilələrinin şərtlərinə məhəl qoymadan və bu müqaviləni imzalayan dövlətlərlə razılaşdırılmadan Naxçıvana məxsus ərazilər – Şərur rayonunun Xaçik, Horadiz, Ordubad rayonunun Karçevan, Şahbuz rayonunun Oğbin, Sultanbəy, Ağxəc, Ses, Almalı və İtğıran kəndləri Ermənistan SSR-in tərkibinə verilmişdir. Ermənistana verilən əraziləri ümumi sahəsi 657 kvadrat kilometri təşkil edirdi. Bunlardan əlavə Cəbrayıl qəzasının Zəngilan nahiyyəsinin tabeliyində olan və azərbaycanlıların yaşadığı Ağdərə, Leyvaz, Astazur

və Nüvədi kəndlərinin sakinlərinin rayon mərkəzindən uzaq olmaları barədə narazılıqlarından məharətlə istifadə edən ermənilər bu regionda yeni rayon yaratmaqla həmin kəndləri də Ermənistan SSR ərazisinə qatmışlar. Belə ki, 1930–31-ci illərdə bu yolla süni şəkildə Meğri rayonu yaradılmış və Naxçıvanın ərazi cəhətdən Azərbaycanla kəsik məsafəsi 11 kilometrdən 44 kilometrə çatdırılmışdır.

Sonrakı dövrlərdə 1928–32, 1942 və 1963-cü illərdə Azərbaycan SSR-in, o cümlədən Naxçıvan ərazisinin topoqrafik xəritələri təşkil edilərkən milliyyətcə erməni və rus olan kartoqraflar Naxçıvanın ziyanına və Ermənistanın xeyrinə yönəldilmiş çoxlu təhriflərə yol vermiş, beləliklə, vahid dövlət məkanında daşnak Ermənistanının yeni torpaqlar zəbt və ilhaq etmək siyasəti hiyləgər yollarla davam etdirilmişdir. Belə ki, 1969-cu ilin may ayında Azərbaycan SSR Nazirlər Soveti Azərbaycanın və Naxçıvanın sərhəd kəndlərinin bir hissəsinin Ermənistana verilməsi haqda qərar qəbul etmişdir. Lakin bundan iki ay sonra Azərbaycanda hakimiyyətə gələn möhtərəm Hedyər Əliyevin qətiyyəti nəticəsində həmin qərar həyata keçirilmədi. Ümumiyyətlə, təbiətən xalqa bağlı olan möhtərəm Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ölkəmizin bir qarış torpağı belə ermənilərə verilməmişdir. Bütün hallarda Ermənistan və onun Moskvadakı havadarları Heydər Əliyev siyasi hakimiyyətdən uzaqlaşdıqdan sonra ərazi və torpaq

iddialarını reallışdıra bildilər. Möhtərəm Heydər Əliyevin böyük siyasətdən uzaqlaşdırılması erməni daşnak lobbisinin və beynəlxalq qüvvələrin uzun müddət və ardıcıl şəkildə həyata keçirdikləri kompaniyanın əsas vəzifəsi idi. Təsadüfi deyildir ki, məhz bundan sonra xaricdən dəstək alan Ermənistan hökuməti Azərbaycana qarşı ədalətsiz müharibəyə başlayaraq Qarabağ istiqamətində və Naxçıvan sərhədləri boyu vəziyyəti daha da gərginləşdirə bildi (39).

## NAXÇIVAN 1969–1993-cü illərdə

Yuxarıda demişdik ki, Naxçıvanın 1924-cü ildən sonrakı tarixini Naxçıvan MR Ali Məclisinin sədri 4 dövrə bölmüşdü. Muxtar Respublikasının 75 illik yubiley təntənəsindəki məruzəsində Naxçıvan MR Ali Məclisinin sədri birinci dövr olaraq 1924–1969-cu ili, ikinci dövr isə 1969–1987-ci illəri nəzərdə tuturdu. Bu, çox düzgün və elmi təsnifdir. Çünki Naxçıvanın tale tarixi Azərbaycan taleyi və tarixi ilə vəhdətdə götürülür. Biz 1924-cü ildən 1969-cu ilə qədər ötəri danışdıq. Bunları da əlavə etmək lazımdır ki, 1969-cu ilə qədər Azərbaycan əslində, XIX əsrdəkindən irəli gedə bilməmişdi. Yəni Bakıda mövcud olan hər ali məktəbin bir köhnə binası, EA, MK-nın, Hökumət evinin köhnə binalarından və s. gözə dəyən yeni bir şey yox idi. Neft hasilatı azalır, kənd təsərrüfatı geriləyirdi. Bu Moskvanı da narahat edirdi ki, nə üçün Azərbaycan bizə lazım olan qədər pambıq, üzüm və başqa kənd təsərrüfatı məhsulları və s. vermir. Buna görə də Azərbaycan rəhbərliyində dəyişiklik etmək lazım gəldi. 1969-cu ilin iyul ayında keçirilən Azərbaycan KP MK Plenimunda Azərbaycan Xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyev MK-nın büro üzvü və birinci katibi seçildi. Bu, xalqımızın neçə minillik tarixində ən böyük və taleyüklü hadisə idi. Artıq 21 il idi ki, bu böyük şəxsiyyət qəlbində bir fikiri daşıyır, onun ucadan deyilməsi məqamını gözləyirdi: *“Azərbaycan mənim qibləgahımdır… Mən*

*fəxr edirəm ki, Azərbaycanlıyam”.* Bu lakonik fikrin geniş ifadəsini ulu öndər müstəqil Azərbaycanın ilk illərində reallaşdıracaq.

Ulu öndərin 1969–1987-ci illər arasındakı fəaliyyəti haqqında onlarla yüzlərlə monoqrafiya, dissertasiya, minlərlə müxtəlif xarakterli məqalələr yazılmışdır. Hətta bu sətrlərin müəllifi bu dahi şəxsiyyət haqqında 20-dən artıq elmi və elmi publisistik məqalə yazmış və onun ilk səhnə obrazını yaratmışdır. Bu kitabı yazmaqda bizim məqsədimiz Heydər Əliyev siyasi Universitetinin ikinci istedadlı məzunu, Naxçıvanı ulu öndər göstərdiyi istiqamətdə və arzu etdiyi səviyyədə yaşadıb inkişaf etdirən, xalqımızın bacarıqlı və qeyrətli oğlu Vasif Talıbovun yüksəltdiyi Naxçıvan haqqında bəhs etmək, onun bu titanik fəaliyyəti və şəxsiyyəti haqqında məlumat verməkdir. Bir də görürsən ki, kiçik bir müəssisənin istedadsız rəhbəri ayda bir dəfə mətbuata intervü verir, özünü tərifləyir kiçik işini göylərə qaldırır. Amma Vasif Talıbov heç vaxt mətbuata intervü verməmişdir. Hətta mən də ondan siyasi fəaliyyəti haqqında, özü haqqındha müsahibə ala bilmədim. O, həmişə təvazökarlıqla böyük türk şairi Ziya Paşanın aşağıdakı sözlərini göz önündə saxlayır.

*Ayinəsi işdir kişinin lafə baxılmaz*
*Şəxsin görünür rütbeyi-elmi əsərindən.*

Bu səbəbdən də Vasif Talıbovun əməlindən-gördüyü, hamının etiraf etdiyi böyük işlərdən yazdığımız kimi kitabın ilk səhifələrindən başlayaraq onun yüksək elmi potensialını da nümayiş etdirmək məqsədi ilə bütün tarixi, iqtisadi, sosial-siyasi məsələlərə onun münasibətlərinə geniş yer vermişik.

Bu sətirləri yazanda düşündüm: Əcəba mən də ulu öndərin epoxal xidmətlərini tarixi, elmi faktlarla qələmə alım, yoxsa sözü Vasif müəllimə verim. Hesab etdim ki, ulu öndərin fəaliyyəti haqqında Vasif Talıbovun məqalə məruzə və çıxışlarından götürdüyüm parçaları məqsədyönlü şəkildə vermək daha yaxşı – məqsədə müvafiq olar. Ulu öndərin 1993-cü il mayın 9-da Naxçıvanda keçirilən yubiley tədbirində Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov bu dahi şəxsiyyətin ömür yolunu, həyat amalını, siyasi fəaliyyətin qısa, lakin dolğun şəkildə ifadə etmişdir (çıxışın mətnini ixtisarla veririk): *"Xalqların böyüklüyü onların ərazilərinin böyüklüyü-kiçikliyi, yaxud əhali sayı ilə deyil, əsrlər boyu bəşər tarixinə verdikləri böyük şəxsiyyətləri və qüdrətli övladları ilə ölçülür. Böyük Azərbaycan xalqı bütün dövrlərdə olduğu kimi, iyirminci əsrdə də Heydər Əliyev kimi qüdrətli şəxsiyyət yetirmişdir"*.

Bu tarixi gündə müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin parlaq xatirəsini dərin ehtiramla yad edirik.

Müasir dövrdə müdrik dövlət xadimi Heydər Əliyevin adı müstəqil Azərbaycan dövlətinin rəmzi

kimi səslənir. Müstəqil Azərbaycanın simasını müəyyənləşdirmiş bu qüdrətli şəxsiyyət xalqımızın tarixində və taleyində silinməz izlər qoymuşdur. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" 2013-cü il 21 yanvar tarixli sərəncamında qeyd olunur ki, *"Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur".*

Ulu öndər Heydər Əliyevin mənalı ömür yolunu göz önünə gətirsək, bu ömrün yalnız bir məqsədə xidmət etdiyinin şahidi olarıq: bu – Azərbaycan və Azərbaycançılıqdır!

*"Mən balaca bir evdə, zəhmətkeş ailədə, bir yaz günündə dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə, bir qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram".*

Görkəmli dövlət xadiminin bu sözləri onun həyatının mənasını dəqiq ifadə edir. 1923-cü il mayın 10-da Azərbaycanın qədim Naxçıvan diyarında dünyaya göz açan möhtərəm Heydər Əliyev nəsillərə nümunə olan şərəfli ömür yolu keçmiş, daim xalqımızın rifahı naminə, Azərbaycan naminə çalışmışdır.

Ulu öndərimiz Azərbaycanı həyatının mənası hesab edirdi. Bu səbəbdən o, Azərbaycanı müqəddəs yer kimi uca tutur, azərbaycanlı olmağı ilə fəxr edir və deyirdi ki: *"Azərbaycan mənim qibləgahımdır"*. Yaxud: *"Mən fəxr edirəm ki, mən azərbaycanlıyam"*. Sonsuz iftixar və qürur hissi ilə səslənən bu fikirlər bir dahi ömrünün manifestidir. O manifestin hansı səhifəsini çevirsəniz, orada Azərbaycan naminə sonsuz fədakarlıqlar görəcəksiniz. Məhz buna görə deyirik ki, iyirminci əsr siyasi tariximizdə ulu öndər Heydər Əliyev qədər həyatını Azərbaycana həsr edən, azərbaycançılıq uğrunda, dövlətimizin və xalqımızın müstəqilliyi uğrunda bu qədər fədakarlıqlar göstərən və hətta öz canından belə keçməyə hazır olan ikinci bir şəxsiyyət, ikinci bir dövlət xadimi yoxdur.

Dahilərin həyatı xalqa məxsusdur. Ümummilli liderimizin ötən əsrin 40-cı illərində xüsusi xidmət orqanlarında əmək fəaliyyətinə başladığı dövr bu dahi şəxsiyyətin Azərbaycan naminə missiyasının birinci mərhələsi kimi nəzərdən keçirilə bilər. Bu mərhələnin xüsusiyyəti ondan ibarətdir ki, o dövrün cəmiyyəti üçün kifayət qədər qapalı olan bir təşkilatda fəaliyyət göstərməsinə baxmayaraq, möhtərəm Heydər Əliyev

imperiya maraqlarına yox, Azərbaycanın milli maraqlarına xidmət göstərmiş, rejimin yaratdığı çətinliklərə baxmayaraq, təhlükəsizlik orqanlarında azərbaycanlı kadrların yetişdirilərək irəli çəkilməsinə nail olmuşdur. Xalqımızın böyük oğlu yaradıcı ziyalıların, milli düşüncəli kadrların incidilməsinin qarşısını almış, xalqın həqiqi maraqlarına cavab verən yaradıcı mühitin formalaşmasına çalışmışdır.

Son dərəcə çətin və riskli olan bu tədbirlər hesabına ötən əsrin 50–60-cı illərində Sovetlər Birliyinin digər respublikalarından fərqli olaraq, Azərbaycanda dissidentliyə yol verilməmişdir. Əksinə, milli düşüncəli ziyalılar müdafiə olunmuş, Azərbaycanın təhlükəsizlik orqanı təkcə şəxsi heyət baxımından yox, həm də peşə fəaliyyətinin mahiyyəti baxımından azərbaycanlaşdırılmışdır.

Bu, dövlət təhlükəsizlik orqanının leytenantından bu orqanın generalına və rəhbərinədək şərəfli yol keçmiş möhtərəm Heydər Əliyevin Azərbaycan naminə fəaliyyətinin birinci mərhələsinin ən mühüm yekunlarından biridir.

Aydındır ki, bu fəaliyyət respublika həyatının yalnız bir sahəsini əhatə edirdi və bu sahəni yeniləşdirməklə bütövlükdə Azərbaycanı inkişaf etdirmək mümkün deyildi. Azərbaycan o zaman inkişaf edə bilərdi ki, ümumrespublika miqyaslı dəyişikliklər həyata keçirilsin.

Bu dəyişikliklərin əsası 1969-cu il iyulun 14-də qoyuldu. Həmin gün hakimiyyətə gələn 46 yaşlı

dövlət təhlükəsizlik orqanı generalı və möhkəm siyasi iradə sahibi olan möhtərəm Heydər Əliyevi çətin sınaqlar gözləyirdi. O, Azərbaycanı böyük bir imperiyanın tərkibində milli varlığını itirməkdən qorumalı, heç bir əsas olmadan tarixi torpaqlarımızın Ermənistana güzəştə gedilməsinin qarşısını almalı, iqtisadiyyatı dirçəltməli, sosial ədalətsizliyi aradan qaldırmalı, bir sözlə, xalqı yaşatmalı idi. Bununla yanaşı, təhsil, mədəniyyət və sosial sahədə də öz həllini gözləyən ciddi problemlər yığılıb qalmışdı. O dövrün Azərbaycanı ittifaq dövlətinin digər respublikalarından fərqli olaraq, əhalisi son dərəcə kasıblıq həddində yaşayan aqrar region idi.

Göründüyü kimi, respublikamız ağır günlərini yaşayır, siyasi və iqtisadi həyatda tənəzzül, cəmiyyətdə isə mənəvi aşınma dərinləşirdi. Ulu öndərimizin Azərbaycan naminə fəaliyyətinin bu mərhələsi qeyd olunan problemlərin qısa müddətdə aradan qaldırılmasına, dərin köklərə və qədim mədəniyyətə malik olan xalqın tarixi yaddaşının, üzərində yaşadığı torpağa sahiblik hissinin bərpasına, bununla birlikdə isə Azərbaycanın özünə qayıdışına hesablanmışdı.

Ümummilli liderimizin xilaskarlıq missiyasının bu mərhələsindən danışarkən istər-istəməz qədim Romanın müdrik siyasi xadimi, sağlığında "vətənin atası" adlandırılan Mark Siseronun *"Mən ya vətənin rifahı üçün çalışmalı, ya da onunla birlikdə məhv olmalıyam"* sözləri yada düşür. Bu fikirlərin

səsləndiyi tarixdən iyirmi əsr sonra sağlığında ümummilli lider adlandırılan böyük dövlət xadimi Heydər Əliyev də Vətənin ağır bəlalardan xilasını özünün tarixi missiyası kimi qəbul edərək deyirdi: *"Mən ya müstəqil Azərbaycan dövlətini quracağam, ya da bu yolda şəhid olacağam"*.

44 il bundan əvvəl ümummilli lider Heydər Əliyev tərəfindən elan olunmuş siyasi-iqtisadi müstəqillik kursu, inkişafın milli intibaha yönəldilmiş modeli Azərbaycana yeni həyat bəxş etdi. Bu həyat özünü nədə göstərirdi?

Hər şeydən əvvəl, tarixilik baxımından olduqca qısa bir müddətdə – cəmi 14 il ərzində Azərbaycan ittifaq iqtisadiyyatının xammal və aqrar əyalətindən müxtəlif sahələrdə hərtərəfli inkişafa qovuşan nəhəng infrastruktur ölkəsinə çevrildi. Bu dövrdə Azərbaycanın gələcək müstəqilliyi üçün atılan addımlar, həyata keçirilən məhsuldar fəaliyyət Heydər Əliyev quruculuq xəttinin fəlsəfəsini təşkil edirdi. Bu da ondan ibarət idi ki, Azərbaycan qısa müddətdə öz tarixi taleyinin sahibi oldu; ölkəmiz başqa müttəfiq respublikaların 50 ilə keçdiyi yolu nəinki 14 ilə qət etdi, hətta bu respublikaları da qabaqlayaraq aqrar-sənaye kompleksinin güclü inkişaf etdiyi lider respublika kimi şöhrət qazandı.

Bunlar asanlıqla başa gəlmirdi. Nəhəng işlər görülmüş, 300-ə yaxın istehsalat sahəsi yaradılmış, kimya və neft maşınqayırma sahələri tamamilə yenidən qurulmuş, mərkəzləşmiş vəsait hesabına o

dövr üçün tamamilə yeni olan elektronika, radiotexnika, kosmos, aviasiya, hesablama texnikası təmayüllü yeni obyektlər istifadəyə verilmişdi. İyirminci əsrin 70-ci illərinin kiçik Azərbaycanı böyük Sovetlər Birliyinin əsas neft maşınqayırma, üzümçülük bazası, yeganə məişət kondisionerləri istehsalı mərkəzi statusunu qazanmışdı. Respublikamızın ittifaq miqyasında iqtisadi çəkisi əhəmiyyətli dərəcədə artmışdı.

Bu dövrdə ərzaq təhlükəsizliyi ilə yanaşı, Azərbaycanın enerji təhlükəsizliyinin də əsası qoyulmuşdu. 11 böyük elektrik stansiyası, o cümlədən Naxçıvan Muxtar Respublikası ərazisində, Araz çayı üzərində 22 meqavat gücündə su elektrik stansiyası tikilərək istifadəyə verilmişdi. Əgər 1969-cu ildə Azərbaycan elektrik enerjisi alan respublika idisə, 1982-ci ildə artıq elektrik enerjisi satan respublikaya çevrilmişdi.

O vaxt Azərbaycanda kadr hazırlığının yarıtmaz səviyyəsi iqtisadi sahədə planların həyata keçirilməsinə imkan vermirdi. Qısa müddətdə məktəb işi sahəsində ciddi dəyişikliklər aparıldı. Təhsil şəbəkəsi genişləndirildi. Əgər 1969-cu ildə 765 orta məktəbdə ildə 73 min şagird təhsil alırdısa, 1981-ci ildə 335 min şagirdi əhatə edən 2625 məktəb və günüuzadılmış qrup fəaliyyət göstərirdi. Yüksək inkişaf müstəvisinə çıxan iqtisadiyyatın tələblərinə uyğun olaraq, ali və orta ixtisas təhsili məktəblərinin də strukturunda dəyişiklik aparılmış, milli kadr

hazırlığına diqqət artırılmışdı. Ümummilli liderimizin Azərbaycanda hakimiyyətinin birinci dövründə ali məktəblərdə 100-dən artıq ixtisas açılmış, 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılmışdı. Bununla yanaşı, Azərbaycandan kənarda təhsilin də əsası qoyulmuşdu. Hər il minə yaxın gənc ölkəmizdən kənarda təhsilə göndərilirdi. 1970–1982-ci illər ərzində Azərbaycanda zəruri ehtiyac duyulan 250 ixtisas üzrə keçmiş SSRİ-nin 270 nüfuzlu ali məktəbində 15 mindən çox kadr hazırlanmışdı.

Ötən əsrin 70-ci illərində baş vermiş proseslərin təhlili göstərir ki, ulu öndərimiz genişmiqyaslı maarifçilik təşəbbüsünü milli ruhun yüksəlişi və millətin tarixi yaddaşının bərpası vəzifələri ilə vəhdət halında götürür, Azərbaycan dilinin tədrisi məsələlərini diqqətdə saxlayırdı. Sovet rejiminin kifayət qədər güclü olduğu bir dövrdə milli dəyərlərin və milli şüurun bərpasına xidmət edən tədbirlərin görülməsi, Azərbaycan dili və Azərbaycan tarixi ilə bağlı tədqiqat işlərinin genişləndirilməsi, akademik nəşrlərin hazırlanması, rus dilinin yeganə rəsmi dil olduğu bir şəraitdə Azərbaycanın 1978-ci il Konstitusiyasına *"Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir"* müddəasının salınması xalqımızın böyük oğlunun misilsiz tarixi xidmətlərindəndir.

Bu dövrün digər nəticələrindən biri də gələcək nəsillər üçün təbii sərvətlərin qorunması ilə yanaşı, tarixi ərazinin də qorunmasıdır. Bu faktdır ki,

ümummilli liderimizin hakimiyyəti dövründə Azərbaycan torpaqlarının 1920-ci ildən başlayaraq qeyri-qanuni yolla və hissə-hissə Ermənistana verilməsi praktikasına son qoyulmuş, ermənilərin tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağa dair iddia təşəbbüslərinin qarşısı alınmış, bir qarış da olsun, Azərbaycan torpağı güzəştə gedilməmişdir. Buna qeyd olunan regionun geniş inkişaf yoluna çıxarılması, yeni iqtisadi xəttin götürülməsi ilə nail olunmuşdu.

O zaman elan olunmuş iqtisadi dirçəliş xətti Naxçıvan Muxtar Respublikasının da simasını inanılmaz dərəcədə dəyişmişdi. Muxtar respublika başdan-başa tikinti meydançasına çevrilmişdi. Sənayenin, emal və hasilat sahələrinin şəbəkəsi genişlənmiş, mədəniyyət evləri və muzeylər, məktəblər və xəstəxanalar inşa olunmuş və yeni Naxçıvan yaradılmışdı. İstifadəyə verilən yeni su anbarları hesabına 55 min hektara yaxın torpaq sahəsinin suvarılması mümkün olmuş, suvarılan yeni torpaqlar hesabına əkin dövriyyəsi xeyli genişləndirilmiş, əhalinin güzəranı yaxşılaşmışdı. Mürəkkəb relyefə malik 1804 kilometrlik dağlıq ərazi ilə Naxçıvana təbii qaz xətti çəkilmiş, yeni kommunikasiya xətləri, aeroport istifadəyə verilmişdi.

Ümummilli liderimizin Azərbaycanda hakimiyyətinin birinci dövründə həyata keçirilən tədbirlərin arxasında son dərəcə ciddi məqsəd dayanırdı. Bu məqsəd, şübhəsiz ki, gələcəkdə

müstəqil yaşaması üçün Azərbaycanın güclü iqtisadi və kadr potensialına malik olmasından ibarət idi. Məlumdur ki, 70-ci illərin əvvəllərində Azərbaycanda 14 milyon ton neft istehsal edilirdi. Sonrakı illərdə bu göstəricinin məqsədli şəkildə 9 milyon tona endirilməsinə baxmayaraq, Bakıda 30 milyon ton neft emalı gücünə malik olan sənaye kompleksi yaradılmışdı. Yaxud başqa bir faktı götürək. O vaxt hərbi quruculuq sahəsində ittifaq dövlətinin bütün tədbirləri Azərbaycandan kənarda planlaşdırılırdı. Buna baxmayaraq, ümummilli lider azərbaycanlı gənclərin Bakıdakı ali hərbi məktəblərə qəbul planının artırılmasına, hər il 800-900 azərbaycanlı gəncin keçmiş Sovetlər Birliyinin 54 ən qabaqcıl ali hərbi məktəblərində və hərbi akademiyalarında təhsilə göndərilməsinə, Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılmasına nail olmuşdu. Bunlarla yanaşı, SSRİ müdafiə sənayesinə daxil olan, müasir texnologiyaya əsaslanan on bir zavodun Bakıda tikilməsi də müstəqillik arzusunun reallaşmasına xidmət edən vacib faktorlardan idi.

Bütün bunlardan çıxarılan nəticə nədən ibarətdir? Ondan ibarətdir ki, SSRİ kimi böyük dövlətin ərazisinin və əhalisinin cəmi 3 faizini təşkil edən kiçik Azərbaycanda uzaq perspektivə hesablanmış taleyüklü işlər görülür, respublikanın maddi sərvətləri, karbohidrogen ehtiyatları gələcək nəsillər, müstəqillik dövrü üçün qorunub saxlanır, bununla yanaşı, ittifaq büdcəsindən mərkəzləşmiş maliyyə və maddi

resursların artan həcmdə Azərbaycanın inkişafına yönəldilməsi təmin edilirdi. O dövrün politoloq və tarixçiləri öz təhlillərində göstərirdilər ki, SSRİ-də cəmi 2 respublika müstəqil olaraq yaşayıb fəaliyyət göstərə bilər. Onlardan biri Azərbaycan idi. 1969-cu ildə özünü heç nə ilə təmin edə bilməyən Azərbaycan 1982-ci ildə ittifaq dövlətinin dotasiyası olmadan yaşaya bilən, iqtisadi müstəqilliyə tam hazır olan respublika səviyyəsinə gəlib çatmışdı.

Bu amil ümummilli liderimizin Azərbaycanda rəhbərliyinin birinci dövrünün ən mühüm siyasi yekunu və milli liderin, əsl rəhbərin qısa zaman kəsiyində mümkün olmayanı mümkün etmək bacarığının əyani ifadəsidir. Ötən əsrin 70-80-ci illərində ümummilli liderimizin Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqəti çəkən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: *"SSRİ dönəmində Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı"*.

1982-ci ilin sonlarında möhtərəm Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini seçildi. Bu təyinat

ümummilli liderimizin misilsiz dövlət idarəçiliyi bacarığı ilə bağlı idi.

1982-1987-ci illərdə qüdrətli dövlətin rəhbərlərindən biri kimi gərgin rejimdə fəaliyyət göstərməsinə baxmayaraq, görkəmli dövlət xadiminin gündəlik iş qrafikində ən vacib məsələlər sırasında Azərbaycan və onunla bağlı problemlərin həlli dayanırdı. Sovetlər Birliyində hamı Heydər Əliyev-Azərbaycan faktoru ilə hesablaşır, heç kim Azərbaycanın inkişafının qarşısını almağa, əsassız torpaq iddiası irəli sürməyə cəsarət etmirdi.

Qərəzli təzyiqlər nəticəsində 1987-ci il oktyabrın 21-də ulu öndərimiz siyasi hakimiyyətdən uzaqlaşdırıldı. Bundan 15 gün sonra Dağlıq Qarabağın Azərbaycandan ayrılması məsələsi gündəliyə çıxarıldı.

O dövrdə siyasi hakimiyyətdən istefasının səbəblərindən danışan ulu öndərimiz demişdir: *"Mən SSRİ respublikalarının nə vaxtsa müstəqillik əldə edəcəklərini düşünürdüm. O illərdə Azərbaycanın da müstəqil dövlət olmasını arzu edirdim. Məni istefaya getməyə məcbur edənlərin əsas məqsədi Azərbaycanın müstəqillik qazanmasının qarşısını almaq idi"*.

Xalqımızın böyük oğlu, şübhəsiz ki, atdığı addımların onun şəxsi həyatı üçün son dərəcə təhlükəli olacağını görürdü. Lakin Azərbaycanın xilası və inkişafı naminə tutduğu yoldan dönməyəcəyini bəyan edərək *"Xalq mənə ümid*

*bəsləyir. Mən bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram"* deyirdi.

Ulu öndərimiz Azərbaycan naminə mübarizənin açıq cəbhəsində dayanmış, bu yolda *"üç şeyə - yaradanıma, zəhmətimə, bir də xalqıma arxalanıram"*, - deyərək həqiqi liderin xalqın ağır günündə göstərməli olduğu şücaət və qətiyyətin canlı nümunəsini yaratmışdı.

Tarixdə müdriklik barədə filosofların müxtəlif fikirləri var. Ümummilli liderimiz "müdriklik" anlayışına belə izahat vermişdir: *"Müdriklik təkcə elmi bilik və ya təhsillə bağlı deyil. Müdriklik insanın fitri istedadıdır. Müdriklik insanın həyatı dərk etməsi, gedən proseslərə düzgün qiymət verə bilməsi və ondan faydalı nəticələr götürə bilməsidir. Müdriklik insanın kökündə, əməlindədir"*.

Möhtərəm Heydər Əliyev hakimiyyətdə olmadığı dövrlərdə belə, Azərbaycan naminə çalışmış, Azərbaycanın müstəqilliyini öz şəxsi həyatından üstün tutmuş, 1990-cı il yanvarın 20-də xalqın müstəqillik arzusunu boğmaq üçün Bakıda törədilmiş qanlı faciəni bütün dünyaya bildirərək onu törədən dövlət rəhbərlərini kəskin ittiham etmişdir. Sovetlər Birliyinin o dövrkü siyasi praktikasında belə hadisə görünməmişdi. Müxtəlif dövrlərdə başqa müttəfiq respublikalarda da üstü məharətlə ört-basdır edilmiş siyasi qırğınlara yol verilmiş, lakin heç vaxt dövlətin ən yuxarı pillələrində təmsil olunmuş siyasi rəhbərlər tərəfindən mövcud hakimiyyətə qarşı bu cür kəskin

ittihamlar səsləndirilməmişdi. Xalqın mənafeyi naminə öz həyatını riskə ataraq mərkəzi hakimiyyətə qarşı kəskin mövqedə dayanmaq üçün yalnız və yalnız Heydər Əliyev olmaq lazım idi!

Ümummilli liderin siyasi hakimiyyətdən istefa verdiyi 1987-ci ildən sonrakı dövr digər tərəfdən onu da göstərdi ki, Azərbaycanın nicatı Heydər Əliyev yolundadır. Ötən əsrin 90-cı illərinin əvvəllərində dövlətin və xalqın Heydər Əliyev yolundan döndərilməsi Azərbaycanı bu gün də özünü göstərən ağır bəlalara saldı.

Digər tərəfdən bu dövr böyük bir ibrət dərsidir. O da bundan ibarətdir ki, Azərbaycanın müstəqil dövlətçiliyi və tərəqqisi Heydər Əliyev yolunda, Heydər Əliyev ideyalarındadır. Azərbaycanın bundan kənarda inkişafı olmayıb və bundan sonra da olmayacaqdır.

Alman filosofu Hegelin belə bir məşhur kəlamı var: *"sürətlə iflasa yaxınlaşan xalqların taleyi yalnız dahilər tərəfindən xilas oluna bilər"*. Azərbaycanın xilası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu dahi şəxsiyyətin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyası ilə zəngindir. Bu missiyanın öz başlanğıcını götürdüyü yer isə Azərbaycanın Naxçıvan Muxtar Respublikasıdır.

Xalqımızın böyük oğlunun 1990-cı il iyul ayının 22-də Moskvadan Naxçıvana qayıdışı Azərbaycanın qurtuluş tarixinin parlaq səhifəsini təşkil etmişdir. Bu

böyük şəxsiyyətin Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsi və milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə nəticələnmişdir.

Bu dövrdə müstəqilliyin bərpası istiqamətində görülən tədbirlər təkcə siyasi müstəvidə getmirdi. Yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılan iqtisadi model də formalaşdırılmış, aqrar islahatların həyata keçirilməsi barədə tarixi qərarlar qəbul edilmiş, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülmüşdü. Qonşu Türkiyə və İranla iqtisadi, mədəni, humanitar əlaqələr yaradılmışdı. Bu dövrün Naxçıvanı yenidən 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq xəttinə, inkişafın Heydər Əliyev yoluna qayıdan ilk region olmaqla Azərbaycanda böyük nümunə gücünə malik idi.

Ümummilli liderimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə Azərbaycanın müstəqilliyi naminə atılan addımları yüksək dəyərləndirən ölkə Prezidenti cənab İlham Əliyev demişdir: *“O illərdə ancaq ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... Ölkəmizin müstəqilliyinin bünövrəsi də məhz o illərdə qoyulmuşdu. 1990-cı ildə Heydər Əliyevin*

*rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. Beləliklə, ulu öndər Heydər Əliyev bütün dövrlərdə, çalışdığı bütün vəzifələrdə, ictimai-siyasi quruluşlardan asılı olmayaraq, həmişə Azərbaycan xalqını müdafiə edirdi. Doğma Azərbaycanın inkişafına səy göstərirdi. Bunun nəticəsində bu gün Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan çox sürətlə inkişaf edir".*

Millətlərin gücü və yenilməzliyi onların liderlərindən asılıdır. Lideri olmayan ölkə, xalq müstəqillik əldə edə və yaxud əldə olunmuş müstəqilliyi qoruyub saxlaya bilməz.

Azərbaycanın müasir tarixi dəfələrlə sübut etmişdir ki, xalqın gücü ümummilli lider Heydər Əliyevdə olduğu kimi, ümummilli lider Heydər Əliyevin də gücü Azərbaycan xalqındadır. Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də ulu öndərimizin ikinci dəfə ali hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq, bir dövlət kimi siyasi xəritədən silinmək təhlükəsindən xilas etdi. 15 iyun ən yeni tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Böyük öndərimiz Azərbaycan naminə yaşadığı həyatın, mənalı ömür yolunun siyasi mübarizələrlə dolu olan anlarını göz önünə gətirərək deyirdi: *"İndi... bütün həyatımı təhlil edərək görürəm ki, hər halda bir başlıca hadisə də var. O da bundan ibarətdir ki, mən Azərbaycanın müstəqilliyini təmin*

*edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam".*

*"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt insan kimi həyatımı başa çatdıracağam".*

Ulu öndərimiz güclü, müstəqil Azərbaycan dövləti yaratmaqla yanaşı, onu özündən sonra inamla idarə edə biləcək lideri, rəhbəri də yetişdirmişdir. 2003-cü ilin oktyabrında ümummilli liderimizin *"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"*, - deyə özünün layiqli davamçısı kimi təqdim etdiyi hörmətli İlham Əliyev ötən müddətdə Heydər Əliyev strategiyasını uğurla davam etdirmiş, bu strategiyanı yeni dövrün ruhuna uyğun olaraq zənginləşdirmişdir.

40 il bundan əvvəl ümummilli liderimizin keçmiş Sovetlər Birliyinin geridə qalmış aqrar xammal ölkəsindən ittifaq dövlətinin inkişaf etmiş respublikaları sırasına çıxartdığı Azərbaycan bu gün regionun lider dövlətidir.

Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır (27, 37–45).

Ixtisarla verdiyimiz bu dolğun məzmunlu məruzədə cənab Vasif Talıbov ulu öndərin Titanik fəaliyyətinin əsas cəhətlərini dürüst şəkildə göstərmiş və bu dahi şəxsiyyət haqqında, onun məfkurəsi, milli vətənpərvərliyi, xalq sevərliyi, dərin erudisiyası

haqqında müfəssəl məlumat vermişdir. Amma bir neçə detalı da əlavə etmək yersiz olmazdı. *"Söz sözün dayağıdır"* demişlər bir neçə əlavə ilə dahi şəxsiyyətin işi və daxili dünyası haqqında məlumatı dərinləşdirmək istərdik.

Azərbaycan, V.Talıbov demişkən, kənd təsərrüfatının inkişafı cəhətdən geri qalmış bir ölkə idi. Respublikamızda əsas kənd təsərrüfatı istehsalı üzümçülük və pambıqçılıq idi. Hər ikisi geri qalırdı. H.Əliyevin qətiyyəti, gündəlik qayğısı nəticəsində pambıq istehsalı sürətlə inkişaf edərək, nəinki gerilikdən yaxa qurtardı. Hətta ümumittifaq miqyasında zərbəçi mövqeyə çıxdı. 8 il dalbadal ümumittifaq sosializm yarışının qalibi oldu. Əslində keçici bayrpağın özü bir metr yarımlıq parça olsa da mənası böyük idi. Azərbaycanda pambıq istehsalı 1969-cu ildən sürətlə inkişaf edərək yüksək həddə çatdırıldı, eyni sürətli artımı biz üzüm istehsalında da görürük.

1970-ci ildə 350 min ton üzüm tədarük edilmişdi, 1983-cü ildə bu rəqəm 1,8 milyon tona çatdı. Bir ildən sonra Azərbaycan üzüm istehsalı və satışı üzrə ittifaq miqyasında birinci yerə çıxdı.

1969-cu ildən 1982-ci ilə qədər olan bu yüksəlişdən ümumittifaq banklarından Azərbaycana 101,5 milyon manat pul daxil olmuşdu. Bu təsərrüfatların maddi bazasını yüksəltdiyi kimi sənaye müəssisələri də rentabelli işlədi. Xalqın güzəranı yaxşılaşdı, əhalinin pul gəliri ildən-ilə artdı.

Kəndlər, şəhərlər öz simasını dəyişir, inkişaf edir, bütün respublika tikinti meydançasını xatırladırdı. Yeni-yeni ictimai binalar, mehmanxanalar, kitabxanalar, uşaq bağçaları, məktəblər, klublar tikilir, hər yerdə bir canlanma hiss olunurdu. Cəmi 13-14 ildə Azərbaycanda 280-dən çox maşınqayırma, dəzgahqayırma, cihazqayırma zavodu tikilib istifadəyə verildi. Təkcə bunu demək kifayətdir ki, Ümumittifaq rəhbərliyi ilə dil tapdıqdan sonra tikintisi başqa respublikalar üçün nəzərdə tutulmuş 11 zavod Bakıda tikildi. Onlardan biri də məşhur Bakı məişət kondisionerləri zavodu idi.

İki dəfə Sov.İKP MK-nın baş katibi L.İ.Brejnevi, bir neçə dəfə SSRİ Dövlət Plan komitəsinin sədri A.N.Baybakovu Bakıya gətirdi. L.İ.Brejnevi Dağüstü parka çıxarıb Əhmədli massivini göstərərək orada bir şəhərcik salmaq istədiyini bildirdi və əlavə etdi: *“Что будет реальным проявлением заботы – испытанного Лидера нашей партии к советскому Азербайджану”*. Bundan sonra Əhmədli tikildi.

SSRİ Dövlət Plan komitəsinin sədri A.N.Baybakovu Metroya – Nizami stansiyasına endirərək yeraltı magistralın Əhmədliyə qədər uzanmasını Dövlət planına saldırdı.

Bütün bu işlər Ümumittifaq miqyasında hiss edilir, görülürdü. Yurdunu yüksəldərək özü də yüksəlirdi. Buna görə də 1976-cı il fevral-mart aylarında keçirilən Sov.İKP 25-ci qurultayında ən qabaqcıl Respublika katibi kimi çıxış etdi və Sov.İKP siyasi

bürosu üzvlüyünə namizəd seçildi. 1982-ci ilin noyabrında isə Sov.İKP MK Siyasi bürosunun üzvü seçildi və SSRİ NS sədrinin birinci müavini təsdiq olundu.

Bu, bütün Ermənistanda böyük məyusluq yaratdı. Hələ Azərbaycanda ikən özünün dərin zəkası, parlaq istedadı, coşğun təşkilatçılıq qabiliyyəti sayəsində SSRİ Respublikaları arasında, demək olar ki, ən nüfuzlu rəhbər idi. Onun səyi nəticəsində rus şovinizmi nümayəndələrinin xalqımıza yuxarıdan aşağı baxması kimi qeyri-normal münasibət aradan qaldırıldı. Təkcə bir misalla kifayətlənək; Moskva bizə deyirdi sizdən mənə ancaq qul-zəhmətkeş kölə lazımdır. Ona görə də H.Əliyevə qədər bircə nəfər alim, ziyalı, mədəniyyət xadimi sosialist əməyi qəhrəmanı adını ala bilməmişdi. Bu adı kimlərə verirdilər – çobanlara, neft mədən fəhlələrinə (mühəndislərə olmazdı), pambıq yığana və s.

1970-ci ildən sonra isə H.Əliyev sübut etdi ki, bizim xalqımızın intellektual səviyyəsi heç bir xristian respublikasının xalqından aşağı deyil, bəlkə yüksəkdir. Buna görə də qısa bir müddətdə yazıçı və şairlərdən – S.Rəhimov, M.İbrahimov, S.Rüstəm, R.Rza, mədəniyyət xadimləri– Niyazi, R.Behbudov, Z.Xanlarova və s. SSRİ xalq artisti alimlərdən M.Topçubaşov və başqaları sosialist əməyi qəhrəmanı oldu. Hətta bir ildə 15 əmək qabaqcılı sosialist əməyi qəhrəmanı kimi yüksək ada layiq görüldü.

Həmişə xalqının gələcəyini düşünən H.Əliyev Azərbaycan ali məktəblərinin sayını artırmaqla yanaşı, respublikada hazırlana bilməyən ixtisaslar üzrə ildə 800-1000 nəfəri SSRİ-nin qabaqcıl ali məktəblərinə oxumağa göndərirdi. Özü də onları yola salarkən tapşırırlı: *"Harada olursunuz olun, bir an unutmayın ki, siz azərbaycanlısınız. Mən həmişə demişəm yenə də deyirəm: "arzum budur ki, azərbaycanlı gənclər ingilis dilini də, alman dilini də, rus dilini də, çin dilinidə gözəl bilsin, amma ilk növbədə öz doğma ana dilini bilsin"*. Bu gün xüsusi ideya olan Azərbaycançılıq məfkurəsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Hələ Azərbaycanın rəhbəri olarkən H.Əliyev Moskvanın ağıllı rəhbərinin etimadını qazanmışdı. Buna görə də 1970-80-ci illərdə Sov.İKP MK və SSRİ Ali Soveti nümayəndə heyətinin başçısı və üzvü kimi Almaniya, Vyetnam, Meksika, Koreya Xalq Demokratik respublikası, Rumıniya, Yuqoslaviya, İtaliya, Misir, Suriya kimi ölkələrdə olmuş, orada siyasi danışıqlar aparmışdır.

Moskvada işlədiyi illərdə də öz iş üsulu ilə siyasi büro üzvlərinin diqqətini cəlb etmişdi. Onun üçün iş günü, iş saatı yox idi. Səhərdən iş başında axşama qədər gərgin işləyirdi. Bu, çoxlarının xoşuna gəlmirdi; xüsusilə öz kurasiyasında olan sistem işçiləri H.Əliyev rejiminə, çalışqanlığına dözə bilmirdilər. Baykal-Amur magistralının çəkilişində, Çernobıl hadisəsi nəticələrinin aradan qaldırılmasında

göstərdiyi şəxsi təşəbbüs və yüksək iş qabiliyyəti diqqəti çox çəkirdi. Amma həmin illərdə də bircə gün doğma Azərbaycandan ayrı düşmədi. Gecəli-gündüzlü ana vətəni düşündü. Artıq 1964-cü ildən ermənilər susmağa, öz torpaq iddialarını içlərində saxlamağa məcbur olmuşdular. Amma erməni məkri bir an da dayanmamışdı. Raisa Maksimovna vasitəsilə Mixayıl Qorbaçovu ələ ala bildilər. Uzun gizli fəaliyyətdən sonra 1987-ci ilin oktyabr ayında istəklərinə nail oldular. Bu müddət ərzində – 4 il xalqımızın bu qəhrəman oğlu sanki Moskvada əsir həyatı keçirirdi. Bu haqda çox deyilmiş, çox da yazılmışdır…

Sumqayıt hadisələrindən tutmuş İrəvan teatr meydanındakı çıxışlara qədər, Qugark qətlindən tutmuş Xocalı hadisələrinə qədər çoxlu ədəbiyyat, çoxlu mənbələr, yazılar mövcuddur. Hətta “Xocalıda cəmi 2 nəfər ölmüşdür” deyən Azərbaycan rəhbərinin sözlərindən tutmuş, Azərbaycanda müxtəlif təşkilatların müxtəlif istiqamətlərinə qədər çox deyilmişdir. Fikrimizcə, Amerikanın Arkanzas ştatından olan hüquqşünas alim Samyuel A.Uimzin (Samuel A.Weems) “Ermənistan terrorçu “Xristian” ölkənin gizlinləri kitabındakı faktlara nəzər salmaq daha yaxşı olardı. Bu kitabı yazmaq üçün müəllif London, Paris, Roma, Moskva, İstanbul, Vaşinqton şəhərlərindəki kitabxanalarda araşdırmalar apararaq erməni-daşnak fitnəsini ifşa etmişdir (təəssüf ki, kitab 2003-cü ildə çapdan çıxandan az sonra o, müəmmalı şəkildə öldürülmüşdür). Burada Samyuel

ümumiyyətlə erməni məkrini ifşa edir. Kitabdan oxuyuruq: *"Amerikalı ermənilərin düzüb-qoşaraq soyqırım və genosid haqqında yaydıqları uzun nağılların heç bir əsası olmaması haqqında məndə rüsvayedici faktlar vardır. Ermənilər həm türklərdən, həm də xristian amerikanlardan kalan dollar qopararaq onu cəmi 150 yaşı olan "qədim" vətənlərinin rifahına yönəltmək istəyirlər. Mənim amerikalı soydaşlarımdan cavab almaq istədiyim sual sadəcə belədir: Siz kimə inanırsınız - Osmanlı İmperiyasını sağ-salamat tərk edən erməniləri görmüş amerikalılara? Və ya 1.5 milyon ermənini öldürməkdə Osmanlı dövlətini günahlandıran ermənilərə?*

*Bu kitab tarixi həqiqətlərə söykənmişdir, onların çoxu erməni mənbələrindən götürülmüşdür. Kimin həqiqəti danışdığı, kiminsə öz xüdpəsənd məqsədləri naminə uzun-uzadı nağıl danışdığını aydınlaşdırmaq üçün Amerika xristianlarının özləri nəticə çıxarmağa dəvət olunur.*

*1992-ci ildə Ermənistan heç bir əsası olmadan hücuma keçərək müsəlman Azərbaycanın ərazisinin 20 faizini işğal etdi. Ermənilər heç bir kompensasiya ödəmədən bir milyondan çox müsəlmanı ev-eşiyindən qovdular və onları zığlı-palçıqlı qaçqın düşərgələrindəki çadırlarda yaşamağa vadar etdilər. Ruslar Ermənistana bir milyard dollarlıq hərbi silah-sursat və avadanlıq bağışladılar. Birləşmiş Ştatlar Konqresinin hesabatına əsasən son on il ərzində ABŞ Ermənistana 1.4 milyard dollar yardım göstərmiş,*

*eyni zamanda müsəlman Azərbaycanının xarici yardımını kəsməklə ayrı-seçkiliyə yol vermişdir. Çoxlu müsəlmanın amerikanlara nifrət bəsləməsinin bir səbəbi budur.*

*Azərbaycan dövləti erməni hücumlarından yaxa qurtarandan sonra özünü erməni terrorçularından qorumağa başladı. Konqres Azərbaycanı cəzalandırmaqla buna reaksiya verdi. Birləşmiş Ştatların lobbiləşmiş Konqresindəki erməni lobbisi Azərbaycana yardımın müxtəlif növlərini qadağan edən qanunlar qəbul etdi. Azərbaycana nöqsan tutulurdu ki, guya o, Ermənistanı blokadada saxlayır və göndərilən hərbi avadanlığın Ermənistana çatmasına mane olur. 1992-ci ildə Konqres Azadlığı Müdafiə Aktını qəbul edərək onun 907-ci maddəsi ile Ermənistanı "qeyri-qanuni" blokadaya almasını aradan qaldırana qədər Azərbaycan xarici yardımını müəyyən növlərindən məhrum edildi"* (36, 13).

Qəribədir, Azərbaycan əraziləri tikə-tikə bölünür, soydaşlarımız kütləvi surətdə qırılır, öz ata-baba yurdlarından didərgin düşür. Qədim Azərbaycan ərazisi olan Ermənistan aborigen türk tayfalarından oğuzlardan təmizlənir. Bakıda 20 yanvar hadisəsi törənir, dinc insanlar qətlə yetirilir, Azərbaycan sərhədləri pozulur, yerli vətəndaşlar ya Arazda boğulub məhv olur, ya düşmən gülləsinə tuş gəlir, Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd kimi rayonlar tamamilə işğal olunur. Amerika senatı Azərbaycana qarşı 907 maddə ilə sanksiya tətbiq edir.

Ermənistana 1,4 milyard dollarlıq yardım edir. Təkcə bu sualın araşdırılması nə qədər gizlin sirrlərin üstünü aça bilər. Axı nə üçün bir xalq başqasının qanını içər, ona sağ ol deyib, başqasına qan uddurarlar. Mən bu sualın cavabını həmin xalqın başçısının istedadsız və fərsizliyində axtarırdım. Təsadüfi hakimiyyət başına gələn səriştəsiz vətən və xalq məhəbbətindən uzaq olan adamların başçı olduğu ölkə talan olmazmı? Təsadüf deyil ki, qədim bir bayatıda deyilir:

*Əzizim Ordubada,*
*Yol gedir Ordubada.*
*Sərkərdə sərkərdə olsa,*
*Heç verməz ordu bada.*

1987-ci ildən 1993-cü ilin iyununa qədər loyal təbiətli, cəsarətsiz Kamran Bağırovu ermənilər və onların havadarları Əbdürrəhman Vəzirovla əvəz etdi. O Vəzirov ki, ana dilində danışa bilmir, "Я вас поздравляю, наши братя армяне возврашаются" deyib sevinirdi. Doğrudan da, Ə.Vəzirova qalsa ermənilər Bakıya yenidən qayıdıb talan sala bilərdilər. Amma ermənilər edə bilməyəcəyimi Sovet ordusu 20 yanvar 1990-cı ildə etdi. Onu ikinci "Vətən və millətsevər" başqası əvəz etdi. O da torpaqlarımızın əldən getməsinə biganə qaldı, Naxçıvanı "Acı bağırsaq" elan etdi. Sonra 2 ildə 3 rəhbər dəyişildi. Azərbaycanın nəinki haq səsi, hətta adi səsi belə heç yerə çatmırdı. Əslində "Mirzə Xəzərin "Azadlıq"

radiostansiyasından başqa heç səsini çıxaran da olmurdu. Azərbaycan qəzetləri yazdığı Biləcəridən o tərəfə getmirdi. Bundan sonra AXC-Musavat cütlüyü hakimiyyətə, daha doğrusu hakimiyyətəsizliyə gəldi, arada 70 gün Y.Məmmədov rəhbər oldu. Heç nə dəyişmədi vətən əldən gedirdi. Azərbaycanın bir dövlət kimi dünya xəritəsindən silinməsində maraqlı olan dövlətlər gizli sövdələşmə, açıq parçalama yolu ilə xalqımızın taleyinə bir dəfəlik qara qələmlə qara xaç çəkmək istəyirdi. Bu vaxt xalqımızın dahi oğlu Moskvada özünə rahatlıq tapa bilmirdi. Moskvanın və ermənilərin ən bacarıqlı adamları bu dahi şəxsiyyəti hər vasitə ilə ortadan götürməyə səy edirdilər. Diqqət edək: 1990-cı il yanvarın 20-də Bakı qırğını törədilir, ondan bir gün sonra təqib edildiyini, sui-qəsd hazırlandığını bilsə də Vətəninin xalqının imdad diləyən harayına cavab vermək üçün o, Moskvada "Azərbaycana məxsus kiçik bir sahəyə" səfirliyə gəlib xalqının dərdinə şərik olur. M.S.Qorbaçovun siyasətinə qarşı öz etiraz səsini uçaldır. O, çox yaxşı başa düşürdü ki, bu çıxış ona qarşı olan təqibləri bir daha gücləndirəcək. Belə də olur… O, hətta gündəlik ərzağı belə hər gün bir mağazadan aldırırdı.

Bakıdan da Azərbaycanın rəhbəri ona zəng vurub deyir ki, "Bakıya gəlsən qarışıqlıq düşər, gəlmə". Guya bu rəhbər Azərbaycanda elə sakitlik elə əmin-amanlıq yaratmışdır ki, nə rayonlar bir-birinin ardınca əldən gedir, nə millət qırılır, nə "Sadval" məqam gözləyir, nə "Talış-Muğan" ruspeblikası yaranır, nə

Bakıda qarətlər, insan oğurluqları baş verirdi və s. Əhsən belə asayiş yaratmış rəhbərə. O günlər Bakı dəniz kimi dalğalanırdı, Minlərlə adam Hökumət evinin qarşısında mitinqlər keçirirdi. Öz içimizdən olanlar da Heydər Əliyevin qayıdışını istəmirdilər. Görünür, öz şəxsi ambisiyaları vətənin taleyindən daha yüksək imiş. Bu sətrlərin müəllifi də o vaxtlar aydın idrak duyğusu ilə dərk edirdi ki, ya Heydər Əliyev hakimiyyətə qayıdıb Azərbaycanı xilas edəcək, ya da vətənimiz parçalanacaq, dövlətçiliyimiz əldən gedəcək. Buna görə də 1992-ci ilin oktyabrın 17-də Bakı mitinqlərinin birində bu sətirlərin müəllifi demişdi: *"Bir vaxtlar T.Qasımov deyirdi: "Heydər Əliyev Azərbaycan xalqı üçün indi erməni təcavüzündən və rus müdaxiləsindən daha təhlükəlidir"*.

Mən isə deyirəm Yox! Əliyev AXC tərkibində olan bir qrup pis adamlar üçün təhlükəlidir. Niyə? Çünki Əliyev hakimiyyət başına gəlsə, nə Pənah Hüseynov, nə Tofiq Qasımov, nə Arif Hacıyev. Onun qarşısında dayana bilməzlər. Ona görə də qarşıdurma yaradırlar… (26)

Əslində Heydər Əliyevin böyüklüyü, mən deyərdim, dahiliyi onda oldu ki, iki dövlət birlikdə qurduqları tora onu sala bilmədi. 1990-cı il iyunun 20-də H.Əliyev Bakıya gəldi. Bununla bir daha o, sübut etdi ki, gözünüzü açın məni yaxşı tanıyın, sizin xüsusi xidmət orqanlarınız hələ o dərəcəyə çatmamışdır ki, məni məhv edə bilsin. Amma o, Bakıda çox qalmadı.

Ulu öndər bunu sonralar belə xatırlayacaq: *“Mənim ağır dövrümdə Moskvadan qurtara bildim. Bakıda mənə yer vermədilər, nəinki yer vermədilər, məni oradan inzibati surətdə çıxardılar. Naxçıvana gəldim. Naxçıvan məni öz qoynuna aldı, qorudu, saxladı, mən də onları qorudum, mən də onları saxladım”.*

Əslində ermənilərin Qarabağda olan sürətli yürüşü, Azərbaycanın Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər rayonlarının alınması bir daha sübut edir ki, əgər dünyanın siyasət korifeylərindən biri olan Heydər Əliyev Naxçıvanda olmasaydı,… Allah bilir nələr olardı! Axı Naxçıvan, məhz Naxçıvan Azərbaycanın müstəqilliyinin bərpasına yol açmışdır.

Ulu öndər bu gəlişi sonralar “Taleyin işi” adlandırdı. Özünün Naxçıvana qayıdışını çox mütəəssir şəkildə ifadə edən dahi öndər deyirdi: *“1990-cı ilin yayı idi. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da vəziyyət çox ağır idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda, özümü çox rahat hiss etdim. Moskvada məni təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan*

*məni qucaqladı, bağrına basdı. Son illərdə çəkdiyim bütün əzab-əziyyəfti unutdum. Bilirsiniz ki, bir il sadə həyat keçirdim. Görünür, mənim Naxçıvana gəlməyim taleyin işi imiş”.*

O vaxt ruhdan düşmüş xalqın gücünə yeni qüvvə verən H.Əliyev dedi: *“Mən Azərbaycan xalqının birliyi, suverenliyi və azadlığı uğrunda mübarizə aparacağam”.* Bu sözlər nəinki Naxçıvanda, bütün Azərbaycanda əks-səda verdi, xalqın həyat ümidini artırdı. Amma hələ görüləsi iş çox idi. Ulu öndər o dövrün Naxçıvanını belə səciyyələndirirdi: *“Naxçıvanı başlı-başına buraxmışdılar. Biz də burada əlimizdən gələni etməyə çalışdığımız zaman onun qarşısını alırdılar. Mütəllibov hakimiyyəti, Xalq Cəbhəsinin hakimiyyəti zamanı da bu, belə idi. Amma sonra Allah nə yerə gətirib çıxardı? Allah o yerə gətirib çıxardı ki, Xalq Cəbhəsinə xalq etimadsızlıq göstərəndə, Bakıda Xalq Cəbhəsi hökumətini dağıdanda və Surət Hüseynov öz qoşunları ilə hücum edib onları dar ağacından asmaq haqqında bəyanat verəndə də, onlar yenə də üzlərini Naxçıvana tutdular”.*

Xoşbəxtlikdən elə həmin il, yəni 1990-cı ilin payızında Azərbaycan SSR Ali Sovetinə və Nax.MSSR Ali Sovetinə seçkilər keçirildi. Bu hadisəni ona görə xoşbəxtlik adlandırırıq ki, səriştəli rəhbərin siyasi fəaliyyətini qanuniləşdirdi.

Məlum olduğu kimi, H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtdı, lakin burada yaşaması mümkün

olmadığı üçün Naxçıvana gedərək öz millətinin azadlıq mücadiləsinə rəhbərliyi davam etdirmişdi. 1991-ci ildə Azərbaycan Ali Sovetinə keçirilən seçkilərdə Naxçıvandan Ali Sovetə deputat seçilmişdir. 1991–1993-cü illərdə ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olmuşdur. Bu illərdə xaricdən olan təsirlər və daxili səbatsızlıq səbəbindən respublikamızın müstəqilliyi təhlükə altına düşmüşdü. 1992-ci il oktyabrın 16-da 91 nəfər Azərbaycan ziyalısının H.Əliyevə müraciəti "Səs" qəzetində dərc olundu. Müraciətin son cümləsi belə idi: "Azərbaycan sizin sonuncu qərarınızı gözləyir".

Müraciətdəki fikirlər bütün ömrünü rifahı və yüksəlişi uğrunda həsr etdiyi Azərbaycanın gələcəyi naminə bütün əzab və çətinliklərə dözərək Bakıya qayıtması üçün ulu öndəri ruhlandırdı. Ona görə də ziyalılara müsbət cavab verdi. 1992-ci ilin noyabr ayının 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası yaradıldı və H.Əliyev onun sədri seçildi. Beləliklə Naxçıvan "Sovet sosialist" damğasından xilas oldu. Oraq-çəkicli saxta bayraq əvəzinə üçrəngli azadlıq bayrağımız ilk dəfə Naxçıvanda qaldırıldı. SSRİ rəhbərliyinin "Yeni ittifaq" yaratmaq üçün müttəfiq respublikalara etdiyi təklif-referedium Naxçıvanda baykot edildi. 1993-ci ilin may-iyun aylarında respublikada hakimiyyət böhranı, hərc-mərclik pik həddə çatdı. AXC rəhbəri uzaqgörənliklə dərk edirdi ki, Azərbaycanı bu bəladan yalnız Heydər Əliyev xilas edə bilər. Buna görə də AXC rəhbərliyinin

dəvəti ilə H.Əliyev 1993-cü ilin iyun ayında Bakıya gəldi. İyun ayının 15-də Bakıya gələn Heydər Əliyev Respublika Ali sovetinin sədri seçildi. Beləliklə Azərbaycanın "Qurtuluş" dövrü başlandı. Sosial-siyasi, iqtisadi, xarici siyasət sahəsində cahanşümül addımlar atıldı.

Bu hadisəni mən 1995-ci ildə böyük sevgi və məhəbbətlə qələmə aldığım "Koroğlunun Çənlibelə qayıdışı" adlı mənzum pyesində müfəssəl şəkildə vermişəm. Bu pyesdən cəmi 3 məqamı möhtərəm oxucunun diqqətinə çəkməyi münasib görürəm.

1. Bakı radiosunun son xəbəri (səh.36)

2. Telli xanım Koroğlunu təbrik etmək üçün Naxçıvandan gəlib (s.39)

3. Dədə Qorqudun təbriki (s.40)

1.Bakı radiosunun son xəbəri
Əziz eşidənlər, danışır Bakı,
Siyasi mövzudur dalğamızdakı.
Başını uca tut, Vətən övladı.
Daha bədnam deyil Vətənin adı.
Erməni böhtanı bütün dünyada
Bizi vəhşi kimi tanıtmışsa da,
Əliyev dühası Nuh tufanıtək,
Böhtanı dağıtdı çaxaraq şimşək.
Vəhşi türk, adamxor millətək bizi,
Çəkib göstərmişdi şəklimizi.
Başsız millət kimi başıaşağı,
Yaşadıq məğlub bir tayfa sayağı.
Səsimiz dünyada eşidilmədi.
Nə edək, başçılar özü bilmədi.
Düşmən haray salır, bizsə susurduq,
Onlar qan içirdi, biz qan qusurduq!
İgidlər məhv olur, Vətənsə talan,
Böhtan doğru idi, həqiqət yalan!
İmkanı olanlar qaçdı ölkədən,
Xalqa rəhbər oldu hər gəlib-gedən.
Rəhbərlər dəyişir, vətən yanırdı,
Millət içəridən alovlanırdı.
“Azadlıq” söyləyəcək bir an içində,
Bakını boğdular qan dənizində.

Xalqının qırğının eşidən zaman,
Koroğlu nərəsi gəldi uzaqdan:
"Başsızmı gördün sən Azərbaycanı,
Əlini kəsərəm yerini tanı!"
Xalqının dadına o yetən gündən,
Dəyişdi vəziyyət burda kökündən.
Düşmən atəşini susdurdu qoçaq,
Çıxdı vahimədən hər ev, hər ocaq.
Kiçik bir ölkəni yaşatmaq üçün
O, Yer kürəsini dolandı bütün.
Hamıya bildirdi işimiz haqdır,
Dedi: "Azərbaycan yaşayacaqdır!"

Telli xanım Koroğlunu (H.Əliyevi təbrik etmək üçün Naxçıvandan Bakıya gəlib)

Telli xanım:

Gəldim təbrik edim Hacı Heydəri,
Ziyarətin qəbul, elin sərvəri,
Allahın nəzəri üstündə olsun,
Peyğəmbər eşqilə ürəyin dolsun.
Gəlməyimin daha bir səbəbi var,
Sənə dua edir naxçıvanlılar.
Sən ordan çıxaraq bura gələndə,
Çoxlarını qoydun dərddə, ələmdə.
Sanki yasa batdı ana da, qız da,
Sənin adın idi dildə, ağızda.

Deyirdilər: Onsuz necə olarıq biz?...
Puç olacaq arzu-diləklərimiz...
Gəldim söyləyim ki, arxayın ol sən
Maşallah yüksəlir sevdiyin vətən.
Yerində qoyduğun o cavan ki, var,
Sən qoyduğun yolla gedir aşikar.
Çayların üstündə körpü saldırır,
Hər yerdə yeni bir bina qaldırır.
Su çıxır su gəlməmiş çöllərə,
Onunçün adı da düşüb dillərə.
Hamı deyir: sənə layiq bir insan,
Yalnız odur Naxçıvanı axtarsan.

Dədə Qorqudun təbriki
Bu torpaqda at oynatmış Bayandır xan, Qazan xan,
İndi də sən sərkərdəsən əlində qılınc, qalxan.
Dava günü öndən təpən alp igidim sən oldun,
Şimşək kimi guruldadın, dalğa kimi duruldun.
Qarqucdan Əlincəyə, Dərəşamdan Əkrəyə,
Qarış-qarış mən dolandım səni taparam deyə.
Orda qoruyurdun ata yurdunu,
Sən əvəz edirdin böyük ordunun.
Amma sağ ol, sən gəlməsən Çənliyə,
Çənlibel dönərdi bir düzənliyə.
Naxçıvanın Dan-Dansux övladları,
Bu ölkəyə buraxmadı yadları.
Naxçıvan tikilir, qurulur yenə,
Güvənib oğlunun dahiliyinə
Döyüşlərdən qalib tək dönür geri,

Adını qoyuram Oğuz lideri.
Bəkdüzə dedim, get, gör peyğəmbəri,
Sən də ziyarət et, bir öp Həcəri.
Hər yerdə, hər obada xanım qızlar, bəy ərənlər,
Şəninə dualar edər, səninlə öyünərlər.
Dolaşdığım obalardan sənə məktub yazmışlar,
Bəy igidsən, ərdəmlisən, səndə ümid tapmışlar.
Dədə Qorqud boy-boyladı, tanrı səni qorusun,
Bu məktubu qoy bir nəfər, alp igidin oxusun.

*(Məktubu alıb baxır). (Fonoqramla oxuyur).*
*Koroğlu (Dədə Qorquda).*

Peyğəmbərin yaşıdı, çox sağ ol, ulu dədəm,
Gərək sənin yaşını dünya üzrə qeyd edəm.
(Qorqud gedir).
Fonoqramdan aydın və məğrurla səslə oxunur:
Ey ulu xalqımın ulu öndəri,
Sənə üz tutubdur Vətən ərləri.
Arzunla bağlıdır diləklərimiz,
Şöhrətli adınla fəxr edirik biz.
Xalqımızın qəddi bükülən zaman,
Vətənimdə qanlar tökülən zaman,
Vətən səmasında günəş kimi sən
Parladın, nurunla nurlandı Vətən.
Yurdumuzu tikə-tikə bölənlər,
Vəzifə kürsüsündən ötrü ölənlər,
Duruş gətirməyib qaçdı ölkədən.

Bu vaxt car çəkərək söylədin ki, sən.
"Önümdə haqq yolu, Qurani-Kərim,
Arxamca xalq gəlir, öndə gedirəm.
Eşitsin dostlarım və düşmənlərim,
Ömrümü xalqıma qurban edirəm!"
Məşələ çevirib ürəyini sən,
Dedin yad əllərə düşməsin Vətən.
Sənin gəlişinlə, ey böyük insan,
Dayandı Vətəndə tökülən al qan.
Qara bağlamadı gəlinlər daha
Oğullar qayıtdı şükür allaha.
Xalqını çıxardın "İpək yoluna",
Allah qüvvət versin, sənin qoluna!...
Bakı-Ceyhan ilə birləşən zaman
Sənə ulu öndər deyəcək Turan!
Sən gəncliyi sevdin, gənclik də səni.
Gündüzə qataraq sən hər gecəni.
Sabit bir həyata çıxardın bizi
Odurki, sevirik hər kəlmənizi!
Vətəni, milləti, dili sevməyi,
Bizə sən öyrətdin ey böyük ustad!
Heç zaman itməmiş ustad əməyi
Hər zaman verəcək bizə qol qanad.
Bu gün ata kimi fəxr eylə ki, sən,
Xalqına qeyrətli İlham vermisən.

Vətən üçün yetirdin sən İlhamı,
O hamını sevir, onu da hamı!
Vətən gəmisinin sükanını sən,
İstədiyin anda İlhama versən.
Yararaq dalğalı coşqun dənizi,
Qələbə gütbünə çatdırar bizi.
Böyük Sərdar, önündə and içirik.
Azadlıq yolunda candan keçərik.
Qarabağ uğrunda Vuruşa getsən,
Ardınca gələcəkbu böyük Vətən.
Arzumuz budur ki, gələn ildə sən,
Uca səslə dünyaya car çəkəsən:
"Eşitsin dünyada nə qədər ki, var
Azərtürk soyundan olan qardaşlar!
Bilin, Azad oldu sizin vətəniniz.
Vətənlə bir vursun ürəkləriniz!
Vətən Sizinkidir, siz də vətənin.
İstədiyimiz anda Vətənə gəlin,
Tanrı Xoşbəxtliyə çağırır bizi.
Haydı, birləşdirək iradəmizi!"

Koroğlu:

Babək qılıncını verəndə mənə,
Dedi ki, qınına qoymayasan sən.
Qan uddurmalısan yağı düşmənə.
Sonuncu yağıdan qurtarsın Vətən!
Babam Şah Xətai vəsiyyət etmiş,

“Torpağı qızıldan üstün bilin” siz!
Dilin varlığıyla kamala yetmiş,
“Milləti candan da artıq” biliniz!
Əlimdə Babəkin iti qılıncı,
Belimdə Əlinin “Zülfüqar”ıdır.
Qəlbimdə Vətənin eşqi, sevinci
Dilimdə Xətai kəlamlarıdır.
Önümdə haqq yolu Qurani-Kərim,
Arxamca xalq gəlir, öndə gedirəm.
Eşitsin dostlarım və düşmənlərim
Ömrümü xalqıma qurban edirəm!
Qalxın, dəlilərim, köhlən atlara,
Düşmənin yurduna od vuraq indi.
Bir qarış verməyək azğın qurdlara,
Vətən torpağında toy quraq indi!
Ey sevimli xalqım, şadlıq et sən də,
Kədərli günlərin arxada qaldı.
Gül-çiçək bitirin ana Vətəndə!
Bu gün odlar yurdu qələbə çaldı.

## NAXÇIVAN MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI YARADILMASININ İLK CARÇISIDIR. HEYDƏR ƏLIYEV NAXÇIVANDA

H.Əliyevin Naxçıvana gəlişi ermənilər məyus etdiyi kimi Moskvanı da məyus etmişdi. Çünki hələ 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet qoşunları Bakıya gəlməzdən 8 saat əvvəl erməni-rus silahlı dəstələri Naxçıvana basqın etmiş və Sədərək kəndini işğal etmişdilər. Bu hücum sonra da davam edəcəkdi. Ruslar məyus oldu ona görə ki, kompleks işğalçılıq işlərinə siyasi əngəl törəndi.

1990-cı ilin payızında keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasına deputat Heydər Əliyev sədrlik etdi. Lap ilk gündən, ilk sessiyadan başlayaraq H.Əliyev 70 il siyasi, iqtisadi, mənəvi və mədəni boyunduruğu altında saxladığı Azərbaycan xalqının böyük nefti, hesabına Dünya müharibəsində qalib gəldiyini nankorcasına unudaraq xalqı əzib məhv edən Sovet imperiya rejiminə qarşı müstəqillik tədbirləri görürdü. Bu tədbirlərin qısa təqviminə nəzər salaq.

17 noyabr 1990-cı il. Naxçıvan MR yenicə seçilmiş Ali məclisinin birinci sessiyasında H.Əliyevin təklifi ilə aşağıdakı qərarlar qəbul edilir.

1. Naxçıvan MSSR-in adı dəyişdirilib Naxçıvan Muxtar Respublikası adlandırılsın.

2. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilib Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılsın.

3. Naxçıvan Muxtar Respublikasının bayrağı kimi Azərbaycan Demokratik Cümhuriyyətinin üçrəngli bayrağı qəbul olunsun və sessiyanın iclas zalına gətirilsin.

Azərbaycan Respublikasının Ali hakimiyyət orqanı qarşısında məsələ qoyulsun ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul etsin.

15 dekabr 1991. Naxçıvan MR Ali məclisinin qərarı ilə keçmiş DTK fəaliyyəti Naxçıvan MR bütün ərazisində dayandırılır.

16 dekabr 1991-ci il Ali məclisin qərarı ilə 31 dekabr Dünya azərbaycanlıların həmrəylik günü elan edilir.

28 may 1992-ci ildə simvolik olaraq məhz Azərbaycan Respublikasının Milli istiqlal günü Naxçıvanla qardaş Türkiyə arasında ilk və əbədi əlaqələr rəmzi olan "Ümid körpüsü" açılır. Burapda Naxçıvan MR Ali məclisinin sədri Heydər Əliyev və Türkiyənin baş naziri Süleyman Dəmirəl iştirak edir.

Mart 1992-ci il. Naxçıvan MR Ali məclisinin sədri H.Əliyev Türkiyə Respublikasına səfəri zamanı 75 nəfər naxçıvanlı gəncin Türkiyədə müxtəlif universitetlərdə oxuması üçün razılıq əldə edir. Oktyabr ayında 75 nəfər gənc Türkiyədə oxumaq

üçün yola düşür. Onlara ilk xeyir-duanı da H.Əliyev özü verir.

21 noyabr 1992-ci il bir qrup Azərbaycan ziyalısının oktyabr ayında etdiyi çağırışa müsbət cavab verən Heydər Əliyev Yeni Azərbaycan Partiyasının sədri vəzifəsini öz üzərinə götürdü.

Yeni Azərbaycan Partiyasının yaradılmasının 15 illik yubiley iclasında Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov bu partiyanın yaranması zərurəti və şəraiti haqqında bəhs edərkən demişdir: "Yeni Azərbaycan Partiyası ölkə tarıxində son dərəcə ağır və keşməkeşli bir dövrdə, Azərbaycanın ciddi sınaqlara məruz qaldığı şəraitdə yaranmışdır. Ötən əsrin 80-ci illərinin sonlarından etibarən Azərbaycanm üzləşdiyi böhran və fəlakət xalqı ümidsiz vəziyyətə salmışdı. Qarabağ cəbhəsində bir-birini əvəz edən məğlubiyyətlər, ittifaq rəhbərliyinin antiazərbaycan mövqeyi daha acınacaqlı nəticələrlə - Azərbaycana o dövrdə rəhbərlik edənlərin öz millətinə qarşı xəyanətkar münasibəti ilə davam etdirilirdi. Nə Vəzirov-Mütəllibov hakimiyyəti, nə də Xalq Cəbhəsi-Müsavat cütlüyü Azərbaycanı düşdüyü ağır siyasi və iqtisadi durumdan xilas etmək gücündə deyildi. Müharibə şəraitində olan ölkədə 15 ay ərzində 4 dövlət başçısı və 5 müdafiə naziri dəyişilmişdi. Ölkə xaos, anarxiya girdabına sürüklənmişdi. Regionda strateji maraqları olan güc mərkəzləri isə Azərbaycanın parçalanması, quberniyalara, əyalətlərə bölünməsi planını cızırdılar. Bütün bunlar

Azəıbaycanda yeni siyasi hərəkatın yaranmasına, yeni siyasi gücə böyük ehtiyac yaratmışdı.

Bu siyasi güc mərkəzini Azərbaycan xalqının iradəsi və qətiyyəti ortaya qoydu. 1992-ci ilin əvvəllərindən başlayaraq ölkəmizin müxtəlif bölgələrində xalqın öz təşəbbüsü ilə “Heydər Əliyev partiyası” adlı təşkilatlar yaradılırdı. Hətta bu qurumların qeydiyyata alınması üçün Ədliyyə Nazirliyinə müraciətlər də edilirdi. 1992-ci ilin aprel-may aylarında əhalinin fəal hissəsi mitinqlər keçirir, yaş senzi ilə bağlı Konstitusiyaya edilmiş ədalətsiz əlavənin ləğvini istəyirdilər.

Xalq yeganə nicatını, ölkənin siyasi və iqtisadi böhrandan qurtulmasının, vətəndaş qarşıdurmasının aradan qaldırılmasının, dövlət müstəqilliyinin daimi və əbədi olmasının yolunu ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışında görürdü.

Siyasi tarixin bütün gedişi sübut edir ki, şəxsiyyət olmadan azadlıq mümkün deyil. Xalq, əvvəlcə şəxsiyyət ətrafında birləşir, sonra isə ideyalar haqqında düşünür. Ötən əsrin 90-cı illərində öz liderinin ətrafında birləşən Azərbaycan xalqı siyasi təşkilatlanma zərurətini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən Heydər Əliyevə ünvanlanmış 1992-ci il 16 oktyabr tarixli “Azərbaycan sizi gözləyir” müraciəti ilə irəli sürdü. İctimaiyyətin mütləq əksəriyyətinin göstərdiyi qətiyyətin təsiri altında Azərbaycanın tanınmış elm və

mədəniyyət xadimləri, ziyalıları tərəfindən imzalanmış həmin müraciətdə deyilirdi: *“İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Azərbaycanın bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə, minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına yeganə mütləq lider Siz ola bilərsiniz. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü, aparıcı qüvvəyə malik bir partiya kimi görürük... Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz... İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz... Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir”* (27, 280–281).

Bakıda milli ordu yaratmaq məsələsində tərəddüdlər olduğu halda Naxçıvan bu sahədə də ilk və qəti addımlar atdı.

7 sentyabr 1991-ci il Naxçıvan MR Ali məclisinin qərarı ilə “Naxçıvan MR Dövlət Milli müdafiə komitəsi” yaradıldı.

26 oktyabr 1991-ci ildə “Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin statusu” haqqında Naxçıvan MR Ali məclisi qərar qəbul etdi. Bundan sonra 1992-ci ilin iyul ayında Rusiyanın

Müdafiə Nazirliyi, Zaqafqaziya Hərbi Dairəsi və 75-ci motoatıcı diviziyasının komandanlığı ila aparılan danışıqlar nəticəsində Naxçıvan şəhərində yerləşən 75-ci motoatıcı diviziyanın ləğv edilməsi və diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə edildi. Azərbaycanda birinci olaraq Naxçıvanda Rusiya qoşun hissələrinin hərbi və təsərrüfat əmlakı Azərbaycan Müdafiə Nazirliyinin yeni yaradılan hərbi hissəsinin sərəncamına verildi.

Sovet Ordusunun hərbi hissələri avqustun 18-də Naxçıvan Muxtar Respublikasını tərk etdilər.

Rusiya Federasiyasının, Rusiya Milli Təhlükəsizlik Nazirliyi, Rusiya sərhəd qoşunları baş idarəsinin rəhbərliyi ilə aparılan danışıqlar nəticəsində keçmiş Sovet İttifaqının sərhəd qoşunlarının Naxçıvanda yerləşən 41-ci sərhəd dəstəsi ləğv olundu. 41-ci sərhəd dəstəsinin funksiyalarının, bütün hərbi və təsərrüfat əmlakının Azərbaycan Respublikasının Naxçıvanda yaradılan birinci sərhəd dəstəsinə verilməsi haqqında sənədlər imzalandı.

Beləliklə, Azərbaycanda ilk milli sərhəd qoşunlarının yaradılması Naxçıvandan başlandı və sərhəd qoşunları dəstəsində Azərbaycanın milli bayrağı qaldırıldı (40).

H.Əliyev Naxçıvan MR rəhbəri olarkən qonşu Türkiyə və İranla sıx əməkdaşlıq etmiş və müxtəlif protokollar imzalamışdır. Belə ki, H.Əliyev Türkiyə Respublikasının baş naziri S.Dəmirəlin dəvəti ilə 22–

24 mart 1992-ci il tarixində Türkiyədə olmuş və iki ölkə arasında əməkdaşlıq protokolu imzalanmışdır.

Elə həmin il 22–26 (1992) avqust tarixlərində Ə.Rəfsəncaninin dəvəti ilə H.Əliyev Iranda səfərdə olmuş, hər iki ölkə arasında əməkdaşlıq protokolu imzalanmışdır.

Sonralar ulu öndər özü Naxçıvandakı fəaliyyətini və bu bünövrə üzərində gedən inkişafını dəyərləndirərək deyəcək: *"Biz Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul etdik. Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adı qəbul olundu və Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı, milli bayrağı qəbul olundu. Böyük məsələlər həll etdik. Mən buraya gələndə hər dəfə görürəm... Naxçıvanda nə var idi? Naxçıvan xanlarının tikdikləri binalardan başqa heç bir bina yox idi. Sonrakı illərdə az-çox tikildi. Ancaq məni düzgün başa düşün. Fəxr edirəm ki, Azərbaycanın hər yerində olduğu kimi, mən burada da öz əsərlərimi görürəm. Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, yaşayış evləri, universitet və məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir... Sonrakı illərdə burada daha cəsarətli addımlar atılmışdır..."*

Nəhayət, Azərbaycan xalqının vətən və millət naminə etdiyi təkidli tələblərə əməl edən ulu öndər 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası

milli məclisinin sədri vəzifəsini öz üzərinə götürdü. Bununla da 15 ay ərzində 4 dövlət başçısı 5 müdafiə naziri dəyişmiş Azərbaycanın tarixində dönüş hadisəsi – milli qurtuluş hadisəsi baş verdi. Bizim məqsədimiz ulu öndərin “Azərbaycan rəhbərliyinə gələndən sonra onun qayğısı və Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbovun yorulmaz və məqsədyönlü, titanik fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi haqqında mümkün qədər müfəssəl bəhs etməkdir. Çünki H.Əliyev Bakıya gələndən sonra Naxçıvana rəhbərlik edən şəxsin fəaliyyəti zamanın və H.Əliyevin tələbi səviyyəsində olmamışdı. Buna görə də 1995-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclisinin sessiyasında Vasif Yusif oğlu Talıbov Naxçıvan MR Ali məclisinin sədri seçildi.

# II HİSSƏ

## NAXÇIVAN TARİXİNİN VASİF TALIBOV DÖVRÜ

Bu başlığın belə adlanması tamamilə qanuna uyğun və ədalətlidir. Çünki 5000 illik yaşı olan Naxçıvan şəhəri öz formasını heç vaxt indiki qədər sürətlə dəyişməmişdi. Bunu Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev və onun işinin uğurlu davamçısı prezident İlham Əliyev dəfələrlə, təkrar-təkrar təsdiq etmişlər.

Ümummilli lider Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov haqqında dedikləri:

1. Bu son illərdə Naxçıvan rəhbərliyi və xüsusən Vasif Talıbovun rəhbərliyi nəticəsində çox işlər görülübdür. Naxçıvanın siması gündən-günə dəyişir. Bütün bu işlərin aparılmasında təşkilatı və rəhbər rol oynayan Vasif Talıbovun işini xüsusilə yüksək qiymətləndirirəm.

2. *"Mən məmnuniyyətlə demək istərdim ki, Naxçıvan MR-də işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun bir çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq bu dörd il müddətində o sübut*

*etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər də görə bilər".*

Naxçıvan MR Ali məclisinin sədri Vasif Talıbovun dönmədən, ardıcıl surətdə apardığı Heydər Əliyev siyasəti nəticəsində Naxçıvan Azərbaycanın çiçəklənən bir diyarı olmuşdur. Deyə bilərlər ki, Azərbaycanın hər yeri çiçəklənməkdədir. Amma Naxçıvanın blokada şəraitini nəzərə alsaq Naxçıvan rəhbərliyinin, doğrudan da çox böyük işlər gördüyünün şahidi olaraq 1993-cü ildən sonra görülən işlərə hamıdan yaxşı obyektiv qiymət verən Azərbaycan Respublikasının prezidenti cənab Ilham Əliyevdir. Özü dediyi kimi, o, hər il Naxçıvana gəlir. Hər dəfə də yeniliklərin şahidi olur. Bunun üçün Naxçıvan rəhbərliyinə öz təşəkkürlərini bildirir. Onlardan bir neçəsinə diqqət edək:

1. Mən çox məmnunam ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi, Vasif Talıbov Heydər Əliyev siyasətini burada uğurla icra edir, onu davam etdirir və Naxçıvanın möhkəmləndirilməsinə öz töhfəsini verir.

2. Naxçıvanda çox geniş quruculuq, abadlıq işləri aparılır, şəhər gözəlləşir, yeni binalar tikilir, köhnə binalar təmir edilir. Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla haqlı olaraq fəxr edə bilər.

Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnəttarlığımı bildirmək istəyirəm.

3. Siz Naxçıvanda işlərin düzgün qurulması, Naxçıvanın rəhbərliyinin, Ali Məclisin sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün bu uğurlara nail olmusunuz. Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu - abadlıq-quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir.

4. Blokada şəraitində yaşayan Naxçıvan böyük addımlarla irəliləyir. Burada aparılan abadlıq, quruculuq işləri məni çox sevindirir. Yeni binalar, müəssisələr, elm ocaqları, idman qurğuları yaradılır, demək olar ki, həyatımızın hər bir sahəsi Naxçıvanda

inkişaf edir. Burada Naxçıvan rəhbərliyinin xüsusi xidmətləri vardır. Mən buna görə onlara minnətdaram.

5. 2014-cü ilin aprel ayında Naxçıvan MR 90 illik yubileyi münasibətilə keçirilən təntənəli iclasda Azərbaycan Respublikasının prezidenti İlham Əliyev demişdir: *"Dünən son bir il ərzində görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi Muxtar Respublikasının inkişafı üçün nə qədər böyük sevgi, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm... Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri demək olar ki, tam şəkildə öz həllini tapmışdır. Dünən mən maraqlanırdım, soruşdum ki, vəziyyət necədir? Mənə Vasif Talıbov məlumat verdi ki, Naxçıvanın əsas ərzaq məhsulları ilə təminatı tam şəkildə təmin edilmişdir. Bu da böyük nailiyyətdir, böyük uğurdur".*

Vasif Talıbovun gördüyü, gecəli-gündüzlü düşünüb planlı şəkildə həyata keçirdiyi işlərin rəhni onun öz xalqına, öz vətəninə sevgisidir. Onun qazandığı zəfər bayrağında yazılmış sözlər onu daim yurdu ilə birlikdə ucaldır. Özü dediyi bu sözlər onun zəfər devizidir: *"1995-ci il dekabrın 16-da keçirilən Ali Məclisin birinci sessiyasında bildirmişik ki, bizim bir platformamız, Naxçıvan Muxtar Respublikasında inkişafın bir yolu var: - bu, möhtərəm Heydər Əliyevin yoludur".* Ötən dövrlərdə bu yol

Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasını əsl inkişafa qovuşdurdu.

Vasif Talıbov artıq 19 ildir ki, özünün gərgin və məqsədyönlü fəaliyyəti ilə ümumilli liderin ideya-təsərrüfat-azərbaycançılıq-türkçülük adlı strateji universitetini bitirmiş cənab İlham Əliyevdən sonra ikinci şəxsiyyətdir. Biz inanırıq ki, gələcəkdə bu möhtəşəm 19 ildəki yüksəliş haqqında iqtisadiyyat, səhiyyə, mədəniyyət, elm, təhsil sahəsində elmi əsərlər monoqrafiyalar yazılacaqdır. Mən isə kitabın girişində dediyim kimi, Naxçıvanı yüksəldən bu vətənpərvər şəxs haqqında bir əsər yazmaqla arzumu gerçəkləşdirmək istəyirəm. Vasif Yusif oğlu Talıbov 14 yanvar 1960-cı ildə Naxçıvan MR Şərur rayonunun Aşağı Aralıq kəndində anadan olmuşdur.

Həmin kənddə 1967-ci ildə orta məktəbin birinci sinfinə getmiş 1977-ci ildə orta məktəbi bitirmişdir. Elə həmin il Y.Məmmədəliyev adına Naxçıvan Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinə daxil olmuş, 1981-ci ildə institutu bitirmişdir. Hələ tələbə ikən 1978-ci ildən Şərur Rayon Xalq Maarif şöbəsində müstəqil əmək fəaliyyətinə başlamış, 1981-ci ildə Naxçıvan Pedaqoji İnstitutunu tarix-filologiya ixtisası üzrə bitirdikdən sonra 1982-ci ildə Naxçıvan Alt Trikotaj fabrikində kadrlar üzrə inspektor, xüsusi şöbənin rəisi vəzifələrində işləmişdir. Onun xarakterinin formalaşmasında RXMŞ-da kiçik bir vəzifədən tutmuş, fabrikdə inspektor və xüsusi şöbə rəisi işləməsi mühüm rol oynamışdır.

Əmək fəaliyyəti onun həyat mövqeyinin artıq gənc ikən formalaşmasına da müsbət təsir göstərmişdir. Təhsil aldığı və müxtəlif vəzifələrdə çalışdığı illərdə artıq öz siyasi mövqeyini müəyyənləşdirən gənc Vasif kənardan-yuxarıdan uca səslə deyilən şüarların, partiya vədlərinin mahiyyətini düzgün qiymətləndirməyi, nəyin yaxşı, nəyin pis olduğuna müstəqil hökm verməyi bacarırdı. O, ölkədə gedən siyasi proseslərin xüsusilə SSRİ rəhbərliyində gedən sürətli dəyişiklik (1982–85-ci illər arasında 4 dəfə SSRİ rəhbərinin dəyişməsi) 1985-ci ildə Sov.İKP baş katibi seçilən M.S.Qorbaçovun xalqımıza qarşı mənfi münasibəti haqsızcasına erməniləri müdafiə etməsi, 1987-ci ildə xalqımızın böyük oğlu Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması gənc V.Talıbovda bolşevik-sovet imperiya rejimi haqqında mənfi fikir yaratdı. Onsuz da bir tarixçi kimi, hələ 1828-ci ildən rus imperiyasının anti-türk, anti-müsəlman siyasəti haqqında hər şeyi bilirdi.

1987-ci ilin oktyabr ayında xalqımızın və bütün türk dünyasının dahi oğlu Heydər Əliyevin həm yaşca, həm siyasi təcrübə etibarilə, həm ümumi istedad cəhətdən özündən qat-qat aşağı səviyyədə duran M.S.Qorbaçov tərəfindən sıxışdırılması bir azərbaycanlı-türk oğlu olaraq Vasif Talıbovu qəzəbləndirmişdi. Bu hadisə, ondan sonrakı erməni təcavüzü rus imperiya ayrı-seçkilik siyasəti cəmi 28-30 yaşı olan Vasif Talıbovda sanki bir daxili təlatüm yaratdı. Bu təlatümün mayası onda olan Vətən

məhəbbəti və millət-xalq sevərliyi idi. Heç kəsin ağlına gəlməzdi ki, SSRI kimi fövqəl dövlət süqut edər. Amma siyasi hadisələrin gedişi buna aparır, Vasif Talıbov isə bu hadisələrin nə ilə bitəcəyini aydın şəkildə görürdü. Vətənin ərazi bütövlüyünün kimlər tərəfindən nə üçün pozulması, xalqımıza qarşı düşmən münasibət, xüsusilə Naxçıvanın vəziyyəti, ona qarşı hətta respublika rəhbərliyinin kəmiltifat münasibəti artıq Vasif Talıbovu yetgin bir siyasətçi kimi düşünməyə vadar edirdi. Bu düşüncələr, xalqımızın bütün millət və vətənsevər insanları kimi, belə bir düzgün əqidəyə gətirmişdi ki, ya Heydər Əliyev yenidən respublikanın-xalqın rəhbəri olmalıdır, ya da Allah bilir, nələr olacaq.

Bu müqəddəs əqidə gənc Vasif Talıbovun həyat amalına çevrildi. Beləliklə o, doğma yurdun xilası uğrunda H.Əliyevin yenidən hakimiyyətə qayıdışı uğrunda mübarizənin önündə getdi. Onun bu fəaliyyəti ümummilli liderinin 1990-cı ilin iyununda Naxçıvana gəlişindən sonra daha da güclü və konkret xarakter aldı. Düz üç il Vətəninin, yurdunun dahi oğlu olduğu üçün Heydər Əliyevi ən doğma bir insan kimi sevərək gecəli-gündüzlü ondan ayrılmadı. Öndərin həm mənəvi, həm fiziki silahdaşı, yardımçısı oldu. Çətin şəraitdə, ulu öndərə daxildən və xaricdən hazırlanan sui-qəsdlərin qarşısının alınmasında, soyuqda, şaxtada bu böyük insanın vətən üçün xalq üçün qorunmasında ən fəal iştirakçılardan biri oldu. Bu yolda heç nəyi, hətta öz şəxsi təhlükəsizliyini belə

göz önünə gətirmədi. Dözüm, siyasi hadisələrə münasibət adlı bir məktəbi ulu öndərin yanında Vasif müəllim belə keçdi.

# VASİF TALIBOVUN KEÇDİYİ DÖVLƏTÇİLİK MƏKTƏBİ

1991-ci ilin sentyabrında ulu öndər Naxçıvan MR Ali məclisinin sədri seçildi. Dahi rəhbər heç tərəddüd etmədən, ən çalışqan, istedadlı, işgüzar, enerjili, daim öyrənməyə can atan, güclü hafizə (yaddaş) sahibi Vasif Talıbovu özünə baş köməkçi təyin etdi. Bu illər bütövlükdə Azərbaycan üçün, xüsusilə Naxçıvan MR üçün həm iqtisadi, həm hərbi, həm siyasi cəhətdən sınaq illəri idi. "Mətinlik çətinlikdən doğur" demiş atalar. Bu çətin sınaq illərində Vasif müəllim həm ulu öndərin siyasi məktəbini keçir, həm də özü mətinləşir və daha da kamilləşirdi. Belə ki, o əyani şəkildə gördü və inandı ki, erməni təcavüzü zamanı H.Əliyevin Naxçıvanda olması bu ölüm-dirim savaşında Naxçıvan camaatı, ölkəsi üçün nə deməkdir.

Bundan sonra Muxtar Respublikanın adının sovet sosialist sözlərindən azad olması üçün necə incə siyasi səriştə ilə işin qurulduğunu, Azərbaycan Respublikasının üç rəngli bayrağının yenidən bərpa edilərək ilk dəfə məhz Naxçıvanda yüksəldilməsini görür, qürur hissi ilə yaşayırdı.

Naxçıvanın təklənməkdən xilas olması, blokada şəraitində iqtisadi və siyasi cəhətdən təcrid olunmaması üçün dahi rəhbərin gördüyü işlər Vasif Talıbovun iştirakı və yardımı ilə reallaşırdı. Qonşu Iran və Türkiyə ilə iqtisadi əlaqələrin yaranması Muxtar Respublika əhalisinin iqtisadi vəziyyətini

yaxşılaşdırdı. 1992-ci il mayın 28-də Naxçıvanı Türkiyə ilə birləşdirən, həqiqətən “Ümid körpüsü”nün açılması, habelə Şahtaxtı-Poldəşt körpüsünün inşası həm siyasi iradə, həm səriştə, həm də böyük təşkilatçılıq qabiliyyəti tələb edirdi. Bunları Heydər Əliyev edir, Vasif Talıbov isə ona həm yardımçı olur, həm də rəhbərlik cəsarəti öyrənirdi.

Heydər Əliyev 1991-ci ildə Naxçıvan MR Ali Məclisinin sədri seçilməklə Respublika konstitusiyasına görə Azərbaycan Respublikası parlamentinin sədr müavini olmuş oldu. O, Azərbaycan Respublikası Ali sovetinin 7 fevral 1991-ci il tarixli iclasında nəinki Naxçıvanda və Azərbaycanda, habelə bütün Sovetlər Ittifaqındakı siyasi durumun obyektiv vəziyyətini cəsarətlə təhlil etdi və SSRİ kimi fövqəldövləti bu vəziyyətə salan, milli respublikaların xalqları arasında ədavət yaradan kommunist partiyasını, onun millətçi siyasətini tənqid etdi. Bununla o, hələ dağılmamış SSRİ-nin rəhbəri olan M.S.Qorbaçova qarşı öz kəskin mövqeyini bildirdi. Bu əslində Azərbaycan xalqını dövlət müstəqilliyini bərpa etməyə ulu öndərin çağırışı idi. SSRİ-nin süqutunun labüdlüyünü hiss edən Kreml rəhbərliyi yeni xarakterli ittifaq hökuməti yaratmaq kimi aldadıcı bir təkliflə müttəfiq respublikalara müraciət etmişdi. Bunu Bakıda qəbul etmişdilər. Amma H.Əliyev ümummilli lider olduğunu burada da sübut edərək Respublika Ali sovetinin 7 mart 1991-ci il tarixli sessiyasında belə bir referenduma getməməyə çağırdı. O, heç kimdən

çəkinmədən Ali Sovetin tribunasından dedi: *“Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır”.*

Doğrudan da bu qondarma referendum Naxçıvanda boykot edildi. O, aydın surətdə dərk edirdi ki, imperiyanın indiki zəifləmiş olduğu vəziyyətində onun caynağından xilas olmaq məqamıdır. Yoxsa sovet hakimiyyəti də dil çıxarıb bərabərlik vəd edirdi.

Boykot hadisəsindən sonra H.Əliyev Sovet İttifaqı Kommunist Partiyasının bütün strukturlarını Naxçıvanda ləğv etdi və özü bu qədirbilməz partiyanın sıralarını tərk etdi. Bu barədə belə müfəssəl danışmağımızın səbəbi odur ki, bütün bu hadisələr Vasif Talıbovun gözü qarşısında baş verirdi. Bu isə onun siyasi cəhətdən mətinləşməsinə kömək edirdi.

1992-ci ildə Heydər Əliyevin siyasi rəhbər, milli lider kimi nəyə qadir, nəyə qabil olduğunu bilən yurd və millətsevər ziyalılar Heydər Əliyevi respublika rəhbərliyinə dəvət etdilər. Xalqın 99 faizi bu fikirdə idi. Bunun üçün bir Partiya Yeni Azərbaycan Partiyası yaradılmalı idi. Bu partiyanın təəssis konfransını Bakıda keçirilməsinə AXC-Musavat cütlüyü rəhbərləri razı olmadılar. Buna görə də YAP-ın ilk təəssis konfransı 21 noyabr 1992-ci il tarixdə Naxçıvan Dram Teatrının binasında keçirildi. Burada 550 nəfər iştirak edirdi. Konfrans ağır şəraitdə 4 saat davam etdi.

Burada YAP-ın proqramı və nizamnaməsi təsdiq olundu və Heydər Əliyev yekdilliklə Partiyanın sədri seçildi (12, 22).

Vasif Talıbov bu işlərdə fəal iştirak edərək həm bir partiya xadimi kimi yetişdi, həm də siyasi fəaliyyəti ilə Naxçıvan hüdudlarından çıxaraq ümum Azərbaycan səviyyəsinə yüksəldi. Yəni Yeni Azərbaycan Partiyasının yaranmasındakı səmərəli siyasi və təşkilati fəaliyyəti onu bu partiyanın tarixi qurucuları cərgəsinə çıxardı ki, 2 il yarımdan sonra – 1995-ci il aprelin 8-də Partiyanın Naxçıvan MR təşkilatının sədri seçildi. Eyni zamanda YAP siyasi şurasının üzvü kimi geniş partiya-siyasi işi aparmağa başladı. O, bu gün də bu şərəfli missiyanı bacarıqla yerinə yetirir.

Bu qədər ictimai, siyasi, təşkilati işlər aparmasına baxmayaraq, Vasif Talıbov həmişə öz üzərində çalışır, bütün sahələrdə tutduğu mövqeyin fövqündə dayanmağa böyük zəhmət və səy göstərir. Buna görə də o, Naxçıvan Dövlət Universitetində aldığı tarix-filologiya ixtisası ilə qənaətlənməyərək Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olaraq 1998-ci ildə oranı müvəffəqiyyətlə bitirir.

1991–1993-cü illərdə birgə əmək və siyasi fəaliyyət şəraitində ulu öndərin diqqətini özünə cəlb edən Vasif Talıbov gənc olmasına baxmayaraq, bir rəhbər etimadı qazanır. Ulu öndərin etimadını qazanmaq onun ciddi və tələbkar iş rejiminə etimadı yaradır.

1995-ci il noyabrın 12-də, 2000-ci il noyabrın 5-də və 2005-ci il noyabrın 6-da 1-ci, 2-ci və 3-cü çağırış və

2010-cu ilin noyabrında 4-cü çağırış Azərbaycan Respublikası milli məclisinin, 1-ci, 2-ci, 3-cü və 4-cü çağırış Naxçıvan MR Ali Məclisinin deputatı, Naxçıvan MR Ali Məclisinin müvafiq olaraq 1995-ci il dekabrın 16-da, 2000-ci il dekabrın 7-də, 2005-ci il noyabrın 28-də və 2010-cu ilin noyabrında keçirilən ilk sessiyalarında Naxçıvan MR Ali Məclisinin sədri seçilmişdir (28, 321).

Cənab Vasif Yusif oğlu Talıbov artıq 19 ildir ki, bu çətin və şərəfli vəzifənin öhdəsindən bacarıqla gəlir. Onun məhsuldar və çoxcəhətli fəaliyyətinin bir neçə istiqaməti haqqında bəhs etmək istərdik.

## NAXÇIVANIN MÜKƏMMƏL TARİXİNİN ÖYRƏNİLMƏSİ VƏ HAZIRLANMASINDA VASİF TALIBOVUN ROLU

Naxçıvan tarixinin öyrənilməsinə həvəs iki mənbədən qaynaqlanırdı:

1. Ümummilli liderin azərbaycançılıq, sosial-siyasət, milli mentalitet məktəbinin ən fəal məzunu olduğu üçün Vətən tarixinin öyrənilməsi zərurətini aydın idrak duyğusu ilə dərk etməsi idi. Ulu öndər Naxçıvan tarixini öyrənməyin zərurətini açıq şəkildə bəyan edirdi. Onun bu mövqeyi gənc Vasif Talıbovun sanki genetik koduna hopmuşdu. Ulu öndər deyirdi: *“Mən son vaxtlar Naxçıvanın inkişafı ilə əlaqədar bəzi tədbirlər həyata keçirmək barədə qərarlar vermişəm. Bunlar lazımdır. Nə üçün? Çünki Naxçıvanm vəziyyəti, onun coğrafi vəziyyəti və Naxçıvana qarşı ermənilərin daimi ərazi iddiası Naxçıvanı xüsusi inkişaf etdirmək məsələsini qarşımıza qoyur. Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Naxçıvanda Azərbaycanın milli mədəniyyəti, memarlığını, rəssamlığını nümayiş etdirən abidələr vardır. Biz Azərbaycanın xüsusi ağır şəraitdə olan bir hissəsini gərək o qədər inkişaf etdirək ki, oradakı problemlər insanları narahat etməsin. Həmin insanlar orada daim yaşasınlar. Azərbaycan torpağını qorusunlar, saxlasınlar...”*

Naxçıvanm böyük və zəngin tarixi vardır. Bu tarixin dünya mədəniyyətinə, bəşər mədəniyyətinə böyük töhfələri olmuşdur. Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmiş və bu şəxsiyyətlər alimlər, münəccimlər, şairlər, memarlar, dövlət xadimləri, siyasi xadimlər olmuşdur. Naxçıvan həmişə Azərbaycanın yüksək ziyalı yetişdirən bir diyarı olmuşdur.

2. Özünün ixtisasca tarixçi olması onu vətən tarixinin öyrənilməsinə hamıdan çox önəm verməsini şərtləndirirdi. Hələ orta məktəbin aşağı sinif şagirdi olarkən valideynlərindən “Əshabi-Kəhv” haqqında, “Qurani Kərim”də bu haqda xüsusi surə olması barədə eşitmişdi. Yuxarı siniflərdə oxuyanda isə “Möminə Xatun türbəsi”, “Yusif Küseyr türbəsi”, “Əlincə qalası” və s. tarixi abidələr haqqında məlumat almışdı. Doğrudur Sovet tarixşünaslığı bu abidələr haqqında geniş məlumat vermirdi, “Əshabi-Kəhv” haqqında isə danışmaq olmazdı. Bununla belə gənc Vasifdə bu abidələrə, onların mahiyyət və tarixinə ciddi daxili maraq oyanmışdı.

Naxçıvan Dövlət Universitetinin tarix-filologiya fakültəsinin tələbəsi olanda bu abidələri müfəssəl və mükumməl şəkildə öyrənmək qərarına gəlmişdi. Hələ bu azdır Naxçıvanın abidələrinin öyrənilməsinin Naxçıvan tarixi üçün nə qədər böyük əhəmiyyəti olması bir ideya kimi onu narahat edirdi. Buna görə

də Naxçıvan MR rəhbəri olan gündən bu ideyanı həyata keçirməyə qərar verdi. Təsadüfi deyil ki, 1995-ci il dekabrın 16-da Naxçıvan MR Ali Məclisinin sədri seçiləndən cəmi 4 ay sonra – 1996-cı il martın 24-də yeni ildən imzaladığı ilk sərəncam Naxçıvan tarixinə aid oldu. O bilirdi ki, Naxçıvan tarixinə aid sənədlərin çoxu Muxtar Respublikadan kənardadır. Bu səbəbdən də həmin sərəncamla xarici ölkə alimlərinin iştirakı ilə beynəlxalq simpozium keçirilməsi məsələsini rəsmiləşdirdi. Həmin sərəncamda deyilirdi:

2. "Uluslararası qaynaqlarda Naxçıvan" mövzusunda simpoziumun 1996-cı ilin iyul ayında 3 gün müddətində Naxçıvan şəhərində keçirilməsi nəzərdə tutulsun.

3. Simpoziumda Azərbaycan alimləri ilə yanaşı Naxçıvan tarixinin bağlı olduğu Rusiya, Türkiyə və s. İran İslam Respublikasının görkəmli alimlərinin də iştirakı təmin edilsin.

### *A. “Uluslararası qaynaqlarda Naxçıvan” Beynəlxalq Simpoziumu*

Sərəncamda göstərildiyi kimi, həmin ilin iyul ayında Naxçıvan şəhərində “Uluslararası qaynaqlarda Naxçıvan” Beynəlxalq Simpoziumu keçirildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov simpoziumda geniş və dərin məzmunlu giriş sözü ilə çıxış etdi. Giriş sözündə cənab Vasif Talıbov dedi:

Bu gün elm adamlarının, tarixçi alimlərin iştirakı ilə Naxçıvanda keçirilən bu simpoziumda bir mühüm amil də Sizə məlum edilməlidir ki, respublikamız dövlət müstəqilliyi qazanandan sonra Xalq Cəbhəsinin hakimiyyəti dövründə Azərbaycan Elmlər Akademiyasının fəaliyyətini dayandırmaq və Heydər Əliyev Naxçıvanda Ali Məclisin Sədri işlədiyindən siyasi qısqanclıq xatirinə Moskva və Qars müqavilələrinin şərtlərini pozaraq Naxçıvanın muxtariyyət statusunu ləğv etmək cəhdləri Siz yaradıcı ziyalılara və milli dövlətçiliyimizə ağır zərbələr vurmuşdur. Qeyd edim ki, Heydər Əliyev cənablarının Azərbaycan dövləti rəhbərliyinə ikinci qayıdışı ilə bu kimi acı halların birdəfəlik kökü kəsilmiş, elmimiz və milli ziyalılarımız yenidən dirçəlmiş, Naxçıvanın muxtariyyəti isə yeni Azərbaycan Konstitusiyasında muxtar dövlət statusu almışdır...

Azərbaycanımızın tarixi, ilk növbədə vahid, bütöv Azərbaycan xalqının tarixi deməkdir. Bununla belə, tariximiz xalqımızın yaşadığı, dövlətimizin tarix boyunca fəaliyyət göstərdiyi ərazilərin də tarixi deməkdir. Ümumiyyətlə, millətin və dövlətin tarixi bölünməzdir, bütövdür, tamdır. Lakin bu məntiqə də inanmaq lazımdır ki, bütövlükdə Azərbaycanın tarixi onun ayrılmaz tərkib hissəsi olan vilayətlərin, şəhərlərin, kəndlərin, tayfaların, nəsillərin tarixinin birliyindən, vəhdətindən ibarətdir. Ona görə də Bakının, Gəncənin, Qarabağın, Şamaxının, Qubanın, Lənkəranın tarixini yazmaq və ya Kəngərli, Səfəvi, Şirvanşahlar, Bakıxanovlar sülalələrini araşdırıb ümumiləşdirmək əslində Azərbaycan tarixini tədqiq etmək deməkdir. Bu mənada biz Naxçıvana dair simpozium keçirməyi bütövlükdə Azərbaycan tarixinin, milli mədəniyyətimizin araşdırılmasına müəyyən kömək göstərmək, bir növ təkan vermək kimi düşünürük və bunu özümüzün anamız Azərbaycan qarşısında əsas vətəndaşlıq borclarımızdan biri hesab edirik.

Hamımıza məlum olduğu kimi, min illər boyunca Naxçıvan həmişə Azərbaycanın üzvi tərkib hissəsi olmuşdur. Arxeoloji qazıntılar zamanı hələ miladdan əvvəlki dövrlərə aid Naxçıvan diyarında aşkar edilən materiallar ayrıca bir əyalətin deyil, geniş mənada Azərbaycan tarixinin ayrı-ayrı problemlərinə işıq salmağa imkan vermişdir. Artıq tarixçilərimiz Naxçıvan diyarının çox qədim keçmişə malik

olduğunu sübuta çatdırmışlar. Elmimizdə Naxçıvan sözünün əfsanəvi Nuh peyğəmbərlə əlaqədar olduğunu sübut edən dəlillər mövcuddur. Antik yunan coğrafiyaşünası Klavdi Ptolomeyin "Coğrafiya" kitabında Naxçıvan şəhərinin adı Naksuana kimi qeyd edilmişdir. Azərbaycan ərazisindəki qədim dövlətlərin hamısının tərkibində Naxçıvanın özünəməxsus yeri və mövqeyi olmuşdur. Manna, Midiya, Atropatena, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi dövlətlərində Naxçıvan mühüm strateji əhəmiyyətə malik olan bölgə kimi xüsusi əhəmiyyət kəsb etmişdir. Azərbaycanın görkəmli tarixçisi, akademik Ziya Bünyadov on ikinci yüzillikdə Naxçıvanın Atabəylər dövlətinin paytaxtlarından birinə çevrildiyini sübuta çatdırmışdır. XVIII əsr və XIX əsrin əvvəllərində ayrıca Naxçıvan xanlığı fəaliyyət göstərmişdir...

Burada bir məsələnin də üzərində dayanmağı lazım bilirəm. Uzun illər Azərbaycan tarixşünaslığında ayrı-ayrı şəhərlərimizn yaşı haqqında söhbətlər getmişdır. Lakin təəssüf ki, hələlik heç bir qədim səhərimizin təvəllüd tarixi qeyd olunmamışdır. Bədnam qonşularımız isə min cür süni yollarla təntənəli qeyd olunma mərasimləri keçirmişlər. Fikrimizcə, "Uluslar-arası qaynaqlarda Naxçıvan" simpoziumunda bu məsələ ətrafında elmi söhbətlər aparılsa, kompleks təkliflər irəli sürülsə faydalı olar. Çunkı yaxın keçmişimizdə Naxçıvanın 3500 və ya 4000 illik tarixə malik olması barədə mülahizələr irəli sürülmüşdür. İndi həmin məsələ ilə əlaqədar elmi cəhətdən əsaslan-

dırılmış, tarixi qaynaqlara söykənən fikirlər meydana çıxarsa, muxtar dövlətin rəhbərliyi buna lazımi səviyyədə diqqət gostərə bilər. Bu, həm də indiki millətlərarası zəmində yaranmış çətin şəraitdə xüsusi əhəmiyyətə malikdir (29, 6–8).

Simpoziumun işini, burada edilən məruzələri diqqətlə dinləyən cənab Vasif Talıbov elmi məclisin işindən razı qalmış və dərin-məzmunlu yekun sözü söyləmişdir. Müddəaları 10 bənddən ibarət olan ümumiləşdirməli yekun sözünrdə Ali məclisin sədri deyirdi:

Simpoziumda aydın oldu ki, ayrı-ayrı regionların, bölgəlırin tarixi gedişatının öyrənilməsi əyalətçilik demək deyildir. Əksinə, millətin və məmləkətin geniş tarixi ilk yığıncağımızda deyildiyi kimi, müxtəlif əyalətlərin və vilayətlərin, nəsillərin və sülalələrin tarixi əsasında yazılarsa, daha təbii və elmi görünə bilər. Buna görə də inanırıq ki, "Uluslararası qaynaqlarda Naxçıvan" mövzusunda keçirdiyimiz beynəlxalq simpozium geniş əks-səda tapacaq, Azərbaycanımızın Bakı, Qarabağ, Gəncə, Şamaxı, Lənkəran, Şəki, Quba və başqa bu kimi şəhər və bölgələrinin də tarixinin yenidən yazılması, araşdırılıb ümumiləşdirilməsi sahəsində yenı və faydalı təşəbbüslər meydana çıxacaqdır. Biz bunu yüksək qiymətləndirir və təqdir edirik.

Azərbaycan tarixşünaslığında Naxçıvan problemi geniş yer tutur. Azərbaycan Respublikasının Prezidenti hörmətli Heydər Əliyev cənablarının bu

simpoziuma göndərdiyi təbrik məktubunda deyildiyi kimi: *"Hər daşı, qayası tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində əvəzsiz rolu danılmazdır"*. Bu vaxtadək belə bir tarixə malik Naxçıvana dair onlarla kitab, yüzlərlə məqalə yazılmışdır. Buna baxmayaraq, simpozium göstərdi ki, Naxçıvanın tarixi yenidən araşdırılmalı və nəşr edilib xalqa çatdırılmalıdır. Bu zaman illər uzunu formalaşmış ideoloji sxem və tələblər deyil, tarixi qaynaqlar əsas götürülməlidir. Bu barədə simpozium boyu irəli sürülən təklifləri və mülahizələri biz faydalı bir təşəbbüs kimi qəbul edirik. Belə bir yüksək elmi dəyərə malik olan kitab meydana çıxan kimi biz onun sponsorluq məsələsini həll etməyi öz üzərimizə götürürük (29, 12).

Simpoziumda məlum oldu ki, Naxçıvana, onun tarixinə aid ən önəmli sənədlər Türkiyə Respublikasındadır. Bunun səbəbi o idi ki, min illərlə Naxçıvan Türkiyə ilə həmsərhəd olduğu kimi, iqtisadi, sosial-siyasi cəhətdən də möhkəm əlaqələrdə olmuşdur. Buna görə də Osmanlı dövründən yəni 1554-cü ildən 1923-cü ilə qədər Türkiyədə saxlanan Naxçıvana aid sənədləri toplamaq üçün Türkiyə Cümhuriyyəti Başkanlığı Dövlət Arxivləri baş idarəsinə sifariş etdi. Bu sifariş əsasında 1911-ci ildə "Osmanlı Arşiv belgelerinde Nahçıvan" adlı 568 səhifədən ibarət irihəcmli bir kitab İstambulda çap

olunaraq Naxçıvana göndərildi. Kitabda 85 mövzunu əhatə edən 154 geniş sənəd toplanmışdır. Kitab Türkiyə Respublikası baş Arxivlər idarəsinin rəisi dos. dr. Yusif Sarınayın rəhbərliyi altında 13 nəfərdən ibarət bir kollektiv tərəfindən hazırlanmışdır. Bu kitabda sənədlərin orijinalı və qrafiki transliterasiyası verilmişdir. Kitab çox dəyərli elmi mənbədir. Əminik ki, bundan sonra da Naxçıvan tarixini sənədlər əsasında öyrənmək istəyənlər üçün çox dəyərli mənbə olacaqdır ki, bu da cənab Vasif Talıbovun doğma diyar qarşısındakı böyük xidmətlərdən biridir.

Hər bir xalqın özəlliyini təşkil edən onun tarixən formalaşmış milli dəyərləridir. Milli dəyərlər xalqın dini-əxlaqi dəyərləri ilə əsrlərlə qaynayıb qarışır və xalqın milli mentalitetini yaradır. Bu dəyərlər xalqın dilində, ədəbiyyatında milli təfəkküründə əks olunur. Bu səbəbdən də milli dəyərlər xalqın özünəməxsusluğunu və dini inanclarını özündə əks etdirir. Bununla belə nə qədər üzvi şəkildə sintez olsa da milli ilə dini dəyərlər biri digərinə çevrilmir. Məsələn, Sovet dönəmində xalqımızın dini dəyərləri (islami dəyərlər) tamamilə, milli dəyərlər isə 80-90 faiz inkar edilmişdi. Belə ki, oruc tutmaq, dini ayinləri icra etmək panislamist damğası ilə damğalanır (Repressiya illərində hətta güllələnməyə səbəb olurdu).

Milli dəyərlərimiz – Novruz bayramı, qədim mifik təfəkkürümüzün məhsulları qadağan edilmişdi:

“Əshabi-Kəhf kimi qədim bir məbəd ələ salınaraq “Особый кейф” adlandırılır, qəhrəmanlıq dastanı olan “Dədə Qorqud” inkar edilir. Türk soyumuz danılır (bəzən pantürkist damğasına çevrilirdi).

Biz Əshabi-Kəhf kimi çox qədim bir dini məbədi danmalı olmuşduq. Eləcədə Nuh Peyğəmbər, Gəmiqaya və s. haqqında danışmaq – xalqımızın qədim tarixi olduğunu söyləmək olmazdı.

Ulu öndər özü Naxçıvanı – sevimli diyarı olaraq qarış-qarış gəzmişdi, onun hər daşına, qayasına, torpağına, bulağına bələd idi. O, Naxçıvan tarixini yaxşı bildiyi üçün buradakı milli dəyərlərimizin simvolu olan abidələri də yüksək qiymətləndirirdi. O deyirdi: *“Naxçıvan Azərbaycan tarixində çox böyük yer tutur. Atabəylər dövlətinin paytaxtı olubdur. Elə bunun özü Naxçıvanın nə qədər böyük tarixi əhəmiyyətə malik olduğunu göstərir... Möminə xatun türbəsi 800 ildir ki, bütün dünya səyyahlarını heyran edir. Yusif ibn Küseyr, Qarabağlar türbəsi, Əlincə qalası və bir çox belə abidələr - bunlar hamısı. Naxçıvanın qədim Azərbaycan torpağı və ən qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb yaratdıqlarını göstərir. Biz bu tariximizi nə qədər yaxşı təhlil edib dünyaya nümayiş etdirə bilsək, xalqımızın qədim mədəniyyətini bir o qədər də göstərəcəyik”.*

Ümumi ideya istiqamətini ulu öndərin azərbaycançılıq konsepsiyasından alan Naxçıvan rəhbəri cənab Vasif Talıbov gözəl dərk edir və uca

səslə deyirdi: *“Naxçıvan Muxtar Respublikasının ərazisi insanların ən qədim yaşayış məskənlərindən olduğundan bu ərazidə daş dövründən başlamış yüzlərlə abidə mövcud olmuşdur. Sovetlər Birliyi dövründə Azərbaycanın, o cümlədən Naxçıvanın tarixi lazımi səviyyədə öyrənilməmiş, üzə çıxarılmamış və tədqiq olunmamışdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra həyatımızın bütün sahələrinə diqqət yetirildiyi kimi, tarixi abidələrimizə də diqqət və qayğı artırılmışdır. Abidələrlə zəngin sivilizasiya məkanlarından olan Naxçıvan diyarında mədəniyyətə, tarixi abidələrə, onların qorunması və bərpasına xüsusi əhəmiyyət verilir və tədqiq edilir”.*

## *B. “Əshabi-Kəhf” ziyarətgahının bərpası*

Naxçıvanın rəhbəri cənab Vasif Talıbovun bu sözləri həm də onun gündəlik fəaliyyəti ilə əməli işi ilə əlaqələndirilirdi. Buna görə də rəhbərliyə başlayandan sonra onun 6-cı sərəncamıv “Əshabi-Kəhv” ziyarətgahının bərpası və qorunması tədbirləri haqqında” oldu.

Doğrudur, Ulu öndər Naxçıvan MR Ali Məclisinin sədri olanda bu qədim dini-tarixi abidə haqqında müəyyən işlər görmüşdü. Hətta bu müqəddəs ziyarətgahı özü bir neçə dəfə ziyarət etmiş, çoxlu göstəriş vermişdi. H.Əliyev nəinki təkcə “Əshabi-Kəhv” ziyarətgahı, habelə Azərbaycanın bütün guşələrində yerləşən dini, tarixi abidələri qorumaq və bərpa etmək üçün həqiqətən çox iş görmüşdü. Bütün məsələlərdə, Heydər Əliyevin istedadlı şagirdi olan Vasif Talıbovun 9 fevral 1998-ci ildə imzaladığı sərəncamda deyilirdi: *“Naxçıvanın ən qədim tarixə malik özünəməxsus və təkrarsız abidələri içərisində “Əshabi-Kəhf” ziyarətgahının xüsusi yeri vardır. Qədim tariximizin bu günümüzəcən gəlib çatan canlı yaddaşı və daş kitabəsi “Əshabi-Kəhf”dən dünya müsəlmanlarının müqəddəs dini kitabı olan “Quran”ın “Əl-Kəhf” (“Mağara”) adlı 18-ci surəsində ayrıca bəhs olunması bu qədim ziyarətgahın “Quran”a qədərki dövrdə tanınmasının və məşhurlaşmasının daha bir sübutudur.*

*Həmin surənin 22-ci ayəsində "Əshabi-Kəhf"in yazılı tarixəcən mövcudluğuna işarə olunaraq deyilir ki: "Əshabi-Kəhf" barəsində yalnız sənə açıq-aşkar nazil olan ayələrə əsaslanıb onlarla mübahisə et (Quranda onlarla kifayətlənib çox dərinə getmə) və (kitab əhlinin) heç birindən onlar lıaqqında bir şey soruşma!"*

Tarixin keşməkeşli hadisələrindən və bir-birini əvəz edən dövlət quruluşlarından asılı olmayaraq insanlar həmişə "Əshabi-Kəhf"ə üz tutmuş, buranı bütün dövrlərdə müqəddəs ziyarətgah yeri kimi tanımışlar. Hətta, sovet rejimi dövründə dini etiqadlara və ziyarətgah yerlərinə qoyulmuş sərt qadağalara baxmayaraq "Əshabi-Kəhf" öz müqəddəsliyini qoruyub saxlamışdır".

4. "Əshabi-Kəhf" zıyarətgahına gedən yolun təmiri və buraya asfalt örtüyünün salınması təmin edilsin.

5. "Əshabi-Kəhf" ziyarətgahının bərpası və burada kompleks abadlıq tədbirlərinin aparılması və toplanacaq vəsaitlərin aidiyyəti üzrə xərclənməsi məqsədilə komissiya yaradılsın.

Bu sərəncamın bir neçə tarixi əhəmiyyətinə diqqət çəkmək istərdik.

1. Vətən və yurd sevər bir insani-rəhbər olaraq cənab Vasif Talıbovun doğma diyarın bütövlükdə ana

vətənin – Azərbaycanın tarixi abidələrinə qarşı böyük sayğısı.

2. Əshabi-kəhfin yeni eradan ən azı bütpərəstlik dövründən də qabaq mövcud olduğunu bir daha təsdiq etmək.

3. Bu möhtəşəm və bənzəri olmayan müqəddəs abidəni dünyanın hər yerindən gələn ziyarətçilərə abad şəkildə göstərməklə xalqımızın, dövlətimizin imicini yüksəltmək və s.

"Sərəncam"da deyildiyi kimi, "Qurani-Kərim"in 18-ci surəsi olan "Əl-kəhf" (Mağara) haqqında bir neçə kəlmə əlavə etmək yersiz olmazdı. Çünki bu məlumatlar-ayələr Naxçıvanın ən qədim insan məskənlərindən biri, bəlkə də birincisi olmasına ən parlaq dəlil ola bilər. Surənin 10-cu ayəsində deyilir:

10. (Ya Məhəmməd) Xatırla ki, o zaman gənclər Mağaraya sığınıb *"Ey Rəbbimiz! Bizə öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver! (Bizi kafirlərin bəlasından, düşmənlərin təhlükəsindən qoru, bizə ruzi verib doğru yola yönəlt!")* demişdilər.

11. Biz onları mağarada illərlə (üç yüz doqquz il) yuxuya verdik.

17. (Ya Məhəmməd! Əgər o zaman onlara baxsaydın) günəşin doğduğu zaman onların mağarasının sağ tərəfinə meyl etdiyini, batdığı zaman isə onları tərk edib sol tərəfə yönəltdiyini (Mağaranın içinə düşüb onları yandırmadığını), onların da mağaranın ortasında geniş bir yerdə olduqlarını (küləyin onları oxşadığını və rahat nəfəs aldıqlarını) görərdin. Bu, Allahın möcüzələrindəndir. Allahın doğru yola saldığı kəs doğru yoldadır. Allahın yoldan çıxardığı şəxs isə əsla doğru yolu göstərən bir rəhbər tapa bilməzsən" (19, 264).

Bu üç ayəni verməkdə məqsədimiz ikisinin (10, 11) ziyarətgahın məzmun və mahiyyətini bir daha göstərmək idi. 17-ci ayə isə bir məsələni qətiləşdirməyə imkan verir. Çünki bəzən iddia edilir ki, "Əshabi-Kəhf" adlı bir neçə tarixi abidə-ziyarətgah vardır. Onun 17-ci ayədə göstərilən əlamətləri məhz Naxçıvandakı "Əshabi-Kəhf"dir.

Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbov bircə gündə "Əshabi-Kəhfi" nəzarətdən kənarda saxlamamışdır. 1998-ci ildə bu müqəddəs məkanın abadlaşdırılması üçün fərman verilmiş və çoxlu işlər görülmüşdü. Buna baxmayaraq MR rəhbəri ildə bir neçə dəfə bu müqəddəs ziyarətgaha gəlir, görülən işlərə nəzarət edir, yeni tapşırıqlar verir. Buna görə də "Əshabi-Kəhf"də xeyli iş görülmüşdür. Zəvvarların ibadət etmələri, qurban kəsmələri üçün lazımi şərait yaradılmış, ailəvi ziyarət guşələri qurulmuş, inzibati binalar tikilmiş, oturacaqlar

quraşdırılmışdır. Ziyarətgahda Muxtar respublikamızda istehsal olunan məhsulların satışı mağazası və hədiyyələr mağazası fəaliyyətə başlamışdır. Hədiyyələr mağazasında satılan əl işlərinə, rəsm əsərlərinə, kitablara, bukletlərə zəvvarlr daha çox maraq göstərirlər.

Ziyarətgaha gediş-gəlişi asanlasdırmaq uçun yol yatağı genişləndirilib, əraziyə sal daşlar döşənıb. Burada minlərlə bəzək tingı əkilib, zəvvarların "Damcılı mağara" və "Cənnət bağı"nı ziyarət etmələrı üçün pilləkənlər quraşdırılıb, məsciddə abadlıq işləri aparılıb, 2 kilometrlik məsafədə yeni su, elektrik xətləri çəkilib, işıqlandırma sistemi yaradılıb. Hər biri 10 tonluq olmaqla 2 su çəni qoyulub.

Həyata keçirilən quruculuq işlərindən sonra ulu keçmişimizın yadigarı, müqəddəs ziyarətgahımız yaraşıqlı görkəm alıb. Bu gün «Əshabi-Kəhf» bütün insanları müqəddəs bir məkan kimi haqqa, ədalətə, dostluğa və qardaşlığa səsləməklə yanaşı, həm də dəyərli bir turizm mərkəzinə çevrilib.

Müqəddəs ünvana ziyarətə gələn zəvvarlar burada həyata keçirilən xeyirxah, savab işlərə gorə Ali Məclis Sədrinə minnətdarlıqlarını ifadə etmişlər (39).

Türk xalqları içərisində uyğurlarla azərbaycanlılar qədər çətin şəraitdə yaşayan yoxdur. Çünki uyğurlar çinlilər tərəfindən sıxışdırıldığı, tarixi abidələri məhv edildiyi kimi, biz də sayca özümüzdən qat-qat az olan, amma məkr və fitnəkarlıq cəhətdən dünyada tayı-

bərabəri olmayan öz himayədarlarının köməyilə ermənilər tərəfindən həmişə təcavüzə məruz qalmışıq.

Ermənilər tariximizi, milli-mənəvi dəyərlərimizi həmişə oğurlamaq yolu ilə özlərininkiləşdirmişlər. Bu səbəbdən də həmişə ayıq olmaq, onların oğurluğuna yol verməmək lazımdır. Bu işdə Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbovun işi, fəaliyyəti bir örnək ola bilər. O, hər bir tarixi-mədəni abidəmizə sahib çıxıb, tədqiq edərək həm öz tariximizə, həm də dünyanın mədəni irs tarixinə salınması üçün fədakarlıqla çalışır. Naxçıvan rəhbərinin milli-mədəni irsimizin qorunması sahəsində böyük diqqət göstərdiyi abidələrimizdən biri də Gəmiqaya rəsmləridir.

Bu rəsmlər Ordubad rayonu ərazisində dağ yüksəkliyində e.ə. IV-I minilliklərə aid olan Gəmiqaya rəsmlər sistemi 1970-74-cü illərdə ekspedisiya tərəfindən aşkar edilmişdir. O vaxt Respublika rəhbəri olan Heydər Əliyevin qayğısı sayəsində aparılan tədqiqatlarda Gəmiqaya rəsmlərinin məzmunu, forması haqqında ətraflı məlumatlar dərc edilmişdi.

Bədnam qonşularımız – ermənilər bu böyük həqiqəti də pərdələyərək Gəmiqaya abidələrini özlərinə çıxmışlar. Azərbaycanda 80-ci illərdə başqa sahələrdə olduğu kimi, Gəmiqayaya da diqqət zəifləmişdi. Bundan istifadə edən erməni alimcikləri dərhal işə başlamış, buradakı adları təhrif edərək rəsmləri vermiş “Navasar”, “Tapansar” kimi adlar

uydurmuşlar. Halbuki, Gəmiqaya abidələri Şərur rayonu Qarabulaq düzənliyində aparılan qazıntılar zamanı əldə edilmiş materiallarla eynidir. Erməni məkrinin qarşısını almaq, həqiqəti bir daha və əbədi olaraq təsdiqləmək məqsədi ilə cənab Vasif Talıbov Naxçıvanın rəhbəri kimi qəti sərəncam vermişdir. Sərəncamda deyilir: "Azərbaycan və ona bağlı Naxçıvan Muxtar Respublikası ən qədim mədəniyyətin daşıyıcıları olan tarixi abidələri ilə məşhurdur. Belə abidələrdən biri də xalqımızın tarixən bu torpağa məxsusluğunun daş pasportu olan Gəmiqaya tarixi-etnoqrafik abidələr kompleksidir.

Xalqımızın tarixi etnoqrafiyası və arxeologiyası üçün çox ciddi əhəmiyyətə malik olan Gəmiqaya qayaüstü təsvirləri Kiçik Qafqaz dağlarının dəniz səviyyəsindən 3000-3500 metr yüksəkliyində yerləşən Qaranquş, Camışölən və Nəbiyurdu yaylaqlarında qeydə alınmışdır.

Süjet, kompozisiya mürəkkəbliyi ilə fərqlənən bu rəsmlərin mövzusu əcdadlarımızın inancına və əmək fəaliyyətinə, ovçu, maldar və əkinçi tayfaların təsərrüfat həyatına həsr olunmuşdur. Gəmiqaya qayaüstü təsvirləri içərisində bayram mərasimlərini əks etdirən rəsmlərlə yanaşı müxtəlif astronomik, coğrafi təsvirli rəsmlər də vardır.

Xalqımızın həyat tərzi, qədim adət-ənənələri ilə əlaqədar yaranmış Gəmiqaya rəsmləri qiymətli tarixi və təsviri sənət nümunələri kimi tariximizin və

mədəniyyətimizin ilkin inkişaf mərhələlərini xronoloji ardıçıllıqla izləməyə və öyrənməyə imkan verir.

Qədim türk dünyası mədəniyyəti üçün səciyyəvi olan qayaüstü rəsmləri özündə əks etdirən Gəmiqaya abidələri Azərbaycan xalqının ən qədim tarixinin və mənəvi mədəniyyətinin öyrənilməsi üçün xəzinədir. Bu abidələrin qorunub saxlanaraq gələcək nəsillərə çatdırılması, ardıcıl və sistemli şəkildə tədqiq edilməsi üçün qərara alıram:

1. Azərbaycan Respublikası Elmlər Akademiyası Naxçıvan Regional Elm Mərkəzi və Naxçıvan Dövlət Universiteti Azərbaycan Elmlər Akademiyasının mütəxəssislərini dəvət edib, onlarla birlikdə Gəmiqaya abidələrində elmi tədqiqat işlərinin aparılması üçün "Gəmiqaya" ekspedisiyasını təşkil etsinlər.

2. Ekspedisiyaya tapşırılsın ki, Gəmiqaya abidələrinin qorunub saxlanması, ardıcıl və sistemli şəkildə öyrənilməsi üçün aparılan tədqiqat işlərinin nəticəsi barədə elmi rəy hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin (52, 110-111).

Bu sərəncamdan sonra Gəmiqayaya yönəldilən diqqət heç vaxt zəifləməmiş dövri olaraq abidə üzərində tədqiqat, dəqiqləşdirmə işləri davam etdirilmişdir. Sərəncamdan 5 il sonra AMEA müxbir

üzvü prof. V.H.Əliyev araşdırmalarını ümumiləşdirərək "Gəmiqaya qədim türk tayfalarının həyat tərzindən xəbər verir" adlı məqaləsini də vermişdir. Məqalədə oxuyuruq: "Gilançay vadisinin aşağı axını boyunca yaşamış maldar tayfalar tunc və ilk dəmir dövründə (e.ə. IV-I minilliklərdə) yay fəslində Qaranquş yaylağında mövsümi məskunlaşıb təsərrüfat işləri ilə məşğul olmuşlar. İbtidai icma quruluşunun bu mühüm mərhələsində daim baş verən tayfalararası qarətçi basqınlar və vuruşmalar Gəmiqaya ərazisində də olmuşdur. Belə təhlükələrdən xilas olmaq, eləcə də sürülərini qoruyub saxlamaq üçün qədim Gəmiqaya yaylaqlarında movsümi mövqe tutan maldar tayfalar özlərinin təhlükəsizliyini təmin edə bilmişlər. Bunun üçün onlar düzgün olaraq Nəbi yurdu ərazisindəkı qayalıq sahəni seçmişlər...

Gəmiqaya təsvirlərinin qədim Naxçıvan mədəniyyətində yerini, ələcə də, etnik-mədəni mənsubiyyətini müəyyənləşdirmək məqsədi ilə 2002-ci ildə Naxçıvan MR-in düzən ərazisindəki qədim yaşayış məskənlərində, qala-şəhər tipli yaşayış yerlərində və qəbir abidələrində arxeoloji qazıntılar aparılmışdır.

Şərur rayonu ərazisində Qarabulaq adlanan düzənlikdə arxeoloji axtarışlar aparılmış, ilk dəfə olaraq Kür-Araz mədəniyyətinə aid Kurqan abidələri qeydə alınmış, onlardan bir neçəsi qazıntılar nəticəsində açılmış və ilk tunc dövrü (e.ə. III minillik) keramika məmulatları əldə edilmişdir.

Bu abidələrin və Şərurun tunc dövrü yaşayış yerlərinin, qala-şəhərlərinin kompleks şəkildə tədqiqi Gəmiqaya təsvirlərinin sirrini açmaq üçün çox mühüm əhəmiyyət kəsb edir. Çünki, Gəmiqaya təsvirlərində tez-tez rast gəlinən bir sıra piktoqrafik işarələr Ovçular təpəsi, Daşarx, Maxta və sair ilk tunc dövrü (e.ə. IV-III minillik) yaşayış məskənlərinin Kur-Araz mədəniyyəti üçün çox səciyyəvidir (31).

2001-ci ildən 2009-cu ilə qədər Gəmiqaya abidəsi kompleks şəklində öyrənilmiş pasportlaşdırılmışdır. Bu mövzuda 90-dək kitab və monoqrafiya 170-dən çox elmi məqalə çap olunmuşdur. "Naxçıvan abidələri ensiklopediyası" hazırlanıb nəşr olunmuşdur.

### *C. Nuh Peyğəmbər və Naxçıvan*

Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbovun Naxçıvanın milli mədəniyyət tarixindəki ən böyük xidmətlərindən biri də “Nuh Peyğəmbər və Naxçıvan” mövzusunda gördüyü tarixi işlərdir.

Bizə elə gəlir ki, Naxçıvanda Vasif Talıbov yox, başqa birisi rəhbər olsaydı, belə böyük problemlərin şərhinə və həllinə girişməzdi.

Eləcə də Vasif Talıbov Sovet dönəmində Naxçıvan rəhbəri (obkom katibi) olsaydı ona belə işləmək imkanı verməzdilər. Sovet imperiya rejimi qoyardımı ki, sübut edəsən Nuh peyğəmbər 7500 il bundan əvvəl Rusiya şəhərlərində deyil, Naxçıvanda dayanmışdır. Deməli, müstəqillik üstəgəl milli qeyrət (coşğun fəaliyyət) Ali Məclisin sədri cənab Vasif Talıbova imkan verdi ki, Sovet dövründə unudulmuş (unutdurulmuş), hətta qəbrüstü abidəsi dağıdılmış Nuh Peyğəmbər haqqında düşündüklərini gerçəkləşdirsin. O, cəsarətlə işə girişdi. Ona görə də Naxçıvan rəhbəri 2001-ci ildə Yunan alimi Klavdi Ptolomeyin, Ərəb alimi Əl-Şərifinin, Yəhudi alimi İosif Flavinin, rus maarifçisi K.A.Nikitinin, rus alimi V.M.Smirnovun və Azərbaycan rəssamı B.Kəngərlinin elmi mülahizələrinə əsaslanaraq özü üçün qəti şəkildə yəqin etdi ki, Nuhun qəbri Naxçıvandadır. Və bunu dünyaya sübut etmək lazımdır. O, eyni zamanda qəti şəkildə inanırdı ki, bu məsələ böyük uğurla başa çatacaq. Bunun üçün ilk

növbədə Nuh Peyğəmbərin qəbri bir daha təsdiqlənməli, onun məzarüstü türbəsi bərpa edilməlidir. Ona görə də 28 iyun 2006-cı ildə “Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında” sərəncam imzaladı. Sərəncamın preambulası o qədər elmi, sərrast şəkildə qurulmuşdur ki, böyük elmi-tədqiqat işi təsiri buraxır. Bu hissə eyni zamanda cənab Vasif Talıbovun qədim tariximizin gözəl bilicisi olduğunu sübut edir. Buradakı elmi məlumatlar çox qiymətlidir.

Cənab Vasif Talıbovun sərəncam, çıxış və məruzələrindən götürülmüş sitat və çıxarışları həcmcə nisbətən böyük verməklə bu insanın bir təşkilatçı, habelə yüksək nəzəri biliyə, erudisiyaya malik olduğunu göstərmək istəyirik. Nuh Peyğəmbərin qəbrüstü türbəsinin bərpası haqqındakı sərəncamda deyilirdi: “Tarixdə “ümumdünya tufanı” barədə rəvayətin ilk yazılı variantı eramızdan əvvəl II minilliyin ortalarına aid edilən şumer əfsanəsidir. Həmin əfsanədə deyilir ki, ümumdünya daşqınından böyük bir gəmidə yalnız bir qrup insan xilas ola bilmişdir. Bu əfsanəyə görə Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzi olmuşdur. Şumer rəvayətinin Naxçıvan şəhəri ilə bağlılığının tarixi əsası vardır. Belə ki, Naxçıvan Mesopotamiya, Babil, Xett və digər bu kimi qədim mədəniyyət mərkəzləri ilə sıx əlaqələr şəraitində inkişaf etmişdir. Eramızdan əvvəl ikinci minilliyin ortalarına aid Bilqamıs haqqında Akkad eposunda da “bütün canlıların

toxumunun götürülüb" Allahın məsləhəti ilə düzəldilən gəmidə xilas olunduğundan danışılır.

İstər şumer, istərsə də Bilqamıs haqqında Akkad rəvayətlərinin yarandığı və yazıya alındığı dövrlə Naxçıvanın yarandığı dövr arasında tarixi yaxınlıq olduğunu əsas götürüb, ümumdünya daşqınının Naxçıvan ərazisini də əhatə etdiyini və Nuh peyğəmbərin məhz bu ərazidə quruya salamat çıxdığını güman etmək mümkündür.

Qədim dövrlərdən Naxçıvan əhalisi arasında yayılan rəvayətə görə təxmınən 7500 il bundan əvvəl baş vermiş ümumdünya daşqını zamanı Nuh və ona iman gətirənlərin mindiyi gəmi ilk dəfə Naxçıvanda quruya çıxmış və insanlar burada məskən salmışlar. Beləliklə, yeni nəsil buradan törəyərək artmış, təşəkkül tapmışdır. Bir çox əfsanə və rəvayətlərin yaranmasının elmi əsası olduğu artıq təsdiq edilmişdir. Bunu Naxçıvan ərazisində ümumdünya daşqını barədə rəvayətlərin yayılması və Nuhla bağlı yer adlarının çoxluq təşkil etməsi bir daha sübut edir. Yer üzündə elə bir ərazi yoxdur ki, orada Naxçıvandakı qədər Nuhla bağlı toponimik vahid (Nuhdaban, Naxçıvan, Nəhəcir, Nehrəm və s.) olsun. Xalq arasında yayılmış və bu gün də mövcud olan inama görə Naxçıvan şəhərinin cənubunda Nuhun, şimal-qərbində isə bacısının qəbri vardır.

XIX əsrin 80-ci illərində Naxçıvan məktəblərində işləmiş maarifçi K.A.Nikitin "Naxçıvan şəhəri və Naxçıvan mahalı" adlı əsərində Nuh tufanının

Naxçıvanla əlaqədar olması barədə geniş məlumat verərək yazmışdır: Rəvayətə görə, əfsanəvi tufandan sonra Ağrı dağı Nuh peyğəmbəri gəmisi ilə birlikdə qəbul etmişdir... Bundan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hələ indi də onun buradakı məzarının və türbəsinin yerini göstərirlər... Hətta Nuh peyğəmbərin Naxçıvandakı duz karxanalarındakı fəaliyyəti də xalq arasında dolaşan rəvayətlərdə saxlanmaqdadır. O, burada ilk çalışanlardan biri olmuşdur. Rəvayətə görə, Kəmki əfsanəvi gəminin dayandığı birinci dağdır. Nuh buradan Ağrı dağına yola düşmüşdür. Yolda gəmi İlanlı dağına toxunmuş və dağın zirvəsinə elə zərbə endirmişdir ki, dağ haçalanmışdır.

Bundan sonra Nuh hazırda Naxçıvan şəhərinin yerləşdiyi yerdə məskən saldı. O, öz ailəsi ilə burada qərar tutdu və gələcək şəhərin əsasını qoydu. Şəhərin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir. Nuh peyğəmbər və onun ailəsi uzun müddət Naxçıvanda yaşamışdır. Rəvayətə görə, insan nəsli buradan yayılmışdır. Nuh peyğəmbər özü, bacısı və ailənin digər üzvləri Naxçıvanda vəfat etmiş və burada dəfn olunmuşlar". K.A.Nikitin Nuhun Naxçıvandakı qəbrini də görmüş və onu belə təsvir etmişdir: *"Nuhun qəbri şəhərin cənub tərəfindən qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi səkkizinci yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə o, yerdən qalxan çox da böyük olmayan türbəni xatırladır... Məbədin*

*pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, çətinliklə keçmək mümkün olan, ortadan daş dirəklərlə möhkəmləndirilmiş mağaraya bənzəyir. Həmin dirəyin altında Nuh peyğəmbərin cənazəsi yerləşir".*

Rus tədqiqatçısı V.M.Sısoyev Nuhun türbəsini təsvir edərkən onun mərkəzində diametri 2 metrə çatan səkkizguşəli sütun olduğunu göstərmişdir. Təsvir edilən bu əlamətlər yeraltı və yerüstü hissədən ibarət olan türk türbələri üçün xarakterikdir. Nuhun qəbri olan yerdə aparılan tədqiqatlar zamanı aşkara çıxarılan tikinti qalıqları burada Naxçıvan memarlıq məktəbinə xas üslubda tikilmiş türbənin olduğunu təsdiq edir.

Araşdırmalar göstərir ki, "ümumdünya" tufanı və Nuhla əlaqədar rəvayətlər daha çox Naxçıvanla bağlı olmuşdur. Qədim yunan alimi Klavdi Ptolemey ilk dəfə Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, XVI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi nəinki Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin qalıqlarının da Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir. İ.M.Dyakonov Gəmiqaya qayaüstü təsvirlərini və Naxçıvanın Nuhla bağlılığı məsələsini şumerlərdən gələn əfsanə ilə əlaqələndirmişdir. Yəhudi alimi İosif Flavi isə Naxçıvan torpağını Nuhun gəmisinin dayandığı ilk ərazi hesab etmişdir. Rus tədqiqatçısı K.N.Smirnov Nuhun qəbrinin Naxçıvanda olduğunu söyləmiş və onun yerini də göstərmişdir. Azərbaycan

realist rəssamlığının banisi Bəhruz Kəngərli ötən əsrin 20-ci illərində Nuh peyğəmbərin Naxçıvandakı türbəsinin rəsmini 6 dəfə naturadan kətan üzərinə köçürmüşdür. Həmin nadir əsərlər Naxçıvandakı Bəhruz Kəngərli muzeyində və Naxçıvan Muxtar Respublikasının Dövlət Tarix Muzeyində mühafizə olunaraq nümayiş etdirilir.

Göründüyü kimi, Nuh peyğəmbər Naxçıvanda yaşamış, burada vəfat etmiş, onun qəbri və qəbirüstü türbəsi Naxçıvanda Sovet hakimiyyəti qurulanadək bütöv bir panteon olmuş, minlərlə insanın ziyarətgahına çevrilmişdir.

Sovet hakimiyyəti illərində Naxçıvanın ən qədim dövrlərdən Azərbaycan türklərinə məxsusluğunu sübut edən yüzlərlə tarixi abidə kimi Nuh peyğəmbərin qəbri üzərindəki türbənin qalıqları da dağıdılmışdır.

Yuxarıda qeyd olunanları əsas götürərək qərara alıram:

1. Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsi bərpa olunsun.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Elmi-Bərpa İstehsalat İdarəsi Nuh peyğəmbərin türbəsinin layihəsini hazırlayıb Naxçtvan Muxtar Respublikası Ali

Məclisinin Sədrinə təqdim etsinlər (27, 8–10; 31, 5–8).

Bu sərəncamdan sonra erməni ideoloqları Dağlıq Qarabağ iştahlarını genişləndirərək Naxçıvana da aid etdilər. 2006-cı ilin əvvəllərində "Naxçıvan qədim erməni torpağıdır" deyə mitinqə də toplandılar. Bunun səbəblərindən biri də Azərbaycan tarixşünaslığına etniklərin rəhbərlik etməsi, milli mədəniyyət tariximizin qədimliyinin sübut edilməsinin kommunist-bolşevik (erməniпərəst, xristian) ideologiyası çərçivəsinə sığmaması idi. Başqa bir səbəb kimi bunu da göstərmək lazım gəlir ki, Azərbaycan tarixşünaslığı xarici dillərdə az çap olunurdu. Rus və başqa xalqların nümayəndələri bizim tarixçi alimlərin obyektiv fikirləri ilə tanış ola bilmirdilər. Bu cəhətdən Çingiz Məmmədovun "Известия" qəzetinin 7-9 iyul 2006-cı il tarixli 120-ci sayında çap etdirdiyi "Naxçıvan Muxtar Respublikasında Nuh peyğəmbərin məzarüstü türbəsi bərpa ediləcəkdir" adlı məqalə tarixi saxtalaşdıran erməni və rus tarixçilərinə tutarlı cavab oldu. "Şərq Qapısı" qəzeti operativ tərpənərək dərhal məqaləni tərcümə edib özünün 8 iyul 2006-cı il tarixli 121-ci sayında çap etdi. Məqalə müəllifi "Известия" qəzeti vasitəsi ilə obyektiv həqiqətləri bir daha saxtakarlara xatırlatdı: "Ən qədim zamanlardan yerli əhali arasında yayılmış rəvayətlərə görə təxminən 7500 il bundan əvvəl baş vermiş ümumdünya daşqınından sonra Nuh

ona iman gətirmiş insanlarla birlikdə Naxçıvanda quruya çıxmış və öz adamları ilə məhz burada məskən salmışdır. Bunu dolayısı ilə həm də o, sübut edir ki, yer üzündə digər elə bir ərazi yoxdur ki, orada Naxçıvandakı qədər Nuh peyğəmbərin adı ilə bağlı toponimlər olsun. Xalq arasında geniş yayılmış və bu günədək yaşayan inama görə Naxçıvan şəhərinin cənubunda Nuhun, Şimal Qərbində isə onun bacısının qəbri mövcuddur.

Sovet hakimiyyəti illərində Naxçıvanın ən qədim dövrlərdən Azərbaycan türklərinə məxsusluğunu sübut edən yüzlərlə başqa tarixi abidələr kimi, Nuh peyğəmbərin qəbri üzərindəki türbənin qalıqları da dağıdılmışdır. AMEA Naxçıvan Bölməsinə və Naxçıvan MR Nazirlər Kabineti yanında Elmi-Bərpa İstehsalat İdaresinə tapşırılmışdır ki, Nuh peyğəmbərin məzarüstü türbəsinin layihəsini hazırlasınlar.

Düşünürük ki, bu qərarın reallaşdırılması Naxçıvan tarixini ermənliləşdirməyə çalışanların hamısına tutarlı bir cavab olacaqdır. Bundan başqa Nuh gəmisinin izlərini başqa bir yer deyil, yalnız "əsl erməni torpağı" saydıqları indiki Türkiyə ərazisində, daha dəqiqi, "xalis erməni dağı" Araratın ətəklərində axtarılmasının zəruriliyini iddia edən ermənilərin necə pərt olacaqlarını təsəvvür etmək çətin deyil" (59).

(Qeyd edək ki, C.Məmmədov "Qərar" dedikdə Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif

Talıbovun "Nuh" peyğəmbərin məzarüstü türbəsinin bərpa edilməsi haqqındakı sərəncamını nəzərdə tutur).

Bu sərəncam bütün Azərbaycan tarixçilərini hərəkətə gətirmişdi. Çingiz Məmmədovun məqaləsindən üç həftə sonra AMEA-nın müxbir üzvü görkəmli tarixçi Nailə Vəlixanlının "Şərq qapısı" qəzetində silsilə məqalələri çap olundu. Nailə Vəlixanlının məqaləsində daha çox iki cəhət diqqəti çəkir.

Birinci cəhət ondan ibarətdir ki, ermənilər tərəfindən muzdla ələ alınmış, özünü səlahiyyətli tarixçi hesab edən, əslində qədim tarixdən xəbəri olmadığını sübut edən (bəlkə də xəbəri var, amma ermənilərin təsiri ilə tarixi təhrif edir) moskvalı alim V.A.Snirelmanın sırf ermənipərəst mbövqeyini tarixi faktlar əsasında ifşa edir. Məqalədə N.Vəlixanlı V.A.Snirelmanın 2003-cü ildə Moskvada çap olunmuş "Войны памяти, мифы идентичности и политика в Закафказье" adlı kitabına, xüsusilə kitabın "Нахичеванские страсти" (Naxçıvan ehtirasları) adlanan XIV fəslində verilmiş cəfəngiyyata cavab verir. V.A.Snirelmanın cəfəngiyyatı: *"1924-cü ildə yaradılan və Azərbaycan SSR tərkibinə daxil olan Naxçıvan MSSR həm ermənilərin, həm də orta əsr türklərinin iz qoyduqları mürəkkəb tarixə malikdir. Erkən orta əsrlərdə Vaspurakan əyalətinin Naxçıvan və Qoxtn vilayətləri, eləcə də tarixi Sünikin bir hissəsi burada yerləşirdi. Başqa sözlə, qeyd olunan bütün ərazi ermənilərin Böyük Ermənistan adlandırdıqları yerin mərkəzi rayonlarından biri idi. Erməni müəlliflərinin*

*qeyd etdikləri kimi, bütün bu rayon erməni xalqının formalaşdığı vilayətə daxil idi... Sonralar bu regionu ərəblər, daha sonra səlcuqlar işğal etdilər. O zaman Naxçıvanın siyasi rolu çox dəyişdi, belə ki, Atabəylər-Eldənizlər XII əsrdə onu öz böyük dövlətlərinin paytaxtı etdilər. Bununla belə, şəhər böyük erməni icmasının yaşadığı iri ticarət-sənətkarlıq mərkəzi rolunu saxlamışdı".*

Nailə Vəlixanlı V.A.Snirelmanın Ayvazyan, Ulubabyan və başqa erməni mənbələrinə əsaslanaraq dediyi yuxarıdakı cəfəng fikri tarixi faktlarla alt-üst edir. N.Vəlixanlı yazır:

V.A.Snirelmanın əsərindən təqdim etdiyimiz hissənin elə birinci cümləsində Naxçıvanın Azərbaycanın (burada Azərbaycan SSR) tərkibinə yalnız 1924-cü ildə daxll olduğu qeyd edilir. Əgər V.Şnirelman orta əsr mənbələri ilə bir qədər yaxından tanış olsa idi, onda əl-Biruninin (X əsrin sonu - XI əsrin əvvəlləri) IV iqlimin Azərbaycana aid şəhərləri sırasında Urmiya, Ərdəbil, Səlmas, Təbriz, Mərənd və b. ilə birlikdə Naxçıvanın da adını çəkdiyini ("Nəşavə, bura həmçınin Naxçıvandır") görərdi. Eyni məlumat Yaqut əl-Həməvi (XIII əsr) tərəfindən də təsdiq edir ("Naxçıvan Azərbaycanda böyük şəhərdir. Bəziləri isə deyirlər ki, Arrandadır. O Ərminiyə ilə sərhəddir"). Onu da xatırlamalıyıq ki, hələ ərəblərdən öncə, VI əsr Sasani şahənşahı Xosrov Ənuşirəvanın inzibati islahatına əsasən Xəzəryanı İran vilayətləri ilə yanaşı, bütün Cənubi Qafqaz ölkələrini özündə birləşdirən

Azərbaycan (Adurbadaqan) vilayəti (kustu) mövcud olmuşdur. Sasani imperiyasının dörddə birini təşkil edən bu Şimal bölgəsi ərəb hakimiyyətinin ilk illərində öz adını əsasən Arazdan cənubda olan torpaqlarda saxlamış, ərəblərin Cənubi Qafqaz ərazisində işğal etdikləri, azərbaycanlıların, gürcülərin, ermənilərin, ləzgilərln və başqalarının yaşadıqları bütun yerlərə isə inzibati "Ərminiyə" adı verilmişdir. VIII yüzilin sonu, IX yüzilliyin birinci yarısında Xilafətin daxilində baş verən siyasi hadisələr ərəb işğal dairələrinin Cənubi Qafqaz ərazisində yaratdıqları süni "Ərminiyə" inzibati birləşməsinin faktiki olaraq ləğvinə səbəb olmuş, formal olaraq ərəb valisinin idarə etdiyi vahid Qafqaz canişinliyi – vilayəti yaradılsa da, əslində həmin valiyə tabe olan və ona vergi verən yerli feodallar öz mülkləri daxilində hakimiyyət və imtiyazlarını qoruya bilmişdilər. Xilafətin zəiflədiyi dövrdə (IX əsrin ikinci yarısından başlayaraq) Cənubi Qafqazda yaranan feodal dövlətlərin (Sacilər, Salarilər, Şəddadilər və sair) Naxçıvan ərazisini də əhatə etdiyi zaman mənbələr, yuxarıda qeyd etdiyimiz kimi, sərhədyanı Naxçıvan şəhərinin yerləşdiyi ölkənin Azərbaycan və ya Arran olduğunu təsdiq edirlər (41).

Yuxarıda dediyimiz kimi N.Vəlixanlının məqaləsində diqqəti çəkən cəhətlərdən biri də budur ki, "Ərməniyyə" Ermənistan demək deyil, ərəblərin işğal etdikləri ərazilərə verdikləri addır. Özü də *ər+mən* türk mənşəli sözdür.

2006-cı ildən sonra 2-3 il müddətində artıq Naxçıvan MR Ali Məclisi sədrinin 28 iyun 2006-cı ildə imzaladığı "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında"kı sərəncamın bütün müddəaları yerinə yetirilmiş, tarixşünaslıq elmimizi, demək olar ki, daha güclü hərəkətə gətirmişdi. Buna görə də Naxçıvan MR Ali Məclisinin sədri artıq bu problemin beynəlxalq elmi səviyyədə təsdiq edilməsini zəruri saydı. Bu zərurət 20 fevral 2009-cu ildə "Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpozium keçirilməsi haqqında" sərəncamın meydana gəlməsinə səbəb oldu. Bundan əvvəlki sərəncamın preambulası geniş elmi müddəalarla zəngin idi. Təkrar olmasın deyən bu sərəncam çox yığcam verilmişdir. Sərəncamın müəllifi toponimlərə, tarixi faktlara əsaslanaraq qəti şəkildə Nuh Peyğəmbərin Naxçıvanla (bəli, Naxçıvanla) əlaqədar olduğunu sübut edir. Sərəncamda deyilir: "Naxçıvan dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biridir. Şərur rayonundakı Qazma, Ordubad rayonundakı Kilid, Babək rayonundakı Daşqala və Naxçıvan şəhəri ərazisindəki Duzdağ mağaralarından əldə olunmuş maddi-mədəniyyət nümunələri, Əshabi-Kəhf ziyarətgahı ən qədim dövrlərdən burada insanların yaşadığını sübut edir.

Naxçıvanın qədimliyini sübut edən mühüm amillərdən biri də bu yurdun Nuh peyğəmbər və

tərəfdarları ilə bağlı olmasıdır. Ordubad rayonu ərazisində olan və eradan əvvəl 4-cü - 1-ci minilliyə aid edilən Gəmiqaya təsvirləri, Nəbi yurdu, Naxçıvan, Nehrəm, Nəhəcir, Nuhdaban, Nuhgədik, Peyğəmbərayağı kimi yer adlarının mövcudluğu Nuh peyğəmbərin bu torpaqda yaşamaşının daha bir əyani ifadəsidir (52, 403).

Bu sərəncama əsasən 2 aydan sonra 2009-cu ilin aprelində Naxçıvan şəhərində "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpozium keçirildi. Bu simpoziumda onun təşəbbüsçüsü – Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbov geniş, hərtərəfli elmi dəlillər və müddəalarla dolu giriş sözü dedi. Bu çıxış o dərəcədə elmi faktlarla zəngin idi ki, bir çox iştirakçı alim təkrarçılığa yol verməmək üçün öz məruzəsini ixtisar etməli oldu.

Cənab Vasif Talıbov öz giriş məruzəsində bu simpoziumun məhz müstəqillik dövrünün, Heydər Əliyevin azərbaycançılıq ideyasının məhsulu olduğunu qeyd etmiş, Sovetlər Birliyi dönəmində türk müsəlman xalqlarının milli iftixar baxışlarının və hərəkətlərinin qadağan olmasına diqqət çəkmişdir: "Qeyd etmək lazımdır ki, qədim dövrlərdə və orta əsrlərdə Naxçıvan tarixindən bəhs edən tədqiqatçılar, alim və səyyahlar Nuh Peyğəmbər və Naxçıvan bağlılığından danışsalar da, bu məsələ ilə bağlı yazılı mənbələr qoyub getsələr də, Sovetlər Birliyi dövründə

"Nuh-Naxçıvan" mövzusu qadağan olunmuş, elmi ədəbiyyatlarda işlədilməsinə icazə verilməmişdir.

Hətta iş o yerə çatdırılmışdır ki, Naxçıvanda nəşr olunan "Sovet Naxçıvanı" qəzetinin 1986-cı il 30 yanvar tarixli nömrəsində Nuhun gəmisinin Naxçıvan ərazisindəki Gəmiqayada quruya çıxması, buradakı runik yazılarında gəmi təsvirinin verilməsi barədə fikirləri, bütövlükdə Nuh Peyğəmbər və Naxçıvan əlaqələrinə dair elmi təhlilləri özündə əks etdirən "Xalqımızın mənlik heykəli" adlı yazının dərc edilməsi mərkəzi hakimiyyət tərəfindən ciddi etirazla qarşılanmış, Partiya orqanlarının büro və plenum iclaslarında sərt tənqid olunmuş, "Nuh əyyamı" dövrünün əfsanəvi süjetini milli iftixar mövzusu kimi qələmə verdiyinə görə qəzetin rəhbərliyi cəzalandırılmışdır" (32, 12).

Sonra çıxışına davam edərək Naxçıvan rəhbəri demişdir: *"tarixi mənbələrdə Dünya tufanının ən azı 7 min 500 il bundan əvvəl baş verdiyi qeyd olunur. Deməli, Naxçıvan bu dövrdən etibarən yaşayış məskəni kimi seçilmiş, əlverişli təbii çoğrafi şərait burada əkinçiliyin, maldarlığın, sənətkarlığın müxtəlif sahələrinin inkişafına səbəb olmuş, ticarət əlaqələri yaranmışdır. Göstərilən şərtlər erkən şəhər mədəniyyətinin formalaşmasında əsas amillərdən hesab edildiyindən Naxçıvan şəhərinin 5 min il bundan əvvəl yarandığını söyləmək mümkündür"* (61, 16).

Simpoziumun işində Azərbaycanın və Türkiyənin görkəmli alimləri, dövlət xadimləri, millət vəkilləri iştirak edirdi. Simpoziumda Naxçıvan MR Ali Məclisi sədrinin geniş və dərin məzmunlu çıxışından sonra plenar iclasda 4 məruzə dinlənildi. Simpozium 3 bölmədə davam etdirildi:

I. Nuh Peyğəmbər və dünya tüfanı (9 məruzə dinlənilib).

II. Nuh Peyğəmbər və Gəmiqaya təsvirləri (8 məruzə dinlənilib).

III. Dünya tüfanı və Naxçıvan abidələri (10 məruzə dinlənilib).

Naxçıvan, Azərbaycan və dünya tarixi üçün çox əhəmiyyətli elmi müddəaların səsləndiyi bu elmi məclis haqqında geniş məlumat vermək imkan xaricindədir. Ona görə də 31 məruzədən yalnız 6-sı haqqında qısaca bəhs edəcəyik.

Plenar iclasında məruzə edən millət vəkili, AMEA A.Bakıxanov adına tarix institutunun direktoru, AMEA müxbir üzvü prof. Yaqub Mahmudov "Dünya tarixində Naxçıvan: Yer kürəsində həyatın başlandığı yer" adlı məruzəsində elm üçün çox maraqlı faktlar irəli sürdü. Ən maraqlı cəhətlərdən biri də Nax.MR Ali Məclisinin sədri cənab Vasif Talıbovun məru-

zəsinin böyük elmi dəyərini, özünəməxsus şəkildə etiraf etməsi idi. Y.Mahmudov məruzəsində dedi:

*"Əziz dostlar, mən həmişəki etirafı bu dəfə də elan etmək istəyirəm. Mən Vasif müəllimə bir də minnətdarlığımı ona görə bildirirəm ki, türk dünyası, Naxçıvan, dünya tarixində Naxçıvan, bir sözlə, mən edəcəyim məruzədəki bir çox dəyərli məsələləri, bir az da dəyərli faktlarla Vasif müəllim söylədi. Ona görə də mən bu məsələləri təkrarlamaqdan məmnuniyyətlə vaz keçirəm. Elə buna görə də məndən qabaq çıxış edən Vasif müəllimə təşəkkürümü bildirirəm"* (24, 20).

Naxçıvanın rəhbərindən tutmuş adi vətəndaşına qədər bütün vətəndaşlarının vətənsevərlikdə, millətsevərlikdə bütün Azərbaycan xalqına nümunə ola biləcəyini Y.Mahmudov belə ifadə etdi: *"Təki bütün türk dünyasının hər yerində, şimallı-cənublu bütün Azərbaycanın hər yerində doğma torpağa bağlılıq, vətənpərvərlik, vətən uğrunda canını fəda etmək dərsini biz Naxçıvandan alaydıq! Mən Azərbaycanın hər yerində bunu deyirəm. Onda biz torpaq itirmərik... Ermənilər Asiya qitəsinə gələndə artıq Naxçıvan şəhəri 2000 ildən çox yaşı olan yaşayış məskəni idi"* (24, 26).

Simpoziumun plenar iclasında Türkiyədən gəlmiş Yaşar Kalafat "Qantura oğulları və Tufan mərkəzli

ümumtürk tarixi" mövzusunda məruzə etdi. O məruzəsinin sonunda dedi: *"Biz incelememizde ayrıntılı tufan sunumu yapmadık. Nuh ve tufan, Ağrı və Giri dağları, bu konudakı dini, tarihi, Arkeolojik, çoğrafi/fiziki ve dil verileri ayrıntılı incelenmişdir. Bu bilgi şoleni bildirileri arasınıda da Naxçıvaanın 5000 yıllık yurdu olduğunu yer adları, efsaneler, arkeolojik verilerden hereketle inceleyen bilgi ve belgeler vardır. Bizim çalışmamız, türkizm içerikli ve özgün formatında böyük olçude yararlandığımız Sadi Bayramın cizgisinde olmuştur. Naxçıvan 5000 yıldır tarihin döneminde türk kültür coğrafiyasının merkezinde olmuşdur"* (59, 38).

3. Simpoziumun plenar iclasında AMEA-nın həqiqi üzvü, AMEA Naxçıvan bölməsinin sədri İsmayıl Hacıyev geniş və dərinməzmunlu məruzə ilə çıxış etdi. Onun məruzəsi Nuh Peyğəmbər və Naxçıvan problemini sübut etmək üçün mövcud olan qaynaqların şərhinə həsr edilmişdi. Mövzu alimə tanış və yaxın olduğu qədər bu mövzudakı mənbələr də ona çoxdan məlum idi. Bir Naxçıvanlı alim kimi akad. İ.Hacıyev bu vətənpərvər mövzu üçün bir növ bünövrə-fundament ola biləcək problemlərə aid qaynaqları incələyərək təqdim etdi, onun məruzəsi "Tarixi mənbələr Naxçıvan şəhərindəki Nuh türbəsi haqqında" idi. Məruzəçi mövzu ilə bağlı ən əsas qaynaqların hamısı haqqında danışdı. Hətta Sovetlər Birliyi zamanı bu müqəddəs yerin dağılması haqqında Seyidağa

Onullahinin bir fikrini belə təqdim etdi: *"Müsəlman türklərinin böyük hörmət və ehtiram bəslədiyi bu məzar Naxçıvanda sovet hakimiyyəti qurulanadək bölgənin məşhur ziyarətgahlarından biri idi. Ancaq sovet hakimiyyəti illərində Azərbaycanın digər məşhur inam yerləri kimi, bu müqəddəs yer də xalqa zorla unutdurulmuş, üzərindəki türbə özülünədək dağıdılmışdır"* (12, 46).

Sonra müəllif XIX əsrdə Naxçıvanda işləmiş rus maarifçi K.A.Nikitinin türbənin təsviri haqqındakı məlumatını verir: *"Nuhun qəbri şəhərin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırki görkəmi VIII yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə o yerdən qalxan, çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub dağılmışdır. Hazırki türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, çətinliklə keçmək mümkün olan, ortadan daş diraklərlə möhkəmləndirilmiş mağaraya bənzəyir. Həmin dirəyin altında ulu Nuhun cənazəsi yerləşir"* (63, 50).

4. Simroziumun Nuh Peyğəmbər və dünya tüfanı adlanan birinci bölmə iclasında akademik İsa Həbibbəyli maraqlı mülahizələrlə, tutarlı faktlarla çıxış etdi. Onun məruzəsi "Nuh Peyğəmbər və dünya tufanı toplusu" adlanırdı. Məruzəçi bir sıra elmi

məqamlara toxunmaqla yanaşı, çox maraqlı bir problemə də toxunmuş, öz fikrini tutarlı faktlarla əsaslandırmışdı. Akad. İsa Həbibbəyli dünya tüfanı və Nuh peyğəmbər, eləcə də yer üzündə həyatın başlanması yeni gün Novruz və nəhayət Nuh-ruz problemini əsaslı surətdə təqdim etmişdir. Əslində Nuh peyğəmbər haqqında məlumatlar meydana gəldiyi vaxt – 7500 il əvvəl farslar İranda yox idi. Bu səbəbdən də güman etmək olar ki, Nuhun Gəmiqayada quruya çıxması günün adı türkcə olmuşdur. Yəni *ilk gün* - *erkən-gün*. Bu söz *ergen-kon* sözü ilə həmahəng səslənir. Sonralar fars mənşəli bir sıra sözlər kimi Novruz sözü də öz sözümüzü əvəz etmişdir. Amma akad. İsa Həbibbəylinin fikri heç bir şübhə doğurmur. Çünki fars dilində **v, o, u** hərfləri ərəb əlifbası ilə bir cür işarələnir. **H** qırtlaq samiti isə türk dillərində sonralar yaranmışdır. Yəni *Nouruz – Novruz – Noh+ruz, Nuhruz* əvəzlənməsi dil tarixində çoxdan sübut olunmuşdur. Akad. İ.Həbibbəyli həmin məruzədə, demək olar ki, eyni sözü deyirdi: "*Novruz* ifadəsi *Nuh-ruz* sözündən yaranmışdır və mənası Nuh Peyğəmbərlə başlanan gün, yeni həyat deməkdir. Məlum olduğu kimi, müxtəlif ölkələrdə *Nuh* sözünün ayrı-ayrı variantiları da işlədilməkdədir. Beləliklə, *Novruz* sözü zaman-zaman *Nuh-ruz, Noy-ruz, Nou-ruz* şəklində dəyişilərək indiki *Novruz* formasına düşmüşdür. Elmi qaynaqlarda da Həzrəti Nuh Peyğəmbərin gəmisinin yerə enməsi hadisəsinin xüsusi mərasim kimi sonralar qeyd edilməyə başlanan

Novruz bayramı gününə təsadüf etdiyini, həmin günə uyğun gəldiyini təsdiq edən mülahizələr mövcuddur. Mənbələrdə deyilir: *"Nuhun gəmisi ağrı dağına qonduqdan sonra Nuh peyğəmbər yerin quruyub-qurumadığını öyrənmək üçün öncə bir qarğanı görəvləndirmişdir. Ancaq qarğa geri dönməmişdir. Daha sonra havaya uçurulan göyərçin bir müddət sonra ağzında bir dəfnə yarpağı ilə geri qayıtmağı bacarmışdı. Bu, həm torpağın quruduğunu, həm də baharın gəldiyini müjdələməkdəydi. Həzrəti Nuhun yerə ayaq basdığı gün Novruz idi"* (65, 399; 66, 58).

5. Simpoziumun "Dünya tüfanı və Naxçıvan abidələri" adlanan üçüncü bölmə iclasında AMEA Şərqşünaslıq İnstitutunun direktoru, professor, millət vəkili Gövhər Baxşəliyeva "Orta əsrlər ərəb mənbələrində Naxçıvan haqqında məlumatlar" mövzusunda maraqlı məruzə ilə çıxış etdi. G.Baxşəliyeva orta əsrlərə aid 14 ərəb mənbəindən Naxçıvan və bu diyarda yerləşən toponimlər haqqında maraqlı məlumat verdi. Alim IX əsr (820–892) ərəb alimi Əl-Bəlazurinin *"Kitab futuhi-l-buldən (ölkələrin fəthi əsərindən qiymətli bir sitat gətirir. Bələzuri deyir: "Şimşat, Qaliqala, Xilat, Arçiş, Bəcuneys – IV Ərməniyyə, Busfurracan Kurası (vilayəti), Dəbil, Sirac Tayr, Bəğ-Ravənd III Ərməniyyə, Curzan II Ərməniyyə, Sisəcan və Arran isə I Ərməniyyə adlanırdı.*

*Başqalarının dediyinə görə isə, IV Ərməniyyə ancaq elə Şimşatdan ibarət idi Qalıqala, Xilat Arçiş, Bəcineys-III Ərməniyyə, Sirac-Tayr Bağravənd, Dəbil, Busfurracan-II Ərməniyyə, Sisəcan, Arran, Tiflis-I Ərməniyyə adlanırdı.*

*Ənuşirəvan Ərməniyyənin bizansların əlində olan bütün vilayətlərini tutdu və Dəbil şəhərini bərpa edərək möhkəmlətdi. O, Busfurracan vilayətində Nəşəva şəçhərini saldırdı (Busfurracan Arranın əyalətlərindən biridir, əsas şəhəri Nəşəvadır".*

Elə buradaca prof. G.Baxşəliyeva Ərməniyyə sözünə izah verərək yazır: I, II, III, IV Ərməniyyə Ərəblərin Cənubu Qafqazda işğal etdikləri yerlərə verdikləri vahid inzibati addır. Bu və daha sonrakı iqtibaslardan göründüyü kimi, mənbələrdə verilən Ərməniyyə toponimi heç də erməni dövləti, yaxud ermənilər yaşadıqları yer anlamını vermir (7, 214–215).

6. Simpoziumun III bölmə iclasında Türkiyədən gəlmiş alim Turqut Öcal da maraqlı bir məruzə ilə çıxış etdi. Onun məruzəsi "Nuh Tufanı Naxçıvan (Gəmiqaya) və Ağrı dağı" adlanırdı. Bu məruzədə T.Öcal çox mühüm məsələlərə toxunurdu. Burada məruzəçi göstərir ki, Nuh peyğəmbəri Avropada, Hollandiyada və başqa yerlərdə özlərinə aid edənlər vardır. Ermənilər isə yalançı çılğınlığın son həddinə çataraq Nuhun erməni olduğunu iddia edirlər. T.Öcal dini-səmavi kitablara: Tövrata, İncilə və Qurana əsaslanaraq Nuhun Naxçıvanla bağlılığını təsdiq edir.

O, məruzəsində deyirdi: *“Naxçıvan adında Nuh adının acık görünmesi çok dikkat çekicidir… Önce kitabı mukaddes, sonra da Kurani Kerim incelenirse Nuh Tufanıyla ilgili çox ibretli ve kıssadan nisse dolu ayetlerle karşılaşırız. Evvela bu şehrin adı “Nuh sığınacağı”, “Nuh cıhan” seslerle özülüdür ve bu kelimede bu fonetigi açıkça görup duymakdayız…*

*Bir başka bilgi de çox eski yunan alimi Klavdi Pitolomey, Nahcıvanı “Nuksuanı” adına doğuda “Noy” ve yahut “Nuh” denilən Peygemberin meskeni gibi bakılmasını hatırlatıyor.*

*Yene Murat Acının tespit ettigi rivayete göre “Nuh” bu yerlerde kalmış, Şimdiye kadar bu şehre şöhret getiren Tuz medenlerini de o, ortaya çıkarmışdır. Etrafdakı dağın (Nehecir) ve Köyün de Nehram adı peygamberin adını göstermektedir. Kısaca o adı taşımaktadır. Orada Gemi Kaya adlı bir dağ vardır ki, Nuhun gemisi ona “Yan almış”. Kesin olan Şudur ki, bu özerk Turk Cumhuriyyetinin adında Nuh və coğrafiyasında Gemi Qaya vardır”* (68, 251).

Burada 6 məruzədən verdiyimiz sitatların hamısında ifadə edilən fikirlər simpoziumun təşəbbüskarı rəhbəri cənab Vasif Talıbovun məruzə və sərəncamlarında ifadə edilmişdir.

### *Ç. Naxçıvan tarixinin yazılması*

Bütün bunlar V.Talıbovun uzun müddətli və uzaqgörən tarixçilik siyasətinin nəticəsi idi. Bu tədbirlər Naxçıvan torpağının qədim insan məskəni, Naxçıvanın isə 5000 il yaşı olmasını sübut etməyə əsas verirdi. Nəticələr gözləntilərə uyğun idi. İndi Naxçıvanın çoxcildlik tarixini yazmağa fundamental əsas var idi. Bunları nəzərə alan Naxçıvan MR Ali Məclisinin sədri doğma diyarın üçcildlik mükəmməl tarixini yazmaq haqqında cəsarətlə qərar verdi. Ali məclis sədri 6 avqust 2012-ci il tarixdə "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" sərəncam imzaladı. Orada deyilirdi:

1. 2012–2015-ci illərdə "Naxçıvan tarixi" çoxcidliyi hazırlansın və nəşr edilsin.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi və Naxçıvan Dövlət Universiteti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

Muxtar Respublika rəhbərinin bu sərəncamı alimləri vahid bir məqsəd uğrunda – doğma diyarın üçcidlik mükəmməl tarixinin yazılması istiqamətində səfərbər etdi. Bir ildən sonra üçcildlik Naxçıvan tarixinin birinci cildi (ən qədimdən XVIII əsrin 40-cı illərinədək) hazır oldu. Müəlliflər kollektivi bu kitabın yazılması üçün 819 mötəbər mənbədən istifadə

etmişdir. Birinci cild 7 fəsildən və 46 yarım fəsildən ibarətdir. Əsər 14 nəfərlik müəllif kollektivi tərəfindən ərsəyə gətirilmişdir. Əsərin birinci fəsli: "Nuh qədim dövrdə" - Naxçıvan ərazisində yaşamış insanların qədim daş dövründən (paleolit) erkən dəmir dövrünədək keçdiyi inkişaf mərhələlərinə həsr olunmuşdur.

II fəsil "Naxçıvan e.ə. IX b.e. II əsrlərində" adlanır. Bu fəsildə müəlliflər əsasən arxeoloji materiallara əsaslanmışlar.

III fəsil "Naxçıan əhalisinin etnogenezi tarixi" adlanır. Burada Naxçıvan diyarı əhalisinin etnik mənşəyi və tərkibi, habelə "Naxçıvan" sözünün etimologiyası şərh edilir.

IV fəsil "Naxçıvan erkən orta əsrlər dövründə" adlanır və təxminən 700 illik bir dövrü əhatə edir.

V fəsil "Naxçıvan X-XIII əsrin I rübündə" adlanır. Bu dövr Naxçıvanda yüksəliş dövrü kimi səciyyələndirilir. Naxçıvanda şahlıq məhz bu dövrə təsadüf edir.

VI fəsil "Naxçıvan XIII-XV əsrlərdə" adlanır. 3 əsr ərzində Naxçıvanda baş verən hadisələr – monqolların yürüşləri, Hülakülər dövləti və s. haqqında dərin məlumat verilir.

VII fəsil konkret bir əsrə həsr edilmişdir. Bu fəsil "Naxçıvan Səfəvilər dövründə" adlanır. Bu dövrdə I Şah Ismayılın islahatları, Səfəvi-Osmanlı müharibələri Nadir Şahın Naxçıvanı öz dövlət tərkibtinə qatması haqqında məlumat verilir.[1]

Əsərin sonunda əlavə kimi Naxçıvan diyarının hər güşəsində özünə yer tapmış qədim abidələrin şəkilləri verilir.

"Naxçıvan tarixi"nin ikinci cildi hazırdır. Hər III cildin nəşri Naxçıvan MR Ali məclisinin sədrinin sərəncamına uyğun olaraq 2015-ci ildə tamamlanacaq. Çünki bu üçcildliyin nəşri MR rəhbərinin şəxsi nəzarəti altındadır.

---

[1] Naxçıvan tarixi. Naxçıvan. "Əcəmi" nəşriyyatı, 2013.

# MİLLİ-MƏNƏVİ VƏ DİNİ DƏYƏRLƏRİN BƏRPASI VƏ QORUNMASI

Dəyərlər problemi insan idrakı, insan şüuru ilə bağlı olan fəlsəfi anlayışdır. Belə ki, bəşəri dəyərlər bütün dünya xalqlarına aid olub, bəşər sivilizasiyasının inkişafı ilə bağlıdır. Bəşəri əxlaq normaları, bəşəri davranış normaları, bəşəri adətlər bütün dünya xalqlarına aiddir. Bundan əlavə, milli mental xüsusiyyətlər toplusu olan milli-mənəvi dəyərlər sistemi də vardır ki, burada hər bir xalqın özünəməxsus cəhətləri ehtiva olunur. Hər bir xalqın etnomental xüsusiyyətlərinin formalaşması əsrlərlə davam edir və dini əxlaqi elmi-mədəni və s. təsirlər altında öz spesifikliyini qazanır.

Bu cəhətdən hər bir xalqın milli-mənəvi dəyərlər sistemi özünəməxsus olub başqalarından müəyyən dərəcədə (bəzən əsaslı surətdə) fərqlənir. Bunu da qeyd etmək lazım gəlir ki, bəşəri dəyərlər insanın əsas keyfiyyəti olduğu üçün daha sabit olur. Ona müdaxilə etmək, onu dəyişmək çətin olur (təəssüf ki, bu da mümkündür).

Amma milli-mənəvi dəyərlər nisbətən kövrək olur. Onlar yuxarıdan olan super təsirlərə qarşı dözüm gətirə bilmirlər. Məsələn, bir cəmiyyət daxilində birləşmiliş hakim xalq həmin cəmiyyətdə məhkum vəziyyətdə olan xalqlara öz milli-mənəvi, milli əxlaqi dəyərlərini diktə edir, qəbul etdirir. Bunun əvəzində məhkum xalqın (bəlkə daha gözəl) milli-mənəvi

dəyərlərini rədd edir, hətta qadağan edir. Məsələn, sovet-bolşevik rejimi türk-müsəlman xalqlarının bütün milli-mənəvi, dini dəyərlərini hörmətdən salmış, onları qadağan etmişdi. Belə ki, Novruz-Bahar bayramı keçirmək qadağan edilmişdi. Qurban bayramının adını tutmaq olmazdı. Toy adətlərimiz komsomol toyları ilə əvəz edilir, evlənənlər arasında dini nigah qadağan edilirdi. 1928-ci ildə Azərbaycanda mübariz ateistlər cəmiyyəti yaranmışdı (dini adətləri yasaqlamaq üçün). Amma bu, "imperiya dargası" olan ermənilərə – bütövlükdə xristianlara aid deyildi. Hətta 1934-cü ildə Stalin dünya ermənilərinin dini mərkəzi olaraq Eçmizdzinin elan olunması haqqında Sərəncam vermişdi. Bu illərdə çadranın atılması bir hərəkata çevrilmişdi. Bunu hamı bilir. Amma çarıqlı və papaqlı kişilərin mərkəzi idarələrə buraxılmamasını çox adam bilmir. Kənddən şəhərə gedən kəndli şlyapa qoymalı, qalstuk taxmalı və qara ayaqqabı geyməli idi. Bir sözlə, xalqımızın bütün milli-mənəvi dəyərləri, min illərlə yaşatdığı adət-ənənələr sovet-bolşevik təcavüzünə məruz qalıb gündəlik və illik həyatımızdan qovulmuşdu. Bu haqda çox danışmaq, geniş bəhs etmək olar. Amma bu, bizi mövzudan uzaqlaşdıra bilər. Biz burada milli-mənəvi dəyərlər sisteminin bəzi elementlərindən və problemlərə qarşı Naxçıvan rəhbərinin münasibətindən bəhs etmək niyyətindəyik.

Milli-mənəvi, mental xüsusiyyətlərdən bəhs edərkən millət varlığının ilkin şərti olan dildən bəhs

edilir. Bu fəlsəfi problemi bütün aqillər təsdiq edir. Bunlardan bir neçəsinə nəzər salaq.

**V.F.Humboldt (alman alimi):** *Dünyada ikinci elə eynilik ola bilməz ki, bir xalqın ruhu ilə dili kimi eyni olsun.*

**M.K.Atatürk (türk öndəri):** *Milli ruhla milli dil arasında qırılmaz bir bağ vardır. Milli ruhu inkişaf etdirmək üçün yetər ki, milli dil inkişaf etdirilsin.*

**Heydər Əliyev (Azərbaycan xalqının ümummilli lideri):** *Hər bir xalq öz dili ilə yaranır…*

**Vasif Talıbov (Naxçıvan rəhbəri):** *Ən böyük milli dəyər dildir. Azərbaycan dili bizim keçmişimiz, milli mədəniyyətimiz, kimlik pasportumuzdur. Keçmişimizin qədrini biliriksə, gələcəyimizi düşünürüksə mütləq ana dilimizi – Azərbaycan dilini yaxşı öyrənməliyik.*

Bu sahədə də Naxçıvan rəhbəri ulu öndərin yolu ilə getmiş milli dilimizin qorunması və inkişafı ilə bağlı çoxlu işlər görmüşdür. Ulu öndərin 2001-ci il 18 iyun tarixli sərəncamından sonra bütün Respublikada Azərbaycan dili ilə, onun tətbiqi, inkişafı ilə bağlı komissiya (Dövlət dil komissiyası) yaradılıb geniş işlər aparıldığı kimi, bu sahədə Naxçıvanda da çoxlu işlər görüldü. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev yuxarıdakı sərəncamın həyata

keçirilməsi üçün 4 iyul 2001-ci ildə xüsusi "Dövlət dil komissiyası" yaratdı. Bu komissiyanın tərkibində Naxçıvan MR Ali məclisinin sədri cənab Vasif Talıbov da var idi. Qeyd edək ki, 42 nəfərdən ibarət olan bu komissiya üzvlərinin 30-35-in birlikdə görə bilmədiyi işi cənab Vasif Talıbov gördü. O, Bakıdan daha tez Naxçıvanda "Ana dili" abidəsi – Ana dili meydanı yaratdı. Naxçıvan rəhbəri milli dəyərlərin ən başlıcası – böyüyü milli dil olduğunu göz önündə tutaraq digər milli dəyərlərin inkişafına da xüsusi fikir verdi. O, öz təşəbbüsü ilə 2011-ci ilin dekabrında keçirilən Naxçıvaan Muxtar Respublikası Ali Məclisinin sessiyasında 2012-ci il "Milli dəyərlər" ili elan olunması üçün qərar qəbul etdirdi. Bir il ərzində görülmüş işlərin bir növ yekunu olan tədbirdə çıxış edən Naxçıvan MR Ali məclisinin sədri cənab Vasif Talıbov demişdi: *"Hər bir xalqın milli dəyərləri onun özünü təsdiq imkanı və milli pasportudur. Dövlətlər rəsmi atributları – bayrağı, himni, gerbi və sərhədləri ilə tanındığı kimi, bu dövlətlərin ərazisindəki millət və ya xalqlar da özlərinin milli dəyərləri – folkloru, incəsənəti, mədəniyyəti, adət-ənənələri, milli geyim və mətbəxləri ilə tanınırlar.*

*Azərbaycan xalqının milli dəyərləri uzun əsrlər boyu xalqımızın yaşadığı tarixi ərazidə formalaşmış çox mühüm tarixi nailiyyət və milli sərvətdir. Bizim malik olduğumuz milli dəyərlərimizin kökündə, ilk növbədə, Vətənə qırılmaz tellərlə bağlılıq, yüksək milli-mədəni irs və adət-ənənələr dayanır. Azərbaycan*

*xalqı daim öz milli dəyərlərinə sadiq olmuşdur. Hətta tarixi proseslərin müəyyən dövrlərində, milli dövlətçiliyimizin mövcud olmadığı dövrlərdə belə, xalqımız milli dəyərlərini unutmamış, öz növbəsində, milli dəyərlərimiz də xalqımızın bütövlüyünü qoruyub saxlamışdır.*

*Azərbaycan xalqının milli dəyərlərinin və tarixi yaddaşının bərpasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Ümummilli liderimiz milli dəyərlərin mücərrəd sovet dəyərləri ilə əvəz olunması üçün səylər göstərildiyi ötən əsrin 70-ci illərində, əslində, bu prosesin əksinə gedərək Azərbaycan xalqına məxsus dəyərlərin bərpası və yaşaması istiqamətində taleyüklü tədbirlər görmüş, xalqımızın milli dəyərlərini özünə qaytarmışdır. Təsadüfi deyildir ki, ən böyük milli dəyər olan Azərbaycan dili məhz həmin dövrlərdə geniş şəkildə işlənmiş, ali və orta məktəblər üçün Azərbaycan dili dərslikləri çap edilmişdir. Bundan başqa, Azərbaycan SSR-in Konstitusiyasında Azərbaycan dili dövlət dili statusu almışdı. Bu dövrdə yeni yaşayış məntəqələrinə və obyektlərə milli qəhrəmanlarımızın adları verilir, tarixi yer adları bərpa olunur, "Nəsimi", "Babək", "Dədə Qorqud" kimi filmlər çəkilirdi. Azərbaycan ədəbiyyatında, musiqisində, təsviri sənətində xalqın milli ruhunu, adət-ənənələrini təbliğ və tərənnüm edən çoxsaylı yaradıcılıq nümunələri meydana çıxırdı..."*

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbov "Milli dəyərlər

ili” adlandırılan 1912-ci ildə görülən işlərdən bəhs edərək deyirdi: *“Bu gün birmənalı şəkildə deyirik ki, “Milli dəyərlər ili”nin nəticələri təqdirəlayiqdir. Ötən bir il ərzində Muxtar Respublikamızda beynəlxalq rəsm, folklor və muğam festivalları, ədəbi tədbirlər, yaradıcılıq təşkilatları üzrə müsabiqələr, ailə dəyərlərinin qorunub saxlanılması ilə bağlı seminarlar keçirilmiş, milli dəyərlərin əsas daşıyıcısı olan xalq yaradıcılığının müxtəlif sahələri üzrə kurslar təşkil olunmuşdur. Bu dövrdə “Naxçıvan mətbəxi” və “Naxçıvan tikmələri” kitabları çap edilmiş, xalq yaradıcılığının ən qədim qaynağını özündə yaşadan “Şərur yallıları”ndan ibarət disk buraxılmışdır. Uşaq və gənclər xalq sənəti sahələrinə cəlb olunmuş, “Milli dəyərlərimizi öyrənək və yaşadaq” rubrikası ilə teleradio verilişləri və qəzet materialları hazırlanmışdır. Aparılan tikinti-quruculuq işlərində milli ornamentlərin tətbiqinə üstünlük verilmiş, qədim milli musiqi alətlərində ifalara və milli geyimlərimizin təbliğinə diqqət artırılmışdır. Bununla yanaşı, elm, təhsil və mədəniyyət müəssisələrində mədəni-kütləvi tədbirlər keçirilmiş, xalçaçılıq, boyaqçılıq, papaqçılıq, misgərlik, dəmirçilik, taxta üzərində oyma kimi qədim xalq sənəti nümunələri canlandırılmışdır. Eyni zamanda, bədii yaradıcılıq prosesində milli dəyərlərimizin öyrənilməsi və təbliği üstün istiqamət kimi götürülmüş, kitablar, jurnallar, kataloqlar çap*

*edilmiş, televiziya filmləri hazırlanmışdır”.* (30, səh.74)

Milli dəyərlər və müasirlik probleminə toxunan Naxçıvan rəhbəri müasir dövrdə bu məsələ ilə bağlı iki problemi də unutmamağı tövsiyyə edir. O, göstərirdi ki, müasir dövrdə çox güclü şəkildə qloballaşma gedir. Bu yad təsirlərin güclənməsi deməkditr. Biz qloballaşan dünyada yaşayırıqsa, ona biganə qala bilmərik. Amma bu, milli dəyərlərin unudulması hesabına olmamalıdır. Əgər biz qloballaşmanın təsiri ilə öz milli dəyərlərimimzi qorumayıb irəli getsək, onda xalqımız özgələşər. Deməli, qloballaşma şəraitində öz milli dəyərlərimizə sahib çıxmalı onları qorumalı və inkişaf etdirməliyik.

Başqa bir cəhəti də unutmaq olmaz, o da bədnam qonşularımızın hər cür etikadan, mənəviyyatdan uzaq, başqasının maddi və sərvətlərinə sahib çıxmaq hərisliyidir. Cənab Vasif Talıbov bu məsələyə xüsusi diqqət çəkirdi. Çünki bədnam erməni tarixçiləri Gəmiqayadan tutmuş oyun havalarımıza, milli yeməklərimizdən tutmuş məişət əşyalarımıza, əzəli torpaqlarımızdan tutmuş atalar sözlərimizə qədər oğurlayır, başqa şəklə salır və mənimsəyirlər. Bu da baş tutmasa, həyasızcasına “mənimdir” deyirlər. Bu cəhəti xüsusi diqqətə çatdıran Naxçıvan rəhbəri deyirdi: *“Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması hər birimizin mühüm vəzifəsi olmalıdır. Biz öz tarixi dəyərlərimizə sahib çıxmasaq, ona başqaları sahib çıxacaqdır. Xalqımızın gələcəyini*

*düşünürüksə, bu gələcəyi möhkəm təməllər – milli dəyərlər üzərində qurmalıyıq. Tarix sübut etmişdir ki, uğurlu gələcəyin yolu milli dəyərlərin yaşadılmasından, gənclərin təhsilindən və vətənpərvər tərbiyədən keçir. Bu mənada gənclərlə aparılan işlərdə milli dəyərlərə üstünlük vermək, vətənpərvərlik və azərbaycançılıq prinsiplərini gücləndirmək lazımdır. Müasir dövrdə həyatımıza daxil olan yad təsirlərdən qorunmaq üçün gənclərimizdə milli özünümüdafiə vərdişləri formalaşdırılmalı, milli dəyərlərə sahiblik hissi gündən-günə möhkəmləndirilməlidir. Bununla yanaşı, ümumbəşəri dəyərlərdən, elmi-texniki inkişafdan və informasiya cəmiyyətinin ən son nailiyyətlərindən düşünülmüş şəkildə istifadə edilməli, milli özünüdərkin daşıyıcısı olan dəyərlərimiz daha da zənginləşdirilməlidir".*

Başqa sahələrdə olduğu kimi, milli dəyərlərə münasibət məsələsində də cənab Vasif Talıbov ümummilli lider Heydər Əliyevin konsepsiyasına söykənirdi. H.Əliyev demişdi: *"Milli dəyərləri olmayan millət həqiqi millət, milli dəyərləri olmayan xalq həqiqi xalq ola bilməz. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Biz öz milli dəyərlərimizlə fəxr edirik".* (30, səh.75)

Millətin varlığını müəyyənləşdirən amillərdən biri də dini dəyərlər sistemidir. Təsadüfi demirlər ki, Allah məskən salan qəlbdə kin-küdurət olmaz. Naxçıvanda din həmişə möhkəm olmuşdur. Hələ Sovet dönəmində

İslam dini ilə bağlı ayinlərin hamısı qadağan edilmişdi. Namaz qılmağı – Allaha ibadət etməyi (düzgün yol tutmağı) ələ salaraq idman etmək səviyyəsinə salmışdılar. Hətta 1937-ci ilə repressiya qurbanlarının cinayət işinin preambulasında ittiham maddələrindən biri panislamizm idi. Repressiyanın tüğyan etdiyi 1937–1938-ci illərdə müxtəlif bənahələrlə məhv edilmiş 27854 nəfərin əksəriyyətinin cinayət işinin preambulasında panislamist sözü yazılırdı. Soruşan yox idi ik, bəs nə üçün "panxristianizm" adlı termin (ittiham maddəsi yox idi). Müstəqillik illərində Naxçıvanda dini dəyərlərimizin bərpası üçün çox işlər görüldü. Hər şeydən əvvəl, ulu öndər özü Həcc ziyarətinə gedərək İran və Türkiyə dövlət başçılarına nümunə oldu. Bakıda Bibiheybət məscidinin tikintisinə özü təşəbbüs göstərdi (Məscid 1934-cü ildə Azərbaycan rəhbərinin şəxsi iştirakı ilə dağıdılmışdı).

Ulu öndər, demək olar ki, hər il Ramazan ayında və məhərrəmlikdə Təzə Pir məscidən gedir və maddi yardım edirdi. Mir Möhsünağa ziyargahında tikilmiş böyük Camedə Möminlərlə səmimi görüşləri də onun dini dəyərlərlərimimzə yüksək qiymət verdiyindən xəbər verir. Naxçıvanda Ali Məclisin sədri olarkən ümummilli lider Iran rəhbərliyi ilə razılığa gələrək Naxçıvanda böyük bir Camenin – Fatimeyi Zəhra məcsidinin tikintisinə nail olur. Ulu öndər Azərbaycan prezidenti seçildikdən sonra onun Naxçıvandakı işlərini gələcəyinə böyük inam bəslədiyi gənc Vasif

Talıbova həvalə etdi. Vasif Talıbov bu sahədə də öz istedad və bacarığını sübut etdi. 2005-ci ildə hicri təqvimlə 1311-ci il, miladi təqvimlə 1894-cü ildə Naxçıvanlı Hacı Məhəmməd Cəfər ağanın səyi ilə tikilən, zamanın axarı ilə öz əvvəlki vəziyyətini itirən Cümə məscidinin təmirinə göstəriş verir. Məscid dövrü üçün, habelə Naxçıvan şəhərində dini təbliğatın əsas məbədi, insanların inam məqamı kimi çox böyük əhəmiyyətə malik olmuşdur. Məscidin yanlarında və interyerində əvvəlki üslub saxlanılmaqla çoxlu işlər görülmüşdür.

Məscidin həyətyanı sahəsində də geniş abadlıq, səliqə-səhman işləri həyata keçirilib. Yardımçı bina istifadə üçün hazır vəziyyətə gətirilib. Ərazi dəmir çəpərə alınıb, yeni su və elektrik xətləri çəkilib. 15 yerə krant qoyulub. Bundan başqa, əraziyə dekorativ daşlar döşənib, şəkillər salınıb, yeni yaşıllıq zolaqları salmaq və ağac əkmək üçün yerlər hazırlanıb.

Məscidlərin açılışı Naxçıvan MR 75 illik yubileyinə təsadüf edirdi. Bu yubileydə Naxçıvan Dövlət Universitetinin yeni korpusu. Şəhərin Sarvanlar məhəlləsində Fatimeyi zəhra məscidi (xalq onu Heydər məscidi adlandırır. Habelə şəhərin görkəmli yerlərindən birində Kazım Qara Bəkir Paşa məscidi dindarların üzünə öz qapılarını açırdı.

Oktyabrın 10-da Sarvanlar məhəlləsində İran İslam Respublikasının "Bonyade Mostazəfin və Canbazani Engelabi İslam" fondunun tikdiyi "Həzrəti-Zəhrə məscidi"nin açılışı oldu. Təntənəli mərasimə minlərlə

insan toplaşmışdı. Minarədən əzəmətli "Əllahu əkbər" səsi eşidildi. Hamı bu sözü təkrar etdi. Əzan bitdikdən sonra təntənəli mərasimi Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov açdı:

*"Möhtərəm prezident!*

*Hörmətli qonaqlar və mərasim iştirakçıları!*

*Dövlətimizin başçısı möhtərəm Heydər Əliyevin rəhbərliyi altında son illər ölkəmizdə bərqərar olmuş sabitlik, əmin-amanlıq şəraitində həyata keçirilən quruculuq tədbirləri geniş vüsət almış, Azərbaycan və onun ayrılmaz parçası olan Naxçıvan çiçəklənmə dövrünə qədəm qoymuşdur. Həyata keçirilən quruculuq tədbirləri nəticəsində Naxçıvan şəhərinin siması xeyli dəyişmiş, yeni, yaraşıqlı binalar tikilərək istifadəyə verilmişdir.*

*Bu gün açılışına toplaşdığımız yeni məscid binası Əcəmi yurdunda qədim memarlıq ənənələrinə söykənən abidələrdən biri, 1969-cu ildən başlanan quruculuq xəttinin əyani təzahürüdür. Keçmiş Sovetlər Birliyi dövründə uzun illər dinimizdən məhrum olsaq da, ənənələrimiz yaddan çıxmamış, ölkəmiz müstəqillik əldə etdikdən sonra bu dəyərlər sərbəst şəkildə ifadə olunmuşdur. Möhtərəm Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə dini azadlıqların inkişafına geniş imkanlar açılmışdı. Xalqımızın böyük oğlu 1992-ci ildə məscidlər*

*tikdirmiş, zəvvarların müqəddəs yerləri ziyarət etmələri üçün hər cür şərait yaradılmışdır.*

*Bütün bu işlər möhtərəm prezidentimizin qayğısı sayəsində reallığa çevrilmişdir. Təsadüfi deyil ki, son illər inşa edilmiş məscid binalarının əksəriyyəti prezidentimizin adını daşıyır. Şərur rayonunun Aralıq və Babək rayonunun Çeşməbasar kəndlərində tikilmiş məscid binalarını buna misal göstərmək olar. Həmin məscidlərə Sizin adınızı verən xalq bununla öz prezidentinə və liderinə ilahi məhəbbət qədər məhəbbət bəslədiyini ifadə edir.*

*Açılışına toplaşdığımız bu əzəmətli məcsid binası əsası möhtərəm Heydər Əliyev tərəfindən qoyulan İran-Azərbaycan dostluğunun daha bir töhfəsidir. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən 1992-ci il avqustun 24-də Tehran şəhərində "Bonyade Mostezəfin və Canbazani İnqilabi İslam" Fondunun prezidenti Möhsün Rəfiqdustla görüşmüş və protokol imzalanarkən Naxçıvanda müasir tipli məscid binasının tikilməsi xüsusi maddə ilə qeyd olunmuşdu.*

*Açılış mərasiminə toplaşdığımız məscid binasının ilk təməl daşını da möhtərəm Heydər Əliyev və həmin dövrdə Naxçıvanda səfərdə olan hörmətli Rəfiqdust qoymuşlar. Beləliklə də Naxçıvanda Şərq memarlıq ənənələrinin ən layiqli nümunələrindən olan bu əzəmətli bina ərsəyə gəlmişdir".*

Məscidin tikilmə tarixi kitabələrdə belə qeyd olunmuşdur: *“Naxçıvanda “Heydər məscidi” kimi tanınan bu məscid Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən möhtərəm Heydər Əliyevlə İran İslam Respublikasının “Bonyade mostezəfin və canbazani inqilabi islam” Fondunun prezidenti cənab Möhsün Rəfiqdust arasında 24 avqust 1992-ci il tarixdə Tehran şəhərində imzalanmış protokola əsasən Ayətulla Xamneyi Həzrətlərinin və zati-aliləri Heydər Əliyevin himayəsi ilə tikilmişdir”.*

Sonra İranın ali dini rəhbərinin Şərqi Azərbaycandakı nümayəndəsi, Təbrizin İmam cüməsi Ayətullah Mücrəndi Şəbustəri, Qafqaz müsəlmanları idarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, İran nümayəndəsi məscid dindarldar heyətinin nümayəndəsi Möhsün Rəfiq dust çıxış etdi. Azərbaycan prezidenti H.Əliyev buradakıların alqış sədaları altında dedi:

*“Əziz naxçıvanlılar!*
*Əziz müsəlmanlar!*
*Əziz qonaqlar!*

*Bu gün Naxçıvan Muxtar Respublikasının, Azərbaycan Respublikasının həyatında çox böyük bir hadisə baş verir. Biz Naxçıvanda yeni bir məscidin, Allah evinin açılışına toplaşmışıq. Bu, bizim üçün böyük bayramdır. Xüsusən onu qeyd etmək istəyirəm*

*ki, bu günlər Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi keçirilir. Məscidin məhz bu günlərdə açılması 75 il ərzində Naxçıvan Muxtar Respublikası vətəndaşlarının, insanlarının, müsəlmanlarının – naxçıvanlıların öz islam dininə nə qədər bağlı olduğunu və islam dininin ənənələrini yaşatdığını göstərir.*

*Mən bu əlamətdar hadisə münasibətilə sizin hamınızı, Naxçıvan Muxtar Respublikasının əhalisini, İran İslam Cümhuriyyətindən təşrif gətirmiş hörmətli qonaqlarımızı ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu məscid yüz illərlə yaşayacaq, Naxçıvan Azərbaycan xalqının öz islam dini ilə daim birlikdə olmasına xidmət göstərəcək və xalqımızın mənəvi dəyərlərini inkişaf etdirəcəkdir.*

*Məscidin yaranması, tarixi haqqında burada məlumatlar verildi. Ancaq mən də bu barədə demək istəyirəm. Çünki mən bu gün böyük sevinc, iftixar hissi keçirirəm. Ona görə ki, bu məscidin burada, Naxçıvanda tikilməsinin, yaranmasının təşəb-büskarıyam. Mən bu məscidin memarıyam, mən bunun təməlini qoyanam.*

*O illərdə və xüsusən 1992-ci ildə, Allah-Təalanın əmri ilə mən Naxçıvan Muxtar Respublikasında yaşadığım və bu muxtar respublikaya rəhbərlik etdiyim zaman Naxçıvan məscidini daim ziyarət edirdim, dindarlarla görüşürdüm. Mən o məscidi yaxşı tanıyıram. Çünki uşaq ikən atam, anam məni həmin məscidə aparırdı. Doğrudur, o vaxt biz sovet*

*hakimiyyəti dövründə, kommunist ideologiyasını həyata keçirən bir ölkədə yaşayırdıq. O vaxt din qadağan edilmişdi, ardıcıl surətdə din əleyhinə, yəni ateist təbliğatı aparılırdı, insanları dindən ayırmağa çalışırdılar. O vaxtkı dövlət buna zahirən müəyyən qədər nail ola bilirdisə də, daxilən heç bir şey əldə edə bilmirdi.*

*Mənim atam da, anam da namaz qılırdılar. Onlar daim məscidə gedirdilər, uşaq ikən məni də məscidə aparırdılar. Mənim o uşaqlıq dövrümdə məktəbdə aldığım təhsil, tərbiyə ilə bərabər, məscidə getməyim paklıq, sədaqət formalaşmasında da öz əksini tapıbdır.*

*Xatirimdədir, o məscidin həyəti var idi. Onun bir tərəfini məktəb etmişdilər. Çünki o vaxt Naxçıvanda məktəblər yaranırdı, bina isə yox idi. Məscid binasının indi görünən tərəfinin arxasında böyük bir həyət var idi, həyətin yan tərəfində binalar var idi, - yəqin onlar da məscidin binaları imiş. Ancaq mən görən zaman orada məktəb var idi. Uşaqlar məktəbdən çıxıb məscidin həyətinə, oradan da məscidə girirdilər. O məscidin həyətində Aşura günlərinin keçirilməsi mənim xatirimdədir. Mən onların hamısını görmüşdüm.*

*Mən imanımı heç vaxt itirməmişəm, mənsub olduğum millətin islam dini ilə həmişə fəxr etmişəm. Şübhə etmirdim ki, vaxt gələcək, bizim ölkədə də insanlar tam azad olacaqlar, o cümlədən insanlara*

*vicdan azadlığı veriləcək və onda onlar öz arzu və istəklərini daha da açıq bildirə biləcəklər.*

*Mən gənc vaxtlarımdan uzun müddət idi ki, Naxçıvandan ayrılmışdım. Bakıda işləyirdim, Azərbaycana rəhbərlik edirdim. Ondan sonra Moskvada işləyirdim, Sovetlər İttifaqının, o böyük superdövlətin rəhbərlərindən biri idim. O dövlətə 10-12 nəfərdən ibarət Siyasi Büro rəhbərlik edirdi. Sovetlər İttifaqının tarixində həmin o Siyasi Büroya daxil olmaq heç bir müsəlmana nəsib olmamışdı. Mən yeganə müsəlman idim ki, Sovetlər İttifaqının rəhbərliyində Siyasi Büronun üzvü idim. Ancaq mən öz milli ruhumu, ənənələrimi, hissiyyatlarımı, dinimizə məxsus olan ənənələri həmişə qəlbimdə yaşadırdım...*

*Naxçıvanda indiki məscidin, səhv etmirəmsə, 100-dən çox yaşı vardır. Amma bu yeni bina yüz illər yaşayacaqdır. Bizdən sonra gələn nəsillər bizə rəhmət oxuyacaqlar. Mənim üçün isə bundan böyük mükafat ola bilməz.*

*Mən bu məscidin tikilməsindən çox məmnunam. Çox məmnunam ki, məscidin açılışı mərasiminə İran İslam Cümhuriyyətindən böyük, çox mötəbər, möhtərəm qonaqlarımız, dostlarımız gəliblər. Mən bu görüşdən də çox məmnunam.*

*Bu məscid böyük məna daşıyır. Bu da ondan ibarətdir ki, o, İran-Azərbaycan dostluğunun, qardaşlığının, əməkdaşlığının gözəl bir nümunəsidir. Biz Azərbaycanda müstəqil bir dövlət kimi, qonşumuz,*

*dostumuz, qardaşımız İran İslam Cümhuriyyəti ilə əlaqələrimizi daim inkişaf etdirmək, genişləndirmək istəyirik. Hesab edirəm ki, bunun üçün böyük imkanlar vardır və biz onlardan istifadə etməliyik. Hər halda mən Naxçıvanda olarkən biz bu əməkdaşlıq sahəsində qısa bir zamanda çox işlər görə bildik. Mən artıq söylədim ki, İrandan elektrik enerjisi gəldi. İrandan 40 meqovat elektrik enerjisi gəlir, buna görə çox sağ olun. Doğrudur, biz onun pulunu veririk, bu enerji müftə gəlmir. Ancaq elə onun özü də böyük şeydir.*

*Məni sevindirən odur ki, İran ilə Naxçıvan arasındakı yollar çox sərbəstləşdirilibdir. Hesab edirəm, İran hökuməti bu sahədə çox səxavət göstəribdir, gözəl bir siyasət aparır ki, insanlar 24 saat müddətində Naxçıvandan İrana gedib, İrandan Naxçıvana gələ bilirlər, adamlar sərbəst ticarət edirlər. Bu, bizim arzumuz olubdur".*

Qısa müddətdə Naxçıvan şəhərinin görkəmli yerlərindən birində inşa edilən Kazım Qarabəkir məscidinin ərsəyə gəlməsi H.Əliyevin təşəbbüsü və V.Talıbovun nəzarəti altında olmuşdur. Məscid yüksək keyfiyyətlə qübbəli və iki minarəli olaraq Şərq məscid memarlıq üslubunda tikilmişdir. Məscidin açılışı 1999-cu il oktyabrın 14-də təntənəli şəkildə oldu. Açılış mərasimində Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyev və Kazım Qarabəkirin qızı Istambuldan dəvət edilmiş Timsal

xanım iştirak edirdi. Mərasimi Naxçıvan MR Ali məclisinin sədri Vasif Talıbov giriş sözü ilə açdı.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı:

*“Zati-aliləri cənab prezident!*
*Hörmətli qonaqlar, mərasim iştirakçıları!*

*Uzun əsrlər boyu xalqımız məscid tikməyi müqəddəs və savab iş saymışdır. Ucaldılan bu Allah evlərində insanlar daxilən saflaşır, ülvi, pak əməllər ruhunda tərbiyə olunurlar.*

*Xalqımız Sizi Allahın lütfü və özünün xilaskarı adlandıraraq həqiqi hisslərini ifadə edir və inanır ki, bütün ömrünü vətənin və millətin xoşbəxtliyinə həsr etmiş dövlət rəhbəri məmləkəti ülvi niyyətlərə çatdıracaq, böyük qələbələrə aparacaqdır.*

*Sizin “Allahın yolunda hamımız bir olaq!” çağırışınız bütün dövrlər üçün aktualdır, doğma Azərbaycanımızı tərəqqiyə, rifaha aparan əbədi şüardır. Bu gün açılışına toplaşdığımız “Kazım Qarabəkir paşa məscidi” də dini dəyərlərimizə olan qayğınızın ifadəsidir. Siz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən qonşu İran və Türkiyə ilə yaratdığınız işgüzar əməkdaşlıq əlaqələri, əsasını qoyduğunuz dostluq münasibətləri ayrı-ayrı sahələrdə olduğu kimi, din və vicdan azadlığında da mühüm rol oynamışdır.*

*Açılışına toplaşdığımız bu məscidin layihə-smeta sənədləri 1993-cü ildə Sizin rəhbərliyinizlə təsdiq edilmiş, tikintinin yerinin burada seçilməsi barədə tapşırıq vermişdiniz.*

*1997-ci ildən Türkiyənin diyanət işləri vəqfinin xətti ilə burada tikinti aparılmış və başa çatdırılmışdır.*

*Hörmətli mərasim iştirakçıları! Məscidə adı verilmiş Kazım Qarabəkir paşa Naxçıvanın erməni işğalından azad edilməsində mühüm rol oynamış tarixi şəxsiyyətlərdən biridir. İstiqlal savaşı illərində böyük Atatürk şərq cəbhəsinin komandanı olan Kazım Qarabəkir paşaya Ərzurum, Qars, Ərdahan və Ağrı ilə yanaşı, qonşu və qardaş Naxçıvanla da bağlı mühüm tapşırıqlar vermişdi. Bu tapşırıqlarda Naxçıvanın erməni işğalından qorunmasına və qurtarmasına dair göstərişlər öz əksini tapmışdı.*

*Böyük Atatürkün sadiq məsləkdaşı, Şərq cəbhəsinin qüdrətli komandanı Kazım Qarabəkir paşa verilmiş tapşırıqların uğurla həyata keçirilməsi üçün ağıllı, düşünülmüş mövqelər seçmiş, düzgün planlar hazırlamışdı. Ciddi və düşünülmüş tədbirlər sayəsində bir tərəfdən Naxçıvan bölgəsi ermənilərdən təmizlənmiş, digər tərəfdən isə o zaman müxtəlif yollarla Rusiyadan yardım alan Anadolu üçün Naxçıvan-Zəngəzur dəhlizi açılmışdı. Bütün bunlara görədir ki, Atatürkün və onun məsləkdaşlarının adları Naxçıvanda böyük ehtiramla yad edilir. İndi Naxçıvan şəhərində ən böyük küçələrdən biri Atatürk prospekti*

*adlanır. Açılışına toplaşdığımız məscidə Kazım Qarabəkir paşanın adı verilməsi də tamamilə təbiidir.*

*Bu məscid binasının tikintisi, muxtar respublikada aparılan digər quruculuq tədbirləri möhtərəm Heydər Əliyevin rəhbərliyi altında ölkədə yaranmış sabitliyin, əmin-amanlığın əyani təzahürüdür. Qədirbilən xalqımız qayğıya sədaqətlə cavab verir. Ulu Tanrı haqq yolunda olanları, savab iş görənləri heç vaxt unutmur.*

*Möhtərəm zati-aliləri! İcazənizlə, məscidin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimi açıq elan edim və çıxış üçün sözü Kazım Qarabəkir paşanın qızı Timsal Qarabəkirə verim.*

Timsal Qarabəkirin çıxışı.

*"Sayın cümhur başqanım Heydər Əliyev!*

*Türkiyə Cümhuriyyəti hökumətinin hörmətli üzvləri!*

*Hörmətli İqdır valisi!*

*Hörmətli diyanət işləri bakanı!*

*Naxçıvan Ali Məclisinin hörmətli sədri!*

*Millətimizin dəyərli övladları, həmyerlilərim!*

*Həyatımın ən müstəsna gününü sizin hüzurunuzda keçirirəm. Atam Kazım Qarabəkirə göstərdiyiniz bu qədirşünaslığa görə minnətdarlığımı və təşəkkürüm bildirirəm.*

*Azərbaycan və Türkiyə eyni millətin yaratdığı iki dövlətdir. Özümü öz vətənimdə hiss edirəm. Atam da*

*uzun illər bundan öncə öz vətəni üçün savaşmış, millətinin gələcəyinə inanmışdır.*

*Məmnunam ki, problemli düyünlər açıldı və bu gün müstəqil Azərbaycan dövləti türk millətinin bir əsəri olaraq əbədi yaşayacaqdır. Ermənilərin işğal etdikləri vətən torpaqları böyük dövlət xadimi Heydər Əliyevin səyləri və siyasəti sayəsində mütləq azad olacaqdır.*

*Bu xatirə camesi türk millətinin birliyi və bütövlüyünün rəmzi olaraq daim nur saçacaqdır. İnanıram ki, Kazım Qarabəkirin və şəhidlərimimzin əziz ruhları bu vətən torpaqlarının səssiz duaları ilə əbədi uyuyacaqdır. Sizlərə sevgilərimi, təşəkkürlərimi yetirərək sözümü bitirirəm.*

*Yaşasın Azərbaycan! Yaşasın Türkiyə!"*

Naxçıvanda "Kazım Qarabəkir Paşa məscidi"nin açılış mərasimində Azərbaycan prezidenti Heydər Əliyevin nitqi:

*"Möhtərəm xanımlar və cənablar!*
*Əziz bacılar, qardaşlar, dostlar!*

*Türkiyə Cümhuriyyətindən Azərbaycana, Naxçıvana gəlmiş çox hörmətli qonaqlarımız, dostlarımız, qardaşlarımız!*

*Bu günlər biz Naxçıvan Muxtar Respublikasının yaranmasının 75-ci ildönümünü bayram edirik. Bu, bütün Azərbaycan xalqının bayramıdır. Çünki*

*Azərbaycanın gözəl bir diyarı, eyni zamanda Azərbaycana düşmən olan bəzi qüvvələr tərəfindən 20-ci illərdə Ermənistan ərazisi vasitəsilə Azərbaycan torpağından ərazi nöqteyi-nəzərindən ayrı salınmış Naxçıvanın muxtariyyət alması və 75 il müddətində muxtar dövlət kimi yaşaması böyük hadisədir. Ona görə bu bayram bütün Azərbaycan xalqının bayramıdır.*

*Bu bayrama Türkiyənin çox yüksək səviyyəli nümayəndə heyətinin gəlməsi ilə bərabər, bu bayramı Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycan xalqının əziz dostu, mənim qardaşım Süleyman Dəmirəl göndərdiyi çox nəzakətli mesaj ilə təbrik etmişdir.*

*Bu gün bu fürsətdən istifadə edərək, Türkiyə Cümhuriyyətinin, Türkiyə xalqının üzləşdiyi ağır fəlakət, zəlzələ, faciə ilə əlaqədar Azərbaycan xalqının kədərini, qüssəsini və başsağlığını bir daha bəyan edirəm. Dünən biz təntənəli mərasimdə böyük Atatürkün hörmətli Süleyman Dəmirəlin məktubunda yazılmış sözlərini dərin minnətdarlıq hissi ilə qarşıladıq. O sözlər daim bizim xatirimizdədir. Böyük Atatürk demişdir: "Azərbaycanın ələmi bizim ələmimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir". Biz də, Azərbaycan prezidenti olaraq mən də Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra demişəm: "Türkiyənin ələmi, dərdi, kədəri bizim dərdimizdir, bizim kədərimizdir, Türkiyənin sevinci bizim sevincimizdir".*

*Ona görə o faciəli günləri biz bir yerdə keçirdik, bərabər olduq. O günlərdə türk və Azərbaycan xalqlarının birliyi bir daha nümayiş etdirildi. Biz dərhal yardım əlimizi uzatdıq və zəlzələnin vurduğu zərərləri aradan qaldırmaq üçün imkanımız dairəsində yardım göstərdik. Bunlar hamısı, o cümlədən bu gün burada Türkiyənin diyanət işləri bakanlığı tərəfindən inşa edilmiş və Naxçıvana, Azərbaycana hədiyyə olunmuş gözəl məscidin, camenin açılması da Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının gözəl nümunəsidir.*

*Xatirimdədir, 1982-ci ildə, - o vaxt Azərbaycanın başçısı idim, - məni Moskvaya dəvət edib Siyasi Büronun üzvü və Baş nazirin birinci müavini vəzifəsinə təyin edən zaman Türkiyə qəzetləri böyük sevinclə mənim fotoşəkillərimi vermiş və yazmışdılar ki, Kreml sarayının başında bir türk oğlu yüksəldi. Bəli, bu, bizi - azərbaycanlıları, türkləri, müsəlmanları çox sevindirdi. Ancaq düşmənlərimizi kədərləndirdi. Mən beş il orada çalışandan sonra məcburi istefaya getdim. Mənim əleyhimə, o cümlədən erməni düşmənlərimiz tərəfindən müxtəlif təxribatlar, fitnələr və yalanlar, böhtanlar edilirdi. Moskvada üç il ağır bir şəraitdə yaşayandan sonra öz vətən torpağıma, Azərbaycana dönməyi qərara aldım. Gəldim Bakıya. Təəssüflər olsun ki, orada da namərdlər, nadürüst insanlar mənim yaşamağıma imkan vermədilər. Buraya, Naxçıvana gəldim. Burada*

*məni qucaqladılar, qoyunlarına aldılar, burada məni yaşatdılar.*

*Bu hekayəti ona görə deyirəm ki, mən o ağır dövrdə Naxçıvana gəldim. Burada bacım yaşayırdı, onun kiçik komasında yerləşdim. Məni sayan adamlar gəlib görüşür, kiçik bir həyətdə, demək olar ki, səhərdən axşama kimi məni ziyarət edirdilər. Mənim müəllimim Lətif Hüseynzadə gəldi. O qədər sevindim ki! Çünki ondan 39-cu ildə ayrılmışdım, bu isə 90-cı il idi. Oturduq, çox söhbət etdik. Mən onun o vaxt dediyi sözləri sizə bildirmək istəyirəm. Dedi ki, əzizim Heydər, sən çalış ki, erməni düşmənlərimizin burada qarşısını al, Naxçıvana təcavüzə imkan vermə. Çünki 18-ci ildə onlar Naxçıvana hücum etdilər, əgər türk ordusu buraya gəlməsəydi, Kazım Qarabəkir paşanın ordusu Naxçıvana gəlməsəydi hamımızı qıracaqdılar. Bu, mənim gözümün qabağında olan hadisədir.*

*Yəni 1990-cı ildə Lətif müəllim, Lətif Hüseynzadə 1918-ci ili yadına saldı və o illərin şahidi olaraq mənə bir ağsaqqal, müəllim kimi öz tövsiyələrini verdi. Mən ona dedim: Əziz müəllimim, mən böyük həyat yolu keçmişəm. Bu gün Naxçıvana məcburiyyətdən gəlmişəm, amma eyni zamanda gəlmişəm ki, sizinlə bir yerdə olum, bərabər olum, öz həmvətənlərimlə bir yerdə olum və vətənimi qoruyum. Əgər qoruya bilərəmsə - qoruyacağıq, qoruya bilməyəcəmsə - hamımız bir yerdə şəhid olacağıq.*

*Türk ordusunun, xüsusən Kazım Qarabəkir paşanın adı Azərbaycanda, ələlxüsus bu bölgədə məşhurdur və*

*həmişə böyük hörmət*-ehtiramla *yad edilir.* 1921-ci *ildə yenə də Naxçıvan ətrafında mübarizə gedirdi. Ermənilər buranı öz əllərinə keçirmək istəyirdilər. Ancaq Naxçıvan xalqı öz iradəsini göstərirdi.* 1921-ci *ildə Qarsda Azərbaycan xalqı üçün çox əhəmiyyətli olan Qars anlaşması, müqaviləsi imzalandı. Onu Türkiyə imzaladı, Rusiya imzaladı, Azərbaycan imzaladı, Ermənistan imzaladı. Bu imzalarla Naxçıvanın Azərbaycanın tərkibində olması təsdiq* edildi. *Burada da əsas rolu Türkiyə oynadı. Həmin o Qars müqaviləsinin altında bizim hörmətli paşamız Kazım Qarabəkir paşanın imzası var.*

1988-ci *ildə Ermənistan Azərbaycana təcavüz edən* zamandan, *– Azərbaycan hələ Sovetlər İttifaqının daxilində idi, Türkiyə Azərbaycanla bir yerdə oldu, Azərbaycana dayaq durdu, erməni təcavüzkarlarını pislədi, qınadı. Türkiyə Ermənistan kimi dövləti indiyə qədər tanımır, Ermənistanla öz sərhədlərini açmayıb və Azərbaycanla bir yerdədir.*

*1990–1993-cü illərdə, mən burada yaşayarkən, Ermənistanla Azərbaycan arasında müharibə gedərkən, Naxçıvan ağır blokada şəraitində olarkən Naxçıvanın başçısı kimi mən yenə də əlimi Türkiyəyə uzatdım. Əziz dostum Süleyman Dəmirələ müraciət etdim, ona telefon etdim. O, dərhal köməyə gəldi. Biz bərabər, bir yerdə körpü tikdik – "ümid körpüsü", "həsrət körpüsü" tikdik. O körpü Türkiyə ilə Azərbaycanı birləşdirdi. İndi o körpü vasitəsilə siz, əziz qonaqlarımız, buraya keçib gəlmisiniz, biz*

*Türkiyəyə gedib-gəlirik. 1992-ci il may ayının 28-də bu körpünün təntənəli açılışını da biz - başda Süleyman Dəmirəl olmaqla Türkiyə hökuməti və Naxçıvan hökuməti, mən - bir yerdə bayram etdik.*

*İndi xoşbəxtlikdir, bəxtiyarlıqdır ki, biz bu günlərə gəlib çatmışıq. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı möhkəm olub, sarsılmazdır və əbədi olacaqdır!*

*Hörmətli diyanət işləri bakanı dedi ki, bu, Heydər Əliyevin əsəridir. Mən buna çox məmnunam, amma eyni zamanda həqiqət də budur ki, mən burada işləyərkən körpünü açdıq, yollar açıldı, getdik-gəldik. Mən rica etdim ki, Türkiyə buraya hər türlü yardımlar edir, amma burada bir məscid, came də yaransın. Çünki xalqımız 70 il dindən ayrı düşüb. Yəni, qəlbində dini saxlayıb, amma din yasaq, qadağan olunubdur, Naxçıvanda Allah evi azdır, bunu etmək lazımdır. Mənim bu ricam da qəbul edildi. Diyanət işləri bakanlığının qərarı ilə bu camenin tikilməsi üçün yer axtarıldı. Biz birlikdə bu yeri tapdıq. Sonra camenin layihəsini gətirdilər, baxdıq və onun əsası qoyuldu.*

*Türkiyədən gələn qonaqlarımızın hamısı bizim üçün əzizdir. Ancaq buraya gələnə və Türkiyənin böyük elçisi mənə məlumat verənə qədər heç bilmirdim ki, hamımız üçün çox qiymətli bir insanın - Kazım Qarabəkir paşanın qızı da buradadır, o da buraya gəlibdir. Əziz bacım, siz bizim üçün çox qiymətlisiniz, Azərbaycan xalqı üçün qiymətlisiniz, naxçıvanlılar üçün qiymətlisiniz. Çünki sizin qəhrəman atanız*

*Azərbaycan xalqı üçün, Naxçıvan üçün böyük xidmətlər göstərib və böyük irs qoyub gedibdir. Ona görə də mən təşəkkür edirəm ki, siz buradasınız. Sizi xüsusi salamlayır və öz təşəkkürümü bildirirəm.*

*Əziz dostlar, sizi bir daha təbrik edirəm. Güman edirəm ki, artıq biz lenti bərabər kəsməliyik. Sağ olun.*

Sonra Türkiyənin diyanət işləri bakanı Məhəmməd Nuri Yılmaz, Türkiyənin Dövlət Naziri Abdulxaliq Mehmet Cay çıxış etdi.

Naxçıvan rəhbəri olaraq Vasif Talıbov həmişə əlamətdar dini ayinlər və mərasimlər keçirildiyi günlərində ənənəvi olaraq dindarların yanında olur. O, hətta dindarlarla birlikdə iftar süfrəsi mərasimində iştirak edir və dinimizi onun mübarək günlərini yüksək dəyərləndirir. Belə ki, 26 iyul 2013-cü ildə Əhya günü – Qədr gecəsi Naxçıvan şəhər dindarları ilə birlikdə iftar mərasimində iştirak etmiş və aşağıdakı xoş sözləri demişdi: *"İslam dünyasında Ramazan ayının xüsusi yeri vardır. Bu ayda tamamlanan "Qurani-Kərim" Yer üzündə 1 milyarddan çox insanın iman gətirdiyi böyük qüdrət və ilahi qüvvət mənbəyidir. Müsəlmanlar bu ayda həmrəyliyi möhkəmlədir, mənəvi dünyamızı daha da zənginləşdirirlər.*

*Azərbaycan xalqı da bütün dövrlərdə Ramazan ayının mənəvi üstünlüklərini yaşatmış, həmişə yüksək dəyərlərə sədaqət göstərmişdir.*

*İnsanların mənəvi tərbiyəsi sahəsində Ramazan ayının mühüm rol oynadığını yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev demişdir: "Respublikamızın müsəlmanları Ramazan ayı günlərində Allaha, Vətənə və xalqa sədaqət, sıx həmrəylik və möhkəm iradə nümayiş etdirmiş, imanlarının saflığını təkcə sözdə deyil, həm də əməllə sübut etmişlər".*

*İnsan mənəviyyatının saflaşması, əxlaqi dəyərlərin bərqərar olması işinə yönəldilmiş hər bir fəaliyyət yüksək qiymətə layiqdir. Muxtar respublikamızda da dini və mənəvi dəyərlərin qorunub yaşadılmasına, İslamın müqəddəs ayin və bayramlarının qeyd edilməsinə xüsusi diqqət yetirilir.*

*Hörmətli mərasim iştirakçılar!*

*Dinimizin və mənəvi dəyərlərimizin bir hissəsi olan müqəddəs Ramazan ayında xalqımıza, eləcə də muxtar respublika əhalisinə, hər biriniyə "Allah orucunuzu qəbul etsin!" deyirəm".* (30, səh.57)

Bu sözlər Vasif Talıbovu bir vətəndaş kimi də xarakterizə edir. Dini dəyərlərimizə hörmət və məhəbbətlə yanaşmaqdan əlavə, dini ayinləri icra edənlərə hörmət etmək, onlarla bir iftar süfrəsi arxasında oturmaq onun bir Türk müsəlman olaraq öz kökünə, minillik adətlərə bağlı adamdır. Onun dəfələrlə Əshabi-Kəhvi ziyarət etməsi bunu bir daha

sübut edir. Yuxarıda dini-tarixi dəyərlər sistemində Nuh peyğəmbərin məzarüstü abidəsinin bərpası haqqındakı sərəncamından, Naxçıvan, Nuh Tüfanı mövzusunda keçirilən beynəlxalq simpoziumdakı son dərəcə məzmunlu və tutarlı mərazəsindən, Gəmi Qaya tarixi abidəsi haqqındakı sərəncam və məruzəsindən bəhs etmişik. Bu problemlər daha çox dini-tarixi mahiyyətdə olduğu üçün onlar haqqında tarix problemlərindən danışarkən bəhs etdik.

Xalqın özümlüyünü təsdiq edən "Milli pasportu" içərisində ata-bala adətləri dediyimiz milli adətlər əsas yer tutur. Bunlardan biri də bütün türk dünyası üzrə ən yüksək səviyyədə Azərbaycanda qeyd edilən Novruz Bayramıdır. Novruz bayramı həm astronomik, həm ilin fəsli cəhətdən önəmli olduğu üçün, xalqın qışdan yaza çıxdığını xəbər verdiyi üçün ən əziz bayram kimi min illər idi ki, xalqımız qeyd edirdi. Bəlkə də Novruz bayramının Nuhruz olduğunu deyən akad. İsa Həbibbəylinin fərziyyəsini nəzərə alsaq, elə "Novruz da ilk dəfə Naxçıvanda qeyd edilmişdir" deyə bilərik. Amma Sovet bolşevik rejimi, hətta səmanın diktə etliyi gecə-gündüz bərabərliyi faktına məhəl qoymadan bu gözəl bayramı qadağan etmişdi. Niyə?

Çünki xristianlar gecə-gündüz bərabərliyinin mənasını dərk etməmişlər. 1965-ci ilə qədər Azərbaycan xalqı bu bayramın adını da çəkə bilməzdi. Doğrudur, 1965-ci ildə bu bahar bayramını xalqımız qeyd etdi. Amma bu bizə baha başa gəldi. Bu bayramın qanuni, müntəzəm, yüksək səviyyədə

keçirilməsi köksündə məğrur türk müsəlman ürəyi daşıyan Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər gəldiyi vaxtdan başlandı. O, bu bayramı yüksək dövlət səviyyəsində keçirir, öz ailəsi ilə birlikdə şənliklərdə iştirak edir, bəzən həmin şənliklərin adi iştirakçılarından biri olurdu. Bu ənənəni Naxçıvanda 1995-ci ildən Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cənab Vasif Talıbov yüksək səviyyədə davam etdirir. O, Novruz şənliklərinin bütün atributlarla birlikdə yüksək səviyyədə keçməsini təşkil etməyi tələb edir və özü də məmnuniyyətlə həmin şənliklərdə iştirak edir. Bu, əhalidə Novruz bayramına məhəbbər artırdığı kimi, cəsarəti də artırır və şənliyə yeni ovqat verir. O, bütün çıxış və məruzələrində öz ustadının adını dəfələrlə çəkir, bütün Azərbaycançılıq məfkurəsinin onun adı ilə bağlı olduğunu qeyd edir. Novruz bayramının dövlət səviyyəsində, xalqımızın adına layiq qeyd edilməsini də məhz Heydər Əliyevin qayğısının nəticəsi kimi dəyərləndirir. Axı bayram axşamı xalqımız öz əzizlərini də yad edir. 2005-ci ildə təşkil olunmuş Novruz şənliyində də yuxarıda dediklərimizin hamısını öz təbrik nitqində qeyd etdi:

*“Novruz bayramı xalqımızın ən qədim bayramlarından biridir. Azərbaycanlıların müdrikliyinin, böyük tarixi və mədəni keçmişinin göstəricisi olan bu bayram hər il müstəqil ölkəmizdə böyük təntənə ilə, el şənliyi kimi qeyd olunur.*

*Bu əziz bayram münasibəti ilə Naxçıvan Muxtar Respublikasımn bütün əhalisini, şəhid ailələrini, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikaşındakı hərbi hissələrinin şəxsi heyətini səmimi qəlbdən təbrik edir, hamımza xoşbəxtlik və firavanlıq arzulayıram.*

*Xalqımızın mənəvi dirçəlişi, tarixi və mədəni irsinin qorunması, onlara ikinci həyat verilməsi ulu öndər möhtərəm Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanı həyatının mənası bilən, xalqa, onun adət-ənənələrinə ürəkdən bağlı olan, milli-mənəvi dəyərlərimizin yaşaması üçün misilsiz fədakarlıqlar göstərən ümummilli liderimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli varlığımızın rəmzinə çevrilən bayramlar, o cümlədən Novruz bayramı bütün ölkə miqyasmda və dövlət səviyyəsində qeyd olundu, bu bayramlara yeni status verildi. Bununla yanaşı, ümummilli liderimizin səyi nəticəsində əldə olunan sabitlik, dağılmış iqtisadiyyatın bərpa olunaraq əhalinin yaşayış səvivyəsinin yüksəlməsi 1990-1993-cü illərdən fərqli olaraq bayramların əsil bayram əhval-ıuhiyyəsində qeyd olunmasma da şərait yaratdı".* (17, səh.199)

Bu çıxışında Naxçıvan rəhbəri bir ənənəyə də sadiq qaldı; hər bayram günü ötən bayramdan sonrakı işlərə yekun vurulur, onlar haqqında iftixarla danışılır. Bu çıxışında o, əhalinin gəlirinin artmasından,

Naxçıvanın qazla təmin olunmasından, böyük su ehtiyatları hazırlanmasından bəhs etdi.

Onu da qeyd etmək istərdik ki, onun belə kütləvi el şənliklərindəki hər bir çıxışı onu xalq kütlələri ilə daha yaxınlaşdırır, nüfuzunu artırır, nəhayət, el məhəbbətinə çevirir. Çünki xalq öz rəhbərindən səmimi hərarətli sözlər eşitdikdə inanır ki, onun arxasında belə bir rəhbər dayanır. Bu, xalqın iradəsini möhkəmlədir və nikbinliyini artırır.

Belə çıxışlardan birinə 2012-ci il Novruz bayramı şənliyində cənab Vasif Talıbovun çıxışını misal çəkmək olar. Natiq bu çıxışında öz səmimi sözləri ilə tamamilə xalqa yaxınlaşır, onunla qaynayıb-qarışır. Həmin təbrik nitqində Vasif Talıbov deyirdi: *"Novruz bayramı xalqımızın ən qədim, ən əziz bayramlarından biridir. Milli rəmzi olan, saf niyyətləri, xoş arzuları özündə birləşdirən və yaşadan bu bayram Azərbaycan xalqınm öz tarixi keçmişinə və milli dəyərlərinə bağlılığının təcəssümüdür.*

*Bütün etnoqrafik xüsusiyyətlərinə görə azərbaycanlı ruhunun və azərbaycanlılara xas yaradıcı düşüncənin məhsulu olan Novruz bayframının ölkəmizdə qeyd olunmasının özünəməxsus ənənəsi formalaşmışdır Milli dəyərlərimiz milli kimliyimiz olmaqla birlikdə, həm də bizim hamımızı azərbaycançılıq məfkurəsi ətrafında birləşdirən mühüm vasitədir. Bu mənada inamlarımızı və adət-ənənələrimizi özündə birləşdirən Novruz bayramına mühüm əhəmiyyət veririk.*

*Əsrlərın sınağından çıxmış Novruz bayramının bu il də əmin-amanlıq və iqtisadı yiiksəliş şəraitində qeyd olunması dövlət müstəqilliyimizin ən böyük nailiyyətidir. Bu əziz gündə müstəqilliyimizin və ərazi bütövlüyümüzün qorunmasında şəhid olanların əziz xatirəsini yad edır, xalqımızı Silahlı Qüvvələrin muxtar respublika ərazisindəki birləşmə və hissələrinın şəxsi heyətini Novruz bayramı münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hamınıza xoş bayram ovqatı arzulayıram"*. (30, səh.31)

Milli dəyərlər sisteminə xalqın mifik təfəkkür elementləri, inancları şifahi xalq ədəbiyyatı nümunələri də daxildir. Azərbaycan xalqının şifahi yaradıcılığı, yazılı ədəbiyyat meydana gəldikdən sonra da davam və inkişaf etmişdir. Yazıya qədərki əbədi abidələrin çoxu yazı ilə sabitləşmədiyi üçün sonralar itib-batır. Bu elə folklor nümunələrinə aid ola bilər ki. Onlar xalq düşüncəsi, həyat tərzi, arzu və istəkləri ilə zəif əlaqəli olsun. Amma başqa bir cəhəti də nəzərə almaq lazımdır ki, şifahi ədəbiyyatın inkişaf etdiyi dövrlərdə (ilkin və sonrakı orta əsrlərdə) xalq savadlı olmadığı üçün, yazılı ədəbiyyatı, elmi-fəlsəfi əsərləri oxuya bilmirdi. Buna görə də ozan-aşıq sənəti xalq arasında daha çox yayılırdı. Məsələn, Nağıllarımızın əksəriyyəti XV-XVI əsrdən sonra, dastanlarımızın çoxu XV əsrdə, bayatılarımız isə XVII-XVIII əsrlərdə daha çox inkişaf etmişdi. Bu, çox böyük bir mövzudur. Biz məqsəddən uzaq düşməmək üçün cəmi iki məsələdən bəhs etməyi

lazım bilirik. Bunlardan biri "Koroğlu", ikincisi isə "Dədə Qorqud" dastanlarıdır. "Koroğlu" dastanı XVII əsrin məhsuludur. Belə ki, 1602-ci ildə Türkiyədə quraqlıq və aclıq olmuşdu. Sultan hakimiyyəti xalqa kömək etmək iqtidarında deyildi. Buna görə də Gizir oğlu Mustafa bəyin rəhbərliyi ilə kəndli hərəkatı başlandı. Koroğlu bu hərəkata qoşulub sonradan onun öncülü oldu. Bu mövzuda Türkiyədə, Azərbaycanda, Özbəkistanda, Türkmənistanda müxtəlif adlarla (Koroğlu, Goroğlu, Qoroğlu və s.) dastanlar yarandı. Demək istərdik ki, bu dastanların ən maraqlısı Azərbaycan variantıdır. Bu dastan 1930-cu illərdə Ə.Axundov, M.H.Təhmasib tərəfindən toplanaraq dəfələrlə çap olunmuş, Ü.Hacıbəyov bu mövzuda 1937-ci ildə "Koroğlu" operası yazmış (1967-ci ildə Niyazi həmin operanı Ankara səhnəsində qoymuşdur). 1960-cı illərin əvvəlində "Koroğlu" kinofilmi çəkilmişdir. Bunları xatırlatmaqda məqsədim odur ki, Koroğlunun ilk heykəlinin Naxçıvanda ucaldığını deyim. Naxçıvanın girəcəyində ucaldılmış bu abidənin qoyulmasında Naxçıvan rəhbəri Vasif Talıbov yaxından iştirak etmiş, ikinci, daha əzəmətli variantının isə təşəbbüskarı olmuşdur. Bundan neçə il sonra Bakıda da Korogluya abidə ucaldıldı. "Koroğlu" dastanında proletar mənafeyi, qeyri-qədimlik olduğu üçün daşnak fitnəsi bolşevik mərkəzinə "bu əsəri qadağan et" deyə bilmirdi. Amma "Kitabi-Dədə Qorqud" düşmənləri daha çox qıcıqlandırırdı. Çünki o xristianların bütün ədəbi abidələrindən daha qədim

idi. Bundan əlavə, buradakı adət-ənənələr qəbilə və tayfa adətləri deyil, artıq formalaşmış bir cəmiyyətin dünya baxışını əks etdirirdi. Sonra bu dastanda təsvir olunan hadisələr mənsub olduğu xalqın ədalətli, mərd, namuslu, qeyrətli, həqiqətsevər olduğunu təsdiq edirdi. Ən əsası isə o idi ki, dastandakı hadisələr Azərbaycanda və indi Ermənistan adlanan Qərbi Azərbaycanda baş verirdi. XX əsrin birinci rübündə V.V.Boltold və Ə.Abid bu dastanın məhz Azərbaycan türklərinə mənsub olduğunu sübut etmişdilər. Bundan qəzəblənən ermənilər öz havadarı olan Moskvanın təhriki, ən əsası Azərbaycan rəhbərliyinin qeyri-Milli fəaliyyəti nəticəsində bu tarixi abidəmiz qadağan olmuşdu. Bu haqda Naxçıvanda keçirilən yubiley konfransında Naxçıvan Respublikasının rəhbəri cənab Vasif Talıbovun məruzəsində ətraflı bəhs edilir.

"Dədə Qorqud"un qadağan edilməsinin canlı şahidi olan Heydər Əliyev 1951-ci ildə o vaxt Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırovun məruzəsini də oxumuşdu. O, bu dastanın necə, nə üçün qadağan olunduğunu da görmüşdü. Qəribədir birinci katibin belə təhdidlərindən dərhal sonra BDU-nun Respublika Arxivində saxlanan 1650 saylı fondunda Universitet rəhbərliyinin MK-ya ünvanladığı məktubda deyilir ki, M.C.Bağırovun haqlı tənqidindən sonra "Kitabi-Dədə Qorqud" dastanları tədris proqramından çıxarılmış və tədqiqi qadağan edilmişdir. Hətta bu mövzuda yazılmış hazır dissertasiyalar ləğv edilmişdi.

Ulu öndər bunların hamısını görmüş və səbəblərini də özündə yəqin etmişdi. Ona görə də xalqın ölüm-qalım məsələsinin həllində özünü yetirmiş ulu öndər 1997-ci ilin 20 aprelində "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında sərəncam imzaladı. Bundan sonra bu mövzuda beynəlxalq elmi konfrans keçirildi. Azərbaycan miqyasında olan hadisələrə toxunmağa lüzum yoxdur. Bizi Naxçıvanda bu işin cənab Vasif Talıbov tərəfindən necə təşkil edilməsi maraqlandırır. Məlumdur ki, Respublika Prezidenti cənab H.Əliyev imzaladığı həmin fərmandan bir-iki ilə sonra 21 fevral 1999-cu il tarixdə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə yaradılmış Dövlət Komissiyasının iclasını keçirmimş və tədbirlər planı təsdiq edilmişdi. Tədbirlər planına əsasən respublikanın böyük şəhərlərində, o cümlədən Naxçıvanda "Dədə Qorqud" meydanı salınması nəzərdə tutulurdu. Iclasdan sonra Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cəmi 15 gün sonra (martın 9-da) belə bir sərəncam verdi:

Tarix və araşdırmalar sübut edir ki, Naxçıvan "Dədə Qorqud" qəhrəmanlarının əsas yaşayış məskənlərindəndir. Qədim Oğuz ellərinin mərkəzi hissəsində yerləşən Naxçıvan diyarında "Kitabi-Dədə Qorqud"la əlaqədar olan 50-dən artıq toponim mövcuddur. "Kitabi-Dədə Qorqud"la əlaqədar olan bu toponimlər Naxçıvan Muxtar Respublikasının əsasən üç zonasında:

*Arazboyu düzənlik və alçaq dağlıq sahədə* - Sədərək, Qaraçoban, Şərur, Böyükdüz düzləri, Qaraçuq kəndi, Dərəşam qədim yaşayış məntəqəsi, Dərəşam suyu, Qaradərədə;

*Orta dağlıq sahədə* - Əlincə qalası, Ağ qaya, Qazançı kəndi, Qazançı qalası, Qaraquç Dərbəndi, Məkkəz Dəıbəndi, Sirab Dərbəndi, Günortac (Günorta daşı) Qaradaşda;

*Yüksək dağlıq sahədə* - Ağ qaya, Salaxan qayası, Qaraquç (Qaraquş) dağı, Qazan yaylağı, Altuntaxt, Buğaçeşnıə, Köksü gözəl, Göy dağ (Göycə dağ), Göy Göl, Qazan göl aşırımı, Qazangöl dağı, Qazanköç yaylağı, Qazan yurdu və bununla bilavasitə əlaqədar olan Nəbi yurdu, Gəmiqaya və s. yerləşir.

Tarixi materiallar, coğrafı adlar, xalq arasında yaşayan əfsanələr sübut edir ki. qədim Naxçıvan diyarı Azərbaycan torpağıdır, “Kitabi-Dədə Qorqud” qəhrəmanlarının yurdudur, vətənidir.

Yuxarıda qeyd olunanları əsas tutaraq *qərara alıram:*

1. Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində Təbriz küçəsi ilə Azadlıq prospektinin kəsişdiyi sahədəki meydan “Dədə Qorqud” meydanı adlandırılsın.

2. “Dədə Qorqud” meydanının milli arxitekturaya uyğun tematik planı hazırlansın.

3. Meydanda “Dədə Qorqud”a abidə qoyulsun».

Qeyd edək ki, “Dədə Qorqud” meydanı da, Qorqud atanın abidəsi də başqa şəhərlərdən – hətta Bakıdan tez Naxçıvanda və yüksək səviyyədə yarandı. Bu Naxçıvan rəhbərinin və bütövlükdə naxçıvanlıların ulu keçmişimizə milli-mənəvi dəyərlərimizə coşğun sevgisindən xəbər verir.

Qeyd edək ki, Respublika Prezidentinin sərəncamında “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyi ilə Naxçıvan Muxtar Respublikasının 75 illiyi yubileyinin keçirilməsi də göstərilmişdi. Bu, Muxtar Respublika rəhbərliyindən daha gərgin işləməyi tələb edirdi. Muxtar Respublika rəhbərliyi bu məsələnin də öhdəsindən uğurla gəldi. Əvvəlcə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr edilmiş böyük təntənəli yubiley iclası keçirildi. Bu böyük məclisdə Azərbaycan Prezidenti cənab Heydər Əliyev və Azərbaycanın diplomatik münasibətdə olduğu 34 ölkənin nümayəndəsi iştirak edirdi. Muxtar Respublika Ali məclisinin sədri Vasif Talıbov ölkənin 75 ildə keçdiyi tarixi inkişaf yolunu dolğun şəkildə elmi əsaslarla toplantı iştirakçılarına çatdırdı.

Ondan bir gün sonra “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyi və Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə elmi konfrans

keçirildi. Burada da Muxtar Respublika rəhbəri prezidentinin sərəncamı ilə bağlı "Dədə Qorqud" haqqında çıxış etdi. Bu çıxış o qədər dolğun və elmi cəhətdən əsaslandırılmışdı ki, xarici alimlər və diplomatlar qısqanmağa başlamışdı. Məruzə çox maraqlı məqamlarla yadda qaldığı üçün oradan sitatı bir qədər geniş vermək yerinə düşərdi. O deyirdi:

*"Möhtərəm Heydər Əliyevin rəhbərliyi altında yüksək dövlət və beynəlxalq səviyyədə aparılan bu tədbirlər sistemli şəkildə müstəqillik düşüncəsinin dərinləşməsinə və qüvvətlənməsinə xidmət göstərir, dünya ictimai və elmi fikri qarşısında tarixi həqiqətləri bir daha təsdiqləyir. Haqlı olaraq siyasi düşüncə və milli fikir tariximizin özünəqayıdışının, genişmiqyaslı və hərtərəfli intibahın banisi sayılan möhtərəm Heydər Əliyevin "Dədə Qorqud" dastanının və Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikasının yubileyləri ilə əlaqədar fərmanları tarixi və siyasi əhəmiyyətinə görə biri digərini tamamlayır. "Kitabi-Dədə Qorqud" dastanına və Naxçıvan Muxtar Respublikasının tarixinə münasibət 1970-ci illərə qədər birmənalı olmamışdır. Keçmiş Sovetlər Birliyinə xas elmi və siyasi mühitdə Naxçıvanın tarixini saxtalaşdırmaq kimi bir mərkəzdən idarə olunan qərəzli proseslər getdiyi kımi, "Kitabi-Dədə Qorqud" dastanı da bu dövrün repressiyasına məruz qalmışdır. Dastan xalqdan gizlədilir, onun xalqın yaddaşından*

*silinməsinə cəhdlər göstərilirdi. 1930-cu ilin əvvəllərində "Dədə Qorqud" dastanı ittiham olunmuş və qadağan edilmişdir. Xalqın keçmişinə ögey münasibət 60-cı illərin ortalarına qədər davam etmişdir. 1951-ci ildə Azərbaycan Kommunist Partiyasının 17-ci qurultayına hesabat məruzəsində deyilirdi: "Dədə Qorqud" kitabı başdan-başa soyğunçuluq və qarət məqsədi ilə Azərbaycana gələn oğuz köçəri tayfalarının hakim yuxarı təbəqəsini tərifləməyə həsr edilmişdir. Bu kitab tamamilə millətçilik zəhəri ilə doludur. Mütəmadi olaraq başqa xalqlara, əsasən qardaş erməni xalqına qarşı yazılmışdır". Bu fikirlərin arxasında dayanan erməni daşnak üslubu bəllidir. Məhz bu siyasət Azərbaycan xalqının qədim tarixini yaxına buraxmır, Naxçıvanı özününküləşdirir, "Dədə Qorqud" dastanını tarixi vətənindən - Azərbaycandan kənara çıxararaq ona uzaqbaşı ümumtürk mədəniyyəti yarlığı vururdu.*

*Azərbaycanın o zamankı rəhbərlərinin qarşısını ala bilmədiyi, əksinə bir çox məqamlarda rəvac verdikləri bu əyalət-müstəmləkə təfəkkürü xalqa ziyan vursa da, daşnak Ermənistanın xeyrinə torpaqlarımızın itkisi ilə nəticələnsə də, çox yaşaya bilmədi. Möhtərəm Heydər Əliyevin 1969-cu ildə Azərbaycanın siyasi rəhbərliyinə gəlişi ilə haqq-ədalət, tarixi gerçəklik öz yerini tutdu, Azərbaycanın siyasi və iqtisadi mühitində yeridilən daşnak siyasətinin qarşısı qətiyyətlə alındı. Məhz bu tarixdən başlayaraq Azərbaycan Respublikası özünün ikinci ömrünü yaşamağa başladı.*

*Məhz bu tarixdən etibarən "Kitabi-Dədə Qorqud" dastanının sistemli şəkildə elmi tədqiqinə başlandı...*

*Millətimizin qədim məişəti, mənəviyyatı və əxlaqı, dövlətçilik və dini görüşlərin bir sistem halında əks olunduğu bu əvəzsiz sənət abidəsı dünyada bənzəri olmayan tarixi və ədəbi faktdır. Görkəmli türkoloq Məhəmməd Fuad Köprülü haqlı olaraq yazırdı ki, əgər türk xalqları ədəbiyyatının bütün əsərləri tərəzinin bir gözünə, "Dədə Qorqud" o biri gözünə qoyulsa, yenə də "Dədə Qorqud" tərəfi ağır gələr. "Dədə Qorqud" dastanı haqqında möhtərəm Heydər Əliyevin fərmanının tarixi rolu və əhəmiyyəti bir də onunla ölçülür ki, bu fərman uzun illər elmi mübahisə predmeti olan iki məsələni - dastanın vətəni və yaşı məsələsini əbədi olaraq həll etdi. Bu, milli-siyası düşüncə, etnoqrafiya və ədəbiyyat tarixi qarşısında möhtərəm Prezidentımızın gördüyü ən böyük tarixi xidmətlərdən biridir. Məhz bu fərmanla 1300 yaşlı dastana Azərbaycançılıq möhüru vuruldu. Bu, çox elmi hünər və siyasi iradə tələb edən işdir. Xalqımızın bu günü və gələcəyi üçün əvəzsiz tarixi rol oynayan müdriklik nümunəsidir".* (27, səh.90–93)

Bu məruzəsində cənab Vasif Talıbov özünün vətənsevər bir siyasət xadimi, milli-mənəvi dəyərləri göz bəbəyi kimi qoruyan bir vətəndaş, tariximizin, milli mentalitetimizin gözəl bilicisi kimi özünü təqdim etdi. Bu mövzudan daha geniş bəhs etmək olardı. Amma milli-mənəvi dəyər xarakteri daşıyan

başqa cəhətlərdən də bəhs etmək lazım gəlir. Bunlardan biri də Naxçıvanın tarixi memarlıq abidələridir ki, bunların bərpası, qorunması yolunda Naxçıvanın yurdsevər rəhbəri çoxlu əmək və səy göstərir.

Naxçıvan Muxtar Respublikasının rəhbəri bu diyarın qədimliyi, mədəniyyətin müxtəlif növləri ilə zənginliyi üçün iftixar duyur, onlarla fəxr edir, onlara hər cür qayğı göstərir. Bu qayğının əməli sübutu Ali Məclis sədrinin 7 dekabr 1999-cu il tarixdə imzaladığı "Naxçıvan Muxtar Respublikasında tarixi abidələrin bərpası fondunun yaradılması haqqında"kı fərmandır. Fərmanda cənab sədr Naxçıvanın qədim və mədəni keçmişi, tarixi-mədəni abidələri haqqında bəhs edir və onların qorunması üçün yollar göstərir. Sərəncamda deyilir: *"Qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycanın tarixində Naxçıvanın özünəməxsus rolu mövqeyi və yeri olmuşdur. Naxçıvan tarixi İpək yolu üzərində yerləşməklə Azərbaycan ərazisindəki qədim dövlətlərin tərkibində strateji əhəmiyyəti və geosiyasi mövqeyi ilə həmişə fərqlənmişdir.*

*Möhtərəm prezidentimiz Heydər Əliyev məhz bu haqda belə demişdir: "Öz əlverişli coğrafi mövqeyi, təkrarolunmaz mədəniyyət və incəsənət abidələri, istedadlı alim və ədibləri ilə seçilən bu diyar dünyanın bir çox tarixçi, səyyah və alimlərinin diqqətini cəlb etmiş, onların əsərlərində dərin iz qoymuş və özünəməxsus yer tutmuşdur".*

*Dünya sivilizasiyasına dəyərli töhfələr verən bu müqəddəs torpaq, qədim, orta əsrlər və yeni dövr tariximizin izlərini özündə əks etdirən nadir maddi mədəniyyət və bədii memarlıq abidələri ilə zəngindir. Məlumat abidənin tarixi və mövcud yeri dəqiq göstərilmişdir…*

*Eradan əvvəl II-I minilliyə aid olan Oğlanqala və Govur qalaları, eradan əvvəl VIII əsrə aid olan Əshabi-Kəhf, eradan əvvəl V əsrə aid olan Daşqala mağarası, orta əsrlərə aid Külüs qalası, Fərhad evi, Buzxana, Xaraba Gilan abidələri, Əcəmi Naxçıvaninin ucaltdığı Yusif Küseyir türbəsi (1162) və Mömin Xatun (1186) məqbərəsi, Gülüstan (XII əsr) və Qarabağlar türbə kompleksləri (XIII və XIV əsrlər), Nəiminin məqbərəsi (XIV), İmamzadə məscid və məqbərə kompleksi (XVII əsr), Aza körpüsü ( 1826-cı il), Xan evi ( XIX əsr) kimi təkrarsız memarlıq nümunələri və arxeoloji abidələr bu diyarın tarixin səhifələrinə vurduğu özünütəsdiq möhürü və daş pasportudur.*

*Yuxarıda göstərilənləri əsas tutaraq qərara alıram:*

*1. Naxçıvan Muxtar Respublikasında tarixi abidələrin bərpası fondu yaradılsın”.* (27, səh.94–95)

Sərəncamın müəllifi özü qeyd etdiyi kimi, dövlətin belə bir fondu yaratmağa maddi imkanı yox idi. Amma tariximizə, tarixin daş yaddaşı, yadigarı olan abidələrimizə qayğı lazımdır. Belə bir şəraitdə vəsait

tapmaq üçün mənbələr axtarmaq özü böyük vətəndaş cəsarəti və məhəbbəti tələb edirdi. Milli-mənəvi dəyərlərimizin çoxu Sovet dönəmində qadağan olunmuş, bunun üçün də unudulmuşdu. Bunların tapılıb üzə çıxarılması, mövzular üzrə bölünməsi, qorunması işi böyük vətəndaşlıq qeyrəti, elmi səriştə tələb edir. Ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində – xüsusilə 1993-cü ildən sonra bu sahəyə diqqət artırıldı. Bu işlər Naxçıvanda da sürətləndi. Ali Məclis sədrinin təşəbbüsü və yaxından iştirakı ilə "Naxçıvanın tarixi və abidələri" mövzusu ətrafında axtarışlar genişləndirildi. Artıq 2007-ci ildə "Naxçıvan: tarixi və abidələri" kitabı hazır idi. Görkəmli alimlərin və şəxsən Ali Məclis sədrinin səyi nəticəsində ərsəyə gələn bu kitab 20 xəritəni və 260 şəkil və illustrasiyanı əhatə edir ki, bunların 189-u tarixi-memarlıq abidəsi – xalqımızın mənəvi dəyərlər simvoludur. 2007-ci ildə kitabın geniş təqdimat mərasimi keçirilmişdir. Mərasimin daha böyük məna kəsb etməsi üçün həmin toplantı Ulu öndər Heydər Əliyevin doğum gününə (84-cü ildönümünə) təyin edilmişdi. Təqdimat mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbov böyük nitq söyləmişdir. Natiq kitabın nəşrini yüksək qiymətləndirərək demişdir:

"Naxçıvan: tarixi və abidələri" kitabı maraqlı tərtibat quruluşuna malikdir. Kitab iki hissədən ibarətdir: "Naxçıvan ən qədim zamanlardan muxtariyyət dövrünədək" və "Naxçıvan Muxtar

Respublikası 1924-cü ildən bizim günədək”. Muxtar Respublikanın keçdiyi inkişaf yolunun ayrı-ayrı dövrlər üzrə izləndiyi kitabda önəmli cəhətlərdən biri də budur ki, hər səhifədə Azərbaycan dilində mətnin qarşısında ingilis dilində tərcümə materialı yerləşdirilmişdir. Bu isə deməyə əsas verir ki, “Naxçıvan: tarixi və abidələri” kitabı təkcə Azərbaycan oxucusu üçün yox, eyni zamanda əcnəbi tədqiqatçı və oxucular üçün də nəzərdə tutulmuşdur.

“Naxçıvan: tarixi və abidələri” kitabında Naxçıvan torpağının yetişdirdiyi görkəmli şəxsiyyətlər - ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkir oğlu Naxçıvani, dahi Azərbaycan alimi, ensiklopediyaçı mütəfəkkir Nəsirəddin Tusi, Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan Cəlil Məmmədquluzadə və Hüseyn Cavid və digər görkəmli şəxsiyyətlər barədə ayrıca oçerklərin verilməsi oxucu marağının daha dolğun ödənilməsinə xidmət edir. (27, səh.273)

Milli-mənəvi dəyərlər sistemində tarixi abidələrin xüsusi rolunu ümummilli liderimiz Heydər Əliyev həmişə, dönə-dönə xatırlatmışdır. O, göstərirdi ki, gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyələnməsi üçün indiki gənclər öz tarixini yaxşı bilməli, yaşlı nəsil isə ulu tariximizi təhriflər girdabından qurtarıb olduğu kimi gələn nəsillərə çatdırmalıdır. O, deyir: *“Naxçıvan Azərbaycanın*

*gozəl bir guşəsidir. Naxçıvan Azərbaycan xalqının qədiın tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan böyük şəxsiyyətlər yetişdirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır…"*

Ümummilli liderimiz demişdir: *"Naxçıvanın qədim tarixi var. Ancaq Azərbaycanın, millətimizin, Azərbaycan xalqının qədimliyini, dərin köklərini, zəngin mədəniyyətini və ulu babalarımızdan bizə gəlib çatmış irsi daha dərindən dərk etməyin, daha yaxşı bilməyin, şübhəsiz ki, bugünkü və gələcək nəsillər üçün çox əhəmiyyəti vardır. Bütün Azərbaycanda, o cümlədən Naxçıvanda bu tədqiqatlar aparılmalıdır, bu işlər görülməlidir..."*

Ulu öndərin bu göstərişlərindən sonra Naxçıvanda geniş elmi-tədqiqat işləri aparmaq üçün Ali Məclisin sədri xüsusi sərəncam verdi. Alimlər və əlaqədar təşkilatlar bu işi qısa bir zaman sürəcində həyata keçirdi. Qeyd etməlidir ki, işin gedişi həmişə Ali Məclis sədrinin nəzarətində olurdu. Əslində "Naxçıvan: tarixi və abidələri" kitabı. Bu ensiklopediya üçün müəyyən "dəsturul-əməl" yəni fəaliyyət proqramı istiqaməti olmuşdu. Bununla belə bu kitablar sonra aparılan tədqiqatlar, keçirilən simpoziumlar ensiklopediyanın yolunu işıqlandırırdı. Ali məclis sədrinin şəxsi tapşırığı əsasında hazırlanan "Uluslararası qaynaqlarda Naxçıvan" adlı iri həcmli sənədlər toplusu, bir-birini mövzu etibarilə sanki tamamlayan çoxlu simpoziumlar, orada səsləndirilən

elmi mülahizələr, Naxçıvan diyarı üzərində aparılan toponimik, arxeoloji, coğrafi tədqiqatlar öz bəhrəsini vermişdi. Bir də belə tədqiqatlar ona görə səmərəli olurdu ki, onlar heç bir bolşevik-kommunist qadağaları çərçivəsində deyil, milli və elmi maraqlar istiqamətində aparılırdı. Bundan əlavə, həmin illərdə Naxçıvanda artıq məlum olan (sovet dönəmində dağıdıla bilməyən, qadağa qoyula bilməyən) məşhur abidələrin, demək olar ki, hamısı bərpa və konservasiya edilmişdi. Belə ki, XII əsrin yadigarı olan Möminə xatun və Qarabağlar memarlıq abidələr kompleksi bərpa edilmiş, əvvəllər yasaqlanmış Əshabi-Kəfh, İmamzadə, Zaviyə-mədrəsə ziyarətgahları, Şərq hamamı, Yusif Kuseyir oğlu abidəsi, XVIII-XIX əsr abidələrindən Xan Sarayı, Ordubadda Aza Körpüsü, Qədim Zorxana, Culfada Xanəgah kompleksi bərpa edilmişdir. Xalqımızın qədim inanclarından olan, qəbristanlıqda qoyulan qoç heykəlləri toplanmış qorunmaq üçün siyahılaşdırılmışdır. Gəmiqaya rəsmlərinin deşifrofkası həyata keçirilmiş, bir neçə dəfə oraya elmi ekspedisiyalar ezam olunmuşdur. Bütün bunlar "Naxçıvan abidələri ensiklopediyası"nın meydana gəlməsinə yol açmışdır.

"Naxçıvan abidələri ensiklopediyası"nın təqdimat mərasimində çıxış edən Ali Məclis sədri həmin ensiklopediyanın yaranma zərurəti, yaranma prosesi, elmi dəyəri haqqında xüsusilə deyirdi: *"Bu gün qədim Naxçıvan torpağı antik, orta əsrlər və miiasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə, ilk*

*insanların yaşadıqları mağaralar, qədim yaşayış yerləri, erkən şəhər mədəniyyəti, möhtəşəm qala divarları, qayaüstü rəsmlər, daş qoç heykəlləri, xatirə memarlığının ən mükəmməl nümunələri sayılan türbələr və digər abidələrlə zəngindir. Naxçıvandakı Qazma, Kilit mağaraları ulu əcdadlarımızın daş dövrü mədəniyyətinin qalıqlarını yaşatmaqdadır. Dördüncü minilliyin sonu, ikinci minilliyin əvvəllərində Naxçıvan ərazisində Oğlanqala, Çalxanqala, Govurqala kimi müdafiə-istehkam və şəhər tipli yaşayış məntəqələri yaranmışdır. Gəmiqaya qayaüstu rəsmləri eradan əvvəl dördüncü-birinci minillikdə xalqımızın bədii təfəkkürünü, adət-ənənələrini və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli rəsmlər qalereyasıdır. Ensiklopediyada verilmiş arxeoloji materialların və abidələrin təhlili göstərir ki, Naxçıvanda insanlar daş dövründən məskən salmış, eradan əvvəl üçüncü minillikdə, yəni təqribən beş min il bundan əvvəl şəhər dövlətlər, o cümlədən Naxçıvan şəhəri formalaşmışdır.*

*"Naxçıvan abidələri" ensiklopediyasının 2 dildə - Azərbaycan və ingilis dillərində hazırlanması onun əhəmiyyətini xeyli dərəcədə artırmışdır. Bu, imkan verir ki, dünya ictimaiyyəti, Naxçıvanla, onun tarixi və abidələri ilə maraqlanan tədqiqatçılar, bütövlükdə geniş oxucu kütləsi buradakı məlumatlarla ilkin mənbə kimi tanış ola bilsin. Bu mənada ensiklopediyanın müxtəlif ölkələrin elmi müəssisə-*

*lərinin və ali məktəblərinin kitabxanalarına göndərilməsi zəruridir.*

*Ensiklopediyada abidələrin şəkillərinin və bərpa nümunələrinin verilməsi, sxematik planlarından istifadə edilməsi, qədim kitabələrin təsvirlərinin göstərilməsi onun elmi əhəmiyyətini daha da artırır. Bu ensiklopediya Naxçıvan tarixşünaslığı üzrə bundan sonrakı tədqiqatlar üçün sanballı mənbə rolunu oynayacaq, gələcəkdə Naxçıvanın arxeologiyasını və tarixini öyrənmək istəyən alimlər, gənc tədqiqatçılar ilk mənbə kimi "Naxçıvan abidələri" ensiklopediyasına müraciət edə biləcəklər. Fikrimizcə, ensiklopediya ali məktəblərdə tədris olunmalı, kütləvi informasiya vasitələri ilə geniş təbliğ edilməlı, bu kitab əsasında ayrıca olaraq "Naxçıvan abidələri" internet səhifəsi yaradılmalıdır".* (27, səh.381–382)

Milli-mənəvi dəyərlər sistemində muzeylərin xüsusi əhəmiyyəti vardır. Çünki muzeylərin maddi-tarixi, milli-mədəni, etnik-siyasi, ədəbi-bədii, sosial-elmi eksponatları mühafizə etmək imkanı daha çoxdur. Yeri gəlmişkən göstərmək istərdik ki, Avropa bu cəhətdən daha irəli getmişdir. İstər yazılı abidələr, istər tarixi sənədlər Avropa muzeylərinə daşınıb aparılmışdır. Elə bizim türk xalqlarının abidələrini götürsək, deyə bilərik ki, bizim abidələrimiz Avropa muzeylərində özümüzdən daha çoxdur. Fikrimizi qüvvətləndirmək üçün aşağıdakı suallara cavab axtaraq:

-Aşur Banipalın kitabxanası hardadır?

-Saxsı üzərində yazılmış Bilqamıs dastanları haradadır?

-"Kitabi-Dədə Qorqud"un nüsxələri hardadır?

-Astiaq haqqındakı əfsanə hardadır?

Bu sualların sayını çoxaltmaq olar. Çünki Şərqdə elmi, tarixi əsərə Qərb qədər qiymət verilməmişdir. Ona görə də Şərq alimlərinin (İbn Sinanın, Nəsrəddin Tusinin, Əl Kindinin və s.) kəşfləri dünyaya bildirilib geniş istifadə və təbliğ edilməmişdir.

Bundan əlavə, türklərdə bir çox hallarda tarixi hadisələri, elmi mülahizələri qeyd etməyi lazım bilməmişlər. Bu səbəbdən də biz öz tariximizi təəssübkeş erməni, fars, yunan və s. mənbələrdən öyrənməli oluruq. Muzey milli mənəviyyatın xəzinəsidir. Buna görə də muzeylər şəbəkəsi yaratmaq böyük tarixi əhəmiyyəti olan işdir. Muzeylərin əhəmiyyəti sovetlər dönəmində də məlum idi. Amma bu, yalnız xristian dünyası üçün idi.

Müstəqilliyin xalqımıza verdiyi ən böyük nailiyyətlərdən biri də milli qürur mənbəyimiz olan keçmişimizin canlandırılması, əyani şəkildə nümayiş etdirilməsidir ki, bu sahədə muzeylərin əvəzsiz əhəmiyyəti vardır. Naxçıvan bu sarıdan da öncüllər sırasındadır. Naxçıvanın yurdsevər rəhbərliyi bu diyarda geniş muzeylər şəbəkəsi yaratmışdır. Məlumdur ki, muzeylər öz xarakterinə görə müxtəlif olur. Məsələn, tematik muzeylər – xalçaçılıq muzeyi, ədəbiyyat muzeyi, silah muzeyi və s.

-ümumi elmi-ədəbi muzeylər: ədəbiyyat muzeyi, tarix muzeyi

-bu və ya digər böyük şəxsiyyətin həyat və fəaliyyətindən bəhs edən muzeylər

-açıq səma altında təbii muzeylər və s.

Naxçıvanda demək olar ki, bunların hamısı vardır. Olmayanlar üçün Naxçıvan rəhbəri xüsusi qayğı göstərərək, sərəncamlar verərək özü yaradır. Bunlar haqqında qısaca bəhs etmək istərdik.

Naxçıvan MR Ali Məclisinin sədri bütün dünyada məşhur olan Möminə xatun türbəsinin özündə və ətrafında apardığı təmizlik və quruculuq işləri hamının heyrətinə səbəb olur. Müstəqillik illərində bura kiçik bir parkdan-ziyarətgahdan geniş bir seyrəngaha çevrilmiş, bir sıra maddi-mədəni abidələrlə zənginləşdirilərək açıq səma altında geniş bir muzeyə çevirilmişdir. İldən-ilə genişlənən mədəni-tarixi quruculuq işləri sayəsində Muxtar Respublika ərazisində 450-dən çox abidənin yeri müəyyənləşdirilib siyahılaşdırılmış və qeydiyyata alınmışdır. Bütün bu işləri sistemləşdirmək, ümumiləşdirmək və məqsədyönlü istifadəyə yönəltmək üçün Ali Məclisin sədri 2002-ci il iyul ayının 11-də imzaladığı sərəncamla həm Əbubəkir Əcəmi oğlu Naxçıvaninin sənətinə, həm də buradakı digər maddi-mədəni, tarixi əhəmiyyətli abidələrə hər gün minlərlə vətəndaşın və xarici turistin heyrətlə tamaşa etməsi üçün açıq səma altında muzey yaradılmışdır. Açıq səma altında yaradılmış muzey

xalqımızın qədim və zəngin keçmişindən bəhs etdiyi kimi, öz zənginliyi və qədimliyi ilə bəzi bədnam qonşularımızı qısqandırır, qıcıqlandırır. Əcəmi seyrəngahına açıq səma altında yaradılmış muzeyin təşkili haqqındakı sərəncamda Naxçıvan MR Ali məclisinin sədri öz tarixi keçmişi ilə fəxr edən vətənpərvər, yurdsevər insan kimi diqqəti cəlb edir. Sərəncamın preambulasında oxuyuruq: *"Müasir tarixşünaslığın tələbləri baxımından tədqiqini gözləyən sahələrdən biri də azərbaycanlıların yaşadıqları ərazilərdə geniş yayılmış qədim qoç heykəlləri, qəbirüstü abidələr və daş üzərində oymalardır.*

*Qoç heykəlləri, qəbirüstü abidələr, daş üzərində oymalar Azərbaycanlılarda ən qədim mifoloji və dini baxışlarla bağlı olmuşdur. Bunlar xalqımızın qədim mədəniyyətindən nümunələr olmaqla bərabər, eyni zamanda estetik təsir bağışlayan sənət əsərləridir.*

*Gülüstan və Türkmənçay müqavilələrindən sonra Naxçıvana köçürülmüş ermənilərin qədim Azərbaycan torpağını "erməniləşdirmək" sahəsində apardıqları siyasətin bir istiqaməti də daşdan yonulmuş mədəniyyət nümunələrimizin dağıdılmasından ibarət olmuşdur".* (27, səh.118)

Yuxarıda dediyimiz kimi, muzeylərin bir növü də tarixi-memarlıq muzey kompleksidir. Xalqın keçmişini, mənəvi dünyasını, qəhrəmanlığını, adət-ənənəsini, məişət-tərzini, hətta mədəni səviyyəsini memarlıq nümunələri gözəl əks etdirir. Yuxarıda

dediyimiz kimi, Naxçıvan ərazisində 450-çox belə abidə vardır. Amma bəzən bu abidələr dağınıq halda olduğu kimi, bütöv, küll halında da mövcud olur. Hər ikisi xalq üçün onun tarixi, mədəniyyəti üçün eyni dərəcədə əhəmiyyətlidir. Naxçıvanda belə abidələr çox olduğu üçün də muzey komplekslər də çoxdur. Bunlardan biri də "Naxçıvanda tarix-memarlıq" muzeyidir. Muzeyin yaradılması haqqında Naxçıvan MR Ali Məclisinin sədri 5 iyun 2013-cü ildə Sərəncam vermişdir. Muzeyin tarixi əhəmiyyəti onun tarixinin 7500 ilə qədər olmasıdır. Çünki "Naxçıvanqala"nın divarlarına lap yaxın yerdə Nuh peyğəmbərin məzarı vardır. Deməli, Nuh Peyğəmbər Naxçıvanqalada dəfn olunmuşdur. Bu tarixi memarlıq muzey kompleksi haqqında dərin məlumatı sərəncamın müəllifi sənədin preambulasında verir: *"Yaradılmış memarlıq abidələri içərisində qalaların özünəməxsus yeri var. Onlardan biri də Naxçıvanqaladır. Aparılmış tədqiqatlar göstərir ki, Naxçıvanqala təkcə müdafiə məqsədi daşımamış, eyni zamanda bu tarixi ərazidə formalaşmış ilkin şəhər mədəniyyətinin də ayrılmaz elementinə çevrilmişdir.*

*İlk orta əsrlərə aid mənbələrdə Naxçıvan şəhəri ətrafı möhkəmləndirilmiş qala kimi xarakterizə edilmişdir. Naxçıvan şəhərinin 1827-ci ilə aid planında Naxçıvanqalanın sxematik təsviri verilmişdir. Plana əsasən qala iki hissədən - kiçik qala (Narınqala) və Böyük qaladan ibarətdir. Narınqalanın qalıqları günümüzədək qorunub saxlanmışdır. Qala divarları*

*daş qatışığı olan möhrədən inşa edilmiş, yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Yaşayış binaları əsasən, qala divarları boyunca salınmış, onların üstündən döyüşçülərin və qala keşikçilərinin hərəkət etməsi üçün istifadə olunmuşdur. Naxçıvanqalanın aitından keçən kəhrizlər istər dinc, istərsə də mühasirə və müharibə dövrlərində qala sakinlərinin su ilə təminatına, eləcə də ərzaq məhsullarının saxlanmasına şərait yaratmışdır.*

*Ötən əsrin ortalarında Naxçıvanqalada aparılmış tədqiqatlar zamanı zəngin arxeoloji materiallar, saxsı qablar və Tunc dövründə (eradan əvvəl 3-2-ci minilliklər) duz mədənlərində əmək aiəti kimi istifadə olunmuş daş gürzlər aşkar edilmişdir. Qeyd olunanlar sənətkarlığın inkişaf etdiyi və şəhər mədəniyyətinin formalaşdığı tarixi-etnoqrafik ərazilərdən biri kimi Naxçıvanqalanın əhəmiyyətini daha da artırır".* (30, səh.10)

Yuxarıda dediyimiz kimi, xalqın tarixində özünəməxsus bir iz qoymuş görkəmli (dahi) şəxsiyyətlərin həyat və fəaliyyəti də sonrakı nəsillərə nümunə olsun deyə, onlarda milli vətənpərvərlik ruhunu formalaşdırıb inkişaf etdirsin deyə onların tarixi-memorial mənzil muzeyləri təşkil olunur. Belə muzeylər Naxçıvanda da yaradılmışdır. Məsələn,

1. Heydər Əliyev muzeyi 1999-cu ildə.

2. B.Kəngərlinin mənzil muzeyi 2011-ci ildə.

3. Şahtaxtinskilər muzeyi 2010-cu ildə.

4. Xan sarayı dövlət-tarix-memorial muzeyi 2010-cu ildə.

5. Naxçıvanşünaslıq mərkəzi 2011-ci ildə.

6. M.Arazın mənzil muzeyi 2013-cü ildə.

Milli-mənəvi dəyərlərin qorunub gələcək nəsillərə ötürülməsində onların yaranma tarixlərinin qeyd olunması – yubileyinin keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu cəhətdən bütün yubileyləri 3 qrupa bölmək olar.

1. Tarixi hadisələrin ildönümü-yubileyi.

2. Bu və ya digər təşkilat və müəssisənin yaranmasının ildönümü.

3. Görkəmli simaların anadan olmasının – doğum gününün qeyd edilməsi.

Bunların hər üçü barəsində Naxçıvanda sərəncamlar verilmiş və yubileylər keçirilmişdir. Birinci və ikinci bəndlərə aid aşağıdakıları qeyd etmək olar:

1. Naxçıvan şəhərindəki Tibb Texnikumunun 70 illiyi – 2010-cu ildə.

2. Naxçıvan MR 80 illik yubileyi – 2003-cü ildə.

3. Naxçıvan Musiqi Texnikumunun 30 illiyi – 2005-ci ildə.

4. 1941-1945-ci illər müharibəsinin 60 illiyi – 2005-ci ildə.

5. 28 may Respublika gününün 86 illiy – 2006-cı ildə.

6. Naxçıvan Dövlət Universitetinin 40 illiyi – 2007-ci ildə.

7. Şərur rayonundakı Cəlilkənd orta məktəbinin 120 illiyi – 2006-cı ildə.

8. Naxçıvan teatrının 125 illiyi – 2008-ci ildə.

9. Naxçıvan Həmkarlar Təşkilatı 40 illik yubileyi – 2008-ci ildə.

10. AXC 90 illik yubileyi – 2008-ci ildə.

11. Babək rayonunun 30 illik yubileyi – 2008-ci ildə.

12. Azərbaycan Silahlı Qüvvələrinin 90 illik yubileyi – 2008-ci ildə.

13. Naxçıvan MR 85 illik yubileyi – 2009-cu ildə.

14. Azərbaycanda diplomatik xidmətin 90 illiyi – 2009-cu ildə.

15. Azərbaycan Sərhəd Qoşunları yaradılmasının 90 illiyi – 2009-cu ildə.

16. Azərbaycan mətbuatının yaranmasının 135 illiyi – 2010-cu ildə.

17. Milli mətbuatın.

18. Alman fazişmi üzərindəki qələbənin 665-ci ildönümü – 2010-cu ildə.

19. Daxili qoşunların Naxçıvan alayının yaradılmasının 15 illiyi – 2001-ci ildə.

20. Naxçıvan Dövlət kitabxanasının 90 illiyi – 2012-ci ildə.

21. Yeni Azərbaycan Partiyası yaradılmasının 20 illiyi – 2012-ci ildə.

22. Milli Qurtuluş gününə həsr edilmiş tədbir – 2012-ci ildə.

23. 705 saylı hərbi hissənin yaradılmasının 20-ci il dönümü – 2012-ci ildə.

Bu, Naxçıvanda belə mövzuda keçirilən yubiley tədbirlərinin, heç də hamısı deyil. Bu yubileylərin hər biri haqqında ayrıca danışmağa dəyər. Çünki bu yubileylərin hamısı Ali Məclis sədrinin sərəncamı ilə keçirilmiş özü orada məzmunlu çıxışlar etmişdir. Fikrimizcə, bu, xüsusi araşdırma mövzusu olduğu üçün bunlardan mövzular üzrə yeri gəldikcə bəhs etmək daha effektli ola bilər.

Yuxarıda dediyimiz kimi yubileylərin 3-cü növü böyük-görkəmli şəxslərin anadan olmalarının ildönümünün qeyd edilməsidir. Bu mövzu vətənpərvərlik tərbiyəsi cəhətdən daha konkret daha önəmlidir. Bu sahədə də Naxçıvanda çox işlər görülmüşdür. Belə ki, 13 ildə Ali Məclisin sədrinin sərəncamı ilə 15 belə yubiley keçirilmişdir. Onlardan:

Böyük şəxsiyyətlərin yubileyləri haqqında bəhs etdiyimiz 18 ildə Naxçıvanda aşağıdakı şəxslərin yubileyi keçirilmişdi.

1. Heydər Əliyevin 75 illik yubileyi – 1997-ci ildə.

2. Z.Əliyevanın 75 illik yubileyi – 1998-ci ildə.

3. Lətif Hüseynzadənin 100 illik yubileyi – 2004-ci ildə.

4. M.Tağı Sidqinin 150 illik yubileyi – 2004-cü ildə.

5. Yusif Məmmədəliyevin 100 illik yubileyi – 2005-ci ildə.

6. Məhəmmədağa Şahtaxtlının 160 illik yubileyi – 2006-cı ildə.

7. Tofiq Bakıxanovun 75 illik yubileyi – 2007-ci ildə.

8. Hüseyn Cavidin 125 illik yubileyi – 2007-ci ildə.

9. Əziz Əliyevin 100 illik yubileyi – 2007-ci ildə.

10. Həsən Əliyevin 100 illik yubileyi – 2007-ci ildə.

11. Heydər Əliyevin 85 illik yubileyi – 2008-ci ildə.

12. Mir Cəlalın 100 illik yubileyi – 2008-ci ildə.

13. Cəlil Məmmədquluzadənin 140 illik yubileyi – 2009-cu ildə.

14. Bəhruz Kəngərlinin 120 illik yubileyi – 2012-ci ildə.

15. Heydər Əliyevin 90 illik yubileyir – 2013-cü ildə.

16. Məmməd Səid Ordubadinin 140 illik yubileyi – 2012-ci ildə.

17. İslam Səfərlinin 90 illik yubileyi – 2013-cü ildə.

18. Məmməd Arazın 80 illik yubileyi – 2013-cü ildə qeyd edilmişdir.

Bu siyahıda adları çəkilənlərdən Ulu öndər H.Əliyevin 1998-ci ildə 75 illik, 2003-cü ildə 80 illik, 2008-ci ildə 85 illik, 2013-cü ildə 90 illik yubileyi yüksək səviyyədə keçirilmişdir. Bu haqda bəhs edilmişdir.

Bundan əlavə Hüseyn Cavidin 125 illik yubileyi, Mir Cəlalın 100 illik yubileyi, M.S.Ordubadinin 140, Islam Səfərlinin 90, M.Arazın 80 illik yubileyləri haqqında ədəbiyyat bölməsində bəhs edilmişdir.

Yubileyləri qeyd edilən hər bir şəxs haqqında çoxlu məqalələr, monoqrafiyalar yazılmışdır. Hətta yubiley ərəfəsində bu şəxslərin özünəməxsus bir formada xalqımızın tarixində, mədəniyyətində yol açdığı, iz qoyduğu qeyd olunmuşdur. Bu yubilyarların hamısı haqqında Naxçıvan Muxtar Respublika Ali məclisinin sədri Vasif Talıbov xüsusi sərəncam vermiş, həmin sərəncamın preambulasında həmin şəxsin millət və vətən qarşısındakı xidmətləri lazımınca

dəyərləndirmiş və yubiley günü məruzə ilə çıxış etmişdir.

Bu yubilyar şəxsiyyətlər haqqında Naxçıvan rəhbəri Vasif Talıbovun hər bir fikri-tezisi-mülahizəsi yeni araşdırma üçün mövzu ola bilər. Buna görə də bu yubilyarlar və onlar haqqında Vasif müəllimin elmi mülahizələrinə qısa da olsa diqqət çəkmək zəruridir.

***Böyük şəxsiyyətlərin yubileyləri***

Yuxarıda dediyimiz kimi Naxçıvanda yubileyi keçirilən hər bir şəxs haqqında məqalələr, monoqrafiyalar, dissertasiyalar yazılmışdır. Bu yubilyarlar arasında eləsi yoxdur ki, bu və ya digər sahədə (öz sahəsində) müəyyən yol açıb pozulmaz bir cığır qoymamış olsun. Buna görə də onların hamısı öz xalqının siyasi və mənəvi mədəniyyət tarixinə əbədi daxil olmuşdur. Naxçıvan MR Ali Məclisinin sədri həmin şəxslərin yubileylərini keçirməklə bir neçə məqsəd izləmişdir.

1. Həmin şəxsin yaşadığı dövrdə siyasi, elmi və mədəni durum haqqında gənc nəslə yenidən məlumat vermək.

2. Həmin adamların zamanın qarışıq hadisələri içərisində itib-batmayaraq bir mayak kimi gələcəyə baxması, nümunə olması.

3. Həmin yubilyarın müasir – bugünkü günümüzlə səsləməsi.

4. Gənc nəslin mənəvi və ideya-tərbiyə cəhətdən Azərbaycançılıq məfkurəsi qazanmasına (və ya möhkəmlənməsinə) kömək etməsi və s.

Cənab Vasif Talıbov yuxarıda göstərilən yubilyarların hər biri haqqında öz orijinal fikirlərini

ifadə etmişdir. Buna görə də bu yubilyarların hansından bəhs edəcəyiksə məhz cənab Vasif Talıbovun fikrinə çox yer ayırmaq lazım gəlir. Çünki həmin fikirlər çox düşünülmüş və orijinaldır.

İndi yuxarıda adları çəkilən və naxçıvanda yubileyləri keçirilən görkəmli şəxsiyyətlərdən bir neçə haqqında qısa məlumat və cənab Vasif Talıbovun fikirlərinə diqqət edək:

**Heydər Əliyev** ilk baxışda belə görünə bilər ki, bu dahi şəxsiyyət barəsində yeni heç nə demək olmaz. Çünki onun bütün həyat və fəaliyyətini hamı bilir. Amma belə deyil. Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi, milli vətənpərvərlik ideyası, dövlət quruculuğu, ədəbi görüşləri, diplomatik və siyasi fəaliyyəti haqqında hələ çoxlu araşdırmalar aparılacaq, monoqrafiyalar dissertasiyalar yaranacaq. Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbova gəlincə o bu sahədəki strateji fəaliyyət istiqamətini 1995-ci il dekabrın 16-da Muxtar Respublikanın rəhbəri seçilərkən etdiyi birinci çıxışında belə müəyyən və elan etmişdir: *“1995-ci il dekabrın 16-da keçirilən Ali məclisin birinci sessiyasında bildirmişik ki, bizim bir platformamız, Naxçıvan Muxtar Respublikasında inkişafın bir yolu var: bu, möhtərəm Heydər Əliyevin yoludur!”*

Naxçıvan rəhbəri 19 ildə bir an bu vədi unutmamış bu yolla irəliləmiş və doğma yurdu da irəli aparmışdır.

Elə bir çıxışı, elə bir sərəncamı olmaz ki, cənab Vasif Talıbov Heydər Əliyev platformasına sadiq olduğunu sübut etməsin, məruzəsinin fəlsəfi metodoloji əsasını Heydər Əliyev konsepsiyası əsasında qurmasın.

Naxçıvan rəhbəri elə ənənə qoymuşdur ki. Burada hər şey ulu öndərin həyat və fəaliyyətindən xəbər verir. Burada küçə və meydan, mədəniyyət sarayı, muzey, park ulu öndəri hər an andırır.

1. Ali Məclis rəhbəri 1998-ci ildə ulu öndərin 75 illik yubileyinin keçirilməsi üçün 27 may 1987-ci ildə sərəncam vermiş və təşkilat komitəsi yaratmışdır. 6 bənddən ibarət tədbirlər planı da hazırlanmışdır.

2. Ulu öndərin xatirəsini əbədiləşdirmək məqsədilə Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun 11 iyun 2005-ci il tarixli sərəncamı ilə Naxçıvan MR mədəniyyət sarayına Heydər Əliyevin adı verilmişdir.

3. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının prezidenti 11 mart 2008-ci il tarixdə sərəncam vermişdi. Bu sərəncamın Naxçıvanda icrasını təmin etmək məqsədilə Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov 19 mart 2008-ci ildə sərəncam verdi və tədbirlər planını təsdiq etdi. Biz fəxr edir və minnətdarlıqla qeyd edirik ki, 10 may tarixində keçiriləcək yubiley təntənəsindən sonra bu sətrlərin müəllifi Adil Babayevin "Koroğlunun

Çənlibelə qayıdışı” tamaşasının göstərilməsi sərəncamın 4-cü bəndində öz əksini tapmışdır.

4. Ulu öndərin 90 illik yubileyinin keçirilməsi haqqında Respublika prezidenti cənab Ilham Əliyev 21 yanvar 2013-cü ildə sərəncam vermişdi. Həmin sərəncamın icrasını təmin etmək məqsədilə Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbov da 24 fevral 2013-cü ildə sərəncam imzaladı. Yubiley münasibətilə keçiriləcək geniş tədbirlər planı içərisində (9-cu bənddə) Adil Babayevin “Koroğlunun Çənlibelə qayıdışı” tamaşasının göstərilməsi də var idi (biz bununla qanuni qürur duyuruq). Sərəncamı 2013-cü il iyunun 15-dəki tamaşadan əvvəl Naxçıvan rəhbəri yubiley münasibətilə vermişdi.

1993-cü ilin 15 iyununa qədər Azərbaycan formal olaraq müstəqil dövlət idisə, həmin tarixdən sonra real müstəqilliyin əsası qoyuldu. 1993-cü ilə qədər Azərbaycanda hakimiyyətsizlik, siyası hərc-mərclik, vətəndaş qarşıdurması hökm sürürdüsə, həmin tarixdən sonrakı dövr ölkəmizda dövlət müstəqilliyinin möhkəmlənməsi ilə xarakterizə edilir.

1993-cü ildən sonra Azərbaycanın inkişafı göz qabağındadır. Əgər o vaxt Azərbaycanda xaos hökm sürürdüsə, bu gün Azərbaycanda sabitlikdir. O Azərbaycanda hərc-mərclik var idisə, bu gün Azərbaycanda əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdısa, bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən

ölkələrdən biridir. O vaxt Azərbaycanda total böhran hökm sürürdüsə, bu gün Azərbaycan qüdrətli ölkəyə çevrilmişdir.

Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası bu davamlı inkişafa nəyin hesabına nail olub? O hesaba nail olub ki, ölkəmizdə Heydər Əliyeb yolu, Heydər Əliyev quruculuq xətti dövlət başçısı hörmətli İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasi xəttə, seçilən yola sədaqət Azərbaycanımızı hərtərəfli inkişaf və tərəqqi yoluna çıxarmışdır. Zaman keçdikcə bu nailiyyətlər daha da artacaq. Çünki Azərbaycan düz yolla, haqq-ədalət yolu ilə, Heydər Əliyev yolu ilə gedir. Bu yol Azərbaycanı daha firavan həyata, işıqlı sabahlara aparır.

Bu yolda hamınıza uğurlar arzulayır və çıxışımı prezident İlham Əliyevin aşağıdakı fikirləri ilə tamamlayıram: *"Müasir tariximiz 1993-ğü ildən başlayır. O ildən Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Ulu öndərin xalq qarşısında göstərdiyi xidmətlər misilsizdir. Azərbaycan xalqı Heydər Əliyev sevgisini qəlbində yaşadır və yaşadacaqdır"*.

**Zərifə Əziz qızı Əliyeva** ulu öndərin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu, görkəmli oftalmoloq alim. Zərifə xanım ulu öndərin böyük işlərinin istedadlı davamçısı Respublikamızın sınaqdan dəfələrlə uğurla çıxmış, Azərbaycanın siyasi

mövqeyini dünya miqyasında daha da möhkəmlətmiş prezident Ilham Əliyevin anasıdır. Eyni zamanda Azərbaycanın görkəmli ictimai və siyasi xadimi Əziz Məmmədkərim oğlu Əliyevin qızıdır. Əziz Əliyev də çox böyük idarəçilik səriştəsinə və alimlik istedadına malik alovlu vətənpərvər idi. Onu hətta Moskvada da bacarıqlı dövlət xadimi kimi tanıyırdılar.

Zərifə xanımın yubileyləri Naxçıvanda 3 dəfə qeyd olunmuşdur.

05 fevral 1998-ci ildə 75 illik yubileyi haqqında, 15.01.2003-cü ildə 80 illik yubileyi haqqında, 15.04.2003-cü ildə 90 illik MR Ali məclis sədri sərəncamı olmuş və yubileyi keçirilmişdir.

İstər yubileylər münasibətilə verdiyi sərəncamlarda, istər çıxışlarında Naxçıvan rəhbəri Zərifə xanım Əliyevanı bir insan, bir alim, bir vətəndaş kimi yüksək qiymətləndirmişdir. Qeyd etmək yerinə düşər ki, Zərifə xanım haqqında H.Mirələmov sənədli kitab yazmışdır. Bundan əlavə, bu görkəmli insan haqqında onlarla məqalə yazılmış, yüzlərlə məruzə edilmiş, adı müəssisələrə verilmişdir. Təkrar demək istəyirəm ki, Zərifə xanım Əliyeva haqqında ən səmimi, dolğun, elmi məlumatı Vasif müəllimin məruzəsində tapmaq olar. Naxçıvan rəhbəri 15 aprel 2013-cü ildə alimin 95 illik yubileyi münasibətilə keçirilən tədbirdə etdiyi çıxışında deyirdi: *"Akademik Zərifə xanım Əliyeva alim, həkim, pedaqoq və insan kimi yaşadığı mənalı ömür, keçdiyi şərəfli həyat yolu nəsillərə mənəviyyat məktəbidir".*

Bu məktəb özünü ən layiqli qiymətini akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinin keçirilməsi ilə bağlı Azərbaycan Respubiikasının Prezidenti hörmətli İlham Əliyevin 2013-cü il 7 fevral tarixli Sərəncamında tapmışdır. Həmin Sərəncamda qeyd olunur ki: *"Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetismәsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir".*

Bu böyük şəxsiyyətin keçdiyi həyat yoluna nəzər salarkən aydın görmək mümkündür ki, elmi tədqiqatların bacarıql təşkilatçılığı, dərin elmi düşüncə və parlaq pedaqoji istedad onun şəxsində üzvi surətdə qovuşmuşdur. Böyüklüyündən-kiçikliyindən asılı olmayaraq məşğul olduğu sahələrin hamısı Zərifə xanımın istedadı və fədakarlığı sayəsində aparıcı istiqamətə çevrilmiş və bir nümunə səviyyəsinə qalxmışdır. Bu gün istisnasız olaraq demək mümkündür ki, Zərifə xanım Əiiyeva həm həkimliyin, həm alimliyin, həm pedaqoqluğun, bunlarla yanaşı isə həm də insanlığın ali zirvəsinə yüksəlmişdir.

Bütün bunlar nəyin hesabına qazanılmışdır? Şübhəsiz ki, şəxsiyyətin bütövlüyü əsas məsələdir. Filosoflar böyük insanların həyatdakı missiyasını təhlil edərkən birmənalı olaraq həmişə şəxsiyyətin

həyat yolunun başlanğıcına və sonuna diqqət çəkirlər. Zərifə xanımın həyat yolu işıqlı bir ailədən böyük ziyalı və dövlət xadimi Əziz Əliyevin ailəsindən və işıqlı bir kənddən, ustad Cəlil Məmmədquluzadənin "Sahib-mənsəb ziyalıların məskəni" adlandırdığı Şahtaxtı kəndindən başlanmışdır. İstər dünyaya göz açdığı ailənin, istərsə də doğulduğu kəndin maarifçi mühitinin ənənələrindən faydalanan Zərifə xanım öz həyat yolunu insanlara işıq bəxş etmək kimi ali keyfiyyətlər üzərində qurmuşdur. 1942-ci ildə orta məktəbdə təhsilini başa vurduqdan sonra bu arzu onu Azərbaycan Dövlət Tibb İnstitutuna gətirmiş, 1947-ci ildə həmin institutu bitirib, Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçmişdir.

Zərifə xanımın oftalmologiya ixtisasını seçməsinin bir neçə səbəbi var. Onlardan birincisi bu xeyirxah insanın həyatının fəlsəfəsindən - insanlara işıq, nur bəxş etmək missiyasından irəli gəlirdisə, ikincisi həmin dövrdə Azərbaycanda oftaimologiyanın az inkişaf etməsindən qaynaqlanırdı. Nəhayət, ən ciddi səbəblərdən biri də ikinci dünya müharibəsindən sonra keçmış SSRİ-də, o cümlədən Azərbaycanda traxoma göz xəstəliyinin geniş yayılması idi. O zaman Azərbaycanda "Traxoma ilə mübarizə haqqında" qərar qəbul edilsə də, nəticə görünmürdü. Çünki bu xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Oftalmoloq həkimlər çatışmırdı. Belə bir şəraitdə kəskın gedişə malik xəstəlik kimi traxomaya qarşı

mübarizə təkcə oftalmologiya elmı üçün yox, bütövlükdə dünya, o cümlədən Azərbaycan səhiyyəsi üçün də həyatı əhəmiyyətə malik idi. Sənədlərdən məlum olur ki, ötən əsrin ortalarında dünyada 40 milyona yaxın insan traxoma tutmuş, onlardan 8 milyonu kor olmuşdu. Azərbaycanda da xəstəlik ocaqları genişlənir, ən çox uşaq müəssisələrini, məktəbləri əhatə edirdi. 1948-ci ildə Naxçıvan Muxtar Respublikasında 7 min nəfər traxomaya yoluxmuşdu. Onlardan 2 mindən çoxu uşaqlar idi. Yaşlıları, o cümlədən uşaqları görmə qabiliyyətinin itirilməsi kimi əzablı xəstəlik gözləyirdi. Belə bir acınacaqlı vəziyyət tək Naxçıvan Muxtar Respublikasında yox, bütün Azərbaycanda ciddi həyacan siqnalının çalınmasına əsas yaratmışdı.

Moskva Mərkəzi Həkimləri Təkmilləşmə İnstitutunda təhsilini başa vuran gənc Zərifə xanım 1949-cu ildə Naxçıvanda traxomaya qarşı mübarizəyə həsr edilmiş səyyari seminarlarda iştirak etmiş, bu sahədə əldə etdiyi elmi və praktik nailiyyətlərin tətbiqinə nail olmuşdu.

Zərifə xanımın həyatda əsas amalı həkimlərimizi bilikli və peşəkar, millətimizi sağlam və gözü nurlu görmək idi. Onun zəngin elmi irsi, tədqiqatları, qazandığı nailiyyətlər, fundamental əsərləri Azərbaycan tibb elminin parlaq səhifəsini təşkil edir. Xalqımızın yetişdirib dünya tibb elminə bəxş etdiyi görkəmli alimin və istedadlı həkimin şəxsiyyəti bu gün də - ölkəmizin müstəqillik şəraitində yaşadığı

dövrdə də hər bir alimin və Hippokrat andını içmiş hər bir həkimin cəmiyyətdə oynamalı olduğu rola parlaq nümunədir.

Zərifə xanım əsl ana, vəfalı ömür-gün yoldaşı, ailəsinə qəlbdən bağlı olan insan idi. Ailə əsrlər boyu Azərbaycanda böyük mənəvi dayaq rolunu oynamışdır. Dəyanətli şəxsiyyət və dərin zəka sahibi olan Zərifə xanım ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı kimi bu çətin, lakin şərəfli missiyanı da layiqincə yerinə yetirən, ulu öndərə etibarlı mənəvı dayaq olan Şəxsiyyət və Ana idi. Bir-birini heyrətamiz şəkildə tamamlayan bu iki parlaq şəxsiyyətin ailə həyatı müasir Azərbaycan cəmiyyəti üçün bir nümunə, milli dəyəriərimizə sədaqətin nadir örnəyidir.

Akademik Zərifə xanım Əliyeva Azərbaycana Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dünya siyasətində öz nüfuzu və yeri olan İlham Əliyev kimi milli lider bəxş edən Ana kimi də unudulmazdır. Azərbaycan Prezidentinin ölkə səhiyyəsinə və elminə qayğısı, Azərbaycan xalqının sağlamlığının qorunması yolunda gördüyü işlər, ümumiyyətlə, ölkədə həyata keçirilən sosial yönümlü siyasət ulu öndərin müəyyən etdiyi siyasi xəttin uğurla davam etdirilməsinin parlaq təzahürüdür.

Görkəmli alim, həkim, nurlu şəxsiyyət Zərifə xanım Əliyevanın işıqlı obrazı nəsillərin yaddaşında yüksək vətənpərvərlik və humanizm rəmzi kimi qalacaqdır. Ulu öndər Heydər Əliyevin dediyi kimi: *"Ömür*

*yoldaşım kimi, həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır”.* (30, səh.28-32)

## Ə.M.Əliyevin 110 və Həsən Əliyevin 100 illikləri

Azərbaycanın görkəmli dövlət və elm xadimləri Əziz Əliyevin 110 və Həsən Əlirza oğlu Əliyevin 100 illik yubileyi Naxçıvanda da geniş qeyd olunmuşdur. Bu iki görkəmli şəxsin yubileylərinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 5 dekabr 2006-cı il, 1 fevral 2007-ci il tarixli sərəncamı ilə gerçəkləşdi. Hər iki görkəmli şəxsiyyət bir alim, dövlət xadimi, idarə, hətta respublika rəhbəri yubileylərinin birgə qeyd edilməsi də rəmzi xarakter daşıyır. Təkcə ona görə yox ki, hər ikisi görkəmli alim və dövlət xadimi olmuşlar, habelə onların taleyində ümumi cəhət çox olmuş və bundan əlavə yaxın qohum olmuşlar. Yaşca daha böyük olan Əziz Məmmədkərim oğlu Əliyevi cənab Vasif Talıbov belə xarakterizə edirdi:

*“Professor Əziz Əliyev gənc yaşlarından həkim köməkçisi kimi əhaliyə tibbi xidmət göstərmiş, fəal ictimai-siyasi iş aparmış, Xalq Komissarları Sovetində müxtəlif vəzifələrdə çalışmışdır. Sıravi həkimdən tibb elmləri doktoru, Xalq Komissarları*

*Sovetində iş icraçısından Xalq Səhiyyə Komissarı, icra orqanlarında ümumi şöbə müdirinin müavini vəzifəsindən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Dağıstan Vilayət Partiya Komitəsinin katibi, Azərbaycan Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə, Bakı Səhiyyə şöbəsinin müdiri vəzifəsindən Azərbaycan Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun və Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrinə qədər şərəfli yol keçən Əziz Əliyev böyük xalq məhəbbəti qazanmış, hələ öz sağlığında "qurucu Əziz", "Cəmiyyətin təbibi" adlandırılmışdır.*

*Bu ifadələr professor Əziz Əliyevin ictimai-siyasi və elmi fəaliyyətini dəqiq ifadə edir. O, təkcə həkim kimi fəaliyyət göstərsəydi, şübhəsiz ki, Azərbaycan səhiyyəsi bundan çox qazanardı. Lakin o, dərin bılıyə, yüksək təşkilatçılıq qabiliyyətinə malik bir insan kimi nəinki səhiyyəmizin inkişafına böyük töhfələr vermiş, eyni zamanda dövlət idarəçiliyində kadrlarla işləməyin, kütləni səfərbər etməyin, rəhbər-xalq münasibətlərinin bu gün də etalon ola biləcək ictimai praktikasını yaratmış, Azərbaycan elminin yeni istiqamətlərini müəyyənləşdirmiş, bu sahələrin inkişafına nail olmuşdur. Əziz Əliyevin həyatını və fəaliyyətini əks etdirən tarixi sənədləri izlədikcə onun dərin təfəkkürünə, işgüzarlığına, ağır sınaqlardan mətanətlə çıxmasına heyran qalmamaq mümkün deyil.*

*Bu böyük şəxsiyyətin bütün fəaliyyəti xalqa layiqli xidmət nümunəsi idi.*

*Həkim, alim kimi Əziz Əliyev böyük bir yol keçmiş, təbabətin ayrı-ayrı sahələrinə dair 70 elmi əsər yazmış, ali tibb təhsilinin təşəkkülündə, yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında, ana dilində tibb terminlərinin və ali məktəb dərsliklərinin yaradılmasında müstəsna xidmətlər göstərmişdir.*

*1942-ci ilin sentyabrında Dağıstanın rəhbəri təyin olunan Əziz Əliyev burada gözlənilməz problemləri bacarıqla həll etmək səriştəsinə malik peşəkar siyasətçi kimi tanınmış, Dağıstan əhalisini faktiki məhv olma təhlükəsindən - deportasiyadan hifz edərək qoruyub saxlamışdır. Dağıstan xalqları öz ata-baba yurdlarında yaşamalarına, inkişaf edərək sivil mədəniyyətə və tərəqqiyyə qovuşmalarma görə bu gün də xalqımızın böyük oğlu Əziz Əliyevə minnətdarlıqlarını ifadə edirlər.*

*Əziz Əliyev tibb təşkilatçısı kimi də məşhurlaşmış, nəzəriyyəçi və praktik alim kimi böyük xidmətlər göstərmiş, öz tədqiqatlarında ilk dəfə olaraq əlillərin tibbi bərpaedici müalicəsini kompleks tədbirlər kimi irəli sürmüş, sənayedə və kənd təsərrüfatında istehsalat travmatologiyasının profilaktikasında mühəndis-texniki işçilərlə tibb işçilərinin birgə fəaliyyətinin və həkimlərin ali təhsildən sonrakı təhsilinin təkmilləşdirilməsinin əsasını qoymuş, insanların, bütövlükdə isə xalqın və cəmiyyətin sağlamlığının keşiyində dayanmışdı".* (27, səh.267–268).

Əziz Əliyevlə birgə yubileyi keçirilən Həsən Əliyev də elmimiz və Azərbaycan ekoloji sistemi üçün misilsiz xidmətləri olan görkəmli şəxsiyyətdir. Həsən Əliyev vətəni, milləti üçün hər şeydən keçməyə hazır olan, Azərbaycanı dünyaya tanıdan böyük alim, komunist, bolşevik dövründə cəsarətlə xalqının mənafelərinə xidmət edə bilən böyük ictimai xadim idi. Həsən Əliyevin bütün elmi və ictimai fəaliyyətini Naxçıvan rəhbəri cənab Vasif Talıbov belə dəyərləndirirdi: *"Kənd təsərrüfatı elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi Həsən Əliyevin əsas elmi fəaliyyət sahəsinə torpaqşünaslıq nəzəriyyəsi, ekologiya, botanika, bio-coğrafiya, meşəşünaslıq, torpaq-meşə meliorasiya və aqrokimyası, bitkiçilik, təbii ehtiyatlarm və təbii şəraitin qorunub-saxlanması, səmərəlı istifadəsi kimi fundamental problemlər daxil idi.*

*Beynəlxalq Biblioqrafia İttifaqının ensiklopedik nəşrlərində Həsən Əliyev məşhur aqrobotanik kimi təqdim olunur; onun botanika, aqronomluq, ekologiya sahəsində apardığı elmi tədqiqatlar ümumdünya miqyasında qəbul edilmiş dəyərli elmi nailiyyətlər kimi səciyyələndirilir.*

*Həsən Əliyevin elmi-ictimai fəaliyyəti çoxcəhətli idi. O, təbiət elmləri sahəsində əksər elmi-tədqiqat institutlarına rəhbərlik etmiş, elmin aktual problemlərinin həlli üçün böyük səy göstərmişdir.*

*Haqlı olaraq "Azərbaycan təbiət elminin patriarxı" adlandırılan akademik Həsən Əliyev ölkəmizdə torpaqşünaslıq elminin və tətbiqi ekologiyanın əsasını qoymuş, onun təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə olaraq Azərbaycanda torpaq fondunun pasportlaşdırılmasına başlanmış və həyata keçirilmişdir.*

*Azərbaycanda coğrafiya elminin inkişafında və bununla bağlı bir sıra problemlərin öz həllini tapmasında da Həsən Əliyevin böyük xidmətləri olmuşdur. O, torpaq əmələgəlmə şəraitini təhlil edərək ölkəmizdə 50 min hektardan artıq şabalıdı və boz qəhvəyi torpaqlarda üzüm, eroziyaya məruz qalmış Abşeronda isə zeytun plantasiyalarının salınması təşəbbüsünü irəli sürmüşdür…*

*Ekoloji mühitin sağlamlaşdırılması və təbiətı mühafizə məsələlərinə mühüm əhəmiyyət verən görkəmli alim ilk dəfə olaraq Azərbaycanda həmin problemin həll olunması vacibliyini əsaslandırmış, həyəcan təbili çalmışdır. 1957-ci ildə akademik Həsən Əliyevin təşəbbüsü ilə iik dəfə Bakıda keçirilən təbiətin mühafizəsinə dair Ümumzaqafqaziya müşavirəsində dövlət təbiəti mühafizə xidmətinin yeni təşkilat formaları, təbiəti mühafizə üzrə komissiyaların fəaliyyəti təhlil olunmuş, əməli təkliflər irəli sürülmüşdür. Həmin forumun nəticəsi olaraq ölkəmizdə Ətraf Mühitə Nəzarət və Təbiəti Mühafizə Komitəsi və Təbiəti Mühafizə Cəmiyyəti, 1969-cu ildə Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunda*

*Ətraf Mühitin qorunmasına dair ilk elmi tədqiqat şöbəsi yaranmışdır.*

*Akademik Həsən Əliyevin elmimiz və xalqımız qarşısında böyük xidmətlərindən biri də Azərbaycanda dövlət qoruq və yaşıllıqlarının yaranması sahəsində səmərəli fəaliyyətidir. Bu fəaliyyətin nəticəsidir ki, əgər 1930-cu ildə Azərbaycanda 3 dövlət qoruğu vardırsa, 1971-ci ıldə onların sayı 8-ə, 1987-ci ıldə 14-ə çatdırılmışdı.*

*Uşaqlıq və ilk gənclik illəri ağır keçən, buna baxmayaraq əməksevərliyi və fitri istedadı ilə bütün çətinlikləri aradan qaldırmağı bacaran, altı ilə orta təhsili, üç ilə ali təhsili başa vuran, Milli Elmlər Akademiyasının ilk akademiklərindən olan Həsən Əliyev öz zəhməti ilə ucalmış, fəal ictimai-siyasi iş aparmış, Azərbaycan Kənd Təsərrüfatı nazirinin birinci müavini, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, 2 çağırış Azərbaycan Ali Sovetinin deputatı olmuş, YUNESKO-nun eksperti, Beynəlxalq Torpaqşünaslıq Cəmiyyətinin üzvii seçilmiş, uzun müddət Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti və Təbiəti Mühafizə Cəmiyyətinin sədri vəzilələrində işləmişdir.*

*60 ildən çox elmi yaradıcılıq fəaliyyəti ilə məşğul olan akademik Həsən Əliyev 800-dən artıq elmi məqalə və monoqrafiyanın, 140-a yaxın müxtəlif təyinatlı xəritənin, eləcə də xeyli sayda elmi-kütləvi nəşrlərin müəllifi kimi məşhurlaşmışdır".* (27, səh.270)

**Yusif Heydər oğlu Məmmədəliyevin** 100 illik yubileyi 2005-ci il yanvar ayının 3-də keçirildi. Bu dahi alimin yubileyi YUNESCO-nun səviyyəsində, onun qərarı ilə bir il əvvəl Paris şəhərində keçirilmişdi. Burada bu mötəbər beynəlxalq təşkilatın Azərbaycandakı xoşməramlı səfiri Mehriban xanım iştirak və çıxış etmişdi. Y.Məmmədəliyevin adı XX əsr Azərbaycan elminin simvoludur desək, yanılmarıq. Onun kəşfləri bütün sovetlər birliyinin imkanlarını artırırdı. Təbii Qazın Sənayedə işlədilməsi, müharibə illərində yüksək oktanlı aviasiya benzininin alınması, sənayenin əsas xammalı olan sintetik kauçukun alınması və bir sıra başqa müdafiə əhəmiyyətli kimyəvi məhsulların alınması Sovet dövlətinin müdafiə qabiliyyətini artırdı və qələbəsinə böyük kömək etdi. Bir an adam bir vətəndaş kimi düşünür: bəs nə üçün bu qədər kəşfinə görə Y.Məmmədəliyev SSRİ EA akademiki, Sosialist Əməyi Qəhrəmanı, Nobel mükafatı laureatı olmadı.

Sisakyan, Aqanbekyan, Ambarsumyan və başqaları hansı böyük kəşfinə görə SSRİ EA akademiki oldu? Bu sualın cavabı çoxdur. Hələlik Yusif Məmmədəliyev haqqında onun 100 illik yubileyində Naxçıvan MR Ali məclisinin sədri cənab Vasif Talıbovun dəyərləndirməsinə nəzər salaq: *“Yusif Məmmədəliyev Azərbaycanın dünya elminə bəxş etdiyi nadir dühalardan biridir. Yaradıcı fikrin inkişafında müstəsna xidmətləri olan Yusif Məmmədəliyev elm*

*tarixində yeganə şəxsiyyətdir ki, irəli sürdüyü ideyaların, apardığı tədqiqatların ayrı-ayrılıqda hər birinın qarşısında "ilk dəfə" ifadəsini işlətmək mümkündür.*

*O, 1930-cu illərin əvvəllərində ilk dəfə zəngin xammal ehtiyatı olan təbii qazın sənayedə geniş tətbiqi ideyasını irəli sürmüşdür. İlk monoqrafiyasını bu mövzuya həsr edən Yusif Məmmədəliyev yazırdı kı: "İndiyədək yanacaq kimi işlətdiyimiz qazı indən belə qiymətli birləşməyə çevirməliyik". Bu, elmdə yeni bir istiqamət, qaz sənayesinin kimyalaşdırılması sahəsində əhəmiyyətli addım idi.*

*Vaxtilə məşhur amerikalı ixtiraçı Edison sintetik kauçuk istehsalını əfsanə sayırdı. Yusif Məmmədəliyevə qədər bu sahə demək olar ki, toxunulmaz qalmışdı. Azərbaycanlı alim Yusif Məmmədəliyev çoxlarının əfsanə bildiyi ideyanı reallığa çevirdi və dünyada ilk dəfə olaraq sintetık kauçukun yaradılması mümkünlüyünü əsaslandırdı. Bu kəşfin nəticəsı olaraq ötən əsrin 50-ci illərində neft qazları əsasında kauçuk istehsal edən Sumqayıt Sintez-Kauçuk Zavodu tikilərək işə salındı.*

*Yusif Məmmədəliyev ilk dəfə təbiı qazın birbaşa xlorlaşdırılması reaksiyasını həyata keçirib. Alimin bu salıədəki tədqiqatları neft kimyasına və bütövlükdə kimya elminə misilsiz töhfədir. Bu ideyanın hələ on doqquzuncu əsrdə fransız alimi Dyuma tərəfindən irəli sürülməsinə baxmayaraq o, uzun müddət istehsalatda öz tətbiqini tapa bilməmişdi. Çünki*

*reaksiya partlayışla gedirdi. Yusif Məmmədəliyev ilk dəfə olaraq "qaynar lay" adlanan üsul tətbiq etməklə partlayışı ram etdı və bu yolla karbon* 4-xlorid *adlanan çox qiymətli məhsulun sənaye texnologiyasını hazırladı.*

*Yusif Məmmədəliyevin adı neft elmi və neftə aid elm sahələri ilə sıx bağlıdır. Nəzəriyyəçi alim kimi o, elmin uzaq üfüqlərini, gələcək perspektivlərini müəyyənləşdirir, təcrübəçi və tədqiqatçı fədailiyi, gərgin əməyi ilə bu ideyaları reallığa çevrilir, nəzəriyyəni təcrübə ilə birləşdirirdi. Məhz bu nadir keyfiyyətin-nəzəriyyəçi və təcrübəçi istedadlarını özündə birləşdirməsinin nəticəsidir ki, o, polimerlərin nəinki kimya elminin, bütün bəşəriyyətin gələcəyi üçün əhəmiyyətını əvvəlcədən görmüş, bu nəzəriyyənin genişlənməsinə qoşulmuş və ölkəmizdə* polimer kimyasının *əsasını qoymuşdur.*

*Yusif Məmmədəliyev sözün əsil mənasında a*lovlu *vətənpərvər idi. O deyirdi: "Həyatımın mənası elm üçün çalışmaqdır. Elmə xidmət, sevdiyim və yolunda hər məşəqqətə dözməyə hazır olduğum vətənə xidmət etmək deməkdir".*

*Bu fikirlər nəzəriyyəçi, təcrübəçi, elm təşkilatçısı və müəllim kimi Yusif Məmmədəliyevin qısa, lakin mənalı həyat yolunu dəyərləndirmək üçün açar rolunu oynaya bilər. Onun bütün ömrü vətənə xidmətdən ibarət olmuşdur. Təsadüfi deyil ki, faşist Almaniyasına qarşı müharibə illərində Yusif Məmmədəliyev elmi tədqiqatlarının istiqamətini*

*dəyişərək toluolun sintezi və yüksək oktanlı aviasiya benzininin alınması ilə məşğul olmuşdur. Müharibanin qızğın dövründə aparılan bu tədqiqatları "İzvestiya" qəzeti "Düşmənə ağır zərbəyə bərabər olan alim işi" kimi yüksək dəyərləndirmişdi.*

*Akademik Yusif Məmmədəliyev ensiklopedik biliyə və universal fəaliyyət istiqamətinə malik bir şəxs idi. Nəzərə almaq lazımdır ki, o, təkcə neft kimyası ilə məşğul olmamış, Azərbaycan elminin 20-dən çox sahəsinin, o cümlədən genetika və astrofizika kimi vacib sahələrin də inkişaf perspektivlərini müəyyənləşdirmiş, böyük elm təşkilatçısı kimi məşhurlaşmışdır. 1945-ci ildə Azərbaycanda olan və burada Elmlər Akademiyasının təşkili vacibliyindən danışan akademik B.Kamarov demişdir ki: "tək bircə Yusif Məmmədəliyevə görə Azərbaycanda Elmlər Akademiyası yaratmaq zəruridir".*

*Akademık Şuykin Yusif Məmmədəliyevi "bütün dünyada aktivləşmənin kralı" adlandırmış, Mustafa Topçubaşov isə obrazlı ifadələrlə belə demişdir: "Yusif Məmmədəliyevə akademik yox, akademiya demək lazımdır".*

*Bu gün iftixarla deyə bilərik ki, rus kimya elmi indiki inkişafina görə Lomonosova, Mendeleyevə və Zelinskiyə borcludursa, Azərbaycanda kimya elmi öz səviyyəsinə və inkişafina görə Yusif Məmmədəliyevə minnətdardır".* (27, səh. 186–187)

6 dəfə Sovet Ittifaqı qəhrəmanı Avasi generalı Aleksandr Kojedub demişdi: “*Mənə Məmmədəliyev benzini verin, mən bir həftə səmada vuruşum”*. Yaxşı ki, Yusif Məmmədəliyev repressiya qurbanı olmadı.

Görkəmli alim və ictimai xadimlər içərisində öz elmi, səriştəsi, poliqlotluğu, vətənpərvərliyi ilə seçilən böyük şəxsiyyətlərdən biri də **Məhəmmədağa Şahtaxtlıdır**. O, bütün Çar Rusiyasında görkəmli ziyalı kimi, rus dilini təmiz bilən savadlı bir jurnalist kimi tanınırdı. Təkcə bunu demək kifayətdir ki, XIX əsrin axırlarında və XX əsrin əvvəllərində Çar Rusiyası türk-müsəlman xalqlarına qarşı açıq ayrı-seçkilik siyasəti yeridirdi. Belə bir vaxtda Azərbaycan ziyalılarının ana dilində məktəb və mətbuat orqanı yaratmaq təşəbbüsləri həmişə uğursuzluqla nəticələnirdi. Onun rus mətbuatında çap olunan publisistik məqalələri öz orijinallığı və dili ilə seçilir və müəllifinə böyük hörmət qazandırırdı. Onun xidmətləri Naxçıvanın rəhbəri Vasif Talıbovun sərəncamının preambulasında geniş verilmişdir. Biz təkcə bunu əlavə etmək istərdik ki, Şərqdə əlifba islahatının ikinci böyük təşəbbüskarı olduğu kimi, Bakı Dövlət Universitetinin açılmasında da xüsusi zəhməti olmuşdur.

O, özü rus, fransız, alman, fars dillərini mükəmməl bildiyi üçün ana dilini sevir və onun qayğısına qalırdı. 1919-cu ildə fəaliyyətə başlayan Bakı Dövlət Universitetinin rektoru, dekanlar və kafedra müdirlərinin hamısı rus idi. M.Şahtaxtlı Tomaşevskinin müdir olduğu dilçilik kafedrasında

işləyirdi. Tədris planında rus dilinə Azərbaycan dilindən 2 dəfə çox saat ayrılmışdı. Azərbaycan dili dərsləri bazar günü keçilirdi. Buna etiraz edən M.Şahtaxtlı və Həmidbəy Şaxtaxtlı elmi Şurada məsələni müzakirəyə çıxardılar. Bu vaxt prorektor Şipovski Məhəmmədağa və Həmidbəy Şahtaxtinsklәri təhqir edib onlara dərs verilməməsini təklif etmişdi. Bunların hamısı BDU-nun arxivində qalır. (4)

Qədirbilən xalqımız M.Şahtaxtlının 160 illik yubileyini təntənə ilə qeyd etdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 27 fevral 2006-cı il tarixdə M.Şahtaxtlının anadan olmasının 160 illiyinin qeyd edilməsi haqqında sərəncam imzaladı. Bu sərəncamın preambulasında M.A.Şahtaxtlının elmi, ictimai və siyasi fəaliyyəti ətraflı şəkildə təqdim olunur. Orada deyilir: *"1846-cı ildə Şahtaxtı kəndində anadan olan Məhəmmədağa Şahtaxtlı ilk təhsilini Naxçıvan şəhər məktəbində almış, 1863-cü ildə Tiflis klassik kişi gimnaziyasını bıtirmişdir. Peterburqda müstəqil yolla alman dilini öyrənən Məhəmmədağa Şahtaxtlı 1869-cu ildə Leypsiq Universitetinin ədəbiyyat, tarix və fəlsəfə fakültəsini bitirdikdən sonra 1873–1875-ci illərdə Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmiş, fransız dilini öyrənmişdir. Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb və fars dillərində əsərlər yazan Məhəmmədağa Şahtaxtlı hərtərətli hazırlığa malik mükəmməl ziyalı kimi yetişib formalaşmışdır.*

*Məhəmmədağa Şahtaxtlının ilk elmi fəaliyyəti Şərq tarixinə dair tədqiqatlara həsr olunmuşdur. O, bir müddət Parisdə yaşamış, Fransa Kollecində və Ali Təcrübi Təhsil Məktəbində Şərq diliərindən dərs demiş, Sorbonna Universitetində fonetika sahəsində tədqiqatlar aparmışdır. Onun bu dövrdə fransız dilində nəşr etdirdiyi əsərlər Qərbi Avropada və Amerika mətbuatında elmi müzakirələrə səbəb olmuş, müəllifinə tədqiqatçı və şərqşünas kimi böyük şöhrət qazandırmışdır. Məhəmmədağa Şahtaxtlı 1899-cu ildə Beynəlxalq Fonetika Cəmiyyətinin, 1900-cii ildə Beynəlxalq Asiya Cəmiyyətinin, 1903-cü ildə isə Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz Şöbəsinin həqiqi üzvü seçilmişdir.*

*Məhəmmədağa Şahtaxtlının dilçiliklə bağlı elmi fəaliyyətində əlifba islahatı mühüm yer tutur. O, bu sahədə məşhur mütəfəkkir Mirzə Fətəli Axundovun yolunu davam etdirmiş, əlifba islahatı ilə bağlı ilk dəyərli tədqiqat əsəri olan "Təkmilləşdirilmiş müsəlman əlifbeyi" kitabını 1879-cu ildə Tiflisdə nəşr etdirmişdir. Azərbaycan əlifbasının daha da sadələşdirilməsi, latın qrafikalı əlifbaya keçid sahəsindəki çoxillik səmərəli fəaliyyəti, çap etdirdiyi orijinal əlifba layihələri Məhəmmədağa Şahtaxtlının dilşünaslıq sahəsində görkəmli alim olduğunu göstərir…*

*Məhəmmədağa Şahtaxtlı mədəniyyətlərin yaxınlaşmasına, Qərb maarifçiliyinin ən yaxşı ənənələrinin Azərbaycana gətirilməsinə çalışmış, xalqımızm maariflənməsi və tərəqqisi yolunda səyini*

*əsirgəməmişdir. O, böyük vətənpərvər kimi mətbuat tariximizdə silinməz izlər qoymuş, "Moskovskiye vedomosti", "Novoye vremya", "Kavkaz", "Rossiya" kimi dövrünün nüfuzlu mətbuat orqanlarında çoxsaylı məqalələr dərc etdirmiş, 1891–1893-cü illərdə "Kaspi" qəzetinin redaktoru olmuşdur. Məhəmmədağa Şahtaxtlı 1898-ci ildə Azərbaycan dilində "Tiflis" adlı qəzel çıxartmaq istəmiş, lakin çar senzurası buna icazə verməmişdir. Nəhayət 1902-ci ildə Tiflisdə xüsusi mətbəə açmış, 1903-cü ildə burada "Şərqi-Rus" qəzetinin nəşrinə nail olmuşdur. İyirminci əsrin ilk Azərbaycan qəzeti olan "Şərqi-Rus" qəzeti mətbuat və ictimai fikir tariximizdə mühüm rol oynamışdır. Görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadəni Tiflis ədəbi mühitinə və mətbuat aləminə cəlb etməsi Məhəmmədağa Şahtaxtlının xidmətləri sırasında özünəməxsus əhəmiyyətə malikdir. Onun baş redaktoru olduğu "Şərqi-Rus" qəzeti məşhur "Molla Nəsrəddin" jurnalının sonrakı fəaliyyəti üçün ciddi əsas yaratmışdır.*

*Məhəmmədağa Şahtaxtlı ictimai xadim və böyük elm təşkilatçısı idi. Göstərdiyi səmərəli ictimai fəaliyyətə görə xalqın dərin etimadını qazanan Məhəmmədağa Şahtaxtlı 1907-ci ildə Naxçıvandan 2-ci Dövlət Dumasına deputat seçilmiş və Dumada Azərbaycan xalqının maraqlarını fəal müdafiə etmişdir. Sonrakı illərdə o, Bakı Dövlət Universitetinin yaradılmasında fəal iştirak etmiş, bu təhsil ocağının ilk professorlarından olmuşdur".* (27, səh.203)

XIX əsrin axırları XX əsrin əvvəllərindəki Azərbaycan maarifini və məktəbini görkəmli pedaqoq, ictimai xadim **Məhəmməd Tağı Sidqi**siz təsəvvür etmək olmaz. M.T.Sidqi 1854-cü ildə Ordubadda anadan olmuş və ilk təhsilini də burada – axund Məhəmməd Tağının dini məktəbində almışdır. Uşaq vaxtlarından elmə maarifə həvəs göstərən Məhəmməd Tağı yalançı dindarların öz xeyirlərinə olaraq qoruyub saxlamaq istədikləri cəhalət sisteminin tərkib hissəsi savadsızlıq idi. Belə bir mühitdə dünyəvi dərsləri, coğrafiya, astronomiya dərslərini keçmək, qızları təhsilə cəlb etmək çox çətin idi. Buna baxmayaraq, M.T.Sidqi Bakıdan bir neçə il əvvəl Ordubadda (1892) "Əxtər" (Ulduz), 1894-cü ildə Naxçıvanda "Tərbiyə" məktəbi açdı. Burada tədris edilən fənlərin proqramını özü hazırladığı kimi, dərslikləri də özü hazırlayırdı. "Əxlaq nümunələri", "Qızlara hədiyyə", "Müxtəsər coğrafiya risaləsi" dərslikləri dediklərimizə sübut olan bilər. Qeyri-dəqiq məlumata görə bütün Çar Rusiyası ərazisində ilk meteoroloji məlumat mərkəzi Sidqi tərəfindən Naxçıvanda tətbiq edilmiş-sınaqdan çıxarılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Tabılov 2004-cü il martın 11-də böyük pedaqoq, maarifçi, şair Məhəmməd Tağı Sidqinin 150 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam vermişdir. Orada böyük maarifçinin əsas xidmətləri qeyd edilir.

Məhəməd Tağı Sidqi Azərbaycan maarifçi-realist ədəbiyyatının yaradıcılarından biri kimi də təqdim edilir. Ədibin qələmindən çıxmış “Mədəniyyət məsnəviləri” adlı irihəcmli poetik mənzumə, “Heykəli-insana bir nəzər” ədəbi-fəlsəfi əsəri, maaarifçi öyüdnamələr, “Kəblə Nəsir”, “İki tərbiyə üsulu”, “Ədəbli uşaq”, “Məktəbə gedən uşaq”, “Məktəbə davam edən uşaq”, “Analar bəzəyi” hekayələri. 300-dən çox şeiri maarifçi ədəbiyyatın dirçəlməsində xüsusi əhəmiyyətə malik olmuşdur. Bu qiymətli ədəbi irsin bir çox nümunələrindən bu gün də məktəb dərsliklərində istifadə edilir.

Naxçıvan teatrının ilk yaradıcılarından olan Məhəmməd Tağı Sidqi bu teatrın inkişafı məsələləri ilə yaxından məşğul olmuşdur. 1894-1899-cu illərdə “Dram Cəmiyyəti” üzvləri ilə birlikdə M.F.Axundovun “Hekayəti-molla İbrahimxəlil kimyagər”, “Sərgüzəşti-mərdi-xəsis”, “Sərgüzəşti-vəziri-xani-Lənkəran” komediyalarının Naxçıvan xanı Rəhim xanın evində tamaşaya qoyulmasına nail olan Məhəmməd Tağı Sidqi M.F.Axundovun “Hekayəti müsyö Jordan-həkimi-nəbatat və dərviş Məstəli şah-cadukuni-məşhur” komediyasına rejissorluq etmişdir. Böyük pedaqoq və maarifçi bu yolla milli teatrın imkanlarını xalqın maariflənməsinə, ictimai-mədəni tərəqqiyə cəlb etmişdir. O, Avropa, rus və Şərq mətbuatı ənənələrini öyrənib tətbiq etmiş, geniş ictimai və maarifçilik fəaliyyəti göstərmişdir.

Azərbaycanın ümummilli lideri möhtərəm Heydər Əliyev Naxçıvan mühitinin formalaşmasında Məhəmməd Tağı Sidqinin fəaliyyətini yüksək qiymətləndirərək demişdir: *“Naxçıvanda təhsilin, ümumiyyətlə, mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin böyük rolu olmuşdur”.* (27, səh.140-143)

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin sərəncamı ilə yubileyi keçirilən görkəmli şəxsiyyətlərdən biri də **Lətif Talıb oğlu Hüseynzadədir**. Lətif Hüseynzadə 106 il ömr etmişdir. Uşaqlıq illərini istisna etsək demək olar ki, bütün ömrü boyu xalqına, vətəninə bağlı bir insan olmuşdur. Bu sətirlərin müəllifinə 15 il Lətif müəllimlə birgə işləmək nəsib olmuşdur. O, 1970-85-ci illərdə Azərbaycan Pedaqoji Xarici Dillər Institutunun Azərbaycan dili və Ədəbiyyatı kafedrasının dosenti vəzifəsində çalışmışdır. Biz gənc müəllimlər ondan bir peşəkar-ustad, pedaqoq-alim kimi çox bəhrələnərdik. Lətif müəllim 16 yaşı olanda – 1918-ci ildə Andranikin Naxçıvanda törətdiyi qətliamı gözü ilə görmüş, xalqımızın intiqamını daşnak Andranikdən almaq üçün Naxçıvan harayına səs verən böyük türk sərkərdəsi Kazım Qarabəkir Paşa ilə tanış olmuş, uşaq olmasına baxmayaraq, onun bəzi tapşırıqlarını yerinə yetirmişdir. Alim 1932-39-cu illərdə Naxçıvan Pedaqoji Texnikumunda işlədiyi vaxt xalqımızın Ümumilli lideri, dahi siyasətçi Heydər Əliyev həmin texnikumda oxumuşdu. Dahi siyasətçi

Azərbaycan KP MK-nın katibi olanda da, 1993-cü ildən Azərbaycan Respublikasının prezidenti olanda da öz sevimli müəllimini unutmamış, həmişə onunla əlaqə saxlamış, qayğısına qalmışdır. Ulu öndərin dövlətçilik məktəbinin gözəl məzunu Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov da bu böyük alimin – pedaqoqun qayğısına qalmış hətta öz sağlığında 2002-ci ilin oktyabr ayında onun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam vermişdir. Sərəncamın Preambulasında deyilir: *"Azərbaycan ziyalılarının yaşlı nəslinə mənsub olan ədəbiyyatşünas alim, yorulmaz tədqiqatçı, qocaman müəllim Lətif Talıb oğlu Hüseynzadə Naxçıvan şəhərində sənətkar ailəsində anadan olmuşdur. İlk təhsilini diini məktəbdə alan Lətif Hüseynzadə sonralar "Xeyriyyə" və "Rüşdiyyə" məktəblərində, Naxçıvan şəhərində açılmış pedaqoji seminariyada oxumuş, Hiiseyn Cavid, onun böyük qardaşı Şeyx Məhəmməd Rəsizadə, Həsən Səfərli, İbrahim Xəlil Axundov kimi öz dövrunün görkəmli ziyalılarından dərs almışdır.*

*Lətif Hüseynzadə 1921-ci ildə "Cavanlar həyatı" adı ilə nəşrə başlayan "Şərq qapısı" qəzetində mürəttib, müxbir işləmiş, 1925-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Lisaniyyat (dilçilik) şöbəsinə qəbul olunmuş, 1930-cu ildə həmin universiteti bitirərək 1930-1931-ci illərdə İrəvan Pedaqoji Texnikumunda müəllim işləmiş, burada nəşr olunan "Qızıl Şərq" qəzetinin müxbiri olmuşdur.*

*Daha sonra Naxçıvanda pedaqoji fəaliyyət göstərən Lətif Hüseynzadə 1931–1932-ci tədris ilində Naxçıvan Kənd Təsərrülätı Texnikumunda, 1932–1939-cu illərdə Naxçıvan Pedaqoji Texnikumunda, 1943–1953-cü illərdə Naxçıvan Dövlət Müəllimlər İnstitutunda müəllim, Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri və direktor vəzifələrində çalışmışdır.*

*Lətif Hüseynzadənin səmərəli pedaqoji fəaliyyəti yüksək qiymətləndirilərək 1 iyul 1943-cü ildə ona "Azərbaycanın əməkdar müəllimi" fəxri adı verilmişdir.*

*1945–1951-ci illərdə Azərbaycan Elmlər Akademiyası Naxçıvan Elmi Bazasının elmi işçisi və direktoru vəzifələrində çalışan Lətif Hüseynzadə 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin ilk dəfə Naxçıvanda keçirilən səyyari elmi şurasında "Əliqulu Qəmküsarın həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir".* (27, səh.119)

Haqqında danışdığımız illərdə yubileyi qeyd edilən görkəmli sənət adamlarından biri də **Tofiq Əhmədxan oğlu Bakıxanovdur**. Bakıxanovlar 250-300 idir ki, Bakıda və Azərbaycanda elm sənət zirvəsinin fatehləri kimi ad qazanmışdır. Abasqulu ağa Bakıxanovdan başlanıb Tofik Bakıxanova qədər böyük bir nəsl milli mədəniyyətimizin, elmimizin, təhsilimizin inkişafında böyük rol oynayır. Qədirbilən xalqımız bir musiqi ifaçısı, bəstəkar kimi Tofik Bakıxanovun əməyini – yaradıcılığını yüksək

qiymətləndirmiş ona xalq artisti kimi yüksək fəxri ad vermiş və 2006-cı ildə onun 75 illik yubileyini keçirmişdir. Yubiley tədbiri Naxçıvanda baş tutan zirvə toplantısı ilə başa çatmışdır. Toplantıda yubilyar özü də iştirak etmişdir. Yubiley tədbirində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Tofik Bakıxanov sənətinə yüksək qiymət vermiş və onun yaradıcılığını yüksək səviyyədə təhlil etmişdir. Naxçıvan rəhbəri Tofiq Bakıxanova və tədbir iştirakçılarına müraciətlə demişdir: *"Tofiq Bakıxanov Azərbaycan tarixində özünəməxsus yeri və rolu olan böyük bir nəslin davamçısıdır. Onun ulu babası Abbasqulu ağa Bakıxanov Azərbaycanın görkəmli simalarından biri, tarix, fəlsəfə, ilahiyyat və etikaya dair qiymətii əsərlərin müəllifi, dövrünün qabaqcıl maarifçisi olmuşdur. Onu da qeyd etmək lazımdır ki, Bakıxanovlar sülaləsinin bir qismini hərbçilər, digər bir qismini isə musiqiçilər təmsil etmişdir. Təkcə XIX əsrdə Bakıxanovlardan 17 nəfəri hərbçi olmuşdur ki, onların da 4-ü general rütbəsinə qədər yüksəlmişdir. Bakıxanovlar nəslinin musiqiçilərindən Məmmədxan Bakıxanovun, Əhməd Bakıxanovun, Məmmədrza, Tələt və Akif Bakıxanovların, Tofiq Bakıxanovun milli və professional musiqimizin inkişafında xüsusi xidmətləri vardır…*

*Elə bəstəkarlar var ki, mahnı janrından yuxarı qalxa, elələri də var ki, klassik janrlardan aşağıya, yəni mahnı yaradıcılığına enə bilmirlər. Tofiq*

*Bakıxanov üçün belə problem yoxdur. O, musiqinin bütün janrlarında yazıb-yaratmışdır. Üç balet, üç musiqili komediya, tar ilə simfonik orkestr üçün 5 konsert, müxtəlif Avropa alətləri və simfonik orkestr üçün 23 konsert, 20 sonata, 5 simfonik muğam, 7 simfoniya, 5 simfonik poema, kamera musiqisi sahəsində 26 sonata, 100-dən artıq mahnı və romans deyilənlərə sübutdur.*

*Tofiq Bakıxanovun musiqi xadimi və bəstəkar kimi ən böyük üstünlüyü zəngin Azərbaycan xalq musiqisindən bəhrələnməsi, muğamlarımıza sənətkarlıqla yanaşması, bəstəkarlıq texnikasına dərindən bələd olmasıdır. Onun yaradıcılığında Şərq təfəkkür tərzi ilə Qərb musiqi mədəniyyəti özünəməxsus şəkildə vəhdət təşkil edir. Bu əsərlərin mövzusu Şərq və ya Azərbaycan mühitindən götürülsə də, musiqi dili, bəstəkarlıq üslubu Avropa musiqi mədəniyyətinə xas olan yüksək professional səviyyədə təcəssüm etdirilir. Bu mənada Toliq Bakıxanov yaradıcılığı beynəixalq musiqi standartları səviyyəsinə qalxaraq özünə əbədi yaşamaq haqqı qazanmışdır.*

*Tofiq Bakıxanov yarım əsrdən çoxdur ki, müəllim, pedaqoq kimi də təaliyyət göstərir, yaradıcı gənclərin formalaşmasında öz əməyini əsirgəmir. Bakı Musiqi Akademiyasında və Bakı Musiqi Kollecində kamera ansamblı kafedrasının professoru olan Tofiq Bakıxanovun əsərləri məşhur ifaçıların repertuarını zənginləşdirməklə yanaşı, ali və orta ixtisas musiqi*

*məktəblərinin tədris proqramlarında da özünə layiqli yer tutur…*

*Tofiq Bakıxanov sözün həqiqi mənasında musiqi fədaisidir. O, Azərbaycan Bəstəkarlar İttifaqınn İdarə Heyətinin üzvü və musiqi bölməsinin sədri kimi fəal ictimai iş aparır, xarici ölkələrdə müəllif konsertləri, gecələri keçirərək milli musiqimizi geniş şəkildə təbliğ edir. Bu mənada demək mümkündür ki, Tofiq Bakıxanov yaradıcılığı indiki qloballaşan dünyamızda xalqlar arasında mənəvi körpü missiyasını da uğurla həyata keçirir.*

*Tofiq Bakıxanov mənsub olduğu xalqa şərəf, başucalığı gətirən sənətkardır. Eyni zamanda, o, xoşbəxt sənətkardır. Ona görə ki, sənətin, sənətkarın qiymətləndirildiyi, himayə olunduğu bir dövrdə yaşayır. Onun məhsuldar fəaliyyəti layiqincə qiymətləndirilib, 1973-cü ildə, ümummilli liderimizin Azərbaycana rəhbərliyinin birinci dövründə Əməkdar incəsənət xadimi, sonrakı dövrlərdə isə Xalq artisti fəxri adlarına layiq görülüb, «Şöhrət» ordeni ilə təltif olunub.*

*Tofiq Bakıxanov mənəvi borc anlayışını həmişə yüksək tutan sənətkardır. O, siyasi və dövlətçilik fəaliyyəti iiə xalqımızın qəlbində özünə əbədi abidə ucaldan böyük öndər Heydər Əliyev haqqında məqalələrinin birində belə yazır: "Mən inanıram ki, Azərbaycanın bütün sənət sahələrində Heydər Əliyevin əbədi abidəsi yaradılacaq. Elə biz musiqi*

*xadimlərinin də belə bir abidənin yaradılmasına mənəvi borcumuz var".*

*Görkəmli bəstəkarın özü bu sahədə şəxsi nümunə göstərmişdir. Onun simfonik orkestr üçün "Həmişə bizimləsən" əsəri ümummilli liderimizin unudulmaz xatirəsinə tükənməz məhəbbətin ifadəsidir".* (27, səh.241-242)

Naxçıvanda yubileyi böyük coşğu ilə qeyd edilən sənətkarlardan biri də **Bəhruz Şirəlibəy oğlu Kəngərlidir**. Kəngərlilər Naxçıvanda tarixən böyük və qədim sülalə olmuşdur. Bu nəsil milli-mədəniyyət tariximizə görkəmli simalar bəxş etmişdir. Hətta bu nəslin nüfuzu istedadlı söz sahiblərinin siyasi mövqeyi Sovet hakimiyyətinin ilk ilində anti-Azərbaycan mövqedə olan bolşevik rejimini qorxutmuş 1921-ci il martın 29-dan aprelin 5-ə qədər Naxçıvanda (adi insani qaydada yox, Naxçıvan stansiyasında dayanan qatarda) işləyən cəllad komissiyası ən böyük zərbəni məhz Kəngərlilər sülaləsinə vurmuş, 10 nəfər Kəngərlini müxtəlif növ cəzaya məhkum etmişdi. Amma külək nə qədər bərk əssə də kəngərlilər işığını söndürə bilmədi. Bu nəslin görkəmli nümayəndəsi Bəhruz Kəngərlinin yaratmış olduğu rəsm əsərləri Azərbaycan realist təsviri sənətinin bünövrəsi oldu. B.Kəngərli 1918–19-cu illərdə və ondan qabaqkı illərdə erməni daşnak fitnəsinin – Andranik başda olmaqla erməni vəhşilərinin Azərbaycan xalqına qarşı törətdikləri qeyri-insani aktları gözü ilə görmüş sənəti ilə əbədiləşdirmişdir. Buna görə də böyük sənətkarın

xatirəsi həmişə hörmət və məhəbbətlə yad edilmişdir. Ümumilli liderimiz Heydər Əliyev onun yaradıcılığının əbədiləşdirilməsi üçün mühüm işlər görmüşdür. Belə ki, B.Kəngərli muzeyi yaradılmış Rəssamlar Ittifaqının sərgi salonu onun adı ilə adlanmışdır. Naxçıvan MR Ali Məclisinin sədri 12 yanvar 2012-ci ildə böyük rəssamın yubileyinin keçirilməsi və bunun üçün 7 bənddən ibarət tədbirlər planının hazırlanması barədə sərəncam vermişdir. Həmin sərəncamın Preambulasında deyilir: *"1892-ci ildə Naxçıvan şəhərində anadan olan Bəhruz Kəngərli qısa ömür yaşasa da zəngin irs yaratmış, Azərbaycan təsviri sənətində realist, portret və mənzərə rəsm yaradıcılığının əsasını qoymuşdur. Azərbaycan bədii sənət xəzinəsinə dəyərli nümunələr bəxş edən rəssamın yaradıcılığında "Qaçqınlar" silsiləsinə daxil olan portretlər mövzu aktuallığını, reallığı əks etdirməsinə və psixoloji ifadəliliyinə görə fərqlənir. Bu əsərlər 1918–1920-ci illər Azərbaycan mühitinin canlı salnaməsidir. Rəssam didərgin ömrü yaşayan insanların acı taleyini, azərbaycanlıların indiki Ermənistan adlandırılan tarixi torpaqlarından deportasiyasını realist sənətçi müşahidəsi və fırçası ilə əks etdirmiş, bu faciəni gələcək nəsillərə çatdıra bilmişdir.*

*Bəhruz Kəngərli təbiət təsvirlərini yalnız real və inandırıcı deyil, eyni zamanda qüvvətli daxili hisslərlə də əks etdirirdi. Bu hiss onun vətənə, Azərbaycan təbiətinə sonsuz məhəbbətindən irəli gəlirdi. Rəssamın*

*yüksək bədii sənətkarlıqla yaratdığı əsərlər içərisində Naxçıvanın tarixi abidələri xüsusi əhəmiyyətə malikdir. Onun naturadan çəkdiyi bu əsərləri Azərbaycan incəsənətində nadir nümunələrdir.*

*Bəhruz Kəngərli incəsənətimizin inkişafı naminə yorulmadan xidmət göstərmiş, öz evində fərdi sərgilər təşkil etmiş, gənclərə rəsm sənətinin sirlərini öyrətmək üçün dərnəklər yaratmış, Azərbaycan rəssamlığının inkişafına mühüm töhfələr vermişdir.*

*Ümummilli liderimiz Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığına daim böyük qayğı göstərmiş, Naxçıvan şəhərində Bəhruz Kəngərli muzeyi yaradılmış, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonuna Bəhruz Kəngərlinin adı verilmişdir".* (27, səh.95–96)

# VASİF TALIBOV VƏ ƏDƏBİYYATIMIZIN İNKİŞAF PROBLEMLƏRİ

Ixtisasca tarixçi, filoloq olduğuna görə, Vasif Talıbovun peşə-maraq dairəsində də tarix-filologiya problemləri əsas yer tutur. Hətta siyasi fəaliyyətə başladığı ilk vaxtlarda Naxçıvan və Azərbaycan tarixi ilə yanaşı milli ədəbiyyatımızın müxtəlif problemləri haqqında indi rəsmi mövqedən danışmağa başladı. Naxçıvan rəhbərinin ədəbiyyat mövzusunda ilk çıxışı türk dünyasının böyük ədibi, Azərbaycan ədəbiyyatında romantizmin banisi və ən böyük nümayəndəsi şair, dramaturq **Hüseyn Cavid Rasizadə** haqqında oldu.

Hüseyn Cavid çox mənalı keşməkeşli və faciəli bir həyat yaşamışdır. H.Cavid 1882-ci ildə Naxçıvanda anadan olmuş, burada molla məktəbində dərs almış gənclik çağlarında Təbrizdə və Urmiyada oxumuş, sonra Türkiyədə İstanbul Universitetinin ədəbiyyat fakültəsində ali təhsil almışdır. Bu illərdə artıq H.Cavid məzmunlu şeirlər, dünyəvi mövzularda romantik əsərlər yazırdı. Biz onun yaradıcılığına və həyatının ardıcıl təsvirinə deyil onunla bağlı nadir hadisələrdən ikisi haqqında danışacağıq. Çünki məqsədimiz H.Cavid haqqında məhz Vasif Talıbovun fikirlərini oxucuya çatdırmaqdır. Bolşevik-daşnak fitnəsi illərində 1918-ci ildə Hüseyn Cavid Bakıda idi. Bolşeviklər daşnaklarla əlbir olub mart hadisələrini törədəndə Hüseyn Cavidi də əsir götürmüşdülər.

Yaxşı ki, onu tanımamışlar. Ona görə də oradan (əsir saxlandığı yerdən) qaça bilir. Daha Bakıda yaşamağın çətin olduğunu görüb Təbrizə, oradan da Naxçıvana gəlir. Bu, Andranikin Naxçıvanda törətdiyi qətliam dövrünə təsadüf edir. Sonra böyük türk sərkərdəsi Kazım Qarabəkir Paşa Naxçıvana gəlir. Onunla (İstanbul Universiteti tələbə yoldaşı kimi) yenidən görüşür. Bu illərdə (1918-ci ildə) o "İblis" romantik faciəsini yazır. Sonra Bakıya gedir. 1920-30-cu illərdə Sovet rejiminin demokratiya dövründə Bakıda o sakit işləyir, müəllimlik edir. Hətta Azərbaycan Sovet hökuməti dövlət hesabına müalicə olunmaq üçün onu Almaniyaya göndərir. Bir ildən sonra yəni 1927-ci ildə ona xüsusi dövlət təqaüdü verilir. 1930-cü ildən başlayan repressiya tüfanı Caviddən də yan keçmir. 1936-cı ilin iyun ayında Azərbaycan KP MK-nın birinci katibinin təklifi ilə Azərbaycan Yazıçılar İttifaqından kənar edirlər. Çox keçmir ki, "Ədəbiyyat" qəzetində 30 yaşlı Səməd Vurğunun (məcburi və sifarişlə) H.Cavidə ünvanlanan şeiri çap olunur. Orada deyilir:

*Millətçilər içində adın oldu sənətkar,*
*Gəl dərindən düşünək, sənin sənətinmi var?*

Sonra İsmailiyyə binasında böyük iclas keçirilir. Tədbir H.Cavidin "İfşasına" həsr edilir. Cavid birinci sırada oturub, əlindəki əsaya alt çənəsini söykəyərək sakitcə "Tənqidlərə" qulaq asır. İclas qurtaranda hamı

Cavidin cavabını gözləyir. Böyük şair ayağa qalxıb salonu tərk edərkən məruzəçiyə deyir: *"Oğul, hər sözünlə razıyam. Amma mən xırda burjua yazıçısı yox, böyük burjua yazıçısıyam".*

Şairin bundan sonrakı taleyi və yaradıcılığı haqqında, yaxşı olar ki, Vasif müəllimin fikirlərinə diqqət edək. Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov 1997-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan şəhərində Hüseyn Cavidin məqbərəsinin açılış mərasimində böyük şairin həyat və yaradıcılığının bəzi məqamlarına toxunaraq demişdir: *"Hüseyn Cavidin yaradıçılığı islam aləmi və türk dünyası ədəbiyyatında özünün dərin fəlsəfi məzmununa, bəşəri ideyalarına, milli xüsusiyyətlərinə görə mühüm əhəmiyyətə malik olan ölməz sənət nümunəsidir. Gəncliyində bir neçə il İranda-Təbrizdə, Urmiyada yaşayıb oxuyan, sonra Türkiyədə İstanbul Universitetinin ədəbiyyat fakültəsində ali təhsil alan Hüseyn Rasizadə özünün dahiyanə dram əsərləri və şerləri ilə əbədiyyət mənasını bildirən "Cavid" təxəllüsünün qanuni sahibi olduğunu sübuta yetirdi.*

*Bununla bərabər, Hüseyn Cavid həm də nakam şairdir, faciəli tarixi taleyə malikdir. O, sovet dövründə siyasi repressiyanın qurbanlarından biridir. 50-ci illərin sonunda Hüseyn Cavidə rəsmi bəraət elan olunsa da. əslində onun irsi sonralar da geniş təbliğ edilməmişdi. Nəhayət, möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının Azərbaycana rəhbərlik etdiyi dövrdə - 1981-ci ildə Hüseyn Cavidin anadan*

*olmasının 100 illik yubileyini keçirmək haqqında qəbul etdiyi qərar və ədibin cənazəsinin Sibirdən Azərbaycana gətirilməsi sözün həqiqi mənasında əsl siyasi bəraətin ifadəsinə çevrildi.*

*Lakin 80-ci illərdə və 90-cı illərin əvvəllərində tez-tez biri digərini əvəz edən Azərbaycan rəhbərləri Hüseyn Cavidə yenidən soyuq və laqeyd münasibət bəsləməkdə davam etdilər. Hüseyn Cavidi bir növ mənəvi repressiya əhatə etdi.*

*Hörmətli Heydər Əliyev cənabları Naxçıvanda yaşayıb işləyərkən siyasi, sosial-iqtisadi və mədəni həyatımızın bütün istiqamətlərində, o cümlədən Hüseyn Cavidin xatirəsinin əziz tutulması sahəsində təxirəsalınmaz tədbirlər həyata keçirdi. Bunun ən parlaq təzahürlərindən biri də odur ki, 1992-ci ildə möhtərəm Heydər Əliyev cənablarının təşəbbüsü ilə Hüseyn Cavidin anadan olmasının 110 illik yubileyi qədim Naxçıvan diyarında qeyd edildi.*

*Hörmətli mərasim iştirakçıları!*

*Bu gün açılışına toplaşdığımız Hüseyn Cavid məqbərəsi Azərbaycan Prezidentinin milli mədəniyyətimizə göstərdiyi yüksək atalıq qayğısının yeni və bənzərsiz təzahürüdür. Möhtərəm Heydər Əliyevin adı ilə bağlı olan Hüseyn Cavid məqbərəsi zəngin və çoxəsrlik Naxçıvan memarlıq məktəbi tarixində yeni hadisədir".* (27, səh.15–16)

Müstəqilliyimiz möhkəmləndikcə Hüseyn Cavidin yaradıcılıq mövqeyi dünyagörüşü, turançılıq ideyası xalqımızın şüuruna hakim kəsilirdi. Həmişə Hüseyn

Cavidin yaradıcılığına hörmət və məhəbbətlə, taleyinə qayğı ilə yanaşan Ümummilli lider Heydər Əliyev Azərbaycan Prezidenti olaraq 2007-ci il 17 aprel tarixli 2095 nömrəli sərəncamda Hüseyn Cavidin anadan olmasının 125 illik yubileyinin keçirilməsi haqqında sərəncam verdi. Bu sərəncamın icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 15 may 2007-ci il tarixdə bu haqda sərəncam imzaladı. Bu sərəncamda Naxçıvan rəhbəri Hüseyn Cavidlə bağlı 9 bənddən ibarət geniş tədbirlər planını da təsdiq etdi.

Tədbirlər planının 2 bəndində 23 oktyabr 2007-ci ildə Hüseyn Cavidin anadan olmasının 125-ci ildönümü münasibətilə elmi konfrans keçirmək də qərara alınırdı. Yubiley tədbirində Muxtar Respublika rəhbəri geniş və dərin məzmunlu bir məruzə ilə çıxış etmişdir. Bu məruzə həm Hüseyn Cavidin yaradıcılığının dəyərləndirilməsi, həm də Naxçıvan rəhbərinin Cavid şəxsində bütün ədəbiyyatımıza sonsuz məhəbbətinin ifadəsi olduğu üçün oradan geniş sitatlar verməyi lazım bilirik. O deyirdi:

Hüseyn Cavid 1882-ci il oktyabrın 24-də tanınmış islamşünas xadim Abdulla Rasizadənin ailəsində anadan olmuşdur. Gənc Cavidin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan bu ailədə təhsilə, mədəniyyətə böyük maraq vardı. Ailənin böyük oğlu Məhəmməd İranda ali ruhani təhsili almış və “Şeyx” rütbəsi qazanmışdı. Atasının təkidi ilə

Hüseyn Cavid də Naxçıvandakı mollaxana təhsilindən sonra bir müddət böyük qardaşının yanında ərəb-fars dillərini öyrənmiş, Şərq taıixinə və ədəbiyyatına dair biliklər əidə etmişdir. Sonra Naxçıvanda açılan yeni tipli "Tərbiyə" məktəbində oxuyan Hüseyn Cavid burada dünyəvi elmlərə yiyələnmiş, məktəbin müdiri və müəllimi, şair Məhəmməd Tağı Sidqinin təsiri ilə ilk qələm təcrübələrini yazmışdır.

Gənc Cavid 1898–1904-cü illərdə Təbriz və Urmiyə şəhərlərində yaşamış, ərəb və fars dilləri üzrə biliklərini zənginləşdirmiş, Təbrizdəki "Talibiyyə" məktəbində təhsilini davam etdirmişdir.

Hüseyn Cavid bu illərdə "Gülçin", "Salik" və "Arif" təxəllüsləri iiə Azərbaycan və fars dillərində bir sıra lirik şeirlər yazmışdır. İlk yaradıcıhq nümunələri onu göstərir ki, Hüseyn Cavid Şərq poeziyasma və ədəbiyyatma mükəmməl bələd olmuşdur.

Təbrizdən qayıtdıqdan sonra bir müddət Gürcüstanda yol çəkilişində işləyən Cavid, yol idarəsinin İstanbul şöbəsinə göndərilmişdir. Beləliklə, 1905–1909-cu illərdə Türkiyədə yaşayan Hüseyn Cavid İstanbul Universitetinin Ədəbiyyat şöbəsində oxumuş, eyni zamanda türk şairi və filosofu Rza Tofiqdən fərdi qaydada dərs almışdır.

Hələ 1903-cü ildən "Şərqi-Rus" qəzetində ara-sıra məqalələrlə çıxış edən Cavidin İstanbul dövrü məlısuldar olmuş, burada sufi-panteizm fəlsəfəsinə

dərindən yiyələnrniş, o dövrün qabaqcıl qəzet və jurnallarmda lirik-fəlsəfi şeirlərlə çıxış etmişdir.

1909-1910-cu illərdə Naxçıvanda müəllimliklə məşğul olan gənc ziyalı həyat müşahidələrini daha da genişləndirmiş, bir sıra şeirlərini və “Ana” pyesini yazmışdır. 1911-ci ildə Tiflisə gedən Hüseyn Cavid 1917-ci ilə qədər burada yaşamış, ədəbi-pedaqoji fəaliyyətini davam etdirmiş, “Maral”, “Şeyx Sənan”, “Şeyda” pyeslərini qələmə almış, 1913-cü ildə “Keçmiş günlər” adlı iik şeirlər kitabını Tiflisdəki “Şərq” mətbəəsində çap etdirmişdir. 1918–1919-cu illərdə Hüseyn Cavid Naxçıvandakı “Rüşdiyyə”məktəbində dərs demiş, “Bahar şəbnəmləri” adlı şeirlər kitabı çap olunmuşdur. Bu dövrdə yazılan “İblis” əsəri Cavidin ədəbi şöhrətini daha da artırmışdır.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Hüseyn Cavid müəllim kimi fəaliyyət göstərmiş, Müəllimlər İnstitutunda və Bakı Teatr Texnikumunda dərs demişdir. Bir-birinin ardınca yazılmış “Afət”, “Peyğəmbər”, “Topal Teymur”, “Knyaz”, “Səyavuş”, “Xəyyam”, “İblisin intiqamı” pyes və dramları, “Azər” poeması görkəmli sənətkara böyük söhrət qazandırmışdır…

Hüseyn Cavid yaxşı bilirdı ki, xalqın savadlanması, elmə, maarifə qovuşması üçün ana dili mühüm vasitədir. Pedaqoq və maarifpərvər kimi böyük ədib fəaliyyətinin bu istiqamətini də xalqın qəflət yuxusundan ayılmasına yönəltmiş, təhsil və maarif-

çilik məsələsini, ana dili problemini yazdığı məqalələrin, pubiisistik materiallarm əsas mövzusuna çevirmişdi. O yazırdı: *“Vətən övladı üçün lazımdır ki, əvvəlcə Vətən dili olan türk dilini öyrənsin”.*

Qeyd etmək lazımdır ki, Ana dilinə məhəbbət, onun tədrisi sahəsində göstərdiyi səylər sonralar Hüseyn Cavidə qarşı əsas ittihamlardan birinə çevıilmişdir. 1938-ci il martın 28-də istintaq təcridxanasında müstəntiq soruşmuşdu: *“Rzaquliyevin ifadəsinə görə onunla söhbətinizdə deyibsiniz kı, Azərbaycan dili rus dilinin təsiri altındadır, ədəbiyyat ruslaşdırılaraq öz əhəmiyyətini itirir, milli kadrlar sıradan çıxarılır”.* Cavid cavabında: “O, həqiqəti danışır”, - demişdi. 711 gecə və gündüz aparılan istintaqın sındıra bilmədiyi Hüseyn Cavid milli dil və tarix məsələlərində heç nəyə və heç kimə güzəştə getməyərək, faktiki olaraq tək-tənha, hakim ideologiyaya qarşı dayanmışdı.

Xalqın öz qəhrəmanlarını daim bir ideal, nümunə kimi götürməli olduğu zərurətini əsaslandıran Hüseyn Cavid yazırdı: *“Bax, hər millətin tarixi meydandadır. Əcnəbilər böyük İsgəndər, böyük Napoleon deyə öz qəhrəmanlarına abidələr yapdırır, heykəllər tikdirirlər. Bizlər isə Çingiz kımı cahangirləri, Teymur kimi qəhrəmanları canavar deyə ləkələmək istəyirik...”*

Lakin Azərbaycanın gələcəyini, milli dəyərlərə sadiq ziyalıların olmasını istəməyən qüvvələr imkan düşdükcə Cavidə amansız zərbələr vurur, onu gözdən salmağa çalışırdılar. 1924-cü il dekabrın 22-də

“Kommunist” qəzeti yazırdı: *“Cavid tarixi romantizmə qapılır. Teymur kimi qəddar bir istilaçını və o zamankı həyatı ideallaşdırır, tarixi hadisələri qarışdırır, təqlid edir”.* Bir vaxtlar Hüseyn Cavidin şöhrətindən haqlı olaraq iftixar duyan, onu “Şərqin Şekspiri” adlandıran Azərbaycan Yazıçılar İttifaqı ötən əsrin 30-cu illərində dünyada misli görünməmiş “ədəbi məhkəmələr” quraraq Cavid yaradıcılığını əsassız tənqid edir, onu “burjua yazıçısı” adı ilə damğalayırdı. Çox keçmədi ki, bu “ədəbi məhkəmələr”in yerini o zamanın məşhur “üçlük” məhkəmələri tutdu və böyük ədib “xalq düşməni” kimi ittiham olunaraq repressiyaya məruz qaldı.

Amansız repressiyaya tuş gələn, sındırılan təkcə dahi sənətkarın şəxsi həyatı deyildi. Onlarla yeni ideyalar, yeni əsərlər tamamlanmamış qaldı. Ədibin yazıb-tamamladığı, lakin çap olunmamış “Atilla”, “Çingiz”, “Telli saz”, “Şəhla”, “İblisin ilhamı” əsərləri, “Koroğlu” ssenarisi yandırılaraq məhv edildi.

8 illik həbs cəzasına məhkum olunmuş qocaman ədib keçmiş SSRİ-də ən ucqar və soyuq həbs düşərgəsi olan Maqadanda cəza çəkmiş, 1941-ci il dekabrın 5-də İrkutsk vilayətinin Tayşet rayonundakı Şevçenko kəndində həbsdə ikən vəfat etmişdir.

Bütün yaradıcılığı boyu Şərə qarşı mübarizə aparan Cavid axırda Şər qüvvələrin qurbanı oldu. (27, səh.249–258)

Məruzədə Naxçıvan MR Ali Məclisinin sədri Cavidə münasibətdə həm siyasi, həm də ədəbi-elmi

cəhətdən öz müəllimi ümummilli lider Heydər Əliyevin mövqeyindən çıxış edir, onun fikirlərinə əsaslanırdı. Ümummilli lider H.Əliyev H.Cavid haqqında demişdi (bu çıxış H.Əliyev Naxçıvanda işlədiyi və Hüseyn Cavidin anadan olmasının 110 illik yubileyi keçirilən gün – 1992-ci il oktyabrın 23-də olmuşdu): *"10 il bundan öncə Hüseyn Cavidin 100 illik bayramı keçirildi. Şiibhəsiz ki, Hüseyn Cavidin yenidən Azərbaycan xalqına qaytarılması, onun əsərlərinin Azərbaycanda yayılması və yeni-yeni nəsillərin onun əsərləri ilə tanış olması böyük nailiyyətdir. Ancaq, təəssüf ki, bu 10 il içərisində nəzərdə tutulmuş işlərin çoxu görülmədi. Bu biganəlik, mədəni sərvətimizə bu qədər anlaşılnıaz münasibət məni incidir... Hüseyn Cavidin yaratdığı əsərlər daimi mədəniyyət, əxlaq mənbəyidir. Onun qədər dərin mənalı, yüksək fəlsəfəyə uyğun əsəriər yaradan olmayıb. Bu əsərlər indi bizim üçün lazımdır. Müstəqil dövlət kimi, azad millət kimi inkişaf etmək üçün biz daim Hüseyn Cavidin əsərlərini oxumalıyıq.*

*Böyük filosof şairimiz, dramaturqumuz Hüseyn Cavid həbs olundu, uzun illər əsərləri qadağan edildi. Ancaq tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi.*

*Ancaq təəssüf edirəm ki, 1981-ci ildə Hüseyn Cavidin 100 illiyi haqqında Kommunist Partiyasının qəbul etdiyi qərarı Azərbaycanda 10 il ərzində həyata keçirmədilər... İndi Hüseyn Cavidin əsərləri insanlara*

*hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr olunmuşdurmu? Hüseyn Cavidi "Şərqin Şekspiri" adlandırırdılar. Ancaq onu bəlkə də Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir sənətkardır. Hüseyn Cavidin "İblis" əsəri heç də Hötenin "Faust"undan geri qalmır".* (27, səh.249–258)

Hüseyn Cavidin adının Naxçıvanda əbədiləşdirilməsi üçün, ilk növbədə onun abidəsinin insanların qəlbində ucaldılmasıdır. Bunu da ulu öndər Heydər Əliyev və onun istedadlı şagirdi Vasif Talıbov öz çıxış və məruzələrində etdilər. Bundan əlavə Hüseyn Cavidin monumental, klassik üslubda yaradılmış məqbərəsi, minlərlə insanın ziyarətgahına çevrilmiş mənzil muzeyi, Hüseyn Cavid küçəsi, poçt markası, nəhayət Hüseyn Cavid haqqında tam və küll məlumat verən "Hüseyn Cavid Ensiklopediyası". Bu sevindirici haldır ki, Naxçıvanda Hüseyn Cavidin yubileyini Ali məclisinin sədri Vasif Talıbov Azərbaycan Prezidentinin Hüseyn Cavidin anadan olmasının 130 illik yubileyinin keçirilməsi haqqında verdiyi 16 fevral 2012-ci il tarixli sərəncamın icrası üçün 4 gün sonra – 20 fevral 2012-ci ildə sərəncam imzalamışdır. Bu, ötəri sərəncam və toplantı deyil, xalqımızın böyük oğluna olan ümumxalq məhəbbətinin önündə getməkdir.

**Cəlil Məmmədquluzadə** də Naxçıvan torpağının yetirməsi, Azərbaycan və yaxın Şərq ədəbiyyatında xalq ruhunun ifadəçisi, onun arzu və əməllərinin satirik-realist üslubda verilməsi sahəsində tayı və bərabəri olmayan dahi sənətkardır.

XX əsrin əvvəllərində Şərq sxolastikasının və yarımçıq din xadimlərinin çar məmurlarının hökm sürdüyü bir dövrdə xalqın dərdlərini Cəlil Məmmədquluzadə qədər dərindən başa düşən, bu dərdə dərman tapmaq yolunda Cəlil Məmmədquluzadə qədər çalışan, ürək yandıran, öz maddi sərvətindən keçən ikinci bir sənətkar-vətəndaş tapmaq çətindir. O, xalqın dərdlərini anlayır, hər yerə əl atır, çoxlu maneələr görürdü. C.Məmmədquluzadə haqqında da çox deyilmiş, çox yazılmışdır. Biz bəzi məqamlara toxunmaq istərdik. Əvvəlcə onu deyək ki, xalqımızın elə bir dərdi (müasir terminologiya ilə problemi) olmamışdır ki, Mirzə Cəlil onu görüb ona təəssüflənməsin, ona ya felyeton, ya hekayə, ya komediya həsr etməsin. Bu, problemin miqyasından və dərinliyindən asılı idi. Təkcə “Molla Nəsrəddin” jurnalı xalqımızın savadlanması üçün biz universtet, dərdələrinin aşkarlanması üçün mikroskop, yaramaz ünsürlərin xalqı geriyə qoymasını tənqid edən güclü artilleriya idi.

C.Məmmədquluzadənin yaradıcılığı haqqında ədəbiyyatşünaslıq, dilçilik. Pedaqogika, jurnalistika indeksləri üzrə çoxlu namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir. Amma hələ də

Cəlil Məmmədquluzadə adlanan bu yaradıcılıq dəryasından əsrlərlə insanlar bəhrələnəcək. Çünki xalq həyatının, xalq düşüncəsinin elə bir sahəsi yoxdur ki, Mirzə Cəlil o sahədə qələm çalmamış olsun. Onda olan siyasi, ədəbi müşahidə cəm halında heç kəsdə olmamışdır desək yanılmarıq. Mirzə Cəlil keçmişin təcrübəsi əsasında gələcəyin necə olacağını hamıdan yaxşı görürdü. Təkcə bir faktı diqqətə çatdırmaq istərdik. Mirzə Tiflisdə, Qoridə, Bakıda, Irəvanda və başqa şəhərlərdə olanda, çar üsul idarəsinin, xristian ikiüzlülüyünün mahiyyətini çox gözəl başa düşürdü. Böyük təəssüf hissi ilə qeyd edirdi ki, niyə xristianın dığasının bildiyini bizim başıpapaqlı novruzəlilər bilmir, niyə erməni, gürcü istəyən kimi onun dilində məktəb açılır, qəzet buraxılır, müsəlmana isə bu yasaqdır. Bunları başa düşdüyü üçün onda formalaşan dünya görüşü dövrün bir çox ziyalılarında, xüsusilə bolşeviklərdə yox idi. Uzağa getməyək; 1917-ci ildə bolşeviklərin hakimiyyəti bizə nə verəcək sualına cavab olaraq «Molla Nəsrəddin» jurnalında Əli Nəzminin aşağıdakı şeirini çap etmişdir (şeirin mövzusunu və istiqamətini Mirzə Cəlil özü vermişdi. Üslub da onundur). Şeir belə idi:

*Ölkəmizdə mövcud olan Hürriyyət,*
*Millətlərə böylə eyləsin qismət;*
*Fin xalqına yırtıq-yarım istqlal,*
*Polyaklara dolu vədə bir çuval.*
*Ukraynalıya muxtariyyət su, torpaq,*

*Türküstanlı müslümlərə şapalaq.*
*Litvalıya istəyincə ixtiyar,*
*Buxaralı, Xivəliyə zəhrimar.*
*Qazaklara zər zad ilə Quban, don,*
*Ləzgilərə, çərkəzlərə poşol von.*
*Latışlara ayrımlara pay çox az,*
*Cuhudlara, tatarlara beş qapaz.*
*Xaxollara yerləşməyə buyuruq,*
*Krımlıya, qırğızlara yumuruq.*
*Ruminlərə yurd və yuva, yol, iqbal,*
*Yerli-yurdlu gürcülərə infial.*
*Qreklərə hə nə desə, çal çəpik,*
*Azərbaycan türklərinə vur təpik.*
*Uruslara mümtaziyyat, ağalıq,*
*Erməniyə imperiyada darğalıq.*

Təkcə bu şeir, onun ideyası neçə cild kitaba sığmaz. Bax Mirzə Cəlil dünyanın pərdələnmiş siyasi hadisələrini də zərrəbin kimi görür, satirik qələmlə tənqid edirdi.

Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbov böyük demokrat yazıçının 140 illik yubileyinin və "Ölülər" əsərinin 100 illik yubileyinin keçirilməsi haqqında 21 yanvar 2009-cu ildə Azərbaycan prezidentinə müraciət edir.

Respublika prezidenti "Cəlil Məmmədquluzadənin 140 illik yubileyinin keçirilməsi haqqında" 6 fevral 2009-cu ildə sərəncam verir. Bundan sonra Naxçıvan MR Ali məclisinin sədri Vasif talıbov "Cəlil

Məmmədquluzadənin 140 illik yubileyinə həsr edilmiş tədbirlər planının təsdiq olunması haqqında sərəncam verir. Naxçıvan rəhbəri 14 fevral 2003-cü il tarixdə imzaladığı sərəncamda yubileylə bağlı 12 bənddən ibarət geniş tədbirlər planı təsdiq edir.

Naxçıvan muxtar Respublikası Ali Məcslinin sədri Vasif Talıbov prezidentə ünvanladığı məktubda Cəlil Məmmədquluzadənin yaradacılığını, onun məfkurəsini, vətəndaşlıq mövqeyini belə xarakterizə edirdi.

"1869-cu il fcvral ayının 22-də Naxçıvan şəhərində anadan olan Cəlil Məmmədquluzadə ilk təhsilini mollaxanada, sonra isə üçsinifli Naxçıvan şəhər məktəbində almış, 1887-ci ildə Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra İrəvan quberniyasının Uluxanlı, Naxçıvan mahallının Cəlilkənd və Nehrəm kəndlərində müəllim işləmişdir. Bu dövrdən başlayaraq pedaqoji fəaliyyətlə yanaşı, ədəbi fəaliyyətlə də məşğul olan Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında tənqidi realizm ədəbi cərəyanının və "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi kimi məşhurlaşmış, kiçik hekayə janrının və satirik publisistikanın ilk yaradıcısı kimi böyük şöhrət qazanmışdır.

İlk nömrəsi 1906-cı il aprelin 7-də işıq üzü görən "Molla Nəsrəddin" jurnalını nəşr etməklə Cəlil Məmmədquluzadə Azərbaycanda, eləcə də türk-müsəlman dünyasında satirik jurnalistikanın əsasını qoymuşdur. Mirzə Ələkbər Sabir, Mirzə Əli Möcüz, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid

Ordubadi, Ömər Faiq Nemanzadə, Əli Nəzmi, Əliqulu Qəmküsar kimi yazıçı və jurnalistlərlə dərin ideya yaradıcılıq əlaqəsi yaradan bu jurnal sonralar “Molla Nəsrəddin məktəbi” adlı qüdrətli mətbuat və ədəbiyyat məktəbi kimi formalaşmış, jurnalın təbliğ etdiyi demokratiya və azadlıq ideyaları ona ümumxalq məhəbbəti, beynəlxalq aləmdə böyük nüfuz qazandırmışdır. “Molla Nəsrəddin” jurnalı sayəsində Azərbaycanda karikatura rəssamlığı geniş yayılaraq inkişaf etmişdir.

Cəlil Məmmədquluzadə 40 illik yaradıcılıq fəaliyyətində müxtəlif janrlarda (dram, tragikomediya, hekayə, povest, şeir, publisistika, ədəbi tənqid, memuar və s.) yaratdığı əsərləri ilə Azərbaycan ədəbiyyatına yeni istiqamət vermiş. sənətdə mücərrədliyə, formalizm təzahürlərinə, ideyasızlıq meyillərinə qarşı kəskin mövqedə dayanmışdır. Ədəbiyyatı və mətbuatı real məzmuna – geniş xalq kütlələrinin mənafeyi uğrunda mübarizəyə istiqamətləndirmək, xalqın milli-mənəvi oyanışı, tərəqqi və dirçəlişi yolunda mübarizə aparmaq, milli istiqlal, vətənçilik ideologiyasını üstün tutmaq Cəlil Məmmədquluzadənin əsas yaradıcılıq qayəsidir…

Böyük demokrat və maarifçi Cəlil Məmmədquluzadə ədəbi yaradıcılıqla yanaşı, ictimai fəaliyyətlə də məşğul olmuş, Ümumittifaq Mərkəzi Yeni Əlifba Komitəsinin üzvü, Bakı Tənqid-Təbliğ Teatrının təşkilatçılarından biri kimi səmərəli fəaliyyət göstərmişdir.

Cəlil Məmmədquluzadə və onun ətrafında birləşən milli ziyalılar həqiqi Azərbaycançılığın əsaslarını yaratmışlar. Ədibin "Anamın kitabı" əsəri Azərbaycançılıq məfkurəsinin mükəmməl ədəbi manifestidir. Xalqımızın tarixi taleyi ilə bağlı olan bu məfkurə Azərbaycan milli maraqlarını önə çıxaran və qoruyan bir məslək və yol idi. Bu amili yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev deyirdi: *"Biz Cəlil Məmmədquluzadəyə sadəcə bir ədəbiyyatçı kimi, yazıçı kimi, publisist kimi yox, eyni zamanda böyük ictimai xadim və böyük siyasətçi kimi yanaşmalıyıq. C.Məmmədquluzadə öz yaradıcılığı ilə Azərbaycanın ictimai-siyasi həyatının inkişafında, milli ruhun yüksəlməsində böyük rol oynamışdır. Bu, təkcə ədəbiyyatda deyil, təkcə mədəniyyətdə deyil, bu, - siyasətdə böyük xidmətdir, ictimai həyatımızda böyük xidmətdir".*

Çoxəsrlik Azərbaycan ədəbiyyatının milli iftixarı olan Cəlil Məmmədquluzadənin yaradıcılığı yüksək qiymətləndirilmiş, ümummilli liderimizin himayəsi ilə böyük ədibin Bakı şəhərində və vətəni Naxçıvanda ev-muzeyləri yaradılmış, adi əbədiləşdirilmiş, Bakıda, Naxçıvan şəhərində və Cəlilabadda heykəlləri ucaldılmış, böyük ədibin 1967-ci ildə 100 və 1994-cü ildə 125 illik yubileyləri keçirilmiş, əsərləri böyük tirajla nəşr olunaraq xarici dillərə tərcümə edilmiş, haqqında sanballı elmi əsərlər yazılmış, film çəkilmişdir. (27, 184–185)

Son illər təntənəli şəkildə yubileyi keçirilən, sənətkarlardan biri də Naxçıvan diyarının yetirməsi, Azərbaycan ədəbiyyatının klassiki **Məmməd Səid Ordubadidir (1872–1958)**. Ordubadi qədər çox əsər yazmış ikinci yazıçı və ya alim tapmaq çətindir. Məqalə, felyeton, şeir, hekayə, pyes, roman və s. Janrlarda 6000 əsər yazmış yazıçı və ya publisist tapmaq çətindir. Əslində XIX əsr Ordubadın mühafizəkar mühitində böyüyüb boya-başa çatmaq, dövrün hadisələrini düzgün qiymətləndirmək yüksək təhsil görməmiş bir insan üçün çox çətin idi. Amma şəxsi mütaliəsi onu dövrünün fövqünə qaldıra bilmişdi. Bir jurnalist kimi "Yeni yol" və "Kommunist" qəzetlərindəki fəaliyyəti dünyanın hər üzünü (fəhləlikdən tutmuş həbsxanaya qədər) bir insanın ədəbi aləmdə uğurla addımlayacağından xəbər verirdi. M.S.Ordubadi öz sağlığında artıq klassikə çevrilmiş bir sənətkar idi. Təkcə bunu deyək ki, Azərbaycan tarixinin o dövrünü (XII əsri) yazmaq zərurəti meydanda olsa da, tarixçilərimiz ərəb və fars mənbələrini oxuya bilmədikləri üçün (bu ifadəni iki cür başa düşmək olar:

1) oxuya bilmirdilər – çünki həmin dilləri bilmirdilər;

2) oxuya bilmirdilər – çünki rejimdən qorxurdular).

XII əsr Azərbaycan tarixi haqqında əhəmiyyətli söz deyə bilmirdilər. M.S.Ordubadi təkcə "Qılınc və Qələm"i yazmaq üçün 306 ərəb və fars mənbəyinə müraciət etmişdi. Fars şovinistləri "saere bozorge-farsi Nizami" deyib dünyaya haray saldıqları vaxt Məmməd Səid subut etdi ki, Nizami türk oğlu türkdür. Buradakı vətənpərvəlik, millətsevərlik oxucunu valeh edir. Cəsarətlə demək olar ki, "Qılınc və Qələm" qədər oxunaqlı romanımız yoxdur. Xalqımız qədirbilən xalqdır. Bu böyük yazıçının yubileyi dəfələrlə qeyd edilmiş, büstləri qoyulmuş, adına küçə, kitabxana və s. qoyulmuşdur. Yazıçının 140 illik yubileyinin keçirilməsi haqqında verdiyi sərəncamda Respublikamızın prezidenti cənab İlham Əliyev göstərirdi: *"Çoxşaxəli ədəbi fəaliyyət göstərən və bir çox məşhur operaların librettolarının müəllifi olan sənətkar dövrün mühüm ictimai-siyasi hadisələrini zəngin faktlar, sənədlər əsasında dolğun əks etdirən əsərləri ilə tanınır".*

Naxçıvan MR Ali məclisinin sədri V.Talıbov yazıçının 140 illik yubileyində etdiyi çıxışında M.S.Ordubadinin bütün ədəbi yaradıcılığını və həyatının bütün dövrlərini geniş və səriştəli təhlil etmişdir. Yubiley çıxışında cənab V.Talıbov deyirdi: *"50 illik yaradıcılığı dövründə irili-xırdalı 6 mindən çox əsər yaradan Məmməd Səid Ordubadini məhz bu nadir keyfiyyətinə görə "zəhmətkeş yazıçı" adlandıran görkəmli filoloq-alim Abbas Zamanov yazırdı ki, "Ordubadinin əbədi irsi ilə tanış olduqca adam*

*heyrətdən özünü saxlaya bilmir. İnsan nə qədər yaradarmış, biliyi, mütaliəsi nə qədər dəri n, nə qədər geniş olarmış...”*

Yaradıcılığa şeirlə başlayan Məmməd Səid Ordubadi əlinə qələm aldığı ilk gündən özünün də dediyi kimi “vətənçi” mövqedə dayanmış, xalqı qəflətdən oyatmaq üçün mühitə maarif işığı salmağa çalışmışdır. Böyük ədibin 1906-cı və 1907-ci ildə Tiflisdə ilk yaradıcılıq məhsulu olan 2 şeir kitabı çap olunmuşdu. Onlardan birincisi “Qəflət”, ikincisı isə “Vətən və hürriyyəyt” adlanırdı. Bir-birinin ardınca nəşr olunan kitabların adları belə Ordubadi yaradıcılığının məqsəd və məramını aydınlaşdırmaq üçün kifayət qədər əsas verir. Məqsəd nə idi? Məqsəd - birinci növbədə xalqın düçar olduğu qəflətə, nadanlığa, xurafata, geridə qalmışlığa qarşı mübarizə idi ki, onun da yolunu “Molla Nəsrəddin” məktəbinin davamçısı kimi bövük ədib maarıfçilikdə görürdü. Şübhəsiz ki, özünü “vətənçi” adlandıran yazıçı vətənin azadlığı üçün sadəcə maarifçiliklə kifayətlənə bilməzdi. O, vətənin hürriyyəti üçün istər-istəməz inqilabi ideyanın da üzərinə gəlib çıxırdı. Lakin bununla belə real həyatda ictimai xadim kimi marksist-leninçi platformanın sadiq əsgəri olan Ordubadi, bədii yaradıcılıqda vətənçilik və azərbaycançılıq platformasının məğlubedilməz sərkərdəsi, bu məfkurəyə axıradək sadiq qalan qüdrətli sənətkardır.

Ordubadinin tarixi əsərlərinə diqqət yetirsək, aydın görmək mümkündür ki, onlar keçmiş tarixə yox,

müasir həyatın problemlərinə istiqamətlənmişdir Ordubadı nəhəng yaradıcılıq qüdrəti ilə bir yandan Azərbaycan xalqının böyük tarixi keçmişə, zəngin dövlətçilik ənənələrinə malik olduğunu göstərirdisə, ikinci tərəfdən öz kökünü bu tarixi keçmişdən götürən xalqın nə üçün müstəqil olmadığını düşünür, bədii əsərlərinin qəhrəmanı olan tarixi şəxsiyyətlərin dili ilə geniş oxucu kütləsinə "vətənçilik dərsi" keçirdi Ötən əsrin 30-cu illərində Stalin repressiyasının şiddətləndiyi bir dövrdə qələmə ahnmış "Qılınc və qələm" əsərinin qəhrəmanı Fəxrəddin deyirdı ki: *"Azərbaycanlılar hələ islamiyyətdən daha əvvəl azadlıqsevən bir xalq olmuş, öz azadlıq yollarında bitən maneələri məhv etməkdə məşhur olmuşlar"*.

Məmməd Səid Ordubadi yaradıcılığını təhlil edərkən aydın görmək; mümkündür ki, o, tarixi roman və sənədli əsərlərini təkcə tarixdə yol verilmiş boşluqları doldurmaq xatirinə yaratmamışdır. Bununla yanaşı o, eyni zamanda oxucusuna, bütövlükdə isə mənsub olduğu xalqa buraxılmış səhvlərin aradan qaldırılmasını, onların təkrar olunmamasını da təlqin edirdi. Tarixi keçmişi öyrənməyi vətənpərvərlik və milli iftixar hissinın təzahürü hesab edən ədib, bununla da azərbaycanlı olmağın nümunəsini göstərmişdir. Bütün bunlar deməyə əsas verir ki, Məmməd Səid Ordubadinın zəngin yaradıcılığı millilik və bəşəriliyi, yüksək vətəndaşlıq qayəsini, qabaqcıl ideyaları özündə birləşdirən azərbaycançılıq məktəbidir. (27, səh.72–73)

Azərbaycan ədəbiyyatı tarixində olduğu kimi, Azərbaycan ədəbiyyatşünaslığı tarixində də özünə fəxri yer tutan görkəmli nasir və alimlərimizdən biri də **Mir Cəlal Əli oğlu Paşayevdir**. “Mir Cəlal müəllim” o, belə müraciət formasını professor deyə çağırışdan daha üstün tutardı. Mir Cəlal müəllimin “Güldürən hekayələri” Mirzə Cəlil üslubunun ləyaqətli davamı idi. O, həmişə sadə əhvalatlarda böyük həqiqətlər görüb oxucusuna çatdıra bilirdi. Onun hekayələri həmişə güldürə-güldürə tərbiyə edirdi. Məsələn, “İclas quzusu”, “Bostan oğrusu”, “Təzə toyun nəzakət qaydaları bu qəbildəndir”, “Dirilən adam”, “Bir gəncin manifesti” kimi romanları dövrünün nəbzini tutan əsərlərdir. “Yolumuz hayanadır” romanında isə xalq şairi Mircə Ələkbər Sabirin həyat və fəaliyyəti təsvir edilir.

Mir Cəlal sözün həqiqi mənasında alim-müəllim idi. O, 1961-ci ildən ömrünün axırına qədər BDU-da Azərbaycan ədəbiyyatı kafedrasının müdiri olmuş, çoxlu elmi kadrlar yetişdirmiş əməkdar elm xadimi olmuşdur. Onun haqqında çoxlu namizədlik və doktorluq dissertasiyaları yazılmışdır. Buna görə də YUNESCO-nun 1908-ci ildə keçirəcəyi böyük şəxsiyyətlərin yubileyləri sırasında Mir Cəlalın da adı var idi. Buna görə də Mir Cəlalın yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının prezidenti 31 yanvar 2008-ci ildə sərəncam verdi. Həmin sərəncamın əsasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbov

7 aprel 2008-ci ildə Mir Cəlalın 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar tədbirlər planının təsdiq olunması haqqında sərəncam imzaladı. Tədbirlər planına görə Mir Cəlalın yubiley təntənəsi, onun yaradıcılığına aid elmi konfrans keçirilməsi və s. kimi 6 bənddən ibarət əhəmiyyətli tədbir var idi. Yubiley tədbiri 2008-ci ilin aprelində keçirildi. Burada Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbov Mir Cəlalın həyat və yaradıcılığına geniş təhlil verən giriş sözü söylədi. Giriş sözündə Naxçıvan rəhbəri dedi:

1908-ci ildə Cənubi Azərbaycanın Ərdəbil kəndində yoxsul bir ailədə doğulan Mir Cəlal Paşayevin uşaqlığı Gəncədə keçmişdir. Böyük qardaşının himayəsində yaşayan Mir Cəlal xeyriyyə cəmiyyətinin köməyi ilə ibtidai təhsil almış, 1924–1928-ci illərdə Gəncə Darülmüəllimində oxumuşdur.

Kazan Şərq Pedaqoji Institutunun ədəbiyyat şöbəsini və Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasını bitirən Mir Cəlal Paşayev 1932–1935-ci illərdə müəllimlik etmiş, “Kommunist” qəzetində şöbə müdiri, “Gənc işçi” qəzetində məsul katib işləmişdir. Azərbaycan Dövlət Universitetində dosent, 1948-ci ildən isə professor kimi fəaliyyət göstərən Mir Cəlal müəllim 17 il bu universitetin Azərbaycan ədəbiyyatı kafedrasının müdiri olmuşdur.

70 illik ömrünün tam yarım əsrini çətin, lakin mənalı və şərəfli bədii, elmi və pedaqoji işə həsr edən Mir Cəlal Paşayev klassik və müasir nəsrin ən yaxşı

ənənələri əsasında yetişərək mahir hekayə ustası və romanlar müəllifi kimi yüksəlmiş, böyük şöhrət qazanmışdır. Ədəbiyyatımızı rəngarəng obrazlarla zənginləşdirən istedadlı yazıçının qələminə məxsus olan 6 romanı, yüzlərlə hekayələri, eləcə də "Füzuli sənətkarlığı" və "Azərbaycanda ədəbi məktəblər" adlı sanballı elmi monoqrafiyaları bədii və ictimai fikir tariximizin çox qiymətli nümunələridir. Onun işləyib hazırladığı "Ədəbiyyatşünaslığın əsasları" və "İyirminci əsr Azərbaycan ədəbiyyatı" kitabları son 30 ildən artıq bir dövrdə Azərbaycan ali məktəblərində əsas dərs vəsaiti olaraq qalır. Səmərəli elmi fəaliyyətinə görə Mir Cəlal Paşayev 1969-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Mir Cəlal milli ruhlu yazıçı idi. Onun yaradıcılığından xalq həyatı və milli mənəviyyat, adət-ənənə məsələləri qabarıq xətlə keçir. Kiçik insanları böyük ədəbiyyatın əsas qəhrəmanları səviyyəsinə qaldıran Mir Cəlalın əsərlərində ölməz sənətkar Cəlil Məmmədquluzadənin ədəbi təsiri özünü göstərməkdədir. O, Cəlil Məmmədquluzadə yaradıcılığına üz tutaraq bu məktəbə xas prinsipləri yenidən dirçəltmiş, adi əhvalatlarda böyük həqiqətləri verə bilmişdir. Bu mənada Mir Cəlalın yaradıcılıq fəaliyyətini Cəlil Məmmədquluzadənin bədii-estetik ənənələrinin yeni tarixi şəraitdəki davamı kimi də qiymətləndirmək mümkündür. Mir Cəlal Paşayev, eyni zamanda Cəlil Məmmədquluzadə və bütövlükdə mollanəsrəddinçi məktəbin və ədəbi düşüncələrin

böyük tədqiqatçısı idi. Onun 1966-cı ildə yazdığı «Cəlil Məmmədquluzadənin realizmi haqqında» tədqiqat əsəri Mirzəcəlilşünaslığa layiqli töhfədir. Mirzə Cəlil və Mir Cəlal yaradıcılığındakı milli ruhun doğmalığını belə bir fakt da təsdiq edir ki, ədibin "Dirilən adam" romanını Həmidə xanım Məmmədquluzadə rus dilinə tərcümə etmişdir…

Şəxsiyyəti ilə yaradıcılığı bir-birini tamamlayan qüdrətli söz ustadının məhz bu məziyyəti - zülmə, ədalətsizliyə qarşı daim mübarizə aparması, qaranlıq mühitdə işıq axtarması, mənsub olduğu xalqın işıqlı günü üçün çalışması ona həmişəyaşarlıq bəxş etmişdir. Mir Cəlal yaradıcılığı, ədəbi-bədii prinsipləri dünən olduğu kimi, bu gün də aktualdır. Onun yaradıcılığı bu gün olduğu kimi, gələcəkdə də xalqımız tərəfindən seviləcək, həmişə insanlara mənəvi zövq verəcəkdir. (27, səh.130–131)

Naxçıvanda son illər yubileyi keçirilən ədəbiyyat xadimlərindən biri də Naxçıvan diyarının yetirməsi **İslam Əhməd oğlu Səfərlidir**. Səfərli öz sağlığında poeziyamızın klassiki səviyyəsinə yüksəlmişdi. Demək olar ki, onun yaşadığı dövrdə xüsusilə 50-60-cı illərdə onun qədər şeirinə müsiqi bəstələnmiş şair az tapılar. O, bədii yaradıcılığın bir çox novləri: şeir, poema, oçerk, novella, kinossenari, libretto, dram əsərləri kimi sahələrdə öz qələmini sınamış və uğur qazanmışdır. Onun pyesləri Azərbaycanın bir neçə səhnəsində tamaşaya qoyulmuşdur. 1950-ci illərdə ən uğurlu və tamaşaçı cəlb edən səhnə əsərlərindən biri

İslam Səfərlinin “Göz həkimi” adlı pyesi idi. İradə əsərin müsbət qəhrəmanı olduğu üçün hamı onu sevir qızına İradə adı qoyur. Yaxşı yadıma gəlir 1963-cü ildə M.Əzizbəyov adına Azərbaycan Dram teatrı binasında İslam Səfərlinin 50 illik yubileyində mən məruzə edirdim. Birdən “İradə adını İslam Səfərli adlar sistemimizə gətirmişdir” fikri başımda dolaşdı. Salonda əksəriyyəti bizim Universitetin tələbələri olmaqla çoxlu gənc qız var idi. Birdən İslam Səfərliyə müraciətlə dedim:

-İslam müəllim, baxın salonda nə qədər İradə olacaq!

-Xahiş edirəm kimin adı İradədir ayağa dursun!

Salonda canlanma, tamaşaçıların 30-40 faizi ayağa durdu. Hamı müəllifi alqışladı ki, onomastik sistemimizə bu adı İslam Səfərli gətirmişdir.

İslam Səfərli dünyasını tez dəyişsə də, o əsərlərində, mahnılarında yaşayır.

2013-cü ildə İslam Səfərlinin 90 yaşı tamam olurdu. Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri 18 yanvar 2013-cü ildə bu yubileyi keçirmək üçün sərəncam verdi. Bundan sonra 14 fevral 2013-cü ildə şairin yubileyi üçün 7 bənddən ibarət tədbirlər planı təsdiq etdi. Yubileylə bağlı elmi konfrans keçirilməsi, poçt markası hazırlanması tədbirlər planına daxil idi. Naxçıvan rəhbəri İslam Səfərlinin həyat və yaradıcılığını aşağıdakı kimi xarakterizə edirdi: *“1923-cü ildə Naxçıvanın Şəkərabad kəndində anadan olan İslam Səfərli ilk*

*təhsilini həmin kənddə almış, sonra Naxçıvan şəhərindəki 1 nömrəli məktəbdə oxumuşdur. Müharibə illərində 416-cı atıcı diviziyanın sıralarında şərəfli döyüş yolu keçən İslam Səfərli azərbaycanlıların alman faşizminə qarşı mübarizədə göstərdikləri şücaəti şair və publisist kimi vəsf etmişdir. Müharibə mövzusu gənc şairin bu dövr yaradıcılığında mühüm yer tutmuş, vətən torpağının müdafiəsi onun əsərlərində təsirli poetik lövhələrlə verilmişdir.*

*İkinci Dünya müharibəsi başa çatandan sonra ali təhsilini davam etdirən İslam Səfərli Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsini bitirmiş, "Şərq qapısı", "Azərbaycan gənciəri" və "Ədəbiyyat qəzeti"ndə işləmiş, Azərbaycan Dövlət Televiziva və Radio Verilişləri Komitəsində redaktor, ədəbi-dram verilişləri şöbəsinin müdiri olmuş, 1960–1973-cü illərdə isə Azərbaycan Yazıçılar İttifaqının poeziya və dramaturgiya bölməsində çalışmışdır.*

*17 yaşında ədəbi yaradıcılığa başlayan İslam Səfərli böyük bir yaradıcılıq yolu keçmiş, Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. İslam Səfərlinin mükəmməl bədii obrazlılığı ilə seçilən poeziyası bitkin vətənpərvərlik nümunəsidir. Nəğməkar şairin poetik nümunələrinə məşhur bəstəkarlarımız tərəfindən 200-ə yaxın mahnı bəstələnmişdir. Bu mahnılar bu gün də öz populyarlığını itirməmişdir.*

*Bir-birindən maraqlı poemalar müəllifi kimi Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutan İslam Səfərli dramaturq kimi də boyük uğurlar qazanmışdır. Onun pyesləri dəfələrlə Azərbaycan Akademik Milli Dram Teatrında və Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulmuşdur. İslam Səfərlinin müxtəlif vaxtlarda qələmə aldığı şeir və poemaları, dram əsərləri, oçerk, novella, libretto və kino ssenariləri, rus və türk dilli klassiklərin əsərlərindən etdiyi tərcümələr onu öz dövrünün böyük ədibi kimi məşhurlaşdırmışdır".* (30, səh.4)

Naxçıvan diyarının yetirdiyi klassik şairlərdən biri də 2013-cü ilin oktyabr ayında 80 illik yubileyi keçirilən **Məmməd Arazdır**. Məmməd İnfil oğlu İbrahimov 1933-cü ildə Naxçıvan MSSR Şahbuz rayonunun Nursu kəndində anadan olmuşdur. İlk təhsilini doğma kəndində alan Məmməd (qeyd etmək yerinə düşərdi ki, 1930-cü ildən yavaş-yavaş başlayan repressiya illərində atası Infil kişi oğlunun adını Məhəmməd çağırmaq arzusunda olsa da, bu ad yasaq idi, VVAQ şöbələrində Məhəmməd adı yox idi və uşağı həmin adla adlandırmaq olmazdı; ya Mamed, ya Məmməd, ya da Maqomed demək lazım idi). 1954-cü ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirən Məmməd, bir neçə il (1961-ci ildən) Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı Institutunda oxumuşdur. Ali təhsilli mütəxəssis kimi ömrünün axırına qədər nəşriyyat, jurnalistika sahəsində çalışmışdır. Məmməd Araz yazıçı-jurnalist kimi də fəaliyyət göstərmişdir. Bir müddət Azərnəşrdə bədii

ədəbiyyat şöbəsinin müdiri, sonra bu nəşriyyatın baş redaktor müavini, "Ulduz" jurnalının məsul katibi, "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor müavini olmuş, Həsən Əliyevin dəvəti və təklifi ilə 1974-cü ildən ömrünün sonuna qədər "Azərbaycan təbiəti" jurnalının baş redaktoru işləmişdir. O dövrdə üç Məmməd poeziyada daha çox görünürdü – biri Araz, biri İsmayıl, biri Aslan. Hər üçü yaxşı yazırdı. Amma Məmməd Araz poeziyasının məntiqi, fəlsəfi dərinliyi, mövzusunun ədəbiliyi qəlblərə ekspressiv təsir gücü daha qüvvətli idi. Doğrudur, şeirə mahnı bəstələnəndə o daha tez populyarlaşır, amma Məmməd Arazın şeirləri dərhal dillər əzbəri olur, böyük auditoriyalarda səslənir, bəzən zərbul-məsəl kimi işlədilirdi.

"Vətən mənə oğul desə nə dərdim", "Dünya sənin, dünya mənim", "Duman salamat qal, dağ salamat qal" və s. Onlarla bu kimi gözəl şeirlər Məmməd Arazı bütün xalqın sevimlisi etmişdi. Onun yaradıcılığı ulu öndərin diqqətini cəlb etmişdi. O, xalq şairi fəxri adı, xüsusi təqaüd və s. kimi yüksək mükafatlar almışdı. Naxçıvanda da bu böyük vətənsevər şairin böyük nüfuzu var idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbov 6 iyun 2013-cü ildə "Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında" sərəncam və tədbirlər planı imzaladı. Bu tədbirlər sırasında yubiley iclasının keçirilməsi, Naxçıvan şəhərindəki küçələrdən birinə Məmməd Arazın adının verilməsi, poçt markasının hazırlanması və s. var idi. Sonra Naxçıvan rəhbəri 28 iyun 2013-cü il

tarixdə imzaladığı sərəncamla şairin anadan olduğu Nursu (Şahbuz rayonu) kəndində ev muzeyinin yaradılmasına göstəriş verdi.

Naxçıvan rəhbəri M.Arazın yaradıcılığı haqqında deyirdi: *"Məmməd Araz düşünən və düşündürən şairdir. Buna görədir ki, onun yaradıcılığında lirik-fəlsəfi üslub üstünlük təşkil edır. Azərbaycan aşıq poeziyasında, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Hüseyn Cavid sənətində formalaşan poetik fəlsəfə Məmməd Araz yaradıcılığında yeni mərhələyə qədəm qoymuşdur. Şairin ötən əsrin 70-ci illərindən başlayaraq ardıcıl davam etdirdiyi insan və dünya barədə fəlsəfi düşüncələri böyük tərbiyəvi əhəmiyyətə malikdir. Hikmət və müdriklik onun poeziyasının mahiyyətindədir. Məmməd Arazın "Dünya düzəlmir ki, düzəlmir, baba!" şeirlər toplusu ilk sətrindən son səhifəsinə qədər xalqımıza xas olan müdrikliyin məhsuludur. Azərbaycaıı xalqının hikmət və qəhrəmanlıq xəzinəsi olan "Kitabi Dədə Qorqud"dla dünya mövzusu "Gəlimli-gedimli dünya, bir ucu ölümlü dünya" kimi təqdim olunursa, Məmməd Arazın poetik aləmində "dünya" monumental obraz səviyyəsinə yüksəlir:*

*Dünya sənin,*
*Dünya mənim,*
*Dünya heç kimin!*

*Məmməd Araz yaradıcılığının bəzəyi düşüncədir. O, oxucunu sözlər vasitəsi ilə düşündürür. Bu sözlərin isə hər birinin öz məna tutumu var. Sadəlik, poetik vüsət, ifadə özünəməxsusluğu - bütün bunlar Məmməd Araz yaradıcılığına fəlsəfi dəyər və hikmət gətirmişdir. Bu gün sözləri zərbi-məsələ, hikmətli sözlərə çevrilən az sayda şair var ki, onlardan biri də Məmməd Arazdır.*

*Şairin aforizmə çevrilmiş bəzi fikirlərinə diqqət yetirək: "Nahaqqa tən olan haqq itər"; "Dərd asan əkilər, çətin biçilər"; "Od halal olmasa, ocaq alışmaz"; "Qeyrətdən güc alar gücü az ölkə"; "Bu dünyada qurmaq çətin. yıxmaq asandır"; "Halal şöhrətlərə şöhrətdi zaman".*

*Azərbaycan poeziya sənətinin zəngin ənənələrini müstəqillik dövründə də yaşadaraq davam etdirən Məmməd Arazın adı bu gün böyük ehtiramla anılır. Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən Məmməd Araz poeziyasını Azərbaycan torpağından, tariximizdən ayrı təsəvvür etmək mümkün deyil.*

*Azərbaycan dilinə dərindən bələdlik, doğma vətənə bağlılıq, istiqlalçılıq, vətəndaş hisslərinin tərənnümü, fikir dərinliyi və sadəlik, poetik təfəkkürün genişliyi kimi yüksək yaradıcılıq keyfiyyətləri Məmməd Araz irsinə uzunömürlülük vermiş, onun geniş oxucu kütləsinin dərin rəğbətini qazanan əsərlərinə mahnılar bəstələnmişdir.*

*Məmməd Araz yaradıcılığında publisistikanın da özünəməxsus yeri vardır. Məmməd Araz publisistikası Azərbaycan bədii publisistikasının ən gözəl nümunələrindəndir. O yerdə ki, ciddi həyat mətləbləri şeirin ölçülərinə sığışmır, Məmməd Araz onları publisistika materialları kimi təqdim edir. Məmməd Arazın "Yer üzünün Qarabağ düzü", "Naxçıvan albomu", "Kür qovuşur Salyana", "Torpaqdan göyərən ucalıq", "Arpaçayın aşıb-daşan nəğməsi" kimi publisistik yazıları aradan uzun illər keçməsinə baxmayaraq, aktuallığını bu gün də itirməyən sənət nümunələridir. Əgər Naxçıvan torpağının yetirməsi rəssam Bəhruz Kəngərli ən yaxşı sənət nümunələrini "Naxçıvan yadigarında toplamışdırsa, bu torpağın digər bir qüdrətli yetirməsi Məmməd Araz da doğulduğu torpaq barədə, onun gələcəyi haqqında düşündüklərini "Naxçıvan albomu"nda cəmləşdirib, nəsillərə yadigar qoymuşdur.*

*Məmməd Arazın ən böyük yadigarı onun bitib-tükənməyən istcdadının məhsulu olan əsərləri - şeir və poemaları, publisistika və ıtərcümə materiallarıdır. O, iki şeydən: ədəbi irsinin və vətənin taleyindən narahat idi. Ədəbi irsinin yaşaması üçün öz oxucusuna müraciətlə "Yaşat məni" deyirdi"...* (30, səh.69)

Möhtərəm oxucu, cənab Vasif Talıbovun çıxışında səslənən fikirləri başqa formada mən özüm də deyə bilərdim. Bu bir filoloq kimi, mənim üçün çətin olmazdı. Amma istərdim ki, kitabın qəhrəmanı olan Vasif müəllimin özünün fikirləri ilə oxucu tanış olsun.

Məmməd Araz yaradıcılığına ulu öndərimiz Heydər Əliyev də yüksək qiymət verərək demişdir: *“Bu gün bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız, üçün nə qədər faydalı olduğunu bir daha bildik, bir daha dərk etdik ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yaradıcılığının nə qədər böyük əhəmiyyəti var”*. *“Ümidvaram ki, Azərbaycan xalqı daim müstəqilliyini qoruyub saxlayacaq və müstəqil Azərbaycanın ilk “İstiqlal” ordeninə layiq görülmüş şəxsiyyətlərdən biri kimi Məmməd Araz, Azərbaycan xalqının tarixində indi olduğu kimi, gələcəkdə də öz yerini tutacaqdır”*. (30, səh.69–71)

Yuxarıda ədəbiyyatımızın inkişaf problemləri. Yazıçı və şairlərə münasibət, ədəbiyyatımızın, bədii sənətimizin qiymətləndirilməsi-dəyərləndirilməsi sahəsində Naxçıvan rəhbərinin movqeyindən bəhs edərkən altı nəfər görkəmli Azərbaycan ədibinin yubiley təntənəsindəki çıxışlarını verdik. Bu geniş eridusiyalı insanın ədəbiyyat haqqındakı düşüncələri daha çox onun 1912-ci ildə Naxçıvan Muxtar Respublikası yazıçılar birliyinin konfransında etdiyi çıxışda öz əksini tapmışdır. Hələ ulu öndər saray adamları, sarayda yaşayıb kef görənlərlə şairləri yaradıcı insanları müqayisə edərək demişdi: *“Tarix tələbkar imtahançıdır. Hökmdarlar saray əyanları unudulub getmişlər. Azərbaycanın böyük, mütəfəkkir və humanist şairlərinin təravətdən düşməyən*

*misraları isə bu gün də öz hikməti və insanpərvərlik ruhu ilə dünyanı heyran qoyur".*

Buna bənzər fikri özü Naxçıvanda işləyəndə başqa formada demişdi. Deməli, Naxçıvan teatrının məsələsi – taleyi həll olunur, bəziləri təklif edir ki, qoy teatr öz hesabına yaşasın, yəni dövlət maliyələşdirməsin. Bu vaxt ulu öndər etiraz edərək onlara deyir: *"Sizin biriniz XX əsrin əvvəllərindəki firavan yaşayan bircə fransızın adını deyə bilərmi? Amma sadə ömür sürmüş Hüqonun, Balzakın adı dünyada məşhurdur, həmişə yaşayacaq. Ona görə də ədəbiyyata, elmə, sənətə belə yanaşmaq olmaz. Onlar daim dəstəklənməlidir".*

Öz müəllimindən dünya və axirət, müasirlik və klassika, ötərilik və əbədilik haqqında obyektiv ənənə və bilik almış Vasif Talıbov da eyni anoloji mövqedən çıxış edir. Naxçıvan rəhbəri Naxçıvan Muxtar Respublikası yazıçılar birliyinin konfransında deyirdi: *"Plutarx Sparta dövlətinın başçısı Likurqun xidmətini güclü dövlət qurmaqda yox, Avropa ədəbiyyatının bünövrəsi sayılan "İliada"nı xalqın içindən toplayıb kitab halına salmaqda görürdü. Müdrik dövlət xadimləri olan Makedoniyalı İsgəndər, Əmir Teymur, Şah İsmayıl Xətai, Mustafa Kamal Atalürk, Heydər Əliyev kimi şəxsiyyətlər elmin, mədəniyyətin böyük himayədarları kimi də tarixə düşüblər. Ədəbiyyata, sənət adamlarına xüsusi diqqətin kökündə nə dayanır? Bu diqqət hər şeydən əvvəl onunla bağlıdır ki, ədəbiyyat bütün tarix boyu xalqların yaradıcı*

*dühasının və intellektual potensialının göstəricisi olub. Xalqların həyatının müxtəlif mərhələlərində ədəbiyyat konkret tarixi missiyanı həyata keçirir. Hətta ordusu olmayan və buna görə də sərhədlərini qoruya bilməyəön xalqların milli yaddaş və mədəniyyət sərhədlərini onların malik olduqları yazılı və şifahi ədəbiyyat qoruyub. Bu, ədəbiyyatın tarixdə oynadığı ən mühüm missiyadır..."*

Cənab Vasif Talıbov, ümumiyyətlə, yazıçının vəzifəsindən danışarkən Məmməd Arazın "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" şeirini misal çəkir və sənətkarları-ədibləri belə bir mövqedə durmağa səsləyir. O, çıxışında deyirdi: "Yazıçı və vətəndaş mövzusu həmişə aktual olub. Bu gün də aktualdır. Yazıçı, dramaturq və şairiərimiz müstəqil və qüdrətli dövlətimizin layiqli vətəndaşları kimi fəal mövqedə dayanmalı, hadisələrə münasibətdə ortaya ziyalı mövqeyi qoymalıdırlar. Açıq deyək ki, oxucular bu mövqeyi bir sıra nəşr olunmuş əsərlərdə görə bilmirlər. Nə üçün? Ona görə ki, yazıçı və şairlərimizin özləri də az mütaliə edir, çalışqanlıq göstərmir, öz üzərlərində işləmirlər. Nə qədər qəribə olsa da bugünkü Naxçıvan ədəbi mühitində nəsr dramaturgiya, publisistika işlənməmiş sahə olaraq qalır. Yazıçılar Birliyində qeyd olunan nöqsanların aradan qaldırılması istiqamətində ciddi tədbirlər görülmür. Müzakirələr aparılmır. Əksinə, bu müzakirələri daha da intensivləşdirmək, kitabxana-larda oxucu günləri keçirmək, oxucuların, ədəbi tənqidçilərin fikir və rəylərini dinləmək, bunları nəzərə

alıb gələcək fəaliyyət üçün təbdirlər planı hazırlamaq lazımdır. Biz qələm sahiblərindən geniş dünyagörüşünün və ciddi yaradıcılıq müşahidələrinin məhsulu olan, vətənimizin dünəninə, bu gününə və gələcəyinə işıq salmağı bacaran, bu günün quruculuq ovqatını gələcəyə daşıyan yeni əsərlər gözləyirik.

Bu gün elə əsərlər lazımdır ki, formaca milli olduğu qədər məzmunca da milli olsun, azərbaycançılığa və bəşəri ideallarin tərənnümçüsünə çevrilə bilsin. Əgər əsərdə Azərbaycan dili özünün bütün zənginliyi, ifadə imkanlarinının genişliyi ilə əks olunmursa, xalqın həyat və əxlaq tərzi, tarixən formalaşmır, adət-ənənələri, milli dəyərlər sistemi lazımi səviyyədə göstərilə bilmirsə, onda belə əsərləri milli adlandırmaq çətindir. Onlar çap olunduğu andan unudulmağa məhkumdur. Çünki indiki qloballaşma şəraitində yalnız milli mahiyyət kəsb edən, bununla yanaşı bəşəri ideyaların carçısı olan və yüksək ədəbi normalara cavab verən əsərlər uzunömürlü sayıla bilər. Yaradılan bir belə əsərin - tarixi və ya etnoqrafik romanların, esselərin, fəlsəfi dramların və ya poemaların yayılması, təbliğ olunması qayğısına qalmaq, kütləvi informaisya vasitələrinin, internetin imkanlarından geniş istifadə etmək, onları elektron kitab formasında yaymaq lazımdır.

Son dövrlərdə ciddi problemlərdən biri də bədii tərcümə ilə bağlıdır. Bu olmadan bədii əsərləri tərcümə edib xarici ölkələrdə yaymaq mümkün deyil. Muxtar respublikamızda elmi və publisistik əsərlərin,

tarixi mövzuda yazılmış kitabların tərcüməsi sahəsində müəyyən təcrübə vardır. Lakin istər klassik, istərsə də müasir bədii əsərlərin tərcüməsi sahəsində boşluq qalmaqdadır. Muxtar respublikada xarici dillərdən birbaşa tərcümə ilə məşğul olan yazıçı və şairlərin olmasını əsas götürərək Yazıçılar Birliyi nəzdində bədii tərcümə mərkəzi yaratmaq mümkündür. 15 il əvvəl Yazıçılar Birliyi öz ətrafında 17 şair və yazıçını birləşdirirdisə, hazırda Birlik üzvlərinin sayı 80 nəfərdır. Sovetlər Birliyinin mövcud oldugu bütün dövr ərzində Naxçıvanda yaşayıb-yaradan şair və yazıçılann 150-dək kitabı çap olunmuşdursa, müstəqil dövlət kimi yaşadığımız 21 ildə 600-dən artıq kitab, almanax və tərcümə əsərləri çap olunmuş, "Naxçıvan" jurnalının naxcıvanlı ədəbi qüvvələrə həsr edilmiş xüsusi nömrələri buraxılmışdır.

Qeyd olunanlar onu göstərir kı, Naxçıvan Muxtar Respublikasında yaradıcı ziyalıların öz imkanlarını ortaya qoymaları üçün hər cur şərait yaradılmışdır. Bu şəraitdən səmərəli istifadə olunmalı, oxucuya, ictimai fikrə təsir göstərən, xalqımızın milli maraqlarına cavab verən əsərlər yaradılmalı, bədii əsərlər günümüzün bədii salnaməsinə çevrılməlidir.

## 18 ildə NAXÇIVANDA ELM VƏ TƏHSİLİN İNKİŞAFI

Bu mövzunun qısa şərhinə keçmək üçün cənab Vasif Talıbovun bir fikrini nəzərə çatdırmaq istərdim. Məncə, həmin sözlər fikrimizin anlanmasına xeyli kömək edər. O, çıxışlarının birində demişdi: *"Əgər möhtərəm Heydər Əliyevin 35 illik dövlətçilik fəaliyyəti vahid bir tam kimi götürülsə, heç şübhəsiz ki, maarifçilik, elm və təhsilin inkişafı bu müstəvidə qırmızı xətlə keçərdi".*

Eyni sözləri Naxçıvan miqyasında möhtərəm Vasif Talıbovun özü haqqında da demək olar. Bir Vətən oğlu olaraq Vasif Talıbov Naxçıvan diyarının elm və mədəniyyət mərkəzi olduğunu gözəl bilir: Əcəmi Naxçıvani, M.Nəsrəddin Tusi, Məhəmməd Hinduşah Naxçıvani, Fəxrədditn İbn Hinduşah Naxçıvani və onlarla başqaları Naxçıvan elminin, mədəniyyətinin söhrətini bütün dünyaya yaymışlar. Bu bir həqiqətdir ki, sovet dönəmində Moskvanın bütövlükdə Azərbaycana o cümlədən Naxçıvana münasibəti neqativ idi. Hətta keçən əsrin 40-50-ci illərində səmərəli işləyən 2 illik müəllimlər institutu da fəaliyyətini dayandırdı. Bu böyük bir həqiqətdir ki, Azərbaycanda elm və təhsilin inkişafı bilavasitə möhtərəm Heydər Əliyevin adı ilə bağlıdır. Bunu hətta ABŞ alimləri də görürdülər, bütün dünya görürdü. Məşhur Amerika alimi Odri Oldştadt "Azərbaycan-türkləri – dövlət və fərd rus hakimiyyəti

altında" adlı kitabında 1970-ci illərdə görülən tədbirləri (Azərbaycan dili, ədəbiyyatı, musiqisi, təhsili və s. haqqında H.Əliyevin fəaliyyətini – A.B.), milli musiqisinin elmin və ədəbiyyatın çiçəklənməsini Heydər Əliyev dövrünün fenomeni adlandırırdı.

Azərbaycan rəhbəri olduqdan bir az sonra Heydər Əliyevin Naxçıvanda elmin inkişafı üçün göstərdiyi səyləri Cənab Vasif Talıbov AMEA Naxçıvan bölməsi bioresuslar institutu üçün ayrılmış binanın əsaslı yenidənqurmadan sonra açılış mərasimində deyirdi: *"1972-ci ildə Azərbaycan Elmlər Akademiyası Naxçıvan Elm Mərkəzinin, Ordubad Təcrübə-Konstruktur Bürosunun və Batabat Astrofizika Rəsədxanasının yaradılması, elmin təcrübə ilə yaxınlaşmasına, regionlarda elmin inkişafına xidmət göstərən mühüm faktor idi. Bu dövrlərdə Muxtar Respublikanın rayonlarında tarix-diyarşünaslıq muzeylərinin yaradılması böyük nailiyyət idi.*

*Ümummilli liderimizin Azərbaycanda hakimıyyətinin birinci dövründə Muxtar Respublikada Regional Elmi Mərkəzlə yanaşı digər elmi-tədqiqat müəssisələri - Naxçıvan Kompleks - Zona Təcrübə Stansiyası, Naxçıvan Elmi Tədqiqat Baytarlıq Stansiyası və Naxçıvan "Araz" Elm İstehsalat Birliyi təşkil olunmuşdu. Bu elmi qurumlarm fəaliyyəti sayəsində Azərbaycanın digər ərazilərindən təcrid olunmuş vəziyyətdə yaşayan Muxtar respublikada elm inkişaf etmiş, dissertasiyalar müdafiə olunmuş, qazanılmış*

*elmi nəticələr istehsalata tətbiq edilmiş, tarix və etnoqrafiyanın öyrənilməsi sahəsində əhəmiyyətli addımlar atılmışdı..."*

Möhtərəm Heydər Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin təsis edilməsi haqqında" 7 avqust 2002-ci il tarixli sərəncamı Naxçıvanın hərtərəfli inkişafına yönəlmiş müdrik qərar, Muxtar Respublikanın tarixində ən parlaq hadisədir.

Möhtərəm Heydər Əliyev 2002-ci il avqust ayının 12-də Azərhaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması ilə əlaqədar Muxtar Respublika Ali Məclisində keçirdiyi müşavirədə demişdir: *"Əgər bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənliyini bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, xalqımıza, dünyaya göstərməsələr, sübut etməsələr, bəs bunu kim edəcəkdir? Bax, bütün bu səbəblərdən ınən Naxçıvan Muxtar Respublikasında Milli Elmlər Akademiyasının bölmələrinin yaradılması barədə qərar qəbul etmşəm".*

Müdrik rəhbərimizin bu qərarı uzun müddət ağır blokada şəraitində yaşayan, düşmən qüvvələr tərəfindən tarixi daim saxtalaşdırılan Naxçıvanda elmin, siyasi və informasiya məkanının formalaşması sahəsində yeni imkanlar yaratmaqla yanaşı, gənclərimizin, əhalinin iş təminatına da əhəmiyyətli təsir göstərmiş, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin yaradılması

hesabına 358 yeni iş yeri açılmışdır. Bütövlükdə, Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi 508 nəfərin işlə təmin olunmasına imkan verəcəkdir. Bu, böyük qüvvədir. Ondan səmərəli istifadə etmək, gənc alimlər, tədqiqatçılar yetişdirmək, onların potensialının ümummilli maraqlara səfərbər olunmasına şərait yaratmaq lazımdır.

Bu gün qarşımızda ciddı vəzifələr durur. Ötən dövrlərdə bu vəzifələrin icrası istiqamətində bir sıra işlər görülmüş, bölmənin elmi istiqamətləri müəyyənləşdirilmiş, çoxlu sayda elmi-tədqiqat materialları işlənərək üzə çıxarılmışdır. 2003-cü ilin avqustunda Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin Rəyasət Heyəti, Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat institutları üçün ən müasir tələblərə cavab verən bina istifadəyə verilmişdir. (27, səh.181–185)

Muxtar Respublika rəhbəri AMEA Naxçıvan bölməsinin işi ilə daim maraqlanır, onların iş şəraitinin yaxşılaşmasına çalışır. AMEA Naxçıvan bölməsinin bütün bunları təmir edilmiş, kabinetlər və laboratoriyalar yeni və modern avadanlıqlarla zənginləşmişdir. Cəmi 6 ildə AMEA Naxçıvan bölməsi iri addamlarla irəliləmiş elmin müasir səviyyəsində dayanmışdır. Buna görə bölmənin 2008-ci ilə aid ümumi hesabat yığıncağı geniş şəkildə keçirilmişdir. Burada AMEA Rəyasət heyətinin əksər üzvləri, AMEA Naxçıvan bölməsinin rəhbər işçiləri, Naxçıvan MR rəhbərləri iştirak edirdi. Hesabat

yığıncağında AMEA Naxçıvan bölməsinin sədri akad. İ.Hacıyev geniş hesabat məruzəsi ilə çıxış etdi. Naxçıvan MR Ali məclisinin sədri möhtərəm Vasif Talıbov da çıxış edərək bölmənin işini yüksək qiymətləndirdi, qarşıda duran vəzifələri müəyyənləşdirdi. Işin ümumi cəhətlərindən bəhs etdi. Hörmətli Vasif Talıbov elm haqqında çox maraqlı müqayisə etdi: *"Qədim dünyanın müdrik insanları deyirdilər ki, siyasət aqillərin çiynində və elmin üzərində dayananda uzunömürlü olur. O siyasət irəli gedir ki, onun elmi kökü var. Tarix o şəxsiyyətləri yaşadır ki, onlar elmə siyasət kimi yox, siyasətə elm kimi baxır, bunu dövlətçilik təcrübəsində həyata keçirməyi bacarırlar. Möhtərəm Heydər Əliyev belə şəxsiyyətlərdən idi. Təsadüfi deyil ki, 1993-cü ildə xalqımızın böyük oğlunun ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə Elmlər Akademiyası dağılıb ləğv edilmək təhlükəsindən, Azərbaycan elmi isə naşı eksperimentlərdən xilas oldu"...*

Bəllidir ki, ümummilli lider 2002-ci ilin avqustun 7-də AMEA Naxçıvan bölməsinin yaradılması haqqında sərəncam vermişdi. Bundan cəmi 15 gün sonra Naxçıvana gələrək Ali məclisdə müşavirə keçirmiş və yeni yaradılan bölmənin gələcək perspektivlərini də müəyyənləşdirmişdi. O, gözəl bir kəlam işlədirdi ki, "İqtisadiyyat nə vəziyyətdə olur olsun, elm inkişaf etməlidir" bu, Naxçıvanda elmin inkişafı üçün bir dövr oldu. Ulu öndər deyirdi: *"Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox*

*az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də indiyə qədər lazımi dərəcədə öyrənilməyib. Bunlara, mənim irəli sürdüyüm məsələnin öyrənilməsinə böyük ehtiyac var".* (27, səh.452)

Naxçıvan rəhbəri sonra AMEA Naxçıvan bölməsi qarşısında duran məsələlərə toxundu:

Bu gün Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin qarşısında ciddi vəzifələr durur. Birinci növbədə ölkə Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikasında elmin inkişafına göstərilən diqqət və qayğıdan nəticə çıxarılmalı, elmi-tədqiqatların faydalı iş əmsalı daha da artırılmalıdır.

Bölmənin işinin daha məhsuldar olması üçün yeni elmi istiqamətlər müəyyənləşdirilməli və təsdiq olunmalı, elmi-tədqiqatlar davamlı və sistemli xarakter almalıdır.

Fundamental və tətbiqi elmi-tədqiqatların təşkilinə, onların nəticələrinin praktikada tətbiqinə çalışmaq, Muxtar Respublikanın elmi-texniki potensialını qorumaq və inkişaf etdirmək lazımdır. Muxtar Respublikanın sosial-iqtisadi inkişafı ilə elmin inkişaf strategiyası bir-biri ilə əlaqələndirilməli, təbii və mənəvi sərvətlərimiz, xalq yaradıcılığı, etnomühit dərindən araşdırılmalı, akademiyanın Naxçıvan

bölməsinin Muxtar Respublikanın aidiyyəti nazirlikləri ilə əlaqəsi daha da gücləndirilməlidir.

Elmdə varislik olmadan elm inkişaf edə bilməz. Çalışıb daha çox perspektivli, gənc kadrları elmi tədqiqatlara cəlb etməli, onları aktual mövzulara istiqamətləndirməliyik. Elmdə, yalnız alimlik dərəcəsi almaq, soyadının əvvəlinə elmi titulların işlədilməsi xatirinə gələnlərə yer olmamalıdır. Alim elmi dərəcəsi ilə yox, elmə gətirdiyi yenilik, elmə verdiyi fayda ilə tanınmalıdır.

Bu gün elmi-tədqiqat müəssisələrində çalışanlar hər cəhətdən nümunə olmağı bacarmalı, öz nüfuzları ilə hörmət qazanmalı, əsl ziyalı mövqeyi tutmalı, ictimai fikrə fəal təsir gücünə malik olmalıdırlar.

Bir sözlə, qarşılıqlı şəkildə diqqət yetirməli olduğumuz sahələr çoxdur. Bunlardan ən vacibi isə keçmiş və müasir tariximizin öyrənilməsi, xalqımızın kimlik pasportu olan abidələrimizin tədqiq olunması, qorunub saxlanmasıdır. Bu sahədə hələ çox iş görülməli, Naxçıvamn 5-7 minillik tarixi elmi dəlil-lərlə sübut olunmalı, tarixi coğrafiyamız yenidən və dərindən öyrənilməli, tədqiq edilməlidir.

Azərbaycanm qədim və zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik tarixinə malik olan Naxçıvan diyarının tarixinin diqqətlə öyrənilməsi və təbliğ olunması vacibliyindən danışan ölkə rəhbəri cənab İlham Əliyev demişdir: *"Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində*

*yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir.*

*Bu vəzifələr, eyni zamanda Akademiyanın Naxçıvan bölməsinin qarşıdakı fəaliyyətinin əsas istiqamətini müəyyənləşdirir.*

*Əmin olduğumuzu bildiririk ki, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin kollektivi qarşıya qoyulan vəzifələrin öhdəsindən gələ biləcəkdir".* (27, səh.451–454)

Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri başqa sahələrdə olduğu kimi, AMEA Naxçıvan bölməsi işçilərinin maddi durumunu da diqqət mərkəzində saxlayır. Bu günlərdə Ali məclisin sədri Muxtar Respublika büdcəsi hesabına AMEA Naxçıvan bölməsinin işçilərinin əmək haqqını 50% artırmışdır. Bu, bölmə işçilərinin böyük sevincinə səbəb olmuşdur.

Ulu öndərin ikinci dəfə xalqın təkidli tələbi ilə Azərbaycan rəhbərliyinə gəlişi, xalqımızı və dövlətliçiliyimizi xilas etdiyi kimi, elmimizi və təhsilimizi də düzgün yola saldı. AXC-Musavat cütlüyü dövründə "Akademiya nəyə lazımdır" kimi fikirlər səsləndirildiyi kimi, təhsilli adamlara da münasibət dəyişmiş, hamı "Bəy" olmuşdu. Hər yerdə

bir özbaşınalıq olduğu kimi, təhsil və elm sahəsində də özbbaşınalıq baş alıb gedirdi. Ulu öndər 2002-ci il avqust ayının 12-də Naxçıvan Muxtar Respublikası ali məclisində keçirdiyi müşavirədə başqa məsələlərlə yanaşı, bu diyarda elmi kadrların hazırlanması məsələsi də səsləndirildi.

Möhtərəm prezident Heydər Əliyev Naxçıvanda elmin inkişafı üçün burada elmi şuraların işini canlandırmaq və yüksək hazırlıqlı elmi kadrlar; elmlər namizədi və elmlər doktoru hazırlamaq məsələsi gündəmdə qəti şəkildə dayandı. Bu, müəyyən mənada Naxçıvanda elmi kadrlar hazırlamaq işinə çağırış idi. Bu sətrlərin müəllifi və BDU-nun professoru Yusif Seyidov könüllü olaraq Bakıdakı dissertasiya Şurası üzvlüyündən çıxaraq Naxçıvan Dövlət Universiteti və AMEA Naxçıvan bölməsinin disseratasiya şurasına üzv gəldik.

Bizim rəhbərliyimizlə dissertasiya işi müdaifə edən kadrlar indi kafedra müdiri dekan, institut direktorunun müavinidir. Opponenti olduğumuz kadrlar isə AMEA müxbir üzvü, institut direktoru, Naxçıvanda bir neçə prorektor, dekan və s. vəzifələrdə çalışır. Biz bunu ulu öndərin çağırışına cavab kimi qiymətləndiririk.

Bundan sonra NDU-da bir neçə elmlər doktoru və namizədi yetişdirildi. Elmi kadrlar o dərəcədə çoxaldı ki, NDU-nun ayrıca, AMEA Naxçıvan bölməsinin ayrıca dissertasiya şurası yarandı. Onu da deyək ki, hər bir müdafiədən Naxçıvan rəhbərinin xəbəri olur,

hətta dissertasiya işinin avtoreferatı ilə tanış olur. Bu on iki il ərzində NDU kadr cəhətdən möhkəmləndiyi kimi, maddi-texniki cəhətdən də çox yüksəlmişdir. Universitetin keçmiş rektoru sadə vətənpərvər insan olan akad. Isa Həbibbəyli Universitetin yüksəlişindən bəhs ederkən həmişə deyir ki, bütün bunlar Vasif müəllimin gündəlik qayğısı sayəsində mümkün olmuşdur. Baxın: Avropanın bəzi cırtdan dövlətlərinin ərazisi 100-105 hektar olduğu halda, NDU-nun ərazisi 180 hektardır.

NDU-nu Azərbaycanımızın fəxri BDU ilə müqayisə etmək istəməzdik. Çünki bu elm ocağı bütün cəhətlərdən xalqımızın fəxridir. Amma inkişaf müddətini götürsək, onları müqayisə etmək olar.

1. NDU-nun hər fakültəsinin öz binası, öz akt salonu var.

2. NDU-nun 110 hektarlıq ərazisi başdan-başa abad və güllükdür.

3. NDU-nun hətta magistraturasının öz binası, öz akt salonu var.

4. NDU-nun Konservatoriyası, Opera studiyası, konser salonu var.

5. NDU-nun Tibb fakültəsi və xəstəxanası vardır.

6. NDU-nun tələbə teatrı vardır.

7. NDU-nun televiziya studiyası və s.

Saymaqla qurtarmaz. Bütün bu uğurların hamısı Azərbaycan rəhbərinin göstərişi, Naxçıvan rəhbərinin gündəlik qayğısı və NDU rəhbərliyinin işgüzarlığı sayəsində mümkün olmuşdur.

NDU-da olan bir sıra mərkəzlər Bakı ali məktəblərində yoxdur. NDU 1967-ci ildə Azərbaycan Pedaqoji Institutunun filialı kimi yaranmışdı. O vaxt bu ali təhsil ocağı iki mərtəbəli kiçik bir korpusda yerləşirdi. Buna baxmayaraq, ali məktəb özünü doğrultdu. Burada otuz il ərzində qazanılmış uğurlara yekun vurmaq üçün Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbov 20 may 1997-ci il tarixdə Azərbaycan ali təhsil ocağının 30 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Yubiley 1997-ci ilin oktyabr ayında keçirilmişdir.

On il ötür, artıq Pedaqoji Institut filialı olan ali məktəb indi böyük və adlı-sanlı Universitet olur. Bu otuz ilin 10 ili məhz Vasif Talıbovun gözü qabağında, onun köməyi ilə keçir və NDU inkişaf edir. Bu haqda Naxçıvan rəhbəri Respublika Prezidenti zati-aliləri Ilham Əliyevə ünvanladığı 14 mart 2007-ci il tarixli məktubda belə bəhs edir. Bu məktubda NDU-nun haqqında geniş məlumatı nəzərə alaraq onu geniş veririk: *"Naxçıvanda müstəqil ali məktəbin yaranması regionun elmi-mədəni inkişafına, ziyalı mühitin*

*formalaşmasına və ixtisaslı kadrların yetişməsinə öz təsirini göstərmiş, bütün bunlar nəzərə alınaraq institutun maddi-texniki və tədris bazasının yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanmışdır. 1974-cü ilin oktyabr ayında Naxçıvan Dövlət Pedaqoji İnstitutunun müəllim və tələbə heyəti ilə görüş keçirən respublika rəhbəri möhtərəm Heydər Əliyev bu ali məktəbin daha da inkişaf etdirilməsi, burada yeni ixtisasların açılması barədə tapşırıqlar vermiş, pedaqoji institutun bazasında dövlət universitetinin yaradılması zəruriliyini irəli sürmüşdür. 1990-cı il dekabrın 29-da Naxçıvan Dövlət Pedaqoji İnstitutun bazasında Naxçıvan Dövlət Universiteti təşkil olunmuşdur.*

*Naxçıvanda müstəqil universitetin yaradılması, onun inkişaf edərək ölkəmizin milli və dövlətçilik maraqlarına uyğun yüksək ixtisaslı kadrlar hazırlayan mühüm təhsil və elm mərkəzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin təhsil siyasətinin bariz nümunələrindən biridir. Dahi rəhbərimiz 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərərkən iki dəfə bu universitetdə keçirilən tədbirlərdə, o cümlədən universitetin 25 illik yubileyində iştirak və çıxış etmiş, Naxçıvan Dövlət Universitetinin 30 illik yubileyi ilə əlaqədar kollektivə təbrik məktubu göndərmişdir.*

*Dövlət qayğısının nəticəsidir ki, Naxçıvan Dövlət Unıversiteti ötən dövrlər ərzində xeyli inkişaf etmiş, universitetin yerləşdiyi ərazi genişləndirilərək 108*

*hektara çatdırılmış, 1600 yerlik yeni tədris korpusu, tibb fakültəsi üçün 600 yerlik korpus və 40 çarpayılıq müasir xəstəxana, 260 oxucu yerlik Elektron Kitabxana, Sosial idarəetmə və hüquq, iqtisadiyyat fakültələri üçün 600 yerlik korpus, açıq və örtülü idman korpusları tikilərək istifadəyə verilmişdir. Dövlət universitetində aparılan yeniləşmə və quruculuq tədbirləri tədris prosesinin daha da yaxşılaşmasına, dünya təhsil sisteminə inteqrasiyasına xidmət edir. Artıq bu gün klassik universitet statusu qazanmış Naxçıvan Döviət Universitetində 15 tədris korpusu, konservatoriya, tibb fakültəsi və xəstəxana, Elektron Kitabxana, televiziya studiyası, kompyuter sinifləri, internet mərkəzləri, çoxsaylı fənn kabinetləri və laboratoriyaları, Botanika bağı, tələbə teatr və opera studiyaları, şən və hazırcavablar klubu, "Universitet dünyası" muzeyi, "Qeyrət" nəşriyyatı fəaliyyət göstərir. Bundan başqa, Naxçıvan Dövlət Universitetində Təhsil-informasiya, İctimai təşkilatlar mərkəzləri mövcuddur. 1997-ci ildən ardıcıl olaraq fəaliyyət göstərən "Heydər Əliyev Universiteti" tələbə gənclərin milli dövlətçilik ruhunda böyüməsində, azərbaycançılıq, yetkin siyasi düşüncə və idarəetmə mədəniyyətinin aşılanmasında mühüm rola malikdir.*

*1992-ci ildə Naxçıvan Dövlət Universitetinin 25, 1997-ci ildə isə 30 illik yubileyləri keçirilmişdir. Qeyd olunan yubiley tədbirləri burada gedən inkişaf proseslərini ardıcıl izləməyə imkan verir. Əgər 1992-ci ildə universitetdə 22, 1997-ci ildə 31 ixtisas üzrə*

*tələbə hazırlanırdısa, 2007-ci ildə 42 ixtisas üzrə gənc kadr hazırlığı aparılır. 1992-ci ildə tələbələrin sayı 1980, 1997-ci ildə 2609 idisə, cari ildə 3865 olmuşdur. Universitetin 25 illik yubileyi dövründə burada 174 müəllim çalışırdı ki, onların da 90-ı elmlər namizədi, 4-ü elmlər doktoru idi. 1997-ci ildə, universitetin 30 illik yubileyi dövründə müəllimlərin sayı artaraq 253-ə çatmışdır ki, onlardan da 98-i elmlər namezədi, 6-ı elmlər doktoru, professor idi. Cari ildə isə Naxçıvan Dövlət Universitetində tələbə gənclərin təlim-tərbiyəsi ilə 345 müəllim məşğul olur. Müəllimlərin 132-i elmlər namizədi, 20-i elmlər doktoru, 2-i isə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüdür. Amerikanın, Avropanın, qonşu xarici dövlətlərin və Müstəqil Dövlətlər Birliyinin aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlıq edən Naxçıvan Dövlət Universitetində 308 xarici tələbə təhsil alır.*

*Fəaliyyət göstərdiyi müddət ərzində Naxçıvan Dövlət Universitetini bitirən 18 mindən çox məzun istər Muxtar Respublikada, istərsə də onun hüdudlarından kənarda müxtəlif sahələrdə çalışaraq səmərəli fəaliyyət göstərir. Naxçıvan Dövlət Universiteti məzunlarından 2-i Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, 5-i müxbir üzvü, 24-ü elmlər doktoru, professor, 150-i isə elmlər namizədi, dosentdirlər".* (27, səh.260–261)

1999-cu il oktyabrın 11-də Naxçıvan Respublikasının 75 illik yubileyi günlərində Naxçıvan

Dövlət Universitetinin 1600 yerlik yeni-əsas-tədris korpusunun açılışı oldu. NDU-nun əsas tədris korpusunun açılışında Respublikamızın prezidenti H.Əliyev, Naxçıvan MR Ali məclisinin sədri Vasif Talıbov və başqa yüksək qonaqlar iştirak edirdi. Təntənəli mərasimi Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun açdı: *"Möhtərəm zati-aliləri! Hörmətli qonaqlar və mərasim iştirakçıları! Naxçıvan Dövlət Universiteti və onun açılışına toplaşdığımız 1600 yerlik yeni tədris korpusu möhtərəm Heydər Əliyevin qayğısının konkret nəticəsi və əyani ifadələrindən biridir. İndi, müstəqil dövlətçilik şəraitində yaşadığımız bir dövrdə, 25 il əvvəl olmuş bir hadisəni xatırlatmaq yerinə düşər. 1974-cü ildə Naxçıvan Muxtar Respublikasının 50 illik yubiley tədbirlərində iştirak etmək üçün gəlmiş möhtərəm Heydər Əliyev Naxçıvanda ali təhsilin inkişafı ilə bağlı dəyərli fikirlər söyləmişdir. Bu ideyalardan biri də Naxçıvan Universitetinin yaradılması idi. Möhtərəm Heydər Əliyevin bilavasitə göstərişi ilə 1972-ci ildə filialdan müstəqil pedaqoji instituta çevrilən ali təhsil ocağının gələcək inkişafının istiqamətləri hələ o dövrlərdə müəyyənləşdirilmişdir.*

*Möhtərəm prezident, bu təhsil ocağı universitet kimi fəaliyyətə başladığı 1990-cı illərin ilk günlərindən Sizin diqqət və qayğınızla əhatə olunmuş, burada dövrün yüksək tələblərinə uyğun kadr hazırlığına başlanmışdır. Siyasi fəaliyyətinizin Naxçıvan dövründə Muxtar Respublikanın rəhbəri*

*kimi Siz iki dəfə Naxçıvan Dövlət Universitetində olmuş, təhsilin təşkili, kadr hazırlığı ilə əlaqədar öz tövsiyə və tapşırıqlarınızı vermisiniz.*

*1992-ci il noyabrın 12-də universitetin 25 illik yubileyində proqram xarakterli çıxışınız bu gün də xatirimizdədir. Həmin çıxış bu ali təhsil ocağının keçdiyi yolun əsl mahiyyətini açan və dəyərləndirən, müasir reallıqlara uyğun vəzifələri aydınlaşdıran tarixi sənəddir. Fikrimizcə, həmin çıxış eyni zamanda müstəqil Azərbaycanın ali təhsil sisteminin əsas problemlərini və inkişaf istiqamətlərini müəyyənləşdirən dövlətçilik siyasətinin daha bir ifadəsidir.*

*Sizin doğma Azərbaycana 30 illik rəhbərliyiniz dövründə milli kadr hazırlığı qırmızı xətlə keçir. 1970–80-ci illərdə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərinə təhsil almağa göndərilməsi təcrübəsi xüsusi yer tutmuşdur. 70-ci illərdə 10 minə qədər azərbaycanlı gənc təhsil almaq üçün respublikadan kənara göndərilmişdir. Bu, Azərbaycandan kənarda formalaşan, ətrafında böyük tələbə potensialı toplayan özünəməxsus bir universitet idi. Bu universitet yolunu keçənlər bir çox yerlərdə, o cümlədən yaxın xaric hesab edilən ölkələrdə də fəaliyyət göstərirlər. Onlar xalqımızın mənafeyini müdafiə edən, ona dayaq olan Azərbaycan diasporunun düşünən beyni, vuran qəlbidirlər.*

*Bu faktı xatırlatmaq ona görə xoşdur ki, möhtərəm Heydər Əliyev Naxçıvan Muxtar Respublikasına*

*rəhbərlik etdiyi qısa zamanda həmin ənənənin davam etdirilməsinə nail olmuş, Naxçıvan ilə İran və Türkiyə universitetləri arasında elmi, tələbə mübadiləsi sahəsində sıx əməkdaşlığın əsasını qoymuşdur.*

*Tikintisinə 1982-ci ildə başlanan, lakin məlum səbəblər ucbatından yarımçıq qalan tədris korpusu bu gündən möhtərəm Heydər Əliyevin himayəsi ilə özünün ikinci ömrünü yaşamağa başlayır.*

*Möhtərəm prezident, bütün bunlara görə Muxtar Respublika əhalisi və ziyalıları adından Sizə dərin minnətdarlığımızı bildirir, cansağlığı, uzun ömür, xalqımızın xoş gələcəyi naminə apardığınız yorulmaz mübarizədə yeni-yeni uğurlar arzulayırıq.*

*Möhtərəm zati-aliləri!*

*İcazə verin, universitetin yeni tədris korpusunun istifadəyə verilməsi münasibətilə keçirilən mərasimi açıq elan edim. Çıxış üçün sözü universitetin rektoru, professor İsa Həbibbəyliyə verirəm.*

Professor İsa Həbibbəyli:

*"Möhtərəm prezidentimiz!*
*Hörmətli qonaqlar!*
*Əziz müəllimlər və tələbələr!*

*Azərbaycan dövlətinin ayrılmaz parçası olan qədim Naxçıvan diyarı görkəmli dövlət xadimi, qüdrətli prezidentimiz qarşısında artıq iki gündür ki, hesabat verir. Bu, ölkə prezidentinə dərin sədaqətin və tükənməz məhəbbətin hesabatıdır, bu çətin, blokada*

*şəraitində də yaşayıb-işləməyin, qurub-yaratmağın mümkünlüyünün hesabatıdır.*

*Möhtərəm prezidentimiz, Azərbaycan ali məktəbi özünün 30 illik inkişafı, dirçəlişi üçün Sizə çox borcludur. Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin formalaşması və inkişafında da Sizin müstəsna əməyiniz və daimi böyük qayğınız mühüm rol oynamışdır.*

*Universitetimizin kollektivi heç vaxt unutmayacaqdır ki, 1972-ci ilin iyun ayında məhz Sizin qərarınızla Azərbaycan Pedaqoji Institutunun Naxçıvan filialı müstəqil Pedaqoji instituta çevrilmişdir. Siz 1974-cü ildə Naxçıvan Muxtar Respublikasının 50 illik yubileyi günlərində institutumuza gəldiniz və burada universitet açılmasının zəruriliyindən danışdınız. Nəhayət, 1992-ci il noyabrın 12-də, soyuq günlərin birində Siz institutumuzun 25 illik yubileyində iştirak etdiniz, bu ali təhsil ocağının qorunub saxlanması və inkişaf etdirilməsi barədə tövsiyələr verdiniz, həmin dövrdə bizə daim əməli kömək göstərdiniz. Elə həmin günlərdə institutumuzun binası ətrafında genişlənən ticarət obyektləri Sizin qətiyyətli tapşırığınız nəticəsində qısa müddətdə ləğv edildi.*

*Cənab prezident, bu bina Azərbaycanın ali təhsilinə Sizin böyük bir töhfənizdir. Bu binanın layihəsi Sizin tapşırığınızla 1970-ci illərin sonunda hazırlanmışdır. Sizin qayğınız sayəsində bu binanın inşası 1982-ci ilin dövlət tikinti planına salınmışdır. Lakin Siz Moskvaya*

*işləməyə gedəndən sonra bir çox işlər yarımçıq qaldığı kimi, bu binanın tikintisi də yarımçıq qalmışdı. Nəhayət, 14 ildən sonra Siz ikinci dəfə ölkəmizə rəhbərliyə başladıqdan sonra, yəni 1996-cı ilin oktyabr ayında Azərbaycan ədəbiyyatının romantik korifeyi Hüseyn Cavidin məqbərəsinin açılışı mərasimində iştirak etmək üçün Naxçıvana gələrkən bizim universitetin yeni tədris korpusunun tikintisi üçün vəsait ayrılması barədə göstəriş verdiniz. İnşa edilmiş bu bina Naxçıvan ali təhsil ocağına Sizin göstərdiyiniz qayğının və böyük təşkilatçılıq işinin çox səmərəli bəhrələrindən biridir.*

*Cənab prezident, onu da demək istəyirəm ki, universitetin yeni tədris korpusunun qısa müddətdə yüksək keyfiyyətlə tikilib başa çatdırılmasında Sizin tapşırıqlarınıza və tövsiyyələrinə dərin məsuliyyətlə, fədakarlıqla yanaşan, onlara ciddi surətdə əməl edən Ali Məclisin sədri Vasif Talıbovun da böyük zəhməti olmuşdur.*

*Möhtərəm prezidentimiz, Naxçıvan Muxtar Respublikasının 75 illiyi günlərində bu binanın istifadəyə verilməsi bizim universitetimizə Sizin çox böyük töhfənizdir. Bu, həm də Azərbaycanın ali təhsilinə çox gözəl, qiymətli bir ərməğandır.*

*Əziz prezidentimiz, bütün bunlara görə biz Naxçıvan ziyalıları və ictimaiyyəti, Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin kollektivi adından Sizə ürəkdən minnətdarlığımızı*

*bildiririk. Biz Sizə möhkəm cansağlığı, uzun ömür arzulayırıq.*

*Möhtərəm prezidentimiz, Naxçıvanda universitet yaratmaq, onun üçün bina tikmək, həm ali təhsilin inkişafına xidmət edir, həm də bu, Naxçıvan Muxtar Respublikasını böyük Azərbaycan üçün qoruyub saxlamağın və möhkəmləndirməyin əsas yollarından biridir. Bu böyük, əzəmətli universitet binası möhtərəm prezidentimiz cənab Heydər Əliyevin qədim türk oğuz yurdu, Azərbaycan torpağı olan Naxçıvana vurduğu daha bir Azərbaycan möhürüdür.*

*Bu gün açılış mərasiminə toplaşdığımız bu bina yaxın qonşularımız, qardaşlarımız üçün sevinc, qürur, başucalığı, düşmənlərimizə isə ən kəskin gözdağıdır. Bütün bunlar isə müdrik, böyük dövlət rəhbərimiz Heydər Əliyevin siyasətinin nəticələri və bəhrələridir.*

*Əziz prezidentimiz, Naxçıvanda bu ali təhsil ocağı 1967-ci ildən fəaliyyət göstərir. Cəmi dörd il bundan əvvəl Naxçıvan Dövlət Universitetində 1700 təldəbə təhsil alırdı, 16 ixtisas üzrə mütəxəssislər hazırlanırdı. Sizin böyük qayğınız sayəsində indi universitetimizin 3200 tələbəsi var, burada 34 ixtisas üzrə mütəxəssislər hazırlanır. Tibbi ixtisas üzrə fakültə açılmışdır. Universitetimizdə dövlətin və bələdiyyənin idarə olunması, gömrük işinin təşkili, yol hərəkətinin təşkili, ingilis və fransız dilləri, informasiya sistemləri və müasir dövr üçün çox faydalı olan digər ixtisaslar üzrə mütəxəssislər hazırlanır.*

*Dünyanın bir çox ölkələrinin ali təhsil ocaqları – Amerikanın Çikaqo, Fransanın Strasburq, Türkiyənin Ankara, Istanbul, Van, Ərzurum, Iran Islam Respublikasının Təbriz və Mərənd universitetləri ilə sıx əlaqələrimiz vardır. Universitetimizin 290 müəllimindən 6 nəfəri elmlər doktoru, professor, 130 nəfəri elmlər namizədidir. Burada Türkiyə Respublikasının 251 vətəndaşı da təhsil alır.*

*Universitetimizin 100 hektarlıq ərazisində 14 tədris korpusu vardır. Sizin böyük qayğınız sayəsində son dövrdə bu ərazidə hərbi-texniki təlim mərkəzi, idman bazası, konservatoriya, informasiya mərkəzi və digər mərkəzlər yaradılmışdır.*

*Ali təhsil ocağımızda 1997-ci ildən etibarən "Heydər Əliyev Universiteti" fəaliyyət göstərir. Bu, bizim üçün əsl mənada dövlətçilik məktəbidir. Məncə, müstəqil Azərbaycan Respublikası Heydər Əliyev Universiteti dövrünü yaşayır. Bu universitet milli müstəqillik və möhkəm dövlətçilik məktəbi, islahatlar, tərəqqi və yüksəliş universiteti deməkdir. Ən nəhayət, bu universitet yüksəliş, XXI əsrə çağırış, irəliyə doğru inkişaf, təşəbbüskarlıq universitetidir. Əslində, biz Naxçıvan Muxtar Respublikasının 75 illiyini bayram etdiyimiz bu günlərdə də Heydər Əliyev Universitetinin bir daha məşğələlərini keçiririk, dərslərini dinləyirik. Bu müdrik dərslər bizi XXI əsrə aparır.*

*Möhtərəm prezidentimiz, Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin bütün*

*kollektivi üçün bu müzəffər yürüşdü, müstəqilliyimiz uğrunda apardığımız çətin və şərəfli yürüşdə həmişə Sizinlə olubdur bu gün də Sizinlədir, bundan sonra da Sizinlə olacaqdır. Kollektivimiz bir daha xatırlatmaq istəyir ki, bu gün Sizin Azərbaycana ikinci dəfə prezident seçilməyinizin ildönümü tamam olur. Bu xoş gündə Siz universitetimizə belə bir gözəl ərməğan edirsiniz. Bu Sizin prezidentlik fəaliyyətinizin rəmzi mənalarından biridir. Həm də onu deməliyəm ki, universitetimizin yeni korpusunun açılışı Sizin ikinci dəfə prezident seçilməyinizin ildönümünə gözəl bir hədiyyədir.*

*Cənab prezident, Sizə möhkəm cansığlığı, uzun ömür arzu edirəm. Sizi əmin edirəm ki, universitetimiz Azərbaycan dövlətinin daxili və xarici siyasətinin inkişaf etdirilməsi üçün apardığınız böyük işlərdə bundan sonra da daim Sizə dəstək olacaqdır".*

Sonra buradakıların gurultulu və hərarətli alqışları altında Respublikamızın prezidenti cənab Heydər Əliyev çıxış etdi.

Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun təntənəli açılışında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi (12 oktyabr 1999-cu il):

*"Əziz dostlar! Əziz bacılar, qardaşlar!*
*Əziz naxçıvanlılar!*
*Əziz ziyalılar!*

*Mən bu gün Naxçıvan Dövlət Universitetinin müəllim, professor və tələbə kollektivi ilə burada bu görüşümdən həddən ziyadə şadam. Sizin hamınızı səmimi qəlbdən salamlayıram və sizə - Naxçıvan Muxtar Respublikasının ziyalılarına, gənclərinə, tələbələrinə, müəllimlərinə öz hörmət, ehtiramımı bildirirəm.*

*Naxçıvanın böyük və zəngin tarixi vardır. Bu tarixin dünya mədənyiyətinə, bəşər mədəniyyətinə böyük töhfələri olmuşdur. Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmiş və bu şəxsiyyətlər alimlər, münəccimlər, şairlər, memarlar, dövlət xadimləri, siyasi xadimlər olmuşlar. Naxçıvan həmişə Azərbaycanın yüksək ziyalı yetişdirən bir diyarı olmuşdur. Naxçıvan Dövlət Universitetinin bu gün mövcud olması Naxçıvanda min illər bundan öncə elmin, mədəniyyətin varlığının, inkişafının məntiqi nəticəsidir.*

*Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir. Universitetin yaranma tarixi haqqında burada artıq deyildi. Siz hamınız bunları bilirsiniz. Çox xoşbəxtəm ki, mən - bu universitetin yaranmasının təməlini qoyan insanlardan biri və onun təşəbbüskarı 30 il ondan sonra yenə də buradayam, sizinləyəm, bu universitetin ötən bu müddətdə nə qədər böyüməsini, inkişaf etməsini öz gözlərimlə görürəm.*

*Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədəliyev adına Dövlət Universitetinin bu günü məni bəlkə sizdən də çox sevindirir. Təbiidir, burada zəhmət çəkmiş hər bir insan, universitet yaranandan burada çalışanlar bu gün öz zəhmətinin bəhrəsini görürlər. Bu universitetdə vaxtilə təhsil alıb, indi müəllimlik edənlər də öz zəhmətlərinin nəticəsini görürlər.*

*Xatirimdədir, demək olar ki, 8-10 yaşımda mənim burnumdan qan açıldı. Anam nə qədər çalışdısa da, bu qanı saxlaya bilmədi. Anam məni yanına aldı, burnumdan qan axa-axa biz burada olan xəstəxanaya piyada gəldik. Buradakı həkimlər mənə kömək etdilər, yoxsa qan məni tamamilə aparırdı. O günlər yadımdadır. Mən bunları nə üçün xatırlayıram? Çünki bu yer keçmişdən, hələ qədim zamanlardan böyük bir məskən olmuşdur. Bura əvvəl rus ordusunun, sonra sovet ordusunun, sovet sərhəd dəstələrinin olmuşdur.*

*Bu universiteti, sonra isə onun filialını yaradanda fikirləşdik ki, bu, harada yerləşsin. O vaxt universiteti yerləşdirmək üçün burada olan sərhəd dəstəsini köçürmək lazım idi. Mən təşəbbüs göstərdim. Sərhəd dəstələri binalarının tikilməsinin respublika büdcəsindən keçməməsinə - o vaxt bu, İttifaq budcəsindən keçirdi - baxmayaraq, mənim xüsusi qərarımla Azərbaycan büdcəsindən pul ayrıldı. Mən indi sizə məlum olan yerdə o vaxt sərhəd dəstəsi üçün qərargah, bina tikdirdim, buranı boşaltdırdım və Naxçıvan Dövlət Pedaqoji İnstitutuna verdim.*

*Ancaq təbiidir ki, yeni yaranmış ali məktəb bu köhnə binalarda çox yaşaya bilməzdi. Ona görə də burada universitet şəhərciyi tikilməsi barədə qərar qəbul etdik. Bu universitet şəhərciyinin baş planı vardır. Buradakı tədris korpusları, yataqxana və bu böyük sahənin hamısı Naxçıvan Dövlət Universitetinə verilibdir.*

*Şübhəsiz ki, bizim gördüyümüz işlər öz nəticəsini verdi. Naxçıvan Dövlət Universiteti artıq özü üçün müəyyən şərait əldə etdi. Amma biz bununla kifayətlənmədik. Biz universiteti daha da genişləndirmək istəyirdik. Ona görə də bir neçə yeni binanın tikilməsi haqqında qərar qəbul edilmişdir. Bu binaların biri də indi biz açılışına toplaşdığımız binadır.*

*Bəli, mən istəyirdim ki, bu bina qısa vaxtda tikilsin. Amma sonrakı hadisələr bunların hamısını dağıtdı. Mən 1990-cı ildə Moskvadan yenidən Naxçıvana gələrkən bu işlə dərhal maraqlandım. Ancaq o vaxt elə bir imkanım yox idi. Mən 1991-ci ilin sentyabr ayında naxçıvanlıların iradəsi ilə Naxçıvan Muxtar Respublikasına rəhbər, Ali Məclisə sədr seçildim. O vaxt da bu barədə bir iş görməyə çalışdım. Xatirinizdədir, o zaman sadəcə, lazım idi ki, Naxçıvanda insanlar yaşaya bilsinlər, soyuqdan donmasınlar, elektrik enerjisi, vaxtlı-vaxtında su, ərzaq ala bilsinlər. Çünki o vaxt Ermənistanın blokadası nəticəsində Naxçıvan Azərbaycandan Naxçıvana gələn bütün xətlər - elektrik, qaz xətləri,*

*avtomobil yolları, dəmir yolu kəsilmişdi. Demək, o vaxt yaşamaq uğrunda mübarizə aparmaq lazım idi və biz mübarizə aparırdıq.*

*İndi qaz haqqında danışanda nə yadıma düşür? Mən Azərbaycanın bütün kəndlərini qazlaşdırdım, o cümlədən, Naxçıvan Muxtar Respublikasına da qaz xətti çəkdirdim. Mən həmin kəməri Dağlıq Qaradağdakı, Sisyandakı hündür dağların başından gətirdib Naxçıvana qaz çəkdirdim və Muxtar Respublikanın hər yerini qazlaşdırdım.*

*Mən 1990-cı ildə buraya gələndə Şahbuz rayonundakı Keçili kəndinə getdim. Onda hələ bura qaz gəlirdi. Mən yaşlı adamlarla görüşdüm. Bir yaşlı kişinin o vaxtkı sözü indi yadıma düşür. O dedi ki, oğlum, mən Keçilidə hər gün səhər durub kibriti çəkərək bu qazı yandıranda həmişə sənə dua etmişəm. Bu faktı nə üçün yada salıram? Bəli, o vaxtlar ki, Azərbaycanda, məndə imkanlar var idi, mən həmin imkanlardan tamamilə istifadə edib, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmağa çalışırdım. Ancaq sonra bunların hamısı kəsildi, Naxçıvan qazsız, elektrik enerjisiz, susuz, yolsuz qaldı.*

*Buna baxmayaraq, mən yenə də universitet haqqında düşünürdüm, əlaqə saxlayırdım. Ancaq o zaman çox iş görməyə imkan yox idi. Lakin mən 1993-cü ildə yenidən Azərbaycana rəhbər seçiləndən sonra Azərbaycanın hər yerinə, hər bir universitetinə, o cümlədən Bakı Dövlət Universitetinə göstərdiyim qayğı kimi, Naxçıvan Muxtar Respublikasının Univer-*

*sitetinə də qayğı göstərməyə başladım. İndi blokada şəraitində yaşayan, yolu olmayan, Bakı ilə ancaq təyyarə vasitəsilə əlaqə saxlayan Naxçıvan belə bir binanın tikilib başa çatmasını təmin edib və burada yeni bir tədris korpusu yaradıbdır. Bu, böyük hadisədir.*

*Amma bu, son illər Naxçıvanda gedən quruculuq işində yeganə hadisə deyildir. Biz dünən bir Ticarət-Tədris Mərkəzinin binasını açdıq. O, çox gözəl binadır. Bilirsiniz ki, dünən biz vaxtilə mənim təşəbbüsümlə tikintisinə başlanmış böyük məscid binasını da açdıq. İndi Naxçıvanda məktəblər tikilir. Azərbaycanın çox yerlərində məktəblər tikilmir, amma Naxçıvanda tikilir. Muxtar Respublikada xəstəxanalar tikilir. Yəni Azərbaycanın başqa bölgələrinə nisbətən Naxçıvanda ən çətin şəraitdə yaşayan insanlar quruculuq işləri ilə məşğul olurlar, zəhmət çəkirlər, fədakarlıq, vətənpərvərlik göstərirlər. Sağ olun.*

*Güman edirəm ki, bunlar Naxçıvanda quruculuq işlərinin hələ yeni mərhələsidir. Bundan sonra da çox işlər görüləcəkdir. Naxçıvan yaşayıb, yaşayır, Naxçıvan blokada şəraitində əyilməyibdir, dözübdür, bundan sonra da yaşayacaqdır.*

*Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il bundan öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir. Qonşu ölkələrdən - Türkiyədən, İrandan dünyanın başqa universitetləri ilə elmi, təhsil və başqa əlaqələri vardır. Bunlar hamısı bir daha onu sübut edir ki, Naxçıvanda təhsilə,*

*elmə, mədəniyyətə həmişə qayğı göstərilir, yüksək münasibət göstərilir və naxçıvanlılar da nəyə qadir olduqlarını dünyaya həmişə nümayiş etdiriblər.*

*Əziz dostlar, bu gün Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin yeni təhsil binasının açılışı münasibətilə mən sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, siz bu gözəl binadan universitetdə təhsilin, elmin inkişaf etməsi üçün daha da səmərəli istifadə edəsiniz.*

*Universitetin professor-müəllim heyətinə ali təhsilin, elmin, mədəniyyətin inkişafında yeni-yeni uğurlar arzulayıram. Universitetin tələbələrinə, Naxçıvan Muxtar Respublikasının bütün tələbələrinə, gənclərinə cansağlığı, yüksək vətənpərvərlik, təhsil uğrunda daim mübarizə aparmaq üçün əzm arzulayıram. Naxçıvan gənclərinə hərbi vətənpərvərlik hisslərini daha da yüksəltməyi arzulayıram. Naxçıvan gənclərinə arzu və tövsiyə edirəm ki, onlar indiki nəsillər kimi, bizim kimi Naxçıvanı qursunlar, yaratsınlar, inkişaf etdirsinlər, daha da yüksəltsinlər.*

*Biz XXI əsrə qədəm qoyuruq. XXI əsr gənclərin əsridir. Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycan dövlətini, müstəqil Azərbaycanı gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidir. Gənclərin vəzifəsi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, elmini inkişaf etdirməkdir.*

*Ümidvaram ki, Azərbaycanın bugünkü gəncləri, o cümlədən Naxçıvanın gəncləri, Naxçıvan Dövlət Universitetinin tələbələri bunların hamısına qadirdir və biz gələcəkdə onların gözəl işlərinin nəticələrinin şahidi olacağıq. Mən sizi bir daha təbrik edirəm. Sizin hamınıza cansağlığı, səadət, xoşbəxtlik, bütün işlərinizdə uğurlar arzu edirəm. Sağ olun".*

Prezidentin rəsmi icazəsindən sonra Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov 17 may 2007-ci il tarixdə NDU-nun 40 illik yubileyi ilə əlaqədar hazırlanmış tədbirlər planını təsdiq edir. Tədbirlər planı çox geniş olub. 13 maddədən ibarət idi.

Naxçıvan Dövlət Universitetində inkişaf və quruculuq işləri bircə gün dayanmamışdır. Onun işgüzar rəhbərinin təşəbbüsü, Ali məclis sədrinin himayəsi və Respublika rəhbərinin qayğı və sevgisi NDU-nun Şərqin ən nüfuzlu ali məktəbləri səviyyəsinə qaldırmışdır. Uzun müddət – 17 il NDU-ya bacarıqlı işgüzar, istedadlı bir alim akad. Isa Həbibbəyli rəhbərlik etmişdir. Elm və tədris sahəsində, tədris planlarının stabilləşməsində, Universitetin xarici əlaqələrinin genişləndirilməsində, bir çox ölkələrdən buraya tələbə axınının yaradılmasında, Universitetin Dissertasiya Şurasının nüfuzunun artmasında – bir sözlə hər şeydə Isa müəllimin xidmətləri danılmazdır.

Naxçıvanda təhsil problemlərindən danışarkən Naxçıvan müəllimlər Institutunun fəaliyyətini də qeyd etməmək olmaz. Bu institut 2000-ci ildə Azərbaycan

Müəllimləri Təkmilləşdirmə Institutunun Naxçıvan filialı kimi təşkil edilmişdi. 2003-cü ildə Naxçıvan rəhbərliyinin təşəbbüsü və Respublika rəhbərliyinin qayğısı sayəsində müstəqil institut kimi fəaliyyətə başlamışdır. Müstəqil pedaqoji təhsil müəssisəsi kimi "İbtidai təhsilin pedaqogikası və metodikası", "Məktəbəqədr təhsilin pedaqogikası və metodikası", "Pedaqogika və psixologiya" "Riyaziyyat və informatika" ixtisasları üzrə mütəxəssislər hazırlayan institutun bir fakültəsi, 4 kafedrası var. 2004-cü ildən ali təhsilin magistratura pilləsi üzrə kadr hazırlığı aparılır.

2001-ci ildən institutun nəzdində ictimai əsaslarla "Heydər Əliyev lektoriyası" fəaliyyət göstərir. İnstitut pedaqoji kadrların ixtisasının artırılması və təkmilləşdirilməsi işini də yerinə yetirir. İnstitutda 50-dən çox müəllim işləyir. Onlardan 3-ü elmlər doktoru, 22-si elmlər namizədidir. İnstitutun "Məktəb" nəşriyyatında metodik vəsaitlər, konfrans materialları, proqramlar çap edilir. İnstitutun "Xəbərlər"i çap olunur. İnstitut internet sisteminə qoşulmuşdur. Naxçıvan rəhbərinin qayğı və himayəsi ilə vaxtilə bir nəfər belə elmlər doktoru olmayan institutda indi 3 nəfər elmlər doktoru çalışır. Muxtar Respublika rəhbərliyinin gündəlik qayğısı sayəsində burada yeni yönümlü ixtisaslar hazırlanır. Məsələn, indiyədək analoqu olmayan bir məsələ məlumdur ki, hərbi hissələrdə komandirin siyasi məsələlər üzrə müavini olurdu. Onlar əsgərin psixoloji özünəməxsusluğunu,

bəzi stres durumunu nəzərə ala bilmirdilər. İndi ilk dəfə olaraq Naxçıvan rəhbərinin sifarişi ilə əsgəri hissələrdə həmin vəzifəni yerinə yetirmək üçün komandirin siyasi və mənəvi psixoloji işlər üzrə müavini ixtisası üzrə kadrdar hazırlanır. Bu çox humanitar addım və təşəbbüsdür.

Naxçıvanda təhsilin yüksəlməsində yeni ixtisasların açılmasında rolu olan Naxçıvan Özəl Universitetinin işindən də bəhs edilməlidir. Azərbaycanda yeni təhsil qanununa görə özəl təhsilin inkişafına dövlət qayğısı göstərilir. Naxçıvan Özəl Universiteti də bu real hüquqi zəmin üzərində yaradılmışdır.

Naxçıvan Özəl Universiteti də Naxçıvan rəhbərliyinin ölkədə təhsilin inkişafına göstərdiyi qayğının tərkib hissəsi kimi 1999-cu ildə yaradılmışdır. Bu universitetdə 11 ixtisas üzrə kadr hazırlanır. Ali məktəbin iki fakültəsi var:

1. Hüquq və yol nəqliyyatı.

2. Pedaqogika.

Universitetin əyani və qiyabi şöbələri vardır. 5 kafedra (filologiya, təbiət elmləri, humanitar elmlər, pedaqogika və psixologiya, xarici dillər) fəaliyyət göstərir. Ali məktəbdə laboratoriya, fənn kabinələri, kompyuter mərkəzi, kitabxana vardır. Burada Azərbaycan dili və ədəbiyyatı, ingilis dili üzrə diskussiya klubları fəaliyyət göstərir. Universitetdə

80-dan çox professor-müəllim heyəti çalışır. 2004-2005-ci tədris ilində əyani şöbə üzrə 468, qiyabi şöbə üzrə 361 tələbə təhsil almışdır. Universitet ABŞ-ın Perdu, Türkiyənin Qazi, Pamukkale, Qaziantepe Universitetləri ilə əlaqə saxlayır. (6, səh.161)

Muxtar Respublika rəhbərliyi bu özəl Ali məktəbin inkişafı üçün hər cür şərait yaratmış və yardım edir.

Naxçıvan rəhbəri elm və təhsil sahəsində göstərdiyi diqqət və qayğıya görə bir çox xarici ali məktəblərin, o cümlədən Şota Rustaveli adına Batumi Dövlət Universitetinin diqqətini cəlb etmiş və Naxçıvanla əlaqə saxlamağa meyl göstərmişdir. Həm NDU ilə, həm bütövlükdə Naxçıvan MR ilə sıx əlaqə saxlamaq, təcrübə mübadiləsi etmək zərurəti Naxçıvan MR nümayəndə heyətinin Batumi şəhərinə – buradakı Ş.Rustaveli adına Batumi Dövlət Universitetinə dəvət edilməsi və Naxçıvan rəhbərinin Batumi Dövlət Universitetinin fəxri doktoru diplomu alması, təkcə cənab V.Talıbov üçün deyil, bütün xalqımız üçün baş ucalığıdır. Bu münasibətlə doktor Vasif Talıbov gözəl bir nitq söyləmişdir. O demişdir:

*"Bu gün bizim üçün, Naxçıvan Muxtar Respubiikasınm nümayəndə heyəti üçün çox əlamətdar bir gündür. Qardaş Gürcüstanın Acarıstan Muxtar Respublikası Hökumətinin sədri cənab Levan Varşaiomidzenin dəvəti ilə dost ölkədə səfərdəyik. Bu səfərin əlaqələrimizin daha da genişləndirilməsində mühüm rol oynayacağına inanır və bizi Batumiyə*

*dəvət etdiyinə görə cənab Levan Varşalomidzeyə minnətdarlığımızı bildirirəm.*

*Gürcüstanla Azərhaycanı tarixi əlaqələr birləşdirir. Bizim uiu babalarımız qonşuluq və qardaşlıq şəraitində yaşayıblar. Qədim bir gürcü məsəlində deyilir ki. "Tatarits şeni dzmaa", yəni "azərbaycanlı sənin qardaşındır". Azərbaycan xalqına mənsub Koroğlu dastanındakı Gürcüoğlu obrazı xalqlarımızın qədim dostluğunun təcəssümüdür. Bəşəri dəyərləri özündə birləşdirən "Əli və Nino" əsəri gürcü-azərbaycanlı dostluğuna daha bir nümunədir.*

*Xalqlarımız arasındakı mənəvi yaxınlıq bədii yaradıcılığa da təsir göstərmiş, gürcü şairi Sabanidze milli qəhrəmanımız Babəkin azadlıq uğrunda mübarizəsini tərənnüm etmişdir. Nizami Gəncəvi Gürcüstanın barlı-bərəkətli torpağını, cəsur oğullarını vəsf etmiş, Şota Rustavelli "Pələng dərili cəngavər" əsərində mədəniyyət və ticarət mərkəzi kimi Naxçıvandakı Gilan şəhərini göstərmişdir. Naxçıvanlı maarifçi Məhəmmədağa Şahtaxtlı Tbilisidə "Şərqi-Rus" qəzetini, bövük ədib Cəlil Məmmədquluzadə isə məşhıır "Molla Nəsrəddin" jurnalını nəşr etdirərək buradan biitün Şərqə yaymış, Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərlı Tbilisi rəssamlıq məktəbində yetişərək formalaşmışdır.*

*Göründüyü kimi, Azərbaycan-Gürcüstan əlaqələri böyük tarixi köklərə malikdir. Müasir şəraitdə bu*

*köklər daha da dərinləşmiş, dostluğumuz və qardaşlığımız strateji xarakter almışdır.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev vahid coğrafi məkanda xalqlarımızın sıx birliyinin hava və su qədər vacib olduğunu nəzərə alaraq demişdir: "Kür çayı həmişə Gürcüstandan axmış, bundan sonra da axaraq gəlib Xəzər dənizinə töküləcəkdir. Azərbaycanın nefti də neft kəməri ilə Gürcüstana, Gürcüstan ərazisindən isə Qara dənizə axacaqdır".*

*Batumi Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə Fəxri Doktor adına layiq görülməyim münasibətilə universitetin Elmi Şurasının sədrinə və üzvlərinə təşəkkürümü bildirir, Fəxri Doktor diplomunu dostluğa verilən qiymət kimi dəyərləndirirəm. Əmin ola bilərsiniz ki, sizin mənə göstərdiyiniz yüksək şərəfi, dostluq və qardaşlıq münasibətlərini, mənə verdiyiniz bu yüksək qiyməti bundan sonra da dostluğumuzu möhkəmləndirməklə doğrultmağa çalışacaq, Şota Rustavelli adına Batumi Dövlət Universitetinin Fəxri Doktoru adını şərəflə daşıyacağam".* (30, səh. 24–25)

# 18 ildə NAXÇIVANDA MAARİF VƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI

Maarif-təhsil-mədəniyyət-elm bir xətt üzrə birləşən bu 4 sözün ifadə etdiyi anlayışların arasında bərabərlik işarəsi qoyulmasa da, onları bir-birindən təcrid etmək olmaz. İnsanlar cəmiyyət halında birləşəndən biliyə, elmə yüksək qiymət verilmişdir. Naxçıvan lap qədim dövrlərdən elmə, biliyə, maarifə, mədəniyyətə yüksək qiymət vermişdir. Məhəmməd Nəsrəddin Tusidən tutmuş şairə Heyranxanıma, Qönçəbəyimə qədər Naxçıvanda elmi-urfani bilik maarifçi ideya həmişə aparıcı dünyagörüşü olmuşdur. XIX əsrin əvvəllərinə qədər Azərbaycandakı mollaxanalarda Şərq sxolastikası, proqramsız, şagirdlərin yaşına və əxlaqına uyğun olmayan hekayətlər tədris edilirdi. XIX əsrin birinci rübündən sonra Çar Rusiyası müsəlman türk xalqlarına qarşı ikili siyasət yeridirdi. Məsələn, XIX əsrdə Zaqafqaziyanın mərkəzi sayılan Tiflisdə erməni və gürcü məktəbləri var idi. Amma türkcə məktəb açmağa icazə verilmirdi. M.F.Axundovun və A.Bakıxanovun ciddi səyləri nəticəsində Azərbaycanda da qəza məktəbləri açmağa icazə verdilər. Belə qəza məktəbi Bakıda, Gəncədə, Naxçıvanda, Qarğabazarda, Irəvanda açıldı. Naxçıvanda qəza məktəbinin 160 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan MR Ali məclisinin sədri cənab Vasif Talıbov məktəbin tarixi rolundan

bəhs edərək 28 fevral 1998-ci ildə imzaladığı sərəncamda deyirdi: *"Naxçıvanda maarifçilik hərəkatının inkişafında 1837-ci ilin martında ilk qəza məktəbi kimi açılmış, sonralar ibtidai məktəbə çevrilərək daha geniş miqyasda fəaliyyət göstərmiş Naxçıvan şəhər məktəbinin özünəməxsus rolu və xidmətləri vardır. Bu məktəb 1837-cı ilin martında Ehsan xanın oglanları - İsmayıl və Kəlbəli xanın təşəbbüsü və himayəsi ilə, onların şəxsi evində (indiki Cəmşid Naxçıvanskinin ev muzeyi) açılmış və Naxçıvanda dünyəvi təhsilin ilk mərkəzlərindən biri kimi milli ziyalıların yetismәsinə ciddı təsir göstərmişdir. O dövrdə İsmayıl və Kəlbəli xan bu məktəbin saxlanmasına hər il 200 manat gümüş pul sərf etmişlər…*

*Naxçıvandakı bu ilk məktəbin yetirmələri istər XIX əsrdə, istərsə də XX əsrin əvvəllərində - inqilabaqədərki dövrdə təkcə Azərbaycanda deyil, bütünlüklə Zaqafqaziya mühitində öz fəallıqları ilə seçilmişlər. Görkəmli yazıçılarımız Cəlil Məmmədquluzadə, Eynalı bəy Sultanov, Naxçıvanda ilk milli teatr yaradıcılarından biri Mirzə Sadıq Qulubəyov, Qori seminariyasının məzunları Mirzə Ələkbər Süleymanov, Əbülqasım Sultanov, Heydər Muradhasilov, Əliməmməd Xəlilov, Məmmədhüseyn Xəlilov, Rəhim Kazımbəyov, Novorossiyski İmperator Universitetinin məzunu Paşa ağa Sultanov, Moskva Universitetinin məzunu Fərəculla Şeyxov, Sankt-Peterburq Dağ-Mədən İnstitutunun məzunu Əli*

*Səfərov və başqaları məhz həmin məktəbi bitirmişlər”.* (27, səh.30–31)

Məktəbsiz bir ölkə ölümə məhkumdur. Böyük fransız yazıçısı Viktor Hüqo obrazlı şəkildə təhsilin-maarifin millətin gələcəyinə olan təsirini nəzərə alaraq deyirdi: *“Hər açılan məktəb bir həbsxananın bağlanması deməkdir”.* Bu fikir M.F.Axundovun fikrilə səsləşir. M.F.Axundov deyirdi: *“İndiyə qədər görülübmü bir savadlı adam qətl edə ya qarət edə?”*

Ümumilli liderimiz Heydər Əliyev isə daha real mövqedən çıxış edərək deyirdi: *“Təhsil xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib sahədir”.*

Bunu nəzərə alan Naxçıvan rəhbəri təkcə 2000-2005-ci illər arasında muxtar respublikasının müxtəlif yerlərində 59 məktəb tikdirmiş, 23 orta məktəb binası əsaslı təmir edilmişdir. Bu 59 məktəbin 13-ü yeni tipli idi. Bu temp bu gün də həmin səviyyədə davam edir.Naxçıvan rəhbəri dahi öndərin *“Təhsil, uşaqları, gələcəyə əsil vətəndaş, yüksək səviyyəli mütəxəssis kimi hazırlayan bir sahədir”* sözlərini əldə rəhbər tutaraq Muxtar Respublikada ümumtəhsil şəbəkəsinin inkişafına hər gün diqqət və qayğı ilə yanaşır. Bunun nəticəsidir ki, 2013-cü ildə Naxçıvan şəhərində 972 şagird yerlik 10 nömrəli, 846 şagird yerlik 16 nömrəli, Şərur rayonunun Sərxanlı kəndində 234, Dəmirçi kəndində 1026, Xanlıqlar kəndində 396, Şahbulaq kəndində 110, Gümüşlü kəndində 132, Babək rayonunun Cəhri kəndində 828, Şəkərabad kəndində

306, Çeşməbasar kəndiendə 234, Ordubad rayonundakı Sabirkənddə 378, Ələhi kəndində 88, Bist kəndində 154, Xurs və Nürgüt kəndlərinin hər birində 110, Nəsirvaz kəndində 88, Culfa rayonunun Kırna kəndində 306, Ərəfsə kəndində 320, Şurud kəndində 90, Teyvaz kəndində 110, Şahbuz rayonunun Kükü kəndində 198, Ayrınc və Qızıl qışlaq kəndlərinin hər birində 110, Kəngərli rayonunun Xok kəndində 1080, Sədərək rayonunun Sədərək kəndində 828 yerlik ümumiyyətlə 9169 yerlik 25 məktəb binasında tikinti, yenidənqurma və əsaslı təmir həyata keçirilmişdir. (68, səh.18–19)

Müqayisə edək: kənddə birinci sinifdən onuncu sinfə qədər 110 şagird oxuyur. Deməli bu normadan azdır, yəni hər sinifdə 10 nəfər oxuyacaq. Amma buna baxmayaraq ən ucqar kənddə də məktəb binası tikilib avadanlıqla təmin olunub. Buna bənzər hal; Ordubad rayonunun Pəzməri kəndində əhalinin ümumi sayı 50-60 nəfər olar. Buna baxmayaraq, orada da hər cür avadanlıqla təchiz olunmuş məktəb binası tikilmişdir. Bu, Azərbaycanda maarifin-təhsilin inkişafına dövlət qayğısı deyilmi?

Müasir təhsil sistemini qabaqcıl texnologiyalarsız təsəvvür etmək olmaz. Buna görə də orta ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi Naxçıvan rəhbərliyinin daim diqqət mərkəzindədir. Hazırda Muxtar Respublikanın ümumtəhsil müəssisələri hər

13 şagirdə bir kompüter olmaqla 3409 dəst komyuterlə təchiz olunmuşdur. Onlardan 2849-u və ya 84 faizi internetə qoşulmuşdur. Bundan əlavə, orta məktəblərdə 548 elektron lövhə quraşdırılmışdır ki, bundan da həm müəllimlər, həm də şagirdlər uğurla istifadə edirlər. Buna görə də təhsilin keyfiyyəti və nəticəsi ildən-ilə yüksəlir. Məsələn, təkcə 2013-cü ildə Muxtar Respublika orta məktəblərinin qəbul imtahanlarında iştirak edən məzunları-abituriyetlərindən 1677 nəfəri ali məktəblərin, 515 nəfəri isə orta ixtisas məktəblərinin tələbəsi olmşudur. Bunu da qeyd etmək lazımdır ki, ali məktəblərə daxil olarkən 500-dən yuxarı bal toplayan gənclərin sayı 2013-cü ildə 312 nəfər olmuşdur. Onlardan 6-sı prezident təqaüdünə layiq görülmüşdür.

Göstərmək lazımdır ki, tələbələrin belə yüksək bal toplamasına müsbət təsir göstərən amillərdən biri (bəlkə birincisi) Muxtar Respublika rəhbərinin ənənəvi olaraq onlarla görüşüb onları daha da ruhlandırmasıdır. Məsələn, 2013-cü ildə Ali məktəblərə qəbulda yüksək nəticələr əldə etmiş tələbələrlə görüşdə Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbov demişdi: *“Gənclərin formalaşması, lazımi bilik alması, müasir dünyanı dərk etməsi baxımından tələbəlik dövrü mühüm əhəmiyyət daşıyır. Ümummilli liderimiz Heydər Əliyev gənc kadrların yetişdirilməsi sahəsində ali təhsilin oynadığı rolu nəzərə alaraq deyirdi ki, “Ali məktəblərə daxil olan gənclər Azərbayeanın elmini,*

*mədəniyyətini, iqtisadiyyatını, ictimai-sosial həyatını inkişaf etdirəcək yeni nəslin bir dəstəsidir. Bu gənclərin qeydinə qalmaq, onlara qayğıkeş münasibət göstərmək, başlıcası isə, yaxşı təhsil vermək, ali məktəblərdə mənəvi mühiti möhkəmlətmək. gənclərimizi gələcəkdə müstəqil həyatda sərbəst və layiqincə çalışmağa hazırlamaq müqəddəs vəzifədir".*

Ulu öndərimizin təhsillə bağlı müəyyənləşdirdiyi vəzifələr bu gün müstəqil Azərbaycanda layiqincə yerinə yetirilir. Çünki hər bir dövlətin, cəmiyyətin inkişafında təhsil mühüm əhəmiyyətə malikdir. Təhsil olmasa, savadlı, hərtərəfli inkişaf etmiş gəncliyi yetişdirmək mümkün olmaz.

Azərbaycanda təhsilin inkişafı, bu sahədə güclü maddi-texniki bazanın yaradılması ümummilli liderimizin ali dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Ulu öndərin hələ ötən əsrin 70-ci illərində müəyyənləşdirdiyi təhsil strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dünyanın yeni reallıqları nəzərə alınmaqla davam və inkişaf etdirilir. Təhsilə qoyulan sərmayənin ölkənin intellektual gələcəyinə xidmət etdiyini bildirən hörmətli Prezidentimiz demişdir: *"Biz maddi dəyərlərimizi, iqtısadi potensialımızı insan kapitalına çevirməliyik".*

Ölkəmizdə təhsil sahəsində qarşıya qoyulan vəzifələrin icrası istiqamətində Naxçıvan Muxtar Respublikasında da ardıcıl tədbiriər görülür. Təkcə son 10 ildə muxtar respubiikada 51 min 828 şagird

yerlik 130 orta məktəb binası. 21 musiqi məktəbi, 17 məktəbəqədər, 6 məktəbdənkənar tədris müəssisəsi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir.

Muxtar Respublikada təhsil müəssisələrinin yeni informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması dünya təhsil və informasiya məkanına inteqrasiyaya geniş imkanlar açmışdır. Son illər ümumtəhsil məktəblərinə 3183 kompyuter dəsti verilmiş, hər 15 şagird bir kompyuterlə təmin olunmuşdur. Təhsil müəssisələrindəki kompyuterlərin 83 faizi internetə qoşulmuş, 500 elektron lövhə quraşdırılmışdır. Bütün bunlar isə təhsildə ilbəil keyfiyyət əmsalının artması ilə nəticələnmişdir. Ali məktəblərə qəbulun nəticəsindən görürük ki, yüksək bal toplayanların sayı hər il artır. 2012-ci ildə tələbə adını qazananların 267-si 500-dən yuxarı bal toplamışdırsa, 2013-cü ildə 312 abituriyent 500-700 intervalında yüksək nəticə göstərilmişdir.

Seçdiyiniz ixtisas üzrə yaxşı bilik almaq, peşə öyrənmək, ölkə və xalq üçün faydalı olmaq qarşınızda əsas fəaliyyət istiqaməti kimi dayanmışdır. Ali təhsil almaqla və peşə öyrənməklə yanaşı, xalqımızın adət-ənənələrinə, milli dəyərlərinə, eləcə də ümumbəşəri dəyərlərə dərindən yiyələnməlisiniz.

Bizim təhsilimizin məqsədi həm də yüksək mənəviyyatlı, vətənpərvər və ixtisaslı gənclər yetişdirməkdir. Unutmayın ki, Azərbaycanın gələcəyi sizə etibar olunacaqdır. Ölkəmizin rifahı üçün

çalışmalı, müstəqil dövlətimizə, Vətənimizə və xalqımıza layiq mütəxəssislər kimi yetişməli, daim azərbaycanlı olmağınızla fəxr etməlisiniz. (30, səh.58–59)

Xalq maarifinin tərkib hissələrindən biri məktəbəqədər tərbiyə müəssisələridir. Doğrudur, bu məsələyə son vaxtlaradək bir qədər diqqət zəifləmişdir. Məsələn, Bakıda uşaq bağçaları ya bağlanır, ya da bir idarədən alınıb başqasına verilirdi. Unutmaq olmaz ki, uşaq bağçaları kimin tabeliyində olmasından asılı olmayaraq ibtidai tərbiyə, təlim, hətta təhsil mərkəzidir. Çünki belə müəssisələrdə uşaqlar ilk bilik və vərdişləri qazanır. Onlar orta məktəb şagirdi olmağa hazırlanırlar. Əslində, bu, xalq maarifinin təməli, ilkin mərhələsdir. Muxtar Resupblikada bu sahəyə xüsusi diqqət yetirilir.

Son 18 ildə fasiləsiz olaraq yeni uşaq bağçaları tikilir, köhnələr təmir edilir, bazası və profili genişləndirilir. Təkcə 2013-cü ildə Naxçıvan və Ordubad şəhnələrinin hər birində 242, Heydərəbad qəsəbəsində 144 yerlik uşaq bağçası tikilib istifadəyə verilmişdir. Uşaqların istedadının erkən yaşdan üzə çıxarılması böyük əhəmiyyətə malikdir.

Bu cəhətdən Naxçıvan da unudulmur. Uşaqların musiqi və rəssamlıq və s. kimi qabiliyyətlərini üzə çıxarıb inkişaf etdirmək üçün Muxtar Respublikada çox iş görülür.

Naxçıanda maarifin təhsilin inkişafına nə dərəcədə əhəmiyyət verilir? sualına ən yaxşı cavabı Naxçıvan

MR Ali Məclisinin sədri cənab Vasif Talıbovun 2008-ci ildə Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin konfransında etdiyi çox geniş və dərin məzmunlu, araşdırmalarla, zəngin tarixi və elmi faktlarla dolu olan çıxışına müraciət etmək lazım gəlir. Bu məruzə o qədər geniş və əhatəlidir ki, demək olar ki, xalq maarifinin və ümumiyyətlə təhsilin bütün sahələrini əhatə edir. Onlardan bir neçəsini diqqətə çatdırmağı zəruri hesab edirəm. Məruzə o dərəcədə tarixi faktlarla, ibrətamiz misallarla zəngindir ki, onu geniş şəkildə verməmək olmaz:

*"Azərbaycanda təhsil və mədəniyyət qədim tarixə malikdir. Qobustan və ya Gəmiqaya təsvirləri bu torpaqda yaşayan əcdadlarımızın öz təlimlərini, məlumat və düşüncələrini yazılı şəkildə göstərmək, gələcək nəsillərə çatdırmaq əzminin ifadəsidir. Azərbaycanda yaşayan insanların zəngin bəşəri düşüncəsinin klassik nümunəsini bizim eradan 1500 il əvvəl yaranmış "Avesta"da görmək mümkündiir Bu böyük mədəniyyət abidəsində irəli sürülən "xeyir fikir, söz, xeyir əməl" triadası təlim və tərbiyə məsələlərinə həsr olunmuş ən qədim qaynaqlardandır. Öz zamanında bu təlim çox məşhur olmuş, latın və ərəb dilləri vasitəsi ilə dünyaya yayılaraq insan tərbiyəsinin əsas proqramına çevrilmişdi. Bizim eranın altı-doqquzuncu əsrlərində isə milli tərbiyənin əsasını təşkil edən ideyalar daha bir qədim mənəvi qaynağımtz olan "Kitabi-Dədə Qorqud"da toplanmışdır. Sonrakı dövrlərdə yaradıcı düşüncənin yüksək məhsulu olan*

*Yusif Küseyir oğlu, Möminə Xatın, Gülüstan və ya Qarabağlar türbə kompleksi kimi memarlıq abidələri ucaldılmışdı. Yaxud 5 min illik yaşı olan Naxçıvan şəhər mədəniyyətini götürün. Əgər əcdadlarımız mükəmməl elmə və təhsilə yiyələnməsəydilər qeyd olunan maddi və mənəvi mədəniyyət nümunələrinin yarada, ən qədim şəhər mədəniyyətinə malik ola bilərdilərmi?".* (27, səh.363)

Xalqımızın inkişafında Azərbaycan məktəbinin mühüm rolu olmuşdur. Tarixi faktlar sübut edir ki, eramızm 3-cü əsrindən başiayaraq ilkin savad təlimi verən ayrıca məktəblər yaradılmışdı. Bəzi mənbələrdə beş-yeddinci əsrlərdə Azərbaycanda ana dilində təhsil verən məktəblərin fəaliyyət göstərdiyi öz əksini tapmışdır.

Yeddinci əsrin ortalarından etibarən İslam dininin yayılması nəticəsində məktəblər məscidlərin nəzdində dini təhsil ocaqlarına çevrilmiş, onuncu əsrdə təhsil müəssisələrinin yeni növü - orta və ali təhsil verən mədrəsələr meydana gəlmişdir. Elxanilər dövrünə aid bir fərmandan məlum olur ki, on ikinci əsrin sonlarında Naxçıvanda 4 ali tipli mədrəsə, 60-a yaxın ibtidai mədrəsə fəaliyyət göstərmişdir. Naxçıvan və Ordubad mədrəsələrində Yaxın Şərq ölkələrindən gəlmiş tələbələrin təhsil alması sübut edir ki, dini ideologiyanın təsirinə baxmayaraq, Naxçıvan məktəbi özüniin qabaqcıl ənənələrini qoruyub saxlaya bilmişdi.

On doqquzuncu əsrdə dünyada cərəyan edən güclü maarifçilik hərəkatı Azərbaycanda, o cümlədən Naxçıvanda da yeni tipli təlısil ocaqlarının yaradılmasına səbəb olmuş, 1837-ci ildə Ehsan xan Kəngərli tərəfindən Naxçıvanda ilk qəza məktəbi açılmışdı. 1879-cu ildə üçsinifli şəhər məktəbinə çevrilən bu təhsil ocağının Naxçıvanda maarifçiliyin inkişafında özünəməxsus xidmətləri olmuşdur. Bundan sonra dünyəvi təhsil ocaqları, üsuli-cədid məktəbləri yaranmışdır. Böyük maarifçi Məhəmməd Tağı Sidqi 1892-ci ildə Ordubadda "Əxtər", 1894-cü ildə Naxçıvanda "Tərbiyə", iki il sonra isə "Qız məktəbi"ni təsis etmişdi. Bu dövrdə Naxçıvanda məhəlli məktəblər, xeyriyyə məktəbləri və "Rüşdiyyə" kimi tədris ocaqları da fəaliyyət göstərmişdir.

Ötən əsrin əvvəllərində Naxçıvanda maarif şəbəkəsi daha da genişlənmişdir. 1920-ci ildə muxtar diyarda 2000 şagirdi öziində birləşdirən 45, 1937-ci ildə isə 24 min şagird yerlik 147 məktəb fəaliyyət göstərirdi. Təbii ki, bu dövrdəki məktəblərin əksəriyyətinin maddi-texniki bazası aşağı səviyyədə idi. Lakin bu məktəblər savadsızlığın ləğvində əsl fədakarlıq göstərmiş, geniş mənada maarifçilik missiyasını həyata keçirmişdilər. (27, səh.364)

Ümummilli liderimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı təhsildə tənəzzülün, təhlükəli dağıdıcı meyillərin qarşısını aldı. 1993-cü ildə ziyalılarla görüşündə ulu öndərimiz deyirdi ki,

*"məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət haradan olursa olsun, nədən olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir".*

Naxçıvan MR Ali məclisinin sədri Heydər Əliyev kursunun və İlham Əliyev taktikasının Naxçıvan şəraitində həyata keçirilməsindən bəhs edərək daha sonra deyirdi: *"İnsan kapitalı yaratmaq cəmiyyət üçün, müstəqil dövlətimiz üçün yüksək mənəviyyatlı, savadlı kadrlar yetişdirmək, bütün pillələr üzrə təhsil islahatını başa çatdırmaq, təhsili davamlı inkişafa qovuşdurmaq, bir sözlə, bu sahədə ən müasir infrastruktur yaratmaq deməkdir.*

*Qeyd olunan vəzifələrin icrası istiqamətində Naxçıvan Muxtar Respublikasında ardıcıl tədbirlər görülmüş, təhsil quruculuğuna diqqət artırılmışdır. Aydındır ki, təhsilə qoyulan sərmayə xalqın intellektual sabahına qoyulan sərmayədir. Bu mənada ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında təhsil xərcləri hər il artım dinamikasına malikdir. Əgər 2004-cü ildə Muxtar Respublika büdcəsində təhsil xərcləri 17 milyon 743 min manat olmuşdursa, ötən il 43 milyon 396 min, bu il isə 50 milyon 195 min manat təşkil etmişdir. Başqa sözlə, Muxtar Respublikanın 2008-ci il dövlət büdcəsində təhsilə yönəldilən xərclər 2004-cü illə müqayisədə 2,8 dəfə artırılmışdır. Lakin bu da son hədd deyil. Təhsilə yönəldilən xərclər, dövlət vəsaiti hər il davamlı olaraq*

*artırılacaqdır. Məqsəd odur ki, təhsil şəbəkələri daha da genişləndirilsin, ən müasir təhsil infrastrukturu yaradılsın və bu əsas üzərində biliyin əsas meyara çevrildiyi təhsil mühiti formalaşsın. Biz bu məqsədə addım-addım, təkamül yolu ilə gedirik. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1995-ci il dekabrın 16-da keçirilən sessiyasında bildirmişdim ki, bizim bir platformamız var - bu, Heydər Əliyev quruculuq xəttidir. Bu xətt isə ölkəmizin gələcəyi ilə bağlıdır. Odur ki, təhsil bu gün bir nömrəli vəzifələr sırasındadır. Bu vəzifələrin isə mahiyyəti genişdir. O, bir çox sahələri, o cümlədən yeni məktəb binalarının tikintisini, təhsil şəbəkələrinin yeniləşdirilməsini nəzərdə tutur. 1996-cı üdən başlayaraq Naxçıvan Muxtar Respublikasında 29 min 88 şagird yerlik 92 ümumtəhsil məktəb binası tikilmiş, 22 min 300 şagird yerlik 41 məktəb binası isə əsaslı şəkildə yenidən qurulmuşdur. Bu il 1040 şagird yerlik 4 ümumtəhsil məktəb binasının tikintisi, 3494 şagird yerlik 4 məktəb binasının isə əsaslı təmiri və yenidən qurulması davam etdirilir. Bu o deməkdir ki, 12 il ərzində Muxtar Respublikada mövcud olan 222 ümumtəhsil məktəbinin 70 faizi yenidən qurulmuş, binalarla, ən müasir avadanlıqlarla təmin edilmişdir.*

*Şagirdlərin pulsuz dərsliklərlə təminatı da diqqət mərkəzində saxlanmış, 2005-ci ildən bu günə qədər Bakı şəhərindən 914 min 424 nüsxədən çox dərslik gətirilərək Muxtar Respublikanın ümumtəhsil məktəblərinə verilmişdir. Eyni zamanda ölkə*

*Prezidentinin himayəsi ilə nəşr olunan latın qrafikalı 346 adda 440 min bədii ədəbiyyat və 1450 ədəd Azərbaycan Milli Ensiklopediyası gətirilərək ümumtəhsil məktəblərindəki kitabxanalara paylanmışdır.*

*Cari ildə daha bir təhsil yeniliyinə nail olunmuş, ümumtəhsil məktəbi şagirdlərinin biliyinin qiymətləndirilməsi, məktəblər arasında sınaq imtahanlarının aparılması və ali məktəblərə sənəd qəbulunun yaxşılaşdırılması məqsədilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasınm Naxçıvan Muxtar Respublikası Regional Şöbəsi yaradılmışdır. Qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, Regional Şöbə tərəfindən artıq 3 dəfə ümumtəhsil məktəblər üzrə sınaq imtahanları aparılmış, seminarlar keçirilmişdir. Eyni zamanda, 2007-2008-ci tədris ilinin və əvvəlki illərin məzunları da daxil olmaqla ali məktəblərə sənəd qəbulu Regional Şöbə tərəfindən də həyata keçirilmişdir. Bundan başqa, bu il ilk dəfə olaraq əsas təlısil bazasında orta ixtisas məktəblərinə qəbul imtahanlarında nəzarətçi müəllimlər Regional Şöbə tərəfindən muxtar respublikanın ümumtəhsil məktəbləri müəllimləri arasından seçilmiş və qəbul ımtahanları müvəffəqiyyətlə həyata keçirilmişdir".* (27, səh.369)

**Mədəniyyət** məfhumu çox geniş anlayışdır. Buraya tarixi abidələrdən tutmuş insan nitqinə qədər çoxlu problemlər daxildir.

Haqqında bəhs etdiyimiz son möhtəşəm 18 ildə mədəniyyətin bütün sahələri üzrə Naxçıvanda böyük yüksəlişin şahidi oluruq. Bu, respublika rəhbərliyinin Naxçıvan haqqındakı daimi, doğma qayğısı və Naxçıvan MR Ali məclisi sədrinin yorulmaz fəaliyyətinin, daimi axtarışlarının və təşəbbüskarlığının nəticəsidir. Mədəniyyətin müxtəlif sahələrinin Naxçıvanda inkişaf tempinə nəzərə salaq.

*A. Muzeylər.* Xalqın maddi-mədəni irsini, inkişaf səviyyəsini qoruyub saxlayan, onu gələcək nəsillərə o cümlədən dosta habelə düşmənə göstərmək üçün muzeylər mühüm rol oynayır. Yuxarıda milli dəyərlərə Naxçıvanda göstərilən qayğı haqqında danışarkən bəhs etmişik. Təkrara yol verməmək üçün 18 il ərzində Naxçıvanda tarixi mədəni irsimizin üzə çıxarılması, qorunması üçün görülən nəhəng işlərdən qısaca bəhs etmək istərdik.

Ötən 18 il ərzində Heydər Əliyev sarayı, Heydər Əliyev muzeyi, “Xan sarayı” Dövlət tarix memarlıq muzeyi, Naxçıvan Dövlət Xalça muzeyi, Şahtaxtinsklər muzeyi, Naxçıvan Dövlət Tarix muzeyi, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram teatrı, Ədəbiyyat muzeyi, “Nuh Peyğəmbər”in məzarüstü türbəsi, Babək, Ordubad, Kəngərli, Şahbuz, Sədərək rayonlarında tarix-diyarşünaslıq muzeyləri, Muxtar Respublikanın şəhər və rayonlarında şəhidlərə abidə komplekstəlri yeni parklar, H.Cavidin, B.Kəngərlinin, M.Arazın ev

muzeyləri, ümumilikdə 202 mədəniyyət obyektinin tikintisi, 153 mədəniyyət obyektinin yenidən qurulması və əsaslı təmiri həyata keçirilmişdir.

*B. Musiqi.* Mədəniyyət və incəsənətin əsas elementlərini özündə birləşdirən musiqi həmişə insan ruhunun mənəvi qidası olmuşdur. Naxçıvan qədim zamanlardan elə geosiyasi mövqedə yerləşdirmişdir ki, burada müxtəlif xalqların musiqi mədəniyyəti qovuşur. Burada milli musiqimizlə yanaşı fars və ərəb musiqisi də geniş yayılmışdır. 1920-ci ildən sonra peşəkar musiqi inkişaf etməyə başladı. Bu dövrdən Naxçıvanda xalq mahnıları ilə yanaşı, Azərbaycan və Avropa bəstəkarlarının əsərləri çoxalətli orketslərdə ifa edilməyə başladı.

1930-cu illərdə yaradılmış Naxçıvan uşaq musiqi məktəbi milli musiqimizin təbliğində çox işlər görmüşdür. Naxçıvan MR Ali məclis sədrinin 19 oktyabr 2022-ci il tarixli sərəncamı ilə Naxçıvan uşaq musiqi məktəbinə H.Cavidin oğlu, musiqişünas filoloq-alim, tərcüməçi, Üzeyir Hacıbəyov məktəbinin ləyaqətli davamçısı Ərtoğrul Cavidin adı verilmişdir.

Naxçıvanda musiqinin inkişafına xüsusi qayğı göstərən MR rəhbəri 1975-ci ildə yaradılmış musiqi texnikumunun yaranmasının 30 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamaqla bu sənət ocağının işinə yeni müsbət stimul vermiş oldu. Sərəncamdan məlum olur ki, musiqi texnikumu 1974-cü ildə Naxçıvan MSSR təşkil olunmasının 50 illik

yubileyində iştirak etmək üçün Naxçıvana gələn xalqımızın ümummilli lideri Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə yaradılmışdır. Naxçıvan MR Ali məclisinin sədri Vasif Talıbovun 3 yanvar 2005-ci ildə imzaladığı sərəncamda deyilir: *"1975-ci ilin aprel ayından fəaliyyətə başlayan məktəbin ixtisaslı musiqiçi kadrların hazırlanmasında özünəməxsus rolu və xidmətləri vardır. Eyni zamanda, istedadlı gənclərin aşkara çıxarılaraq təhsilə cəlb olunması, xalqımıza məxsus musiqi ənənələrinin yaşadılmasında, mahnılarımızin, eləcə də dünya və klassik musiqisinin təbliği və öyrənilməsi sahəsində məktəbin fəaliyyəti təqdirəlayiqdir.*

*1975–76-cı tədris ilində məktəb öz fəaliyyətinə 4 ixtisas üzrə başlamışdır. Burada tədris olunan fortepiano, xalq çalğı alətləri, xalq mahnıları və muğam, simli alətlər ixtisasları üzrə ilk dəfə olaraq 31 nəfər tələbə təhsilə cəlb edilmişdir. Yarandığı ilk gündən məqsədyönlü fəaliyyət göstərən məktəbin 6 nəfər tələbəsi 1977-ci ildə ifaçılarm birinci Respublika müsabiqəsində uğurla çıxış edərək qalib adına layiq görülmüşdür. Sonrakı dövrlərdə keçirilən müsabiqələrdə də musiqi məktəbinin tələbələri daha böyük uğurlar qazanmışlar.*

*Hal-hazırda texnikum orta ixtisaslı musiqiçi kadrların və mütəxəssislərin hazırlanması vəzifəsini uğurla yerinə yetirir. Texnikumda 7 ixtisas: fortepiano, orkestr alətləri, xalq çalğı alətləri, xor dirijorluğu, musiqi nəzəriyyəsi, xanəndəlik, opera-*

*kamera müğənnisi ixtisasları iizrə 400-ə yaxın tələbə təhsil alır.*

*İlk dəfə 4 miiəllimlə fəaliyyətə başlayan məktəbdə hal-hazırda 100-dən çox ali və orta ixtisas təhsili olan pedaqoq gənc nəslin musiqi təhsilinin inkişafı və təlim-tərbiyəsi ilə məşğul olur. Müsbət haldır ki, bu müəllimlərin əksəriyyəti texnikumun məzunlarıdır.*

*1975-ci ildən ötən dövr ərzində Naxçıvan Musiqi Texnikumunun 1500-dən çox məzunu olmuşdur. Məktəbin məzunları respublikamızın mədəniyyət müəssisələrində, uşaq musiqi məktəblərində çalışaraq mədəniyyətin və incəsənətin inkişafında xidmətlər göstərirlər.*

*Musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərinə görə bu təhsil müəssisəsinin müəllim və məzunlarından 4 nəfəri Azərbaycan Respubklikasının,3 nəfəri isə Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmüşdür.*

*Azərbaycan musiqisi sahəsində ansambl sənətinin inkişafına müəllim və tələbələrdən ibarət təşkil olunan "Nəqşi-cahan" və "Əcəmi naxışları" ansamblları öz töhfəsini vermişdir".* (27, səh.166–167)

Azərbaycan Respublikasının prezidenti hələ 2006-cı il aprelin 17-də "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramında (2006–2008-cu illər)" xüsusi istedada malik olan uşaqların aşkara çıxarılması, onların sonrakı inkişafı sahəsində konkret vəzifələr müəyyənləşdirilmişdir. Respublika

prezidenti İlham Əliyevin bu sərəncamı ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın istedadlı gənclərinə olan qayğısından qaynaqlanırdı. Ulu öndər istedadlı Azərbaycan gənclərinə maddi və hüquqi yardım haqqında 4 fərman və sərəncam imzalamışdı:

1. Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında 13 sentyabr 1997-ci il tarixli sərəncam.

2. Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında Azərbaycan Respublikası prezidentinin 22 iyun 1996-cı il tarixli fərmanı.

3. Azərbaycan Respublikasının istedadlı gənc yazıçılarına Dövlət qayğısının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 1999-cu il tarixli fərmanı.

4. Azərbaycan Olimpiya Çempionları üçün Azərbaycan Respublikası prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası prezidentinin 10 oktyabr 2002-ci il tarixli fərmanı.

Bu fərmanlar Naxçıvanda geniş əks-səda verdi. Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbov cənabları özünün 19 aprel 2010-cu il tarixli sərəncamı ilə «Naxçıvan Dövlət Uşaq

Filarmoniyası yaratdı. Bu sərəncam Muxtar Respublika üçün böyük əhəmiyyətə malik idi. Sərəncamın preambulasında Naxçıvan MR Ali məclisinin sədri deyirdi:

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramında (2006-2010-cu illər)" xüsusi istedada malik olan uşaqların aşkara çıxarılması, onların sonrakı inkişafı sahəsində konkret vəzifələr müəyyənləşdirilmişdir.

Dövlət Proqramından irəli gələn vəzifələrin icrası istiqamətində Naxçıvan Muxtar Respublikasında Dövlət Uşaq Teatrı yaradılmış, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Ərtoğrol Cavid adına Naxçıvan Şəhər Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi, 5 məktəbdənkənar tədris müəssisəsi, 17 musiqi məktəbi tikilərək, yenidən qurularaq uşaq və gənclərin istifadəsinə verilmişdir. Hazırda Naxçıvan Muxtar Respublikasında 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbində 6818 şagird təhsil alır.

C. Naxçıvanda mədəniyyət və onun inkişafına göstərilən qayğıdan danışarkən mütləq teatrdan da danışmaq lazım gəlir.

Naxçıvan Azərbaycanın din möhkəm olan bölgələrindəndir. Ona görə də burada məhərrəm ayında "Şəbih" tamaşaları çox qədimdən var idi. Əgər bir qədər irəli getsək, islamdan əvvəl də mərasim

(kənd təsərrüfat işlərinin başlanması, məhsul toplanmasına başlanması və s. kimi) el tamaşhaları mövcud olmuşdur. Təsadüfi deyil ki, görkəmli ziyalı Eynalıbəy Sultanovun təşəbbüsü ilə Naxçıvanda 1882-ci ildə təşkil etdiyi truppa "Müsəlman şiə incəsənəti və dram cəmiyyəti" adlanırdı. 1884-cü ildə "Tatarka" (tatar qızı) bir pərdəli pyesini yazdı sonra Naxçıvan ziyalıları M.F.Axundovun komediyalarına müraciət etdi. 1883-cü ildə artıq ziyalı Hacı Nəcəf Zeynalovun geniş mənzilində "Müsyö Jordan və Dərviş Məstəli şah" əsəri ilə professional teatr yarandı. O vaxtdan 125 il keçir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cənab Vasif Talıbov 9 yanvar 2008-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevə məktub yazaraq həmin teatrın 125 illik yubileyinin keçirilməsi haqqında müvafiq tapşırıq verməsini xahiş etdi. Naxçıvan rəhbəri prezidentə ünvanladığı məktubda Naxçıvan teatrının keçdiyi 125 illik şərəfli yolu belə işıqlandırır: *"Naxçıvanda peşəkar teatrın yaranması maarifçi düşüncədən, xalqımızın mədəniyyətini inkişafın yeni mərhələsinə qaldırmaq zərurətindən irəli gəlmişdir. Təsadüfi deyil ki, bu teatrın təşəkkülündə və inkişafında Azərbaycan ziyalı nəslinin böyük korifeylərinin - Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Bəhruz Kəngərli, Məhəmməd Tağı Sidqı, Eynəlibəy Sultanov, Qurbanəlibəy Şərifov, Əliqulu Qəmküsar, Rza Təhmasib və başqalarının mühüm rolu olmuşdur.*

*Azərbaycan teatr sənətinin böyük ustadları Zülfüqar Hacıbəyov, Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Sidqi Ruhulla, Abbas Mirzə Şərifzadə, Hüseynqulu Sarabski Naxçıvan teatrı ilə sıx yaradıcıhq əlaqələri saxlamış, yerli aktyor və rejissorlarla birlikdə tamaşalar hazırlamış, teatrın piixtələşməsinə və peşəkarlıq səviyyəsinin artmasına çalışmışlar.*

*Bütün bunların nəticəsidir ki, Naxçıvan Dövlət Musiqili Dram Teatrı əsl sənət məbədi, yaradıcılıq mərkəzi kimi formalaşmışdır. Sənət yolu Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Üzeyir Hacıbəyov, Cəfər Cabbarlı, Səməd Vurğun kimi ölməz ədib və mütəfəkkirlərin zəngin yaradıcılıq ənənələri ilə sıx bağlı olan Naxçıvan teatrı daim mədəni inkişafın carçısı olmuş, maarifçilik yolu tutaraq cəhaləti və geriliyi qamçılamış, öz repertuarını zənginləşdirməklə ildən-ilə təkmilləşərək imzasını səhnə yaradıcılığı tariximizdə əbədi həkk etdirə bilmişdir.*

*Naxçıvan teatrı fəaliyyət göstərdiyi bütün dövrlərdə mütərəqqi ideyaları dəstəkləmiş, günün aktual məsələlərinə nüfuz etmiş, xalqın milli oyanışına çalışmışdır. Bu sənət ocağı Azərbaycan, Avropa və dünya ədəbiyyatının və incəsənətinin qabaqcıl ənənələrindən və nailiyyətlərindən bacarıqla faydalanmışdır.*

*Naxçıvan teatrının tarixi milli mədəniyyətimizin tərəqqisində əvəzsiz xidmətlər göstərmiş yaradıcı ziyahların və səhnə ustalarının fəaliyyəti ilə sıx*

*bağlıdır. Bu teatrda istedadlı aktyorların (Səməd Mövləvi, İsa Musayev, Mirhəsən Mirişli, İbrahim Həmzəyev, Zəroş Həmzəyeva, Əyyub Haqverdiyev, Xədicə Qazıyeva, Firuzə Əlixanova, Məmməd Quliyev, Əkbər Qardaşbəyov), rejissorların (Yusif Ulduz, Baxşı Qələndərli, Vəli Babayev), teatr rəssamlarının (Bəhruz Kəngərli, Adil Qazıyev, Əyyub Hüseynov, Məmməd Qasımov, Yuran Məmmədov), bəstəkarların (Adil Kəngərli, SəJər Rəcəbli, Məmməd Ələkbərov, Rəşid Məmmədov) və dramaturqların (Müzəffər Nəsirlı, Əliyar Yusifli, Hüseyn Razi, İslam Səfərli) bütöv bir nəsli yetişmişdir..."* (27, səh.295)

*"Naxçıvan Dövlət Musiqili Dram Teatrının istedadlı gənclər hesabına möhkəmləndirilməsi, aktyor və rejissor heyətinə göstərilən diqqət və qayğı bu sənət ocağının yaradıcılıq uğurlarının daha da artmasına səbəb olmuşdur. Azərbaycan teatr sənətinin inkişafındakı xidmətlərinə görə teatrın aktyor və rejissorlarından 1 nəfəri "Şöhrət" ordeninə, 4 nəfəri Prezident təqaüdünə, 6 nəfəri Prezident mükafatına, 12 nəfəri "Azərbaycan Respublikasının Xalq artisti", 1 nəfəri "Xalq rəssamı" 1 nəfəri "Əməkdar incəsənət xadimi", 19 nəfəri "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülmüş, 5 nəfərə "Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi", 33 nəfərə "Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti", 1 nəfərə "Əməkdar rəssam" 3 nəfərə "Əməkdar mədəniyyət işçisi" fəxri adları verilmişdir".* (27, səh.296)

Bu yüksək göstəricilərin çoxu son 18 ilin bəhrəsidir. Naxçıvan rəhbərinin məktubuna əsasən Azərbaycan Prezidenti cənab Ilham Əliyev C.Məmmədquluzadə adına Naxçıvan musiqili Dram Teatrının 125 illik yubileyinin keçirilməsi haqqında 31 yanvar 2008-ci il tarixdə sərəncam verdi.

Bu sərəncam əsasında Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbov 6 fevral 2008-ci il tarixdə teatrın 125 illik yubileyi ilə bağlı tədbirlər planını təsdiq etdi. Bu tədbirlər planı 9 bənddən ibarət idi. Bu tədbirlər sırasında yubiley tədbiri-zirvə toplantısı da var idi. Bu tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov çıxış edərək teatrın həm tarixini, həm indisini, həm də gələcək vəzifələrini diqqətə çatdırdı. O, teatrın tarixindən danışarkən ulu öndər Heydər Əliyevin sözlərinə istinad edərək dedi: *“Mədəniyyəti inkişaf etdirmək milləti inkişaf etdirmək, xalqı sivilizasiyaya qovuşdurmaq, milli ruhu yaşatmaq deməkdir. Bütün siyasi və dövlətçilik fəaliyyəti boyu bu taleyüklü missiyaya sadiq qalan, Azərbaycan mədəniyyətini himayə edən və inkişafa qovuşduran ulu öndər Heydər Əliyev Yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciətində ölkəmizdə teatr sənətinin keçdiyi yolu yüksək dəyərləndirərək demişdir: “İyirminci əsrdə bizim qazandığımız uğurların, o cümlədən müstəqil dövlət qurmaq əzminin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə on doqquzuncu əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır.*

*Azərbaycanda məhz belə bir dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaratmaq milli şüurun formalaşmasına güclü təkan verdi. Həmin dövrdə mədəniyyətin ən böyük nailiyyətlərindən biri də milli teatrın yaranmasıdır. 1873-cü ildə Həsən bəy Zərdabi Nəcəf bəy Vəzirovla birlikdə milli Azərbaycan teatrının əsasını qoydu. Bakıda azərbaycanlı tələbələrdən ibarət aktyor truppasının köməyi ilə Mirzə Fətəli Axıındovun komediyaları səhnəyə qoyuldu. Bakı tamaşasından sonra 1883-cü ildə Naxçıvanda teatr həvəskarlarının köməyi ilə Mirzə Fətəli Axundovun komediyalarındam tamaşalar verilmişdir".*

Ötən dövrlər ərzində Naxçıvan Dövlət Musiqili Dram Teatrının 60 və 100 illik yubileyləri təntənəli şəkildə qeyd olunmuşdur. Teatr 2 dəfə Ümumittifaq Teatr festivallarının baş mükafatına və Azərbaycan Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanına layiq görülmüşdür.

*"Naxçıvan Dövlət Musiqili Dram Teatrının fəaliyyəti ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrlərində daha da canlanmışdır. Naxçıvan teatrının inkişafı üçün mühüm qərarlar qəbul edən, teatr binasının yenidən qurulması, ən müasir səhnə qurğuları və avadanlıqları ilə təminatı barədə tapşırıqlar verən ulu öndərimiz bu qocaman sənət ocağının fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Naxçıvan teatrı köklü, əsaslı bir teatrdır. Yaxın Şərqin ən qocaman sənət ocaqlarından biri olan Naxçıvan teatrı böyük*

*bir yaradıcılıq yolu keçmişdir. Teatr bu ənənəni bu gün də qoruyub saxlayır”.* (27, səh.303)

Naxçıvan teatrının inkişafı üçün görülən işlər göz qabağındadır. Bu yaxınlarda teatr əsaslı surətdə təmir edilmişdir. Naxçıvan MR Ali Məclisinin sədri teatrın bütün fəaliyyətini daim öz nəzarəti və himayəsi altında saxlayır.

# SON 18 ildə NAXÇIVANDA SƏHİYYƏ İŞİNİN TƏŞKİLİ VƏ İNKİŞAFI

Şərqdə olduğu kimi, Naxçıvanda xalq təbabətinin tarixi min illərlə müəyyənləşdirilə bilər. Amma əsil dünyəvi səhiyyə-sağlamlıq mərkəzlərinin tarixi çox da qədim deyil. Mənbələrin verdiyi məlumata görə Naxçıvanda ilk tibb müəssisəsi 4 çarpayılıq olmaqla 1889-cu ildə Şərur qəzasında indiki Cəlilkənddə yaradılmışdır. 1892-ci ildə isə Cəhri kəndində 4 çarpayılıq – ikinci xəstə qəbulu məntəqəsi açılmışdır.

1920-ci ilin iyul ayının 28-də Naxçıvanda sovet hakimiyyəti qurulmuş, həmin ilin 10 oktyabrinda Naxçıvan İnqilab Komitəsinin dekreti ilə ilk səhiyyə şöbəsi yaradılmış və həkim Əli Abbasov onun müdiri təyin edilmişdir.

1921-ci ilin 24 dekabrında isə Azərbaycan Xalq Səhiyyə Komissarlığının Naxçıvan Əlahiddə Səhiyyə İdarəsi yaradılmışdır. Həmin illərdə Naxçıvan şəhərində xəstəxana, ambulatoriya, bu ambulatoriyada diş həkimi və diş texniki kabinələri, Ordubad şəhərində həkim məntəqəsi, Çənnəb, Culfa, Cəhri, Qıvraq, Əbrəqunus və Baş Noraşendə feldşer məntəqələri açılmışdır. Naxçıvanda malyariya ilə mübarizə məqsədilə Naxçıvan şəhərində, Baş Noraşendə malyariya stansiyaları yaradılmışdır. Lakin səhiyyədə aparılan bu islahatlar tam həcmdə nəticə vermir, əhalinin sağlamlıq məsələləri yarıtmaz olaraq qalırdı.

Bu bir həqiqətdir ki, Azərbaycanda həyatın bütün sahələri kimi, səhiyyənin inkişafi da ümummilli liderimiz Heyder Əiiyevin adı ilə bağlıdır. Respublikamızda, o cümlədən Naxçıvanda səhiyyənin inkişafında əsas dönüş məhz 70-ci illərdən başlanıb. O zaman Azərbaycanın hər yerində olduğu kimi, Muxtar Respublikamızın rayonlarında, kəndlərində tibb müəssisələri bu məqsəd üçün yararlı olmayan tikililərdə yerləşirdi. Həmçinin, ixtisaslı kadrların, xüsusilə kardloloq, onkoloq, ginekoloq, ftiziatr, nevropatoloq, sanitar həkimlərinin və orta ixtisas təhsilli tibb işçilərinin çatışmaması kəskin hiss olunurdu. Ucqarlarda isə tibb ocaqları yox idi. Muxtar Respublikada səhiyyənin səviyyəsini yüksəltmək üçün əsaslı tədbirlərə böyuk ehtiyac duyulurdu, Odur ki, 70-ci illərdə diyarımızda bu istiqamətdə də böyük vüsətli işlərə başlandı. ("Şərq qapısı", 18.01.2007)

1995-ci ilin dekabrından sonra, ulu öndərin Respublika prezidenti kimi daimi qayğısı sayəsində, naxçıvan rəhbərliyinin işgüzarlığı və bacarığı nəticəsində Naxçıvanda səhiyyə sağlamlıq işləri geniş vüsət aldı. Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri aydın idrak duyğusu ilə dərk edirdi ki, hər kiçik şeydən ötrü mərkəzi respublika hökumətini haraya çağırmaq lazım deyil. Öz gücü ilə görməli işlərə daha üstünlük vermək lazımdır. Bu işə yaşıllaşdırma, təmizlik işlərindən başlamaq lazımdır. Ona görə də 1 mart 2001-ci il tarixdə "Naxçıvan Muxtar Respublikasında yaşıllaşdırma, təmizlik və

abadlıq aylığının keçirilməsi haqqında" sərəncam verdi. Sərəncamda deyilirdi: *"Möhtərəm Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən muxtar respublikanın ekologiyasına dəyən zivanın aradan qaldırılması üçün ardıcıl tədbirlər müəyyənləsdirmiş 1993-cü il aprel ayının 2-də qəbul etdiyi qərarla hər il yaşıllaşdırma aylığnın keçirilməsini taleyüklü məsələ kimi irəli sürmüşdür.*

*Ötən müddət ərzində Muxtar Respublika ekologiyasına dəyən ziyanın aradan qaldırılması, yaşıllıq zolaqlarının bərpası və inkişaf etdirilməsi ilə əlaqədar xeyli iş görülmüş, təbii meşə sahələri artırılmış, İran və Türkiyədən həmişəyaşıl ağaclar alınıb gətirilərək əkilmək üçün şəhər və rayon mərkəzlərınə idarə və təşkilatlara paylanmış, parklar, yaşıllıq zolaqları və gülkarlıqlar salınmış, yeni yaşıllıq zolaqları üçün sahələr ayrılmış, magistral yolların, çayların, su hövzələrinin ətrafında bəzək ağacları əkilmişdir, muxtar respublika iqliminə uyğunlaşmış bəzək ağaclarının yetişdirilməsi sahəsində də müvafiq tədbirlət həyata keçirilmişdir".* (27, səh.108)

Bu sərəncam bu gün də davam edir və fəaliyyət göstərir. Naxçıvanda heç bir bölgəmizdə görmədiyimiz təmir-abadlıq işləri aparılır. Belə ki,

1. Hər həftənin şənbə günləri Muxtar Respublikanın hər yerində təmizlik, iməcilik keçerilir.

2. Dövlət tərəfindən maliyyələşdirilən bütün müəssisələrin işçiləri-adi işçilərdən tutmuş Ali məclisin sədrinə qədər onlar üçün ayrılmış sahədə yaşıllaşdırma, təmizlik və abadlıq işində iştirak etməlidir.

3. Muxtar Respublikanın kəndlərində idarə işçiləri özləri iməciliyə çıxır hər yerdə səhiyyə-sağlamlıq (təmizlik işləri) aparırlar.

4. Heç bir bölgədə olmayan daha bir müsbət hal, bütün kəndlərin bütün məhəllələrində iri təmizlik qutuları qoyulmuşdur. Müntəzəm olaraq tullantılar o qutulardan yığılır.

2006-cı ili Naxçıvan səhiyyəsində dönüş ili kimi qiymətləndirmək olar. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali məclisi sədrinin 2006-cı il 03 iyul tarixli fərmanı ilə “Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi haqqında əsasnamə” təsdiq olunmuşdur.

Elə həmin il tikintisi cəmi bir ilə başa çatdırılan Naxçıvan şəhərində böyük diaqnostika mərkəzi istifadəyə verildi. 2006-cı il dekabrın 21-də bu diaqnostika mərkəzinin açılışına Bakıdan Respublika prezidenti cənab Ilham Əliyev başda olmaqla böyük bir nümayəndə heyəti gəlmişdi. Indiki kimi yadımdadır.

2006-cı il dekabrın 21-i idi. İndiki Tibb Universitetinin dəyirmi salonunda YAP Nəsimi rayon təşkilatının illik yığıncağı keçirilirdi. Birdən Tibb Universitetinin rektoru, millət vəkili professor Əhliman Əmiraslanov salona daxil oldu. Bir azdan söz alıb tribunaya çıxdı və sevinc-fərəh hissi ilə bildirdi ki, bu ayaq Naxçıvandan Bakıya hava limanından bu məclisə gəlmişəm. Biz Naxçıvanda bir diaqnostika mərkəzi açdıq ki, Avropada analoqu yoxdur. Hamı sevinclə onun bu sözlərini alqışladı. O, Prezidentin təbrik nitqindən bir neçə cümləni toplantı iştirakçılarına çatdırdı. Prezident demişdi: *"Mən sizın hamınızı ürəkdən salamlayıram və bu gözəl Diaqnostika-Müalicə Mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl mərkəz həm xarici görünüşunə, həm də daxili təchizatına görə dünyanın ən yüksək standartlarına cavab verir. Bu bir memarlıq abidəsidır və əminəm ki, burada göstəriləcək xidmət ən yüksək səviyyədə olmalıdır və olacaqdır. Çünki burada quraşdırılmış avadanlıq dünyanın ən öndə gedən tibb firmalarının istehsalıdır və ən qabaqcıl texnologiyaları əks etdirir. Biz düz bir il bundan əvvəl bu mərkəzin təməlqoyma mərasimini bərabər keçirdik və o vaxt da mən əmin olduğumu bildirmişdim ki, qısa müddət ərzində bu mərkəz tikilib istifadəyə veriləcəkdir. Çox şadam ki, düz bir il ərzində biz buna nail ola bildik və bu gün bu mərkəz naxçıvanlıların sərəncamına verilir. Deyə bilərəm ki, Azərbaycanın tarixində buna, bu mərkəzə bərabər tibb ocağı*

*olmamışdır. Ən müasir tibbi mərkəzdir və burada insanlar həm müayinədən keçəcəklər, eyni zamanda, müalicə olunacaqlar.*

*Azərbaycanda son illər ərzində görülən işlər ən yüksək səviyyədədir və bizim məqsədimiz, istəyimiz ondan ibarətdir ki, dünyada olan ən yüksək texnologiyalar, ən yüksək keyfiyyət Azərbaycana gətirilsin. Çünki Azərbaycan xalqı buna layiqdir. Bizim imkanlarımız artır və artısqca da, əlbəttə ki, bunu ilk növbədə, sosial məsələlərin həllinə səfərbər edəcəyik.*

*Mən bu gün Naxçıvan hava limanından ulu öndər Heydər Əliyevin abidəsi önünə gəldim. Heydər Əliyev muzeyinin açılışını qeyd etdik. Heydər Əliyevin həyatı, fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət olmuşdur. İctimai*-siyasi *quruluşundan asılı olmayaraq, bütün dövrlərdə xalqın lideri öz xalqına sədaqətlə, ləyaqətlə xidmət etmişdir. 1970–80-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanın sosial*-iqtisadi *inkişafına öz töhfəsini vermişdir".* ("Şərq qapısı", 21.12.2006)

Müaslicə-diaqnostika mərkəzinin tikintisinə hər gün nəzarət etmiş, onun yüksək səviyyədə başa çatması üçün, geniş profilli, müalicə aparılması üçün hər gün qayğı göstərən Naxçıvan MR Ali Məclisinin sədri də öz çıxışında maraqlı, fərəhləndirici məlumatlar verdi: *"Burada dünyada mövcud olan ən yüksək avadanlıq quraşdırılacaqdır. Bu, həm memarlıq baxımından gözəl bina olacaq, eyni*

*zamanda, burada cərrahiyyə şöbəsi də açılacaqdır. Ürək-damar xəstəlikləri müalicə ediləcək, süni böyrək aparatı, ən müasir diaqnostika avadanlığı olacaqdır. Bir sözlə, bundan sonra tibbi xidmət almaq üçün nə Bakıya, nə də xaricə getməyə ehtiyac qalmayacaqdır.*

*Budur, düz bir il əvvəl təməli qoyulan Diaqnostika-Müalicə Mərkəzinin nəhəng binasının inşası başa çatdırılıb. Tikintisi "Gəmiqaya" Şirkətinin inşaatçılarına həvalə edilən, müasir memarlıq parametrləri ilə səciyyələnən, gözəl arxitektura quruluşu ilə diqqət çəkən obyekt öz əzəməti ilə göz oxşayır. Qəlbdə iftixar, fərəh hissləri oyadır. Həm də ona görə ki, belə bir möhtəşəm tikili, qısa bir zamanda başa çatdırılıb. 1385 kvadratmetr sahəni əhatə edən zirzəmi qatı və beş mərtəbədən ibarət olan bu şəfa ocağı bu ilin sonunacan istifadəyə verilməklə sağlamlığımızda mühüm əhəmiyyət kəsb edəcək. Beynəlxalq standarlara uyğun tikilən binada müasir tələblər səviyyəsində müalicə və müayinə almaq imkanı olacaq. Çünki burada dünya tibb elminin son nailiyyətlərindən olan müasir cihaz, apparat və avadanlıqlar quraşdırılacaq. Onların vasitəsi ilə ən mürəkkəb, eyni zamanda mikrocərrahiyyə əməliyyatları yerinə yetirmək mümkün olacaqdır. Bu halda isə öz sağlamlıqlarının bərpası məqsədi ilə həmyerlilərimizin nə Bakı şəhərinə, nə də xarici ölkələrə üz tutmasına ehtiyac qalmayacaq. Əksinə, hər cür şəraitə malik olan bu sağlamlıq mərkəzitndən qonşu ölkələrin muxtar respublikamıza yaxın*

*vilayətlərindən olan xəstələr də istifadə edə biləcək”.* (“Şərq Qapısı”, 7 dekabr)

Başqa sahələrdə olduğu kimi, səhiyyə sahəsindəki böyük uğurları Naxçıvanı bütün türk dünyasında məşhur etmişdir. Buna görə də Türk dünyası Pediatrlarının səkkizinci konqresinin təşkilat komitəsi hər şeyi müqayisə etdikdən sonra 2008-ci ildə özünün beynəlxalq konqresini keçirmək üçün məhz Naxçıvan şəhərini seçdi. Təşkilat komitəsi müraciət edərək konqresin keçirilməsi üçün icazə istədi. Əslində bu, Naxçıvan üçün böyük bir şərəf idi. Naxçıvan rəhbərliyi bu müraciətlə məmnuniyyətlə razılaşaraq 01 May 2008-ci ildə Türk dünyası pediatrlarının səkkizinci konqresinin Naxçıvan şəhərində keçirilməsi haqqında sərəncam verdi. Bu konqresin keçirilməsi üçün təşkilat komitəsi də yaradıldı. Həmin il konqres Naxçıvanda keçirildi. Əslində belə bir konqresin Naxçıvan şəhərində keçirilməsi Naxçıvan üçün bir də ona görə şərəfli idi ki, bütün türk dünyasının səhiyyə işçiləri Naxçıvandakı səhiyyə işinin təşkili və səviyyəsi ilə əyani şəkildə tanış olacaqdılar. Bundan əlavə, Naxçıvanın özünün türk dünyası səviyyəsində öz səhiyyəsi haqqında deməyə sözü var idi. Bu sözləri konqresin açılışında Naxçıvan muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbov öz çıxışında fəxrlə dedi: *“Bu mühüm tədbirin qədim türk torpağında, Azərbaycanın Naxçıvan Muxtar Respublikasında keçirilməsinin böyük rəmzi mənası var. “Şərqin qapısı” və ya “Türk qapısı”*

*adlandırılan Naxçıvan, uzun minilliklər boyu Avropa və Asiyanı birləşdirən təbii dəhliz rolunu oynamış, Böyük İpək yolu bu ərazidən keçmişdir. Bəşər siviliza-siyasının beşiyi sayılan, 5000 ilə yaxın yaşı olan bu qədim Azərbaycan torpağı nəinki özünün etnomədəniyyəti ilə, həmçinin burada məskunlaşmış türk toplumlarının tibbə və təbabətə dair bilgiləri ilə də məşhur olmuşdur. Zəngin təbiəti və iqlimi, şəfa bulaqları və dərman otları, bronxial astma və astmatik komponentli digər xəstəliklərin müalicəsində əvəzsiz rol oynayan duz şaxtaları qədim dövrlərdən bu yurdu təbii müalicə mərkəzinə çevirmişdir.*

*Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar* Respublika*sında mövcud olan zəngin təbii sərvətlər yalnız ümummilli lider Heydər Əliyevin rəhbərliyə gəlişi sayəsində əsl mənada xalqın sərvətinə çevrilmiş, maddi potensial insan potensialına, onun sosial problemlərinin həllinə yönəldilmişdir.*

*Ötən əsrin 70-ci illərindən başlayaraq ölkəmizdə milli səhiyyənin inkişafı ilə əlaqədar taleyüklü tədbirlər görülmüş, səhiyyə şəbəkələri genişləndirilmiş, tibb kadrlarının hazırlanması sahəsində əhəmiyyətli addımlar atılmışdır. Heç bir istisna qoymadan bu dövrü Azərbaycan səhiyyəsinin intibah dövrü adlandırmaq olar. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1969-cu ilin dekabrında əhalinin sağlamlığı ilə əlaqədar proqram qəbul olunmuş, səhiyyənin maddi-texniki bazası gücləndirilmiş, təkcə Bakıda yox, rayonlarda, dağ və*

*sərhəd kəndlərində xəstəxanalar və tibb məntəqələri yaradılmışdı. 1970–1980-ci illərdə Azərbaycanda mövcud tibb müəssisələrinin demək olar ki, hamısı yeni binalarla təmin olunmuş, neyrocərrahiyyə, diaqnostika, toksikologiya, reabilitasiya mərkəzləri, klinik urologiya xəstəxanası, oftalmologiya və onkologiya üzrə elmi tədqiqat institutları yaradılmışdır.*

*Bu dövrdə səhiyyənin mühüm diqqət yetirilən sahələrindən biri də ana və uşaqların sağlamlığının təmin olunması, pediatriyanın maddi-texniki bazasının gücləndirilməsi idi.*

*Səhiyyənin inkişafına daim xüsusi diqqət və qayğı göstərən, uşaqların sağlamlığını millətin, xalqın sağlam gələcəyinin əsası hesab edən ümummilli lider Heydər Əliyev deyirdi: "Uşaqların sağlamlığının qorunması çox böyük və müqəddəs vəzifə, milli vəzifədir. Azərbaycan dövləti bu gün də, gələcəkdə də bütün imkanlarından istifadə edərək uşaqların sağlamlığının qorunmasına çalışıb, bundan sonra da çalışacaqdır".*

Ulu öndərimizin müəyyənləşdirdiyi sağlam gənclik - sağlam gələcək xətti bu gün dövlət və hakimiyyət orqanlarının fəaliyyəti üçün fundamental istiqamətə çevrilmişdir. Səhiyyənin inkişafi, ana və uşaqların sağlamlığının qorunması bir nömrəli vəzifələr sırasındadır. Ölkəmizin iqtisadi potensialı gücləndikcə Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında tikilən tibb müəssi-

sələrinin sayı da artır. Son 3 il ərzində Naxçıvan Muxtar Respublikasında 38 səhiyyə obyekti, o cümlədən Əziz Əliyev adına Naxçıvan Muxtar Respublika Mərkəzi Uşaq Xəstəxanası, Naxçıvan Uşaq Bərpa Mərkəzi və Naxçıvan Şəhər Körpələr Evi tikilərək və ən müasir tihbi avadanlıqlarla təmin olunaraq istifadəyə verilmişdir. 7 həkim ambulatoriyasının, 1 kənd sahə xəstəxanasmın, 1 rayon mərkəzi xəstəxanasının, Onkoloji Dispanserin və Naxçıvan Doğum Mərkəzinin tikintisi davam etdirilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin himayəsi ilə tikilən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi, Şərur və Culfa rayonu Mərkəzi xəstəxanaları, Duzdağ Fizioterapiya Mərkəzi Azərbaycanda səhiyyəyə göstərilən qayğının əyani ifadəsidir.

Bu gün Muxtar Respublika əhalisinə 48 xəstəxana o cümlədən 7 tibb mərkəzı, 21 sahə xəstəxanası, 72 kənd həkim ambulator poliklinikası 14 tibb sağlamlıq məntəqəsi xidmət göstərir.

Göründüyii kimi, əhalinin saglamlığının təşkili sahəsində böyük potensial mövcuddur. Bundan səmərəli istifadənin nəticəsidir ki, əhalinin təbii artımı orta ölüm nəticələrini üstələmişdir. 1995-ci illə müqayisədə 2007-ci ildə 1 yaşadək uşaq ölümü 15,3 dəfə azalaraq 11-ə enmişdir. 14 yaşadək uşaq ölümü isə 10 dəfə azalmışdır.

Naxçıvanda səhiyyə sisteminə, Muxtar Respublika əhalisinin sağlamlığına göstərilən qayğı da heç vaxt indiki qədər olmayıb. Regionumuzda 1996-cı ildən

başlayan dönüş mərhələsi, inkişaf, tərəqqi bütün sahələr kimi səhiyyəni də ağuşuna alıb. Əhalinin saglamlığı naminə bölgəmizdə nə mümkünsə edilir. Bu gün Naxçıvan Muxtar Respublikasında 723 həkim, 2876 orta tibb işçisi çalıştr. Onlar Muxtar Respublikanın 380 min 170 nəfər sakininə paytaxt şəhərində, rayon mərkəzlərində və kəndlərdə 3250 çarpayılıq xəstəxanalarda 23 kənd sahə xəstəxanalarında 1 ambulator poliklinikada, 61 həkim ambulatoriyada, 118 feldşer-mama məntəqəsində, 1 təcili tibbi yardım stansiyasında və 8 gigiyena epidemiologiya mərkəzində tibbi xidmət göstərir.

Hazırda ölkəmizin səhiyyə sistemində geniş islahatlar proqramı həyata keçirilir. Tibb sistemində yeni infrastrukturlar yaradılır. Ən müasir binalar tikllir, mövcud səhiyyə ocaqları müasir tələblər baxımından əsaslı təmir olunub yenidən qurulur. Tibb avadanlıqları və mütərəqqi cihazlarla, aparatlarla təchiz edilir. Yeni informasiya texnologiyası həkimlərimizə dünya səhiyyəsinə qovuşmaq imkanı yaradır.

Bu hələ Naxçıvanda səhiyyə sahəsində görülən işlərin hamısı deyil. Səhiyyə sistemində genişmiqyaslı infrastruktur işləri getdikcə vüsət alır. Təkcə 2013-cü ildə 23 səhiyyə müəssisəsi tikilmiş və ya yenidən qurulmuşdur.

# 18 ildə NAXÇIVANDA BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN PROBLEMLƏRİ

Bədən tərbiyəsi və idman insan həyatının gündəlik ayrılmaz tərkib hissəsidir. Ona görə də bütün dünya xalqları bu sahəyə həmişə diqqətlə yanaşmışlar. Azərbaycanda, o cümlədən Naxçıvanda ta qədim zamanlardan el şənliklərində və bayramlarda gənclər (pəhlivanlar) güləsər, at çapar, daş qaldırar və s. müxtəlif üsullarla öz igidliklərini nümayiş etdirərdilər. Buna görə ölkəmizdə milli özünəməxsus idman növləri: milli güləş, top və covğan və s. Kimi idman növləri geniş yayılmışdır. Əsrlərin sınağından keçən idmanımız XX əsrdə daha da zənginləşmiş kütləvi oyunlarla inkişaf etmişdir. Son əsrdə Azərbaycan idmançıları futbol, basketbol, qılıncoynatma və s. onlarla belə idman yarışlarında uğurla çıxış etmişlər. Azərbaycanda və Naxçıvanda idmanın və bədən tərbiyəsinin də inkişafı, kütləviləşməsi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dünya olimpiya hərəkatına 1992-ci ildən qoşulsa da, əsil uğurlarımız əsrin sonlarına aiddir. 2000-ci ildə Avstraliyanın Sidney şəhərində keçirilən dünya olimpiya oyunlarında Azərbaycan milli komandasının burada iştirak edən 199 ölkə içərisində 34-cü yerə çıxması böyük nailiyyət idi. Bu qələbənin qazanılmasında xüsusi dövlət qayğısının, 1999-cu ildə Respublika Gənclər və İdman Nazirliyinin yaradılmasının öz rolu və payı vardır. Çünki idmançılara dövlət qayğısı

konkretləşir və xüsusi seçilən idmançılar təqaüdlə təmin edilirdi. Milli Olimpiya Komitəsinin rəhbəri məhz Respublika prezidenti özüdür. Bu olimpiya hərəkatına öz müsbət təsirini göstərməyə bilməzdi.

Milli Olimpiya Komitəsi 1999-cu ildən öz obyektlərinin tikintisinə başlamış və artıq 2000-ci ilin oktyabrında Bakıda ilk Olimpiya Kompleksinin açılış mərasimi olmuşdur. Bu kompleksin açılışında iştirak edən Avropa Olimpiya Komitəsinin o vaxtkı prezidenti Jak Roqq çıxışında demişdir: *"Sidneydə keçirilən Olimpiya oyunlarında Azərbaycanın əldə etdiyi qələbələrin sizin ölkəniz üçün çox böyük əhəmiyyəti var. Bu, ölkənizdə idmanın daha da inkişaf etməsi üçün bir növ, stimul rolunu oynayacaqdır. İdman millətə öz hüququnu, milli mənliyini dərk etməkdə yardımçı olur. Bu baxımdan, idmana qoyulan vəsait həmişə özünü doğruldur"*.

2001-ci ilin mart ayının 28-də Milli Olimpiya Komitəsinin inzibati binası istifadəyə verilmişdir. Həmin ilin dekabrında isə Bakının Maştağa qəsəbəsində Milli Olimpiya Komitəsinin tikdirdiyi daha bır Olimpiya İdman Mərkəzi öz qapılarını idmansevərlərin üzünə açmışdır. Son illərdə Naxçıvanda, Gəncədə, Bərdədə, Şəkidə və respublikamızın başqa şəhərlərində dünya standartlarına cavab verən idman kompleksləri tikilib istifadəyə verilmişdir.

Yeni idman komplekslerinin tikintisi bu gün də davam etdirilir. Azərbaycan Milli Olimpiya

Komitəsinin Prezideti aparılan tikinti-quruculuq işlərini şərh edərkən belə demişdir: *"Tikilən və tikiləcək idman kompleksləri, eyni zamanda təlim-məşq bazasına da çevrilməlidir. Çünki orada məşqlər, təlim-məşq toplantıları keçlıllir. 7 idman kompleksi o məqsədlə tikilir ki, orada məşqlər də, yarışlar da, Azərbaycan çempionatları da keçirilsin. Çünki idmanı bütün ölkədə populyarlaşdırmaq uçün gərək təkcə Bakıda yox, Azərbaycanın digər şəhər və rayonlarında da yaxşı imkan olsun"...*

2004-cü ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikasında səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan şəhərindəki Üzguçuluk Mərkəzinin açılışında iştirakı hamımızın xatirindədir. Şəhərimizin Əziz Əliyev küçəsində ucaldılan 7800 kvadrotmetr sahəsi olan bu Üzgüçülük Mərkəzi dünya standartlarına cavab verən İdman obyektidir. Qeyd edək ki, Üzgüçulük Mərkəzi tükənməz qayğının daha bir ifadəsi – gəncliyə, idman ictimaiyyətinə böyük töhfə oldu. Həmin mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev demişdır: *"Bizə idmanın kütləviliyi lazımdır. Hər bir gəncin. yeniyetmənin, uşağın idmanla məşğul olması və öz sağlamlığını möhkəmləndirməsi lazımdır. Çünki idman sağlamlıq deməkdir, həyat deməkdir. Bu Üzgüçülük Kompleksi memarlıq baxımından da gözəl binadır. Biz buna xüsusi diqqət yetirmışık və istəyirdik ki, bu bina Naxçıvana əlavə bir yaraşıq versin, Çox şadam ki, kompleks memartıq baxımından da çox yaraşıqlıdır və*

*buradan keçən hər bir insan binanın görkəmindən zövq alacaqdır".*

Bu gün Naxçıvan Muxtsr Respublikasında yaradılan yeni idman qurğuları, stadionları, idman zalları, süni örtülü meydançaları idmana göstərilən yüksək dövlət qayğısının nəticəsidir. Naxçıvan Dövlət Universiteti şəhərciyində stadionun yenidən qurulması, həndbol, basketbol və voleybol meydançalarının yaradılması, süni örtülü mini-futbol meydançası yaradılması, yeni idman kompleksi tikintisinin tamamlanması üzrə olması idmanın inkişafına böyük təkan verəcəkdir. ("Şərq qapısı", 18.07.2006)

Yuxarıda dediyimiz kimi, Respublika Prezidenti Azərbaycan Milli Olimpiya komitəsinin prezidenti olaraq Azərbaycanın əksər bölgələrində olimpiya idman kompleksi tikilməsinin təşəbbüskarıdır. Naxçıvanda da belə bir kompleks tikilmişdir. Kompleksin açılışı günü 15 iyun 2002-ci ildə Azərbaycan Olimpiya İdman Komitəsinin prezidenti kimi bu tədbirdə iştirak etmiş və görülən işləri yüksək qiymətləndirmişdir. Ondan iki həftə sonra Naxçıvan Muxtar Respublika Ali məclisinin sədri cənab Vasif Talıbov xüsusi sərəncamla (01.2002, №81-01/3) Naxçıvan Olimpiya İdman Kompleksinə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin adını vermişdir.

Başqa sahələrdə olduğu kimi, idmanın bütün növləri Naxçıvanda xüsusi templə inkişaf etdirilir.

Naxçıvan MR rəhbəri idmanın inkişafına hər cür yardım və qayğı göstərdiyi kimi, idman yarışlarının keçirilməsinə də yüksək şərait yaradılmasını təmin edir. Buna görə də bir çox idman yarışları məhz Naxçıvanda keçirilir. Belə yarışlardan biri 2003-cü ildə Gənc şahmatçıların Dünya çempionatı oldu. Dünya şahmat Federasiyası və Azərbaycan Olimpiya İdman Komitəsinin Prezidenti cənab İlham Əliyev bu mötəbər yarışın Naxçıvanda keçirilməsinə razılıq verməklə Naxçıvanda gedən bütün quruculuq işlərinə yüksək qiymət vermiş oldular. Çempionatın açılışında Naxçıvan Muxtar Respublika Ali Məclisinin sədri cənab Vasif Talıbov nitq söylədi. Naxçıvan rəhbəri Olimpiya idman oyunları ilə bərabər bir sıra başqa məsələlərə də toxunaraq tarixi həqiqəti söylədi: *"Bu mötəbər yarışın Naxçıvanda keçirilməsi çox mühüm hadisədir. Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və Milli Olimpiya Komitəsinin Prezidenti hörmətii İlham Əliyevin himayəsi ilə keçirilən gənclər arasında dünya şahmat çempionatı Azərbaycan idmanının dünya standartları səviyyəsinə qaldırılmasının çox mühüm göstəricisi, ölkəmizdə idmanın inkişafına verilən beynəlxalq qiymətin əyani ifadəsidir.*

*Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti hörmətli İlham müəllimə gənclər arasında şahmat üzrə dünya çempionatının Naxçıvanda keçirilməsində təşəbbüskarlığına və himayəsinə görə hörmət və ehtiramımızı bildiririk.*

*Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyev öz çıxışlarının birində ölkəmizin keçdiyi idman tarixindən bəhs edərək deyir ki: "Keçmiş dövrlərdə də Azərbaycanın pəhləvanları, oxatanları, şahmatçıları-fiziki imkanlarını müxtəlif oyunlarda nümayiş etdirən idmançıları olub. Ancaq məlum səbəblərə görə bunlar Azərbaycanın çərçivəsində qalıb, dünya meydanına çıxmayıblar".*

*Məlum səbəb - hər şeydən, əvvəl Azərbaycanın müstəqil olmaması idi. Təsadüfi deyil ki, keçmiş Sovetlər Birliyinin mövcud olduğu bütün dövrlər ərzində Azərbaycanda beynəlxalq yarışlar keçirilməmişdir. Azərbaycan müstəqillik qazanandan sonra, belə imkanların əldə edilməsinə baxmayaraq idmanın inkişafı sahəsində əsaslı dönüşə yalnız 1993-cü ildən sonra nail olundu..."* (27, səh.136)

Nəzərə alaq ki, bütün bunlar ermənilərlə müharibə şəraitində olan, müharibənin yaraları hələ tamamilə sağalmayan bir ölkədə baş verir. Dünyada elə bir dövlət tapmaq çətindir ki, ərazisinin 20 faizi işğal altında qala-qala, bir milyondan çox əhalisi qaçqın halında yaşaya-yaşaya idmanın inkişafına bu qədər çox diqqət yetirsin, gəncliyin problemləri ilə bu qədər çox məşğul olsun.

Bu gün Azərbaycan gəncləri sağlam mənəvi mühitdə, nümunəvi tədris müəssisələrində, dünya standartlarına cavab verən idman-sağlamlıq komplekslərində yetişib tərbiyə olunurlar.

Azərbaycanda, o cümlədən Naxçıvanda şahmat oyunu qədim tarixə malikdir. Orta əsrlərdə Azərbaycanda şahmatın geniş yayılmasını həmin dövrün ümumi intellektual səviyyəsinin göstəricisi kimi də qəbul etmək olar. Maraqlıdır ki, bu dövrdə Azərbaycanda şahmat oynayanların cərgəsində qadınlar da az deyildi: On ikinci əsrdə yaşamış Azərbaycan şairəsi Məhsəti Gəncəvinin şahmat partiyalarının yazıları bizim dövrə qədər gəlib çatmışdır. On doqquzuncu əsrdə Fransa yazıçısı Aleksandr Düma Azərbaycanda olarkən Qarabağ xanının qızı məşhur Azərbaycan şairəsi Xurşud Banu Natəvanla şahmat oynamış, azərbaycanlı qadının oyununa heyran olmuşdur.

Ölkəmizdə qədim dövrlərdə mövcud olmuş şahmat ənənəsi bu gün də davam etdirilir. Muxtar Respublika məktəblilərindən 4 min nəfəri, yaxud hər on beş nəfərdən biri şəhər və rayonlarda fəaliyyət göstərən şahmat məktəblərində dövlətin vəsaiti hesabına təhsil alır, şahmatın sirlərinə yiyələnir. (27, səh.137)

Hələ 2003-cü ildə Muxtar Respublikasının rəhbəri beynəlxalq şahmat çempionatının açılışındakı nitqində demişdir ki, Naxçıvanda 4 min şagird dövlət hesabına şəhər və rayonlarda fəaliyyət göstərən şahmat məktəblərində dərs alır və bu qədim idman növünün sirlərinə dərindən yiyələnirlər.

Bu iş həmişə davam etmişdir. Muxtar Respublika rəhbəri bədən tərbiyəsi və idmanın vəziyyətini bircə gün də diqqətdən yayındırmamış, onun inkişafına

çalışmışdır. Buna görə də dəfələrlə Naxçıvan şəhəri beynəlxalq şahmat festivalına ev sahibliyi etmişdir. Naxçıvan artıq idman diyarı kimi bir çox beynəlxalq idman təşkilatlarının diqqətini cəlb etmişdirn. Belə ki, "Naxçıvan Open-2011" beynəlxalq şahmat festivalı bu şəhərdə keçirilmişdir. Yarışların keçirilməsi üçün yüksək şərait yaradıldığına görə festivalın təşkilatçıları bir il sonra, yəni 2012-ci ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin doğum gününə həsr edilmiş "Naxçıvan Open-2012" Beynəlxalq şahmat festivalını yenə də Naxçıvan şəhərində keçirmək qərarına gəlmişdilər. Bu işdə Naxçıvan MR rəhbərliyinin təşkilatçılıq fəaliyyəti də dəyərləndirilməlidir. Festivalın açılışında çıxış edən Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cənab Vasif Talıbov demişdi: *"Azərbaycan idmanı qədim və şərəfli bir tarixə malikdır. Orta əsr səyyah və tarixçiləri ölkəmizdə 17 idman növünün mövcud olduğunu qeyd edirdilər. Bu dövrdə geniş yayılmış idman növlərindən biri də şahmat idi.*

*Ötən əsrin 70-ci illərindən başlayaraq intellektual idman növü kimi şahmatın inkişafına Azərbaycanda ciddi diqqət yetirilmiş, bu məqsədlə dövlət səviyyəsində xüsusi qərarlar qəbul edilmiş, şəhər, qəsəbə və rayonlarda şahmat məktəbləri açılmışdı. Görülən tədbirlər nəticəsində şahmat oyununa maraq kütləvi xarakter almış, Azərbaycanın özünəməxsus şahmat məktəbi formalaşmışdır.*

*Şahmatın, bütövlükdə idmanın inkişafını Azərbaycan gəncliyinin yetişməsində mühüm vasitə kimi xarakterizə edən ulu öndər Heydər Əliyev deyirdi ki, mən sağlam, təhsilli, yüksək mənəvi keyfiyyətlrə malik gənclərin timsalında müstəqil Azərbaycanın işıqlı gələcəyini görürəm. Sağlam gənclik-sağlam gələcək və daim inkişaf edib çiçəklənən Azərbaycan deməkdir.*

*Ümummilli liderimizin müəyyənləşdirdiyi dövlət idman və gənclik siyasəti ölkə rəhbəri, Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Artıq bu siyasət öz bəhrəsini vermiş, idman ölkəsi kimi Azərbayanın şöhrəti əhəmiyyətli dərəcədə artmış, Azərbaycan bir vaxtlar beynəlxalq yarışlarda iştirak edən ölkədən beynəlxalq yarışların keçirildiyi ölkəyə çevrilmişdir. İdmançılarımızın dünya və Avropa miqyaslı yarışlarda uğurlu çıxışları ölkəmizin idman sahəsində böyük potensialından xəbər verir. Bu potensial Naxçıvan Muxtar Respublikasında da özünü göstərməkdədir. İndi Muxtar Respublikada gənc idmançılar və şahmatçılar nəsli yetişmişdir”.* (30, səh.32)

Soruşula bilər: nə üçün belə intellektual idman yarışları üçün Naxçıvanla qonşu olan, həmişə ərazi iddiasında olan mürtəce ölkələrdə deyil, məhz Naxçıvanda keçirilir cavab aydındır. Çünki burada hamı bütün ölkələrdən gələn şahmatçıları açıq ürəklə qarşılayır. Onlar üçün gözəl şərait yaradılır.

Bütün bunlar onu göstərir ki, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şahmata maraq böyükdür. Bu gün Naxçıvan şəhərində müasir Şahmat Mərkəzi, rayonlarda isə şahmat məktəbləri fəaliyyət göstərir. Bu məktəblər üçün müasir binalar tikilmiş, orta ümumtəhsil məktəblərində şahmat dərslərinin də tədrisinə başlanmışdır. Yaradılan şəraitin nəticəsidir ki, hazırda Muxtar Respublikada minlərlə yeniyetmə və gənc şahmatın sirlərinə yiyələnir. Bu festivalda Azərbaycanı yüzdən artıq şahmatçının təmsil etməsi bu idman növünə göstərilən dövlət qayğısının ardıcıl xarakter daşıdığını bir daha təsdiq edir.

Buna görə də 2013-cü ildə yenə "Naxçıvan Open-2013" Beynəlxalq Şahmat festivalı məhz Naxçıvan Muxtar Respublikasının paytaxtında keçirildi. Keçənilki şahmat festivalı Ümummilli liderimizin doğum gününə həsr edildiyi kimi, 2013-cü ildəki "Naxçıvan Open-2013" Beynəlxalq şahmat festivalı da ulu öndərin anadan olmasının 90 illik yubileyinə həsr edilmişdi. Azərbaycan Respublikası prezidentinin təşəbbüs və himayəsi ilə Naxçıvan şəhərində keçirilən bu nüfuzlu yarış bu dəfə də naxçıvanda böyük coşğu və təşkilatçılıq fəallığı ilə qarşılandı. Festivalın açılışında çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbov bu dəfə də maraqlı, tarixi faktlarla zəngin olan bir nitq söylədi. O, dedi: *"Azərbaycanda şahmatın inkişafı qədim tarixə malikdir. İdmanın bu növünün inkişafının zəruriliyini əsaslandıran ulu öndər Heydər Əliyev*

*deyirdi: "Qədim ənənələrə malik olan şahmatın inkişafı əsas məqsədlərdən biridir. Biz şahmatın inkişafına və istedadlı şahmatçıların yetişdirilməsinə bundan sonra da diqqət yetirməliyik".*

*Bu gün həyata keçirilən dövlət siyasəti şahmatın və onun infrastrukturunun daha da inkişaf etdirilməsinə, beynəlxalq səviyyəli şahmatçıların, məşqçilərin və hakimlərin hazırlanmasına yönəldilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 5 may tarixli sərəncamı ilə "2009–2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı" qəbul olunmuşdur. Bütün bunlar ölkəmizdə şahmatın inkişafına, onun maddi-texniki və kadr potensialının gücləndirilməsinə göstərilən qayğının parlaq ifadəsidir.*

*Azərbaycanın Naxçıvan Muxtar Respublikasında da şahmat infrastrukturunun yaradılması, şahmatla bağlı informasiya-maarifçilik və təbliğat işinin gücləndirilməsi, şahmat dərslərinin tədrisində qabaqcıl texnologiyaların tətbiqi diqqət mərkəzində saxlanılır. Naxçıvan şəhərində Şahmat Mərkəzi, bütün rayon mərkəzlərində isə şahmat məktəbləri fəaliyyət göstərir. Son illər məktəblər üçün sürətli internetlə və ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş binalar tikilmiş, orta ümumtəhsil məktəblərində şahmat dərslərinin tədrisinə başlanmışdır. Hazırda 293 qrupda 3 mindən çox məktəbli xüsusi olaraq şahmat üzrə təlimlə məşğuldur. Bundan başqa, bütün ümumtəhsil*

*məktəblərində şahmat dərsləri tədris olunur. Bir sözlə, şahmat ən populyar idman növlərindən birinə çevrilmişdir.* (30, səh.23–24)

Naxçıvanda idmanın ağır atletika sahəsində də böyük uğurlar əldə edilir. Əslində Naxçıvan rəhbərinin gənclər siyasətinin tərkib hissəsi olan idmanın bütün növləri üzrə inkişaf, irəliləyiş nəzərə çarpır. Dünya Güləş Federasiyasının müyyənləşdirdiyi güləş növlərindən biri də Yunan-Roma güləşidir. Bu güləş növü idmanın çox qədim növüdür. Bizdə milli-sərbəst güləş olduğu kimi, Avropada da Yunan-Roma güləşi öz şərtləri sərhədləri ilə min illərlə yaşamışdır.

Turnirin açılışı milli qurtuluş gününə həsr edilmişdir. "Milli qurtuluş gününə həsr olunmuş gənclər arasında Yunan-Roma güləşi" üzrə Naxçıvan kuboku uğrunda beynəlxalq turnirin açılış tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov çıxış edərək bu turnirin əhəmiyyətindən, Naxçıvanda keçirilməsinin sosial dəyərindən və s. məsələlərdən danışdı. Çıxışında Naxçıvan rəhbəri deyirdi: *"Ulu öndərimizin müəyyənləşdirdiyi dövlət idman siyasəti müasir şəraitdə Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Hazırda Azərbaycan idmanı özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. İdmançılarımız olimpiya oyunlarında, beynalxalq yarışlarda, dünya və Avropa çempionatlarında böyük uğurlar qazanırlar. Bununla*

*yanaşı, Azərbaycanın idman nüfuzu artmış, ölkəmiz beynəlxalq yarışların keçirdiyi ölkəyə çevrilmişdir.*

*Aydın məsələdir ki, bu cür mühüm əhəmiyyətli, beynəlxalq miqyasdlı tədbirlər sadəcə xoş arzu və ya istəklə keçirilə bilməz. Bunun üçün iqtisadi potensial da gücləndirilməli, xidmət sektoru ən yüksək səviyyədə qurulmalı, müasir idman infrastrukturu formalaşdırılmalıdır. Bütün bunlar isə Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında mövcuddur.*

*Bu gün Naxçıvan mötəbər yarışa – gənclər arasında Yunan-Roma güləşi üzrə "Naxçıvan kuboku" uğrunda beynəlxalq turnirə ev sahibliyi edir. Ölkəmizin idman həyatında əlamətdar hadisə olan turnir həm də Azərbaycanda elan olunmuş, "İdman ili"ndə keçirilir. İdman sağlamlığın rəhni, dostluğun və qardaşlığın rəmzidir. Ulu öndər Heydər Əliyev deyirdi ki, "Dünyanın bir çox ölkələrini təmsil edən idmançıların beynəlxalq yarışlarda iştirakı xalqlar arasında mehriban dostluq əlaqələrinin möhkəmləndirilməsinə böyük töhfə verir".*

Yarışların təşkili, ümumiyyətlə insanların qonaqpərvərliyi bir ildən sonra eyni adlı yarışların Naxçıvanda keçirilməsi arzusu yaratmışdı. Bu ilki Yunan-Roma güləşi Azərbaycan xalqının Ümumilli lideri Heydər Əliyevin 90 illiyinə həsr edilmişdir. Əlbəttə, Ümummilli liderimizin 90 illik yubileyinə həsr edilmiş Yunan-Roma güləşi üzrə gənclər arasında keçirilən "Naxçıvan Kuboku" uğrunda

beynəlxalq turnirin açılışında çıxış etməyə Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədrinin çox sözü vardı. Çünki idman sahəsində Naxçıvanda çox iş görülmüşdü. Naxçıvan rəhbəri öz çıxışında deyirdi: *"Azərbaycanda tarixən qədim idman növü olan güləşə böyük maraq olmuşdur. Bu idman növünün elementləri Qobustan qayaüstü rəsmlərindən və "ədəbi-tarixi mənbələrdə öz əksini tapmışdır. Azərbaycanda qədim dövrlərdən populyar idman növü olan güləşin müasir şəraitdə inkişafını yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Azərbaycanda güləş milli və ən məşhur idman növüdür. Bütün dövrlərdə bizim çox məşhur güləşçilərimiz olmuşdur".*

Ölkəmizdə güləş idman növünün inkişaf etməsi bir tərəfdən milli irsimizə və ənənələrimizə bağlılıqdan irəli gəlirsə, digər tərəfdən bu, ölkə Prezidentinin himayəsi ilə yaradılmış güclü maddi-texniki baza və idmana göstərilən yüksək dövlət qayğısı ilə əlaqədardır. Naxçıvan Muxtar Respublikasında da gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanır. Bu məqsədlə kompleks tədbirlər həyata keçirilir. Muxtar Respublikada 2 Olimpiya İdman Kompleksi və yüzlərlə digər idman obyektlərinin fəaliyyətləri ilə bərabər, idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılması, idman sahəsində maarifləndirmə işlərinin aparılması gənclərin idmana

olan marağının artmasına, istedadlı idmançıların yetişməsinə səbəb olmuşdur.

İstər müasir idman infrastrukturunun, istərsə də perspektivli idmançıların mövcudluğu Muxtar Respublikada beynəlxalq turnirlərin, mötəbər idman yarışlarının keçirilməsinə stimul vermişdir. Artıq Naxçıvanda digər idman növləri ilə yanaşı, güləş üzrə də beynəlxalq yarışlar və turnurlər təşkil olunur. (31, səh.34)

Muxtar Respublikada əhalinin sağlam həyat tərzinin, xüsusilə yetişməkdə olan gəncliyin öz layiqli yerini tutması, idmanın bütünü növləri üzrə xalqımızın şöhrətini, Vətənimimzin bayrağını yüksəklərə qaldırmaq üçün idman işləri və bədən tərbiyəsi Muxtar Respublika rəhbərliyinin daim diqqət mərkəzindədir. Ümumiyyətlə 18 ildə 23 idman obyekti tikilmiş, 17 idman obyekti əsaslı təmir edilmiş və yenidən qurulmuşdur.

Bundan əlavə, haqqında danışdığımız illərdə aparılmış məqsədyönlü işlər nəticəsində atıcılıq, hava və ekstremal idman növləri federasiyaları yaradılmış, Naxçıvan şəhərində atıcılıq mərkəzi, Babək rayonunda uşaq-gənclər şahmat məktəbi üçün yeni bina istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası stadionunda yenidənqurma işləri aparılmışdır. "Araz-Naxçıvan" klubunun peşəkar futbola qayıdışı təmin olunmuşdur. Mövcud potensial bir sıra beynəlxalq yarışların və turnirlərin Naxçıvanda keçirilməsinə şərait yaratmışdır.

# NAXÇIVANDA TİKİNTİ-ABADLIQ İŞLƏRI

Başqa regionlarımızda aparılan tikinti-abadlıq işlərinin həcmini və keyfiyyətini azaltmadan, demək olar ki, Azərbaycanın heç yerində Naxçıvan qədər tikinti-quraşdırma, təmir və yenidən qurma işləri aparılmır. Naxçıvana gələn hər kəs buradakı binaların üzlüklərlə təzələnməsini binaların fəsadlarında müxtəlif dəyişikliklər edildiyini, bütün binaların dam örtüyünün yeniləndiyini görüb-bura "yeni şəhərdir" deyər. Naxçıvanda elə bir nazirlik, baş idarə, ali məktəb və s. yoxdur ki, yeni binası olmasın. Təkcə Naxçıvan Dövlət Universiteti üçün 18 bina tikilmişdir.

1 yanvar 1996-cı ildən 1 yanvar 2014-cü ilədək olan dövr ərzində muxtar respublikada 242 inzibati bina, mənzil təsərrüfatı üzrə 42 obyekt, 53 nasos stansiyası, 274 subartezian quyusu, 94 körpü, 177 elm və təhsil müəssisəsi, 202 mədəniyyət müəssisəsi, 173 səhiyyə müəssisəsi, 23 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 467 fərdi ev, 708 istehsal və xidmət obyekti tikilərək istifadəyə verilmişdir. Bu dövr ərzində 249 inzibati binanın, mənzil təsərrüfatı üzrə 624 halda obyektin, 114 halda nasos stansiyalarının, 95 halda subartezian quyularının, 62 halda körpülərin, 133 halda elm və təhsil müəssisələrinin, 153 halda mədəniyyət müəssisələrinin, 51 halda səhiyyə müəssisələrinin, 17 halda idman obyektlərinin, əlil,

məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 21 halda fərdi evlərin yenidən qurulması və ya əsaslı təmiri aparılmışdır.

İdarəetmənin səmərəli təşkili və ucqar yaşayış məntəqələrinin, kəndlərin, qəsəbələrin inkişafı bu müddət ərzində diqqətdə saxlanılmış və son 18 il ərzində 101 kənd mərkəzi, 3 qəsəbə mərkəzi istifadəy verilmişdir.

18 il ərzində Muxtar Respublikada 382 yeni sənaye mərkəzi tikilib istifadəyə verilmişdir. Əgər 1996-cı ilin əvvəllərində Muxtar Respublikada 56 sənaye müəssisəsi var idisə, 1 yanvar 2014-cü ilə qədər olan dövr ərzində bu müəssisələrin sayı 8 dəfə artaraq 438-ə çatmışdır. Bu, əhalinin güzəranının yaxşılaşmasına hiss olunacaq dərəcədə təsir etmişdir.

Son 18 ildə Muxtar Respublikada elə bir kənd yoxdur ki, qazla təmin edilməsin. Hər evə qaz çəkilməsi, yardımçı binaların tikilməsi, qaz saygaclarının qoyulması, evlərə qaz peçlərinin quraşdırılması və s. dövlət hesabına həyata keçirilmişdir. Nəzərə alsaq ki, dağ kəndlərində evlər bir-birindən çox aralı tikilir, onda nə qədər metal və metal konstruksiya işlənməsi (dövlətin bunu ödəməsi) aydın olar.

Ən ucqar kəndlərdə belə yeni məktəblər tikilmiş və ya təmir edilmişdir. 19 ildə mədəniyyət obyektlərinin

tikintisi də MR rəhbərliyinin diqqət mərkəzində olmuşdur.

Ötən 19 il ərzində Naxçıvanda 5 su elektrik stansiyası tikilib istifadəyə verilmişdir. Burada kiçik bir müqayisə yerinə düşərdi.

1992-ci il noyabr ayının 21-i Naxçıvanda Dram Teatrının binasında Azərbaycanın müxtəlif yerlərindən gəlmiş 500 nəfərin iştirakı ilə Yeni Azərbaycan partiyasının 4 saatlıq təəssis konfransı keçirilir. Bina qızdırılmamış, adamlar paltoda və papaqla oturmuşdur. Üşüdükləri üçün əllərini bir-birinə sürtürlər (təki ürək hərarətli olsun… Işıq yox, qar yox…). 18 ildən sonra isə Naxçıvan Əvvəllər elektrik enerjisi aldığı qonşu Iran və Türkiyəyə enerji ixrac edir…

1996-cı ildə 525 milyon kilovat-saat elektrik enerjisi idxal olunmuşdursa, 2013-cü ildə 339 milyon kilovat-saat elektrik enerjisi ixrac edilib. Əgər 1995-ci ilə kimi Muxtar Respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə mövcud idisə, aparılan məqsədyönlü islahatlar nəticəsində bu müəssisələrin sayı 7-yə çatdırılmışdır. Ötən dövr ərzində gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, gücü 22 meqavat olan Biləv Su Elektrik Stansiyası, gücü 20,5 meqavat olan “Arpaçay-1” Su Elektrik Stansiyası, 1,4 meqavat olan “Arpaçay-2” Su Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində gücü 4,5 meqevat olan su elektrik stansiyası tikilmiş, gücü 60 meqavat olan Naxçıvan qaz-Turbin Elektrik

Stansiyası yenidən qurulmuş, hazırda Ordubad rayonunda 36 meqavat gücündə Ordubad su Elektrik Stansiyasının inşası davam etdirilməkdədir.

Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsi kimi 2013-cü il ərzində Muxtar Respublikada 742 milyon kvt saat elektrik enerjisi istehsal xarakteri almışdır. Yuxarıda deyildiyi kimi, çoxlu müxtəlif təyinatlı binalar tikilmişdir. Bunların sırasında Heydər Əliyev Sarayı, Heydər Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, Naxçıvan Dövldət Xalça Muzeyi, Şahtaxtinskilər Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Ədəbiyyat Muzeyi, "Nuh Peyğəmbər"in məzarüstü türbəsi, Babək, Ordubad, Kəngərli, Şahbuz, Sədərək rayonlarında tarix-diyarşünaslıq muzeyləri, Muxtar Respublikanın şəhər və rayonlarında şəhidlər abidə kompleksləri, yeni parklar tikintisi, 153 mədəniyyət obyektinin isə yenidən qurulması və əsaslı təmiri diqqət çəkir.

Tikinti-quruculuq işləri sırasında yol-nəqliyyat infrastrukturunun inkişafı haqqında da danışmaq lazımdır. Onu qeyd etmək lazımdır ki, Muxtar Respublikanın ən ucqar kəndlərinə belə avtomobil yolu çəkilmiş və avtobus işləyir. Təkcə 1913-cü ildə Muxtar Respublikada 164 kilometr yol salınmış 21 körpü tikilmişdir.

Haqqında bəhs etdiyimiz 18 il ərzində bütün kənd və qəsəbələrdə ərazi və sahə inzibatı binası tikilib istifadəyə verilmişdir.

## VASİF TALIBOVUN GƏNCLƏR SİYASƏTİ

Gənclər siyasəti cənab Vasif Talıbovun ən prioritet baxışıdır, desək yanılmarıq. Çünki cənab Talıbov öz şəxsi nümunəsində görmüş və inanmışdır ki, bu günün gənci sabah ölkənin başçısı, ali rütbəli şəxsi, alimi, diplomatı, hərbi xadimi və s.dir.

Əslində bütün böyük dövlət adamları, millətin aqilləri ölkənin gənclərinə həmişə böyük ümid bəsləmişlər. Bu həm insani bəşəri dünyada, həm bioloji dünyada eynidir. Əgər ağac yalnız köhnə yarpaqlardan ibarətdirsə, deməli o işləmir, gələcəkdə quruyacaq. Bütün bunları bilən Naxçıvan rəhbəri həmişə gənclərə qayğı göstərmiş, onlara ümidlə baxmışdır. Onları oxumağa, xalqı-milləti üçün lazımlı vətəndaşlar olmağa çağırmışdır. Bu səbəbdən də o gənclərlə tez-tez görüşür, onların səsinə-sözünə qulaq asır, həm özünün, həm aqillərin gənclər haqqındakı tövsiyyələrini çatdırır. Belə bir görüş 2002-ci ildə Naxçıvan Muxtar Respublikası gənclərinin üçüncü konfransında oldu. Muxtar Respublika gəncləri qarşısında çıxış edən Ali məclisin sədri öz çıxışını türk dünyasının 2 böyük siyasət nəhəngi Heydər Əliyevin və Mustafa Kamal Atatürkün öz ölkələrinin gənclərinə etdiyi müraciətlə başladı: *"Əziz gənclər, Azərbaycanın övladları!*

*Sizin qarşınızda böyük vəzifələr durur. Qarşınızda böyük yol var. Bu yol hamar deyil. Bu yol uzun yoldur, cürbəcür maneələrlə dolu olan yoldur. O yolu hər biriniz keçməlisiniz. Bu yol müstəqil Azərbaycanın gələcəyi yoludur. Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycanın gələcək yolu kimi qəbul etməlidir. Öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Hər bir Azərbaycan gənci cəmiyyətdə, vətən qarşısında öz vəzifələrini layiqincə yerinə yetirməyə çalışmalıdır. Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, nıüstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi ohnasına həsr etməkdən ibarət olmalıdır".* (Azərbaycan dövlətinin qurucusu və rəhbəri möhtərəm Heydər Əliyevin 1996-cı ildə Azərbaycan gənclərinin I forumundakı çıxışından)

*"Ey Türk gəncliyi, Birinci vəzifən türk istiqlalını, Türkiyə Cümhuriyyətini əbədi mühafizə və müdafiə etməkdir. Mövcudiyyətinin və gələcəyinin yeganə təməli budur. Bu təməl sənin ən qiymətli xəzinəndir. Gələcəkdə belə səni bu vəzifədən məhrum etmək istəyən daxili və xarici bədxahların olacaqdır. Millət ehtiyac halında qalıb köməksiz hala düşə bilər. Bax bu an da vəzifən Tiirkiyənin müstəqilliyini və cümhuriyyəti qurmaqdır. Möhtac olduğun qüdrət damarlarındakı əsil qanda mövcuddur".* (Türkiyə

dövlətinin qurucusu və rəhbəri Mustafa Kamal Atatürkün 1923-cü ildə Türkiyə Böyük Millət Məclisindəki çıxışından)

*Hörmətli konfrans nümayəndələri!*

*Mən təsadüfən çıxışımı Azərbaycan və Türkiyə xalqlarının iki böyük siyasət nəhənginin - Mustafa Kamal Atatürkün və Heydər Əliyevin gənclərə xitabı ilə başlamadım. Hər iki müraciət millətin seçim qarşısında qaldığı dövrə təsadüf edir.*

*Gənclər hər bir cəmiyyətin aparıcı qüvvəsidir. Sağlam böyümüş, tərbiyə almış, gəncliyi olmayan xalqlar məhvə məhkumdurlar. O cəmiyyətdə ki, gənclərin yeri və yolu düzgün müəyyənləşdirilib, gəncliyə diqqət və qayğı göstərilir, O cəmiyyət qabağa gedir, inkişaf edir".*

Naxçıvan MR rəhbəri Vasif Talıbovun başqa sahələrdə olduğu kimi, gənclər siyasəti də ulu öndər Heydər Əliyevin millətin gənclərinə qayğısından qaynaqlanır. Eyni zamanda Vasif müəllim toplantı iştirakçılarına öz övladları kimi yanaşaraq xalqımıza onun gənclərinə Çar Rusiyasının və Sovet rejiminin həqarətli münasibətindən səmimi şəkildə söz açdı. O, gənclərə bildirdi ki, Çar hökuməti Azərbaycan gənclərini orduya aparmır, onlara silah etibar etmirdi. Ona görə də ermənilərin hücumu zamanı gənclər silah tutmağı belə bacarmırdılar. Bəs Sovet dönəmində necə? Azərbaycan gəncləri fəhlə batalyonlarında işləyir, şikəst olur, heç bir hərbi-taktiki bilik almırdılar. Xristianlar isə raket texnikası və yüksək

hərbi dairələrdə xidmət edir, zabit kimi geri qayıdırdılar. Sovet dövründə Bakıda 2 ali hərbi məktəb var idi. Bu hərbi məktəbləri bitirənlərin arasında cəmi 5 nəfər azərbaycanlı var idi. Məhz Heydər Əliyevin qətiyyəti sayəsində yüz illərlə formalaşmış imperiya münasibəti dağıldı. Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yarandı. Bundan əlavə, ildə 700-800 nəfər Azərbaycan gəncini tanınmış Sovet hərbi məktəblərinə oxumağa göndərirdi.

Sonra Vasif Talıbov qeyd etdi ki, Azərbaycanda əhalinin 5 milyon 346 min nəfərini gənclər təşkil edir. Yəni bütün əhalinin 66 faizini 35 yaşa qədərki gənclər təşkil edir. Naxçıvan Muxtar Respublikasında bu göstərici daha yüksək, 69 faiz təşkil edir.

*"Muxtar Respublika əhalisinin 250 min nəfəri gənclərdən ibarətdir. Bu, ciddi düşüncə və məsuliyyət tələb edir, Gələcəyimizin formalaşması qayğısına bu gündən qalmalıyıq. Millətin gələcək səviyyəsi bugünkü gəncliyin təhsilə nə dərəcədə yiyələnməsi səviyyəsindən, milli-əxlaqi dəyərləri mənimsəmə səviyyəsindən, əsil vətəndaş kimi formalaşma səviyyəsindən asılıdır. Biz gənclərimizin kəmiyyət göstəricisi ilə fəxr etdiyimiz kimi, onların keyfiyyət göstəricisi ilə də fəxr etməliyik.*

*Gənclərin milli-mənəvi keyfiyyətləri üzərində dayanarkən vacib bir məqamı xüsusilə qeyd etməyi lazım bilirəm. Əgər məndən soruşsaydılar ki, Azərbaycan gəncliyinin formalaşmasında nümunəni*

*kimdə görürsən, tərəddüd etmədən İlham Əliyevi göstərərdim. Belə bir məşhur kəlam var: "Müəllim odur ki, şagird yetişdirir". Bu gün Əliyevlər ailəsi İlham Əliyevin simasında təkcə mükəmməl savada malik, ata məhəbbətinə sadiq oğul deyil, həmçinin iyirmi birinci əsr Azərbaycan diplomatiyasında və siyasətində özünə mühüm yer tutan perspektivli siyasətçi yetişdirir. 15 yaşında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil olan, bu nüfuzlu təhsil ocağının aspiranturasını alimlik dərəcəsi ilə başa vuran, rus, ingilis və fransız dillərini incəliklərinə qədər mənimsəyən, ensiklopedik biliyə, intellektual səviyyəyə və geniş erudisiyaya, yüksək siyasi mədəniyyətə malik olan İlham Əliyev möhtərəm Heydər Əliyev siyasi məktəbinin ən layiqli müdavimi və davamçısıdır".* (27, səh.127)

Daha sonra Muxtar Respublika rəhbəri gənclərin işlə təmin edilməsindən onların asudə vaxtlarının səmərəli istifadə edilməsindən və onları cəsarətlə irəli çəkmək zərurətindən danışdı. O sözünə davam edərək dedi: *"Gənclər arasında məşğulluğa diqqət artırılmalıdır. Muxtar Respublikada məşğul əhalinin 54,3 faizini gənclər təşkil edir. Deyə bilərəm ki, blokada və xammal çatışmamazlığı ucbatından müəssisələrin əksəriyyəti işləmədiyi şəraitdə bu pis nəticə deyil. Lakin dövlət idarəetmə orqanlarında işləyənlərin 37 faizinin gənclərdən ibarət olması faktı üzərində düşünməliyik. Gəncləri irəli çəkmək, məsul vəzifələr həvalə etmək, bir sözlə, ölkəmizin gələcək*

*dövlət idarəetməsinə keçidi bu gündən hazırlamaq lazımdır.*

*Möhtərəm Heydər Əliyevin gənclər siyasətinin aparıcı istiqamətlərini humanizm və məsuliyyət prinsipləri tutur. Əgər 1990–1993-cü illərdə yeridilən yarıtmaz siyasət gənclərin mənəvi şikəstliyi ilə nəticələnirdisə, təcridxanalar, müvəqqəti saxlama yerləri gənclərlə doldurulurdusa, gəncləri dövlət cinayətinə qədər sürükləyirdilərsə, möhtərəm Heydər Əliyevin siyasi hakimiyyətə ikinci qayıdışından sonra bu sahədə dövlət siyasəti tamamilə dəyişdirildi. Ölkə rəhbəri ötən dövr ərzində 20-dən çox əfv fərmanı verərək 2800 adamı bağışlayıb. 6 dəfə üst-üstə 64 min adama şamil olunan amnistiya qərarı qəbul olunub. Bağışlanılanların əksəriyyəti isə gənclərdən ibatətdir. Ölkə Prezidentinin gənc nəslin tərbiyəsi ilə bağlı qarşıya qoyduğu vəzifə kifayət qədər aydındır. Vəzifə isə cəzalandırılmaqdan, həbs imkanı tədbirləri seçməkdən ibarət deyildir. Vəzifə insanda insan tərbiyə etməkdən, quruculuq dövrünün, gələcəyin insanını yetişdirməkdən ibarətdir. Bir sözlə, çalışmalıyıq ki, yeni iyirmi birinci əsri doğma Azərbaycanımız üçün sözün həqiqi mənasında mənəvi və fiziki cəhətdən sağlam gənclər əsrinə çevirək. Sizə bu vəzifələrin yerinə yetirilməsində uğurlar arzulayır və çıxışımı möhtərəm Heydər Əliyevin gənclərə xitabən söylədiyi müdrik sözlərlə bitirirəm: "Əziz gənclər! Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr*

*gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanı iyirmi birinci əsrdə yaşadanlarsınız, quranlarsınız. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!”* (27, səh.131)

Gənclər siyasətinin tərkib hissəsi kimi fiziki qüsuru olan uşaqlara qayğı da Naxçıvan rəhbərinin diqqət mərkəzindədir. O, çox gözəl bilir ki, fiziki qüsurlu uşaqlar bu ölkənin vətəndaşı olaraq gələcəkdə öz xalqına müəyyən sahədə xeyirli ola bilərlər. Bundan əlavə, fiziki cəhətdən bir qüsuru olan uşaq çox vaxt başqa cəhətdən istedadlı olur. Ona görə də onlara xüsusi qayğı lazımdır. Bu real düşüncə zəminində də Naxçıvan rəhbəri 14 oktyabr 2003-cü ildə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi nəzdində gözdən əlil uşaqlar üçün xüsusi ibtidai məktəbin yaradılması haqqında fərman imzaladı.

2005-ci ildə Naxçıvan Muxtar Respublikası gənclərinin IV konfransı çağırıldı. Bu konfransda gənclər müasir dövrdə onları düşündürən məsələlərdən bəhs etdilər. Qloballaşma şəraitində gənclərin milli-mənəvi dəyərləri qoruyub saxlamaq zərurəti haqqında da söhbət getdi. Şübhəsiz, bu forumda gənclər hər şeydən artıq özlərinin hamısı, Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cənab Vasif Talıbovun çıxışını intizarla gözlədikləri kimi, diqqətlə də dinlədilər. Əlbəttə onlar gənclər siyasətində Heydər Əliyev – İlham Əliyev strateji kursunun prioritet

olacağını bilirdilər. Amma ötən iki ildə bəzi məsələlər meydana gəlmiş, bəziləri sıradan çıxmışdı. Bu isə özünə taktiki münasibət tələb edirdi ki, bu münasibəti Naxçıvan gəncləri yaxşı tanıdıqları və sevdikləri Vasif müəllimin dilindən eşidəcəkləri konfransda söylədi. O, 1991–1993-cü illərdə Azərbaycan gəncliyinin fərasətsiz, özünü lider adlandırmış dəstə başçıları tərəfindən müxtəlif cinayətlərə guya dövlət çevrilişinə, xaotik hərəkata cəlb olunduğunu qeyd etdi. Bundan əlavə, o sosial reallıqlar haqqında danışaraq dedi: *"Açıq etiraf etmək lazımdır ki, bu gün cəmiyyətə yeni təfəkkür gəlir. Bu təfəkkürün daşıyıcıları gənclərdir. Biz öz işimizi məhz bu tələblərə uyğun qurmalıyıq. Yeni şəraitdə qarşımızda bir vəzifə durur: ümummilli liderimizin dövlət gənclər siyasəti ilə bağlı müəyyənləşdirdiyi vəzifələri yerinə yetirmək. Həmin vəzifələr isə bunlardır: müstəqil Azərbaycanın sağlam gəncliyini tərbiyə etmək, onları bilikli, yüksək mənəviyyatlı etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaq, gəncləri müstəqil, demokratik, sivilizasiyalı dövlət quruculuğu işinə cəlb etmək.*

*Qeyd etmək lazımdır ki, bu vəzifələrin həlli istiqamətində ölkəmizdə, o cümlədən muxtar respublikamızda müəyyən tədbirlər görülmüşdür. Təhsilin səviyyəsi qaldırılmış, yeni məktəblərin tikintisi və təhsil müəssisələrinin yeni avadanlıqlarla təminatı diqqət mərkəzində saxlanmışdır. Son 10 ildə 19 min 230 şagird yerlik 60 məktəb binası tikilmiş, 18 min 584 şagird yerlik 33 məktəb binası əsaslı təmir*

*oluııaraq istifadəyə verilmişdir. 3614 şagird yerlik 15 məktəbin tikintisi, 584 şagird yerlik 1 məktəbin isə əsaslı təmiri davam etdirilir. Naxçıvan Dövlət Universitetində yeni fakültələr, ixtisaslar açılmış, Naxçıvan Müəllimlər İnstitutu yaradılmışdır. Bütiin bunlar gənclərin təlim-tərbiyə və təhsil şəraitini yaxınlaşdırmaq üçün edilir. Görülən tədbirlər isə nəticəsiz qalmır. Cari ildə muxtar respublikanın orta ümumtəhsil məktəblərini 5409 nəfər bitirmiş, onların 3074 nəiəri ali məktəblərə qəbul imtahanlarında işti-rak etmək üçün ərizə vermişdir. İlkin məlumata görə, bunlardan 1018 nəfəri, yaxud 33,1 faizi ali məktəblərə qəbul olunmuşlar. Bu, ötən il ali məktəblərə qəbul olunanlardan 127 nəfər və ya 3 faiz çoxdur. 2004-cü ildə yüksək qəbul göstəricilərinə nail olanların, yəni 500-700 bal toplayanların ümumı sayı 67 nəfər idisə, bu il 500-700 bal toplayanların sayı artaraq 87 nəfər olmusdur. 2004-cü ildə yalnız 1 nəfər 650-700 bal toplamışdırsa, cari ildə bu göstəriciyə 6 gənc nail olmuşdur. Bunlar muxtar respublikada təhsıl sahəsində görülən işlərin nəticəsidir və mən fürsətdən istifadə edərək ölkəmizin ali məktəblərinə qəbul olanların hamısını, eyni zamanda ən yüksək qəbul göstəricisinə nail olan məzunlan təbrik edirəm".* (27, səh.195)

Gənclərimiz də müstəqil Azərbaycanımıza faydalı olmağı bacarmalı, vətənimizi, torpağımızı, dilimizi, dinimizi, milli ənənələrimizi sevməlidirlər. Bunun üçün, birincisı vətənpərvərlik tərbiyəsi

gücləndirilməli, hər bir gənc vətənpərvər olmalıdır. Vətən qarşısında əsgəri xidmətə vicdanlı münasibət, ordu quruculuğunda iştirak indiki şəraitdə gənclərimizin ən əsas vəzifəsi olmalıdır.

İkincisi, gənclərimiz çoxlu mütailə etməli, elmi biliklərə yiyələnməlidirlər. Kitab-mənəvi qida, mütaliə isə ən yaxşı təlimdir. Bu mənada gənclərin həyatında mütaliə böyük əhəmiyyətə malikdir. Ölkə Prezidentinin latın qrafikalı ədəbiyyatın nəşri və bölgüsü barədə göstərişinin icrası ilə əlaqədar bu günədək muxtar respublikanın təhsil müəssisələrinə və kitabxanalarına mərkəzləşmiş qaydada 414 min 677 ədəd yeni kitab paylanıb. Ötən il Naxçıvan Dövlət Universitetində ən müasir tələblərə avab verən Elektron kitabxana tikilmiş, bu il Naxçıvanda ilk dəfə olaraq yeni Kitab evi istifadəyə verilmişdir. Bunlar gənclərin, yeni-yetmələrin mənəvi cəhətdən formalaş-ması üçün edilir. Gənclər də bundan faydalanmalı, asudə vaxtlarını mənalı keçirməli, gələcəkdə cəmiyyət həyatında layiqli yer tutmaları üçün özlərini hazırlamalıdırlar.

Üçüncüsü, gənclərdə milli ruh yüksəldilməli, tariximizə və dilimizə məhəbbət aşılanmalıdır. Müasir şəraitdə ölkələr, dövlətlər arasında dərin, inteqrasiya, qloballaşma proseslərinin getdiyi bir dövrdə bu məsələ, xüsusilə diqqət mərkəzində saxlanılmalı, gənclər daha çox milli adət-ənənələrimizi qorumalı, yurd, vətən sevgisini daim uca tutmalıdırlar. Ümum-milli liderimizin bir tövsiyəsini xatırlatmaq istəyirəm.

O deyirdi ki: *"Hər bir azərbaycanlı gənc çalışmalıdır ki, rus, ingilis, fransız, ərəb, fars və digər dilləri mənimsəsin, öyrənsin. Bu lazımdır. Çünki müasir dünya ölkələrinin bir-biri ilə sıx əlaqəsi bu gün və gələcəkdə insanlardan bir çox dili bilməsini tələb edir. Mən gənclərimizə bu tövsiyəni verirəm. Amma bunlarla yanaşı, bunlardan əvvəl öz ana dilimizi, Azərbaycan dilini mənimsəmək lazımdır, bu dildə yaxşı danışmaq lazımdır, bu dili sevmək lazımdır".* (27, səh.197)

Gənclər siyasətinin tərkib hissələrindən biri də onları inandırmaqdır. Yəni gənclər inanmalıdır ki, Dövlət, onun rəhbəri onların işi ilə maraqlanır uğurlarına sevinir. Bu ənənəni artıq 1996-cı ildə ulu öndər özü qoymuş, hər il fevralın 2-ni gənclər günü elan etmişdir. Bu, ulu öndərin müstəqillik şəraitindəki qayğısının bariz nümunəsi idi. 70-ci illərdə də SSRİ Ali məktəblərinə qəbul olunmuş tələbələri özü qəbul edir, onlarla səmimi söhbətlər edir, tövsiyyələrini verir və inandırırdı ki, sizin 5 illik təhsil müddətiniz bizim diqqət mərkəzimizdə olacaqdır. Bu, gəncləri ruhlandırır, bütün çətinliklərdən qorxmamağa sövq edirdi. Eyni siyasəti eyni ruhda davam etdirən Naxçıvan Muxtar Respublikasi ali məclisinin sədri cənab Vasif Talıbov da davam etdirir. O, hər il ənənəvi olaraq Naxçıvanın və Azərbaycanın başqa şəhərlərindəki ali məktəblərə yüksək balla daxil olan tələbələrlə görüşür, onlara maddi və mənəvi dəstək verir. Muxtar Respublikanın rəhbəri fərəhli

məqamlarla birlikdə təəssüf doğuran məqamlara da toxunaraq dedi: *“Təhsilin müasir tələblərə uyğunlaşmasının, keyfiyyətcə yaxşılaşmasının nəticələri isə göz qabağındadır. Əgər 1939-cu ildə Naxçıvan Muxtar Respublikasında əhalinin hər 10 min nəfərinə 47 ali təhsilli düşürdüsə, 1989-cu ildə 227, 1995-ci ildə 554, 2000-ci ildə 619, 2006-cı iidə isə 640 nəfər ali təhsilli düşmüşdür. 1995-ci ildə muxtar respublikadan ali məktəbləıə 647 nəfər abituriyent qəbul olunmuşdursa, 2005-ci ildə 1018 nəfər, bu il isə 1110 nəfər qəbul olunmuşdur. Muxtar respublikanın ali təhsil müəssisələrində təhsil alanlarının sayi 2000-ci ildə 3800 nəfər idisə, ötən il bu göstərici 4574 nəfər təşkil etmişdir.*

*Biz bugünkü gəncliklə, Sizinlə – qəbul imtahanlarında yüksək bal toplamış abituriyentlərlə fəxr edirik!*

*Bu il ali məktəblərə Naxçıvan Muxtar Respublikasından tələbə qəbulunda ötən illə müqayisədə bir sıra irəliləyişlər olmuşdur. Əgər 2005-ci ildə ali məktəbbrə qəbül 33 faiz idisə, bu il 35 faizdən çoxdur.*

*Bir vacib məqam da odur ki, muxtar respublikadan ali məktəblərə bir nəfər də olsun məzunu qəbul olmayan məktəblərin sayı get-gedə azalır. Əgər 2002-ci ildə 65 məktəbin məzunları ali məktəblərə qəbul olmamışdırsa, ötən il 34, bu il 28 məktəbin məzunları ali məktəblərə qəbul olmamışdır. Şərur rayonu üzrə 12, Babək rayonu üzrə 5, Ordubad rayonu üzrə 4,*

*Culfa rayonu üzrə 4, Şahbuz rayonu üzrə 3 məktəbin məzunu tələbə adını qazana bilməmişlər. Bu məktəblərin rəhbərləri, təhsil şöbələri və Təhsil Nazirliyi vəziyyəti bir daha araşdırmalı, nöqsanları aradan qaldırmalıdırlar!”*. (27, səh.220–221)

Muxtar respublikanın rəhbəri savadlı, ali məktəbə girmiş tələbə gənclərdə vətənin gələcəyini gördüyü üçün onlara sevgi və sayğı ilə yanaşır onları doğma balası qədər sevir. O, yaxşı bilir ki, bu gün tələbə adı qazanmış özü də sınaq imtahanlarından yüksək bal toplamış gənclərin sabahı daha aydındır, daha müəyyəndir. Bu səbəbdən də onlarla görüşüb ürək sözlərini demək düzgün istiqamət vermək bir ənənə halını almış, hər il təkrar olunur. Söhbətin mövzusu eyni olsa da elementlərində həmişə yeni bir şey olur. Muxtar Respublika rəhbəri diyarın işıqlı övladlarına həm nəsihət-tövsiyə verir, həm də yol göstərib tapşırıqlarını verir. Görüşlər çox səmimi və mehriban şəraitdə keçdiyi üçün bütün ömürləri boyu tələbələrin yadından çıxmır. 2009-cu ildə də belə oldu. Yenə Vasif müəllim tələbələr atalıq qayğısı ilə dolu çıxışında belə dedi: *“Əziz gənclər!*

*Siz bu gün tələbə adını qazanmaqla elm sahəsində çətin və şərəfli yola qədəm qoyursunuz. İxtisasa yiyələnmək, zəngin bilik qazanmaq üçün böyük səy, çalışqanlıq, dözüm, səbir və iradə lazım olacaqdır. Biliklərə mükəmməl və dərindən yiyələnmək sizin əsas vəzifənizdir.*

*Yeniliyi dərindən mənimsəmək, yaradıcılıqla düşünməyi bacarmaq, özünə çallışqanlıq, axtarış bacarığı, tədqiqat məharəti aşılamaq lazımdır. Bilik pilləkəni ilə yorulmadan və qətiyyətlə yuxarı qalxmaq gərəkdir ki, tələbəlik həyatının hər günü bu pilləkənin bir pilləsi olsun. Getdikcə zənginləşən bilik xəzinəsindən, geniş elmi məlumat axtarışından faydalanmağı bacarmalısınız.*

*Bir çoxunuz gələcəkdə istehsalat rəhbəri və təşkilatçısı olacaq, əmək kollektivinə başçılıq edəcəksiniz. Bu mühüm və məsul işə hazır olmaq üçün iqtisadiyyatı, əməyin elmi təşkili prinsipiərini yaxşı öyrənmək lazımdır. Tələbəlik illərində bu keyfiyyətləri özünüzdə aşılayın, özünüzü məsuliyyətə və ciddi intizama alışdırın.*

*Ümummilli liderimiz milli təhsilin başlıca məqsədini şərh edərkən deyirdi ki: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun".*

*O dövlət, cəmiyyət güclüdür ki, onun gəncliyi, əhalisi dövlətə, mənsub olduğu xalqa sədaqətlidir, vətənpərvərdir, təhsillidir. Vətənpərvərliyi, milli ruhu,*

*zəngin mədəniyyəti olmayan insan yüksək savada da malik ola bilməz. Odur ki, harada təhsil almağınızdan, fəaliyyət göstərməyinizdən asılı olmayaraq unutmayın ki, müstəqil Azərbaycan Respublikasını təmsil edirsiniz, doğma ana yurdunuz Azərbaycandır. Azərbaycanın adını, azərbaycanlı şərəfini daim uca tutmalı, hər biriniz bu ada layiq olmalısınız".* (27, səh.457)

Məlum olduğu kimi, Azərbaycan Respublikasının prezidenti cənab Ilham Əliyevin 22 dekabr 2008-ci il tarixli sərəncamına əsasən 2009-cu il uşaq ili elan edilmişdi. Bu sərəncamın icrası üçün naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbov 14 fevral 2009-cu ildə imzaladığı sərəncamda Naxçıvan Muxtar Respublikasında həyata keçiriləcək tədbirlər planını təsdiq etdi. Tədbirlər planı bütün 2009-cu ili əhatə etməklə 14 bənddən ibarət idi. Bu tədbirlər planı Muxtar Respublikanın bütün guşələrində, bütün şəraitlərdə yaşayan uşaqları əhatə edirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin gənclər siyasətində uşaqlara qayğı, yuxarıda dedyimiz kimi, qırmızı bir xətt kimi keçir. Uşaqlar vətənin gələcəyidir. Sadəcə gəlişi gözəl şüar deyil, həyatın reallığıdır. Biz bundan əvvəlki sərəncamlarında, çıxışlarında Muxtar Respublikamızın rəhbərinin vətən övladlarına, uşaqlara, gənclərə necə məhəbbətlə yanaşdığını görmüş və inanmışıq. Məlum olduğu kimi, hər il iyunun 1-i beynəlxalq uşaqları müdafiə günüdür. Azərbaycanda bu sahədə milli

qanunvericilik təkmilləşməyə başlamışdır. Buna görə də Azərbaycan Respublikası uşaq hüquqları bəyannaməsinə və uşanq hüquqları konvensiyasına qoşulmuş, 1998-ci ildə “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur. 1 iyun uşaqları beynəlxalq müdafiə günü münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri dərin məzmunlu və əhatəli bir çıxış etdi. İlk öncə o bu sahədə ulu öndərin sabit xətti-hərəkətinin respublikada verdiyi bəhrələrdən danışdı: *“Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət uşaq siyasəti uğurla davam etdirilir. Bu siyasətin nəticəsidir ki, uşaqlar üçün müasir təhsil müəssisələrinin ucaldılması diqqət mərkəzində saxlanmış, son 15 ildə Naxçıvan Muxtar Respublikasında 62 min 744 şagird yerlik 157 orta məktəb binası tikilmiş və ya yenidən qurulmuşdur. Bu dövrdə məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələrinin şəbəkəsi də genişləndirilmiş, 6 məktəbdənkənar müəssisə, 13 uşaq bağçası, 18 musiqi məktəbi istifadəyə verilmişdir.*

*Uşaqların istedadlarının aşkara çıxarılması, bacarıqlarının davam etdirilməsi məqsədilə bir sıra tədbirlər görülmüş, Dövlət Kukla və Uşaq teatrları, Dövlət Uşaq Filarmoniyası yaradılmışdır. Ötən il istifadəyə verilən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi uşaqların hərtərəfli yetişməsinə göstərilən qayğının parlaq təzahürüdür.*

*Uşaqlar arasında idmanın kütləviliyinin təmin olunması, gənc nəslin sağlam böyüməsi üçün də tədbirlər görülmüş, 150-dən çox ümumtəhsil məktəbində örtülü idman zalları, açıq idman qurğuları istifadəyə verilmiş, 2 Olimpiya İdman Kompleksi və Üzgüçülük Mərkəzi, 4 Şahmat məktəbi, ən müasir tələblərə cavab verən 5 stadion, süni örtüklü mini-futbol meydançası, əl oyunları idman kompleksi, boks və güləş idman zalları tikilmişdir.*

*Qeyd olunan dövrdə uşaqların sağlamlığının qorunması sahəsində səylər daha da artırılmış, Uşaq Bərpa Mərkəzi, Körpələr evi və Ailələrə Dəstək Mərkəzi üçün binalar tikilmiş, Muxtar Respublika Mərkəzi Uşaq Xəstəxanası, Naxçıvan Muxtar Respublika Doğum Mərkəzi kimi müasir tələblərə cavab verən səhiyyə ocaqları istifadəyə verilmişdir. Bütün bunlar isə nəticəsiz qalmamışdır. Əgər 1995-ci il ərzində bir yaşadək uşaq ölümü 195 idisə, 2009-cu ildə bu göstərici 16 dəfə azalaraq 12-yə enmişdir. Bu gün muxtar respublikada 145 min uşaq var ki, bu da 15 il əvvəlki dövrlə müqayisədə 9 faiz artım deməkdir".* (27, səh.489)

Sonra Muxtar Respublika rəhbəri uşaq-gənclərə tədbir iştirakçılarına müraciətlə dedi: *"Əziz uşaqlar və gənclər!*

*Bu gün Sizinlə tarixi bir gündə görüşüriik. Dövlət orqanlarının və cəmiyyətin uşaq hüquqlarının qorunması sahəsində vəzifələri barədə burada ətraflı danışıldı, tapşırıqlar verildi.*

*Biz nə istəyirik? İstəyirik ki, siz təhsilli, bilikli, möhkəm əqidəli vətəndaşlar kimi yetişib formalaşasınız. Sizi böyük bir gələcək gözləyir. Bu gələcəyə indidən hazır olmalısınız. Bunun üçün yaxşı oxumaq, Azərbaycan xalqına xas olan mənəvi dəyərləri mənimsəmək lazımdır. Gələcəkdə hansı ixtisası seçmənizdən asılı olmayaraq Azərbaycan tarixini və Azərbaycan dilini yaxşı öyrənməlisiniz.*

*Azərbaycan tarixi Azərbaycan xalqının varlığıdır. Xalqımızın varlığını yaşatmaq istəyiriksə, onun tarixini öyrənməliyik.*

*Azərbaycan dili bizim keçmişimiz, milli mədəniyyətimiz, kimlik pasportumuzdur. Keçmişimizin qədrini biliriksə, gələcəyimizi düşünürüksə mütləq ana dilimizi - Azərbaycan dilini yaxşı öyrənməliyik.*

*İnsan həyatında uşaqlıq, gənclik dövründən gözəl dövr yoxdur. Bu dövrdən maksimum səmərəli istifadə edilməlidir. Uşaqlıq və gənclik dövründə boş və mənasız keçirilən hər gün sonradan böyük itkilərə gətirib çıxara bilər. Bütün imkanlardan səmərəli istifadə olunmalıdır ki, gənc nəslimiz yaxşı bilik, təhsil alsın, elmin, həyatın bütün sahələrində olan təcrübəni mənimsəsin, həyatda, cəmiyyətdə həm özü, həm ölkə, həm də xalq üçün faydalı olsun".* (27, səh.191)

Bu sözlərə şərh verməyə ehtiyac yoxdur. Biz qəsdən sözü Vasif müəllimin özünə verirdik, yəni çıxışlarından sitatları böyük verirdik ki, oxucu bilavasitə görsün ki, siyüasi rəhbərliklə humanizm birləşəndə necə möhtəşəm bir şəxsiyyət yaranır. Bu

ideya ona Heydər Əliyevdən, yardım isə İlham Əliyevdən gəlir. Beləliklə, gözümüzün önündə nəinki millətini-xalqını habelə onun gənclərini, uşaqlarını sevən, onların gələcəyini düşünən müdrik bir insan-rəhbər dayanır.

# VASİF TALIBOV VƏ NAXÇIVANDA ORDU QURUCULUĞU

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli sərvətlərimizə özümüz sahib çıxdığımız kimi, ordumuz da doğmalaşdı. Yeri gəlmişkən göstərmək lazımdır ki, 70 il Azərbaycandan əsgərliyə – Sovet ordusu sıralarına çağırılanlar sovet əsgəri (Советский солдат) adlansa da, ona ən ucqar bölgələrdə inşaat, təsərrüfat işi taprışırırdılar. Ən yaxşı halda 2 ildən sonra serjant kimi dönürdü. Qoruduğu sərhəd yad bölgədə olduğu kimi, ona münasibət də yad idi.

Hətta Azərbaycan ərazisində yerləşən hərbi hissələrin həm komanda zabit heyəti, həm də əsgərlər qeyri-millət olurdu. Bəziləri qeyri-leqal yolla öz oğlunu Azərbaycandakı hərbi hissələrdən birinə salırdı (o da imkanlılar). Azərbaycanda olan hərbi hissələr heç bir parametr üzrə Respublikaya və ya onun yerlərdəki idarələrinə tabe deyildi. Yalnız komandirlərin siyasi işlər üzrə müavini yerli partiya təşkilatı ilə əlaqə saxlayır, onun iclaslarında iştirak edirdi.

Azərbaycan Dövlət müstəqilliyini bərpa etdikdən sonra belə 2 il (1991–1993-cü illərdə) ordumuz təkcə milliliyi ilə seçilirdi. Nə səriştəli Ali baş komandan, nə səriştəli hərbi işi bilən müdafiə naziri, nə vahid siyasi istiqamət var idi.

Azərbaycanda siyasi sabitlik, parçalanmaq təhlükəsinin aradan qaldırılması, dövlətçiliyimizin məhv olma təhlükəsi məhz 1993-cü ildə ümummilli lideri Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtması ilə başlandı. Azərbaycanda milli ordu quruculuğu məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Azərbaycan regionun ən güclü, ən sabit dövləti Azərbaycan Heydər Əliyevin strateji yolu, İlham Əliyevin səriştəli rəhbərliyi ilə irəliləyir. Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu kimi, Naxçıvanda yerləşən hərbi hissələr də vahid Azərbaycan Ordusunun tərkib hissəsidir. Bununla belə, Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cənab Vasif Talıbov bölgədə yerləşən ordunun bütün məsələləri ilə yaxından məşğul olur. Milli ordunun Naxçıvanda yerləşən dəstələrinin elə bir problemi olmaz ki, Ali Məclisin sədri onunla yaxından maraqlanaraq həllinə yardım etməsin.

23 avqust 2007-ci ildə Azərbaycan sərhəd qoşunlarının yaranmasının 15 illiyi günündə Ordubad sərhəd zastavanın yeni binasının açılışı oldu. Burada Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədrinin iştirak etməsi zastavasıının komandir və əsgərlərinin, bütün şəxsi heyətin sevincinə səbəb oldu. Ali məclisin sədri sərhəd zastavasının, sərhəd qoşunlarının və Naxçıvan sərhəd diviziyasının yaranması tarixi haqqında danışdı. Ali məclisinin sədri əsgər və

zabitlərlə elə səmimi danışmışdır ki, onun nitqini ixtisar etmək çətin və insafsızlıqdır.

"Naxçıvan" Sərhəd Diviziyası çətin, lakin şərəfli bir yol keçmişdir. 1992-ci il avqust ayının 22-i Azərbəycan Sərhəd Qoşunları Naxçıvan Dəstəsinin yaranması günü də, ümumiyyətlə, Azərbaycanın qurulması, Azərbaycan dövlətçiliyinin yaranması, müstəqil Azərbaycan dövlətinin yaşaması da ümummilli liderimizin adı ilə bağlıdır. "Naxçıvan" Sərhəd Dəstəsi o zaman ağır bir vəziyyətdə yaradıldı. Bir zastavanın əsgərlərindən də az şəxsi heyətlə "Naxçıvan" Sərhəd Dəstəsinin təməli qoyuldu. O dövr yaradılan sərhəd dəstəsinə böyük əngəllər törədilir, manelər yaradılırdı. Buna baxmayaraq, üçrəngli bayrağımız ilk dəfə olaraq Azərbaycan Sərhəd Qoşunları üzrə Naxçıvan Muxtar Respublikasında qaldırıldı və Azərbaycan Sərhəd Qoşunlarının yaradılmasının əsası qoyuldu. O dövrdə Azərbaycana rəhbərlik edən xalq cəbhəsı və onun rəhbərliyi Naxçivandakı Sərhəd Dəstəsinin silah-sursatının 50 faizinin aparılması üçün prezident səviyyəsində sərəncam vermişdi. Ancaq o zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik edən ümummilli liderimiz bu sərəncamı kənara qoydu və yalnız hərbi hissənin komandirinə "Makarov" tipli xidməti silahın xatirə olaraq verilə biləcəyinin mümkün olduğunu bildirdi. Onlar Naxçıvandan bu cür də yola salındı və bütün silah-sursat qalmaqla "Naxçıvan" Sərhəd Dəstəsinin əsası qoyuldu."

Ali Məclisin Sədri ötən illər ərzində "Naxçıvan" Sərhəd Dəstəsinin keçdiyi inkişaf yolundan da danışmışdır. Qeyd edilmişdir ki, bu inkişaf "Naxçıvan" Sərhəd Diviziyasının yaranmasına səbəb oldu. Ümummilli liderimizin yolunu bütün sahələrdə sonsuz sədaqətlə, uğurla davam etdirən hörmətli Prezidentimiz İlham Əliyev "Naxçıvan" Sərhəd Diviziyasının yaradılması haqqında fərman verdi. "Naxçıvan" Sərhəd Divizlyası yarandı.

"Naxçıvan" Sərhəd Dəstəsinin təməli qoyulanda da, bu gün də Naxçıvan Muxtar Respublikası blokadada yaşayır. O dövrdə Naxçıvanın sərhədlərinin çıxış hissələri də "Naxçıvan" Sərhəd Dəstəsində deyildi. Sədərək tərəfdən birinci və Ordubad tərəfindəki sonuncu zastava o zaman Ermənistan Sərhəd Qoşunlarının tabeliyində idilər. Bütün bunları geri almaq lazım idi. Ümummilli liderimizin səyi nəticəsində o zaman Zaqafqaziya Sərhəd Qoşunları qarşısında qaldırılmış məsələ öz həllini tapdı. Həmin sərhəd zastavaları da "Naxçıvan" Sərhəd Dəstəsinin tabeliyinə verildi. ("Şərq Qapısı", 23.08.2007)

Sovetlər dönəmində sovet ordusu və hərbi dəniz qüvvələri bayramı hər il fevralın 23-də qeyd edilərdi. Bu bayramı istər-istəməz biz də qeyd edər, qadınlarımız kişilərimizi "Kişi bayramı" münasibətilə təbrik edərdi. Amma nəzərə almırdıq ki, bu, yad bir ordunun bayramıdır ki, bircə balaca "ayağın yorğandan çıxsa" ölkəni alt-üst edər, səni bomba yağışı altında məhv edər. Yenə 1993-cü ilə qayıtmalı oluruq

ki, ulu öndər hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan xalq Cümhuriyyətinin yaratdığı ordunun gününü qeyd etməyi qərara aldı. Ulu öndər 1998-ci il iyun ayının 25-də Azərbaycan silahlı qüvvələrinin 80 illiyi ilə əlaqədar keçirilən təntənəli mərasimdə çıxış edərək dedi: *"Azərbaycan silahlı qüvvələri gününü yüksək səviyyələ qeyd edirik. Bununla da yeni bir ənənə yaranır. Hesab edirəm ki, Azərbaycan silahlı qüvvələri günü bir bayram kimi xalqımızın həyatına daxil olacaq, xalqla ordu birliyi, dövlətimizin və xalqımızın orduya olan qayğısını nümayiş etdirəcəkdir".*

2008-ci ildə Azərbaycan silahlı qüvvələrinin 90 iliyi münasibətilə keçirilən təntənəli tədbirdə Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cənab Vasif Talıbov çıxış etdi. Onun çıxışı milli ordumuza qayğı və sayğı sözləri ilə başlanırdı. "Əziz əsgərlər!" Bu söz hərbi əsgərin öz əsgəri vəzifəsinə, xalqına onun silahlı qüvvələrinə məhəbbətini artırırdı. Bundan sonra Naxçıvan rəhbəri milli ordunun yaranmasının bəzi məqamlarına toxundu: *"Ölkəmizdə milli ordunun yaradılması böyük bir tarixi dövrü əhatə edir. Bu tarix, bir tərəfdən malik olduğumuz hərb sənəti ənənələrinin qorunub-saxlanması qayğısı ilə bağlı olmuşdursa, ikinci tərəfdən xalqımızın müstəqillik əzminin ifadəsi kimi təzahür etmişdir. On doqquzuncu əsrdə Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal olunduqdan sonra mövcud hərbi qurumlar buraxılmış, hərbi quruculuqdan kənarda*

*saxlanması məqsədilə azərbaycanlılar çar ordusunda xidmətdən azad edilmişdilər.*

*1918-ci il may ayının 28-də Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra çar ordusunda xidmət keçmun şəxsi heyət hesabına ilk milli ordu hissələrinin yaradılmasına başlandı. 1918-ci il iyun ayında Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası "Əlahiddə Azərbaycan korpusunun təşkili barədə" qərar qəbul etdi. Həmin il avqustun 1-də isə hərbi nazirlik təsis olundu. Hərbi təhsilin əsası qoyuldu. Hökumət 25 min nəfərlik ordu yaratmaq vəzifəsini qarşıya qoymuş, hərbi məqsədlər üçün dövlət büdcəsinin 24 faizinin sərf olunması nəzərdə tutulmuşdu. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu məqsədlərin həyata keçirilməsinə imkan vermədi.*

*Azərbaycan Silahlı Qüvvələrinin yaradılması ümummilli lider Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Ordunun hər bir dövlətin müstəqilliyi üçün vacib şərtlərdən biri olduğunu diqqət mərkəzində saxlayan ulu öndər milli kadrların yetişdirilməsi, gələcək müstəqil Azərbaycanın etibarlı müdafiə təminatı kimi uzun müddətə hesablanmış məqsədyönlü addımlar atmış, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 21 oktyabr tarixli büro qərarı ilə azərbaycanlı gənclərin hərbi məktəblərə, ali hərbi təhsilə cəlb edilmələri ilə bağlı yerli orqanlara xüsusi tapşırıqlar vermişdi. Xalqımızın böyük oğlu 1971-ci*

*ildə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbi yaratmaqla, azərbaycanlı gəncləri keçmiş SSRİ-nin qabaqcıl ali hərbi məktəb və akademiyalarına təhsilə göndərməklə, əslində Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə başlanan milli ordu quruculuğu missiyasını Sovet rejimi şəraitində davam etdirirdi…"*

Möhtərəm Heydər Əliyev Naxçıvana hər səfərində buradakı hərbi hissələrdə olur, tövsiyə və tapşırıqlarını verir, aparılan ordu quruculugunu bilavasitə müşahidə edərək deyirdi: *"Naxçıvan Muxtar Respublikasında orduya göstərilən qayğı bir nümunə kimi başqa bölgələrdə də istifadə olunmalıdır".*

Ümummilli liderimizlə başlanan müasir və güclü ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də muxtar respublikadakı hərbi hissələrin döyüş hazırlığını qiymətləndirərək demişdir: *"Ordu quruculuğu sahəsində burada çox böyük işlər görülür. Naxçıvandakı hərbi hissələr Azərbaycanın hər bir hissəsi üçün nümunə, örnək ola bilər. Orada olan şərait ən yüksək standartlara cavab verir. Azərbaycan ordusu məhz bu cür olmalıdır".*

Biz təbii ki, əldə olunanlarla kifayətlənə bilmərik. Qarşımızda mühüm vəzifələr dayanır. Tam əminik ki, silahlı qüvvələrimizin əsgər və zabitləri, bölmə və hissə komandirləri öz döyüş məharətlərini durmadan yüksəldəcək, müasir texnikanı, hərb elmini

mənimsəyəcək, torpaqlarımızın etibarlı müdafiəsini yüksək səviyyədə təmin edəcəklər.

Ümummilli liderimiz deyirdi ki: *“Bizim hamımızın bir vətəni var - bu, Azərbaycandır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir”.* (27, səh.376–378)

Muxtar Respublika rəhbəri Naxçıvan ərazisində yerləşən hərbi hissələri bir gün də diqqətdən kənarda saxlamır. Onlarla, demək olar ki, bütün əlamətdar günlərdə görüşür, onların qarşısında çıxış edərək gördükləri işləri yüksək dəyərləndirir və yeni vətənpərvər tapşırıqlarını verir. 2009-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin qanuni varisi kimi, Azərbaycan Respublikası öz silahlı qüvvələrinin yaranma tarixini də həmin tarixdən götürür. Deməli 1918-ci il iyun ayının 22-də Azərbaycan hökumətinin qərarı ilə Qazax rayonunda ilk sərhəd postu yaradıldı. Onda bu postun qarşısında Ermənistan və Gürcüstanla həmsərhəd olan ərazilərin qorunması vəzifəsi qoyulmuşdu. 1919-cu il avqustun 18-də Azərbaycan Parlamentinin qərarı ilə əlavə olaraq 99 sərhəd məntəqəsi təşkil edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti müstəqil respublikanın sərhədlərinin qorunması üçün əlindən gələni edirdi. Lakin bu vətənpərvər iş uzun sürmədi. Azərbaycançılığın bütün növ və elementlərinə qənim kəsilən sovet rejimi bu sərhəd məntəqələrini ləğv etdi. Onların yerində “poqran post”lar yaratdı. Azərbaycanlılar öz sərhədlərinə belə buraxılmadı. Yaşlı nəslin

yadındadır. Bakıdan bir naxçıvanlı Naxçıvana gələ bilməzdi. Mütləq "propusk" almalı idi ki, Naxçıvandakı öz evinə getsin. Bircə nəfər sərhəd postuna yaxınlaşıb bir şey soruşa bilməzdi.

Azərbaycan Respublikası sərhəd qoşunlarının yaradılmasının 90 illiyi münasibətilə keçirilən təbdirdə Naxçıvan muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbov sərhəd qoşunlarının yaranması və keçdiyi yol haqqında ətraflı danışdı. Sonra o, əsgərlərə müraciət edərək onların qarşısında duran çətin və şərəfli vəzifədən, sərhəd qoşunlarımızın öz doğma sərhədlərini qorunmasından və bu yolda ulu öndərin tövsiyyələrini və xidmətlərini unutmamalarından danışaraq dedi:

Sərhəd qurumlarının yaradılması prosesinə möhtərəm Heydər Əliyevin rəhbəri olduğu Naxçıvandan başlandı. Həmin dövrdə SSRİ-nin Naxçıvandakı sərhədlərində 41-ci Sərhəd Qoşunları Dəstəsi dayanmışdı. Lakin birbaşa Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinə tabe olan bu qurum da Muxtar Respublika ərazisindəki bütün sərhəd məntəqələrini əhatə etmirdi. Ulu öndərimizin səyi nəticəsində cəmi bir ay ərzində Muxtar Respublika ərazisində yerləşən bütün sərhəd zastavaları 41-ci Sərhəd dəstəsinin tabeliyinə verildi. Rusiya Sərhəd Qoşunları Baş Komandanlığı və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin rəhbərliyi ilə aparılan danışıqların nəticəsi olaraq 1992-ci il sentyabrın 29-da isə 41-ci Sərhəd Dəstəsi ləğv olundu, onun bütün

hərbi və təsərrüfat əmlakı Naxçıvanda yeni yaradılmış birinci Sərhəd Dəstəsinin sərəncamına verildi. 215 kilometrlik sərhəd ərazisi ilk dəfə olaraq milli sərhəd qoşunları tərəfindən mühafizəyə qəbul edildi. Naxçıvan Muxtar Respublikası ərazisindəki bütün sərhəd məntəqələrində ilk dəfə olaraq Azərbaycan Respublikasının Dövlət Bayrağı qaldırıldı.

Bu, böyük tarixi hadisə idi. Azərbaycan xalqı əsrlər boyu müstəqillik uğrunda mübarizə aparmış, milli əraziyə və sərhədlərinə malik olmaq üçün cəhdlər göstərmiş, nəhayət, ümummilli lider Heydər Əliyevin gərgin dövlətçilik fəaliyyəti sayəsində bu arzusuna qovuşmuşdu. 1992-ci il oktyabrın 9-da Naxçıvanda keçirilən hərbi paradda çıxış edən görkəmli dövlət xadimimiz demişdir: *"Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədləri on illər boyu rus qoşunları tərəfindən qorunmuşdur. Biz keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın burada yerləşən 41-ci Sərhəd qoşunları hissəsinin buradan tamamilə çıxıb getməsinə nail olduq və Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının birinci dəstəsi yaradıldı. İndi artıq qonşu İran və Türkiyə ilə sərhədlərimizi Azərbaycan milli sərhəd qoşunlarının Naxçıvanda yerləşən dəstəsi mühafizə edir. Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, həmçinin gələcək nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir"*.

Ölkəmizdə sərhəd qoşunlarının yaradılması möhtərəm Heydər Əliyevin ali hakimiyyətə ikinci qayıdışından sonra dövlət siyasətinin mühüm tərkib

hissəsinə çevrilmiş, peşəkar xarakter almışdır. Milli dövlətçiliyin əsas atributlarından olan dövlət sərhədlərinin mühafizəsinə ulu öndərimizin göstərdiyi diqqət və qayğının nəticəsidir ki, dövlət sərhədləri boyu zəruri infrastruktur yaradılmış, Müstəqil Dövlətiər Birliyinə daxil olan digər dövlətlərdən fərqli olaraq, Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olduğunu bütün dünyaya nümayiş etdirmişdir.

Ulu öndərimizin 2000-ci il 16 avqust tarixli sərəncamı ilə Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı günü təsis edilmiş, 2002-ci il iyul ayının 31-də isə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsinin əsasında Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti yaradılmış və ona mərkəzi icra hakimiyyəti orqanı statusu verilmişdir.

Əziz sərhədçilər!

Bu gün qarşımızda mühüm vəzifələr dayanır. Tam əminik ki, "Naxçıvan" Sərhəd Diviziyasının əsgər və zabitləri, bölmə və hissələri döyüş məharətlərini durmadan yüksəldəcək, müasir texnikanı və texnologiyanı mənimsəyəcək, Vətən sərhədinin etibarlı müdafiəsini indiyədək olduğu kimi bundan sonra da yüksək səviyyədə təmin edəcəklər." (27, səh.470–472)

Müdafiə və Daxili İşlər Nazirliyi tabeliyində olan hər bir qoşun növünün öz vəzifəsi, öz funksiyası vardır. Ordu, əsasən xarici düşməndən müdafiə üçün

yaradılırsa, daxili sabitliyi qorumaq üçün Daxili İşlər Nazirliyinin daxili qoşunları, çevik polis alayı və s. mövcud olur. Hamının yadındadır ki, OMON adı ilə adamları gəlib evlərindən çıxarır, külli miqdarda pul alıb buraxırdılar. Evdə sakit yatmaq olmurdu. Şəxsən mən bu sətirləri yazarkən bir maşının o vaxtki leytenant Şmid (indiki Rəşid Behbudov) küçəsində dayandığını, içindən on nəfər düşüb 5 istiqamətə sağa, sola, irəliyə, geriyə və göyə avtomat silahlardan atəş açdıqlarını, camaat arasında vahimə yaradaraq 10 dəqiqədən sonra həmin maşina minib qaçdıqlarını görmüşəm. Bizim olduğumuz Xarici Dillər İnstitutunun divarları güllədən dəlik-deşik olmuşdu. Qatarın (Bakı-Şərur) qabağını kəsib Naxçıvanlısınız deyə vağzalda kimlərinsə amansızcasına döydüyünü və s., və s. görmüşdük. Bu 1993-cü ilin iyunun 15-dək davam etdi. Ulu öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtması ilə yuxarıda dediyim hərc-mərcliyə son qoyuldu. Ölkədə sabitlik asayiş yarandı. Naxçıvanın özündə də daxili sabitlik yarandı. Bunun əsas səbəblərindən biri ulu öndərin 1995-ci il aprelin 10-da daxili qoşunların Naxçıvan taboru yaratması oldu. 2010-cu ildə bu münasibətlə – daxili qoşunların Naxçıvan alayının yaranmasının 15 illiyi münasibəti ilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbov bu alayın yaranma tarixindən zərurətindən və vəzifələrindən danışaraq dedi: "Azərbaycan hansı yolla getməlidir? Müstəqillik qorunacaq, sabitlik

yaranacaq, yoxsa yenidən başqa dövlətlərin təsiri altına düşəcəyik? O zaman bu sual hamını düşündürürdü. Azərbaycan xalqı demokratiya, müstəqillik, siyasi sabitlik yolunu tutdu və 1993-cü ildə ümummilli lider Heydər Əliyevi ali hakimiyyətə dəvət etdi.

Bu tarixdən başlayaraq dövlət müstəqilliyi sarsılmaz xarakter aldı. Ordu quruculuğu, silahlı qüvvələrin yenidən təşkilatlanması, vahid komandanlıq sisteminin həyata keçirilməsi bir nömrəli vəzifə kimi gündəliyə gətirildi. Hakimiyyətsizlik, hərc-mərclik illərində formalaşmış cinayətkar dəstələr ləğv edildi, törədilmiş cinayətlərə görə cəzanın labüdlüyü təmin olundu. Ölkədə kriminogen durum tam nəzarət altına alındı. Sabitliyin qorunmasının mühüm təminatçısı kimi Daxili İşlər Nazirliyinin, o cümlədən onun Daxili Qoşunlarının funksiya və vəzifələri dövlətin təhlükəsizlik prinsiplərinə uyğunlaşdırıldı.

1993-cü il sentyabrın 20-də və 1994-cü il aprelin 29-da daxili işlər sistemi işçiləri ilə görüşlərində ümummilli liderimiz hüquq-mühafizə orqanları, eləcə də Daxili Qoşun hissələrinin qarşısında qanunauyğun fəaliyyəti təmin etmək, bu orqanı xalqın və dövlətin layiqli müdafiəçisinə çevirmək kimi təxirəsalınmaz vəzifələr qoydu. Ümummilli liderimiz deyirdi: *"Gərək Daxili Qoşunlarda yüksək vətənpərvərlik ruhu, sağlam münasibətlər olsun. Gərək bizim Silahlı Qüvvələrimizdə Azərbaycanın dövlətçiliyinə, dövlətinə, Azərbaycanın Ali Baş Komandanına daim*

*sədaqət olsun. Azərbaycanın güclü ordusu bu gün də, sabah da, 100 il bundan sonra da lazımdır. Bunun üçün planlı iş aparılmalı, peşəkar münasibət göstərilməlidir”.*

Hazırda Daxili Qoşunların daha da gücləndırılməsı sahəsində müəyyənləşdirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da ardıcıl şəkildə həyata keçirilir. 15 il bundan əvvəl, 1995-ci il aprelin 10-da Naxçıvanda yaradılan Daxili Qoşunların taboru mühüm təşkilatlanma mərhələsi keçmiş, inkişaf edərək tabordan alaya çevrilmişdir. Hərbi hissənin yerləşdiyi ərazidə geniş quruculuq işləri aparılmış, ən müasir infrastruktur yaradılmışdır. Ötən dövr ərzində maddi-texniki bazanın yaxşılaşdırılması sahəsində əhəmiyyətli dönüşə nail olunmuş, hərbi hissə ən müasir silah-sursat, hərbi texnika və radio rabitə sistemləri ilə təmin olunmuşdur.” (27, səh.497–498)

Yaxşı demişlər işin, vəzifənin böyüyü kiçiyi yoxdur. Hələ Nizami Gəncəvi Bəhramın dili ilə deyirdi ki,

*Bir halda ki, dövlət verilib mənə*
*Elə işlərəm ki, tanrı bəyənə!*

Bax bu fikri, Naxçıvan rəhbəri Vasif Talıbova da aid etmək olar. Hansı sahə olursa-olsun, onun üçün böyük və ya kiçik problem yoxdur. O, bütün sahələrə diqqətlə yanaşır, insanların arzu və təkliflərini dinləyib onlara kömək edir. Vaxtilə Azərbaycanda

hərbi məktəb açmaq üçün ulu öndər nə qədər zəhmət çəkməli, səy göstərməli, çalışmalı olmuşdu. Müstəqillik əldə etdkidən sonra isə nəinki ali hərbi məktəb, hətta hərbi yönümlü orta məkmətblər-liseylər açmaq imkanı qazandı. Sovet dönəmində Azərbaycanda yerləşən hərbi hissələrin nə ilə məşğul olduğunu və nə kimi silah-sursat alındığını hərbi-sirr deyə hətta Respublika rəhbərlərindən gizlədirdilər. Müstəqillik qazandıqdan sonra isə onların hamısını özümüz edirik. Müdafiəmiz üçün hər nə lazımsa edirik. Naxçıvanda da belədir. Naxçıvanın ali rəhbərliyi buradakı qoşun növlərinin işi və qayğısı ilə yaxından maraqlanır. Hər bir əsgərin-kursantın hətta mənəvi tərbiyəsi ilə maraqlanaraq öz doğma övladı kimi onlara qayğı göstərir. Belə olduqda əsgər və zabit öz üzərində qayğını görür və onda vətən sevgisi daha da qüvvətlənir.

1999-cu ildə oktyabr ayının 13-də ulu öndərin təşəbbüsü və Naxçıvan MR Ali məclisinin sədri V.Talıbovun yaxında iştirakı ilə Naxçıvanda ilk hərbi məktəb fəaliyyətə başladı. Məktəbin fəaliyyətə başlaması münasibətilə ulu öndər demişdi: *“Burada təhsilə başlayan gənclərimizə, bütün Azərbaycan gənclərinə üzümü tutaraq deyirəm ki, cəmiyyətdə hər bir peşə lazımdır, hörmətlidir, cəmiyyət üçün faydalıdır. Ancaq vətəni qorumaq peşəsi bu peşələrin hamısından yüksəkdir. Özünü bu peşəyə həsr edən hər bir azərbaycanlı gənci bütün gənclərdən yüksəkdə durur, bütün Gənclərdən qiymətlidir”.*

Bundan on üç il ötür. Heydər Əliyev adına Hərbi liseyin buraxılışı münasibətilə keçirilən tədbirdə Naxçıvan MR Ali məclisinin sədri Vasif Talıbov məzunları və kursantları təbrik edərək deyir: *"Sevinirik ki, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında vətənpərvər gənclər var, gənclərimiz arasında vətən sevgisi, hərbi təhsilə meyl ildən-ilə artır. Filial kimi 56 kursantla fəaliyyətə başlayan Hərbi Liseydə bu gün 675 kursant təhsil alır. Ümumilikdə fəaliyyət göstərdiyi müddət ərzində hərbi liseyi bitirən kursantlardan 1684-ü ali hərbi məktəblərə qəbul olunmuşdur. 800-dən çox məzunumuz Azərbaycan Respublikasının Silahlı Qüvvələrində zabit kimi xidmətlərini davam etdirirlər.*

*Bu bir həqiqətdir ki, hər bir müstəqil dövlətin öz dövlətçiliyini davam etdirməsi, ərazi bütövlüyünü qoruyub saxlaması üçün güclü və döyüş qabiliyyətli ordusu olmalıdır. Belə ordu isə öz-özünə yaranmır. Bunun üçün çox böyük iqtisadi potensial və peşəkar zabit korpusu yaradılmalıdır. Azərbaycan iqtisadiyyatının hazırki səviyyəsi regionda güclü ordu yaradılmasına imkan vermişdir. Azərbaycan ordusu müasir texnika və avadanlıqlarla təchiz olunmuşdur. Hərb sənətini mükəmməl mənimsəmədən, elmi biliklərə yiyələnmədən bu texnikanı idarə etmək çətindir. Ona görə də biliklərə dərindən yiyələnmək, peşəkarlığı artırmaq qarsıdakı dövrdə sizin əsas vəzifələrinizdən biri olacaqdır".* (30, səh.32)

2012-ci il Naxçıvan hərbçiləri üçün bir neçə cəhətdən yadda qalan olmuşdur. Belə ki, Heydər Əliyev adına hərbi liseyin yubileyi-buraxılış bayramı, Azərbaycan Silahlı Qüvvələrinin uğurlu hərbi təlimləri, 705 saylı hərbi hissənin yaradılmasının 20-ci ildönümü məhz 2012-ci ilə təsadüf etmişdi. Muxtar Respublika rəhbəri bu üç təntənəli tədbirin hər birində iştirak etmiş, orada əsgər və zabitlər qarşısında həm rəsmi, həm də səmimiyyətlə dolu nitq söyləmişdi. O, hərbi təlimin uğurla başa çatması münasibətilə əsgər və zabitlərə müraciət edərək dedi: *"Ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində başladığı taleyüklü işlərin ölkə Prezidenti Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün Azərbaycan ordusu regionda ən güclü ordudur. Silahlı Qüvvələrimizin ölkəmizin digər ərazilərindəki birləşmə və hissələri kimi Naxçıvan Muxtar Respublikası ərazisindəki hissələri də böyük təşkilatlanma və quruculuq yolu keçmiş, öz peşəkarlığını artırmış, maddi-texniki bazasını gücləndirərək bugünkü səviyyəyə gəlib çatmışdır. Qeyd olunan səviyyənin konkret ifadəsi bu gün keçirilən hərbi təlimin yekunudur.*

*Hərbi təlimin yekunu bir daha göstərdi ki, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki hissə və birləşmələri lazımi səviyyəyə gəlib çatmış, şəxsı heyətdə çeviklik, müasır hərbi texnikadan istifadə məharəti yüksəlmişdir. Muxtar respublika əhalisi əmin ola bilər ki, onlar*

*silahlı qüvvələrimiz tərəfindən etibarlı müdafiə olunurlar.*

*Hörmətli əsgərlər və zabitlər*

*Bu gün sizin qarşınızda mühüm vəzifələr dayanır. Öz döyüş məharətinizi davamlı olaraq yüksəltməli, torpaqlarımızın etibarlı müdafiəsini təmin etməli, işğal altında olan torpaqlarımızın azad olunmasına hazır olmalısınız".* (30, səh.38)

2012-ci ildə Naxçıvan hərbçilərinin həyatında baş verən üçüncü əlamətdar hadisə 705 saylı hərbi hissənin yaradılmasının 20-ci ildönümü münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cənab Vasif Talıbov iştirak edərək təbrik nitqi söyləməsi oldu. Hərbi hissə öz 20 illik yubileyini yeni tikilmimş qərargah binasında qeyd edirdi. Bu binanın tikilməsi bilavasitə Naxçıvan rəhbərinin gündəlik qayğı və nəzarəti altında baş tutmuşdu. Naxçıvan MR Ali məclisinin sədri bu fərəhli gündə 705 saylı hərbi hissənin bütün şəxsi heyətini təbrik edərək dedi: *"Naxçıvan Muxtar Respublikasında milli ordu quruculuğunu şərtləndirən mühüm amillərdən biri də keçmiş Sovetlər Birliyinə məxsus hərbi hissələri öz sərəncamlarında olan silah-sursatı, döyüş texnikasını, digər hərbi və mülki əmlakı yüz faiz burada saxlamaqla 1992-ci ilin avqust ayının 18-də tamamilə Muxtar Respublika ərazisini tərk etmələri oldu".*

Bundan sonra Azərbaycan nizami ordusunun yaradılmasına başlandı. 1992-ci il sentyabrın 15-də

Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edildi və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verildi.

Naxçıvanda Milli Ordu hissəsinin yaradılmasının bir illiyi münasibətilə 1992-ci il oktyabrın 9-da keçirilən ilk hərbi paradda ümummilli lider Heydər Əliyev demişdir: *"...Biz 70 il ərzində hər il keçmiş Sovetlər İttifaqının silahlı qüvvəiərinin bayramlarının iştirakçısı olmuşuq. Fəqət bugünki bayram bizim hər birimizin qəlbində böyük iftixar hissi doğurur. Biz böyük sevinc içərisindəyik. Çünki Azərbaycan xalqı, nəhayət, öz dövlətini öz millətini, öz doğma torpaqlarını müdafiə etmək üçün milli ordusunu yaratmışdır".*

Fəal strateji mövqedə olan Naxçıvan Muxtar Respublikasının hər bölgəsi, eyni zamanda sərhəd bölgəsidir. Ona görə də Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrin də maddi-texniki təminatı davamlı olaraq möhkəmləndirilir, məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. Ötən 16 ildə Muxtar Respublikamızda 170 hərbi obyekt tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmiş, Silahlı Qüvvələrimizin Naxçıvan Muxtar Respublikasındakı birləşmə və hissələrinin döyüş qabiliyyəti və peşəkarlığı artırılmışdır. Naxçıvandakı birləşmə və hissələrin hazırki səviyyəsini yüksək

qiymətləndirən ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev demişdir: *"Naxçıvanın müdafiə potensialı çox yüksək səviyyədədir. Naxçıvanın müdaifəsi üçün hər şey edilib və Naxçıvan özünü istənilən hücumlardan tam şəkildə müdafiə etməyə və eyni zamanda istənilən hərbi vəzifəni icra etməyə qadirdir"*. (30, səh.41)

# VASİF TALIBOV VƏ NAXÇIVANDA HÜQUQ-MÜHAFİZƏ SİSTEMİ

Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cənab Vasif Talıbovun çoxsahəli və səmərəli fəaliyyəti sistemində hüquq mühafizə orqanları ilə iş əsas yerlərdən birini tutur. Çünki bu sahə Muxtar Respublikada sabitliyin qorunmasına təminat verir. Bu sahələrlə gərgin gündəlik işlərin nəticəsidir ki, burada kiçik qanun pozuntusundan tutmuş ağır cinayətlərə qədər ekstremal hadisələrin baş verməsi çox aşağı səviyyədədir. Mənim yadıma bir neçə ay bundan əvvəl baş vermiş bir hadisə düşdü. Gənc oğlan maşını yüksək sürətlə sürür və qanunu pozur. Yaxşı yadımda qalmayıb hadisə Bərdədəmi yoxsa Göyçaydamı baş vermişdi. Televiziyada gördüm. Avtomobil müfəttişi maşını saxladı. Təkəbbütlü (mən deyərdim tərbiyəsiz) gənc maşından düşüb avtomobil müffətişinin üstünə qışqırdı: - Ə, bilirsən mən kiməm? Məni niyə saxladın?

Başqa birisi isə reyd zamanı maşını saxlayan müfəttişə qarşı kobud rəftar edərək: - Dayan nömrəni yığım, danış, məni saxlamaq olmaz. Bu iki oxşar hadisə kiçik də olsa çox şeydən xəbər verir. Çox şey deyir… Amma bunu Naxçıvanda görmək olmaz. Açığını desək hətta Bakıda bir vəzifəli şəxsin nəinki oğlu, hətta dayısı arvadının baldızı oğlu svetaforda maşını saxlamır (qırmızı işığı keçir, çox vaxt qəza törədir). Amma Naxçıvana gəlin, görün bircə vəzifəli

şəxs qırmızı işığı keçirmi? Bütün Naxçıvan ərazisində geniş ipək yolu salınmış hər yerdə yolun üstündə dairədə maşını hansı sürətlə sürmək haqqında rəqəmlə göstəriş verilir. Hər bir sürücü və küçə hərəkəti işarələrinə əməl edir. Çünki…

Naxçıvan şəhərində heç bir küçədə maşın saxlanmır. Deyirlər yol getmək üçündür, maşını saxlamaq üçün deyil.

Bütün bu müsbət uğurların səbəbi Muxtar Respublika rəhbərinin hüquq mühafizə olrqanları və onun struktur bölmələri ilə səmərəli işinin nəticəsidir. Muxtar Respublika rəhbəri, daxili işlər orqanlarının bütün struktur sahələrinin maddi texniki bazasının zənginləşməsinə həmişə qayğı göstərir. Onlara motosiklet və digər maşınlar verir, bunun sayəsində Naxçıvanda yol qəza hadisələri minimum səviyyəyə enmişdir. ("Şərq Qapısı" qəzeti, 26.07.2006)

Naxçıvanda bütün polis orqanları üçün o cümlədən DİN rayon şöbələri üçün yeni, müasir avadanlıqlarla təchiz edilmiş binalar tikilmişdir. Qeyd etmək lazımdır ki, Naxçıvan rəhbərliyi bütün işlərdə Respublikanın analoji-müvafiq qurumlarının rəhbərləri ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq öz bəhrəsini verir. Hətta bu və ya digər quruma aid əlamətdar bir hadisə olanda, məsələn, həmin quruma aid inzibati bina açılanda, hər hansı bir yubiley keçiriləndə çox vaxt Bakıdan həmin qurumun respublika üzrə rəhbəri dəvət edilir. Məsələn, 2003-cü ildə Respublika prezidenti İlham Əliyevin sərəncamı

ilə Naxçıvan MR Kəngərli rayonu yaradılmışdı. Cəmi üç il ərzində rayon üçün bütün ictimai binalar tikilib istifadəyə verilmişdi. 2006-cı ilin noyabrında Rayon Polis Idarəsinin təzə binasının istifadəyə verilməsi təntənəli surətdə qeyd olundu. Binanın istifadə edilməsi zamanı bu qurumun bütün şəxsi heyəti düzülmüş, Bakıdan Respublikanın Daxili İşlər Naziri polis general polkovniki Ramil Usubov dəvət edilmişdi. Daxili İşlər Naziri rayon polis şöbəsinin şəxsi heyətini bu əlamətdar hadisə münasibətilə təbrik etmiş və Naxçıvan Muxtar Respublikasında daxili işlər orqanlarına çox böyük qayğı göstərildiyini vurğulayaraq bunun üçün muxtar respublika rəhbərliyinə öz minnətdarlığını bildirmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi bundan sonra da Naxçıvana daim köməklik göstərəcəkdir. Bu, ilk növbədə ulu öndərimizin və Prezidentimiz İlham Əliyevin bizlərə tapşırığıdır. Biz bu tapşırığı yerinə yetirməyi özümüzə şərəfli borc hesab edirik.

Azərbaycan Respublikasının daxili işlər naziri polis şöbəsinin inzibati binasının açılışı münasibətilə şəxsi heyəti təbrik etmiş, onlara xidmətı işlərində uğurlar arzulamışdır.

Ali Məclisin sədri Vasif Talıbov Azərbaycan Respublikasında bütün sahələrdə, eləcə də hüquq-mühafizə orqanlarında da inkişafın, irəliləyişin olduğunu bildirmişdir. Bu gün Azərbaycanın hüquq-mühafizə orqanları Sovetlər Birliyi dövründə fəaliyyət

göstərən hüquq-mühafizə orqanlarından fərqli olaraq müstəqil Azərbaycan Respublikasında öz xidməti borclarını, vəzifələrini yerinə yetirirlər. Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin birincı dövründə də, ikinci dövründə də bu sahələr daim diqqət və qayğı ilə əhatə olunub. Ona görə ki, uzaqgörən rəhbərlər, dövlət başçıları ölkədə sabitlik yaratmaq, sabitliyi bərpa etmək uçün ilk növbədə hüquq-mühafizə orqanlarının özündə sabitlik yaratmalı, nizam-intizamı bərpa etməlidirlər 90-cı illərin əvvəllərində də hüquq-mühafizə orqanları fəaliyyət göstərirdi. Ancaq o dövrdə hüquq-mühafizə orqanlarının rəhbərliyi şəxsi heyəti qanunsuz hərəkətlərə, bir çox hallarda cinayətlərə sövq edirdilər. Şəxsi heyət arasında nizam-intizam xeylı zəifləmiş. Hüquq-mühafizə orqanlarında kadr sabitliyi, intizam olmadığına görə cinayətkarlıq halları, intizamsızlıq daha kəskın hal almış və bu vəziyyət bütün ölkəyə sirayət etmişdi. Ümummilli liderimiz Azərbaycana rəhbərliyə qayıdandan sonra hüquq-mühafızə orqanlarında ilk növbədə kadr sabitliyi, nizam-intizam yaratdı. Bu orqanlarda nizam-intizam bərpa olunduqca ölkəmizdə sabitlik bərqərar oldu.

Ali Məclisin sədri hüquq-mühafizə orqanlarının ölkədə sabitliyin qorunmasında mühüm rol oynadığını bildirmişdir. Bu orqanlar minlərlə qanunsuz silahların yığılmasına, cinayatkarlıq hallarının 90-cı illərin əvvəllərinə nisbətən dəfələrlə azaldılmasına nail

olmuşlar. Bunlar ölkəmiz uçün çox vacib amillərdir. Bu yolu davam etdirən ölkə başçımız hörmətli İlham Əliyev də Prezident seçiləndən sonra hüquq-mühafizə orqanlarına diqqət və qayğını artırıbdır. ("Şərq Qapısı", 25.11.2006)

Sonra Naxçıvan MR Ali Məclisinin sədri demişdir: "Bu gün sabitlikdir, ümummilli liderimizin siyasəti davam etdirilir, ölkə başçısı bütün sahələrə diqqət, qayğı göstərir, bütün sahələrə qarşı tələbkardır. Qayğı olan yerdə tələb də olmalıdır ki, ölkədə sabitlik daha da möhkəmlənsin və ölkə inkişaf etsin. Kəngərli 2003-cü ildə hörmətli Prezidentimizin sərəncamı ilə yaradılmış rayondur. Bu rayonun yaradılmasından keçən qısa muddət ərzində xeyli tikinti aparılmış, yeni rayon mərkəzi salınmışdır. Bu gün isə rayon polis şöbəsi uçün inzibatı bina istifadəyə verilir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrı Vasif Talıbov və Azərbaycan Respublikasının Daxili işlər naziri Ramil Usubov Kəngərli Rayon Polis Şöbəsinin açılışını bildirən rəmzi lenti kəsmişlər.

Zirzəmi və iki mərtəbədən ibarət olan inzibati binanın iş otaqlarına, xidmət sahələrinə baxış keçirilmişdir.

Geniş, işıqlı iş otaqları yeni mebel avadanlıqları ilə təmin olunmuş, şəxsi heyət üçün lazımi iş şəraiti yaradılmışdır.

Burada iclas zalı, yeməkxana, qazanxana istifadəyə verilmiş, arxiv və anbar üçün otaqlar ayrılmışdır.

Binanın bir hissəsində isə Dövlət Yol Polisi, Qeydiyyat və Vəsiqə qrupları fəaliyyət göstərəcəkdir.

Binanın geniş həyətində ərazinin 3 min kvadratmetrinə kilit daş, 5 min kvadratmetrinə isə sal daş və asfalt örtük döşənib. Yol kənarına 1200 metr beton bardür düzülüb, su xətti, işıqlandırma sistemi çəkilib. Heyətdə 300 ədəd akasiya, 100 ədəd küknar tingi, 600 qızılgül kolu əkilib. Ərazidə relyefə uyğun abadlıq işləri aparılıb.

Ümummilli lider Heydər Əliyevin Respublikada inkişaf strategiyasının istedadlı və səriştəli davamçısı prezident Ilham Əliyev ulu öndərin sanki vəçiyyətlərinə əməl edərək hər il Naxçıvana baş çəkir, onun ehtiyacları və problemləri ilə maraqlanır. Fərəhli haldır ki, on ildə on bir dəfə Naxçıvana gələn prezident həmişə buradakı sosial-iqtisadi yüksəlişi görüb sevinir və buradan qürur hissi ilə ayrılır. Naxçıvan MR son 18 il tarixi kəsimimndə 2006-cı və 2013-cü il quruculuq ili kimim daha yadda qalan olmuşdur. 2006-cı il dekabrın 20-21-də Naxçıvanda olarkən Respublikamızın Prezidenti Ordubad rayonunda da olmuş, burada istifadəyə verilən yeni internat məktəb kompleksinin açılışında demişdir: *"Naxçıvanın uğurlu inkişafı məni xüsusilə sevindirir. Muxtar Respublikanın rayonlarının abadlaşması, yeni-yeni binaların tikilməsi, iş yerlərinin açılması Naxçıvanı möhkəmləndirir. Naxçıvanın yaşaması üçün bütün infrastruktur layihələr həyata keçirilir... Azərbaycan Prezidenti kimi mən də əlimdən gələni*

*edəcəyəm ki, Naxçıvanın iqtisadi inkişafına daha böyük kömək göstərilsin".*

Respublika rəhbərinin bu sözləri rayon zəhmətkeşlərini daha da ruhlandırırmış. Onlar bütün işlərə yeni əzmkarlıqla başlamışlar. "Muxtar Respublikada hüquq institutlarının maddi-texniki bazasının möhkəmləndirilməsi" proqramı üzrə yeni-yeni nailiyyətlər əldə etmişlər. Kəngərli rayon polis idarəsi üçün yeni binanın tikilib istifadəyə verilməsi ardınca 2003-cü ilin yanvar ayının 9-da Ordubad rayon məhkəməsinin yeni inzibati binası istifadəyə verildi.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinın sədri Ramiz Süleymanov Muxtar Respublikanın hüquq institutlarına, o cümlədən məhkəmə hakimiyyətinə göstərilən dövlət qayğısından danışmışdır. Qeyd olunmuşdur ki, bu qayğının ifadəsi olaraq həyata keçirilən tədbirlər sırasnda hakimlərin, ədliyyə işçilərinin peşə hazırlığının yüksəldilməsinə əməli köməklik məqsədilə treninqlərin keçirilməsi işinin təşkili, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası mərkəzinin muxtar respublikamızda yaradılmış filialının müasir avadanlıqlarla təmin olunması, Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikası Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası İqtisad Məhkəməsinin, Hərbi Məhkəməsinin, Kəngərli Rayon Məhkəməsinin, bir sıra rayon prokurorluqlarının yeni binalarının tikilməsi mühüm yer tutur.

Məhkəmə islahatlarının həyata keçirildiyi qısa müddət ərzində Naxçıvan şəhər, Şərur, Şahbuz, Babək, Sədərək rayon məhkəmələrinin Naxçıvan Muxtar Respublikası hüquq məsləhətxanası, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin qarışıq tipli cəzaçəkmə müəssisələri üçün ayrılmış inzibati binalar müasir tələblər səviyyəsində təmir edilərək avadanlıqlarla təchiz olunmuş və həmin kollektivlərin istifadəsinə verilmişdir.

Ali Məhkəmənin sədri bütün bunlara görə öz minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov mərasim iştirakçılarını salamlamış, Ordubad Məhkəməsinin inzibati binasının istifadəyə verilməsi münasibəti ilə təbrik edərək demişdir; Azərbaycan Respublikası artıq 15 ildir ki, müstəqil dövlət kimi yaşayır Müstəqil dovlətin əsas atributlarından biri də onun hüquq institutlarıdır. Ümummitli liderimizin başladığı işləri uğurla davam etdirən hörmətli Prezidentimiz də bu sahələrə daim diqqət, qayğı göstərir. Bu gün statistik məlumatlar da göstərir ki, Azərbaycanda polis orqanlarının işi yaxşıdır, ölkədə cinayətkarlıq azalmağa doğru gedir. Ölkədə dövlət əmlakının dağıdılması, təxribat halları yoxdur. Bütün bunlar isə polis orqanlarının öz öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini sübut edir.

Ali Məclisin Sədri bütün bunlara görə polis orqanlarında xidmət edən hər bir əməkdaşa

təşəkkürünü bildirmiş, şəxsi heyətət öz işində uğurlar arzulamışdır. ("Şərq Qapısı", 10.01.2007)

Bütün bunlar onu göstərir ki, iş və fəaliyyət proqramı düzgün seçiləndə, insan özünü həm fiziki, həm də mənəvi-psixoloji cəhətdən ona tapşırılan vəzifəni yerinə yetirməyə həsr edəndə işdə xarüqələr yaratmaq olar. Bunu Naxçıvanın 18 ildəki inkişafını izlədikdə həm görmək, həm də ona inanmaq olar. Hüquq institutları dedikdə o polis və onun infrastrukturunu, məhkəmə orqanlarını, prokurorluq orqanlarını, habelə cəzaçəkmə məntəqələrini və onların fəaliyyətini nəzərdə tuturuq. Biz bu mövzudan danışarkən Polis sistemi və onun bir bölməsi olan amtomobil müfəttişləyinin, habelə polisin ehtiyacları (Kəngərli rayonunda və başqa rayonlarda yeni inzibati binalarının tikilməsi) habelə Ordubad şəhərində Rayon Xalq Məhkəməsi üçün yeni binanın açılış mərasimi haqqında bəhs etdik. Bu sahədə 18 ildə görülmüş işlər haqqında müfəssəl danışmaq üçün böyük bir araşdırma aparmaq lazım gəlir ki, bu da cildlərlə kitaba sığmaz, ona görə də hüquq institutlarına qayğıdan danışarkən bir prokurorluq orqanının timsalında öz fikrimizi yekunlaşdıracağıq.

Azərbaycan Respublikasının prokorurluq haqqında qanunun 141-ci maddənin əlavə edilməsi Naxçıvan Muxtar Respublikaksı hərbi prokurorluğu ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyində edilmiş əhəmiyyətli dəyişiklikdir ki, bu, Naxçıvan Muxtar Respublikası üçün müstəsna əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasında hərbi prokurorluğun yaradılması hüquq institutları üçün də xeyirli olacaqdır. Bu qərarın qəbul edilməsində Naxçıvan Muxtar Respublikası rəhbərliyinin rolu danılmazdır. Bu dəyişikliyin Naxçıvan Muxtar Respublikası üçün böyük əhəmiyyətindən bəhs edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollegiya sədri Hafiz Nəsibov yazır: "Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu ilə əlaqədar qanunvericiliyə edilən əlavə və dəyişikliklər Naxçıvan Muxtar Respublikası sakinlərinin, muxtar respublikanın ərazisindəki hərbi hissələrdə xidmət keçən hərbi qulluqçuların hüquq institutlarına olan tələbatlarının ödənilməsi bölgənin və burada yaşayan əhalinin sosial-iqtisadi inkişafı nöqteyi-nəzərindən də böyük əhəmiyyət daşıyır. Çünki hərbi prokurorluğun strukturunun dəyişməsi, bu orqanın böyüməsi, yeni iş yerlərinin açılması, neçə ailənin rifah halının yüksəlməsi hüquqşünas ixtisasına yiyələnmiş sakinlərimizin öz doğma yurduna daha sıx bağlanması deməkdir. Eyni zamanda, yeni struktur və əvvəlkindən daha geniş mütəxəssis ştatı obyektiv olaraq prokurorluğun muxtar respublikanın ərazisində yerləşən hərbi hissələrin və onların hərbi qulluqçularının, digər şəxslərin hüquqlarını və qanuni mənafelərini cinayətkar qəsdlərdən qorumaq və pozulmuş hüquqları bərpa etmək sahəsində imkanlarını əhəmiyyətli dərəcədə artırır. Hərbi prokurorluğun strukturu ilə bağlı bu yeniliklər ona hərbi qulluqçuların və digər vətəndaşlarımızın

müraciətlərinə daha çevik baxmaq imkanı verir, belə müraciətlər və prokurorluğun funksiyalarına daxil olan digər məsələlər üzrə yanlış qərarların verilməsi ehtimalını isə əhəmiyyətli dərəcədə azaldır.

Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Muxtar Respublikada elə bir sahə yoxdur ki, onu diqqət mərkəzində saxlamasın. Hətta cəza çəkmə müəssisələrindəki vəziyyət, məhbusların saxlanma şəraiti, onların yaşadıqları binaların vəziyyəti Muxtar Respublika rəhbərliyinin gündəlik nəzarətindədir. Ali məclisin sədri Avropa Şurasının tələbləri səviyyəsində Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində bütün tələblərə uyğun şəkildə qarışıqtipli cəzaçəkmə müəssisəsi tikdirir. Ali məclisin sədri bu müəssisənin yüksək keyfiyyətlə, Avropa standartlarına uyğun şəkildə tikilməsi üçün göstəriş vermişdi.

2007-ci il avqustun 11-də Naxçıvan rəhbəri verdiyi tapşırıqların icrasını yoxlamaq üçün həmin cəzaçəkmə müəssisəsinin tikildiyi yerə gəlmiş, geniş miqyaslı işlərlə tanış olmuşdur. Bu haqda "Şərq Qapısı" qəzeti yazırdı:

"Avqutsun 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində yeni tikilməkdə olan Qarışıqtipli Cəzaçəkmə Müəssisəsinə gəlmiş, burada həyata keçirilən genişmiqyaslı tikinti işlərinin gedişi və verdiyi tapşırıqların icrası ilə maraqlanmışdır.

Böyük bir ərazini əhatə edən tikinti meydançasında bir inzibati bina, istintaq təcridxanası, qadın, kişi, yetkinlik yaşına çatmayanlar üçün islah əmək müəssisələri, tibb məntəqəsi, çamaşırxana, mərkəzləşmiş yeməkxana, anbar binaları inşa olunmuşdur.

Ümumi az ağır, ümumi ağır, ümumi ciddi islah əmək müəssisələrinin, görüş, karantin, həbsxana, cərimə təcridxanasının və mühafizə bölüyü üçün binaların inşası başa çatdırılmış, çon tamamlama işlərinə başlanmışdır. Yaxınlıqda qazılan subartezian quyusundan buraya su xətti çəkilmiş, binalarda istilik və işıqlandırma sistemləri quraşdırılmışdır.

Hazırda Qarışıqtipli Cəzaçəkmə Müəssisəsinin ərazisində geniş abadlıq işləri aparılır, sal daşlar döşənir, həmişəyaşıl ağac və gül kolları əkilir, binaların ətrafı çəpərlənir.

İnşaat işləri tamamilə yekunlaşdıqdan sonra Cəzaçəkmə Müəssisəsində elektron ATS istifadəyə veriləcək, hərəkətli və hərəkətsiz video-kamera sistemləri qurulacaqdır.

Ali Məclisin sədri inşaat işlərinin yüksək keyfiyyətlə aparılması, işıqlandırma sisteminə ehtiyat kabelin quraşdırılması, əkilən ağacların damcı üsulu ilə suvarılması və obyektin inşasının sentyabr ayının sonuna qədər başa çatdırılması barədə tapşırıqlar vermişdir. (“Şərq qapısı” qəzeti, 14.08.2007)

# VASİF TALIBOV VƏ NAXÇIVANDA PARTİYA QURUCULUĞU

Partiya quruculuğu dedikdə, əlbəttə söhbət kommunist partiyasından getmir. Çünki, Allaha şükür, on səkkiz il bundan qabaq Kommunist partiyası özünün bəşəriyyətə qarşı məkrli niyyətləri ilə çoxdan tarixin arxivinə getmişdi. Doğrudur, 1991–93-cü illərdə gah kommunist partiyasını yenidən diriltmək, gah səriştəsiz, kütlə arasında etibarı olmayan partiya yaratmaq ideyaları özünü göstərirdi. Azərbaycanda isə vəziyyət getdikcə pisləşirdi. Bizdən güclü qonşu dövlətlərin təhriki ilə Azərbaycan şimaldan, cənubdan, qərbdən həm ideoloji, həm də hərbi təcavüzə məruz qalırdı. Vəziyyət getdikcə çətinləşirdi. Paytaxtda gündə bir mitinq çağrılır, nəticə isə görünmürdü. Xalqın yeganə ümidi zəmanəmizin ən böyük siyasətçilərindən biri Heydər Əliyevə idi. Heydər Əliyev isə Naxçıvanda keçmiş SSRİ-nin qalıqlarını aradan qaldırır, xalqımızın milli və dövlət müstəqilliyi uğrunda özünəməxsus iradə və cəsarətlə mübarizə aparırdı. Azərbaycanı sevən, onun parçalanmasını istəməyən qüvvələrlə Azərbaycanın düşdüyü vəziyyətdən öz məqsədi üçün (varlanmaq, vəzifə qazanmaq və s.) istifadə edənlər arasında mübarizə gedirdi. Qeyri-sabitlik, erməni təcavüzü qarşısında geri çəkilmək xalqda bir ümidsizlik yaratmışdı. Belə bir gərgin şəraitdə millətimizin və dövlətçiliyimizin xilaskarı olan Heydər Əliyev

Partiyası – Yeni Azərbaycan Partiyası meydana gəldi. Yeni Azərbaycan Partiyası da Naxçıvanda yarandı, yəni 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində 5 saat davam edən təəssis konfransında YAP-ın məramnamə və nizamnaməsi qəbul edildi.

Sonralar ulu öndər bu hadisəni belə xatırlayacaq: *"Biz 1992-ci ilin şaxtalı bir günündə, istilik olmayan bir zalda, Naxçıvan Dövlət teatrının binasında, paltoda və çoxları papaqda oturaraq ilk konfransımızı keçirirdik. Üşüyürdük, əlimizi əlimizə sürtürdük, amma iradəmiz güclü idi. Gələcəyə çox nikbinliklə baxırdıq... Məni sevindirən odur ki, ağır şəraitdə Naxçıvanda keçirdiyimiz konfrans ölkənin və Partiyanın böyük inkişaf yolunu təmin etdi".*

Bir var partiyaya sədr seçilə, bir də var sədrə görə partiya yaranar. YAP sədrə görə yarandı. Konfransın həm Bakıdan gələn, həm Naxçıvandan olan nümayəndələrini bircə şey düşündürürdü; Heydər Əliyev Partiya sədrliyini öhdəsinə götürsün. Belə də oldu. XX əsr türk dünyasının 2 ən böyük siyasətçisindən biri, gecə-gündüz xalqını fəlakətdən qurtarmaq arzusu ilə yaşayan Heydər Əliyev Partiyanın sədri seçildi. Bu, XX əsrin axırlarında Azərbaycan tarixinin yeni başlanğıcı oldu. 7 aydan sonra ulu öndər Azərbaycan Respublikası Milli Məclisinin sədri seçildi və Naxçıvandan getməli oldu. İndi xilaskar partiyanın Naxçıvan təşkilatı yaradılmalı idi. 1995-ci il aprelin 8-də YAP Naxçıvan təşkilatının birinci-təəssis konfransı seçildi. Bu konfransda da

hamının bircə namizədi vardı – Vasif Talıbov. Beləliklə, Vasif Yusif oğlu Talıbov YAP Naxçıvan Muxtar Respublikası təşkilatının sədri seçildi. Bu böyük etimadı şərəflə doğruldan Vasif Talıbov 1995-ci ildə dekabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri seçildi. Ulu öndərin etimadını bacarıqla doğruldan Vasif Talıbov YAP NMR Təşkilatının 29 fevral 2000-ci ildə, 19 noyar 2004-cü ildə keçirilən ikinci və üçüncü konfransında, habelə 2009-cu ildə keçirilən 4-cü konfransında yenidən və yekdilliklə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası təşkilatının sədri seçilmişdir.

Artıq 18 ildən çoxdur ki, Vasif Talıbov YAP sıravi üzvlüyündən onun rəhbərlərindən biri səviyyəsinə qalxmış və Heydər Əliyev siyasətini qətiyyətlə həyata keçirir. 2007-ci ildə Yeni Azərbaycan Partiyası yaradılmasının 15 ili tamam olurdu. Bu münasibətlə keçirilən yubiley tədbirində YAP NMR təşkilatının sədri Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbov geniş və dərin məzmunlu bir məruzə ilə çıxış etdi. O, 15 ildə Partiyanın keçmiş olduğu çətin və şərəfli yoldan bəhs etdi. O, YAP-ın keçdiyi tarixi yolu üç mərhələyə böldü:

Ötən 15 il ərzində Yeni Azərbaycan Partiyası qarşısına qoyduğu məqsəd və vəzifələri layiqincə yerinə yetirərək, cəmiyyətin inkişaf dinamikasını nəzərə alaraq təşkilati və ideoloji baxımdan güclənmiş, ölkəmizin aparıcı siyasi qüvvəsinə çevrilmişdir.

Partiyamızın mühüm siyasi qüvvə kimi formalaşması prosesi müxtəlif mərhələlərdən keçmişdir. Partiya quruculuğunun 1-ci mərhələsi Azərbaycanın ən ağır dövrünə təsadüf edir. Bu dövrdə Yeni Azərbaycan Partiyasının qurucusu bütün səylərini yalnız partiyadaxili məsələlərə deyil, sağlam qüvvələrlə birlikdə ölkəni böhran vəziyyətindən çıxartmağa yönəltmişdi.

Bu dövrdə Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə siyasi partiyalar tarixində əsl müxalifət partiyasının necə olması kimi vacib bir nümunəni verdi və partiyamız Azərbaycan siyasi mühitinə normal siyasi mübarizə mədəniyyəti gətirdi.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Yeni Azərbaycan Partiyasının həyatında ən məhsuldar dövr olan 2-ci mərhələ başlandı. Bu dövrdə partiyamızın qarşısında bir tərəfdən müstəqil dövlət quruculuğu prosesində yaxından iştirak etmək, digər tərəfdən isə iqtidar partiyası kimi cəmiyyətin siyasi sistemində özünün aparıcı rolunu və mövqeyini qoruyub saxlamaq kimi mühüm bir vəzifə dayanırdı. Möhtərəm Heydər Əliyev partiyanın bu mərhələdə üzərinə düşən vəzifələri uğurla yerinə yetirdiyini bəyan edərək demişdir: *“Partiya dərhal səfərbər oldu və öz sədri ilə birlikdə Azərbaycanın xilası, oıun dövlətçiliyinin qorunması və taleyüklü məsələlərin həlli sahəsində həyata keçirilən işlərə qoşuldu. Bu mərhələ həm müstəqil Azərbaycan dövlətinin, həm də Yeni Azərbaycan Partiyasının*

*tarixində əbədi həkk olunmuş, taleyüklü məsələlərin həlli, dövlətçiliyin qurtuluşu, xalqımızın tərəqqisinin başlanğıcı kimi yadda qalmışdır".*

İnkişafının ikinci mərhələsində partiyamızın qarşısında iqtidar partiyası kimi siyasi, sosial-iqtisadi və mədəni sahələrin inkişafmda əsaslı dönüşə nail olmaq vəzifəsi dayanırdı. Azərbaycanda demokratik prinsiplərin möhkəmləndiyi, ölkəmizin dünya birliyinə sürətli inteqrasiyasının mövcud olduğu, azad iqtisadi münasibətlərin formalaşdığı bu dövr partiyadaxili quruculuğa da mühüm töhfələr vermişdir.

Ulu öndər Heydər Əliyevin siyasi baxışlarından və siyasi fəlsəfəsindən bəhrələnməsi partiyamızın daha böyük qələbələrə imza atmasının vacib şərtidir. Bu prinsip partiyanın inkişafının 3-cü mərhələsində, ulu öndər, Heydər Əliyevdən sonrakı dövrdə həyata keçirilən fəaliyyətin başlıca istiqamətini təşkil edir. Möhtərəm Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına Müraciətində deyirdi ki: *"Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcəkdir... Həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın layiqli övladlarını öz ətrafında birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər".* (27, səh.284)

Sonra məruzəçi maraqlı və ibrətamiz bir məsələyə toxundu. Əslində belə idi. Sovet dönəmində insanlar Kommunist Partiyası sıralarına ona görə daxil olurdular ki, vəzifə alsınlar və s. Çünki Kommunist Partiyası bizim üçün doğma deyildi. YAP isə xalqın arzu və istəyi ilə yaranmış milli partiyamızdır. Konfransdakı məruzəsində Vasif Talıbovun fikri belə səslənirdi: *"Təqdirəlayiq haldır ki, ötən dövr ərzində partiyamızın sıraları cəmiyyətin bütün təbəqələrindən olan üzvlər hesabına xeyli genişlənmişdir. Təşkilatımız yarandığı dövrdən 2007-ci ilədək partiya üzvlərinin sayı 36 dəfə artaraq 40 min 319 nəfər olmuşdur. Xatırlatmaq krifayətdir ki, 70 il ölkənin yeganə siyasi qüvvəsi olan Kommunist partiyasının Muxtar Respublikadakı üzvlərinin sayı bundan 6 dəfə az idi. Bu, böyük Heydər Əliyev işinə və əməllərinə sədaqətdən, Prezident İlham Əliyevin apardığı siyasətə dərin inamdan irəli gəlir".* (27, səh.285)

Məruzənin sonunda YAP NMK təşkilatının sədri qarşıda duran strateji vəzifələrə toxunaraq dedi: *"Müasir şəraitdə partiya üzvlərimizin qarşısında mühüm vəzifələr dayanır. Sağlam cəmiyyət - güclü dövlət sistemi üzrə doğma Azərbaycanımızın inkışafına çalışmalı, Yeni Azərbaycan Partiyasının üzvü kimi şərəfli adı öz əməyimizlə doğrultmalıyıq. Bizim məsuliyyətimız – bizım vəzifəmizdir. Vəzifə - partiya quruculuğunda və hər birimizin konkret fəaliyyət sahələrində işə yaradıcı yanaşmaqdan, dəqiq, dürüst olmaqdan, ümummilli lider Heydər*

*Əliyevin tövsiyə etdiyi kimi işləməkdən və ölkəmizi onun görmək istədiyi kimi qurub-yaratmaqdan ibarətdir.*

*Bu yolda hamımıza uğurlar arzulayır və çıxışlmı ölkə Prezidenti, partiyamızın sədrı hörmətli İlham Əliyevm aşağıdakı sözləri ilə tamamlayıram: "Azərbaycanın gələcəyi Yeni Azərbaycan Partiyası ilə bağlıdır! Azərbaycanın gələəcəyi Heydər Əliyevlə və onun siyasəti ilə bağlədər!"* (27, səh.286)

Partiyanın nizamnaməsinə görə YAP NMR təşkilatının növbəti IV konfransı 2009-cu ildə çağırılmalı idi. Belə də oldu. 2009-cu ildə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası təşkilatının IV konfransı oldu. Konfransda Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası təşkilatının sədri Vasif Talıbov geniş hesabat məruzəsi ilə çıxış etdi. Məruzə çox geniş və faktlarla, müqayisələrlə zəngindir. Görülən işlərin çoxluğu və zənginliyi, habelə faktların və müqayisələrin çox maraqlı olması məruzəni ixtisar etməyə, onu ümumiləşdirməyə imkan vermimr. Nə qədər çalışsaq da, məruzədən verilən hissələr geniş alınır. Çünki məruzənin məzmununa xələl gətirmək istəmirsən. İlk növbədə Partiyanın rəhbərinə olan inamın mənbələrindən bəhs edən məruzəçi deyirdi: *"Xalqın ümummilli lider Heydər Əliyevə olan inamının kökündə nə dayanırdı?*

*Bu inamnı kökündə, birincisi, Azərbaycanı ağır bəlalardan qurtaran qurucu liderə sonsuz məhəbbət dayanırdı.*

*Azərbaycanın Heydər Əliyevsiz keçən 6 ili, (1983–89-cu illər) 1969-1982-ci illərdə titanik zəhmət bahasına yaradılanların məsuliyyətsizcəsinə dağıdılması dövrü kimi tarixə düşmüşdür. Mədəniyyət müəssisələri, təhsil bərbad vəziyyətə salınmışdı. Xalqımızın milli sərvəti olan istedadlı insanlar, elm xadimləri iş axtararaq xarici ölkələrə getmiş, "beyin axını" kimi təhlükəli proses başlanmışdı. İqtisadiyyatda olduqca acınacaqlı vəziyyət yaranmış, əhalinin yaşayış səviyyəsi hədsiz ağırlaşmış, infiliyasiya idarəolunmaz xarakter almışdı. Bir vaxtlar şöhrəti bütün dünyaya yayılmış Azərbaycanın, ötən əsrin 90-cı illərində bu dərəcədə acınacaqlı vəziyyətə salınmasını ürək ağrısı ilə müşahidə edən ümummilli liderimiz deyirdi: "İndi Azərbaycanda vəziyyət belədir: iqtisadiyyat büsbütün dağılmışdır. O ki qaldı ictimai-siyasi vəziyyətə, bundan da pisini təsəvvür etmək mümkün deyil. Suveren dövlətin ərazisinin 20 faizi işğal olunmuşdur. Bir milyondan çox qaçqın var. Sənaye və kənd təsərrüfatı istehsalı sıfır həddindədir... Keçmiş Sovet respublikalarının heç birində belə vəziyyət yoxdur".*

İkincisi, bu inamın kökündə ümummilli liderimizin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikasında gedən quruculuq prosesləri dayanırdı. Əgər o vaxtkı hakimiyyət Azərbaycan torpaqlarının bütövlüyünü

təmin edə bilmirdisə, böyük öndərimiz Naxçıvan Muxtar Respublikasını Ermənistanın silahlı təcavüzündən və işğal təhlükəsindən qurtardı. Meydanlarda "istiqlaliyyət", "müstəqillik" şüarı altında hakimiyyətə gələnlər Azərbaycanı nə istiqlaliyyətə qovuşdura, nə də dövlət müstəqilliyinə etibarlı təminat yarada bildilər. Bundan fərqli olaraq xalqımızın böyük oğlunun yaşayıb fəaliyyət göstərdiyi Naxçıvan, Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizənin siyasi güc mərkəzinə çevirmişdi. (27, səh.287)

Məruzəçi konfranslar arası dövrdə partiyanın kütlələr arasındakı artan nüfuzundan bəhs etmiş və konkret rəqəmlərlə fikrini əsaslandırmışdır. Məruzəçi partiyanın təəssis olunduğu gündən başlayaraq sıralarının artmasından, getdikcə dinamik şəkildə yüksələn partiya sıralarından, təşkilatların işindən bəhs etmişdir. O, eyni zamanda partiya üzvlərinin keyfiyyət və kəmiyyət göstəriciləri haqqında danışarkən demişdir: "Ötən dövr ərzində partiyamızın muxtar respublika təşkilatının sıraları xeyli genişlənmişdir. Əgər 1992-ci ildə partiyanın Naxçıvan Muxtar Respublikasındakı təşkilatlarının sırasında 1118 nəfər üzv vardısa, hal-lıazırda partiyanın muxtar respublika təşkilatının sıralarında 43 minə yaxın üzv birləşmişdir. Bu o deməkdir ki, partiya üzvlərinin sayı Yeni Azərbaycan Partiyasının yarandığı 1992-ci illə müqayisədə 38, partiyanın muxtar respublika təşkilatının təşkil olunduğu 1995-ci illə müqayisədə isə 3,4 dəfə artmışdır. Bu dövrdə ərazi ilk partiya

təşkilatlarının sayı da 22 dəfə artaraq 800-dən çox olmuşdur. Bu gün muxtar respublikamızın bütün yaşayış məntəqələrində Yeni Azərbaycan Partiyasının ilk təşkilatları fəaliyyət göstərir. Qısa müddətdə gedən bu inkişaf, dinamika böyük öndərimizin işinə və əməllərinə sədaqətin, ölkə Prezidentinin apardığı siyasətə dərin inamın nəticəsi, insanların Heydər Əliyev partiyasının sıralarında olmaqla aparılan quruculuq tədbirlərində yaxından iştirak etmək əzminin və iradəsinin nümayişidir.

Partiyanın Muxtar Respublika təşkilatının say tərkibi onun nə qədər geniş sosial bazaya malik olduğunu göstərir. Partiya üzvlərinin 16 min nəfərdən çoxunu qadınlar, 18 min nəfərini isə gənclər təşkil edir. Yeni Azərbaycan Partiyası muxtar respublika təşkilatının üçüncü konfransının keçirildiyi 2004-cü illə müqayisədə partiya üzvü olan qadınların sayı 47 faiz, gənclərin sayı isə 49 faiz artmışdır.

Partiyamızın mühüm keyfiyyətlərindən biri də onda alimlərin, ziyalıların, intellektual səviyyəli insanların çoxluq təşkil etməsidir. Bu gün partiyanın muxtar respublika təşkilatındakı üzvlərinin 32 faizini ali, 13 faizini isə orta ixtisas təhsillilər təşkil edir. Muxtar respublikanın siyasi fəal əhalisinin 18 faizinin, təhsil, səhiyyə, elmi, mədəni potensialının isə 70 faizdən çoxunun Yeni Azərbaycan Partiyasında cəmləşməsi partiya işinin kütləvi xarakter almasının daha bir göstəricisidir. (27, səh.428)

YAP Naxçıvan Muxtar Respublikası təşkilatının sədri məruzəsində Muxtar Respublikanın iqtisadi inkişafı haqqında da bəhs edərək bunu Partiyanın, onun sədri Prezident İlham Əliyevin nüfuzu ilə əlaqələndirmişdir.

Konfranslararası ötən 5 il ərzində Naxçıvanda baş verən iqtisadi yüksəlişdən bəhs edən sədr demişdir:

"Ötən 5 il ərzində Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsul istehsalının həcmi 3, 4 dəfə artaraq 795 milyon manatdan çox olmuşdur. Bu dövrdə sənaye məhsulu istehsalının həcmi 25 milyon manatdan 164 milyon manata, əsas kapitala investisiya qoyuluşu 80 milyon manatdan 309 milyon manata çatdırılmışdır. 2004-2008-ci illər ərzində Muxtar Respublika üzrə 3 min 576 müxtəlif təyinatlı obyekt tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmiş, sahibkarlığın inkişafına diqqət artırılmış, 167 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. Bu sahələr bir tərəfdən muxtar respublikada 224 növdə məhsula olan tələbatı daxili imkanlar hesabına ödəməyə şərait yaratmışsa, ikinci tərəfdən məşğulluq səviyyəsinin artırılmasına da öz töhfəsini vermişdir. Belə ki, qeyd olunan dövrdə 37 min yeni iş yeri açılmışdır ki, onun 23 min 675-i, yaxud 64 faizi daimi iş yerləridir.

Hesabat dövründə aqrar sektorun inkişafına da diqqət artırılmış, kənd təsərrüfatı məhsulları istehsalının lıəcmi 2 dəfə artırılaraq 153 milyon manatdan çox olmuşdur. Əkinçilik və heyvandarlıq

aparıcı sahə olaraq qalmış, qədim ənənələrə malik olan arıçılıq və quşçuluq dirçəldilmişdir.

Əldə olunan ən mühüm uğurlardan biri də Muxtar Respublikanın enerji təhlükəsizliyinin təmin edilməsidir. 2004-cü ildə istehlakçıların tələbatını ödəmək üçün enerji alırdıqsa, görülən tədbirlər nəticəsində artıq 2008-ci ildən etibarən Muxtar Respublika enerji ixrac edən regiona çevrilmiş, bütün yaşayış məntəqələrinin təbii qazla təmin olunması başa çatdırılmışdır.

Konfrarıslararası dövrdə sosial sahənin inkişafı artan xətt üzrə getmış, 25 min 610 şagird yerlik 67 orta məktəb binası, 107 səhiyyə müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, infrastrukturun formalaşması sahəsində görülən tədbirlər davam etdirilmiş, 31 körpü tikilmiş və ya əsaslı təmir olunmuşdur.

Otən 5 ildə inkişafın real səviyyəsini dövlət büdcəsinin artımı da sübut edir. 2004-cii ildə muxtar respublikanın dövlət büdcəsi 60 milyon 857 min manat idisə, 2008-ci ildə bu göstərici 5 dəfə artaraq 308 milyon 339 min manat təşkil etmişdir. Əhalinin yaşayış səviyyəsi yaxşılaşmışdır. (27, səh.429)

Bu temp, bu yüksəliş, bu gün də davam edir. Partiyanın nüfuzu artdıqca, sıraları çoxaldıqca ölkənin iqtisadi yüksəlişi də durmadan artır. Hesabat məruzəsinin sonunda YAP NMR təşkilatının sədri elə istiqamətverici cümlələr işlətdi ki, onlar həmişə partiya fəaliyyəti üçün proqram ola bilər. Sədr dedi:

*“Yeni Azərbaycan Partiyasının gücü nədədir? Ölkə Prezidenti, partiyamızın sədri hörmətli İlham Əliyevin sözləri ilə desək, “Yeni Azərbaycan Partiyasının gücü ilk növbədə onun əvəzsiz lideri Heydər Əliyevdir. Yeni Azərbaycan Partiyasının gücü bundadır ki, onun təməlində duran prinsiplər əməli surətdə həyata keçirilir. Yeni Azərbaycan Partiyasının gücü ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyası liderinin daxili və xarici siyasətini xalq bəyənir və dəstəkləyir”.*

Yeni Azərbaycan Partiyasının gücü onun ideyalarının və cəmiyyət həyatının ən müxtəlif məsələlərinə dair konseptual baxışlarının məhdud zaman çərçivəsinə deyil, uzun bir tarixi dövrə və proseslərə hesablanmasındadır. Məhz bu amili əsas götürərək ümummilli liderimiz deyirdi ki: *“Yeni Azərbaycan Partiyası Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin partiyasıdır”.* (27, səh.426)

Məlum oldubu kimi, 2012-ci ildə Yeni Azərbaycan Partiyası yaradılmasının 20 illik yubileyi tamam olurdu. Bu münasibətlə keçirilən yubiley tədbirlərində Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika təşkilatının sədri Vasif Talıbov böyük bir məruzə ilə çıxış etdi. Bu məruzədə o, 1992-ci ildəki vəziyyəti təhlil edərək bir qrup ziyalının, elm və mədəniyyətr xadimlərinin 16 oktyabr 1992-ci ildə imzaladığı “Azərbaycan sizli gözləyir” adlı məktubundan bir-iki təsirli cümləni misal gətirdi.

Ziyalılar tərəfindən imzalanmış həmin müraciətdə deyilird: *“İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz... İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz... Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir”.* (27, səh.64)

Ziyalıların bu çağırısına ümummilli lider 8 gündən sonra cavab vermişdi. Cavab mətbuatda bu ünvanla çap olundu “Yeni, müstəqil Azərbaycan uğrunda”. Bu cavab 1992-ci ilin oktyabrın 24-də çap olunmuşdu. Bu cavabda ulu öndər vəziyyətdən çıxış yolunu da göstərirdi. Bu yol Milli müstəqilliyin, milli dövlətçiliyin bərqərar olmasında, Azərbaycanın suverenliyinin, təhlükəsizliyinin təmin edilməsində görürdü. Doğrudur, bu o vaxtlar üçün çox çətin idi. Amma dahi öndər öz gücünə siyasi iradəsinə bir də candan artıq sevdiyi xalqına inanınrdı. Beləliklə, 20 il bundan əvvəl verilən söz, müəyyən edilən siyasi kurs öz tarixi bəhrəsini verdi. Bundan sonra Naxçıvan rəhbəri partiya sıralarının artması haqqında maraqlı məlumat verdi. Belə ki, 1992-ci ildə Partiyanın Naxçıvan təşkilatının sırasında 1118 üzv vardısa, hal-hazırda Partiyanın Muxtar Respublika təşkilatının uçotunda 49 minə yaxın üzv vardır. Deməli, 20 ildə Partiyanın sıraları 44 dəfə artmışdır. Sonra Partiyanın

Naxçıvan Muxtar Respublikası təşkilatının sədri, iqtisadi və sosial-mədəni inkişaf haqqında məlumat verərək demişdir: *"Bu dövrdə Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsul istehsalının həcmi 61 dəfə çoxalmışdır. Öz növbəsində sənaye məhsulu istehsalının həcmi 121 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 13 dəfə, əsas kapitala investisiya qoyuluşu 367 dəfə, rabitə xidmətlərinin həcmi 156 dəfə, xarici ticarət dövriyyəsi 78 dəfə artmış, muxtar respublikanın enerji təhlükəsizliyi təmin olunmuşdur. 10 il ərzində muxtar respublikada 9 min 947 müxtəlif təyinatlı obyekt tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmiş, sahibkarlığın inkişafına diqqət artırılmış, 1130 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. Bunlar bir tərəfdən muxtar respublikada 304 növdə məhsula olan tələbatın daxili imkanlar hesabına ödənməsinə şərait yaratmışsa, digər tərəfdən məşğulluq səviyyəsinin yüksəlməsinə də öz təsirini göstərmişdir. Qeyd olunan dövrdə 77 mindən çox yeni iş yeri açılmışdır ki, onun da 50 mini, yaxud 65 faizi daimi iş yerləridir.*

*Partiyamızın yaranmasından ötən 20 il ərzində sosial sahənin inkişafı da artan xətt üzrə getmiş, 77 min 814 şagird yerlik 193 orta məktəb binası, 191 səhiyyə müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmimş, infrastrukturun formalaşması sahəsində görülən tədbirlər davam etdirilmiş, 128 körpü tikilmiş və ya əsaslı təmir olunmuş, ən müasir*

*tələblərə cavab verən yeni yollar salınmışdır2*. (30, səh.62)

Bu tempdə gedən inkişaf yubileydən sonrakı iki ildə daha sürətli olmuşdur.

# NAXÇIVANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİ HAQQINDA

Müstəqilliyin ən böyük bəhrələrindən biri də Naxçıvanın Muxtar qurum olaraq Azərbaycan Respublikası qanunları çərçivəsində xarici ölkələrlə iqtisadi, siyasi, sosial-mədəni sahədə əlaqə yarada bilməsidir. Sovetlər dönəmində Bakının müttəfiq respublika paytaxtı olaraq xarici əlaqə imkanı müstəqillik dövründəki Naxçıvan Muxtar Respublikası qədər deyildi. Naxçıvandan İran-Cənubi Azərbaycan şəhəri olan Culfaya getmək üçün Moskva icazə verməli idi, ya da gedib Moskva-Tehran qatarına minərək Culfada düşməli idin. Bəziləri indi də Sovet sistemindən ötrü ah çəkib nostalji hisslər keçirir. Heç şübhəsiz, onlar Vətənin müstəqil, millətin azad olmasının mənasını bilməyən insanlardır.

Müstəqillik illərində nəinki Naxçıvan beynəlxalq aləmə çıxa bilir, hətta beynəlxalq təşkilatların diqqətini cəlb edir, bir sıra beynəlxalq idman yarışları, simpoziumlar üçün Naxçıvanı seçirlər. Çox asan gəlməsin, belə bir etibarı qazanmaq, etimadı doğrultmaq üçün ki, 18 ildə 19 beynəlxalq hadisə Naxçıvan şəhəri ilə bağlı olsun, bunun üçün bircə yol var idi – Heydər Əliyev yolu!

Məhz bu yolda getdikdən sonra Naxçıvan beynəlxalq aləmin diqqətini cəlb edə bilərdi. Məhz Ilham Əliyevin qayğısı, Vasif Talıbovun səriştə və işgüzarlığı belə bir etibarı qazana bilər, etimadı

doğrulda bilərdi. Yuxarıda dediyimiz 19 beynəlxalq hadisələr bunlardır:

1. “Uluslararası qaynaqlarda Naxçıvan”. Beynəlxalq simpozium, iyul 1996.

2. “Naxçıvan MR təbii ehtiyatları və onlardan daha səmərəli istifadə yolları”. Beynəlxalq simpozium, sentyabr 2000.

3. Naxçıvan şəhərində keçirilən şahmatçıların dünya çempionatı. 2003.

4. “M.K.Atatürk-Heydər Əliyev-Naxçıvan həyat və inkişaf modelləri” mövzusunda Beynəlxalq simpozium, 2006.

5. “Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri” mövzusunda Beynəlxalq simpozium, iyun 2006.

6. Şimali Kipr Türk Respublikası yaradalmasının 24-cü ildönümü münasibətilə keçirilən tədbirdə Naxçıvan MR Ali məclisinin sədri Vasif Talıbovun çıxışı. 2007.

7. Türk dünyası pediatrlarının səkkinzinci konqresi. İyun 2008.

8. “Nuh Peyğəmbər dünya tüfanı və Naxçıvan”. Beynəlxalq simpozium, aprel 2009.

9. Azərbaycan Respublikası diplomatik xidmətinin 90 illiyi münasibətilə keçirilən konfrans. 2009.

10. “Sivilizasiyaların dialoqu: Naxçıvandan Araz vadisinədək”. Beynəlxalq simpozium, dekabr 2010.

11. Azərbaycan-Türkiyə biznes forumu. 2010.

12. Qars müqaviləsinin 90-cı ildönümü münasibətilə konfrans. 2011.

13. “Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi”. Beynəlxalq simpozium, iyul 2011.

14. Qafqaz Universitetlər birliyinin birinci Naxçıvan Beynəlxalq Gənclik Simpoziumu. 2011.

15. Naxçıvan MR Ali Məclisinin sədrinə Batumi Dövlət Universitetinin fəxri doktoru verilməsi. 2012.

16. “Naxçıvan ilkin şəhərsalma və düzdağ” mövzusunda Beynəlxalq simpozium, 2012.

17. İran İslam inqilabının 34-cü ildönümü münasibətilə keçirilən tədbirdə Naxçıvan MR Ali məclisi sədrinin çıxışı. 2013.

18. Naxçıvanda Mixeil Saakaşvili ilə görüş. 28 Mart 2013.

19. Türkiyə Cümhuriyyətinin 90 illiyi münasibətilə keçirilən tədbir. 28 oktyabr 2013.

Bu beynəlxalq əlaqələrin hamısından bəhs etmək bizi məqsəddən uzaq sala bilər. Bundan əlavə, bu əlaqə və simpoziumların bəziləri haqqında müxtəlif bölmələrdə bəhs etmişik. Ona görə də ən önəmli görünən əlaqə və simpoziumlardan qısaca bəhs edəcəyik.

2006-cı il Naxçıvanda quruculuq ili kimi səciyyələndirilir. 2006-cı ildə Naxçıvanda "Atatürk-Əliyev Naxçıvan: həyat və inkişaf modelləri" mövzusunda beynəlxalq simpozium keçirildi. Simpoziumda mövzu ilə bağlı çox maraqlı məruzələrlə Türkiyə və Azərbaycan alimləri çıxış etdilər. Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbovun çıxışı həm ümumiləşdirmə, həm də əhatə cəhətdən simpoziumun ən maraqlı məruzəsi hesab edilə bilər. Natiq əvvəlcə XX əsrin əvvəllərində ən yüksək pilləyə qalxan Türkiyə-Azərbaycan əlaqələrindən danışdı. Sonra Atatürkün Azərbaycana göstərdiyi dostluq yardımını qeyd etdi. Sonra XX əsrin əvvəlində Atatürkün, axırında isə Heydər Əliyevin öz xalqlarını, vətənini necə xilas etmələrindən danışan natiq dedi:

“Müasir, çıçəklənən Azərbaycan ümummilli lider Heydər Əliyevin əsəri olduğu kimi, regionda qüdrətli dövlət olan Türkiyə Respublikası da Mustafa Kamal Atatürkün əsəridir.

Böyük Mustafa Kamal sağlığında Atatürk adını qazandığı kimi, möhtərəm Heydər Əliyev də sağlığında ümummilli lider adını qazanmışdır.

Lider, Şəxsiyyət tarixdə mühüm rol oynayır. Tarix o zaman obyektiv olur ki, ona həm də şəxsiyyətlər faktoru müstəvisində baxasan. Qədim filosoflar o şəxsi dahi hesab edirdilər ki, onlar heç kəsin görə bilmədiklərini görə bilsinlər, özündən sonra xalqının, ölkəsinin tarixində dərin izlər qoysunlar. Belə şəxslər tarixdə az-az yaranırlar. Bu gün Amerika Birləşmiş Ştatları deyərkən Corc Vaşinqton, Fransa deyərkən Şarl de Qoll, Almaniya deyərkən Adenauer, Hindistan deyərkən Cavahirləl Nehru yada düşürsə, Türkiyə və Azərbaycan deyərkən Mustafa Kamal Atatürk və ulu öndər Heydər Əliyev yada düşür.

Mustafa Kamal Atatürk və ümummilli lider Heydər Əliyev türk xalqlarının, türk dünyasının böyük tarixi şəxsiyyətləridir. Türkiyə və Azərbaycanın indiki səviyyəyə gəlib çatmasında, müstəqil dövlətçiliyin qurulmasında, hər iki ölkədə milli, tarixi və dünyəvi proseslərin möhkəmlənməsində, yeni inkişaf modelinin tətbiqində milli liderlərimizin göstərdikləri xidmətlər əvəzsizdir.

Mustafa Kamal Atatürklə ulu öndər Heydər Əliyevi birləşdirən ən mühüm cəhət hər iki rəhbərin öz xalqlarının xilaskarı olmalarıdır. (27, səh.227)

Qardaş Türkiyədə müstəqillik elan edilən dövrdə - 1923-cü ildə müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev qədim Naxçıvan torpağında dünyaya göz açdı. Bu, taleyin türk xalqlarına ikinci böyük hədiyyəsi idi. Möhtərəm Heydər Əliyev də böyük Atatürk kimi türk dünyasında yetişib formalaşmış, ömrünün böyük siyasətə qədər olan hissəsini hərbi qulluqda keçirtmiş, general rütbəsinədək yüksəlmişdi.

Lakin harada olmasından, hansı vəzifə daşımasından asılı olmayaraq bu iki şəxsiyyəti milli mənafe uğrunda mübarizə, xalqın müstəqillik və suverenlik arzularının təmin edilməsi birləşdirirdi. Böyük ömrün xalq işinə həsr edilməsinin nəticəsidir ki, Mustafa Kamal Atatürkün 1918-20-ci illərdə türk xalqı üçün göstərdiyi tarixi xidmətləri, eynilə iyirminci əsrin sonlarında möhtərəm Heydər Əliyev Azərbaycan xalqı üçün göstərdi.

Bu məsələni biz hələ 1996-cı ildə yazmış olduğumuz “Koroğlunun Çənlibelə qayıdışı” adlı mənzum pyesdə belə vermişdik... SSRİ dağılmış, mənfur ermənilər oz havadarlarının köməyilə Azərbaycan torpaqlarını işğal edir... Belə getsə Azərbaycan öz müstəqilliyini itirib parçalanacaq... Buna görə H.Əliyev – Koroğlu əlləri ilə başını tutaraq qəmgin oturmuşdur. Bu vaxt Babəkin, Şah İsmayılın

sonra isə Atatürkün ruhları gəlib Koroğluya – H.Əliyevə nəsihət – ürək-dirək verir Atatürk:

Darıxma a bala, tokulən dolmaz,
Turklərin başından qal əskik olmaz.
Bilirəm işlərin pis getdiyini,
Duşmənlər xalqına min quyu qazmış.
Əsrin əvvəlində mən etdiyimi,
İndi tarix sənin bəxtinə yazmış.
Ruhum səninlədir, qorxma heç nədən,

Xalqına güvənsən, qalib gələrsən

Koroğlu (Atatürkə)
-Ey Turan elinin böyük ondəri,
Gözümü dünyaya açandan bəri,
Milləti canımdan əziz bilmişəm.
Yetmiş il sən deyən yolla getmişəm.
Qalan həyatımı bu gendən belə.
Bagışlayıram mən vətənə, elə.

(Bax.A.Babayev "Koroğlunun Çənlibelə qayıdışı" Bakı, "Şərq-qərb", 1997, səh.8–9)

Bir anlıq düşünmək lazımdır ki, əgər ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtmasaydı, nələr baş verə bilərdi? Bu sualın çox sadə cavabı var: o zaman Azərbaycan adlı müstəqil dövlət olmayacaqdı. 1990-1993-cü illərdə Azərbaycanda baş verən siyasi proseslər xarici

dövlətlərin maraqlarının təmin olunmasına, ölkə ərazisinin parçalanmasına, ermənilərin Azərbaycana qarşı əsassız iddialarının yerinə yetirilməsinə hesablanmışdı. O zamankı ölkə rəhbərliyində gah Moskvadan asılı olan xəyanətkarların yerləşdirilməsi, gah da dövlət idarəçiliyindən başı çıxmayan şəxslərin hakimiyyəti ələ alması hazırlanan planların həyata keçirilməsinə əlverişli zəmin yaratmış, Azərbaycan ərazilərinin böyük bir qismi işğal olunmuş, separatçı qüvvələr hərəkətə gətirilmiş, ölkə vətəndaş müharibəsi həddinə çatmışdı. Belə bir şəraitdə xalq ayağa qalxaraq ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Bu qayıdışla Azərbaycan onu gözləyən bəlalardan, tarix səhnəsindən silinmək təhlükəsindən xilas oldu. (27, səh.228)

Böyük Atatürkün xilaskarlıq missiyasını iyirminci əsrin axırlarında ulu öndər Heydər Əliyev davam etdirdi, erməni təcavüzünə məruz qalan, öz ata-baba yurdlarını erməni işğalçılarına güzəştə getməyə məcbur edilən, qardaş qırğını təhlükəsi ilə üz-üzə dayanan Azərbaycanı xilas edərək yaşatdı. İyirminci əsrin əvvəllərində xarici mətbuat Mustafa Kamal Atatürk haqqında yazırdı ki: *"Mustafa Kamalı Allah bu məmləkəti düşmənlərdən xilas etmək üçün göndərib"*. Əsrin əvvəllərində böyük Atatürkə ünvanlanan fikirləri əsrin sonunda Rusiya mətbuatı eyniylə təkrarlayaraq yazırdı: *"Allah Heydər Əliyevi Azərbaycan xalqını xilas etmək üçün göndərib"*.

Öz ölkələrini müstəqil görmək milli liderlərimizin siyasi fəaliyyətlərinin əsas qayəsini təşkil edirdi. Qazi Mustafa Kamal Atatürk yazırdı: *"Mən yaşaya bilmək üçün ınütləq müstəqil bir millətin övladı olmalıyam".* Canından artıq sevdiyi Azərbaycanın müsləqilliyi yolunda həyatını qurban verməyə hazır olan möhtərəm Heydər Əliyev də deyirdi: *"Mən həyatımdan keçərəm, Azərbaycanın müstəqilliyindən keçmərəm".* Mənsub olduqları xalqın müstəqilliyi onların dövlətçilik prinsipi, həyat fəlsəfəsi idi.

Taleyinə xilaskarlıq missiyası yazılan bu böyük şəxsiyyətlərin Türkiyə və Azərbaycanın müstəqilliyi yolunda mücadiləsi hər iki halda ordu quruculuğu yolunda fəaliyyətlə üst-üstə düşür.

**Atatürk** – Türk ordusunu yaratmaqla Türkiyəni hifz etdi.

**Heydər Əliyev** – Azərbaycan ordusunu yaratmaqla Azərbaycanı yaşatdı. (27, səh.229)

Bu simpoziumun ardınca 2006-cı ilin iyun ayında Naxçıvan şəhəri daha bir beynəlxalq elmi simpoziuma ev sahibliyi etdi. Bu simpoziumun da ideya mərkəzində Naxçıvan dururdu. Bu onu deməyə əsas verir ki, hər iki simpoziumun və ümumiyyətlə Naxçıvanla bağlı bütün tədbirlərin təşəbbüskarı Naxçıvan rəhbərliyi özü olur. Bu dəfəki beynəlxalq simpozium belə adlanırdı: "Naxçıvan: tarixi gerçəklik,

müasir durum, inkişaf perspektivləri”. Bu simpoziumda da çoxlu xarici alimlərlə yanaşı Respublikamızın alimləri də iştirak etdirdi. Bundan əvvəlki simpoziumdakı çıxışı haqqında dediklərimi bu təbdir haqqında da təkrar etmək istərdim ki, simpoziumda əhatəliyinə və dərinliyinə görə ən maraqlı çıxış Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbovun məruzəsi oldu. Çıxışında cənab Vasif Talıbov Azərbaycanın ayrılmaz hissəsi olaraq Naxçıvanda dövlətçilik tarixindən, Manna dövləti tərkibində əldən ələ keçən, XI əsrin 30-cu illərindən Atabəylər dövlətinin paytaxtı olmasından və s. danışdı. O, tarixi Naxçıvan haqqında tarixi gerçəkliyi belə səciyyələndirdi:

“Naxçıvan zəngin tarixə malik qədim Azərbaycan torpağıdır. Bəşər sivilizasiyasının ilk beşiklərindən olan bu diyar uzun müddət Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi statusunu qoruyub saxlamışdır. Naxçıvan, eyni zamanda Azərbaycan dövlətçiliyi tarixinə mühüm töhfələr verən bir diyardır. Min illər boyunca həmişə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu qədim torpaqda onuncu əsrdə “Naxçıvan şahlığı” deyilən xüsusi feodallıq yaranmış, Naxçıvan şəhəri on ikinci əsrin 30-cu illərindən 1175-ci ilədək Atabəylər dövlətinin, 1918-ci ilin noyabrından isə Araz-Türk Respublikasının paytaxtı olmuşdur. 1747-ci ildən Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı bölgənin inkişafına, müdafiə

qabiliyyətinin güclənməsinə, inzibati-idarəçiliyin formalaşmasına mühüm töhfələr vermişdir.

Tale Naxçıvan torpağına öz səxavətini əsirgəməyib. Əlverişli təbii-coğrafi mövqeyə malik olmasi bir tərəfdən bu yurdun ən qədim zamanlardan, yəni poleolit dövründən başlayaraq məskunlaşmasına imkan yaratmışdırsa, ikinci tərəfdən də elə həmin səbəb ucbatından o, fatehlərin, böyük dövlətlərin siyasi maraqlarının kəsişdiyi yerə çevrilmişdir. Bir şeyi qeyd etmək kifayətdir ki, eramızdan əvvəl səkkizinci əsrdə Manna dövlətinin tərkibində olan, eradan əvvəl yeddinci əsrdə skiflər tərəfindən ələ keçirilən Naxçıvan, daha sonra Midiya tərəfindən işğal olunmuş, eramızdan əvvəl dördüncü əsrdə isə Makedoniyalı İsgəndərin hücumlarına məruz qalmışdır. İkinci əsrdə romalılarla parfiyalıların mübarizə meydanına çevrilən bu torpaq Sasani şahlarının hakimiyyəti altına düşmüş, 624-cü ildə Bizanslar tərəfindən ələ keçirilmişdir. Yeddinci əsrdə ərəblərin işğalına məruz qalan Naxçıvan on üç-on dördüncü əsrlərdə monqollar tərəfindən işğal olunmuşdur. (27, səh.235)

Natiq Naxçıvanın tarixi gerçəkliyini təqdim edərkən sözünü aşağıdakı cümlələrlə bitirdi. Sonra müasir durum və inkişaf perspektivləri haqqında öz reseptini verdi. Əslində müasir durum və sonrakı perspektivlər tarixi gerçəkliyə əsaslanır. Naxçıvanın tarixi gerçəkliyini isə natiq belə yekunlaşdırdı: *"Naxçıvanın ən qiymətli sərvətlərindən biri də onun*

*muxtariyyətidir. Naxçıvanın muxtariyyəti asanlıqla başa gəlməyib. Tarixdə Naxçıvan məsələsinin aktuallığını belə bir fakt da təsdiq edir ki, bu məsələ 1919-cu ildə bir neçə dəfə Zaqafqaziya Seymində, 1918–20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin və Türkiyə Respublikasının parlamentlərində, Təbriz bələdiyyəsində və Maku xanlığında, 1919-cu ildə Versal Sülh Konfransında, 1920–21-ci illərdə Azərbaycan və Ermənistan inqilab komitələrində, 1920–21-ci illərdə Rusiya Kommunist Bolşeviklər Partiyasının Siyasi Bürosunda, Rusiya Xalq Komissarları Sovetində dəfələrlə müzakirəyə çıxarılmışdır. Naxçıvanın tarixi taleyi yalnız 1921-ci iidə imzalanmış iki mühüm beynəlxalq sənəddə - Moskva və Qars müqavilələrində öz əksini tapa bildi. Ermənilərin ərazi iddiaları ucbatından zorla siyasiləşdirilmiş Naxçıvan məsələsi sonda məhz bu müqavilələrlə, Türkiyə və Azərbaycan dıplomatiyasının uzaqgörənliyi, ən əsası isə naxçıvanlıların möhkəm iradəsi, qətiyyəti və əzmi sayəsində həll edilmiş, Naxçıvan Azərbaycanın tərkibində muxtar respublika kimi qalmışdır. Ötən əsrdə məhz bu amil hesabına Naxçıvan erməni işğalından hifz olunmuş, ərazisi qorunub saxlanmışdır".* (27, səh.237)

Bundan sonra naxçıvanda 18 dekabr 2010-cu ildə "Sivilizasiyaların dialoqu: Nil çayından Araz vadisinədək" mövzusunda keçirilən beynəlxalq simpozium iştirakçılarına müraciətlə Naxçıvan rəhbəri demişdi:

“Beynəlxalq simpoziumun keçirildiyi Azərbaycanın Naxçıvan diyarının çox qədim və zəngin tarixi vardır. Bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan uzun müddət Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi kimi formalaşaraq inkişaf etmişdir. Naxçıvan torpağı antik, orta əsrlər və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə - ilk insanların yaşadıqları mağaralar, qədim yaşayış yerləri, erkən şəhər mədəniyyəti, möhtəşəm qala divarları, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələrlə, təkrarsız təbiət abidələri ilə zəngindir. Naxçıvandakı Qazma, Əshabi-Kəhf və Kilit mağaraları daş dövrü mədəniyyətini, IV minilliyin sonu, II minilliyin əvvəllərinə aid olan Oğlanqala, Çalxanqala və Govurqala isə qala-şəhər mədəniyyətlərini yaşatmaqdadır. Gəmiqaya daşüstü rəsmləri – runik yazıları eradan əvvəl IV-I minilliklərdə Azərbaycan türklərinin bədii təfəkkürünü, adət-ənənələrini, estetik-fəlsəfi baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən təbii muzey-qalereyadır. Naxçıvan o yerdir ki, burada Nuh peyğəmbərin, onun yaxın qohumlarının və tərəfdaşlarının məzarları mövcuddur. Araşdırmalar göstərir ki, “Ümumdünya tufanı” və Nuhla əlaqədar rəvayətlər daha çox Naxçıvanla bağlı olmuşdur. (27, səh.483)

Tarixi araşdırmalar sübut etmişdir ki, dünyada 3 yerdə iki çay arasında türklər – onların ulu babaları yaşamış və böyük mədəniyyət yaratmışlar.

1. Mesopotomiya – maverənnəhr, mejdurucyo, iki çay arası adlanan Dəclə və Fərat çayları arasında, Nil ətrafında qədim türklərin ulu babaları şumerlər yaşamış və zəngin mədəniyyət yaratmışlar. Gil üzərində yaranan "Bilqamış", "Gilqamus" dastanları qədim türk təfəkkürünün məhsuludur.

2. Yeni minilliyin ilk əsrlərində Orxon-Yenisey çayları arasında yaşayan qədim türklər Gültigin, Bilgə Kağan və s. kimi mədəni abidələr qoyub getmşdilər.

3. Türklərin indi də yaşadığı üçüncü ikiçay arası mədəniyyət Kür-Araz mədəniyyəti isə müəyyən səbəblərə görə az tədqiq olunmuşdur. Yeni beynəlxalq simpoziumun "Nil çayından Araz vadisinədək" adlanması bu qədim mədəniyyətin öyrənilməsinə çox kömək etməli idi. Əslində etdi də. Bunun üçün mesajı Naxçıvan rəhbəri həm belə bir simpoziumun keçirilməsi, həm də, oradakı giriş sözü ilə vermişdi.

Naxçıvan rəhbəri bu mövzudakı səylərini davam etdirir və bu şəhərin ən qədim insan məskəni olduğunu sübuta yetirməyə çalışır. Bir ildən sonra Naxçıvan MR Ali məclisinin sədri "Naxçıvan ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda beynəlxalq simpozium keçirir. Beynəlxalq simpozium 4 gün 20-24 iyul 2011-ci il tarixdə Naxçıvan şəhərində keçirilir. Burada da Naxçıvan rəhbəri çıxış edərək göstərir ki, Naxçıvanın əsil-obyektiv

mükəmməl tarixinin öyrənilməsinə düz 15 il bundan öncə başlanmışdır. Bu simpoziumun keçirilməsi üçün verdiyi sərəncamın preambulasında Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri fikrini dəqiq tarixi faktlarla əsaslandıraraq yazırdı:

"Azərbaycanın bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan diyarı ən qədim mədəniyyət mərkəzlərindən və insanların ilkin məskunlaşdığı ərazilərdən biridir. Əlverişli iqlim şəraiti, gözəl təbiəti, əkin üçün yararlı torpaqları, həmçinin əhəmiyyətli coğrafi mövqedə yerləşməsi insanların Naxçıvan ərazisində məskunlaşmasına şərait yaratmışdır. Bu ərazidəki Qazma, Kilit, Daşqala, Ərməmməd mağaralarında yaşayan ibtidai insanlar Neolit dövründən başlayaraq I Kültəpə (VII-I minilliklər), Sədərək (VII-III minilliklər), Ovçulartəpəsi (V-III minilliklər), Xələc (V-III minilliklər), Duzdağ (V-III minilliklər), Şahtaxtı (III-I minilliklər), Nəhəcir (III-I minilliklər) kimi yaşayış yerləii salmışlar. Eramızdan əvvəl IV-I minilliklərə aid olan Gəmiqaya abidəsi, həmçinin III-I minilliklərə aid Əshabi-Kəhf dini və tarixi memarlıq kompleksi bu ərazinin ilkin məskunlaşma, eləcə də zəngin mədəniyyət mərkəzlərindən biri kimi əhəmiyyətini daha da artırır. Təsadüfi deyil ki, ilkin şəhər mədəniyyəti də məhz bu ərazidə meydana gəlmiş, bölgənin ən iri yaşayış məskəni olan Naxçıvan 5 min il bundan əvvəl şəhər kimi formalaşmağa başlamışdır. Naxçıvan Duzdağında (eramızdan əvvəl V-III

minilliklər) şəhər mədəniyyətinin vacib elementləri olan emal mədəniyyəti və alətləri yaranmış, sənətkarlıq və ticarət inkişaf etmişdir. (27, səh.511)

Məlumdur ki, insanların məskən salması və yaşaması üçün tələb olunan əsas amillər, su, iqlim, çoğrafi mövqe, müəyyən zəruri sərvət, yemək üçün lazım olan şeylər və ən əsası duzdur. Duz isə Naxçıvanda dünyanın ən zəngin yataqlarından biridir. Buna görə də Eneolit dövründə Naxçıvanda artıq bir sıra maddi-mədəni, etno-kulturoloji elanentlər var idi. Bütün bunlar Naxçıvanda bir beynəlxalq elmi tədbir-simpozium keçirilməsini tələb edirdi. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 20 aprel 2012-ci ildə "Naxçıvan: ilkin şəhər və duz dağ" mövzusunda beynəlxalq simpozium keçirilməsi haqqında sərəncam verdi. Elə həmin il, sərəncamdan 3 ay sonra yəni 2012-ci ilin 27–28 iyulundan yuxarıda adı çəkilən simpozium baş tutdu. Simpoziumun keçirilməsi üçün 7 bənddən ibarət geniş tədbirlər planı da təsdiq edilmişdi. Tədbirlər planında nəzərdə tutulan işlərin hamısı reallaşdı.

Vasif Talıbov Muxtar Respublika rəhbəri kimi qonşu ölkələrlə mədəni, iqtisadi və sosial-siyasi əlaqələrə böyük üstünlük verir. Xüsusilə qonşu Iran və Türkiyə ilə yaxın münasibət məsələsi cənab Vasif Talıbovun xarici siyasətində prioritet təşkil edir. Iralnla əlaqənin müstəqillik illərində əsası ulu öndərin özü tərəfindən qoylumuşdu. Bu gözəl ənənəni Muxtar Respublika rəhbəri bu gün də davam etdirir. Hələ

2006-cı ilin iyul ayında Iran Islam Respublikasının Qərbi Azərbaycan vilayəti arasında iqtisadi və mədəni əməkdaşlığa dair memoradium imzalanmışdır. Qərbi Azərbaycan əyalətinin valisi Rəhim Qurbani hər iki dost və qonşu ölkə arasındakı mədəni, iqtisadi əməkdaşlığı yüksək qiymətləndirmişdir. Sonra Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cənab Vasif Talıbov bu əlaqənin tarixindən və hər iki ölkə üçün əhəmiyyətindən geniş bəhs etdi. O göstərdi ki, *"İran İslam Respublikasının Qərbi Azərbaycan vilayəti ilə Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikasını coğrafi yaxınlıq, o cümlədən dini, mədəni və soykök telləri birləşdirir. Əsası Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə qoyulan qarşılıqlı əlaqələrimiz get-gedə inkişaf edir. Hələ o dövrdə Araz çayı üzərində Şahtaxtlı-Poldəşt körpüsü salınmış, qarşılıqlı gediş-gəliş başlanmışdır. İndi isə burada Qərbi Azərbaycan Vilayəti ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən əsaslı körpü tikilir. Bu körpüyə gələcəkdə beynəlxalq status veriləcək, tranzit gediş-gəlişlər artacaq, insanlar arasında əlaqələr daha da genişlənəcəkdir Digər tərəfdən isə Naxçıvan Muxtar Respublikası ilə Qərbı Azərbaycanın uyğun təşkilatları arasında sıx əlaqə yaranacaqdır. Artıq iş adamları, elm, təhsil, mədəniyyət, idman sahəsində, qadın məclisləri arasında bir sıra əlaqələr vardır.*

*Azərbaycan xalqının ümummilli lideri hələ Naxçıvanda işlədiyi zaman Qərbi Azərbaycan valisi*

*Əli Səadəti öz heyəti ilə Naxçıvanda oldu. Ağır bir zamanda Naxçıvana müəyyən yardımlar, köməkliklər göstərildi və o dövrdə qarşılıqlı əməkdaşlıq üçün ilk protokol imzalandı və bir çox işlər həyata keçirildi, Bu dövrdə Qərbi Azərbaycan Vilayəti tərəfindən Naxçıvanda böyük bir məscid tikildi.*

*Sonrakı dövrlərdə Qərbi Azərbaycan valisi Cəmşid Ənsari Naxçıvanda oldu, əlaqələrimizi daha da genişləndirmək uçün protokol imzaladıq. Şahtaxtlı-Poldəşt körpusünun təməlini qoyduq. Bu gün isə hörmətli vali Rahim Qurbaninin dəvətini qəbul edərək, iqtisadı və mədəni əməkdaşlığa dair anlaşma memorandumu imzalamaq üçün Qərbi Azərbaycana gəlmişik".*

Ali Məclisin Sədri bu gun Azərbaycan-İran əlaqələrinin hərtərəfli inkişaf etdiyini bildirmişdır. Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyevin İran İslam Respublikasına səfəri zamanı Azərbaycan-İran arasında bağlanmış memo-randuma əsasən artıq İran İslam Respublikasından Naxçıvan Muxtar Respublikasına qaz verilir. 15 ildir ki, Muxtar Respublikaya qaz verilməsi Ermənistan tərəfindən kəsilmişdi. Bu gün Muxtar Respublikanın şəhər və kəndlərində evlərə İran tərəfdən qazın verilməsi təmin olunub və əhali ondan istifadə edir. ("Şərq Qapısı" qəzeti, 18.07.2006)

Ali Məclisin sədri bağlanmış memoranduma qısa müddətdə əməl etdiyi öçün İran hökumətinə öz təşəkkürünu bildirmişdir. Qeyd olunmuşdur ki, İran

İslam Respublikasının Prezidenti hörmətli Mahmud Əhmədi Nejat prezident seçiləndən sonra ilk səfərini Naxçıvandan başlayaraq Azərbaycan Respublikasının Prezidenti ilə qazın açılışında iştirak etdi. O, hələ 1996-cı ildə Ərdabil valisi kimi Naxçıvana gəlmişdi. Naxçıvanın sərt qışı haqqında təsəvvürü var idi. Odur ki, Naxçıvana qazın verilməsindən o da məmnunluq duyurdu. Bunlar İran-Azərbaycan əlaqələrinin geniş inkişaf etdiyini, möhkəmləndiyini bir daha təsdiqləyir. Biz əminik ki, bu əlaqələr bundan sonra da möhkəmlənəcəkdir. Biz bu əlaqələrin genişlənməsinə tərəfdarıq. Biz istəyirik ki, iqtisadi və mədəni sahələrdə əməkdaşlıq daha da möhkəmlənsin. İqtisadi inkişaf, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirlikləri və digər təşkilatlar Qərbi Azərbaycanda müvafiq təşkilatlarla daha sıx əlaqələr yaratsınlar. Biz qonşu və qardaşıq. Dilimiz, adət-ənənələrimiz, soykökümüz eynidır. Bu gün qarşılıqlı əlaqələri qurmaq və möhkəmləndirmək bizim vəzifə borcumuz olmalıdır. Biz bu əlaqələrin inkişafı üçün var qüvvəmizlə çalışmağa hazırıq. Biz inanırıq ki, bu gün imzalayacağımız memorandum öz bəhrəsini verəcək. xeyirli, uğurlu olacaqdır.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Qərbi Azərbaycan valisi Rəhim Qurbani Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti arasında iqtisadi və mədəni əməkdaşlığa dair anlaşma

Memorandumu imzalamışlar. ("Şərq Qapısı" qəzeti, 18.07.2006)

İranla bu mehriban qonşuluq əlaqəsinin bəhrəsi bu oldu ki, bütün Naxçıvanı Irandan alınmış qazla təmin etmək mümkün oldu. Belə bir məsələni oxucuya xatırlatmaq istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının bütün şəhərlərində və kəndlərində təbii qaz vardır. Bir anlığa təsəvvür edin: ən ucqar kəndin ən ucqar məhəlləsinin ən son evində qaz pilətəsi, qaz sobası yanır. Təsəvvürə gətirmək olmur ki, neçə min ton dəmir boru, neçə min qaz sobası, neçə min qaz sayğacı və nəhayət nə qədər vəsait lazımdır ki, bu böyük işi görə biləsən. Bunu yaxşı başa düşən Muxtar Respublika əhalisi Naxçıvan rəhbərini sevir və ona minnətdarlığını bildirir.

İranla əlaqə nəticəsində, Naxçıvan-Bakı avtobus marşrutu İran ərazisindən keçərək Bakıya gedir. Hətta Bakı-Naxçıvan reysi üzrə uçan təyyarələr də İran ərazisi üzərindən uçur. Hələ bu azdır. Bakı ilə Naxçıvan arasında yük daşınması da İran ərazisi vasitəsilə reallaşır. İran-Naxçıvan əlaqələrinin bəhrələri haqqında Iran İslam inqilabının (12 fevral 1979) 34-cü ildönümü münasibətilə İranın Naxçıvandakı konsulluğunun təşkil etdiyi tədbirdə Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri Vasif Talıbov demişdir: *"Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əlaqələr qarşılıqlı əməkdaşlıq və mehriban qonşuluq prinsiplərinə əsaslanır. Ulu*

*öndər Heydər Əiiyevin Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi siyasi fəaliyyəti dövründə əsası qoyulmuş bu əlaqəbr ötən illər ərzində genişlənmiş, ölkələr və xalqlararası münasibətlər inkişaf etmişdir.*

*Bu gün xalqlarımızın mənafeyinə və maraqlarına uyğun şəkildə davam edən dostluq və qardaşlığımız Azərbaycan Prezidentinin, eləcə də İran İslam Respublikası Prezidentinin səyləri ilə daha da möhkəmlənmişdir.*

*Bu əlaqələrin inkişafında Azərbaycanın Naxçıvan Muxtar Respublikasının da özünəməxsus yeri və rolu vardır. Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi və Qərbi Azərbaycan vilayətləri arasındakı faydalı əməkdaşlıq qonşuluq münasibətərinə mühüm töhfədir. Əlaqələrin qarşılıqlı inkişafı üçün bir sıra işlər görüimüş, energetika, nəqliyyat-kommunikasiya, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət, turizm və idman sahələrində əməkdaşlığa hərtərəfli zəmin yaradılmış, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri nəticəsində əməkdaşlıq daha da inkişaf etmiş və genişlənmişdir".* (30, səh.18)

Naxçıvanın inkişafı onu o dərəcədə yüksəltmişdir ki, onu, necə deyərlər, hər hansı bir qonaq qabağına cəsarətlə çıxarmaq olar. Məsələn, 2 il bundan əvvəl türk dünyasının bir neçə prezidentinin görüşü üçün Naxçıvan şəhərinin seçilməsi dediklərimizə ən parlaq sübutdur. Azərbaycana gələn Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili də 2013-cüt ilin

oktyabrın 28-də Bakıda olarkən naxçıvanı görmək arzusunda olduğunu bildirmişdir. M.Saakaşvili ilə görüşərkən naxçıvan MR Ali məclisinin sədri Vasif Talıbov qonağa müraciətlə demişdi:

*“Cənab Prezident!*

*Naxçıvan qədim şəhərdir. 5 min illik tarixə malikdir. 1921-ci ildə Gürcüstanın da iştirakçı kimi imzaladığı beynəlxalq Qars müqaviləsinə əsasən Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası təşkil olunmuış, 1995-ci ildə qəbul olunmuş Azərbaycan Konstitusiyası ilə ona muxtar dövlət statusu verilmişdir.*

*Bu gün Muxtar Respublikanın öz konstitusiyası, parlamenti, icra və məhkəmə hakimiyyətləri vardır. Muxtar Respublikanın ərazisi 5,5 min kvadrat kilometr, əhalisi isə 430 min nəfərə yaxındır. Paytaxt Naxçıvan şəhərindən və 7 rayondan ibarət olan muxtar respublikada əhalinin 70 faizi kəndlərdə, 30 faizi isə şəhərlərdə yaşayır.*

*Naxçıvan tarixən aqrar region kimi tanınıb. Son dövrlərdəki inkişaf nəticəsində sənaye regionuna çevrilib. Hal-hazırda burada 435 sənaye müəssisəsi fəaliyyət göstərir.*

*Bu gün əhalinin 330 növdə məhsula olan tələbatı daxili imkanlar hesabına ödənilir. Muxtar respublikanın enerji və ərzaq təhlükəsizliyi təmin olunmuş, bütün yaşayış məntəqələri qazlaşdırılmışdır.*

*Muxtar respublikada müasir infrastruktur yaradılıb. Təhsil müəssisələrində isə ən yeni elektron tədris tətbiq olunur. Muxtar respublikanın özündə istər ali, istərsə də orta ixtisas təhsilli kadrların hazırlığı üçün bütün imkanlar vardır. Burada bir dövlət, bir özəl universitet və müəllimlər institutu, 3 orta ixtisas təhsili müəssisəsi və peşə məktəbləri fəaliyyət göstəriri.*

*Eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsində və onun altı elmi-tədqiqat müəssisəsində müxtəlif sahələr üzrə tədqiqatlar aparılır.*

*Naxçıvan Muxtar Respublikası xarici ölkələrlə faydalı əməkdaşlığa malikdir. Bu istiqamətdə qardaş Gürcüstanla əlaqələrə xüsusi əhəmiyyət verilir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında dostluq və qardaşlıq əlaqələrinin hazırki səviyyəsi məmnunluq doğurur".*

Naxçıvan-Türkiyə əlaqələri daha dərin, daha spesifik xüsusiyyətlərə malikdir. Bu bir millətin uzun əsrlər və minilliklər boyu meydana gəlib inkişaf etmiş tarixidir. Dili ümumi, mədəniyyəti ümumi, qanı bir, dini bir olan Azərbaycan türkləri ilə Türkiyə türkləri hər əsrdə bir-birinin arxa köməyi olmuşdur. 1918–20-ci və 1991–1993-cü illərdə bu birlik özünü daha bariz şəkildə göstərdi. Heç bir iqtisadi maraq Azərbaycan ilə Türkiyəni bir-birindən ayıra bilməz. Ulu öndərlər –

Atatürkün və Heydər Əliyevin qoyduğu bu qardaşlıq binasının təməli möhkəm özü əbədidir. Keçən il Türkiyənin Cümhuriyyət günü – oktyabrın 28-də Türkiyənin Naxçıvan Konsulluğu Türkiyə Cümhuriyyətinin 90 illik yubileyində təşkil etdiyi tədbirdə Naxçıvan Muxtar Respublikası Ali məclisinin sədri cənab Vasif Talıbov bu tarixi dostluq və qardaşlıq haqqında demişdi:

"Hörmətli baş konsullar və tədbir iştirakçıları!

Bu gün Türkiyə Respublikasının milli bayramını - qardaş ölkədə respublika elan olunmasının 90 illiyini qeyd edirik. Bu münasibətlə tədbir iştirakçılarını təbrik edir, qardaş Türkiyə xalqına və dövlətinə inkişaf və tərəqqi arzulayıram.

Hər bir ölkənin ən böyük milli sərvəti onun dövlət müstəqilliyidir. 90 il bundan əvvəl müstəqillik və Cümhuriyyət yolunu tutan Türkiyə Respublikası bu gün regionda və dünyada söz sahibi olan inkişaf etmiş dövlətə çevrilmişdir.

Qardaş Türkiyənin inkişaf yolunu müəyyənləşdirən böyük Mustafa Kamal Atatürkün tarixdə ən böyük xidmətlərindən biri də Türkiyə-Azərbaycaıı dostluğunun əsasını qoymasıdır. İyirminci əsrin əvvələrində əsası qoyulan bu münasibətlər həmin əsrin sonunda ümummilli lider Heydər Əliyev tərəfindən "Bir millətin iki dövləti" səviyyəsinə qaldırılmışdır.

Xalqlarımızın milli liderləri - Atatürk və Heydər Əliyev Türkiyə-Azərbaycan birliyini inkişafın və

siyasi mövcudluğun mühüm şərti kimi müəyyənləşdirmişlər. Bu gün bu yola, bu siyasətə sadiq olan xalqlarımız və dövlət rəhbərlərimiz Azərbaycan-Türkiyə strateji birliyinin nəyə qadir olduğunu nümayiş etdirirlər.

Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir. Belə bir möhkəm təməl üzərində qurulmuş münasibətlərimiz bir nümunə gücündədir. Bu əlaqələr bundan sonra da nümunə gücündə olacaq və daha da inkişaf edəcəkdir. Ona görə ki, bizim işıqlı gələcəyimiz xalqlanmızın müştərək milli maraqlarından keçir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Ölkələrimiz arasında bütün sahələrdə uğurlu əməkdaşlıq, işbirliyi mövcuddur. Siyasi, iqtisadi, hərbi, mədəni - bütün sahələrdə münasibətlərimiz inkişaf edir və bu, bizi çox sevindirir. Bizim gücümüz bizim birliyimizdədir. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır. (30, səh.72)

# MÖHTƏŞƏM 18 ilin İQTİSADİ GÖSTƏRİCİLƏRİ

Biz haqqında danışdığımız 18 ardıcıl inkişaf ilinin iqtisadi göstəricilərini qəsdən axıra saldıq. Çünki qazanılan bütün uğurların əsasında iqtisadi uğurlar durur. Əgər iqtisadiyyatda tənəzzül olarsa və ya inkişaf-artım olmazsa heç bir uğurdan danışmaq olmaz. Bu möhtəşəm 18 ilin iqtisadi inkişaf dinamikası hamını heyrətləndirir. Nəzərə alsaq ki, bu böyük iqtisadi inkişafa Naxçıvan blokada şəraitində nail olmuşdur, onda bu zirvənin fəth edilməsindəki siyasi iradənin, təşkilatçılıq bacarığının, Vətən və xalq sevərliyin dərəcəsini daha yüksək dəyərləndirməli olarıq.

Azərbaycan prezidenti cənab İlham Əliyev Naxçıvanın bu böyük uğurlarından bəhs edərkən demişdir: *"Naxçıvan blokada şəraitində yaşayır. Ancaq naxçıvanlılar bu blokadanı hiss etmirlər. Çünki həm Naxçıvan rəhbərliyi çox böyük işlər görür, həm də Azərbaycan dövləti hər zaman olduğu kimi, Naxçıvana böyük diqqət göstərir".*

Bu bir həqiqətdir ki, Naxçıvanı blokadaya salanlar onun ağır vəziyyətindən istifadə etmək istəyir, onu Azərbaycandan ayırmağa çalışırdılar. Bolşevik-daşnak arzularının reallaşmasına kömək edən, Moskvanın adamı, Azərbaycan rəhbəri də "Naxçıvanı kor bağırsaq" kimi kəsib ataraq Naxçıvandan (əslində naxçıvanlılardan) qurtarmaq istəyirdi. Bundan əlavə,

elə Naxçıvanın özündə də cəbhə-müsavat cütlüyünün səriştəsiz hikkələri Naxçıvanda iş aparmağa mane olurdu.

Belə bir şəraitdə naxçıvanın iqtisadiyyatı necə ola bilərdi? Yenə ümid Göydə Allaha, yerdə Heydər Əliyevə qalmışdı. Heydər Əliyev, onun dahiyanə siyasəti yeni yollar açaraq, Naxçıvanı iqtisadi və siyasi təcrid olunmaqdan xilas edə bildi. Heydər Əliyev İran və Türkiyə ilə əlaqəyə girərək hər iki ölkədən elektrik enerjisi aldı, Sədərək-Dilucu körpüsünü işə saldı, İran ərazisindən Naxçıvan-Bakı istiqamətində avtomobil yolu çəkildi. Beləliklə, ən böyük iqtisadi çətinlik olan ərzaq çatışmazlığı həll olundu. Bu zaman ən əsas istiqamət istehsal potensialının hərəkətə gətirilməsi, davamlı sosial problemlərin həlli və nəticədə əhalinin güzəranının lazımi səviyyədə yaxşılaşdırılması idi. Bu yolla məhz Heydər Əliyevin müəyyən etdiyi strateji xətlə irəliləyən Naxçıvan rəhbəri 1995-ci il dekabrın 16-dan inandığı və əməl etdiyi həm taktiki, həm strateji xətt budur: *“Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları nəzərə alınanda istənilən möcüzəni yaratmaq olar”*.

18 il Muxtar Respublikada rəhbərlik edən cənab Vasif Talıbov məhz bu tezis, bu deviz, bu düşüncə ilə hərəkət edərək doğma diyarda yüksək iqtisadi göstəricilərə nail ola bilmişdir.

Bu iqtisadi yüksəlişin bir neçə məqamına diqqət edək:*

İqtisadi yüksəlişin əsas meyarı ümumi daxili məhsuldur. 1993-cü ildə ümumi daxili məhsul istehsalının həcmi 2 milyard 339 milyon manat olmuşdur. Bu, 1995-ci illə müqayisədə 54 dəfə çoxdur.

2013-cü ildə Naxçıvanda adambaşına düşən ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 41 dəfə artaraq 5423 manat səviyyəsində olmuşdur. Müqayisə üçün götürdüyümüz 1995-ci illə 2013-cü il arasında sənaye məhsulu istehsalı arasındakı fərq 95 dəfə, əsas kapitala yönəldilən investisiyalar 340 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 9 dəfə, nəqliyyat sektorunda yük daşımanların miqdarı 24 dəfə, rabitə və informasiya xidməti 107 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 47 dəfə, ixracın həcmi 208 dəfə, əhalinin real gəlirləri 55 dəfə, hər bir nəfərə düşən gəlir 43 dəfə,orta aylıq əmək haqqı 24 dəfə artmışdır. Bundan əlavə, uzun fasilədən sonra bütün naxçıvan əhalisi təbii qazla-yanacaqla təmin olunmuşdur.

Son 18 ildə əsas kapitala 4 milyard 821 milyon manat investisiya qoyulmuşdur.

2013-cü ildə əsas kapitala yönəldilən investiyaların həcmi 1995-ci ilin göstəricisini 340 dəfə üstələyərək 1 milyard 37 milyon 48 min manata çatmışdır.

---

* Naxçıvanın 1995-ci il ilə 2013-cü illər arasında qazandığı iqtisadi yüksəliş haqqındakı rəqəmlər: "İnkişafın Naxçıvan modeli: blokadadan möhtəşəm tərəqqiyə doğru" 32 səhifəlik materialdan götürülmüşdür.

| Makroiqtisadi göstəricilər | | | |
|---|---|---|---|
| **Müqayisə predmeti** | **2013-cü il (min manat)** | **1995-ci il (min manat)** | **2013-cü il 1995-ci ilə nisbətən** |
| Ümumi daxili məhsul | 2338927,7 | 43721,7 | 53,5 dəfə |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manatla | 5423,0 | 131,9 | 41,1 dəfə |
| Sənaye məhsulunun ümumi həcmi | 862870,5 | 9133,4 | 94,5 dəfə |
| Əsas kapitala yönəldilən investisiyalar | 1037748,4 | 3049,0 | 340,4 dəfə |
| Kənd təsərrüfatının ümumi məhsulu | 337127,2 | 38572,2 | 8,7 dəfə |
| Nəqliyyat sektorunda yük daşınması, min tonla | 15280,2 | 632,6 | 24,2 dəfə |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 45051,9 | 420,3 | 107,2 dəfə |
| Pərakəndə əmtəə dövriyyəsi | 1108699,1 | 36511,2 | 30,4 dəfə |
| Əhaliyə göstərilən pullu xidmətlər | 180737,6 | 3837,7 | 47,1 dəfə |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 511988,9 | 19024,0 | 26,9 dəfə |
| O cümlədən ixracın ümumi həcmi | 402415,6 | 1937,0 | 207,8 dəfə |
| Əhalinin gəlirləri | 1737057,9 | 31538,9 | 55,1 dəfə |
| Hər bir nəfərə düşən gəlirlər, manatla | 4027,5 | 94,2 | 42,8 dəfə |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manatla | 376,6 | 15,9 | 23,7 dəfə |

Son 18 ildə 382 yeni sənaye müəssisəi işə başlayıb.

Sovetlər birliyinin iqtisadiyyatı siyasiləşdirməsi nəticəsində Naxçıvanda istehsal infrastrukturunun xammal mənbəyinə yaxın olması prinsipi də

pozulurdu. Belə ki, Neft Bakıda istehsal olunur, başqa şəhərlərdə emal olunurdu. Pambıq Azərbaycandan, Özbəkistandan alınıb İvanovkada istehsal olunurdu. Daşkəsən filizi Rustavidə istehsal olunurdu. Bu həm məhsulun maya dəyərini artırırdı, həm də istehsal prosesi uzanır, keyfiyyətə mənfi təsir edirdi. İndi isə xammal mənbəyi – məhsul istehsal edən məkan onu emal edən məkana yaxınlaşdırılmışdır. Beləliklə, daşınma xərcləri, yeni iş yerləri, məhsulun keyfiyyəti kimi məsələlər həll edilir və yeni müəssisələrin açılmasına səbəb olur. Məsələn, əgər 1996-cı ilin əvvəlində Muxtar Respublikada 56 sənaye müəssisəsi var idisə 2014-cü il yanvarın 1-ə qədər bu müəssisələrin sayı 8 dəfə artaraq 438-ə çatmışdır.

2005–2013-cü illərdə sənaye sahəsində sahibkarların fəallığını artırmaq üçün onlara 70 milyon manatdan artıq güzəştli kreditlər verilmişdir. Təkcə 2013-cü ildə bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə 9 milyon 966 min manat kredit verilmişdir. Bu, 1995-ci il ildə sahibkarlara buraxılmış krediti 323 dəfə üstələmişdir.

Sənaye sahəsində yeni iş yerlərinin açılması üçün göstərilən səylər nəticəsində 18 il ərzində ümumiyyətlə 11 mindən çox yeni iş yerləri açılmışdır. İndi Muxtar Respublikanın sənaye müəssisələrində 15385 nəfər çalışır ki, bu da 1996-cı ilin yanvarın birinə olan vəziyyətlə müqayisədə 8 dəfə çoxdur.

Muxtar Respublika rəhbərliyinin səyi təkcə yeni iş yerlərinin açılması ilə bitmir, işçilərin əmək haqlarının

artırılması da daim diqqət mərkəzində olmuşdur. Hazırda sənaye sahəsində çalışanların orta aylıq əmək haqqı 356,3 manat olub, 1995-ci ildəki əmək haqqından 35 dəfə çoxdur.

Son 18 ildə Naxçıvan elektrik idxal edən ölkədən elektrik ixrac edən ölkəyə çevrilmişdir.

Əgər 1996-cı ildə naxçıvana bütövlükdə 525 milyon kilovat-saat elektrik enerjisi daxil olurdusa, 2013-cü ildə 339 milyon kolavat-saat eletrik enerjisi ixrac olunur. Bu, o deməkdir ki, Naxçıvan ən azı 525 milyon kilovat-saat öz daxili ehtiyacını ödədikdən sonra qalan 339 milyon kilovat-saat elektrik enerjisi xaricə çatır. Ötən 18 il ərzində Muxtar Respublikadakı elektrik enerjisi istehsal edən müəssisələrin sayı 7 dəfə artırılmışdır. Ötən 18 il ərzində aşağıdakı elektrik stansiyaları tikilmişdir.

1. Naxçıvan modul elektrik stansiyası 87 meqavatlıq.

2. Biləv su-elektrik stansiyası 22 meqavatlıq.

3. "Arpaçay-I" su-elektrik stansiyası 20,5 meqavatlıq.

4. "Arpaçay-II" su-elektrik stansiyası 1,4 meqavatlıq.

5. Heydər Əliyev su anbarı üzərindəki “Arpaçay-I” su-elektrik stansiyası 4,5 meqavatlıq.

6. Naxçıvan Qaz-Turbin elektrik stansiyası.

7. Ordubad “Arpaçay-I” su-elektrik stansiyası 36 meqavatlıq.

2013-cü ildə Muxtar Respublikada 742 milyon KVT saat elektrik enerjisi istehsal edilmişdir.

Əhalinin güzəranı da yaxşılaşmaq istiqamətində inkişaf edir. Belə ki, 2013-cü ildə əhalinin şəxsi vəsaiti hesabına 358 min kvadratmetr yaşayış sahəsi tikilmişdir. Bu, 1995-ci il göstəricisindən 21 dəfə çoxdur.

Bütün Muxtar Respublika ərazisində əhalinin su təminatı yaxşılaşmaq istiqamətində inkişaf edir. 2014-cü ilin yanvarın birinə qədər Naxçıvan su ambarı və su təmizləyici qurğular kompleksinin tikintisi başa çatdırılmışdır. Göstərilən tarixə qədər 218,4 kilometr uzunluğunda içməli su xətləri çəkilmişdir. Layihəyə görə 19 subartezian quyusunun tikintisi davam edir.

Son 18 ildə hərbi quruculuq üzrə 183 obyekt inşa olunmuşdur. Ötən on səkkiz ildə Muxtar Respublikanın təhlükəsizliyinin təmin edilməsi istiqamətində xeyli işlər görülmüşdür. Belə ki, 18 qərargah binası, səfərbərlik və hərbi xidmətə çağırış, hərbi prokurorluq orqanları və hərbi hissələrin bölük mərkəzləri üçün 14 bina, 28 zabit və əsgər

yataqxanası, 20 yeməkxana, 22 yaşayış binası, 4 tədris binası, 1 orta məktəb, 2 uşaq bağçası, 4 xəstəxana, 6 tibb məntəqəsi, 3 klub və 62 müxtəlif təyinatlı obyekt tikilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikasında aparılan aqrar siyasət Naxçıvanda Vasif Talıbovun şəxsində reallaşdırılır. Məlumdur ki, Azərbaycan iqtisadiyyatının bel sütunu neft sektorudur. Amma ulu öndər belə bir iqtisadi istiqamət müəyyənləşdirmişdir ki, Azərbaycanın neft sektorundan asılılığını getdikcə azaltmaq lazımdır. Bunun üçün əsas istiqamət aqrar sektorun inkişafına yönəldilməlidir. Bu siyasət 2003-cü ildən Azərbaycan Prezidenti Ilham Əliyev tərəfindən də ardıcıl şəkildə həyata keçirilir. Prezidentin ölkədə aqrar sektorun inkişafı üçün gördüyü məqsədyönlü tədbirlər öz yüksək və real nəticələrini verməkdədir. İndi Azərbaycan ən mühüm kənd təsərrüfatı məhsulları ilə özünü tam təmin etməkdən əlavə, meyvə, bostan məhsulları və s. ixrac edir.

Naxçıvanda da bu siyasət ardıcıl olaraq dönmədən həyata keçirilir. Bunun nəticəsidir ki, Muxtar Respublikada kənd təsərrüfatı məhsullarının ümumi həcmi 18 ildə 9 dəfə artmışdır. Bu, Naxçıvanı bir muxtar diyar olaraq qonşu ölkələrin asılılığından qurtarmışdır. Bu aqrar sahədə kompleks islahatların və tədbirlərin həyata keçirilməsi sayəsində mümkün olmuşdur. Aqrar sektorda özəl təsərrüfatçılığa, sahibkarlığa verilən müstəqillik və dəstək də bu sahədə qazanılan uğurlara səbəb olmuşlar. Ölkədə

yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət tərəfindən edilən yardımların artırılması, gübrələrin vaxtında alınaraq sahibkarlara əlverişli-güzəştli qiymətlərlə satılması, Yeni Suvarma sistemlərinin yaradılması və s.

Aqrar istehsalın inkişafına əsaslı stimul və təkan verilmişdir. Bütün bunlar Muxtar Respublikada dövlətin apardığı siyasətin tərkib hissələridir. Naxçıvanda 20–2010-cu illər üzrə kartofçuluğun inkişafı, 2008–2015-ci illərdə Naxçıvan muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair, habelə 2012–2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramları həlledici rol oynamışdır. Bunu xüsusi qeyd etmək lazımdır ki, Naxçıvanın son 18 ildəki uğurlarının hamısı Respublikamızın möhtərəm Prezident İlham Əliyev cənablarının dəstəyi sahəsində mümkün olmuşdur. Naxçıvanın bütün sahələrdəki inkişafı cənab İlham Əliyevin gündəlik qayğı və diqqətinin nəticəsidir desək yanılmarıq. Amma bu işə güclü təkan verən yerli təşəbbüsləri də lazımınca dəyərləndirmək gərəkdir. Bu işlərin isə bilavasitə təşəbbüskarı və icrası Muxtar Respublika rəhbərinin yorulmaz fəaliyyəti ilə bağlıdır. Ardıcıl olaraq aparılan belə məqsədyönlü tədbirlərin nəticəsində – habelə Dövlət Proqramlarına uyğun olaraq əkinə yararlı torpaqlar tam şəkildə əkin dövriyəsinə daxil edilmiş 2013-cü ildə 60 min 127 hektar sahədə əkin

işləri aparılmışdır ki, bu 1995-ci ilin məhsul üçün əkilən sahədən 2,4 dəfə çoxdur. Bunun nəticəsində 1995-ci ilə nisbətən 2013-cü ildə taxıl istehsalı 4,4 dəfə artmışdır.

2005–2010-cu illər üzrə Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişaf etdirilməsi üzrə Dövlət Proqramının həyata keçirilməsi nəticəsində bu sahədə böyük uğurlar əldə edilmişdir. Davamlı inkişafın nəticəsi olaraq 2013-cü ildə 2957 hektar sahədə kartof əkilmiş və sahələrdən 41296,8 ton məhsul yığılmışdır ki, bu da 1995-ci ildəki göstəricidən 103 dəfə çoxdur.

Kənd təsərrüfatı məhsulu dedikdə hər şeydən əvvəl çörək-taxıl yada düşür. Vətənin güclü olmasını vaxtilə çörəyin bol olması ilə ölçürdülər. O ölkə daha çox müstəqil hesab olunur ki, özünü çörəklə təmin etmiş olsun. Naxçıvan bu sahədə böyük uğurlar əldə etmişdir. Belə ki, 2013-cü ildə Muxtar Respublikada 102960 ton taxıl, 66497 ton tərəvəz, 39038 ton bostan məhsulları, 58388 ton meyvə və giləmeyvə istehsal olunmuşdur. Bu rəqəmlər 1995-ci ildəki göstəricilərlə müqayisə edildikdə aydın olur ki, müvafiq olaraq taxıl 4,4 dəfə, tərəvəz 51,4 dəfə, bostan məhsulları 97 dəfə, meyvə 3,1 dəfə çoxalmışdır.

Bunun nəticəsidir ki, 2013-cü ildə xarici ölkələrə və respublikamızın digər bölgələrinə 94 milyon 120 min ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulları göndərilmişdir.

Aqrar sektorun mühüm sahələrindən biri də heyvandarlıqdır. Çünki heyvandarlıq məhsulları əhalinin gündəlik qida tələbat rejiminə daxildir. Bu problemi Muxtar Respublika rəhbərliyi həmişə diqqət mərkəzində saxlamışdır. Buna görə də heyvanların baş sayı artırılmış Muxtar Respublika əhalisinin ət, süd və başqa heyvandarlıq məhsullarına olan tələbatı yüksəlmişdir. Belə ki, 2013-cü ilin dekabrın 31-nə qədər Muxtar Respublikada bütün kateqoriyalarda qaramalın sayı 106 min 215 baş, qoyun və keçilərin sayı 635 min 465 baş olmuşdur ki, bu göstərici 1996-cı ilin yanvarın 1-nə olan göstəricilərlə müqayisədə müvafiq olaraq 1,9 və 2,3 dəfə çoxdur.

Heyvandarlıqda baş sayının artımı, habelə qaramalın cinsinin yaxşılaşdırılması nəticəsində heyvandarlıq məhsulları da diqqət çəkici dərəcədə artmışdır. Belə ki, 2013-cü ildə Muxtar Respublikada diri çəkidə 19501,9 ton ət, 7861,3 ton süd, istehsal olunmuşdur ki, bu da 1995-ci illə müqayisədə müvafiq olaraq 19, və 2,3 dəfə çoxdur.

Bu möhtəşəm yüksəliş illərində 60 yeni quşçuluq, 11 balıqçılıq təsərrüfatı istifadəyə verilmişdir.

Bazarlarda məhsul bolluğu yaranmışdır. 2013-cü ildə Muxtar Respublikada ümumiyyətlə 337 milyon 127 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 1995-ci illə müqayisədə 8,7 dəfə çoxdur.

Su anbarları vasitəsilə suvarılan torpaqların ümumi sahəsi 16830 hektara çatmışdır.

Son 18 ildə muxtar respublika ərazisində təkcə dövlət strukturlarının dəstəyi ilə 11782 hektar sahədə yaşıllıqlar-meşə massivləri, meyvə bağları, yaşıllıq zolaqları salınmış, meşəbərpa işləri aparılmışdır.

Xüsusi mühafizə statuslu təbiət obyektlərinin yaradılması təbiət komplekslərinin, flora və fauna ehtiyatlarının qorunmasına, bərpasına, ekoloji balansın tarazlaşmasına müsbət təsir göstərmişdir. Muxtar respublikada təbiəti mühafizə tədbirlərinin əhatə dairəsi və ardıcıllığı fauna ehtiyatlarının artmasına müsbət təsir göstərmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair "Qırmızı kitab"ların hazırlanması sayı azalmaqda olan növlərin qorunub saxlanmasına və artırılmasına, xüsusi qaydada mühafizə edilməsinə geniş təminat yaratmışdır.

Muxtar Respublikada informasiya texnologiyaları sahəsində də çox iş görülmüşdür. Yeni nəsil telekommunikasiya səbəkəsinin istifadə verilməsi "Kanal-35" televiziyasının və "Naxçıvanın səsi" radiosunun fəaliyyətə başlaması Naxçıvanda bu sahə ilə əlaqədar təşkilatların son texnika ilə təmin edilməsi maddi texniki bazasının genişlənməsi bu qəbildəndir.

Habelə Naxçıvan Dövlət Universitetinin müstəqil universitet televiziyasının, "Naxçıvan" radiosunun yeni studiyalara köçməsi bu qəbildəndir.

Sonrakı illərdə ilk növbədə hava nəqliyyatının işinin gücləndirilməsi, qonşu xarici ölkələrin ərazisindən tranzit istifadə imkanlarının genişləndirilməsi istiqamətində irimiqyaslı layihələrin icrası bu istiqamətdə əhəmiyyətli dönüşə səbəb oldu. Ötən dövr ərzində blokada vəziyyəti ilə bağlı çətinlikləri aradan qaldırmaq və nəqliyyat infrastrukturunu müasirləşdirmək sahəsində əsaslı tədbirlərə uyğun olaraq Naxçıvan Beynəlxalq Hava Limanının, Sədərək, Culfa və Şahtaxtı sərhəd-keçid komplekslərinin, Culfa və Şahtaxtı sərhəd keçid Məntəqələrində yeni körpülərin istifadəyə verilməsi. "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus və yeni hava nəqliyyatı marşrurlarının açılması nəqliyyat əlaqələrinin genişlənməsində mühüm mərhələ olmuşdur.

Son 18 ildə muxtar respublikada 3526 kilometr uzunluğunda yeni avtomobil yolları salınmış və ya əsaslı təmir olunmuş, 5 yeni avtovağzal kompleksi inşa olunmuşdur. Digər tərəfdən bu müddət ərzində dəmiryolu nəqliyyatının gələcək inkişaf perspektivləri nəzərə alınaraq infrastrukturu davamlı olaraq təkmilləşdirilmiş və muxtar respublika daxilində ahəngdar işi təmin edilmişdir. 1995-ci illə müqayisədə 2013-cü ildə yük daşınması 24 dəfə, sərnişin daşınması isə 4 dəfə artmışdır.

Bir neçə konkret rəqəmə diqqət edək:

-Sahibkarlığa kömək fondu tərəfindən son on il ərzində 100 milyon manatdan artıq həcmdə kredit verilmişdir.

-Son 18 ildə Muxtar Respublikada 79148 yeni iş yeri açılmışdır.

-18 il bundan əvvəlkinə nisbətən muxtar Respublikanın ixrac potensialı 208 dəfə güclənmişdir.

-2013-cü ildə Muxtar Respublikaya ümumilikdə 370 min 638 nəfər turist gəlmişdir. Bu, 1995-ci illə müqayisədə 10 dəfə çoxdur.

-Əhalinin sağlamlığı diqqət mərkəzində olmuşdur. 173 səhiyyə obyekti tikilmiş, 51 səhiyyə oğacı yenidən qurulmuşdur.

-Ötən 18 il ərzində Muxtar Respublikada sosial müdafiəyə ehtiyacı olan əhali qrupuna yönəldilmiş xüsusi dövlət qayğısı prioritet istiqamət kimi saxlanılmış, Azərbaycan Vətən Müharibəsi, 1941-1945-ci illər müharibəsi əlillərinə və Çernobıl Atom Elektrik Stansiyasındakı qəzanın ləğvi zamanı əlil olanlara 349 ədəd avtomobil verilmiş, 188 əlil və şəhid ailəsi mənzil və fərdi yaşayış evləri ilə təmin olunmuşdur. Bu dövr ərzində ehtiyacı olan 4065 əlilə müxtəlif texniki reabilitasiya vasitələri verilmiş, protez-ertopedik məmulatlara ehtiyacı olan 2371 nəfərə xidmət göstərilmiş, respublikanın müxtəlif sanatoriyalarında müalicə olunmaları üçün 1917 nəfər sanatoriya və pansionatlara göndərişlərlə təmin olunmuşdur. Bundan əlavə, ötən dövr ərzində muxtar respublikada sosial layihələr çərçivəsində əhali

sağlamlığının qorunması istiqamətində tədbirlər görülmüş, minlərlə xəstənin müayinəsi, müalicəsi və ya cərrahı əməliyyatları təşkil olunmuşdur.

-Son 18 ildə Muxtar Respublika əhalisinin sayı 98 min nəfər artaraq 435 min nəfərdən çox olmuşdur.

Naxçıvanın bugünkü sürətli yüksəlişini görən hər bir yurdsevər insan ulu öndərin aşağıdakı sözlərini xatırlayır: *"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".*

Hamı xatırlayır və dərindən təəssüf ahı çəkib köks ötürür ki, *"Kaş ulu öndər sağ olaydı, bugünkü, gözəl, aləmə səs salan Naxçıvanı görəydi!"*

# SON SÖZ ƏVƏZI

Möhtərəm oxucu, əlində tutduğun maraqla, həvəslə, doğma yurda məhəbbətlə yazılmış kitabı sona çatdırdığın üçün Sənə təşəkkür edirəm. Bilirəm, səni bu kitabı oxumağa təşviq edən Azərbaycanımızın qədim və gözəl güşəsi olan Naxçıvana olan dərin məhəbbətin oldu. Elə məni də uzun müddət material toplamağa, arxivlərdən sənədləri axtarıb tapmağa, günlərlə-aylarla həmin məlumatları sistemləşdirməyə, dəyərləndirməyə sövq edən doğma diyarıma olan məhəbbətim idi. Mən inanıram ki, vətənimizin – doğma yurdumuzun belə yüksək templə yüksəlməsinin memarı ulu öndər Heydər Əliyev, bu yüksəlişin hamisi Respublikamızın möhtərəm Prezidenti cənab İlham Əliyev və bu möhtəşəm inkişafın bilavasitə icraçısı və rəhbəri cənab Vasif Talıbov olduğu üçün onların hər üçünə qəlbində dərin təşəkkür edirsən. Elə mən də!

Mən doğma diyarımızda gedən böyük yüksəlişi görəndən bu kitabı görmüşdüm. Ona görə də, daxildən sanki "Möhtəşəm 18 il" adlı kitab yaz – deyən bir hökm eşidirdim. İndi həmin daxili hökmü yerinə yetirərək bu kitabı yazdım. Səndən də xahiş edirəm bu kitabı məhəbbətlə oxuyub qurtaranda pıçıltı ilə mənə "Sağ ol" deyərsən. Çünki buradakı sözlər, söz birləşmələri. Cümlələr heç kəs təşviqi deyil, öz qəlbimin hökmüdür.

Bir daha sağ olun…

Əziz oxucu, müxtəlif maneələr səbəbindən 2013-də kitabı çap etmək mümkün olmadı. Amma doğma yurdumuzda inkişaf tempi davam etməkdədir. Bəzi sahələr haqqında 2020-ci ilə qədər inkişaf tempi haqqında olan rəqəmləri əlavə edirəm. Bu rəqəmlər hər şeyi deyir.

**Naxçıvan Muxtar Respublikası üzrə 1 yanvar 1995-ci ildən 1 yanvar 2020-ci il tarixədək istifadəyə verilmiş obyektlər**

| Sıra sayı | Obyektin adı | Cəmi istifadəyə verilmiş obyektlər | o cümlədən | |
|---|---|---|---|---|
| | | | tikilən obyektlər | yenidən qurulan və ya əsaslı təmir olunan obyektlər |
| 1 | Elm və təhsil ocağı | 409 | 226 | 183 |
| | ondan ümumtəhsil məktəbi | 294 | 169 | 125 |
| 2 | Mədəniyyət obyekti | 520 | 324 | 196 |
| 3 | Səhiyyə obyekti | 297 | 230 | 67 |
| 4 | İdman obyekti | 54 | 26 | 28 |
| 5 | İnzibati bina | 602 | 320 | 282 |
| | ondan şəhər, qəsəbə və kənd mərkəzləri | 166 | 138 | 28 |
| 6 | Mənzil təsərrüfatı üzrə obyekt | 740 | 56 | 684 |
| 7 | Kommunal infrastruktur obyekti | 646 | 451 | 195 |
| 8 | Nasos stansiyası | 172 | 58 | 114 |
| 9 | Subartezian quyusu | 421 | 302 | 119 |
| 10 | Körpü | 187 | 108 | 79 |

| | | | | |
|---|---|---|---|---|
| 11 | Əlil, məcburi köçkün, qaçqın və şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün ev | 533 | 512 | 21 |
| 12 | İstehsal, xidmət və digər infrastruktur obyektləri | 6812 | 4776 | 2036 |

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. Alıyev N. Müqəddəs peyğəmbər gəmisi. AMEA Naxçıvan bölməsi xəbərləri. 2005, səh.39-46.
2. ASE. VI cild. B., 1982.
3. «Azərbaycan qəzeti», 1995, 16 avqust.
4. «Azərbaycan qəzeti», 1995, 5 avqust.
5. Babayev Adil. Azərbaycan dilçiliyinin tarixi. B., 1997.
6. Babayev Adil. Dilçiliyə giriş. B., Nurlan, 2004.
7. Baxşəliyev V. Gəmiqaya təsvirləri. B., 2003.
8. Baxşəliyeva G. Orta əsrlər Ərəb mənbələrində Naxçıvan haqqında məlumatlar. "Nuh Peyğəmbər, dünya tufanı və Naxçıvan". Beynəlxalq Simpozium Materialları (24-25 aprel 2009). Naxçıvan, 2010, səh.214-219.
9. Cəfərov N.Q. Türk xalqlarının ədəbiyyatı. B., 2006.
10. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyəti tarixi. B., 1998.
11. Əliyev V. Qədim Naxçıvan. B., Elm, 1979.
12. Nacıyev I. "Tarixi mənbələr Naxçıvan şəhərindəki Nuh türbəsi haqqında". "Nuh peyğəmbər, dünya tüfanı və Naxçıvan". Naxçıvan, 2010.
13. Həbibbəyli I. Nuhun qəbri haradadır? "Şərq Qapısı" qəzeti, 1991, 6 fevral.

14. Həbibbəyli I. Nuhsıvan-Naxçıvan. "Şərq Qapısı" qəzeti, 2009, 15 aprel.
15. Həbibbəyli I. Nuh peyğəmbər və dünya tüfanı toplusu. "Nuh peyğəmbər, dünya tüfanı və Naxçıvan". Naxçıvan, 2010.
16. Həsənov Əli, Aydın Minzəzadə. Yeni Azərbaycan Partiyası. B., 2002.
17. Hüseynli N., Məmmədova I. Türk dillərinin geneologiyası. B., 2007.
18. Qasımov C. Repressiyadan deportasiyaya doğru. B., 1988.
19. Qeybullayev Q. Azərbaycanlılarn etnik tarixinə dair. B., Elm, 1994.
20. Qədirzadə Q. "Nuh peyğəmbər, dünya tüfanı və Naxçıvan". Naxçıvan, Qızıl dağ, 2008.
21. Quliyev Ə.M., Quliyev A.Ə. "Türk oğlu 17-ci hücuma hazır ol". B., 2003.
22. Quliyev Ə. Nuhun gəmisi haradadır? "Elm" qəzeti, 2005, 20 fevral.
23. "Qurani-Kərim" (Tərcümə: Ziya Bünyadov və V.Məmmədəliyev). B., 1991.
24. Mahmudov Y. Dünya tarixində Naxçıvan: Yer kürəsində həyatın başlandığı yer. "Nuh peyğəmbər, dünya tüfanı və Naxçıvan". Naxçıvan, 2010, səh.17-29.
25. Məmmədov Çingiz. "Naxçıvan MK-da Nuh Peyğəmbərin məzarüstü türbəsi bərpa ediləcəkdir". "Şərq qapısı" qəzeti 08.08.2006, №121, Izvestiə, 07.09.2006, №120.

26. “Müxalifət” qəzeti №115, 23 oktyabr 1992.
27. Naxçıvan MR Ali məclisi. Rəsmi sənədlər (1996-2011). Naxçıvan.
28. Naxçıvan ensiklopediyası. II cild. Naxçıvan 2005.
28[a]. Naxçıvan tarixi. I sild. Naxçıvan “Əcəmi” nəşriyyatı, 2013.
29. Naxçıvan MR 75 illiyinə həsr edilmiş təntənəli iclasda Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun məruzəsi. Naxçıvan MR Ali Məclisi, Rəsmi sənədlər, 1999.
30. Naxçıvan MR Ali Məclisi, Rəsmi sənədlər, 2012-2013.
31. Nəzirli Şəmistan. Cümhuriyyət generalları. B., 1995.
32. Nuh peyğəmbər, dünya tüfanı və Naxçıvan. Naxçıvan, 2010.
33. “Nuh peyğəmbər, dünya tüfanı və Naxçıvan” mövzusunda keçirilən beynəlxalq simpoziumda Naxçıvan MR Ali Məclisinin sədri V.Talıbovun çıxışı. “Nuh peyğəmbər, dünya tüfanı və Naxçıvan”. Naxçıvan, 2010, səh.10-16.
34. Rəcəbli Ə.Ə. Göytürk dilinin morfologiyası. B., ADU nəşri, 2001.
35. Səmyuel A. UJMZ. Ermənistan terrorçu “Xristian ölkənin gizlinləri” (tərcümə edən Z.A.Ağayev). B., 2004.
36. “Sərhəd” qəzeti, 17 aprel 1999.

37. Seyidov Abbas. Naxçıvanın qədim tarixi (V.Baxşəliyevlə). B., 1995.
38. Şükürlü Əlisa. Qədim türk yazılı abidələrinin dili. B., Maarif, 1996.
39. "Şərq qapısı" qəzeti, 2 iyun 1998.
40. "Şərq qapısı" qəzeti, 14 avqust 2007.
41. Vəlixanlı N. VII-XII əsrlər tarixinin tarixşünaslığına dair. "Şərq qapısı" qəzeti, 28 iyul 2006, №135.

**Rus dilində**

42. Гейбуллаев Г.А. К этногенезу Азербайджанцев. 1991.
43. Иванов Р.Н. Наществие. М., 2009.
44. Корш Ф.М. Древнейший народный стих тюркских племен. ЗВОРАО. Т.XIX, СПб. 1909.
45. Крамер С.Н. История начинается в шумеге из-во наука. М., 1965.
46. Мамедов Т.М. Албания и Атропатена по древним албанским источникам. Б., Элм, 1977.
47. Меликсетбеков Л.М. Академик Н.Я.Марр и его Яфитеческая теория. Тифлис, 1926.
48. Мещанинов И.И. Яфетическая теория. БСЭ (первое издан.). М., 1961, том.55, Столб.8109-21, стр.809.

49. Мещанинов И.И. Яфетидалогия и марксизм. Доклад проф. И.И.Мещанинова 18 октября 1929 г. Из-во Аз.ГНИИИ. Б., 1930.
50. Мещанинов И.И. Краткие очерки основных положений в яфетидологии. Из-во Общество обследования и изучения Азербайджана. Том 9, 1926, стр.63-76.
51. Стеблева Н.В. Поэзия тюрков VII-VIIв. М., 19565.
52. «Театральная жизнь» 1990, №4.
53. Томнеев И. Кровавый омут карабаха. Б., 1992.
54. Флавий П. Иудейские древности (Перевод с греч. Языка Генкеля Г.Г.) СПб. 1900.
55. Шахаб ад-Дин Мухамед ан-Насави. Жизнописание Султана Джалаладдина Манкибурны (перевод с арабского языка З.М.Бунятов). Б., 1973.
56. Ямполский З.И. Материалы о происхождении азербайджанского народа. Изв. АН АзССР. 1996, №1, стр.93-101.

**Türk dilində**

57. Atatürkün milli dış politikası. Kültür bakanlığı. Ankara, 1981.
58. Celiloğlu A. Sumerçe keçin olaraq türk dilidir. Istambul, 2001.
59. Kalafat Yaşar. Qantura ogulları ve tufan mərkəzi ümumtürk tarıhi. “Nuh peyğəmbər,

dünya tüfanı və Naxçıvan” Beynəlxalq Simpozium materialları. “Naxçıvan Əcəmi” nəşri, 2010, səh.30-39.
60. Kaya H., Bektaşi Ə. Türkiyə. Istanbul, 1996.
61. Ocal Turqut. Nuh Tufanı Naxçıvan (Gemiqaya) ve Ağrı dağı. “Nuh peyğəmbər, dünya tüfanı və Naxçıvan”. Naxçıvan, 2010, səh.250-261.
62. Muazzez Ilmiye Çığ. Uyğurların kökeni Şumerler. Istambul, 2007.
63. Muazzez Ilmiye Çığ. Türk dili ve Kenger (Şumer) uyğurları hakkında (http//www.populertarih.com) türk dili ve Sumer uyğurları.

**Fars dilində**

64. Məhəmməd Ibn Hinduşah Naxçıvani. Dəstur əl-katib fi təyin Əl-məratib (nəşrə hazırlayan Ə.Əlizadə). M., 1971.

**Arxiv sənədləri**

65. Az1. Nax.MSSR MDA, F.314, siy.5, Iş 16, v.30.
66. Az2. Nax.MSSR MDA, F.40, siy.4, Iş 28, v.30.
67. Az3. Azərbaycan SSR OISQ MDA, F.379, siy.3, səh.80-85.
68. Əlavə 2013-cü ildə Naxçıvan MR sosial inkişafının xülasəsi. Naxçıvan, 2014.

# KİTABIN İÇİNDƏKİLƏR

**Ön söz əvəzi** *(Xoşbəxtlik haqqında düşüncələr)*......................................................5

**I Hissə. İlk insan məskəni Naxçıvan bütöv Azərbaycanın tərkib hissəsidir......................11**

Naxçıvan Sovet dönəmində..............................40

*Xalqın düşmənləri "Xalq düşmənləri"ni məhv edir*..........................................................51

Naxçıvan 1969 –1993-cü illərdə......................92

Naxçıvan müstəqil Azərbaycan Respublikası yaradılmasının ilk carçısıdır. Heydər Əliyev Naxçıvanda...................................................132

**II Hissə. Naxçıvan tarixinin Vasif Talıbov dövrü.......................................................140**

Vasif Talıbovun keçdiyi dövlətçilik məktəbi.........................................................148

Naxçıvanın mükəmməl tarixinin öyrənilməsi və hazırlanmasında Vasif Talıbovun rolu...........................................................153
*A. “Uluslararası qaynaqlarda Naxçıvan” Beynəlxalq Simpoziumu..................................156*
*B. “Əshabi-Kəhv” ziyarətgahının bərpası.....164*
*C. Nuh Peyğəmbər və Naxçıvan.....................174*
*Ç.Naxçıvan tarixinin yazılması......................196*
Milli-mənəvi və dini dəyərlərin bərpası və qorunması.....................................................199
Böyük şəxsiyyətlərin yubileyləri....................260
Vasif Talıbov və ədəbiyyatımızın inkişaf problemləri..................................................295
18 ildə Naxçıvanda elm və təhsilin inkişafı………...........................................332
18 ildə Naxçıvanda maarif və mədəniyyətin inkişafı…...................................................367
Son 18 ildə Naxçıvanda səhiyyə işinin təşkili və inkişafı...........................................................392

18 ildə Naxçıvanda bədən tərbiyəsi və idman problemləri.....................................................404
Naxçıvanda tikinti-abadlıq işləri……………..419
Vasif Talıbovun gənclər siyasəti……….........423
Vasif Talıbov və Naxçıvanda ordu quruculuğu………............................................442
Vasif Talıbov və Naxçıvanda hüquq-mühafizə sistemi........................................................462
Vasif Talıbov və Naxçıvanda partiya quruculuğu…………………………………474
Naxçıvanın beynəlxalq əlaqələri haqqında…..490
Möhtəşəm 18 ilin iqtisadi göstəriciləri……….515

Son söz əvəzi……………………….........530

**İstifadə olunmuş ədəbiyyat**…………………534

# ADİL BABAYEV

# ƏSƏRLƏRİ

ON YEDDİ CİLDDƏ

XV CİLD

# MÖHTƏŞƏM 18 İL

**Naşir:** Valeh Mayılov
**Korrektor:** Xanəhməd Novruzov

Çapa imzalanıb: 10. 05. 2023
Kağız formatı 60x84 1/16.
H/n həcmi: 34 ç.v.
Tiraj 25.

---

“MSV NƏŞR” MMC-nin mətbəəsində
çap edilmişdir.
Tel:. 012 539 54 69
Mob:. 055 640 00 94